MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ

*Əli Fərhadov*

# "AZƏRBAYCAN" QƏZETİNDƏ (1947-1949) PUBLİSİSTİKA, MƏDƏNİYYƏT VƏ İCTİMAİ-SİYASİ, İQTİSADİ MƏSƏLƏLƏR

Bakı-2024

*Milli Azərbaycan Tarixi Muzeyinin*
*Elmi Şurasının qərarı ilə nəşr olunur*

**Elmi redaktor:** tarix elmləri doktoru Nərgiz Əliyeva

**Əli Fərhadov. "Azərbaycan" qəzetində (1947-1949) publisistika, mədəniyyət və ictimai-siyasi, iqtisadi məsələlər. Bakı..., 2024, 320 s.**

Təqdim olunan monoqrafiyada Azərbaycan Demokrat Firqəsinin Bakıda nəşr olunmuş "Azərbaycan" qəzetinin (1947-1949) materialları əsasında Cənubi Azərbaycanda "21 Azər" hərəkatı, şah rejimi əleyhinə demokratiya uğrunda xalq mübarizəsi, dövrün ziyalıları, dövlət xadimləri, ictimai-siyasi, iqtisadi problemlər, milli maarifçilik, təhsil, mədəniyyət məsələləri və s. haqqında məlumat verilmişdir. Monoqrafiya mövzu ilə maraqlanan tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

# MÜNDƏRİCAT

Müəllifdən........................................................................ 4

Giriş ............................................................................... 6

**I Fəsil. Demokratik hərəkat və "Azərbaycan" qəzetinə gedən yol ........................................................ 31**

1.1. Cənubi Azərbaycanda demokratiya uğrunda mübarizə tarixindən ............................................ 31

1.2. "Azərbaycan" qəzetində (1945-1946) milli və ideoloji məsələlərə münasibət........................................ 51

1.3. Cənubi Azərbaycanda demokratik hakimiyyət (1945-1946) ........................................... 58

**II Fəsil. "Azərbaycan" qəzetində mətbuat və publisistika məsələləri................................................... 72**

2.1. Milli mətbuatda və publisistikada ideoloji məsələlər...................................................... 72

2.2. "Azərbaycan" qəzetində publisistik məsələlər və publisistlər .............................................. 99

2.3. "Azərbaycan" qəzetində İran mətbuatına münasibət ................................................. 130

**III Fəsil. "Azərbaycan" qəzetində Azərbaycan tarixinin və mədəniyyətinin əksi ......................................... 138**

3.1. Qədim və orta əsrlər dövründə Azərbaycan.................... 138

3.2. XIX-XX əsrin əvvəllərində Azərbaycan......................... 156

3.3. Pəhləvilər dövründə Azərbaycan ..................................... 167

**IV Fəsil. "Azərbaycan" qəzetində siyasi, ictimai və iqtisadi problemlərə münasibət ........................................... 193**

4.1. Pəhləvi hakimiyyəti nümayəndələrinə münasibət ........... 193

4.2. Pəhləvilər dövründə dini-siyasi məsələlər....................... 220

4.3. Milli hökumətin gənclər və hərbi vətənpərvərlik siyasəti ........................................................... 232

4.4. İctimai, iqtisadi problemlər və səhiyyə məsələsi............ 241

**Nəticə....................................................................... 269**

**Mənbələr və ədəbiyyat siyahısı ............................................. 273**

**Xülasə....................................................................... 314**

## MÜƏLLİFDƏN

Monoqrafiyada S.C.Pişəvərinin ilk rəhbəri olduğu Azərbaycan Demokrat Firqəsinin (ADF) orqanı olan "Azərbaycan" qəzetinin 1947-1949-cu il nömrələri əsasında Azərbaycan tarixinə, mədəniyyətinə, milli publisistikaya baxış təqdim edilib. Qəzet 1945-1946-cı illərdə Təbrizdə və ADF-nin məğlubiyyətindən sonra 1947-1949-cu illərdə Bakıda əski əlifba ilə Azərbaycan dilində nəşr olunmuşdur. Qəzetin 1945-1946-cı illərdə, ADF hakimiyyətinin süqutuna qədər 370 nömrəsi, 1947-1949-cu illərdə isə 128 nömrəsi çap olunmuşdur. Bizdə olan məlumata görə 1947-1949-cu il nömrələrinin yeganə nüsxəsini ehtiva edən toplu təkcə Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələrin elmi-fond şöbəsində qorunur (Milli Azərbaycan Tarixi Muzeyi..., SMF № 3347). Satınalma yolu ilə 2015-ci ilin dekabrında muzeyə daxil olan qəzetin bəzi səhifələri təəssüf ki, kəsilmişdir. Qəzetin 1948-ci il, 8 sentyabr, 24 noyabr və 15 dekabr tarixli nömrələrinin 1-ci vərəqlərinin yarısı kəsilmişdir. Qəzetin 1948-ci il, 8 sentyabr tarixli nömrəsinin birinci səhifəsində "Azərbaycan Demokrat Firqəsinin 3-cü ildönümü münasibətilə firqə üzvlərinin iştirakı ilə təşkil edilmiş təntənəli yığıncaq tərəfindən müxabərə olunmuş teleqraflar" (Azərbaycan Demokrat Firqəsinin 3-cü ildönümü.., 1948, 8 sentyabr, s.1) başlıqlı məqalənin mətni, həmin nömrənin "Kürdüstan" başlıqlı 2-ci səhifəsində Stalinə ünvanlanmış müraciətin mətni yoxdur. Həmçinin qəzetin 1948-ci il, 24 noyabr tarixli nömrəsinin 1-ci səhifəsində təbrizli marksist filosof Tağı Əraninin "Sülh və demokrasi uğrunda mübarizə bütün dünya cavanlarının müştərək hədəfidir" (Ərani, 1948, 24 noyabr, s.1) başlıqlı şüarının altındakı məqalə kəsildiyi

üçün yoxdur. Həmin nömrənin "Kürdüstan" başlıqlı səhifəsinin bir hissəsi də yoxdur. Qəzetin 1948-ci il, 15 dekabr tarixli nömrəsinin 1-ci səhifəsində "21 Azər"in 3-cü ildönümü münasibətilə təşkil edilmiş təntənəli yığıncaq haqqında Stalinə və M.C.Bağırova verilən xəbər haqqında məqalə və "Azərbaycan xalqının rəhbəri yoldaş Bağırova" adlı məqalənin əvvəli ("Azərbaycan", 1948, 15 dekabr, s.1) yoxdur. Həmin nömrənin "Kürdüstan" başlıqlı 2-ci səhifəsində "21 Azər"ə həsr olunmuş məqalənin bir hissəsi də yoxdur. Qəzetin 1948-ci il tarixli 63-cü nömrəsi ümumiyyətlə istifadə etdiyimiz topluda yer almayıb. Ümumilikdə "Azərbaycan" qəzetinin 1947-1949-cu il tarixli nömrələrini ehtiva edən toplu nadir nüsxə olduğuna görə dövrün Cənubi Azərbaycan və İran tarixini əks etdirmək baxımından müstəsna əhəmiyyətə malikdir.

"Azərbaycan" qəzetinin 1947-1949-cu nömrələrində Qacar və Pəhləvi hakimiyyətinə tənqidi münasibət, ictimai-siyasi, iqtisadi, mədəni proseslərə baxış, dövrün inqilabçı və ziyalılarının fotoşəkilləri, əsərlərindən nümunələr, Qacar və Pəhləvi dövlət xadimlərinin satirik təsvirləri, dünya və Azərbaycan ədəbiyyatının görkəmli xadimlərinin həyat və yaradıcılığından mümunələr, ADF-nin fəaliyyəti, sovet ideologiyasının, SSRİ rəhbərlərinin təbliği və s. məsələlər yer alır. Mövzunun ictimai-siyasi, sosial-iqtisadi cəhətdən geniş təqdimi üçün qəzetin 1945-1946-cı il nömrələrindən, dövrün sovet mətbuatından - "Kommunist", "Pravda", "İzvestiya" və s. qəzetlərdən, o cümlədən, dövrün tarixini işıqlandıran digər qaynaqlardan, S.C.Pişəvərinin, ADF xadimlərinin çıxış, məqalə və s. əsərlərindən, müxtəlif ədəbiyyatlardan, internet resurslarından istifadə edilib.

Təqdim olunan monoqrafiyanın ərsəyə gəlməsində verdikləri dəyərli tövsiyələrə, elmi məsləhətlərə görə əməkdaşı olduğum Milli Azərbaycan Tarixi Muzeyinin rəhbərliyinə və əməkdaşlarına təşəkkür edirəm.

# GİRİŞ

Azərbaycan tarixşünaslığında tədqiqi vacib sayılan ən aktual problemlərdən biri Cənubi Azərbaycan tarixinin və mədəniyyətinin tədqiqi, öyrənilməsi məsələsidir. Sovet hakimiyyəti dövründə, Sovet Azərbaycanının rəhbərlərindən biri olmuş M.C.Bağırovun Cənubi Azərbaycan milli hərəkatına dəstək olması ilə bu sahədə geniş araşdırmalar aparılmış, Ümummilli lider Heydər Əliyev Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə və daha sonraları Cənubi Azərbaycana diqqətini əsirgəməmişdi. Heydər Əliyevin israrlı təşəbbüsləri nəticəsində 1976-cı ildə "Cənubi Azərbaycan" adı elmi-siyasi məfhum kimi rəsmiləşdirildi. Azərbaycan Yazıçılar İttifaqında, AMEA-nın Ədəbiyyat və Şərqşünaslıq İnstitutlarında müvafiq şöbələr təsis edildi. Azərbaycan Yazıçılar İttifaqının orqanı olan "Azərbaycan" jurnalında "Cənubdan gələn səslər" adı altında silsilə yazılar dərc edildi. Balaş Azəroğlu, Qulam Yəhya Danişyan və digər cənublu ziyalılara, ADF-yə və üzvlərinə xüsusi diqqət göstərildi. Heydər Əliyev xarici diplomatlarla görüşlərində "İran Azərbaycanının geriliyini, yoxsulluğunu təəssüf hissi ilə qeyd edir, onun rifah və səadət içində yaşamasını və iki Azərbaycanın (milli-mənəvi) birliyini arzu edir"; "Arazın o tayında bizim milyonlarla bacı-qardaşlarımız yaşayır" deyirdi (Bayramzadə. Heydər Əliyevin...). Bu siyasətin nəticəsində cənublu mühacirlər Heydər Əliyevi şimal və cənubun lideri olaraq görürdülər.

Dövlət müstəqilliyinin bərpası, Azərbaycan tarixinin bütün dövrlərinə dair tədqiqatların, o cümlədən, Cənubi Azərbaycan tarixi ilə bağlı məsələlərin tədqiqi üçün geniş imkanlar açdı. Xüsusilə

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dünya azərbaycanlılarının hüquq və mədəniyyətinin qorunması istiqamətindəki çıxış və nitqləri tədqiqatçılar üçün əhəmiyyətli bir stimuldur. Cənab Prezident İlhan Əliyevin dünya azərbaycanlılarının hüquq və mədəniyyətinin qorunmasının vacibliyi mövzusundakı - «Biz taleyin hökmü ilə dövlətimizdən ayrı düşmüş azərbaycanlılara, həmçinin bizim qardaş türk dövlətlərinin digər xalqlarının dövlət sərhədlərinin hüdudlarından kənarda yaşayan çoxsaylı nümayəndələrinə kömək etmək, onların Azərbaycan dilini, Azərbaycan ənənələrini, Azərbaycan mədəniyyətini qoruyub saxlamaları, azərbaycançılıq prinsiplərinə sadiq olmaları və öz tarixi Vətəni ilə əlaqələri heç vaxt kəsməmələri üçün əlimizdən gələni edəcəyik" (Prezident İlham Əliyev...) sözləri bu istiqamətdə ziyalılara yol göstərir.

Tədqiqatımızın mövzusu "Azərbaycan" qəzetinin (1947-1949) materialları əsasında Cənubi Azərbaycanın tarixi və mədəniyyət olub, buna əsasən tədqiq edilmişdir. Bunun üçün Cənubi Azərbaycanın görkəmli ziyalılarının, publisistlərinin, elm və mədəniyyət, ictimai-siyasi xadimlərinin timsalında onların Cənubi Azərbaycandakı problemlərə baxışını, yaşadıqları dövrün ictimai-siyasi problemlərinə həll yolu olaraq təqdim etdikləri fikirlərini göstərməyə çalışacağıq. Şimali və Cənubi Azərbaycanın görkəmli xadimlərinin dövrün iqtidar sahibi olan Pəhləvi hakimiyyətinə münasibəti, hakimiyyətin xalqı itaətdə saxlamaq üçün istifadə etdiyi qeyri-demokratik metodlara, xurafat və mövhumata, mürtəce dini baxışlara qarşı mütərəqqi ziyalıların tənqidi münasibəti, bu ziyalıların xalqı demokratik, dünyəvi bir rejimə necə dəvət etmələri monoqrafiyada göstərilib.

Cənubi Azərbaycandan fərqli olaraq müasir Şimali Azərbaycan cəmiyyəti tolerant, demokratik dəyərlərə malik, söz və vicdan azadlığının, etiqad hürriyyətinin sərbəst olduğu bir şəraitdə, azad və müstəqil bir dövlətdə yaşadığı üçün cənab İ.Əliyevin dediyi kimi "bundan böyük xoşbəxtlik, bundan böyük dəyər ola bilməz"

(Hüseynova, 2004, s.142). Azərbaycan Xalq Cümhuriyyətindən bizə əmanət qalan üç rəngli müqəddəs bayrağımız xalqımızın milli-dini və ümumbəşəri dəyərlərə necə hörmətlə yanaşdığının, onları necə mənimsədiyinin sübutudur. Lakin bu dəyərlərin mənimsənilməsi birdən-birə formalaşmamış, əsrlərlə Rusiyanın işğalı altında qalmalarına baxmayaraq Şimali Azərbaycanın maarifçi ziyalıları, din xadimləri, xeyriyyəçiləri azadlıq yolunda xeyli əmək sərf etmişdirlər. Cənubi Azərbaycan ziyalıları da xalq hakimiyyəti, demokratik dəyərlər və milli azadlıq uğrunda uzun əsrlər mübarizə aparmış, lakin təəssüf ki, bu nəticəsiz qalmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan tarixin müxtəlif dövrlərində müxtəlif imperiyaların tərkibində olmuş və zəngin tarixi yol keçmiş, sosial-siyasi həyatında mühüm hadisələr baş vermişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövrünü çıxmaq şərtilə təxminən iki yüz illik Rusiya əsarəti Şimali Azərbaycan əhalisinin dini və dünyəvi hüquqlarının tapdalandığı bir dövr olmuşdur. XIX əsrin başlarından etibarən vahid bir xalqın ikiyə bölünməsi və bir-birindən xeyli fərqlənən ictimai-siyasi və mədəni inkişaf yoluna düşməsi böyük faciələr yaratdı. Cənubi Azərbaycan əhalisi əvvəlcə Qacarların tərkibində şah rejiminin və feodalizmin istismarı altında, daha sonra isə Pəhləvi hakimiyyətinin şovinist farspərəst siyasəti və diktaturası altında yaşamağa məcbur oldu. Çar Rusiyası və daha sonra Sovet Rusiyası işğal etdiyi Şimali Azərbaycan əhalisini istismar və assimilyasiya etdiyi kimi, Pəhləvi hakimiyyəti də Cənubi Azərbaycan əhalisini qul vəziyyətində saxlamaq və milli-mənəvi xüsusiyyətlərini yox etmək siyasətini icra etdi.

Təbii ki, bu dövrdə Cənubi Azərbaycanın həqiqi ziyalılarının, öz xalqı üçün qələmlə, sözlə savaşan, lazım gəldiyində öz canını da qurban verən mütəfəkkirlərinin əsərləri qəsdən yox edilməyə, unutdurulmağa çalışılmış, təhrif edilmiş, qərəzli şəkildə onların əsərləri "pantürkizm", "separatçılıq" damğaları ilə xalqın gözündən salınmağa cəhd edilmişdir. Eyni zamanda bu ittihamlarla minlərlə Cənubi Azərbaycan ziyalısı, öz xalqı üçün, millətinin

azad, xoşbəxt, digər millətlərlə bərabərhüquqlu yaşaya bilməsi üçün mübarizə aparan bir çox mütəfəkkir, inqilabçı, fədai fiziki cəhətdən məhv edilmiş, sürgünlərdə çürüdülmüş, maddi-mənəvi təzyiqlərlə yox edilməyə, susdurulmağa çalışılmışdır.

Bu kimi faciəvi hadisələrə qarşı Cənubi Azərbaycan əhalisini milli-demokratik dəyərlər baxımından maarifləndirməyə çalışan, ideoloji mübarizə aparan S.C.Pişəvəri, T.Ərani, F.İbrahimi, M.Çeşmazər, İ.Şəms, Ə.Şəmidə, Q.Kəndli, M.Vilayi və s. mütərəqqi xadimlərin irsinin araşdırılması həm dövrün ictimai-siyasi və mədəniyyət tarixini dərindən dərk etməmiz, həm də yaşadığımız zamanda milli-mənəvi dəyərlərin qorunması, təbliği, gələcək nəsillərə çatdırılması baxımdan çox faydalıdır. Eyni zamanda XX əsrin I yarısında Cənubi Azərbaycan tarixinin ən əsas salnamələrindən biri olan "Azərbaycan" qəzetinin, xüsusilə bu tədqiqatda geniş yer ayırdığımız qəzetin 1947-1949-cu il nömrələrinin əsasında dövrün ictimai-siyasi, elmi-mədəni, publisistik mənzərəsinin xalqa tanıtdırılması, tədqiq və təbliği Şimali Azərbaycan əhalisinin cənubdakı milli istiqlal, mübarizə və mədəniyyət tarixini milli qaynaqlar vasitəsilə öyrənməsinə, şovinist xarici ideoloqların təsirinə düşməməsinə səbəb olacaqdır. Bu məqsədlə tədqiqatda S.C.Pişəvərinin firqə işləri üzrə müavini olmuş görkəmli dövlət xadimi S.Badiganın o dövrdə rəhbərlik etdiyi (ADF-nin ikinci sədri...) ADF-nin orqanı olan "Azərbaycan" qəzetinin Ə.Şəmidənin redaktorluğu ilə (İsmayılov. "21 Azər" hərəkatının sərhəng...) çıxmış 1947-1949-cu il nömrələrinə xüsusi yer ayrılmış, mövzu ilə əlaqədar qəzetin 1945-1946-cı il nömrələrindən, sovet mətbuatından istifadə edilmiş, dövrün S.C.Pişəvəri, T.Ərani, F.İbrahimi, M.Çeşmazər, İ.Şəms, M.Vilayi, Ə.Şəmidə və s. ictimai- siyasi xadimlərinin əsərlərinə müraciət edilmişdir.

Həm çarizm dövründə, həm də SSRİ dövründə rəsmi tarixşünaslığın ideoloji əsasa söykənməsi ilə əlaqədar bundan qaynaqlanan subyektivliyə görə Azərbaycan tarixşünaslığının bir çoxməsələləri, o cümlədən, Cənubi Azərbaycan tarixinin müəyyən

məsələləri, bölgə ziyalıları, istiqlal mücahidlərinin fəaliyyəti kifayət qədər və obyektiv araşdırılmamışdır. Eyni zamanda o dövrün müəlliflərinin əsərlərinin yox edilməsi, gizlədilməsi, tərcümə və tədqiq edilməməsi, repressiyalar, qorxu mühiti mövzunun tam araşdırılmamasının əsas səbəblərindən olmuşdur.

1991-ci ilin sonundan etibarən Azərbaycanın rus işğalından azad olaraq müstəqil bir dövlətə çevrilməsi iki yüz illik bu əsarətin yaratdığı mənəvi çöküşün yox edilərək, xalqın öz tarixi keçmişini öyrənə bilməsi üçün yeni uğurlara imkan yaratdı. Bunun nəticəsində Azərbaycan xalqı öz tarixini qərəzsiz, obyektiv şəkildə öyrənə bilmək şansına qovuşdu. Müstəqillik ilə birlikdə digər mövzularla yanaşı Cənubi Azərbaycan tarixi və mədəniyyəti mövzusu üzərindəki pərdələr qalxmış, dövrün müəlliflərinin əsərləri rahatlıqla tədqiqata cəlb edilə bilmişdir. Bu da tədqiqatçılara yeni imkanlar açmış, o dövrün güzgüsü olan kitab və qəzet, jurnalların tərcümə, transliterasiya və tədqiqinə səbəb olmuşdur.

Bu gün Azərbaycan tarixinin tədqiqində bu mövzunun yeri xüsusi əhəmiyyət kəsb edir. Demokratik bir dövlət quruluşunda yaşayan Şimali Azərbaycan əhalisinin cənubdakı qardaş-bacılarının dəyərli tarixi mirası ilə yaxından tanış olması, onları öyrənib təbliğ etməsi çox vacibdir. Çünki bu dəyərlər xalqımızın milli dünyagörüşünün formalaşmasında çox əhəmiyyətli rol oynamışdır. Eyni zamanda Cənubi Azərbaycan ziyalılarının əsərlərinin öyrənilməsi tariximizin ayrılmaz parçası olan cənub mövzusunun daha dərindən qavranılmasına və dərk edilməsinə şərait yaradacaqdır.

Tədqiqat işində bu məsələyə xüsusi yer ayrılmış, milli istiqlal, demokratik hərəkat, mütərəqqi dini və dünyəvi dəyərlər, dövlət-din münasibətləri, mürtəce şah rejiminə qarşı mübarizə mövzularında xüsusi əsərlər yazan, fəaliyyətlərində bunu özlərinə şüar seçən ziyalıların, maarifçilərin, ictimai-siyasi xadimlərin dövrün eybəcərliklərini xalqa göstərməsi, istiqlal və demok-

ratiya tariximizi olduğu kimi təbliğ etməsi, bu yolda kitablar, məqalələr yazması, "21 Azər" hərəkatının hakim partiyası olan Azərbaycan Demokrat Firqəsinin (ADF) xalqı milli-demokratik ideyalar baxımdan şüurlandırmaq, müstəmləkəçiliyə, assimilyasiyaya qarşı təşkilatlandırmaq üçün etdikləri cəhd, Pəhləvi hakimiyyətinin buna qarşı mübarizəsi tədqiqatda göstərilib. Məhz bu istiqlal və demokratiya mücahidlərinin və milli təşkilatların fəaliyyəti nəticəsində Cənubi Azərbaycanda milli-demokratik şüur formalaşmış, Pəhləvi rejimi əleyhinə mübarizədə, istiqlala gedən yolda mühüm addımlar atılmışdır. Bunlara nümunə olaraq Azərbaycan Demokrat Firqəsinin sovet hökuməti ilə əməkdaşlıq şəraiti içində milli-demokratik mübarizəsi, bu sahədə sovetlərdən yardım istəməsini, mütərəqqi ziyalıların, "Azərbaycan" qəzeti kimi milli mətbuat orqanının fəaliyyətini, ADF-nin xalqı Pəhləvi rejiminə və milli əsarətə qarşı mübarizəyə çağırmasını göstərə bilərik. Xüsusilə sovet dövlətinin II Dünya Müharibəsi dövründə və sonra Cənubi Azərbaycana hərbi yardımları cənubdakı milli dövlətçiliyin inkişafında böyük rol oynamışdır. Bu dövrdə Bakıda bu istiqamətdə mühüm xidmətləri olan M.Bağırov, S.Vurğun və s. ictimai-siyasi xadimlər, ziyalılar bu işdə əhəmiyyətli rol oynamışdırlar. Tədqiqatda dövrün mürtəce Pəhləvi xadimlərinin xalqı milli-demokratik dəyərlərdən uzaqlaşdırmağa çalışmaları, S.C.Pişəvəri, T.Ərani, F.İbrahimi kimi ictimai-siyasi xadimlərə, ziyalılara mənfi münasibəti, onları məhv etmək istiqamətindəki fəaliyyətləri, şah rejiminin ADF-yə qarşı mübarizəsi ortaya qoyulmuşdur.

Tədqiqatda "Azərbaycan" qəzetinin 1947-1949-cu illər nömrələri əsasında ən qədim dövrdən "21 Azər" hərəkatına qədər, hərəkatın süqut dövrü və sonrakı proseslər də daxil olmaqla işıqlandırılmaya çalışılmışdır. Cənubi Azərbaycanı, o cümlədən, bütün İranı əsarət altında saxlayan şah diktaturasının anti-xalq və milli assimilyasiya siyasəti milli istiqlal və demokratik düşüncənin inkişafında xüsusi rol oynamış görkəmli ziyalıların, mütəfək-

kirlərin xüsusilə "Azərbaycan" qəzetindəki yazıları əsasında göstərilməyə çalışılmışdır. Bu dövrdə Cənubi Azərbaycanda ziyalıların, publisistlərin, ictimai-siyasi, elm və mədəniyyət xadimlərinin milli-demokratik problemlərə öz həll yollarını daha aktiv olaraq ortaya qoyması, milli nəşriyyat və mətbuat işinin inkişafı, bu cəhdlərin nəticəsində də Cənubi Azərbaycanın Pəhləvi işğalından xilasına gedən yolun açılması və daha sonra "21 Azər" hərəkatı və süqutu sonrası ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslər təqdim və təhlil edilmişdir. Mövzumuzla əlaqəli olaraq dövrün əsas ictimai-siyasi xadimi olan, "21 Azər" hərəkatının lideri S.C.Pişəvərinin həyatının müəyyən məsələləri tədqiqatda göstərilməyə çalışılıb.

Tədqiqatın əsas mənbə bazası ADF-nin orqanı olan "Azərbaycan" qəzetinin 1947-1949-cu il nömrələridir. Tədqiqat işində "Azərbaycan" qəzetində yazıları nəşr olunmuş M.Vilayi, Ə.Şəmidə, F.Xoşginabi, C.Müciri, Q.Kəndli və s. müəlliflərin məqalələrinə, B.Azəroğlu, Ə.Tudə, H.Billuri, M.Gülgün və s. şairlərin şeirlərinə də müraciət edilib. O cümlədən, qəzetin 1945-1946-cı il nömrələrindən, dövrün sovet mətbuatından, ADF-nin qurucu rəhbəri S.C.Pişəvərinin, onun köməkçisi və daha sonra ADF rəhbərlərindən biri olmuş M.Çeşmazərin, Milli Hökumətin Daxili İşlər naziri S.Cavidin, "21 Azər" hərəkatı dövrünün baş prokuroru F.İbrahiminin əsərlərindən istifadə edilmişdir.

Əslən cənubdan olan Mirzə İbrahimovun yaradıcılığı, silsiləvi "Cənub hekayələri", "Gələcək gün" və "Nakam məhəbbət" romanları və publisistik yazıları Cənubi Azərbaycanın azadlıq hərəkatını öyrənmək baxımından əhəmiyyətlidir. M.İbrahimov "Nakam məhəbbət" romanında yazırdı ki, o, tarixi və mənliyi müstəbidlərin ayağı altına atılmış yazıq bir xalqın, bədbəxt bir vətənin oğludur. O, dövlət idarələrində azərbaycanlılara etimadsızlıq və təhqiramiz münasibəti gördükdən sonra milli həqiqəti dərk etdi (İbrahimov, 1946, s.3). M.İbrahimov "Cənubi Azərbaycanda milli-demokratik hərəkat" adlı məqaləsində

göstərirdi ki, əsrlər boyu davam etmiş ağır tarixi şəraitə, coğrafi və siyasi vəziyyətinin böyük əngəllərə və məruz qaldığı istibdad və əsarətə baxmayaraq, bütün dünya bu xalqın əsrin mədəni və azad xalqları sırasına çıxmağa can atdığını gördü. Demokratik hərəkatın irəli sürdüyü məsələləri Azərbaycan xalqının bütün tarixi inkişafı hazırlamışdır (Abışov, 2019, 16 may, s.7). M.İbrahimov "Azad" adlı hekayəsində - gərək Azərbaycana azadlıq alaq, uşaqlar öz dilimizdə oxusun, deyir (İbrahimov, 2005, s.21), M.C.Pişəvərinin bu sözünü nümunə göstərirdi: "Azərbaycan İran inqilablarının beşiyidir. Biz, bütün zəhmətkeş İranı ayağa qaldıracağıq" (İbrahimov, 2020, s.518). M.İbrahimovun "Kommunist" qəzetində çap olunmuş "İki həyat" adlı hekayəsində Sovet Azərbaycanı ilə Cənubi Azərbaycan əhalisinin müqayisə edilir. Bu əsərdə Şimali Azərbaycanda əməyə verilən dəyərdən və Milli Hökumətin süqutundan sonra Cənubi Azərbaycandakı acınacaqlı vəziyyətdən, şah rejiminin zülm və istibdad, aclıq və yoxsulluq girdabında əzilən xalq nümayəndələrindən bəhs edilir (Əliyev, 2020, s.112). Bu müqayisəli baxış Cənubi Azərbaycan əhalisinin ağır dərdini anlamaqda oxuculara kömək edir. M.İbrahimov Cənubi Azərbaycan əhalisinin milli şüurunun artmasına öz töhfəsini vermiş, sovet ordusunun İrana hərbi müdaxiləsindən sonra Təbrizdə "Vətən yolunda" qəzetinin redaktoru kimi də fəaliyyət göstərmişdir (Abışov, 2023, s.88).

"21 Azər" hərəkatının görkəmli nümayəndəsi M.Çeşmazər "21 Azər" hərəkatının şahidi olduğu üçün onun əsərləri mühüm əhəmiyyətə malikdir. O, "S.C.Pişəvərinin Azərbaycan Demokrat Partiyasının və Azərbaycan Milli Hökumətinin yaranması uğrunda mübarizədə rolu"ndan bəhs edən məqaləsində 1941-1945-ci illər inqilabının əsas səbəblərini: 1. İranın siyasi-iqtisadi həyatında şahlıq rejimi; 2. İrticaçı və imperialistpərəst hakimiyyətin siyasəti; 3. Hakim dairələrin milli zülmü; 4. Şahlıq rejiminin mövcud irticaçı quruluşu saxlamaq və möhkəmləndirmək məqsədilə azadlıq və demokratik hərəkatı boğmağa cəhd

göstərməsi; 5. Iranın fəhlə sinfindən, kəndlilərdən, sənətkarlardan və azadxah ziyalılardan və onlara mənsub Tudə (Xalq) Partiyasından, İran Fəhlə və Zəhmətkeşləri Həmkarlar İttifaqından və İran Azadlıq Cəbhəsindən ibarət olan demokratik qüvvələrin ölkədə həqiqi demokratik rejim qurulması və ictimai azadlıqlar uğrunda, diktatorluq, istibdad rejimi və imperializm əleyhinə mübarizə etmələrində görmüşdür (Çeşmazər, 1991, s.19-20). Lakin M.Çeşmazər sovet hökumətinin "21 Azər" hərəkatında oynadığı rol, SSRİ-nin siyasi və hərbi yardımları haqqında ətraflı məlumat verməmişdir (Abışov, 2019, 18 may, s.4).

M.Çeşmazərin yaradıcılığında sovet, Azərbaycan, Qərb və İran müəlliflərinin "21 Azər" hərəkatına baxışı geniş təqdim və təhlil olunmuşdur. O, göstərirdi ki, indiyə qədər İran və Azərbaycanda 1941-1946-cı illərin milli azadlıq və demokratik hərəkatına aid bir sıra əsərlər yazılmışdır. Bu əsərlər sırasında birinci növbədə ADF Mərkəzi Komitəsinin sədri və Azərbaycan Milli Hökumətinin Baş naziri S.C.Pişəvərinin əsərlərini, nitqlərini, bəyanat və müsahibələrini göstərmək lazımdır. İranlı müəlliflərin mövqeyindən bəhs edən M.Çeşmazər yazırdı ki, İranın burjua tarixçiləri və müəllifləri Azərbaycan Demokrat Firqəsinin yaranması və fəaliyyəti problemini ayrıca tədqiq etməmişlər. Onlar ADF-nin yaranmasının obyektiv və tarixi şəraitinin təhlilinə, ADF-nin və Azərbaycan Milli Hökumətinin proqramlarının və digər rəsmi sənədlərin təhlilinə əsaslanmamışlar. Bu müəlliflərin təqribən hamısı İranın şahlıq quruluşunu, istismarçı sinifləri və imperialist dairələrini və onların milli azadlıq hərəkatını boğmaq siyasətlərini müdafiə etmişlər. Onlardan bəziləri də Azərbaycan xalqının İran dövləti daxilində öz müqəddəratını muxtariyyət yolu ilə təyin etməsini kökündən təhrif edərək bunu separatizm adlandırırlar. Burjua müəlliflərinin bir çoxu əsərlərində milli azadlıq hərəkatına aid olan bir çox faktı, o cümlədən Azərbaycan Demokrat Firqəsinin yaranmasının gedişini, bu partiyanın üzvlərinin sayını və sairəni qəsdən təhrif edirlər (Çeşmazər.

Azərbaycan..., s.6).

Milli Hökumət dövründə ADF Mərkəzi Komitəsinin üzvü, Milli Məclisin üzvü və parlamentin orqanı olan "Azad Millət" qəzetinin baş redaktoru olmuş İsmayıl Şəmsin "Ömrə yazılan günlərin ən önəmlisi 21 Azər günü" və "Tərcümeyi-halım. Azərbaycan Cəmiyyəti və "Azərbaycan" qəzeti" adlı əsərləri dövrün hadisələrini tədqiq etmək baxımından əhəmiyyətlidir. İ.Şəmsi "21 Azər" hərəkatına baxışda M.Bağırovla Stalin hökuməti arasında ciddi fərq olduğunu göstərir. İ.Şəmsə görə M.Bağırov bu hərəkatdan istifadə edib Cənubi Azərbaycanı Sovet Azərbaycanına birləşdirmək istəyirdi. Lakin sovet hökumətinin əsl məqsədi İranda öz nüfuzunu möhkəmlətmək və neft payı qoparmaq üçün Cənubi Azərbaycandan İran hökumətinə təzyiq kimi istifadə etmək idi (Şəms. Tərcümeyi-halım.., s.14). İ.Şəms göstərir ki, sovet hökuməti M.C.Pişəvərinin milli istiqlal ideyasına qarşı idi. Buna görə də şah hökuməti ilə neft müqaviləsindən sonra sovetlər S.C. Pişəvərini dəstəkləmədilər, onu Sovet Azərbaycanına dəvət edib sonra da öldürdülər (Şəms. Ömrə yazılan.., s.10).

ADF hakimiyyəti dövründə Milli Məclisin katibi olmuş M.Vilayinin "Cənubi Azərbaycanda milli azadlıq uğrunda demokratik mətbuatın mübarizəsi (1945-1946-cı illər" və "Milli Hökumətin siyasi, iqtisadi və mədəni reformlarının yerinə yetirilməsində demokratik mətbuatın mübarizəsi" adlı əsərləri, "Azərbaycan" qəzetindəki müxtəlif məqalələri dövrün hadisələrinin canlı şahidi olmuş bir ziyalının mövqeyini əks etdirməsi baxımından çox qiymətlidir. M.Vilayi İranda demokratikləşmənin məhz "xilaskar" sovet ordusunun İrana müdaxiləsindən və faşizm üzərində qələbəsindən sonra gücləndiyini xüsusi qeyd edir (Vilayi. Cənubi Azərbaycanda.., s.2). O, ADF-nin qələbəsindən sonra Azərbaycan dilinin dövlət dili olması haqqında Milli Hökumətin verdiyi qərarın və Təbrizdə "darülfünun" (universitet-Ə.F.) açılmasının əhəmiyyətini xüsusi vurğulamışdır (Vilayi. Milli Hökumətin.., s.2).

Tudə Partiyasının və ADF-nin rəhbər xadimlərindən biri olan Əli Şəmidənin əsərləri də mühüm əhəmiyyətə malikdir. "Azərbaycan" qəzetinin fəal yazarlarından olan Ə.Şəmidənin "Lenin və İran", "Azadlıq qəhrəmanı Heydər Əmioğlu", "İranda fəhlə və həmkarlar hərəkatı: 1941-1946" adlı əsərləri Bakıda nəşr olunmuşdur. O, bu əsərlərində Cənubi Azərbaycanda və İranda demokratik hərəkatı, zəhmətkeşlərin mübarizəsini geniş işıqlandırmışdır.

Cənubi Azərbaycandan olan Məhəmmədtağı Zehtabinin "İyirmi bir Azər nehzətinin yaranması" əsəri də "21 Azər" hərəkatına gedən yolu anlamaq baxımından əhəmiyyətlidir. O, Təbriz Universitetinin ədəbiyyat fakultəsində S.C.Pişəvərinin tələbəsi olmuş və "Azərbaycan" qəzetində öz şeir və məqalələri ilə çıxış etmişdir (Pərvanə, 2015, s.101-102). Müəllif "21 Azər" hərəkatının yaranma səbəblərini izah edərkən göstərir ki, S.C.Pişəvəri Tehranda oturub məqalə yazmaqla, çıxış etməklə bir nəticə əldə edə bilməyəcəyini anlamışdı və Təbrizə gəlib milli hərəkatın əsasını qoydu (Zehtabi. İyirmi bir Azər.., s.2).

Əslən Şimali Azərbaycandan olan, AXC-nin süqutundan sonra Türkiyəyə köçən, "Sənan Azər" təxəllüslü ictimai-siyasi xadim, publisist Məmməd Sadıq Aran II Dünya müharibəsi ərəfəsində jurnalist kimi İranda fəaliyyət göstərmiş, bölgə xalqını və mədəniyyətini yaxşı öyrənmişdir (Attar, 2013, s.187). Onun "Ulus" qəzetində çap olunan "İran məktubları" başlıqlı məqalələri bu baxımdan çox əhəmiyyətlidir (Şimşir, 2013, s.131-132). S.Azərin "İran türkləri" əsəri Cənubi Azərbaycan əhalisinin tarixi, mədəniyyəti haqqında geniş məlumatlar ehtiva edir. Müəllif bu əsərində İranın on milyonluq əhalisinin yarısının türk olduğunu, əsasən türklərdən ibarət olan Azərbaycan əhalisinin isə üç milyondan çox olduğunu göstərir (Azer, 1942, s.12). S.Azər yazır ki, Stalin repressiyaları dövründə SSRİ-dən İrana məcburi qaydada göndərilən 60 mindən çox İran azərbaycanlısı şah hökumətinin əmri ilə Cənubi Azərbaycana deyil, İranın farslar

yaşayan ucqar bölgələrinə zorla sürgün edildi, farslaşmağa məruz edildi. Zəngin azərbaycanlılar çox vaxt haqsız yerə həbs və ya sürgün edilib, mal-mülkləri zorla ələ keçirildi (Azer, 1942, s.18). S.Azər milli hüquqları tanınmayan azərbaycanlıların ari mənşəli olmaları ideyasını rədd edir, türkdilli azərbaycanlıların öz ana vətənində avtoxton olduğunu, ən azı 2500 ildir burada yaşadığını bildirirdi (Azer, 1942, s.13). V.Mustafayevə görə o, milli zülmün əsas formalarını açıb göstərir, hər şeydən əvvəl özümüzü, öz mənliyimizi idrak etməliyik, deyirdi (Mustafayev. Cənubi Azərbaycan.., s.86). S.Azər bu gün İrandakı 60 min erməni qədər mədəni haqqa sahib deyilik, miskin və pərişan halda yaşaya bilmərik, köləlikdən qurtulmalıyıq, deyirdi (Azer, 1942, s.20). Müəllifin "İran türkləri" əsərində Xətai, Saib Təbrizi, Nəbati və s. Cənubi Azərbaycan şairləri haqqında geniş məlumat və əsərlərindən nümunələr təqdim edilmişdir.

Dövrün iranlı mütəfəkkiri, "Məliküşşüəra" ("Şairlər hökmdarı"-Ə.F.) təxəllüslü şair, ictimai-siyasi xadim Məhəmmədtağı Bahar "21 Azər" hərəkatından öncə Bakıda olarkən fars dilində "Bakıda bahar" poemasını yazmış, əsər C.Xəndanın tərcüməsində "Kommunist" qəzetində çap olunmuşdu (Məliküşşüəra, 1945, s.3). Bakını "Şərq elinin tacı, sülhün qapısı" adlandıran M.Bahar belə yazırdı: "Afərin şəhri-Bakı, afərin Azərbaycan!" (Məliküşşüəra, 1945, s.3). Lakin o, Bakının ruslaşmasını, ateizm təbliğatı nəticəsində dini adət-ənənələrə riayət edilməməsini tənqid edərək belə yazırdı:

"Bakı torpağı dindarların vətəni idi... Demə ki, sən mənim rus qonşumsan,

Din və mədəniyyət israf olunur, adət-ənənələr boşa çıxır..."

(ملک الشعرا .بهار. هدیه باکو ).

M.Bahar Cənubi Azərbaycanın İrana qarşı azadlıq hərəkatını tənqid etmişdir. M.Bahar "Təbrizin əsəbi demokratı" məqaləsində ADF-nin milli siyasətini tənqid edərək yazırdı ki, Təbrizin Demokrat Partiyası Sovet hökumətinin xoşuna gəlmək

üçün özünü və Azərbaycan xalqını 100 faiz türk kimi qələmə verir (“Azərbaycan” qəzeti.., 2022, s.264). Məliküşşüəra “Midiya şahlarının yurdu”, “bəbirlər və bülbüllər ölkəsi” adlandırdığı Azərbaycanın üsyançıların əlinə keçdikdən sonra “tülkülər və sağsağanlar məskəni”nə çevrildiyini bildirir (ملک‌الشعرا. بهار مثنویات). ADF-ni sovet hökumətinin öz işğalçılıq məqsədləri naminə yaratdığını deyən Məliküşşüəraya “Azərbaycan” qəzeti belə cavab vermişdi: “Azərbaycan Demokrat Firqəsini Azərbaycan xalqının ehtiyacları yaratmışdır” (“Azərbaycan” qəzeti.., 2022, s.268).

O dövrün şahidi olan iranlı tədqiqatçı A.Fəthullahzadə “Yusif dayının evi” və s. əsərlərində Stalinin rəhbərlik etdiyi Sovet hökumətinin işğalçılıq və zorakılıq siyasətini tənqid etmişdir. O, Stalinin İranı parçalamaq üçün Tudə Partiyasından, Azərbaycan Demokrat Firqəsindən istifadə etdiyini göstərmiş, 1946-cı ildə İran hökumətinin sovetlərə neft payı verəcəyi vədindən sonra öz siyasətini dəyişdirdiyini bildirmişdir. A.Fəthullahzadə göstərmişdi ki, Lenin öz siyasi nəzəriyyələri ilə İranın ədalət axtarışında olan qüvvələrini valeh edə bildi. Tudə Partiyası qurulanda İran ziyalılarının əksəriyyəti və Tudə Partiyasının üzvləri Sovet quruluşunun mahiyyətindən xəbərsiz olaraq Stalini Lenin yolunun davamçısı, sosialist qurucusu və məğlubiyyətçi kimi təbliğ etdilər. Lakin Azərbaycan Demokrat Firqəsindən və SSRİ-yə neft güzəşti məsələsindən sonra bəzi İran ziyalılarının Stalinə və Sovet İttifaqına olan inamı bitdi (ثمینا رستگاری). A.Fəthullahzadə Pəhləvi hakimiyyətinin öz qeyri-demokratik, istibdad siyasəti ilə İranda millətlərarası ziddiyyətləri, sosial-iqtisadi problemləri şiddətləndirdiyini, bundan istifadə edən Stalinin M.Bağırovla birlikdə ADF-ni yaradıb idarə etdiyini, kommunistlərin İranda M.Xiyabani dövründən bəri sevilən “demokrat” adından sui-istifadə etdiklərini, S.C.Pişəvərinin və ADF rəhbərlərinin adi sovet agenti yox, həqiqi kommunist əqidəsində olub “xalqların öz müqəddəratını təyin etmə” haqqını müdafiə edən Leninə və Stalinə inandıqlarını göstərmişdir. A.Fəthullahzadə ADF-nin ilk dövrlərdə Pəhləvi

diktaturasına qarşı mübarizəsini, demokratik ideyalarını müsbət qəbul edir. Lakin o, firqənin Cənubi Azərbaycanı İrandan ayrmaq istəməsini, separatçılıq meyillərini tənqid etmişdir (اتابک فتح الله زاده).1940-cı illərdə diplomat və hərbi attaşe olaraq Tehrandakı ABŞ səfirliyində xidmət etmiş A.Ruzveltin "Məhabad Kürd Respublikası" və 1950-1960-cı illərdə Təbrizdə ABŞ konsulu olmuş V.İqltonun (W.Aegleton) "Məhabad Kürd Respublikası - 1946" adlı əsərləri Sovet İttifaqının İran kürdləri siyasəti, M.Bağırovun Kürdüstan lideri Qazi Məhəmmədlə görüşü və onu dəstəkləməsi, S.C.Pişəvərinin rəhbərliyindəki Milli Hökumətlə Kürdüstan hökuməti arasındakı münasibətlər haqqında geniş məlumat verir. Kürdüstan lideri Qazi Məhəmmədin qızı Münirə Qazinin xatirələri atasının tarixi bir şəxsiyyət kimi tanıdılmasında mühüm əhəmiyyət daşıyır. 1940-cı illərdə SSRİ Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsinin müdiri olmuş S.İ.Sıçevin "Kürd məsələsi və İran kürdləri" əsəri S.C.Pişəvərinin rəhbərliyindəki Milli Hökumətlə Məhabad Kürd Hökuməti arasındakı qarşılıqlı torpaq iddiaları haqqında geniş məlumatları ehtiva edir (Memmedli, 2020, s.1127-1148). Monoqrafiyada ABŞ və Böyük Britaniyanın bu dövrə aid diplomatik sənədlərindən istifadə edilmişdir. ABŞ kəşfiyyatçısı olaraq İranda xidmət etmiş R.V.Kottam "İranda millətçilik" adlı əsəri qaynaq olaraq əhəmiyyətlidir. O, bu əsərində Pəhləvilər dövründə İrandakı ictimai-siyasi duruma yer vermiş, İranın bir əyaləti kimi gördüyü Cənubi Azərbaycanın azadlıq mübarizəsini Stalinin səbəb olduğu separatçılıq kimi dəyərləndirmişdir. R.V.Kottam azərbaycanlıların dil cəhətdən Sovet Azərbaycanı və Türkiyə ilə yaxın olduğunu vurğulasa da, onların iranlılardan fərqli bir millət olmadığını bildirmişdir (Cottam, 1979, p.118). Təbii ki, R.V.Kottamın bu fikirləri yanlışdır və "21 Azər" hərəkatı dövründə hər nə qədər sovet yardımı olsa da, məhz öz vətəni uğrunda can verməkdən çəkinməyən azərbaycanlı fədailərin qanı hesabına Azərbaycan muxtariyyəti və Milli Hökumət qurulmuşdu. S.C.Pişəvəri özü də

qeyd etmişdi ki, Azərbaycanın dərdlərinə ancaq millət özü əlac etməlidir (Cavid. O günün..., s.38).

Sovet Azərbaycanı tarixçilərindən Ə.Quliyevin "Cənubi Azərbaycanda milli azadlıq və demokratik hərəkat tarixindən" əsəri 1941-1946-cı illər "21 Azər" hərəkatının tədqiqi baxımından çox əhəmiyyətlidir. Məqalə sovet ideologiyası baxımından yazılıb guya sovetlərin bu dövrdə İranın daxili işlərinə qarışmadığını iddia etsə də, Pəhləvilərin Azərbaycan mədəniyyətini məhv etmə arzusunu və fəaliyyətini, S.C.Pişəvəri və F.İbrahimi kimi ziyalıların rəhbərliyi altında Cənubi Azərbaycan əhalisinin demokratik mübarizəsini təqdim etmək baxımından dəyərlidir (Quliyev, 1954, s.42-44, 85). Sovet rus tarixçilərindən M.S.İvanovun yaradıcılığında Pəhləvilər dövrü İranı, o cümlədən, 1945-1946-cı illərin Azərbaycan milli azadlıq hərəkatı tədqiq edilmişdir. M.S.İvanov İran dövlətinin Azərbaycan xalqına etdiyi milli zülmdən, bu dövlətin irticaçı mahiyyətindən, Azərbaycan xalqının muxtariyyət qazanmaq uğrunda mübarizəsindən, Azərbaycan Milli Hökumətinin yaranmasından, onun reformalarından və bunların antifeodal və antiimperialist mahiyyətindən geniş bəhs etmişdir (Çeşmazər. Azərbaycan.., s.5). Monoqrafiyada M.S.İvanovun redaktorluğu ilə nəşr olunan «История Ирана» əsərindən də istifadə edilib.

Tədqiqat işində "21 Azər" hərəkatı və onun xadimləri haqqında müxtəlif əsərlər yazmış Ş.Tağıyevanın, Ə.Rəhimli Bijenin, S.Bayramzadənin, V.Mustafayevin, V.Abışovun, A.Qasımlının, F.Ələkbərlinin, G.İsmayılovun əsərlərindən istifadə edilib.

İranda kommunist hərəkatı və SSRİ ilə əlaqələri mövzusunda S.Rüstəmova-Tohidinin, "21 Azər" hərəkatı xadimlərinin kommunizmə baxışı mövzusunda M.Şəmsinin, "21 Azər" hərəkatı dövrü və sonrasında Qərb imperializminə və Pəhləvi diktaturasına qarşı Cənubi Azərbaycanda milli və sinfi mübarizə, ADF və Tudə Partiyasının buradakı rolu haqqında S.Bayramzadənin dərin tədqiqatları var. S.Bayramzadə göstərir ki, ADF-nin İrandan

ayrılıb müstəqil dövlət olmağı yox, məhz İranın sərhədləri daxilində muxtariyyət tələb etməsinə baxmayaraq, Azərbaycan xalqının bu arzusu yerinə yetirilmədi və Pəhləvilər tərəfindən xalqımıza qarşı qırğınlar törədildi (Байрамзаде, 2016, с.193-194). S.Bayramzadənin məsul redaktorluğu ilə "Azərbaycan" qəzetinin 1945-ci il, 1-90-cı saylarının transliterasiya və tərcümə edilməsi də mühüm addımdır ("Azərbaycan" qəzeti.., 2022).

Monoqrafiyada iranlı tədqiqatçıların "21 Azər" hərəkatına münasibəti mövzusunda E.Mədətlinin, V.Abışovun, dövrün Cənubi Azərbaycan mətbuatı haqqında P.Məmmədlinin, S.C. Pişəvərinin publisistikası və gizli imzaları haqqında R.Əliyevin və V.Əhmədin, "21 Azər" hərəkatı dövründə əncümənlərin Cənubi Azərbaycanda oynadıqları rol haqqında S.H.Mirzəzadənin, II Dünya müharibəsi dövründə və sonrasında Sovet Azərbaycanı ilə Cənubi Azərbaycanın mədəni əlaqələri mövzusunda C.Vəkilovun, Bakıda nəşr olunan "Kommunist" qəzetində Cənubi Azərbaycan yazıçı və şairlərinin təbliği mövzusunda Q.Əliyevin, II Dünya müharibəsi və Milli Hökumət dövründə Cənubi Azərbaycanda baş verən ictimai-siyasi proseslər haqqında F.Bağırovun, bu dövrdə mövzu ilə bağlı beynəlxalq münasibətlər barədə C.Həsənlinin və M.İ.Abdullayevin, "21 Azər" hərəkatının məğlubiyyətinin səbəbləri haqqında X.Balayevin, 1946-1947-ci illərdə Pəhləvi hökumətinin Cənubi Azərbaycanda törətdiyi qırğınlar, şahpərəst mürtəce ruhanilərin ADF əleyhinə fəaliyyətləri haqqında H.Əlizadənin (B.Mərəndli), Pəhləvilər dövrünün rəsmi farslaşdırma siyasəti olmuş şovinist kəsrəviçilik ideyası haqqında Ə.Tahirzadənin, Şimali Azərbaycan ədiblərinin cənubdakı milli ədəbiyyat xadimləri ilə əlaqəsi və qarşılıqlı təsirləri mövzusunda A.Əliqızının, Cümhuriyyət xadimlərinin Pişəvəri hökuməti haqqında fikirləri mövzusunda D.Əhmədin əsərlərindən istifadə edilib.

C.Həsənlinin tədqiqatlarında II Dünya müharibəsində Cənubi Azərbaycan, İran və SSRİ ilə əlaqələri haqqında dəyərli

məlumatlar var. C.Həsənli göstərir ki, II Dünya müharibəsində SSRİ-nin qələbəsindən sonra Stalin İranın şimalındakı zəngin neft ehtiyatlarına sahib olmaq istəyirdi və bütün bunlarla yanaşı Stalinin imzası ilə Ümumittifaq Kommunist (Bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin "Cənubi Azərbaycanda və İranın şimalının digər vilayətlərində separatçı hərəkatın təşkili üzrə tədbirlər haqqında" gizli qərarı ADF rəhbərliyində "21 Azər" hərəkatının meydana çıxmasına əsas faktorlardan biri olmuşdur (Həsənli, 1998, s.13). C.Həsənli və M.Abdullayev göstərirlər ki, İranın BMT-yə şikayətləri və Qərb dövlətlərinin, xüsusilə ABŞ-ın İranı dəstəkləyərək SSRİ-yə təzyiqləri sovet hökumətinin Cənubi Azərbaycan məsələsində geri çəkilməsində xüsusi rol oynadı (Гасанлы, 2006, с.180, 295, 297; Abdullayev, 2006, s.196-198). M.C.Bağırovun "21 Azər" hərəkatı dövründəki rolu, S.C.Pişəvəri ilə görüşləri və bu dövrdə sovet xüsusi xidmət orqanlarında işləyən gənc Heydər Əliyevin bu istiqamətdəki fəaliyyətləri mövzusunda E.Axundovanın, M.Qasımlının, C.Həsənlinin müxtəlif çalışmalarında geniş məlumatlar əks olunmuşdur.

E.Mədətlinin yaradıcılığında müasir iranlı müəlliflərin Pişəvəri hərəkatına münasibəti əks olunmuşdur, O, yazırdı ki, İranda Pişəvəri irsinə xüsusi maraq var və R.Rəisniyanın Tehranda, 1998-1999-cu illərdə çap olunmuş "Məşrutə inqilabından məlumatlar", "Azadlığın son səngəri" adlı kitablarında XX əsrin əvvəllərində İranda, o cümlədən, Cənubi Azərbaycanda baş vermiş inqilabi hərəkatlar, o cümlədən, S.C.Pişəvərinin həyat və yaradıcılığı, ictimai-siyasi fəaliyyəti tədqiq edilib. E.Mədətli yazırdı ki, R.Rəisniyanın yaradıcılığında Pişəvəri irsinin tədqiqi və iranlı oxuculara təqdim edilməsi "təqdirəlayiq bir elmi xidmət kimi dəyərləndirilməlidir" (Mədətli, 2011, s.172).

V.Mustafayevin yaradıcılığında XX əsrin I yarısında Cənubi Azərbaycanda milli şüurun formalaşması prosesi tədqiq və təqdim edilmişdir. O, Cənubi Azərbaycanda istiqlal mübarizəsində milli cəmiyyətlərin rolu haqqında geniş məlumat

vermişdir. O, Cənubi Azərbaycandakı azadlıq mübarizəsinin tarixşünaslığına öz yaradıcılığında yer vermiş, azərbaycanlı tədqiqatçılar - C.Xəndan, S.M.Əliyev, R.A.Seyidov, M.S.Aran (S.Azer), sovet tədqiqatçıları M.S.İvanov və V.V.Trubetskoy, amerikalı R.V.Kottam, iranlı H.Katibi kimi müəlliflərin mövzu ilə əlaqəli əsərləri haqqında məlumat vermişdir. V.Mustafayev mənşəcə İran azərbaycanlısı olan H.Katibinin "Azərbaycan və İranın milli birliyi" əsəri haqqında məlumat verir və onun "İranlılar dil cəhətdən bir-birindən fərqlənsələr də, tarix, ərazi, mənafe, qanunlar, ənənələr, milli ideal, ruh birliyi və s. cəhətdən "mütləq birliyə" malikdirlər; Azərbaycan dili türk dili deyil, azərbaycanlılar farsdır, fars olub və olacaqdır" fikirlərini tənqid edir (Mustafayev. Cənubi Azərbaycan.., s.87-88).

V.Mustafayev amerikalı R.V.Kottamın millət və dövlətin eyniləşdirilməsi tezisindən hərəkətlə onun azərbaycanlıların müstəqil etno-sosial orqanizm olduğunu inkar etməsini, vahid "İran milləti" ideyasını tənqid edir. V.Mustafayev həmçinin S.M.İvanovun - "azərbaycanlılar, praktiki olaraq ancaq 1960-cı illərin ortalarında yüksək inkişaf etmiş milli şüura malik millət kimi təşəkkül tapmışlar" fikrini yanlış sayır (Mustafayev. Cənubi Azərbaycan.., s.4-5). V.Mustafayev sovet tədqiqatçısı V.V.Trubetskoyun bu fikrini haqlı sayıb göstərir ki, İranın hakim dairələrinin 1920-1930-cu illərdə yeritdikləri assimilyasiya siyasəti, cavab reaksiyası olaraq milli şüurun güclənməsinə səbəb olmuş və azərbaycanlıların milli şüuru 1945-1946-cı illər milli-azadlıq hərəkatı dövründə yüksək səviyyəyə qalxmışdır (Mustafayev. Cənubi Azərbaycan.., s.4-5). V.Mustafayev əslən Azərbaycandan olan türkiyəli Senan Azerin (M.S.Aran) "İran türkləri" kitabı haqqında geniş məlumat verir və onun İran azərbaycanlılarının etnik coğrafiyasını, tayfa-qəbilə quruluşunu təsvir etdiyini, şah hökumətinin paniranist, şovinist siyasətini tənqid etdiyini göstərir (Mustafayev. Cənubi Azərbaycan.., s.86).

V.Abışovun "Güney Azərbaycanlıların milli-azadlıq hərəkatı

(1941-1946-cı illər) tarixinin tarixşünaslığı" adlı monoqrafiyasında və digər əsərlərində II Dünya müharibəsi dövründə və sonrasında Cənubi Azərbaycanın azadlıq mübarizəsinin tarixşünaslığı xüsusi işlənilmişdir. O, İ.Şəms, M.Vilayi, M.Zehtabi kimi Cənubi Azərbaycan ziyalılarının əsərlərindən nümunələr verərək dövrün hadisələrini şərh edir. O cümlədən, Sovet Azərbaycanı ziyalılarının, o cümlədən, H.M.Həsənovun "Cənubi Azərbaycanda milli-demokratik hərəkat" (1941-1946-cı illər), C.X.Hacıyevin "Cənubi Azərbaycan ədəbiyyatında milli-azadlıq ideyaları (1905-1946-cı illər)", Z.Z.Abdullayev və N.M.Aqasinin "Müasir İran" adlı əsərləri, M.İbrahimovun "Cənub hekayələri", "Gələcək gün", "Cənubi Azərbaycanda milli-demokratik hərəkat haqqında" və digər Qərb-Şərq müəlliflərinin əsərləri haqqında ətraflı məlumat verir. V.Abışov göstərir ki, sovet dönəmində "formaca milli, məzmunca sosialist" prinsipinə əməl edilməklə elmi əsərlər yazılır, "21 Azər" hərəkatı tamamilə sovet məhsulu, Pişəvəri hökuməti sovet yardımı və diktəsi ilə qurulan bir qurum kimi təqdim edilir, məsələnin milli mahiyyəti açıqlanmırdı (Abışov, 2019, 16 may, s.7). V.Abışov haqlı olaraq qeyd edir ki, əgər millətin iradəsi və qabaqcıl ziyalıları olmasaydı, həmin ziyalılar Vətənin milli-azadlıq hərəkatının önündə getməsəydilər, görəsən SSRİ Cənubi Azərbaycanda hansı qüvvəyə arxalanacaqdı? (Abışov, 2019, 17 may, s.7). O, əslən Cənubi Azərbaycandan olan mütəfəkkir M. Zehtabinin "İyirmi bir Azər nehzətinin yaranması" əsərindən bu fikri nümunə gətirir ki, "21 Azər" hərəkatı İran daxilində öz milli hüquqları uğrunda mübarizə aparan azərbaycanlıların arzu və istəyi ilə reallaşmışdı (Abışov, 2019, 18 may, s.4).

Pişəvəri hökumətinin yıxılmasında İranı və ABŞ, Böyük Britaniya kimi Qərb dövlətlərini ittiham edən, lakin sovet hökumətinin Milli Hökumətə yardımdan imtina etməsini göstərməyən M.İbrahimovun, Z.Z.Abdullayevin və N.M.Aqasinin mövqeyi V.Abışov tərəfindən qınanılır (Abışov, 2019, 16-17 may, s.7). O, göstərir ki, 1941-1991-ci illər ərzində bu mövzu

ilə bağlı sovet tədqiqatçıları əksər hallarda sosializm ideologiyasına, kapitalist ölkələrin tədqiqatçıları isə burjua ideologiyasına uyğun əsərlər ortaya qoymuşdur. Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra "21 Azər" hərəkatını obyektiv şəkildə tədqiq edən əsərlər yazılmağa başlandı (Abışov, 2023, s.4-5). "21 Azər" hərəkatı ilə əlaqədar Cənubi Azərbaycandan olan yazar və şairlərin həyat və yaradıcılığı mövzusunda M.İbrahimovun redaktoru olduğu "Azərbaycan ədəbiyyatı antologiyası"ndan və A.Kafkasiyalının "İran türk ədəbiyyatı antologiyası"ndan istifadə edilib. X.Balayevin, Q.Əliyevin yaradıcılığında sovet dövründə Cənubi Azərbaycan şairlərinin yaradıcılığı tədqiq edilib. Ş.Nəzirlinin yaradıcılığında "21 Azər" hərəkatının generalları – C.Kaviyan, M.R.Kəbiri, Ə.Əzimi və s. şərəfli zabitlərinin həyatı və döyüş yolu əks olunub. Ə.Fərhadovun müxtəlif əsərlərində ADF-nin "Azərbaycan" qəzeti və dövrün sovet mətbuatı əsasında Cənubi Azərbaycandakı ictimai-siyasi, iqtisadi və dini məsələlərə münasibət öz əksini tapmışdır.

Müasir İran tarixçilərindən Kavə Bayat ADF-nin yaradılmasını və "21 Azər" hərəkatını Azərbaycan xalqının Pəhləvi rejiminə qarşı inqilabi mübarizəsinin nəticəsi kimi deyil, sovet hökumətinin İranda süni şəkildə yaratdığı siyasi durumun, Stalinin qərarlarının yekunu kimi təqdim etmişdir (کاوه بیات). Lakin "Pravda" qəzetinin də qeyd etdiyi kimi - "İranda xalqın dörddə birini təşkil edən Cənubi Azərbaycan əhalisi hər zaman müstəbid rejimlərə qarşı mücadilədə, məşrutə inqilabında və öz milli hüquqlarının müdafiəsi uğrunda aktiv mübarizə aparmışdır" (Владимиров, 1946, с.3). "21 Azər" hərəkatı da bu mübarizənin təbii nəticəsi idi.

İranlı tədqiqatçı M.Xadir S.C.Pişəvərinin qanuni haqqı olan İran parlamentindəki millət vəkilliyinin Pəhləvi hökuməti tərəfindən rədd edilməsinin, İranda həll edilməyən sosial-iqtisadi, milli problemlərin ADF-nin nüfuz qazanmasında müsbət rol oynadığını bildirmişdir. O, İranda demokratiya

uğrunda mübarizəedən Səttarxan və M.Xiyabanidən fərqli olaraq S.C.Pişəvərinin siyasi fəaliyyətini İran əleyhinə separatçılıq saymış, həmçinin göstərmişdir ki, “21 Azər” hərəkatının süqutunun səbəbi heç də Məhəmmədrza şahın hərbi qələbəsi yox, Stalinin Baş nazir Ə.Qəvamla neft danışıqlarının nəticəsi olmuş, S.C.Pişəvərinin şübhəli ölümü də böyük bir ehtimal Stalin və M.Bağırov tərəfindən təşkil edilmişdir (خوانش...).

İran tarixçilərindən Ə.Dehqan, M.M.Müctehidi və Ş.Cavadi Azərbaycan milli azadlıq və demokratik hərəkatı nəticəsində həyata keçirilmiş tədbirlərin bəzilərinin mütərəqqiliyini, demokratikliyini etiraf etmişdilər. Lakin onlar da bu demokratik hərəkatın əsas və obyektiv səbəblərini göstərməmiş və bu hərəkatın boğulmasında imperialist dövlətlərin rolunu pərdələməyə çalışmışlar (Çeşmazər, Azərbaycan.., s.7).

İranlı müəlliflər içində “21 Azər” hərəkatına obyektiv yanaşanlar da olmuşdur. İ.N. Buşehri Azərbaycanda baş vermiş hərəkatın ictimai, damokratik və xalq hərəkatı olduğunu və İran xalqlarının milli hakimiyyətinə zidd olmadığını göstərmişdir. Ə.Əmidi-Nuri yazır ki, Azərbaycan demokratik hərəkatı İran hökumətinin zülmünün kəskinləşməsi nəticəsində baş vermiş və Azərbaycan xalqı haqlı olaraq üsyan etmişdir. H.Ümid Milli Hökumət dövründə dövlət dilinin Azərbaycan dili olduğunu, təhsilin milliləşdiyini göstərmişdir. S.Ə. Fədayi-Ələvi isə göstərib ki, cəmiyyətin ümumi inkişaf qanunu İran məşrutə inqilabına (1905-1911) səbəb oldu, 1917-ci ildən sonra da İranda xalq üsyanları baş verdi. Bunların çox qiymətli nəticəsi, davamı kimi və qanunauyğun olaraq Azərbaycan demokratik hərəkatı yarandı. İran müəlliflərindən N. Sepide Dəm İran və Azərbaycanın 1941-1946-cı illər demokratik hərəkatının antiimperialist və antifeodal xarakterdə olduğunu yazır və göstərirdi ki, 1946-cı ilin sonunda amerikan və ingilis imperialist qüvvələrinin bilavasitə köməyi ilə Azərbaycan xalqı yenidən feodalların, burjuaziyanın və hərbçilərin hökmranlığı altına alındı (Çeşmazər, Azərbaycan.., s.7). Sepehr

Zəbih Azərbaycan demokratik hərəkatı və Azərbaycan Demokrat Firqəsi barədə bir sıra məsələlərə obyektiv yanaşır. O, göstərirdi ki, ADF-nin müraciətnaməsinin tələbləri obyektiv və mütərəqqi sosial-iqtisadi mahiyyətə malikdir. Azərbaycan Xalq Konqresinin qərarları İranın ərazi bütövlüyünü təhlükəyə salmadan və İranın konstitusiyasına tərəfdar olmaqla Azərbaycan xalqına öz müqəddəratını təyin etmək hüququ tələb edirdi. Azərbaycan Milli Hökuməti inqilabi hökumət idi, xalq kütlələrinin birliyini təmsil edirdi (Çeşmazər, Azərbaycan.., s.7-8).

Qərbin əksər burjua tarixçiləri Azərbaycan demokratik hərəkatına səthi toxunmuş, İranın şahlıq quruluşunu və imperialist dairələrin mənafeyini müdafiə etmişlər. Onlar İranın obyektiv şəraitini, xalqın siyasi hüquqsuzluğunu, şiddətli sinfi və milli zülmün xalqı inqilabi mübarizəyə təhrik etdiyini görmək istəməmişlər. Qərbin burjua müəllifləri öz yazıları ilə imperialistlərin təcavüzkarlıq və müdaxiləçilik siyasətlərinə xidmət etmişlər. Qərbin burjua tarixçiləri Azərbaycan demokratik hərəkatına aid olan bir sıra faktı və hadisəni təhrif etmişlər. O cümlədən V.İqleton və Ç.Lençovski 1945-1946-cı illərdə Azərbaycanda hərəkat, partiya və təşkilatın separatik olduğunu iddia etmişlər. V.Doqlas, V.İqlton, C.Lençovski, Ə.K. Lembton, R.Rossov, R.N. Fray və başqaları 1945-1946-cı illərdə Azərbaycanda inqilabi xalq hakimiyyəti tərəfindən mühüm siyasi, iqtisadi və ictimai demokratik islahatlar həyata keçirildiyini qeyd və etiraf etmişlər (Çeşmazər, Azərbaycan..., s.7). Türkiyəli tədqiqatçı S.Şimşirin yaradıcılığında Türkiyədə yaşayan azərbaycanlı mühacirlərin "21 Azər" hərəkatına baxışı mövzusunda dəyərli araşdırmalar var. Türkiyəli tədqiqatçılar G.Bolatın, A.Ballıkayanın, M.Kayanın yaradıcılığında İran neftinin iqtisadi-siyasi proseslərdə oynadığı rol, Pəhləvilər dövründə sosial-iqtisadi problemlər haqqında məlumat verilmişdir. S.S.Pekerin yaradıcılığında Türkiyə və İran mətbuatının "21 Azər" hərəkatına münasibəti mövzusu tədqiq edilib və olduqca dəyərlidir. Monoqrafiyada digər xarici müəlliflərdən

E.Abrahamianın, S.Beregianın, P.Milovun, R.Kurtuluşun əsərlərinə müraciət edilib.

Tədqiqatın elmi yeniliyi hər şeydən öncə mövzunun seçimindən, problemin qoyuluşundan, işin məqsəd və vəzifələrindən irəli gəlir. Elmi işin yeniliyi aşağıdakı müddəalarda öz əksini tapmışdır:-"21 Azər" hərəkatı dövrünün əvəzsiz bir qaynağı olan "Azərbaycan" qəzetinin 1947-1949-cu il nömrələrindən orijinalından nümunələr verilməklə ilk dəfə olaraq Azərbaycan tarixşünaslığında dövriyyəyə gətirilmişdir;

-"Azərbaycan" qəzeti (1947-1949) yazarlarının milli-demokratik oyanışın nəticəsi və ifadəsi olan cəmiyyət və insan, millət və dövlət haqqındakı baxışları verilmişdir;

-Sovet mətbuatının, xüsusilə "Kommunist" qəzetinin "21 Azər" hərəkatı və Cənubi Azərbaycan mədəniyyətinə dair yazıları haqqında məlumat verilmişdir;

-Cənubi Azərbaycanın milli-demokratik inkişafında müsbət rol oynamış M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Ə.Sabir, N.Nərimanov kimi Şimali Azərbaycan mütəfəkkirlərinin, Cənubi Azərbaycanın Səttarxan, M.Xiyabani kimi azadlıq fədailərinin, M.Ə.Möcüz, S.Ə.Nəbati kimi mütəfəkkir şairlərin mövzu ilə əlaqədar əməl və fikirlərinə yer ayrılmış, əsərlərindən nümunələr təqdim və təhlil edilmişdir.

-Dövrün S.C.Pişəvəri, T.Ərani, F.İbrahimi, M.Çeşmazər, S. Cavid kimi əksər ictimai-siyasi xadimlərinin, M.Vilayi, Ə.Şəmidə, F.Xoşginabi, C.Müciri, Q.Kəndli və s. publisistlərin, B.Azəroğlu, Ə.Tudə, H.Billuri, M.Gülgün kimi şairlərin əsərlərindən, fikirlərindən orijinaldan nümunələr verilməklə ortaya qoyulmuşdur;

-ADF xadimlərinin millət, dövlət, azadlıq, azad insan idealı və onun reallaşdırılması metodları haqqındakı fikirləri təqdim və təhlil edilmişdir;

-ADF xadimlərinin vətənpərvərlik, millətsevərlik, dini, əxlaqi dəyərlər haqqındakı fikirləri ilə insan haqları və azadlığına

dair baxışları arasındakı qarşılıqlı əlaqə təqdim və təhli edilmişdir;

-Cənubi Azərbaycan yazarlarının xristian missionerliyinə, islam məzhəblərinə baxışı müqayisəli şəkildə təqdim və təhlil edil- mişdir;

-Dini maarifçiliyin milli şüurun formalaşmasında və milli-dini hərəkatın təşəkkülündə yeri və rolu müəyyənləşdirilmiş, onun bu günümüzlə ahəngdar olan ideyaları qabarıq verilmişdir;

-Cənubi Azərbaycan və İran ruhanilərinin "21 Azər" hərəkatına baxışı təqdim və təhlil edilmişdir;

-"Azərbaycan" qəzetində (1947-1949) milli-demokratik hərəkat mövzusu ilk dəfə olaraq sistemli tədqiqat obyektinə çevrilmiş və kompleks şəkildə öyrənilmişdir.

Tədqiqat zamanı əldə edilən elmi nəticələr "Azərbaycan" qəzetinin, Cənubi Azərbaycanın mütərəqqi ziyalılarının elmi-fəlsəfi, ictimai-siyasi görüşlərinin obyektiv olaraq cəmiyyətə çatdırılması baxımından böyük elmi-nəzəri və praktik əhəmiyyət daşıyır. İş "Azərbaycan" qəzetinin (1947-1949) materialları əsasında ADF xadimlərinin cəmiyyət və insan, millət və dövlət, milli azadlıq və milli mədəniyyət haqqındakı ideyalarının tədqiqinə həsr olunduğundan bu mövzudakı gələcək tədqiqatlar üçün müəyyən rol oynaya bilər. Həmçinin işin əhəmiyyəti dövrün Azərbaycan və İran tarixinin obyektiv şəkildə geniş ictimaiyyətə çatdırılmasındadır. Tədqiqat işindən ictimai-siyasi fikir tariximizi öyrənən, xüsusiilə "21 Azər" hərəkatı mövzusu ilə məşğul olan mütəxəssislər, humanitar sahədə çalışan müəllim və tələbələr faydalana bilərlər. Həmçinin tədqiqatdan metodik dərs vəsaiti kimi istifadə edilə bilər. Tədqiqatın praktik əhəmiyyəti daha aktualdır. Cənubi Azərbaycanda baş verən milli-demokratik oyanış, dini radikallaşmaya, xurafat və mövhumata qarşı mübarizə, mürtəce və müstəbid hakimiyyətlərə qarşı mücadilədə istifadə baxımından da tədqiqat işi faydalıdır. Tədqiqatın materiallarından Azərbaycanın, o cümlədən, İranın XIX – XX əsrin I yarısı dövrü tarixinin araşdırılmasında, dövrün milli-demokratik hərəkat, dövlət-din

münasibətləri, milli mədəniyyət kimi mövzularının tədqiqinə dair elmi-tədqiqat işlərinin yazılmasında, müvafiq kursların tədrisində və s. istifadə oluna bilər. Bu tədqiqat işi gələcəkdə ayrı-ayrı mütəfəkkirlərin, ADF xadimlərinin mövzu ilə əlaqəli çalışmalarının dərindən tədqiqi üçün də bir başlanğıc ola bilər.

# I FƏSİL
# DEMOKRATİK HƏRƏKAT VƏ "AZƏRBAYCAN" QƏZETİNƏ GEDƏN YOL

## 1.1. Cənubi Azərbaycanda demokratiya uğrunda mübarizə tarixindən

"Azərbaycan" qəzetinin ideoloji təməlləri əsasən məşrutə (konstitusiya-Ə.F.) hərəkatına əsaslanır. XX əsrin əvvəllərində başlayan məşrutə hərəkatı Müzəffərəddin şahın dövründə, 1906-cı ildə konstitusiyanın qəbulu və parlamentin açılması ilə nəticələnsə də, onun atasının vəfatı səbəbilə 1907-ci ilin yanvarında hakimiyyətə gələn Məhəmmədəli şah bütün demokratik nailiyyətlərin üstündən xətt çəkdi. 1907-ci ildə imzalanan müqavilə ilə Rusiya ilə Böyük Britaniya İranı öz nüfuz dairələrinə böldülər. Məşrutəyə qarşı olan şah 1908-ci ildə Tehranda parlamenti atəşə tutub, fövqəladə vəziyyət elan etdi. 1908-1909-cu illərdə isə məşrutəçilərin mərkəzi olan Təbrizə şah qoşunları hücum etdi. Aylarla davam edən mücadilədə Səttarxan və Bağırxanın fədailəri şah ordusunun Təbrizə girməsinə mane olsa da, son nəticədə şaha dəstək olan Rusiya ordusu Təbrizi işğal etdi. Lakin məşrutəçilər 1909-cu ildə Məhəmmədəli şahı zorla istefaya göndərib ölkədən qova bildilər. Onun yerinə gələn Əhməd şah isə azyaşlı və zəif bir siyasətçi idi. Onun dövründə İran İngiltərə ilə Rusiyanın təsiri altına düşdü. Məşrutə inqilabı məğlub olsa da, özündən sonra gələn M.Xiyabani, S.C.Pişəvəri kimi azadlıq xadimlərinə böyük ilham qaynağı oldu. Məşrutə inqilabının Səttarxan, Bağırxan, M.Xiyabani kimi qəhrəmanlarına böyük dəyər verən S.C.Pişəvəri özünü məşrutəçilərin varisi adlandırmışdı (Pişəvəri, 1984, s.405; Mir Cəfər Pişəvəri.., 2023, s.20).Əhməd şahın dövründə məşrutənin məhv edilməsi öncə Mirzə Kiçik xanın Cəngəli üsyanı nəticəsində sovet dəstəkli Gilan Respublikasının yaranması və M.Xiyabaninin Qacar hökumətinə qarşı üsyanı nəticəsində "Azadistan"

hökumətinin qurulması ilə nəticələndi. Sovet Rusiyası hər iki hərəkatı da öz təsiri altına almaq istəsə də ala bilmədi. Bolşeviklərin təsiri ilə 1919-cu ildə iranlıların Ədalət Partiyasının əsasında yaradılmış İran Kommunist Partiyasının (İKP) rəhbər şəxsləri – keçmiş məşrutəçi, urmiyalı Heydər Əmioğlu və S.C.Pişəvəri Mirzə Kiçik xanın Cəngəli hərəkatında aktiv rol almış, Gilan Respublikasının hökumətində təmsil olunmuşdular. Lakin Mirzə Kiçik xan sovetlərin sərt sosializm xəttindən narazı idi və son nəticədə Heydər Əmioğlu Gilanda öldürüldü (Rüstəmova-Tohidi, 2001, s.205, 225). Heydər Əmioğlu dəfələrlə V.İ.Leninlə və N. Nərimanovla görüşmüş mübariz bir kommunist lider idi (Şəmidə, 1972, s.6). Onun öldürülməsi nəticəsində sovetlərin dəstəyindən məhrum qalan Mirzə Kiçik xan şah ordusu tərəfindən qətl edildi və hərəkatın bir çox üzvləri kommunist ittihamı ilə həbs edildi. Mirzə Kiçik xan kimi M.Xiyabani də əvvəllər sovetlərə rəğbətlə yanaşmış, lakin ölkəni işğaldan qorumaq üçün sovetlərlə əməkdaşlığa getməmişdi. İlk öncə İran Demokrat Partiyasının Azərbaycan Əyalət Komitəsinin rəhbəri olan M.Xiyabani 1917- ci ildə "bütün demokratik qüvvələri öz sıralarında birləşdirən" (Tağıyeva, 2000, s.192) Azərbaycan Demokrat Partiyasını yaratmışdı. O, Sovet Rusiyasının və ya Osmanlı Türkiyəsinin hakimiyyəti altına girməkdən imtina etmişdi. M.Xiyabani Osmanlı dövlətinin Cənubi Azərbaycanı zəbt siyasətinə qarşı çıxdığı üçün həbs və sürgün olunmuşdu. Daha sonra M.Xiyabani Ə.Qəvamın qardaşı olan Qacar dövlətinin Baş naziri H.Vüsuqüddövlənin məşrutə əleyhinə olan siyasətini qəbul etmədiyi üçün Cənubi Azərbaycanda "Azadistan" muxtariyyətini qurmuş, lakin 1920- ci ildə şah rejimi tərəfindən öldürülmüşdür. İranın və onun tərkibindəki Azərbaycan əyalətinin demokratik qanunlarla idarə olunmasını arzu edən və bu yolda mübarizə aparan M.Xiyabani millətindən asılı olmayaraq bütün demokratları qardaş sayırdı (Azadlıq yolunda.., 1988, s.22). M.Xiyabaninin şəxsiyyətinə və mübarizəsinə böyük əhəmiyyət verən S.C.Pişəvəri onun bu sözlərini öz məqaləsində xüsusi olaraq

qeyd etmişdi: "Ey əziz Azərbaycan! Sən elə bir işıqlı gözsən ki, İran sənin vasitənlə mədəniyyətə baxır. Sən İranın mühafizi olmaqla bərabər ona rəhbərlik etmisən" (Novruz, 1945, 11 noyabr, s.3). S.C.Pişəvəri yazırdı ki, xalq kifayət qədər təşkilatlanmadığı üçün Xiyabani hərəkatı məğlub oldu. O, M.Xiyabanini "quru çöldə bitən bir gül" adlandırmış, xalqın onu tam başa düşmədiyini göstərmişdi (Pişəvəri, 1984, s.416). M.Xiyabaninin Qacar mütləqiyyətinə və xarici imperializmə qarşı mübarizəsi Xorasanda təbrizli polkovnik Məhəmmədtağı Püsyan tərəfindən davam etdirildi. Lakin o, işğalçı ingilis imperialistlərini və Ə.Qəvam kimi xalq düşməni bir valini qovmağa nail olsa da, son nəticədə 1921-ci ildə qətl edildi. "Azərbaycan" qəzetində o, "Təbrizin halal südünü əmən" şəxsiyyət kimi tərif edilib (Müciri, 1948, 10 iyul, s.3). 1925-ci ildə Əhməd şah Qacarı taxtdan salaraq hakimiyyətə gələn Rza şahın əsas fəaliyyətindən biri Cənubi Azərbaycanı iki hissəyə - mərkəzi Təbriz olan üçüncü ostana və mərkəzi Urmiya olan dördüncü ostana bölmək, Azərbaycan məktəblərində ana dilində danışmağı qadağan etmək oldu (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.3). Urmiyanın adı şahın şərəfinə Rizaiyyə adlandırıldı ("Azərbaycan" qəzeti.., 2022, s.743; Милов, 1953, с.50-51). Adətən üçüncü və dördüncü ostanlara bir ostandar (vali-Ə.F.) təyin edilirdi və onun iqamətgahı Təbrizdə yerləşirdi. Zəncan bölgəsi isə Azərbaycan ostanlarına daxil edilmədi (Милов, 1953, с.50-51). Halbuki S.C.Pişəvərinin də dediyi kimi Zəncan vilayətinin əhalisi dil, adət-ənənə baxımından tamamilə azərbaycanlıdırlar və Zəncan vilayətinin başçıları Qacarlar dövründə Təbriz hakimləri tərəfindən təyin edilirdi (Azərbaycan Demokrat Firqəsinin sədri.., 1946, 18 iyun, s.4). Beləliklə, Pəhləvilərin sayəsində İranda "Vahid İran milləti" nəzəriyyəsinə əsaslanan paniranizmə – fars şovinizminə əsaslanan dövlət siyasəti qəbul edildi, uşaq bağçalarından etibarən bütün məktəblərdə tədris dili ancaq fars dili oldu (Bayramzadə, 1991, s.47-48). 1925-26-cı illərdə Hərbi Nazirlik nəzdində yaradılmış xüsusi dil komissiyası İran ordusunda işlənilən bir sıra türk

hərbi terminini fars terminləri ilə əvəz etdi. 1934-cü ildə İran parlamentinin qəbul etdiyi qanuna görə fars dilindən başqa dillərdə məktublaşma, işlər, ərizələr qəbul edilməyəcək və baxılmayacaqdı. Burada həmçinin məmurların fars dilindən başqa yerli dilləri bilməsinin zəruri olmadığı qeyd edilmişdi (Mustafayev. Cənubi Azərbaycan.., s.77). Vahid bir kök dilə əsaslanan "İran milləti" nəzəriyyəsini tənqid edən "Azərbaycan" qəzeti yazırdı ki, azərbaycanlıların farslardan fərqli, özünəməxsus ana dili var və bu dil Azərbaycan dilidir, bu millət Azərbaycan millətidir. "Vahid İran milləti" nəzəriyyəsi səhvdir, İranda müxtəlif millətlər var (Tehran radiosu.., 1946, 6 fevral, s.1, 4).Rza şahın əmri ilə ölkədə azad mətbuat, söz azadlığı məhdudlaşdırıldı. Bu istiqamətdə 1931-ci ildə kommunist fəaliyyətləri, kommunist yönümlü mətbuat qadağan edildi, kommunistlərə qarşı həbs dalğası başladı. Eyni dövrdə Stalinin rəhbərlik etdiyi sovet repressiyası şəraitində SSRİ-də yaşayan mühacir iranlı kommunistlərə qarşı bir çox cinayət işi açıldı. Onların əksəriyyəti, o cümlədən, Berlində tələbə ikən Tağı Əranini kommunist sıralarına cəlb etmiş Mürtəza Ələvi, Gilan inqilabının rəhbərlərindən Ehsanullah xan Dustdar, iranlıların sosial-demokrat Ədalət Partiyasının rəhbərlərindən biri olan Bəhram Ağayev Qərb ölkələrinə casusluq ittihamı ilə haqsız yerə repressiyaya məruz qalıb həbs və ya qətl edildilər (Rüstəmova-Tohidi, 2001, s.405-406, 433-435). Həmçinin Sovet İttifaqında yaşayan İran kommunistlərinin köhnə nəsli 30-cu illərdə demək olar ki, məhv edildi. Sağ qalanlar isə ancaq Stalinin ölümündən sonra bəraət aldılar. S.Tohidi-Rüstəmova göstərir ki, 1930-cu illərdə Azərbaycan SSR-də yaşayan iranlı mühacirlərin əksəriyyəti repressiyaya məruz qalıb İrana geri göndərildilər (Rüstəmova-Tohidi, 2001, s.425, 435-436).Rza şah dövrünün əsas azərbaycanlı ziyalılarından biri olan Tağı Ərani Berlin Universitetində fizika-kimya, fəlsəfə təhsili və doktorluq elmi dərəcəsi almış, universitetdə şərq ədəbiyyatından dərs demişdir. O, Tehrana qayıtdıqdan sonra burada "Komintern"in (Beynəlxalq Kommunist Təşkilatı-Ə.F.)

dəstəyi ilə İran Kommunist Partiyasının yerli özəyini yaratmış, həmçinin universitetdə və orta məktəblərdə elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşdur. "Azərbaycan" qəzeti T.Əraninin bölgədəki inqilabi, elmi-fəlsəfi hərəkata təkanverici qüvvə olmasını göstərir və yazırdı ki, İranda elə bir ziyalı tapılmaz ki, Azərbaycanın qəhrəman alimi və mübariz oğlu doktor Əraninin elmi, fəlsəfi əsərləri ilə tanış olmasın (Müciri, 1948, 21 iyul, s.3)."Ancaq xalqın mənafeyini müdafiə edən qanun müqəddəsdir" (Azadlıq yolunun.., 1988, s.23) deyən T.Ərani təbii ki, Rza şah diktaturasına tabe ola bilməzdi, buna görə də öz elmi, inqilabi fikirləri ilə şah rejiminə qarşı mübarizəyə başladı. T.Ərani 1930-cu illərdə Tehranda İrəc İsgəndəri və Bozorq Ələvi ilə birlikdə "Dünya" jurnalını çap etdirməyə başlamış, marksist ziyalıları jurnalın ətrafında toplamışdı. Jurnal gənclər arasında marksizmi təbliğ edir, elmi yeniliklər, demokratik dünya nizamı və s. məsələlər haqqında oxuculara məlumat vermişdi. "Azərbaycan" qəzeti yazırdı ki, "Dünya" jurnalı bir çox cavanı qəflət yuxusundan oyatdı və ilk dəfə olaraq İranda hökm sürməkdə olan orta əsrlərə aid çürümüş və köhnə fikirlərə sarsıdıcı zərbələr vurdu. Doktor Ərani İranda elm və bilik silahıyla xalqa mübarizə yolunu öyrədən ilk adamdır. T. Ərani özü "Dünya" jurnalını "oksigensiz məhbəsin (türmə-Ə.F.) fəzasında əsən səhərin təmiz nəsimi (meh-Ə.F.)" adlandırmışdı (Xalqımızın.., 1949, 9 fevral, s.1, 4)."Dünya" jurnalı öz məzmunu cəhətdən İranda çap olunan digər jurnal və qəzetlərdən fərqlənirdi. Cavan nəsil bir çox elmi məsələlərin həqiqətini "Dünya" jurnalından öyrənirdi (Şəmidə, 1948, 24 aprel, s.1). Lakin Qərb imperializminə və Pəhlə- vilərə qarşı mübarizədə "Dünya" jurnalı demək olar ki, tək idi. Nəşrinə icazə verilmiş digər mətbu orqanlarının əksəriyyəti "pula satılmış idi və Rza xan diktatorluğunun məddahı idilər" (Şəmidə, 1948, 24 aprel, s.1, 4). Hökumətə müxalif mövqeyinə görə "Dünya" jurnalı təxminən ilyarımlıq fəaliyyətindən sonra 1935-ci ildə İran Mədəniyyət Nazirliyinin göstərişi ilə bağlandı. Özü isə həbs edilib 1940-cı ildə işgəncə ilə öldürüldü (Rza xanın..,

1948, 10 noyabr, s.4). Bu faciəvi hadisə nəinki “Təbrizin ürəyini dağlamış”, bütün İranı və Azərbaycanı yasa bürümüşdür (Müciri, 1948, 10 iyul, s.3). T.Ərani ilə eyni dövrdə, eyni həbsxanada yatan S.C.Pişəvəri onun ideyaları ilə yaxından tanış idi. S.C.Pişəvəri onu “İran hürriyyətçilərinin başı və rəhbəri” adlandırır və qəsdən öldürüldüyünü yazırdı (Pişəvəri, 1984, s.165). T.Əraninin mütərəqqi ideyaları “Azərbaycan” qəzetində təbliğ edilir, mütəfəkkirin inqilabi mübarizəsi, elmi-fəlsəfi fikirləri təqdim edilir, onun şanlı həyat yolu gənc nəsillərə nümunə göstərilir. Qəzetdə T.Əraninin “Sülh və demokratiya uğrunda mübarizə bütün dünya cavanlarının müştərək hədəfidir” adlı məqaləsi nəşr olunmuşdur (Tağı Ərani.., 1948, 24 noyabr, s.1). Qəzet yazırdı ki, Azərbaycanın yeganə alimi, bacarıqlı və şücaətli oğlu doktor Ərani birinci dəfə olaraq məntiq və elm silahı ilə istibdad və diktatorluq əleyhinə qiyam etmişdi (Azərbaycan milləti.., 1948, 4 avqust, s.1). Həmçinin göstərilirdi ki, T.Ərani cəlladlar əlində məhv olsa da, onın arzu və əməlləri həmfikirlərinin ürəyində əbədi olaraq yaşayacaqdır. Onun yetişdirdiyi tələbələr həmin arzuların carçısı və davam etdirənləri olub bu yolda çalışmaqdadırlar (Cahanşahlı, 1948, 7 fevral, s.3). “Azərbaycan” qəzetində nəşr olunan bir şeirdə belə yazır: “Qədrini bilmədi hər nadan sənin, Məskənin oldusa daş zindan sənin, Ərani! Ayrıdır öz “Dünya”n sənin, Mərkəzi könüllər otağındadır” (Azəroğlu, 1948, 7 fevral, s.3). T.Ərani Pəhləvi hakimiyyəti tərəfindən həbs edilib öldürülsə də, onun ideyaları və davamçıları İranda və Cənubi Azərbaycanda Pəhləvi monarxiyasına qarşı inqilabi mübarizə ideyasının öncülü olmuş, İranda marksist-materialist inqilabi hərəkatın, Tudə Partiyasının yaranmasına səbəb olmuşdur (Hizbi-Tudeyi-İ- ran.., 1948, 13 oktyabr, s.1).Rza şahın Hitler hökuməti ilə müttəfiqlik əlaqələri, bir sıra iqtisadi, siyasi, hərbi müqavilələrin bağlanması, İranda alman agenturasının güclənməsi və faşizmin təbliği (Иванов, 1977, с.345) 1941-ci ildə SSRİ-nin və Böyük Britaniyanın İrana hücum etməsinə, Rza şahın istefasına, onun oğlu Məhəmmədrza şahın hakimiyyətə gəlməsinə

səbəb oldu. Bu isə Ərani tərəfdarlarının həbsdən azad edilməsinə və onların İran Tudə Partiyasının əsasını qoymalarına imkan yaratdı (Abrahamian, 1983, p.282). Tudə Partiyası Sovetlərin dəstəyi və təsiri altında fəaliyyət göstərməyə başladı (Bayramzadə, 2015, s.158). Sovet hökuməti tərəfindən Cənubi Azərbaycana göndərilən Azərbaycan Kommunist Partiyasının III katibi Əziz Əliyevin başçılıq etdiyi qrupun Təbrizdəki fəaliyyəti burada həm marksizm-leninizmin, həm də milli ideyaların inkişafına xüsusi şərait yaratdı. Onların başçılığı ilə Təbrizdə "Vətən yolunda", "Qızıl əskər" və s. ana dilində qəzetlər yayınlandı (Ələkbərli, 2021, s.117-118). "Vətən yolunda" qəzetində Cənubi Azərbaycan ziyalılarının sovet quruluşunu, Qızıl Ordunu mədh edən əsərləri, fikirləri təqdim edilirdi (İranın və Cənubi Azərbaycanın.., 1945, 22 iyun, s.2). Qəzetin nəzdində "Şairlər məclisi" yaradılmışdı. Onun eyni adlı aylıq məcmuəsi də var idi (Məmmədli. Əsrlərlə..). Bu mətbu orqanlarında milli maarifçilik, faşizmə qarşı mübarizə, sovet ideyaları təbliğ edilirdi. Təbriz şairlərinin sovet sistemini mədh edən və Stalinə göndərdikləri məktub "Kommunist" qəzetində yer almışdı. Məktubda Əli Fitrət, Mir Mehdi Çavuşi və digərlərinin Stalin konstitusiyasına həsr etdiyi şeirlər əks olunmuşdu:"Sayəndə sənin çatdı bu eşq əhli vüsalə, Bir də bilirik batmayacaq dərdə, məlalə" (Xəndan, 1946, 5 dekabr, s.4; Əliyev, 2020, s.110). Ə.Tudə, İ.Zakir və s. ərdəbilli şairlərin sovet hökumətini, SSRİ zəhmətkeşlərini mədh edən şeirləri də "Kommunist" qəzetində təqdim edilmişdi (Ərdəbil şairlərinin.., 1945, 7 dekabr, s.3). Bakıya səyahət edən güneyli şair Məmmədəli Səfvətin "Yaşa, Azərbaycan!" deyərək mədh etdiyi Sovet Azərbaycanı haqqındakı "Bakıya səfər" adlı şeiri də "Kommunist" qəzetində yer almışdı (Səfvət, 1945, 28 iyun, s.1; Əliyev, 2020, s.110). Sovet hökuməti güneyliləri Pəhləvi zülmündən xilas etdiyi üçün Cənubi Azərbaycanda rəğbətlə qarşılanmışdı. Bu dövrdə Təbrizdəki sovet konsulluğunda diplomatik fəaliyyət göstərən H.M.Həsənov özünün "Cənubi Azərbaycanda Milli Demokratik

Hərəkat: (1941-1946- cı illər)" adlı əsərində göstərirdi ki, sovetlərin İrana müdaxiləsi Cənubi Azərbaycan əhalisinin, xüsusilə milli ziyalıların ictimai-siyasi, milli fəallığının artmasına səbəb oldu (Həsənov, 2004, s.75-76).

Sovet İttifaqı ilə mədəni rabitə (əlaqə) saxlayan İran cəmiyyətinin Təbriz şöbəsi, Təbrizdə yaradılan "Sovet İttifaqının dostları cəmiyyəti" və "Sovet Azərbaycanının dostları cəmiyyəti" qarşılıqlı elmi, mədəni, iqtisadi münasibətlərin inkişafında böyük rol oynadılar (Vəkilov, 1991, s.49-50, 53, 99, 100). Bu cəmiyyətlərin təşkilatçılığı ilə Cənubi Azərbaycanda milli mədəniyyətin inkişafı üçün Heyran xanımın, M.Ə.Möcüz Şəbüstərinin, C. Məmmədquluzadənin və s. müəlliflərin əsərləri nəşr edilmiş (Məmmədli, 1946, 6 yanvar, s.3) və s. kitab, qəzet nəşrləri, elmi-kütləvi, mədəni-maarif tədbirlərinin təşkili, Azərbaycan və rus dillərinin tədrisi, həm də hərbi vətənpərvərliyin, sosializm ideyalarının təbliği üçün fəaliyyət aparılmışdı (Vəkilov, 1991, s.65, 76). Bu siyasət Cənubi Azərbaycanda və ümumilikdə İranda kommunizm ideyalarının da inkişafına xidməti nəzərdə tutmuşdu. İran Kommunist Partiyasının davamı olan Tudə Partiyası ölkədə etirazlara səbəb olmasın deyə bu adı seçmişdi. Tudə Partiyası milli kimliyindən asılı olmayaraq sosialist ideyalı bütün İran zəhmətkeşlərini öz ətrafında birləşdirən bir partiya idi və onun faşizm əleyhinə mübarizəsi sonralar ADF tərəfindən də yüksək qiymətləndirilmişdi (Çeşmazər. Azərbaycan.., s.17). "Azərbaycan" qəzetində Tudə Partiyası İranda birinci mütərəqqi və hürriyyətçi təşkilat adlandırılmışdır (Əhmədzadə, 1948, 6 oktyabr, s.1).Tudə Partiyası 1941-ci ildə Qacarlardan olan təbrizli sosial-demokrat Süleyman Mirzə İsgəndərinin rəhbərliyində yaradılmışdı. Xalqın tələbi ilə təşkil edilən Tudə Partiyasının qurucuları T.Əraninin davamçıları idi və "53-lər" adlanan bu qrup T.Əranini partiyanın "mənəvi qurucusu" saymışdı (Abrahamian, 1983, p.162). Bu qrupun Ənvər Xamei, Mürtəza Ələvinin qardaşı Bozorq Ələvi, Ehsan Təbəri, Qacar nəslindən olan Əbdüssəməd Kambəxş və İrəc

İsgəndəri, Rza Radmaneş, Mürtəza Yəzdi, Məhəmməd Bəhrami və s. üzvləri Tudə Partiyasının qurucu üzvləri olub partiyanın rəhbərliyində təmsil olunmuşdular (Abrahamian, 1983, p.286). “53-lər”dən biri olan Nüsrətullah Cahanşahlı sonralar ADF-nin rəhbər heyətində təmsil olunmuşdu.“Azərbaycan” qəzeti yazırdı ki, T.Ərani azadlıq yolunda xainlərin əliylə öldürülsə də, o, məntiqi məfkurənin, mütərəqqi quruluşun elmi toxumunu əkdi və həmişəlik olaraq İran xalqını öz xidmətlərinə borclu qoydu (Azərbaycan millətі.., 1948, 4 avqust, s.1). “Azərbaycan” qəzeti S.C.Pişəvərinin yaratdığı Azərbaycan Demokrat Firqəsini T.Ərani yolunun davamçısı adlandırmışdır (Xalqımızın.., 1949, 9 fevral, s.4). Azərbaycan xalqı Təbrizin yetişdirdiyi bu böyük alimin, mərd inqilabçı və səmimi insanın xatirəsini həmişə əziz saxlayacaqdır. T.Ərani İranda elmi bir silahla azadlıq hərəkatının tarixinin mühüm bir səhifəsini təşkil edib. O, öz canını azadlıq hərəkatına qurban verdi (Həbibi, 1948, 31 iyul, s.1). Lakin özündən sonra böyük izlər qoyaraq, gələcək nəsillərə, inqilabi hərəkatlara mühüm təsir göstərdi. Müasir Azərbaycan nəsli də bu şanlı tarixdən ibrət götürməlidir. “Azərbaycan” qəzetinin dediyi kimi - “Səttarxan, Şeyx Xiyabani, Əranilərdən mübarizə və qəhrəmanlıq dərsi almalıyıq” (Müciri, 1948, 25 dekabr, s.4). Əranilər məhv edilsə də, Cənubi Azərbaycan əhalisi İranda diktatura, irtica və faşizm əleyhinə öz töhfəsini verdi. Mübariz, vətənpərvər, demokratik və milli ziyalılar 1941-ci ildə Təbrizdə yaradılmış “Azərbaycan Cəmiyyəti”ndə birləşmişdi. “Azərbaycan Cəmiyyəti”nin qurucuları Mirzə Əli Şəbüstəri, İsmayıl Şəms və b. idi (Ələkbərli, 2021, s.114). “Azərbaycan cəmiyyəti” Azərbaycan və fars dillərində ”Azərbaycan” adlı qəzet nəşr edirdi. Qəzet yazırdı ki, ”Bizim məqsəd və proqramımız azadlıq, yəni sosial və milli azadlıq əldə etməkdir”. “Milli və ictimai azadlıq” uğrunda mübarizə edən cəmiyyət siyasi sahədə demokratik konstitusiya və məşrutə üsul-idarəsinin əməldə həyata keçirilməsnin, əyalət əncüməninin təşkil edilməsini, Milli Məclisə

nümayəndələrin xalq tərəfindən seçilməsini, hakim sinif və təbəqələrin mənafeini müdafiə edən qanunlara yenidən baxılmasını, Azərbaycanın qanuni hüquqlarının müdafiə edilməsini və s. tələb edirdi. Cəmiyyətin proqramının iqtisadi tələbləri sırasında Azərbaycanda yeni sənaye obyektləri tikilməsi, işsizliyin aradan qaldırılması, Azərbaycanın sərvətinin həmin və digər məqsədlə əyalətdə sərf olunması kimi tələblər qeyd olunurdu. "Azərbaycan azərbaycanlılar üçündür" şüarı ilə çıxış edən cəmiyyət mədəni sahədə "mütləq azadlığa", yəni dil, adət-ənənə azadlığına tamamilə riayət olunmasını, ana dilində bütün tədris və kitab nəşr edilməsini və s. tələb edirdi (Mustafayev. Cənubi Azərbaycan.., s.82-83). Milli maarifçilik mövzusunda fəal mübarizə aparan cəmiyyət Cənubi Azərbaycanı İrandan ayırmağı qarşısına məqsəd qoymamışdı və İran daxilində demokratik azadlıqları təbliğ edirdi (Şəms. Tərcümeyi-halım.., s.14).Cəmiyyətin "Azərbaycan" qəzeti vahid "İran milləti"ni vətəndaş cəmiyyəti kimi başa düşür və göstərirdi ki, fars dili İranın müstəqilliyinin yeganə əlaməti ola bilməz. Buna görə də Azərbaycan dili Azərbaycan millətinin ayrılmaz bir əlamətidir (Mustafayev. Cənubi Azərbaycan.., s.84). Azərbaycan mətbuatı tarixində ilk dəfə "Azərbaycan" qəzeti səhifələrində İranın digər azərbaycanlıları haqqında məlumat verilmişdi. "Azərbaycan" qəzeti göstərirdi ki, Araz çayından Həmədana qədər, Həmədan ətrafında, Xəmsə vilayətində azərbaycanca danışırlar. Bundan əlavə 200 minlik Qaşqay tayfasının ana dili də Azərbaycan dilidir. Qəzet yazırdı ki, Azərbaycan milləti ən bədbəxt millətdir, çünki onun ürəyində qalan bircə arzusu var, o da öz ana dilində danışmaq imkanına malik olmaqdan ibarətdir (Mustafayev. Cənubi Azərbaycan.., s.86). Təsadüfi deyil ki, Cənubi Azərbaycan əhalisi ilə yanaşı qaşqaylar da Pəhləvilərə qarşı dəfələrlə üsyan etmiş, lakin məğlub olmuşdular (Aghdam, 2011, s.44). Cəmiyyətin "Azərbaycan" qəzetinə görə - "Kim ki, bizim dilimizə, ənənələrimizə, sərvətimizə qəsd etmək istəsə, biz onu öz

düşmənimiz sanacaq və son nəfəsimizə qədər onları məhv etməyə çalışacağıq". Milli maarifçilik uğrunda mübarizə aparan "Azərbaycan cəmiyyəti" və onun "Azərbaycan" qəzeti 1942-ci ildə hökumətin əmri ilə bağlandı ((Mustafayev. Cənubi Azərbaycan.., s.85, 87). S.C.Pişəvəri yazır ki, "Azərbaycan Cəmiyyəti"nin əsas rolu ondan ibarət idi ki, o, Azərbaycan naminə, Azərbaycan təəssübü ilə işə başlamışdı (Pişəvəri, 2005, s.26-27). "Azərbaycan" cəmiyyəti və onun "Azərbaycan" qəzeti bağ- lansa da mübarizə dayanmadı və 1942-1943-cü illərdə Cənubi Azərbaycanda "Ziddi-faşist Cəmiyyəti", Azərbaycan Zəhmətkeşlər İttifaqı, daha sonra 1944-cü ildə Azərbaycan Fəhlə və Zəhmətkeşləri Həmkarlar İttifaqı, Demokratiya Tərəfdarları Mərkəzi, Azadlıq Cəbhəsinin yerli təşkilatı kimi qurumlar yaradıldı. Cənubi Azərbaycanın digər şəhərlərində də bənzər antifaşist, demokratik təşkilatlar quruldu. Təbrizdə və Ərdəbildə antifaşist "Yumruq" qəzeti nəşr olundu (Çeşmazər. Azərbaycan.., s.14, 17). "Yumruq" qəzeti "Ziddi-faşist Cəmiyyəti"nin orqanı olub M.Biriya, M. Vilayi kimi güclü yazarları var idi (Pişəvəri, 2005, s.32). Cənubi Azərbaycanda dövrün ən güclü milli ideoloqu S.C. Pişəvəri (1893-1947) idi. O, kiçik yaşlarında ailəsi ilə birgə Bakıya köçmüş, orta məktəbi burada bitirmiş, Bakının Xırdalan kəndində pedaqoji və jurnalistlik fəaliyyəti ilə məşğul olmuşdur. İranlı tarixçi R.Rəisniya göstərirdi ki, onun ilk məqaləsi 1917-ci ildə, Müsavat Partiyasının ilk orqanı olan "Açıq söz" qəzetində dərc olunmuşdur. S.C.Pişəvəri İran Sosial-Demokrat ("İctimaiyyun-Amiyyun") Partiyasının Bakıdakı iclaslarında iştirak etmiş, iranlıların Ədalət Partiyasının rəhbərlərindən biri, partiyanın "Hürriyyət" qəzetinin yazarı, daha sonra isə baş redaktoru olmuşdur. O, 1920-ci ildə Gilan inqilabına dəstək üçün partiya tərəfindən Rəştə göndərilmiş (Tağıyeva, 2000, s.249-251), orada aktiv siyasi fəaliyyətlə məşğul olmuşdur. Pişəvəri İran Kommunist Partiyasının Ənzəlidə keçirilmiş qurultayında iştirak etmiş, partiyanın Mərkəzi Komitəsinə məsul katib (Pişəvəri, 2005, s.12-15) və

partiyanın "Kommunist" qəzetinin baş redaktoru seçilmişdir. O, daha sonra Gilan hökumətində nazir vəzifəsini tutmuş, hökumətin süqutundan sonra Bakıya qayıtmış, Şərq xalqlarının qurultayında iştirak etmişdir. İrandakı demokratik hərəkatdan ayrılmaq istəməyən S.C.Pişəvəri Tehrana gedərək, burada Həmkarlar İttifaqının təşkilində iştirak etmiş, 1921-1922-ci illərdə Həmkarlar İttifaqının "Həqiqət" qəzetinin baş yazarı kimi Əhməd Pərvizi imzası ilə fəaliyyət göstərmişdir. S.C.Pişəvərinin 70-dən çox məqaləsi burada nəşr edilmişdir (Mədətli, 2011, s.170-171).S.C.Pişəvəri "İqtisadi əsarət", "Dünya fəhlələrinin inqilabı", "İranda ideoloji inqilab", "Səfalət haradandır", "Vahid cəbhə", "Əsaslı çarə gərəkdir", "Paris kommunası", "Məclisdəki siyasi firqələr", "Azadlığı qorumaq millətin vəzifəsidir" və s. tənqidi məqalələri ilə "Həqiqət" qəzetinin səhifələrində çıxış etmiş (Rəhimli. Pişəvərinin...), İran xalqlarını əsarətdən, haqsızlıqlardan və xarici asılılıqdan qurtarmaq fikrini təbliğ etmişdir. Son nəticədə hökumətə müxalif mövqeyinə görə qəzetin nəşri qadağan edildi (Tağıyeva, 2000, s.252). "Həqiqət" qəzetinin 106-cı son nömrəsində S.C.Pişəvərinin yazdığı "İkiqat irtica" adlı məqaləsi qəzetin həmişəlik bağlanması üçün dövlətin əlində bəhanə olmuşdu. Adı çəkilən məqalədə S.C.Pişəvəri yazırdı: "Ölkənin bərbad vəziyyəti hamıya məlumdur. İrticai hökumət başçıları ölkənin qanunlarını yaddan çıxarıb istibdad və mütləqiyyət dövrünü yenidən dirçəltmişlər. Hərbi hökumət hər yerdə özbaşınahq edir. Bu gün bıçaq sümüyə dirənmişdir". Pişəvərinin xalqı diktaturaya qarşı mübarizəyə çağıran bu məqaləsi o dövrdə Hərbiyyə naziri olan və hakimiyyətə can atan Rza xanı narahat etməyə bilməzdi (Rəhimli. Pişəvərinin...) və qəzetin bağlanması ölkədə Rza xan diktaturasının ilk addımlarından biri oldu (Mədətli, 2011, s.172). İrandakı ictimai-siyasi vəziyyət, xüsusilə 1931-ci ildə İranda kommunizm təbliğatının rəsmən qadağan edilməsi S.C.Pişəvərini zahirən də olsa kommunizm şüarlarından imtina etməyə məcbur etdi.

Lakin o, həmçinin İran Kommunist Partiyasının rəhbərlərindən biri olan rəştli Ardaşes Ovanesyan və İKP-nin bir çox məsul üzvü polis tərəfindən həbs edildi. İKP öz fəaliyyətini dayandırmağa məcbur oldu (Rüstəmova-Tohidi, 2001, s.408). Bu, İranda demokratik hərəkata böyük zərbə oldu. Çünki bu dövrdə Pəhləvilərin irqçi, mürtəce siyasətinə məhz İKP qarşı çıxmış, 1927-ci ildəki ikinci qurultayında xüsusi qərar qəbul etmişdi. Qərarda İranda müxtəlif millətlərin - ərəb, türkmən, kürd, türk millətlərinin yaşaması, onların İran feodalları və ingilis imperializmi tərəfindən ikiqat zülmə məruz qalması göstərilir, İranda milli azlıqlar məsələsinə böyük əhəmiyyət verilirdi. Qurultayın qəbul etdiyi 2 №-li qətnamədə deyilirdi: ”İran Kommunist Partiyası öz proqramına bütün kommunist partiyalarının milli məsələ barəsində ümumi tələbi və şüarını, yəni hər bir millətin özünün tam müstəqilliyi, hətta mərkəzi hökumətdən ayrılmaq hüququ şüarını daxil etməli və həmin şüara uyğun hərəkət etməlidir” (Mustafayev. Cənubi Azərbaycan.., s.79). Beləliklə, İKP sovet təsirində olsa da, milli məsələlərdə İrandakı qeyri-farsların milli-mədəni hüquqlarını tanımış, öz sənədlərində İran azərbaycanlılarını türk milləti kimi qeyd etmişdir. İKP-nin İrandakı fəaliyyəti hər nə qədər sinfi mahiyyət daşısa da, onun qəbul etdiyi qərarlar Cənubi Azərbaycan əhalisinin Pəhləvi zülmünə qarşı mübarizəsində, xalqın milli şüurunun inkişafında mühüm rol oynadı (Mustafayev. Cənubi Azərbaycan.., s.96; Ələkbərli, 2021, s.107). S.C.Pişəvəri yazırdı ki, Rza şah Azərbaycan xalqından və onun azadlığa olan inamından həmişə narahat olduğuna görə orada firqə naminə heç bir ciddi müəssisənin yaradılmasına imkan verilməmişdir. Bəzi zəhmətkeş və “rövşən” (açıq-Ə.F.) fikirlilər vasitəsilə təşəkkül tapan İran Kommunist Firqəsinin Azərbaycandakı təşkilatı daha çox məhdud dairədə və fövqəladə gizli fəaliyyət göstərməsinə baxmayaraq, onun fəal üzvləri başqa hürriyyətçilərlə birlikdə Qəsri-Qacar həbsxanasında diri-diri basdırılmışdır (Pişəvəri, 2005, s.12-15). Bu acı proses

Rza şahın hakimiyyətdən qovulmasına qədər davam etdi.S.C.Pişəvəri 1930-1940-cı illərdə Tehranda Qəsri-Qacar zindanında kommunistlik ittihamı ilə həbsdə olarkən buradan qurtulmaq və yenidən gizli mübarizəyə başlamaq üçün müstəntiqə verdiyi ifadədə qəsdən etmədiyi günah və səhvlərə görə əlahəzrət şahdan əfv olunmasını xahiş etmiş və demişdi ki, mən daha bu əqidədə deyiləm. Bu əqidənin İranda ayaq tutması çox tezdir. Kommunistlər fəhlə sinfinə arxalanırlar, onların dayağı bu sinifdir, bu sinif isə İranda yox dərəcəsindədir. Təsəvvür etmirəm ki, heç 100 il bundan sonra da fəhlələr bir sinif kimi ortaya çıxsın və millətimizin əksəriyyətini təşkil edə bilsin (Rəhimli, 2019, s.120-122). Lakin S.C.Pişəvəri siyasi şəraitə uyğun hərəkət edirdi və uyğun fürsəti gözləyirdi. Salamulla Cavid yazır ki, S.C.Pişəvəri İranın gələcəyi haqda öz mülahizələrində İranı hər şeydən əvvəl Pəhləvi diktaturasından xilas etməyi və ölkədə demokratik bir mühitin yaradılmasını, İran ərazisində yaşayan bütün xalqlara azadlıq verilməsini, onların tapdalanıb yox olmuş hüquqlarının qaytarılmasını xüsusi olaraq qeyd edirdi (Cavid. O günün.., s.38). SSRİ-nin və Böyük Britaniyanın tələbi ilə Rza şah hakimiyyətdən getdikdən sonra həbsdən azad olan S.C.Pişəvəri Tudə Partiyasının ilk özəyinin yaradılmasında bilavasitə iştirak etdi. Lakin o, İranda marksizmə-leninizmə əsaslanan dövlətin qurulmasının ilkin əsaslarının olmadığını və özünün demokratlığını, "Tudə"nin isə İrandakı qeyri-farsların haqlarını qorumadığını irəli sürərək partiyada rəhbər vəzifələrdən imtina etdi. Bir müddət sonra o, Tehranda nəşr etdiyi "Ajir" ("Həyəcan") qəzetində Rza şahın ölümü münasibətilə Məhəmmədrza şaha başsağlığı verdiyi üçün Tudə Partiyasından uzaqlaşdırıldı (Rəhimli. S.C.Pişəvərinin İran...). S.C.Pişəvərinin partiyadan qovulmasında xüsusi rol oynamış A.Ovanesyan sonralar Milli Hökumət dövründə Milli Məclisin sədri olmuş Hacı Mirzə Əli Şəbüstərini də millətçi mövqeyinə görə Tudə Partiyasından uzaqlaşdırdı (Abrahamian, 1983, p.396). M.Ə.Şəbüstəri göstərirdi ki, məşrutə dövründə

Azərbaycan xalqı qiyam edib İrana azadlıq verdi. İran isə məşrutənin qələbəsindən sonra da Azərbaycana zülm etdi (Abışov, 2023, s.15). M.Ə.Şəbüstərinin, o cümlədən, S.C.Pişəvərinin millətçi mövqeyi Tudə rəhbərləri tərəfindən qəbul edilməmişdi. A.Ovanesyanın Tudə Partiyasının orqanı olan "Rəhbər" qəzetindəki məqalələrində qeyri-farsların millətçilik hərəkatı tənqid edilmiş və göstərilmişdi ki, "Biz İranı parçalamaq istəyən İran azərbaycanlıları və kürd əhalisi arasındakı separatçı təşviqatçıları pisləyirik" (Rahbar). S.C.Pişəvəri Tudə Partiyası ilə özünün yaratdığı ADF arasındakı fikir ayrılığını izah edərək deyirdi ki, bizim firqəmiz (ADF-Ə.F.) kommunist firqəsi deyildi. Biz Azərbaycanda olan şərait daxilində xüsusi mülkiyyəti ləğv edə bilməzdik. Tudənin böyük səhvini təkrar etmək bizə yaramazdı. Milli bir firqə olduğumuz halda birinci addımda sinfi mübarizəni alovlandıra bilməzdik. Bizim hədəfimiz Azərbaycanda milli və demokratik bir rejim yaratmaqdır. Ona görə kommunist və ya sosialist adını üstümüzə qoya bilməzdik. Biz bunu bilib düşünərək demokrat adını qəbul etmişik (Rəhimli. S.C.Pişəvərinin İran...).S.C.Pişəvəri Azərbaycandakı ictimai, iqtisadi, siyasi, dini durumu nəzərə alaraq Tudə Partiyasını tərk etmişdi. Lakin o, hər nə qədər kommunist olmadığını desə də, V.İ.Lenini özünə rəhbər sayır, onu "məzlum xalqların azadlıq yolunu aydınladan günəş" adlandırırdı (Шамида, 1970, c.51) və marksizm-leninizm ideyalarına sadiq idi. Bu da ona etimad edən sovet dövləti tərəfindən ADF rəhbərliyinə gedən yolunu açdı. 1941-ci ildə yaradılmış Tudə Partiyasının Təbriz (Azərbaycan) Komitəsinə ilk zamanlar erməni olan A. Ovanesyanın rəhbərlik etməsi münasibətlərin korlanmasına səbəb olmuşdu. Təbii ki, S.C.Pişəvəri və onun himayədarı M.C.Bağırovu da bu məsələ narahat edirdi (Həsənli, 1998, s.101). Tudə Partiyasının Cənubi Azərbaycandakı təşkilatının rəhbərliyində Səttarxanın və M.Xiyabaninin keçmiş silahdaşlarından olmuş Əli Əmir Xizi də təmsil olunsa da, xalqın A.Ovanesyan kimi ermənilərə etibarı yox idi (Həsənli, 1998,

s.220). A.Ovanesyan da azərbaycanlıların ona olan münasibətini bildiyi üçün S.C.Pişəvərinin Tudə Partiyasının rəhbərliyindən uzaqlaşdırılmasında əsas rol oynamışdı (Rəhimli. S.C.Pişəvərinin İran...). İran hakimiyyət nümayəndələri, xüsusilə keçmiş Baş nazir və vali Seyid Ziyaəddin Təbatəbai bir ermənin Tudə Partiyasına rəhbərlik etməsini tudəçilərin əleyhinə dəlil kimi istifadə etmiş və demişdi ki, müsəlman dünyası Şəmsəddin Təbrizinin (Təbrizin məşhur orta əsr şairlərindən) yurdunda erməni Ardaşesin ağalıq etməsinə dözə bilməz (Həsənli, 1998, s.101). S.C.Pişəvəri də Tudə Partiyasının Azərbaycan təşkilatının xalq tərəfindən çox sevilməməsini və irəli gedə bilməməsini A.Ovanesyanla əlaqələndirmişdi. O, yazırdı ki, azərbaycanlılar qeyri-azərbaycanlı hürriyyətçilərə ürəkdən inanmadıqlarını dəfələrlə sübut etmişlər. Onların arasında milli təəssüb ciddi bir şəkil aldığından istər-istəməz qeyri azərbaycanlıya onların ürəkləri qıza bilmirdi. Onlar xaricdən gələn adamları mənimsəyə bilmirdilər (Pişəvəri, 2005, s.24). Məhz bu kimi səbəblərdən dolayı M.Bağırovun və S.C. Pişəvərinin dəstəyi ilə təbrizli tudəçi S.Badigan A.Ovanesyanın əvəzinə Tudə Partiyasının Təbriz (Azərbaycan) komitəsinə rəhbər seçildi (Həsənli, 1998, s.247). Tudə Partiyasının rəhbər xadimlərindən olan Əli Əmir Xizi partiyanın 1945-ci ilin yanvarında Urmiyada keçirilmiş Azərbaycan Əyalət Konfransının (Abrahamian, 1983, p.396) tədbiri zamanı çıxış etmiş və Azərbaycan təşkilatına böyük ümidlər bəslədiyini bildirmişdi (Həsənli, 1998, s.159). Konfransın təşkilində keçmiş məşrutəçi, Xiyabani hərəkatının iştirakçısı, mərəndli Nurullah Yekani mühüm rol oynamışdı. O, ADF-nin Xoy komitəsinin sədri, Urmiya polis idarəsinin rəisi, Milli Məclisin deputatı və Milli Hökumətdə Daxili işlər nazirinin müavini olmuşdur. “21 Azər” hərəkatının süqutu dövründə N.Yekani edam edilmişdir (“21 Azər-70”.., s.181). “Azərbaycan” qəzetində onun həyat və döyüş yoluna həsr edilmiş məqalə təqdim edilmişdi (Sərkari, 1948, 22 may, s.3).

Sovet və ingilis qoşunlarının müdaxiləsi ilə Rza şah hakimiyyətinin süqutu İrandakı seçki sistemini yumşaltmış, Tudə Partiyasının üzvlərinə və hürriyyətçilərə parlament yolu açılmışdı (Çeşmazər, 1991, s.19). Lakin seçkiyə qarşı çıxan ruhanilər də var idi və onlar xalqı şahın oyuncağı olan parlament və hökumət seçkilərində iştirak etməkdən çəkinməyə çağırırdılar. Məmurlara, deputatlara inanmayan xalqı şah rejimi əleyhinə siyasi mübarizədə aktiv olmağa çağıran S.C.Pişəvəri yazırdı ki, o, xalqın öz müqəddəratını demokratik seçki yolu ilə həll edə biləcəyinə inanır və bunu sübut etmək istəyirdi (Pişəvəri. Neçə yazı.., s.8-9). S.C.Pişəvəri 1943-cü ildəki parlament seçkilərində sovet dəstəkli Tudə Partiyasının yardımı ilə (Çeşmazər. Azərbaycan.., s.15; Həsənli, 1998, s.97, 99) İran parlamentinə millətvəkili seçilsə də, millətvəkilliyi hökumət tərəfindən qəbul edilmədi. O, şah hakimiyyətinə qarşı mübarizə aparmaq üçün güclü bir milli təşkilatın yaradılmasını zəruri görərək 3 sentyabr 1945-ci ildə (12 şəhrivər 1324) Azərbaycan Demokrat Firqəsini yaratdı. A.Ovanesyan kimi rəhbər tudəçilər ADF-nin yaranmasına qarşı çıxıb bunun Tudə Partiyasının parçalanması və separatçılıq saysalar da, Sovet hökumətinin S.C.Pişəvəriyə dəstəyi ADF-nin təşəkkülünə yardım etdi (Həsənli, 1998, s.213-214). Təbii ki, xalqın ADF-yə sevgisi bu məsələdə mühüm rol oynadı. 1945-ci ilin 2 oktyabr tarixində ADF-nin ilk qurultayı keçirildi. Qurultayda xalqın bütün təbəqələrindən nümayəndələr iştirak etmişdi (Vəkilov, 1991, s.71). Milli hərəkatda firqənin fəaliyyətinə böyük əhəmiyyət verən S.C.Pişəvəri deyirdi ki, “bizim gördüyümüz işlərin əsası firqəmizdir” (Firqəmizin.., 1325 (1946), 14 şəhrivər (5 sentyabr), s.1).

Cənubi Azərbaycanın bütün bölgələrindən ADF-ni müdafiə və təbrik edən teleqramlar göndərilmişdi. Tudəçilərin 7 sentyabr 1945-ci il tarixində Təbrizdə keçirilən konfransından sonra (Şəmidə, 1961, s.137) Tudə Partiyasının 60 mindən çox üzvü olan Azərbaycan Əyaləti Təşkilatı (Çeşmazər, 1991, s.26) ADF-yə qoşuldu. Lakin bu zaman keçmiş tudəçilərdən sinfi mübarizə ideyalarından

imtina edib firqənin milli demokratik ideyalarına sədaqət tələb edilmişdi (Qızıl səhifələr.., s.38, 84). Tudə Partiyasının Azərbaycan Əyalət Təşkilatının rəhbəri S.Badigan idi. O, deyirdi ki, bu hərəkatda azərbaycanlılar öz həyatlarını istədikləri kimi qurmağa layiq olduqlarını sübut etdilər. Tehran mürtəce hökuməti bizi xalq, millət yox, ancaq Azərbaycan əhalisi adlandırır. Amma biz sübut etdik ki, biz özümüz bir millətik. Dilimiz, ədəbiyyatımız, mədəniyyətimiz, adət-ənənələrimiz vardır. İndi Azərbaycan xalqı gərək gələcək nəslin göz bəbəyi olan azadlığı möhkəm saxlasın ("Azərbaycan" qəzetinin səhifələrində-65-ci yazı). Tudə Partiyasının rəhbərliyi ADF-nin müstəqillik hərəkatına qarşı olsa da, partiyanın orqanı olan "Rəhbər" qəzetində S.C. Pişəvərini və "21 Azər" hərəkatını dəstəkləyən məqalələr də nəşr olunmuşdur. Qəzetdə göstərilmişdi ki, Azərbaycan hərəkatını günahlandırmaq problemləri həll etməyəcək. Əsas çarə zədələnmiş sistemi tamamilə dəyişdirməkdir (رهبر، ١٣٢٤، ٢٧ آذر، ١).

S.C.Pişəvəri firqənin və daha sonra Milli Hökumətin orqanı olan "Azərbaycan" qəzetini 1945-ci il 5 sentyabr tarixindən etibarən nəşr edərək milli müstəqilliyə gedən yolu açdı. Firqənin "12 Şəhrivər müraciətnaməsi"ndə İran daxilində Cənubi Azərbaycanın muxtariyyəti tələbi açıq şəkildə yer almışdı. Lakin bu tələb İran hökuməti tərəfindən rədd edildi (Çeşmazər, 1991, s.30 - 31, 39). Cənubi Azərbaycandakı vəziyyəti təhlil edən Tehrandakı "Bəşər" qəzeti yazırdı ki, "Azərbaycan təlatümdədir və inqilaba hazırdır" (Çeşmazər, Azərbaycan.., s.33).

ADF-nin təşkilində və S.C.Pişəvərinin ADF rəhbəri seçilməsində Stalin və M.C.Bağırov böyük rol oynamışdır (کاوه بیات). M.C. Bağırov S.C.Pişəvərini həm keçmiş kommunist, həm də "demokratik dairələrdə böyük nüfuzu və hörməti olan şəxs" kimi Stalinə tövsiyə etmişdi (Həsənli, 1998, s.204-205). S.C.Pişəvərinin Londondakı böyük dövlətlərin xarici işlər nazirlərinin toplantısına göndərdiyi müraciətdə deyilirdi ki, İranda beş milyon nüfusa

malik olan azərbaycanlıların vəziyyəti dözülməzdir. Biz bütün İranda həqiqi demokratik üsulun bərpasını və Azərbaycan xalqına daxili azadlıq və muxtariyyət verilməsini, məmləkətin ədalətli qanunlarla idarəsini istəməklə bərabər, Azərbaycanın öz talesini özünün təyin etməsini istəyirik (Qızıl səhifələr.., s.42-43). Qeyd edək ki, dövrün Azərbaycan əsilli türkiyəli tədqiqatçısı M.S.Arana görə II Dünya müharibəsi dövründə İranın on milyonluq əhalisinin yarısı türk olub Cənubi Azərbaycanın əhalisi isə üç milyon idi (Azer, 1942, s.12). 1948-ci ilin farsdilli "İttialat" qəzetinə görə bu dövrdə İran Azərbaycanının əhalisi dörd milyon olmuşdur (Байрамзаде, 2016, с.65).

1945-ci ilin 20-21 noyabr (29-30 aban 1324) tarixində seçkilər vasitəsilə Azərbaycan Xalq Konqresi (Müəssislər Məclisi) işə başladı. Müəssislər Məclisinin bəyannaməsində deyilirdi ki, azadlıq qurban vermədən ələ gəlməz. Azərbaycan milləti öz Məclisi-Millisini qurmaq və muxtariyyətini, ana dilini, həqiqi demokratik rejimi qurmaq yolunda qurbanlıqlar verməyə səmimi qəlbdən razıdır (Sənədlər məcmuəsi.., 1980, s.47). Müəssislər Məclisinin qəbul etdiyi deklarasiya Məhəmmədrza şaha, İran parlamentinə və hökumətinə göndərərilək Cənubi Azərbaycanın muxtariyyətini və Milli Hökumət qurma hüququnun tanınmasını istədi ("Azərbaycan" qəzeti.., 2022, s.597-599). Lakin şah hökuməti bu təklifi qəbul etmədi.

Beləliklə, Sovet hökumətinin dəstəyi və ADF fədailərinin şah rejiminə qarşı mübarizəsi nəticəsində dekabrın 12-də (21 Azər) Azərbaycan Milli Məclisi və Milli Hökumət qurularaq milli dövlətçiliyin yolu açıldı. Paytaxt Təbrizdəki dövlət idarələri, polis və jandarmeriya (hərbi polis-Ə.F.) idarələri ADF fədailəri tərəfindən ələ keçirildikdən, polis və jandarmlar tərksilah edilərək evə buraxıldıqdan sonra şahın Təbrizdəki hərbi qarnizonun rəhbərliyi S.C.Pişəvəri tərəfindən sülh yolu ilə təslimə razı oldu (Rəhimli, 2009, s.79-80).

Cənubi Azərbaycanda S.C.Pişəvəri rəhbərliyində Milli Hökumət hakimiyyəti tam ələ keçirdi. S.C.Pişəvəri Milli Hökumətin əhəmiyyətini qeyd edərək deyirdi ki, Pəhləvilər dövründən fərqli olaraq, artıq dövlət və millət arasında fərq yoxdur, xalqa hansısa şəxs yox, məhz qanun rəhbərlik edəcək (Pişəvəri, 1984, s.367- 368).

Bakıda çıxan "Kommunist" qəzeti bu dövrdə yazırdı ki, Təbriz şəhərində Milli Məclisə seçkilər 5 gün davam etdi. Bu qısa müddətdə Azərbaycan Demokrat Partiyasının namizədlərinə verilən səs mərkəzi hökumətə həmişə verilən səsdən iki dəfə yarım artıq oldu. İran tarixində birinci dəfə olaraq qadınlar da seçkilərdə iştirak etdi (Çernışev, 1945, 21 dekabr, s.1).

"Kommunist" qəzeti "Azərbaycan" qəzetinə istinadən qeyd edirdi ki, İran Azərbaycanındakı milli hərəkat ümumxalq hərəkatıdır. Azərbaycan xalqını keçmişdə olduğu kimi əsarət zəncirində saxlamaq ağlasığmaz işdir. Biz İranın istiqlaliyyətini və bütövlüyünü pozmadan öz evimizin sahibi olmaq istəyirik (İran Azərbaycanındakı.., 1945, 29 dekabr, s.4).

Milli Hökumətin qurulmasına gedən yol asan olmadı. Bu yolda xalq çoxlu qurbanlar verdi. Məsələn, "Kommunist" qəzeti yazırdı ki, qələbədən öncə İran polisi və ordusu ADF-yə rəğbət bəsləyən azərbaycanlılara kütləvi surətdə divan tutmuş, evlərindən çıxmağı qadağa etmiş, həbs və qətllər törədilmişdi (Rizaiyyədə.., 1945, 21 dekabr, s.1). "Azərbaycan" qəzeti bu cinayətləri faşizm cinayətlərinə bənzətmiş, hətta daha qəddar olduğunu yazmışdı (Kəndli, 1945, 28 noyabr, s.2). Daha sonra Milli Hökumət Urmiyada və s. yerlərdə fədailərə, hətta dinc insanlara qarşı cinayətlər edən Pəhləvi məmurlarını ədalət məhkəməsində cəzalandırdı, onların vaxtilə həbs etdiyi, cəzalandırdığı məsum insanları azad etdi.

"Azərbaycan" qəzeti bu haqda yazırdı ki, keçmiş hökumətin işgəncələri illər boyu davam etdikdən sonra xalqımızın qiyamı ilə son tapdı. Qoy xalqın hüququnu pozan rəhmsiz imperializm nökərləri millət məhkəmələrində qanuni cəzalarını görsünlər. Bu məh-

kəmə ədalət məhkəməsidir, rəhmsiz hökmdarların ədalətsiz qanunlarını ləğv edir (Millət məhkəməsində, 1946, 17 aprel, s.1, 4).

İranda Pəhləvi monarxiyasına qarşı mübarizə olan 1945-1946-cı illərin "21 Azər" hərəkatı S.C.Pişəvərinin öz ifadəsi ilə desək, "İranın istiqlaliyyətini və bütövlüyünü hifz etməklə bərabər milli ehtiyaclarımızı aradan qaldırmaqda azad olmağı" qarşısına məqsəd qoymuşdu (Pişəvəri, 2016, s.32). Öz həyatını İran və Azərbaycan xalqlarının azadlığı uğrunda həsr edən S.C.Pişəvəri göstərirdi ki, Tehranın şah hökuməti xalqın azadlıq hərəkatını boğur, Səttarxan, Şeyx Xiyabani, Mirzə Kiçik xan kimi azadlıq qəhrəmanlarını məhv edir. O, öz fəaliyyətində Mirzə Kiçik xanın bu sözlərini şüar etmişdi: "Tehranın abad edilməsi üçün bütün İran bərbad edilib. İranı abad etmək üçün Tehranı bərbad etmək lazımdır" (Pişəvəri, 2016, s.67). O, Cənubi Azərbaycanın milli-mədəni hüquqlarını qorumaqla yanaşı, bütün İranda azad dövlət quruculuğunu təbliğ edir, "irtica ocağını dağıdaq, tehranlılar üçün də demokratik hökumət quraq", deyirdi (Balayev. Cənubi Azərbaycanda.., s.320).

### 1.2. "Azərbaycan" qəzetində (1945-1946) milli və ideoloji məsələlərə münasibət

S.C.Pişəvərinin yaradıcılığı, o cümlədən, onun təsis etdiyi Azərbaycan Demokrat Firqəsinin və Milli Hökumətin orqanı (Xoşginabi, 1948, 15 sentyabr, s.4) olan "Azərbaycan" qəzeti milli əsaslara söykənmişdi. Qəzetin rəsmi dilinin Azərbaycan dili olduğunu vurğulayan və yazıçıları bu məsul işə ciddi yanaşmağa dəvət edən S.C.Pişəvəri yazırdı ki, "ruznamə"miz ("Azərbaycan" qəzeti-Ə.F.) Azərbaycan dilinə artıq əhəmiyyət verəcəkdir. Bizim dilimiz düşmənlərin boş iddialarına baxmayaraq çox geniş və zəngin bir dildir. Azərbaycan yazıçıları qəbul etdikləri bu çətin və ağır vəzifəni iman və əqidə ilə ifa etməklə dilimizin gözəlliyini və onun tərəqqi və təkamülünü təmin edəcəklərinə bizim ciddi imanımız vardır (Qızıl səhifələr.., s.17-18). S.C.Pişəvəri

“Azərbaycan” qəzetində nəşr olunan çıxışında “azərbaycanlılar üçün dil məsələsi həyat və məmat (ölüm-Ə.F.) məsələsidir” deyir, iranlı olmağın farslıq demək olmadığını göstərirdi (Azərbaycan Demokrat Firqəsinin sədri.., 1946, 18 iyun, s.1). Görkəmli cümhuriyyət xadimi M.B.Məhəmmədzadə Cənubi Azərbaycandakı milli dirçəlişdə Pişəvəri hökumətinin mütərəqqi roluna böyük qiymət vermişdi. O, göstərirdi ki, Azərbaycan türklərinin ana dilindən məhrum edildiyi, məhvə məhkum olduğu bir dövrdə milli mövcudiyyətini qorumaq üçün o, milli dövlət qurmaq zərurətində qaldı. Milli Hökumət məktəbdə, məhkəmədə, dövlət idarələrində Azərbaycan türkcəsindən istifadə etdi. Cənubi Azərbaycan öz tarixində ilk dəfə olaraq milli mədəniyyətə qovuşdu (Əhməd, 2021, s.5).

“Azərbaycan” qəzetində Qacarlar və Pəhləvilər dövründə Azərbaycan tarixinin və mədəniyyətinin araşdırılması əsas yerlərdən birini tutur. ADF-nin proqramını şərh edən S.C.Pişəvəri partiyanın sinif və təbəqə fərqi nəzərdə tutmadığını, mərkəzi hökumətin və yerli məmurların ləyaqətsizliyi nəticəsində meydana çıxan nalayiq hərəkətlərə, hərc-mərcliyə son qoyacağını bildirdi (Pişəvəri, 2016, s.39). O, öz əsərlərində və qeyri-rəsmi baş redak- toru, ideya rəhbəri olduğu “Azərbaycan” qəzetində (Mir Cəfər Pişəvəri.., 2023, s.9) monarxiyaya qarşı məşrutə (konstitusi ya-Ə.F.) inqilabına, Səttarxan, M.Xiyabani kimi dövrün görkəmli şəxsiyyətlərinə xüsusi yer ayırmışdır. Qəzetdə onun öz ad-soyadı ilə yanaşı “P”, “C”, “Novruz”, “Səməndər” kimi gizli imzaları ilə də məqalələri nəşr olunmuşdur (Mir Cəfər Pişəvəri.., 2023, s.9; Əhməd, 2020, s.177)

S.C.Pişəvəri Qacarlar dövründəki inqilabi hərəkata xüsusi əhəmiyyət verir və qeyd edirdi ki, azərbaycanlılar öz azadlıqları yolunda fədakarlıq edərkən qarşılarında ali bir məqsəd qoymuşdular. Məşrutə hərəkatı heç də süni və öz-özünə törənmiş bir hadisə olmamışdır. Onu Azərbaycan xalqına heç kəs zorla və ya diktə etməmişdir (Pişəvəri, 2016, s.17). O, göstərmək istəyir-

di ki, Qacarlara qarşı məşrutə inqilabı və konstitusiya hərəkatı xalqın ölkədəki problemləri həll etmək istəyindən qaynaqlanmışdır və bu hərəkat xarici qüvvələrin, imperialist dövlətlərin diktəsilə yox, məhz xalqın köhnə rejimi yenisi ilə əvəz etmək arzusundan ortaya çıxıb.

Məşrutə inqilabının qəhrəmanı Səttarxanın nüfuzunu yüksək qiymətləndirən, onu "İranın parlaq ulduzu" adlandıran (Pişəvəri, 2016, s.14) S.C.Pişəvəri yazırdı ki, Səttarxan aldadılaraq Təbrizdən Tehrana gətirildi. Bu zaman addımbaşı onun ayağının altında qurbanlar kəsilmişdi, İranın paytaxtı ürəkdən şadlıq edirdi. Səttarxan deyirdi ki, ona görə qurbanlar verdik ki, hökumət xalqın öz əlinə verilsin (Pişəvəri, 2016, s.20, 22). Lakin o, inqilaba baxmayaraq, keçmiş şah Məhəmmədəli Mirzənin yerində yeni Məhəmmədəli Mirzələrin oturduğunu təəssüflə bildirmişdi (Pişəvəri, 1984, s.264). Səttarxan elə Tehranda da xəyanətə uğradı, ona sui-qəsd edildi ("Azərbaycan" qəzeti.., 2022, s.46). Səttarxanı aldadıb sui-qəsd edən Tehranın erməni əsilli polis rəisi, daşnak xislətli Yeprem xanın ölkədə azadlığı boğduğunu, demokratik mətbuatı məhv etdiyini, demokratları sürgün etdiyini Ə.Kəsrəvi də qeyd edir (Sərdariniya, 2006, s.115). S.C.Pişəvəri Səttarxan hərəkatına yüksək dəyər vermiş, gəncləri onun məzarını ziyarət etməyə, ondan vətənpərvərlik, hürriyyət dərsi almağa çağırmışdı (Pişəvəri, 1984, s.257, 268).

XX əsrin əvvəllərində Təbriz məşrutə inqilabının beşiyi olmaqla yanaşı, həm də ölkənin mədəni mərkəzlərindən biri idi. Bu dövrdə Mirzə Həsən Rüşdiyyənin tətbiq etdiyi qabaqcıl təlim üsulu İranda geniş yayılmışdı. M.Tərbiyət "Danişməndani-Azərbaycan" ("Azərbaycan alimləri") əsərində yazırdı ki, M.H.Rüşdiyyə M.F.Axundzadə kimi əlifba islahatından ilham alaraq, Cənubi Azərbaycanda sövti üsulla (səs, fonetika) yazılmış ilk dərslikləri ("Vətən dili", "Ana dili") yazmışdır (Tərbiyət, 1967, s.31; Məmmədli, 2009, s.19). O, 1893-cü ildə Təbrizdə açdığı "Mədrəseyi-Rüşdiyyə"də Azərbaycan dilində yazdığı "Vətən dili" dərsliyi

(1894-cü il) ilə dərs keçmişdi (Məmmədli. Qocaman müəllim...). Bu kitab 1905-ci ildə Təbrizdə nəşr edilmişdir ("Azərbaycan" qəzeti.., 2022, s.391; Beregian, 1988, p.47). M.H.Rüşdiyyə öz məktəblərində Azərbaycan türkcəsini də tədris etmişdir (Cənubi Azərbaycan, 1987, s.418). "Vətən dili" kitabı 1917-1918-ci ilə qədər Qafqazın və Türküstanın məktəblərində ibtidai sinif vəsaiti kimi tədris olunmuşdur (Sərdariniya, 2014, s.109). "Azərbaycan" qəzetində göstərilir ki, S.C.Pişəvəri bu əsəri "Azərbaycan maarifi tarixində misilsiz bir əsər", M.H.Rüşdiyyəni isə "böyük xalq və maarif xadimi" adlandırmışdır (Azərbaycanın böyük xalq.., 1324 (1945), 2 mehr (24 sentyabr), s.1; Pişəvəri, 2016, s.128, 295-296).

"Azərbaycan" qəzetində M.Ə.Talıbov, Z.Marağayi kimi Azərbaycan ziyalıları da təbliğ edilmişdir. S.C.Pişəvəri İran məşrutə inqilabını, bu hərəkatda Azərbaycanın rolunu anlamaq üçün "Talıbovun kitablarını, "İbrahimbəyin səyahətnaməsi" kitabını oxuyun" (Pişəvəri, 2016, s.16) deyə tövsiyə etmişdir. Qəzetdə Z.Marağayi kimi maarifçi yazarların İranın azadlığı yolunda çalışdıqları göstərilirdi (Q. 1946, 3 yanvar, s.1). "Azərbaycan" qəzetində Azərbaycan şifahi ədəbiyyatının şah əsəri olan "Kitabi-Dədə Qorqud" dastanına xüsusi diqqət yetirilmişdi. Qəzetdə Məhəmmədəli Qüdsi Fərzanənin müəllifliyi ilə "Kitabi-Dədə Qorqud" dastanının boyları haqqında məqalələr, dastandan, Azərbaycan bayatılarından nümunələr təqdim edilmişdir. M.Q.Fərzanənin yazdığı və nəşr etdirdiyi "Azərbaycan dilinin qrammatikası" əsəri şah hökuməti tərəfindən qadağan edilmiş, satışdan yığışdırılmışdı (Soytürk, 2013, s.24-25).

S.C.Pişəvəri XX əsrin əvvəlində İranı müstəmləkə vəziyyətində saxlayan çar Rusiyasının imperialist missionerlik siyasətini ifşa etmişdir. O, 1917-ci il bolşevik inqilabının imperializmin qalasını yıxdığını bildirmişdi (Şəmsi, 1987, s.73). Güneyli tədqiqatçı M.Şəmsi yazırdı ki, İrandakı rus müstəmləkə siyasətinə Rusiyada bolşevik çevrilişindən sonra son qoyuldu (Шамси, 1981, c.17). Lenin elan etmişdi ki, 1907-ci ildə Rusiya və İngiltərə

arasında bağlanmış müqavilə və çar hökumətinin İrandakı bütün imtiyazları artıq ləğv edilib (Şəmsi, 1987, s.76). Lakin təəssüf ki, bolşeviklər müsəlman xalqlarına verdikləri istiqlaliyyət vədinə sona qədər əməl etmədilər, keçmiş çar Rusiyasının sərhədlərini zorla bərpa etdilər.

"Azərbaycan" qəzetində məşrutə fədaisi, Azərbaycan Demokrat Firqəsinin və "Azadistan" hökumətinin qurucusu Şeyx Məhəmməd Xiyabani "Azərbaycanın görkəmli seyidlərindən biri və böyük mütəfəkkir" adlandırılmışdır. Onun Təbrizdə ilahiyyat elmlərini tədris etdiyi, dini elmlərdə geniş məlumat sahibi olduğu və Kərimxan məscidində xidmət etdiyi qeyd olunmuşdur (Novruz, 1945, 1 noyabr, s.2; Pişəvəri, 2016, s.155). Qəzetdə Şeyx Xiyabaninin xalqın azadlığı üçün şaha və xarici imperializmə qarşı mübarizəsindən bəhs olunur (Novruz, 1945, 5 noyabr, s.2) və onun nəşr etdirdiyi "Təcəddüd" qəzeti haqqında məlumat verilir (Novruz, 1945, 11 dekabr, s.2). "Azərbaycan" qəzetində "Novruz" imzası ilə M.Xiyabaniyə həsr olunan silsilə məqalələr yazan S.C.Pişəvəri ADF-nin "Təcəddüd" qəzetini M.Xiyabaninin "ölməz əsəri" adlandırmışdır (Novruz, 1945, 11 dekabr, s.2). "21 Azər" hərəkatını Xiyabani hərəkatının davamı sayan ("Azərbaycan" qəzeti.., 2022, s.242-243) S.C.Pişəvəri göstərirdi ki, Azərbaycan xalqı əvvəllər olduğu kimi məşrutə inqilabı dövründə və indi də İranın azadlıq və istiqlalının mühafizidir (Novruz, 1945, 9 noyabr, s.3).

"Azərbaycan" qəzetində göstərilirdi ki, "Təcəddüd" qəzeti Azərbaycan ədəbiyyat tarixinin ən parlaq ulduzlarındandır. Demək olar ki, Azərbaycanda elə bir ev yox idi ki, "Təcəddüd" qəzetinin ən azından bir nömrəsi orada olmasın ("Azərbaycan" qəzeti.., 2022, s.393). "Azərbaycan" qəzetində "Təcəddüd" qəzetinin redaktoru Mirzə Tağı xan Rüfətin Azərbaycan dilində yazdığı himnin sözləri oxuculara təqdim edilmişdir ("Azərbaycan" qəzeti.., 2022, s.758). M.T.Rüfət və sonralar Milli Hökumət dövründə Ali Məhkəmənin sədri olmuş Z.Qiyami (Çeşmazər.

Azərbaycan.., s.66) Xiyabani hərəkatının və M.Xiyabaninin rəhbərlik etdiyi Azərbaycan Demokrat Firqəsinin İdarə Heyətinin ən fəal üzvlərindən olmuşdular (Bayramzadə. 1920-ci il...).

S.C.Pişəvəri M.Xiyabaninin qurduğu ADF-nin fəaliyyətinə öz yazılarında geniş yer verib. Mütəfəkkir "Ajir" qəzetində nəşr olunmuş "Nə üçün bir cəmiyyətdə firqə meydana gəlir?" adlı məqaləsində yazırdı ki, ADF-nin əsas məqsədi və şüarlarına əsasən o tam mənada milli bir partiya idi (Pişəvəri. Neçə yazı.., s.17). O, göstərirdi ki, İranın istiqlaliyyəti və ərazı bütövlüyü təhlükə altına düşdükdə Demokrat Firqəsi yeganə ümid və pənah yeri idi. İranlılar ölkənin xilas olunması yolunu məhz həmin firqənin bayrağı altında axtarırdılar. S.C.Pişəvəriyə görə Demokrat Firqəsindən sonra meydana gələn digər firqələrin rəhbərləri və təşkilatçıları onun məktəbindən çıxmışlar. Bu heç də şişirtmə deyil. Onun yalnız parlaq keçmişi, göstərdiyi fəaliyyət və nizam-intizamı, atdığı ciddi addımları bir şirin yuxu və xatirə kimi tarixin səhifələrində qalmişdir (Pişəvəri. Neçə yazı.., s.16-17).

S.C.Pişəvəri "21 Azər" hərəkatını Xiyabani hərəkatının davamı saymış, ADF-nin adını M.Xiyabaninin partiyasının adından götürmüşdü (Filu. İki sahil...).

S.C.Pişəvəri göstərirdi ki, şah rejiminə qarşı mübarizə aparan qəhrəmanların, Azərbaycanın ziyalı və inqilabçılarının "azadlıq uğrundakı əməlləri heç vaxt yaddan çıxmayacaq" (Pişəvəri, 2016, s.155). O, Səttarxan, Xiyabani hərəkatlarından iftixarla danışarkən bu hərəkatların məğlubiyyətində İran irticası ilə yanaşı və ondan daha çox xarici müdaxiləçilərin şeytani rol oynadığını göstərirdi (Cavid. O günün.., s.38).

S.C.Pişəvəri göstərirdi ki, "Səttarxan qəhrəman idi. Amma fikir və elm baxımından Şeyxin məqamı fövqəladə böyükdür. Şeyx o xüsusiyyətlərə malik olduğu halda, bir də onun alimlik məqamı var idi". M.Xiyabaninin mübarizəsinə böyük dəyər verən Milli Hökumət ona büst qoymaqla yanaşı adına məktəb də açmışdı (Talıblı, 2023, 12 fevral, s.6). M.Xiyabaninin öz çıxışlarında Azər-

baycan dilini təbliğ etməsi, onun Azərbaycan xalqının demokratik hüquqları uğrunda mübarizə aparması onun rəqibləri tərəfindən, o cümlədən, Ə.Kəsrəvi tərəfindən etiraf edilmişdir (Məmmədli, 1949, s.63, 89).

Azərbaycan xalqının dünyanın ən qədim və mədəni xalqlarından biri olduğunu vurğulayan "Azərbaycan" qəzeti yazırdı ki, hər xalqın müqəddəratı özü tərəfindən təyin edilməlidir. Dil azadlığı, milli mədəniyyət azadlığı və sair iqtisadi, siyasi və ictimai azadlıqlar bu məsələnin əsas prinsipləridir. Lakin Pəhləvilər dövründə azərbaycanlılar öz ana dillərində təhsil almaqdan məhrum qalmışdılar (Səməndər, 1945, 12 sentyabr, s.1).

Qərb imperializminin sadiq xidmətçisi olan Pəhləvi hakimiyyətini ittiham edən "Azərbaycan" qəzeti onların ölkəni viranə etdiyini, xalqımızın qəhrəman oğullarını dar ağacından asdığını, on minlərcə əhalini sürgün etdiklərini göstərir. Pəhləvilərin təkcə azərbaycanlılara qarşı deyil, bütün İranın vətənpərvər ziyalılarına, zəhmətkeşlərə qarşı mürtəce siyasətini qəzet qeyd edir və göstərirdi ki, şah hökuməti İranın namuslu hürriyyətçilərinin qanını tökməkdən çəkinmir (London əncüməninə.., 1324 (1945), 1 mehr (23 sentyabr), s.1).

"Azərbaycan" qəzeti bu dövrdə ADF rəhbərliyini ölkəni sovetlərə satmaqda və İranı parçalamaqda ittiham edənlərə cavab verərək deyirdi ki, muxtariyyət "təcziyə" (separatçılıq) və ya ilhaq demək deyildir. Həqiqi demokratlıq ancaq muxtariyyət vasitəsilə mümkün ola bilər (Azərbaycan, 1945, 31 oktyabr, s.1-2). Qəzet yazırdı ki, azərbaycanlılar İranın ərazi bütövlüyü və istiqlaliyyətinin tərəfdarıdır və İrandan ayrılmaq istəmirlər. Lakin eyni zamanda zülm və istibdadın altında qalmaq istəmirlər və xalqın azadlığını qəsb etmiş bir dövlətin siyasətlərinə dözə bilmirlər. Azərbaycan xalqı İranın istiqlaliyyətini, ərazi bütövlüyünü qorumaqla bərabər azad və demokratik dövlətdə yaşamaq, öz milli və muxtar hökumətini qurmaq istəyir ("Azərbaycan" qəzeti.., 2022, s.601, 603).

S.C.Pişəvəri də öz yazılarında və çıxışlarında onları sovetlərə satılmaqda və guya İran Azərbaycanını Sovet Azərbaycanına birləşdirmək istəməkdə günahlandıranları qətiyyətlə tənqid edir, azərbaycanlıların azad yaşamaq istədiyini bildirirdi (Pişəvri, 1984, s.392).

Cənubi Azərbaycan əhalisi qeyri-demokratik və xarici imperializmin köləsi olan bir İranın tərkibində yaşamaq istəmirdi. "Kommunist" qəzeti bu mövzuya toxunaraq, ADF-yə istinadən yazırdı ki, Azərbaycan xalqı öz işləri və hərəkətlərilə dəfələrlə sübut etmişdir ki, o, İranın azadlıq və istiqlaliyyətinin tərəfdarıdır. Azərbaycan heç bir zaman İranın qalan hissəsindən ayrılmaq istəməmişdir. Xalq yalnız onun azadlığını boğmaq istəyən müstəbidlərə öz haqlı etirazını bildirir (İran Azərbaycanı.., 1946, 13 dekabr, s.1).

## 1.3. Cənubi Azərbaycanda demokratik hakimiyyət (1945-1946)

S.C.Pişəvəri təkcə Azərbaycanın yox, bütün İranın azadlığı uğrunda mübarizə aparan görkəmli ictimai-siyasi xadim olub bütün İranda həqiqi demokratik hökumətin qurulmasını və İran xalqlarının azadlığını istəyir (London əncümıəninə.., 1324 (1945), 1 mehr (23 sentyabr), s.1); "Yaşasın demokratik Azərbaycan! Yaşasın müstəqil və azad İran!" deyirdi (Pişəvəri, 2016, s.37). S.C. Pişəvəri ilk növbədə Azərbaycanın milli hüquqlarını, mədəniyyətini, milli maarifçiliyi qoruyan, inkişaf etdirməyi qarşısına qoyan ictimai-siyasi xadim və ziyalıdır. Onun "Azərbaycan" qəzetində təqdim edilən məqalələrində, nitqlərində bu aydın nəzərə çarpır. "Milli hökumət xalqımızdan başqa bir şey deyildir" (Baş vəzirimiz.., 1946, 12 fevral, s.1) deyən S.C.Pişəvəri ömrünü bu xalqın azadlığına, maariflənməsinə həsr etmişdir. Pəhləvi hökumətinin dil siyasətini tənqid edən S.C.Pişəvəri İranın təhsil ocaqlarında, mədəniyyət mərkəzlərində, hətta Təbrizdəki Elmlər Akademiya-

sının binasında Azərbaycan dilində danışmağa icazə verilmədiyini bildirir, bu alçaq siyasətə Milli Hökumətin son qoyduğunu göstərirdi. "Maarifsiz bir millət yaşaya bilməz" (Baş vəzirimiz.., 1946, 12 fevral, s.4) deyən S.C.Pişəvəri Azərbaycan müəllimlərini və maarifçilərini vətən övladlarına məhəbbət və azadlıq eşqi ilə dərs keçmələrini, onları aydınlatmalarını istəmişdi. S.C.Pişəvəri qeyd etmişdi ki, nəinki Azərbaycanın, hətta İranın bütün xalqları ADF-dən demokratiya, insan haqları, maarifçilik yardımı gözləyir.

Cənubi Azərbaycanda milli dövlətçiliyi qurmağı və qorumağı hədəfləyən S.C.Pişəvərinin 28 yanvar 1946-cı il tarixində BMT Baş Assambleyasına müraciətində 1945-ci ilin 12 dekabr ("21 Azər") tarixində Milli Məclisin və Milli Hökumətin qurulduğu bildirilmiş və göstərilmişdi ki, o, Azərbaycan xalqının bir də də heç vaxt fars şovinistlərinin zülmü altında inləməsinə imkan verməyəcəkdir. Bu xalq bir nəfər kimi öz həyatını milli azadlığına və dövlətinə qurban verməyə hazırdır. S.C.Pişəvəri Azərbaycan xalqının adından BMT-dən xahiş etmişdi ki, Azərbaycan Milli Hökumətinin mövcudluğu faktı tanınsın və kənar müdaxilə olmadan, ona öz taleyinin özü tərəfindən müəyyənləşdirilməsinə təminat verilsin (Rəhimli, 2014, s.113). Milli Məclisin nizamnaməsində yeni qurulan dövlət qurumu "Azərbaycan Milli Muxtar Dövləti" adlanmışdı (Qızıl səhifələr.., s.152).

S.C.Pişəvərinin rəhbərliyi ilə Milli Hökumətin "Azərbaycan xalqının tələbi" adlı bəyanatında göstərilmişdi ki, "Biz demokratik prinsiplər əsasında öz azad dövlətimizi qurmalıyıq. Bu dövlət Azərbaycan Milli Demokratik Respublikası adlanmalıdır". Plana görə daha sonrakı mərhələdə M.C.Bağırovun rəhbərliyində Sovet Azərbaycanı ilə vahid bir dövlətdə birləşmək nəzərdə tutulmuşdu (Гасанлы, 2006, с.165). M.Bağırovun Stalinə etdiyi müxtəlif müraciətlərdə və çıxışlarında göstərilmişdi ki, şah hökuməti Cənubi Azərbaycanı farslaşdırır. Azərbaycan xalqını iki yerə bölmüşlər. Cənubi Azərbaycan torpağı xalqımızın vətənidir (Həsən-

li, 1998, s.38, 50, 53). Lakin Azərbaycan xalqının bu haqlı tələbi nəinki BMT, heç SSRİ hökuməti və Tudə Partiyasının rəhbərliyi tərəfindən də qəbul edilmədi.

İ.V.Stalinin S.C.Pişəvəriyə 8 may 1946-cı il tarixli məktubunda sovet qoşunlarının beynəlxalq təzyiq qarşısında Cənubi Azərbaycanı tərk etməyə məcbur qaldığı bildirilmiş və Stalinin təslimiyyət tələbini "rüsvayçılıq" adlandıran S.C.Pişəvərinin "ağıllı" olması, İran hökumətinin "demokratik" tələblərinə tabe olması tələb edilmişdi (Rəhimli, 2014, s.117-118). Hələ 1945-ci ilin dekabrında "21 Azər" qələbəsindən sonra İran SSRİ-yə etiraz notası göndərmiş (Abdullayev, 2006, s.197), 1946-cı ilin 28 və 30 yanvar tarixlərində BMT-nin Təhlükəsizlik Şurasında İranın tələbi ilə Cənubi Azərbaycan məsələsi müzakirə edilmişdi. Orada çıxış edən İranın Böyük Britaniyadakı və BMT-dəki səfiri S.H. Tağızadə sovet ordusunun İrandan çıxmamasını ölkəsinin daxili işinə qarışmaq adlandırmış və ordunu çıxartmağı öz hökuməti adından tələb etmişdi (Гасанлы, 2006, с.238). Onun BMT Baş katibinə təqdim etdiyi "SSRİ-nin İranın daxili işlərinə qarışması barədə" məktubunda sovet hökumətinin və ordusunun İrandakı əməlləri pislənir və BMT-dən yardım istənirdi. BMT-dəki sovet nümayəndə heyətinin rəhbəri A.Y.Vışinski isə Cənubi Azərbaycan əhalisinin öz demokratik haqqı olaraq İran daxilində muxtariyyət istədiyini, Sovet ordusunun orada olmasının bununla əlaqəli olmadığını, lakin onları və Sovet Azərbaycanını İran təhlükəsindən qorumaq üçün orada olduqlarını bildirmişdi (The Head..; Abdullayev, 2006, s.196-197). Moskvada nəşr olunan "İzvestiya" qəzeti 28 yanvar 1946-cı il tarixində BMT-nin Təhlükəsizlik Şurasında çıxış edən A.Y.Vışinskinin çıxışını təqdim etmişdi. O, göstərirdi ki, İran hakimiyyətindəki qeyri-demokratik, pozucu qüvvələr SSRİ-yə, o cümlədən, Sovet Azərbaycanına qarşı düşmənçilik bəsləyir, diversiya və təxribatlar törətməyə çalışır, sovet ordusunun İrandakı mövcudluğunun bir səbəbi də bu təhlükələrə qarşı özünümüdafiədir (Выступления.., 1946, 30 января, с.5).

Lakin Qərb dövlətlərinin nümayəndələri İran hökumətinin tələbini dəstəklədilər (Гасанлы, 2006, с.234, 239). Hələ 1945-ci il Berlin (Potsdam) konfransında ABŞ, Böyük Britaniya və SSRİ rəhbərliyinin ortaq qərarı ilə xarici hərbi birləşmələrin İranı tərk etməsinin zəruriliyi qəbul edilmişdi (Гасанлы, 2006, с.101) və sovet hökuməti də buna əməl etməyə məcbur idi. Bəzi amerikalı mütəxəssislərin guya ABŞ prezidenti H.Trumenin atom bombası təhdidindən sonra Stalinin ordunu Cənubi Azərbaycandan geri çəkdiyi iddiası isə C.Həsənliyə görə qaynaqlar və arxivlər tərəfindən təsdiqlənməmişdir. Lakin 21 mart 1946-cı il tarixində H.Trumen Stalinə rəsmi tələb göndərərək sovet ordusunu İrandan çıxartmayacağı təqdirdə ABŞ ordusunun bu problemi həll edəcəyini bildirmişdi (Гасанлы, 2006, с.295, 297). ABŞ Dövlət Departamenti isə bu məsələnin həll edilməməsini III Dünya müharibəsinə səbəb olacağını bildirmişdi (Гасанлы, 2006, с.180). İrandakı sovet səfirliyindən SSRİ Xarici İşlər Nazirliyinə göndərilən məlumatdan da məlum olur ki, İranla bağlanan neft müqaviləsi ilə yanaşı Tehran hökumətinin sovetlərdən BMT-yə davamlı şikayət etməsi və ABŞ-ın şah hökumətini dəstəkləməsi Stalini geri addım atmağa vadar etmişdi (The Ambassador in the Soviet...).

1946-cı ilin 26 martında BMT Təhlükəsizlik Şurasında çıxış edən sovet nümayəndəsi A.A.Qromıko sovet qoşunlarının İranı qısa müddətdə tərk edəcəyini bildirdi (Abdullayev, 2006, s.199). Daha sonra mövzu üzrə SSRİ – İran danışıqlarına üstünlük verildi. 1946-cı ilin fevral, mart aylarında Moskvada Xarici İşlər naziri Molotovla və Stalinlə görüşən Baş nazir Ə.Qəvam onlara sovetlərlə münasibətləri yaxşılaşdırıb, keçmiş səhvləri düzəltməyi söz verdi. O, sovetlərlə neft müqaviləsi bağlayıb onlara Şimali İran neftindən pay verməyi, həmçinin Cənubi Azərbaycan əhalisinə İran daxilində milli-mədəni hüquqlarının veriləcəyini vəd etmiş, lakin bunun üçün İran qanunlarına görə sovet ordusunun İranı tərk etməsinin vacib olduğunu bildirmişdi. Stalin də bunun qarşılığında İranın ərazi bütövlüyünü tanıdığını bildirdi

(Гасанлы. Иранский...). 4 Aprel tarixində Tehranda Ə.Qəvam və sovet səfiri İ.Sadçikov tərəfindən bağlanan müqavilə ilə sovet ordusunun ay yarım içində İranı tərk edəcəyi, Ortaq Sovet-İran Neft Cəmiyyətinin yaradılacağı, Cənubi Azərbaycandakı problemlərin İran hökuməti tərəfindən islahatçılıq yolu ilə həll ediləcəyi qərarlaşdırıldı. Stalinin Ə.Qəvama göndərdiyi məktubda yazırdı ki, bu müqavilə İran və SSRİ xalqları arasında əməkdaşlığın və dostluğun inkişafına və möhkəmlənməsinə kömək edəcək (Abdullayev, 2006, s.204-205). Müqavilə mətnində xüsusilə qeyd olunmuşdu ki, Cənubi Azərbaycan məsələsi İranın daxili işidir (Sovet – İran danışıqları.., 1325 (1946), 18 fərvərdin (7 aprel), s.1). Bundan sonra iki dövlət arasındakı əlaqələr daha da inkişaf etdi, İran hökuməti SSRİ əleyhinə BMT-yə etdiyi şikayət və etirazlardan imtina etdi (Заявление.., 1946, 7 апреля, с.3). "Pravda" qəzeti bu münasibətlə yazırdı ki, "bu müqavilə sovet və İran xalqları arasındakı qarşılıqlı münasibətlərdə yeni era açdı və ümumdünya sülhünün möhkəmlənməsinə xidmət etdi" (К советско.., 1946, 7 апреля, с.3). "Azərbaycan" qəzeti də "Pravda"ya istinadən göstərirdi ki, Ə.Qəvamın başçılıq etdiyi yeni İran hökumətinin hər iki ölkə arasında xeyirxah qonşuluq münasibətləri qurmaq arzusu sovet qoşunlarının İrandan çıxarılması məsələsini müsbət həll etdi (Sovet – İran.., 1946, 17 aprel, s.3).

20 iyulda Moskvada Stalinlə görüşən şahın bacısı Əşrəf Pəhləvi burada Cənubi Azərbaycan məsələsini müzakirə edərək İranın müdaxiləsi zamanı SSRİ-nin bitərəf qalmasını istədi və Stalin üzərində böyük təəssürat yaratdı. Sovet hökumətinin rəhbəri ona - "qardaşınız narahat olmaya bilər" demişdi. Görüşdən sonra Əşrəf Pəhləvi müharibə zamanı valideynlərini itirmiş sovet uşaqlarına yardım etdiyi üçün SSRİ Ali Sovetinin Rəyasət Heyətinin fərmanına əsasən "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdu. Əşrəf xanım Moskvadan başqa SSRİ-nin bir sıra şəhərlərini, o cümlədən, Bakını da ziyarət etmişdi (Sadıqlı. Əşrəf Pəhləvi). "Pravda" qəzeti Əşrəf Pəhləvinin Moskvada SSRİ Xarici

işlər naziri V.M.Molotovun müşayiəti ilə Stalinlə görüşdüyünü yazmışdı (Приём.., 1946, 21 июля, c.1). Ə.Pəhləvi bu görüşdə Pişəvəri hökumətini "kukla dövlət" adlandıraraq, onun Sovet-İran münasibətlərinə zərbə vuracağını bildirmiş və Stalini ADF-yi qorumamağa razı salmışdı (Иранская принцесса...).

Sovet ordusunun Cənubi Azərbaycanı tərk etməsindən sonra Milli Hökumət güzəştə getməyə və 13 iyun 1946-cı ildə İranın Baş naziri Ə.Qəvamın müavini M.Firuz ilə Tehranda müqavilə bağlamağa razı oldu. Müqavilə nəticəsində Cənubi Azərbaycanın yenidən İranın 3-cü və 4-cü ostanına çevrilməsi, Milli Hökumətin və Azərbaycan Milli Məclisinin ləğvi, onun Əyalət Əncüməninə çevrilməsi və İran hökumətinin bütün yerli dövlət aparatına nəzarəti, İran parlamentinə və əncümənlərə demokratik seçkilər, yeni seçkilərə qədər Azərbaycan əncümənlərinin vəzifəyə davam etməsi, Azərbaycan Xalq Qoşunlarının İran ordusunun və fədai dəstələrinin İran Jandarm Təşkilatının tərkibinə keçməsi, Azərbaycan məktəblərində fars dili ilə yanaşı Azərbaycan dilinin də tədrisi nəzərdə tutulmuşdu ("21 Azər – 70".., 2015, s.147-149; Azərbaycan xalqının.., 2005, s.96-97). Həmçinin şah hökumətinin Cənubi Azərbaycana göndərəcəyi vali və maliyyə idarəsinin rəhbəri Əyalət Əncüməni tərəfindən təklif edilməli və gəlirlərin 75%-i İran Azərbaycanının, yüzdə 25%-i İran hökumətinin ixtiyarında qalmalı idi (Azərbaycan xalqının.., 2005, s.96-97; Bağırov. II Dünya...). Həmçinin Milli Hökumət Zəncan şəhərini və Xəmsə vilayətini mərkəzi İran hökumətinin tabeliyinə qaytarmalı idi. Zəncan əhalisi buna qarşı çıxsa da, Milli Hökumət sülh naminə bu tələbi yerinə yetirdi. Lakin İran polisi və silahlı qüvvələri Zəncandakı ADF üzvlərinə qarşı repressiya siyasəti həyata keçirdilər, qətliamlar törətdilər. "Azərbaycan" qəzeti bu hadisələrdən sonra "qan dəryasına dönmüş Zəncan" haqqında yazılar dərc etmişdi (Əlizadə, 1325 (1946), 8 azər (29 noyabr), s.1, 4). Qətl edilənlər içərisində görkəmli ruhani Şeyx Məhəmmədəli Ali-İshaq Xoyi də var idi (Azadlıq yolunun.., 1962, s.87-88).

Müqavilə ilə əlaqədar olaraq Azərbaycan Milli Məclisi öz səlahiyyətlərinə xitam verib, Əyalət Əncüməni formasında işə başladı. Pəhləvi hökumətinin təzyiqlərinə baxmayaraq əncümənlərin yeri idarəetmədə böyük rolu var idi. S.C.Pişəvəri əncümənlərin əhəmiyyətini qeyd edərək yazırdı ki, əncümənlərin səlahiyyətləri çox genişdir. Bütün nazirliklər və mərkəzi dövlət orqanları, yerlərdə təşkil etdikləri idarə və şöbələr yerli əncümənlərin nəzarəti altında işləməlidirlər (Mirzəzadə, 1969, s.112). S.C.Pişəvəri hökumət başçısı vəzifəsindən istefaya getmək məcburiyyətində qaldı. Lakin Cənubi Azərbaycana aid bütün məsələlər yenə də onun ixtiyarında və nəzarətində idi (Rəhimli. S.C.Pişəvəri Baş nazirlikdən...). Milli Hökumətin Daxili İşlər naziri S.Cavid şah hökumətinin Azərbaycan valisi təyin edildi. Hər nə qədər "Kommunist" qəzetində "İran Azərbaycanı xalqı Qızıl Ordu hissələrini dərin məhəbbət, minnətdarlıq və qardaşlıq hissilə yola saldı" (Kommunist, 1946, 12 may, s.2) deyilsə də, əslində sovet hərbi hissələrinin Cənubi Azərbaycandan çıxması şah ordusunun yeni qurulan milli dövləti işğal etməsinə səbəb oldu.

Ə.Qəvamın Tudə Partiyasının da təzyiqi ilə SSRİ ilə yaxınlaşması və Pişəvəri hökuməti ilə müqavilə bağlaması hər nə qədər İran diplomatiyasının sovetlərə qurduğu tələ olsa da, Britaniya hökuməti bu yaxınlaşmadan narahat olmuşdu. Xuzistanın Abadan adasındakı "İngilis – İran neft kompaniyası"nın zavodlarındakı işçilər də ağır iş şəraitinə qarşı Tudə Partiyasının rəhbərliyi altında kütləvi etirazlara, tətillərə başladılar (Kazemi. Anglo...). Britaniya hökuməti İran hökumətinin və neftin tamamilə sovetlərin əlinə keçməsindən qorxub İrana təzyiq etməyə başladı. İngilis hökuməti 1946-cı ilin iyul ayında 1000 nəfərə yaxın hərbçisini Xuzistandakı proseslərə təsir məqsədilə Bəsrəyə göndərdi. Bir müddət sonra, sentyabr, oktyabr aylarında İranın cənubunda ingilislərin təşviqi və Ə.Qəvamın təşkilatçılığı ilə sovetlərə və Tudə Partiyasına qarşı güclü etiraz nümayişləri təşkil olundu. İranın Xuzistan əyalətində ingilislərin təşviqi ilə ərəb separatçılı-

ğı başladı. İngilislər Şimali İranın sovetlərin əlinə keçməsindən sonra Cənubi İranı da itirməmək üçün bu separatçılığı qismən dəstəklədilər. Nəticədə bütün xarici hərbi birliklərin ölkədən qovulması məqsədilə Cənubi İranda qaşqay və bəxtiyari feodalları tərəfindən hökumətə ultimatum verildi. Bütün bu proseslər Ə.Qəvamın öz nəzarətində reallaşdı və onun hökumətdəki Tudə üzvlərini istefaya göndərmək arzusunu reallaşdırdı, sovetlərlə olan münasibətləri də kəskinləşdirdi (Barijough, 2015, p.98-99; Shaw. 'Strong...). Bu proseslərdə Britaniya xüsusi rol oynadı və S.C. Pişəvəri qeyd edirdi ki, ingilislər İranın cənubundakı tayfaları həmişə silahla təmin edib və öz məqsədləri üçün onlardan istifadə edirlər (Abışov, 2023, s.179-180). Ultimatumun nəticəsində Tudə Partiyası da bağlandı və üzvlərinə qarşı repressiyalar başladı (Ballıkaya, 2019, s.49). İran hökuməti Tudə ilə əlaqəsini kəsdikdən sonra Cənubi Azərbaycan rəhbərliyi ilə bağlanan müqaviləyə də əməl etmədi və muxtariyyəti məhv etməyə hazırlaşmağa başladı. ADF rəhbərliyinin Sovet hökumətinə göndərdiyi 8 dekabr 1946-cı il tarixli məktubda Ə.Qəvamın İran nefti ilə sovet hökumətini aldatdığı, sovet ordusunun getməsindən istifadə edən İran hökumətinin Azərbaycanın milli azadlığını məhv edəcəyi bildirilmişdi ("21 Azər – 70".., 2015, s.154-155). S.Cavid yazır ki, bu müqavilədən sonra Ə.Qəvamı "şeytan" adlandıran S.C. Pişəvəri onun Stalinin saqqızını oğurladığını demişdi (Cavid. O günün.., s.50). S.C.Pişəvəri Stalinə etdiyi müraciətdə deyirdi ki, "Qəvam neft məsələsini ona görə qabağa çəkmişdi ki, Qızıl Ordunun İrandan çıxmasını təmin etsin və Azərbaycan milli nəhzətini (milli hərəkat-Ə.F.) ortadan aparsın" (Rəhimli. S.C.Pişəvəri Baş nazirlikdən...). ADF rəhbərliyi sovet dövlətindən işğalçılara qarşı xalqın silahlanması və şah ordusuna qalib gələ bilmələri üçün yardım və dəstək xahiş edirdi (Abışov, 2023, s.184). Tudə Partiyasının Mərkəzi Komitəsinin məsul üzvü Ə.Kambəxş də M.C.Bağırovla və S.C.Pişəvəri olan görüşlərində sovet ordusunun İrandan çıxmasının acı nəticələrə səbəb olacağını, təkcə Cənubi

Azərbaycanda deyil, bütün İranda demokratların, hürriyyətçilərin, Tudə üzvlərinin repressiyaya məruz qalacağını bildirmişdi (Message..). M.C.Bağırovun ADF-yə dəstək üçün çoxsaylı top, tüfəng və s. silah-sursat yardımı təklifi sovet rəhbərliyi tərəfindən cavabsız buraxıldı ("21 Azər – 70".., 2015, s.147-150). Təbrizdəki sovet konsulluğuna dəvət edilən ADF rəhbərliyinə tövsiyə edildi ki, müqavimətdən imtina etsinlər və şah hökumətinə tabe olsunlar (Cavid. O günün.., s.50). İ.Şəms göstərir ki, S.C. Pişəvəri bu hadisələrdən sonra - "Bizim faciəmiz "tovarişlərə" inanmağımız və arxasız qalmağımızdır" demişdi (Rəhimli, 2017, s.14). Stalin S.C.Pişəvəriyə yazdığı məktubda İranda dərin inqilabi böhran olmadığı üçün ADF-yə yardımdan imtina etdiyini və Qəvam hökuməti ilə beynəlxalq imperializmə qarşı əməkdaşlıq etməyi təklif etmişdi (Bayramzadə, 2015, s.163-164). Təbii ki, Stalinin bu mövqeyində Ə.Qəvamın İran neftindən SSRİ-yə pay təklifi amili mühüm rol oynadı. Sovet ordusunun Cənubi Azərbaycanı tərk etməsi himayəsiz qalan ADF-nin məğlubiyyətinə səbəb oldu. Bu prosesdə ABŞ-ın İrana hərbi dəstəyi də böyük rol oynadı. "Kommunist" qəzeti ABŞ-ın bu ərəfədə İran ordusuna 40 bombardman təyyarəsi verdiyini göstərir (İran ordusuna.., 1946, 13 dekabr, s.1).

İran mətbuatına istinadən "Kommunist" qəzeti yazırdı ki, dekabrın 7-də hökumət təyyarəsi İran Azərbaycanı üzərində uçaraq vərəqələr tökmüş və bu vərəqələrdə əhalini hökumət qüvvələri ilə əməkdaşlıq etməyə, demokratik hökumət idarələrinə qarşı üsyan qaldırmağa, bunları işdən kənar etməyə, habelə vərəqələrdə "azğın və satqın" adlanan bütün demokratları asmağa və məhv etməyə çağırmışdır (İran Azərbaycanına.., 1946, 13 dekabr, s.1). "Azərbaycan" qəzetinin 1946-cı ilin 11 dekabr tarxindəki son sayında ADF-nin və Azərbaycan Fəhlə və Zəhmətkeşləri Həmkarlar İttifaqının adından S.C.Pişəvərinin və M.Biriyanın birlikdə yazdıqları bəyanat dərc edildi. Bəyanatda deyilirdi ki, Azərbaycan xalqının düşmənləri və İran xalqının qanını sovuran cəlladlar

xalqımızın azadlığı əleyhinə sui-qəsdə hazırlaşırlar. Lakin xalqımız bilir ki, keçinin əcəli çatanda özünü çobanın dəyənəyinə sürtər. Dünya bilir ki, biz sülh naminə heç bir fədakarlıqdan çəkinmədik. Qoy dünya bizim yaşamağa layiq bir xalq olduğumuzu anlasın. İndi azadlığımız üçün qurbanlar veririk, lakin bu yol bizi zəfər və qabiliyyətə götürəcək! (Pişəvəri, 1325 (1946), 20 azər (11 dekabr), s.1, 4)

S.C.Pişəvəri hər nə qədər İranın istiqlaliyyətini və İran daxilində Azərbaycanın muxtariyyətini vurğulayıb – "Bizi təcziyəçi (separatçı-Ə.F.) adlandırırlar, halbuki biz İranı təcziyə etmək (parçalamaq-Ə.F.) fikrində deyilik" (Pişəvəri, 2016, s.373) desə də, son nəticədə 1946-cı ilin 12 dekabr tarixində şah ordusu parlament seçkilərinin təmini adı altında Cənubi Azərbaycanı işğal etdi. İstanbulda nəşr edilən "Vakit" qəzeti İranın "Ettelaat" qəzetinə istinadən bildirirdi ki, Təbrizə girən şah ordusunun komandanlığı ADF ilə bağlanan müqvilənin keçərli olmadığını elan etdi (Peker, 2020, s.80). Beləliklə, İran ordusunun Baş qərargahının rəisi, general Həsən Ərfənin (Hasan Arfa) komandanlıq etdiyi şah ordusu bir illik muxtariyyətə son qoydu. Pəhləvilərin seçki bəhanəsi ilə işğalçı siyasətini və seçki saxtakarlığını ifşa edən "Azərbaycan" qəzeti yazırdı ki, azad seçkilər millətin qanuni haqqıdır. Mürtəce ünsürlər millətin bu qanuni haqqını qəsb edir (İntixabat, 1325 (1946), 17 azər (8 dekabr), s.1). Şah hökuməti tərəfindən işğaldan sonra "Azərabadegan" ("Odlar yurdu"-Ə.F.) medalı təsis olundu və işğalda xüsusi rol oynayan iranlı zabitlər bu medalla təltif edildilər (Azarabadegan...).

"Azərbaycan" qəzeti yazırdı ki, şah hökuməti buna sevinə bilər, lakin bu, müvəqqətidir. Azərbaycan xalqı öz azadlığı uğrunda ən yaxşı oğullarını şəhid verdi və onlarla iftixar edir. Təkcə Azərbaycan yox, bütün İran xalqları bu şəhidlərə minnətdardır. Çünki onlar İran xalqlarının azadlığı uğrunda şəhid oldular. Şəhidlərimizin unudulmaz xatirəsi millətimizin xatirəsindən silinməyəcəkdir. Onları haqız yerə öldürən cəlladlar bir gün milli

məhkəmə qarşısında cavab verəcəklər (Müciri, 1948, 23 iyun, s.3). Sovet hökuməti isə bu zaman Cənubi Azərbaycandakı qırğınlara səssiz qalaraq İrana nota verdi və aprel ayında bağlanmış neft müqaviləsinə əməl edilməsini tələb etdi. Müqaviləyə görə ortaq Sovet - İran Neft Cəmiyyəti yaradılmalı, bu şirkətin Şimali İranda çıxaracağı neftin 51%-i SSRİ-nin, 49%-i İranın payına düşməli idi. Lakin Baş nazir Ə.Qəvam məsuliyyəti öz boynundan ataraq İran parlamentinin müqaviləni təsdiq etməli olduğunu bildirdi (Гасанлы, 2006, c.458). İran parlamenti isə qanunu təsdiq etmədi və bununla da İranın Cənubi Azərbaycanı işğalından sonra da neft müqaviləsinə əməl edilmədi.

S.C.Pişəvəri Milli hökumətin süqutu ərəfəsində belə yazırdı: "Biz şərəflə yaşayacağıq. Ölümə hazır olmayan bir millət azad yaşaya bilməz" (Ağayi Pişəvərinin.., 1325 (1946), 16 azər (7 dekabr), s.2). O, sona qədər Təbrizdə qalıb mübarizə aparacığını bildirsə də aldadılaraq, məsləhətləşmə adı ilə Sovet Azərbaycanına dəvət edildi. Lakin ona İrana qarşı silahlı mübarizə aparmağa sovet hökumətinin razı olmadığı bildirildi (Rəhimli, 2009, s.107-108).

C.Həsənli M.Bağırovun 1946-cı ilin mart ayında S.C.Pişəvəri ilə Culfada görüşərkən Dövlət Təhlükəsizliyi Nazirliyinin əməkdaşı kimi Heydər Əliyevin onların mühafizəsində iştirak etdiyini bildirmişdir (Tarixçi alim...). M.Qasımlı H.Əliyevin Cənubi Azərbaycandakı inqilabi proseslərdə və ADF-nin fəaliyyətində daha fəal iştirak etdiyini bildirsə də (Qasımlı, 2006, s.444-445), E.Axundova bu fikrin dövrün qaynaqları tərəfindən təsdiqlənmədiyini göstərir və yazır ki, "Heydər Əliyev İranda çekist kimi xidmət etməmiş, lakin Naxçıvandakı iş fəaliyyəti cənublu mühacirlərlə və iranlı kəşfiyyatçılarla əlaqəli olmuşdur" (Axundova, 2019, s.67, 71, 73).

Cənubi Azərbaycanda istiqlaliyyətin məhv edilməsində Stalini ittiham edən S.C.Pişəvəri Sovet Azərbaycanında 1947-ci ildə qəsdən törədilmiş maşın qəzasında məhv edildi. Onun öldürül-

məsinin bir səbəbi də milli hərəkatın süqutu ilə razılaşmaması, Cənubi Azərbaycana qayıdıb silahlı mübarizəyə davam etmək istəməsi idi. İranlı tədqiqatçı Ə.Vəkili yazırdı ki, Pişəvərinin dikbaşlığından narazı olan ruslar onu öldürməyi qərara aldılar, qəzadan sonra xəstəxanada ona iynə vurub öldürdülər (Tağıyeva, 21 Azər...). Bu dövrdə bir çox Azərbaycan ziyalısı - görkəmli filosof, akademik Heydər Hüseynov, ədəbiyyatşünas Feyzulla Qasımzadə, şair Osman Sarıvəlli və digərləri SSRİ-nin ADF-yə hərbi yardımdan imtina etməsini tənqid etmiş, bunu "biabırçılıq və böyük faciə" adlandırmışdılar (Гасанлы, 2006, c.458-459). Sovet partiya və dövlət xadimi İ.Mustafayev yazırdı ki, SSRİ qoşunlarının Təbrizdən gözlənilməz çıxışı Milli Hökumətə münasibətdə xəyanət idi. O, qeyd edir ki, biz silahsız qardaşlarımızı İran irticasının özbaşınalığı ilə üzbəüz qoyduq; bu qaçmağın rüsvayçılığı Stalinin, Beriyanın və onların ən yaxın əhatəsinin üzərinə düşür (Tağıyeva, 21 Azər...).

Türkiyədə mühacirətdə olan Azərbaycan Xalq Cümhuriyyətinin lideri M.Ə.Rəsulzadə Pişəvəri hökumətinin süqutunu ürək ağırısı ilə qarşılamış və belə demişdi: "Azərbaycanın bütövlüyü üçün bu birləşmənin böyük əhəmiyyəti ola bilərdi. Kim bilir, tarix bu fürsəti bir də nə zaman gətirəcək?" (Əhməd, 2021, s.5). M.S.Aran da Türkiyənin "Şərq yolu" qəzetindəki "Bədbəxt Azərbaycan məsələsi" adlı məqaləsində Cənubi Azərbaycanda baş verən qırğınlarda Qərb imperializmi və Pəhləvilərlə yanaşı sovet hökumətini ittiham etmişdi (Şimşir, 2013, s.132). Görkəmli şair N.Rəfibəyli yazırdı ki, "İran Azərbaycanı xalqının səadəti uzun sürmədi. Amerika və İngiltərə imperializminin buyruğu ilə İran mürtəceləri qəhrəman xalqın üzərinə qara əsarət bayrağını endirdilər" (Rəfibəyli, 1948, 28 fevral, s.4). S.C.Pişəvəri öldürülsə də, onun istiqlal ideyası Cənubi Azərbaycanda məhv olmadı. Bu dövrdə İran mətbuatı cənubda milli hərəkatın dirçəlməsindən qorxaraq yazırdı ki, "Pişəvəri dirilmişdir!"; "Yaşasın Pişəvəri!" çağırışları getdikcə daha gur səslənir. Təbrizdə eşidilən bu səslər

təhlükə olduğunu sübut edir" (Bayramzadə. "21 Azər"...).

S.C.Pişəvərinin öldürülməsi ADF-nin zəifləməsinə səbəb oldu. İranlı kommunistlərin təkidi və sovet rəhbərliyinin təşviqi ilə 1950-ci illərdən etibarən ADF-nin və Kürdüstan Demokratik Firqəsinin Tudə Partiyasına birləşdirilməsi müzakirələri başlandı. Bu müzakirələrdə İranı təmsil edən kommunist təşkilatlarının bir mərkəzdə birləşməməsi hərəkatın zəifləməsinə səbəb kimi göstərildi və 1960-cı ildə ADF öz adını formal olaraq saxlayaraq Tudə Partiyasına birləşdi və Azərbaycan Əyalət Komitəsi kimi fəaliyyət göstərməyə başladı. ADF-nin Tudə Partiyasına birləşdirilməsi Cənubi Azərbaycanda milli, demokratik hərəkatın inkişafına mənfi təsir göstərdi (Bayramzadə, 2015, s.167-168; Ələkbərli, 2021, s.134-135).

Son olaraq deyə bilərik ki, bu fəsildə şah rejiminin Azərbaycan xalqına vurduğu ziyandan, Cənubi Azərbaycan inqilabçılarının, Səttarxan və Bağırxan kimi məşrutəçilərin İranda Qacar şah rejimi əleyhinə və demokratiya uğrunda mübarizəsindən bəhs edilmişdir. M.Xiyabaninin Cənubi Azərbaycanda "Azadistan" hökumətini quraraq ingilis imperializminin dəstəklədiyi İran hökumətinə qarşı üsyanı və şəhid edilməsi, Sovet İttifaqının İranda kommunist hərəkatını, Tudə Partiyasını dəstəkləməsi, T.Ərani, S.C.Pişəvəri kimi mübariz inqilabçı ziyalıların həyat və yaradıcılığı, publisistik fəaliyyəti, şah rejimi tərəfindən repressiyalara məruz qalması haqqında məlumat verilmişdir. Bu fəsildə sovetlərin yardımı sayəsində S.C.Pişəvərinin ADF-ni qurması və onun Təbrizdə nəşr etdirdiyi "Azərbaycan" qəzetinin Cənubi Azərbaycanda milli istiqlalın, Milli Hökumətin ideoloji təbliğatında mühüm rol oynaması göstərilmişdir. Həmçinin Əziz Əliyevin, Heydər Əliyevin və bir sıra sovet xadimlərinin milli istiqlala verdiyi töhfələr göstərilmişdir. Bu fəsildə qeyd edilmişdir ki, sovet dəstəyinin kəsilməsi, hətta Stalinin Milli Hökumətə xəyanəti "21 Azər" hərəkatının süqutuna səbəb olmuş, şah rejimi Təbrizi işğal

edərək milli hərəkata son qoymuşdur. Bunun nəticəsində ADF rəhbərliyi və üzvlərinin bir çoxu Şimali Azərbaycana mühacirət etmiş, cənubda qalanlar isə şah rejiminin repressiyalarına məruz qalaraq kütləvi qətl, sürgün və ya həbs edilmişdir.

# II FƏSİL
# “AZƏRBAYCAN” QƏZETİNDƏ (1947-1949) MƏTBUAT VƏ PUBLİSİSTİKA MƏSƏLƏLƏRİ

## 2.1. Milli mətbuatda və publisistikada ideoloji məsələlər

Məşrutə dövründə İranda, o cümlədən, Cənubi Azərbaycanda qəzet və jurnallar rahat şəkildə çap edilmişdi. Rza şahın hakimiyyətə gəlməsindən sonra bütün demokratik mətbuat susduruldu, ancaq şahpərəst və hökumət yönümlü mətbuatın inkişafına icazə verildi. Rza şahın İrandan sürgün edilməsindən sonra yeni hökumət İranda mətbuata qismən azadlıqlar verməyə məcbur oldu. “Azərbaycan” qəzetində də göstərilir ki, XX əsrdə İran mətbuatının tarixini üç dövrə bölmək olar: məşrutə dövrü, Rza xan diktatorluğu dövrü və “şəhrivər” hadisəsindən, yəni Rza şahın istefasından sonrakı dövr (Şəmidə, 1948, 24 aprel, s.1).

II Dünya müharibəsi dövründə Cənubi Azərbaycanda fars və Azərbaycan dillərində bir sıra qəzetlər nəşr edilmişdir. Təbrizdə “Azərbaycan” (1941-1942), “Arya” (“Ari”-Ə.F.) (1941), “Xavər-e nou” (“Yeni Günəş”-Ə.F.) (1943-1945), “Sitare-ye Azərbaycan” (“Azərbaycan ulduzu”-Ə.F.) (1944-1945), “Ədəbiyyat səhifəsi” (1943-1946), “Yumruq” (1943-1945), “Qovğa-ye zindəgi” (“Həyat qovğası”) (1943-1944) qəzetləri çap olunmuşdu. Ərdəbildə nəşr edilən “Cövdət” (1942-1946) və “Yumruq” qəzetləri azadlıq və demokratiya qüvvələri mövqeyindən irtica və imperializm əleyhinə çıxış edirdilər. Qəzetlərdən bir neçəsi, o cümlədən, Təbrizdə çıxan “Şahin” (1941-1945), “Mehtab” (“Ay işığı”-Ə.F.) (1941), “Sədaye-Azərbaycan” (“Azərbaycanın səsi”-Ə.F.) (1941) və “Fəryad” (1942, 1944-1946) qəzetləri, eləcə də Urmiyada çıxan “Keyvan” (“Satürn”- Ə.F.) (1944-1945) qəzeti azadlıq və demokratiya qüvvələrinə tərəfdar olsalar da, siyasi mübarizədə tərəddüd göstərirdilər. 1944-cü ilin yayında “Şahin”, “Fəryad” və “Keyvan” qəzetləri “Azadlıq cəbhəsi” adlı demokratik təşkilata

birləşdilər. Təbrizdə çıxan "Qoftar və Kerdar" ("Söz və əməl"-Ə.F.) (1942-1943), "Təbriz" (1942-1944), "Əxtər-e Şimal" ("Şimal ulduzu"-Ə.) (1942-1945), "Pərtov-e İslam" ("İslamın işığı"-Ə.F.) (1944) və "Kelid-e nicat" ("Nicat açarı"-Ə.F.) (1944-1945) qəzetləri və Xoy şəhərində çıxan "Nida-ye həqq" ("Haqqın səsi"-Ə.F.) qəzeti irticaçı mövqe tutaraq azadlıq qüvvələrinə qarşı çıxırdı. 1945-ci ilin sentyabrına qədər olan müddətdə Azərbaycanda çıxan "Azərbaycan", "Xavər-e nou" və "Yumruq" qəzetləri azadlıq uğrunda, irticaya, faşizmə və imperializmə qarşı yorulmadan mübarizə apardılar (Çeşmazər. Azərbaycan.., s.18).

1945-ci ildə Təbrizdə nəşr olunan "Şəfəq" jurnalı SSRİ ilə dostluq əlaqələrini təbliğ edir və yazırdı ki, Sovet Azərbaycanı ilə İran Azərbaycanını milli xüsusiyyət, dil, tarix və ənənə etibarilə bir-birinə bağlayan möhkəm amillər vardır ki, onlar mədəni əlaqələrimizin möhkəmləndirilməsini zəruri edir (Vəkilov, 1991, s.64). "Şəfəq" aylıq, elmi, ədəbi-bədii jurnal olub "Sovet İttifaqı ilə mədəni əlaqə saxlayan İran cəmiyyəti"nin Təbriz şöbəsinin orqanı idi (Şəfəq, 1945, № 3, s.1). Jurnalda Cənubi Azərbaycan və İran ziyalıları ilə yanaşı N.Gəncəvi, M.F.Axundov, S.Ə.Şirvani, M.İbrahimov və s. Şimali Azərbaycan mütəfəkkirlərinin əsərləri də təbliğ edilirdi. Həmçinin xalqlar dostluğu ideyaları, Cənubi Qafqaz mütəfəkkirlərinin əsərləri, o cümlədən, aşıq Sayat-Novanın şeirləri, həyat və yaradıcılığı haqqında da məqalələr jurnalda təqdim edilmişdi (Haşimoğlu, 1945, № 3, s.26-31). "Şəfəq" jurnalı Cənubi Azərbaycan əhalisinin şah rejiminə qarşı tarixi mübarizəsini geniş işıqlandırırdı. Jurnalda M.Xiyabaninin – "İranın rejimi məşrutə deyildir. Xalqın hökumət işlərindən xəbəri yoxdur. İndi millət istəyir elə bir hökumət təsis etsin ki, onun ixtiyarı millətin öz əlində olsun" (Şeyx Məhəmməd Xiyabaninin.., 1945, № 4, s.18-19), sözləri təqdim və təbliğ edilmişdi.

1945-1946-cı illər Milli Hökumət dövründə ADF-nin rəhbərliyi ilə Zəncanda "Azər", Ərdəbildə "Cövdət", Urmiyada "Urumiyə" qəzetləri, Təbrizdə "Cavanlar" qəzeti və jurnalı, "Vətən"

jurnalı, "Yeni Şərq", "Azad millət" qəzetləri və sair qəzetlər nəşr edilmişdir (Xoşginabi, 1948, 15 sentyabr, s.3). Lakin ADF-nin əsas orqanı "Azərbaycan" qəzeti idi. Qəzetdə milli-mədəni məsələlər, dövrün ictimai-siyasi, iqtisadi, milli problemləri həm azərbaycançılıq, həm də marksizm-leninizm ideyası əsasında təqdim və təhlil edilirdi. "Azərbaycan" qəzeti bu dövrdə öz ətrafında bir sıra görkəmli publisistləri birləşdirirdi. Bunlara nümunə olaraq Fəthi Xoşginabini, Əli Şəmidəni, Cəfər Mücirini, Mirrəhim Vilayini, Qafar Kəndlini və digərlərini göstərə bilərik. Onların hər birinin məqaləsində dövrün ictimai-siyasi vəziyyəti, firqə məsələləri, mətbuatın problemləri, Pəhləvi zülmünə qarşı azadlıq mübarizəsi və s. məsələlər işıqlandırılırdı. Qəzetdə həmçinin "21 Azər" hərəkatı dövrü, S.C.Pişəvəri, T.Ərani, F.İbrahimi və digər görkəmli ziyalıların fikirləri, məqalələri təqdim və təbliğ edilirdi.

**"Azərbaycan" qəzetində azərbaycançılıq ideologiyası.** Cənubi Azərbaycanda S.C.Pişəvərinin rəhbərliyi ilə demokratik azadlıq hərəkatı başladıqda Tudə Partiyasının radikal solçu düşüncəsindən imtina etmək məcburiyyəti yarandı. Demokrat Firqəsi milli bir firqə olub onun sıralarında ölkənin bütün təbəqələri iştirak hüququna malik idi. S.C.Pişəvəri "Azərbaycan" qəzetində bu haqda yazırdı ki, ADF tam mənasilə milli bir firqədir. O bütün təbəqələrin mənafeyini nəzərdə tutur. Ona görə də onun quruluşunda bütün təbəqələrin nümayəndələri yaxından iştirak etməlidirlər (Pişəvəri, 1324 (1945), 27 şəhrivər (18 sentyabr), s.1). Tudə Partiyası isə sinfi partiya olub öz sıralarına ancaq fəhlə və kəndliləri, aşağı təbəqənin ziyalılarını qəbul edirdi. Tudə Partiyasının şüarları radikal solçuluq ideyalarına əsaslanırdı. Qəzet yazırdı ki, ADF-yə birləşmək istəyən şəxslər gərək solçuluq şüarlarından imtina edib bizim şüarları qəbul eləsinlər. Əgər bizimlə birlikdə milli azadlıq yolında çalışmaq istəyirlərsə tam mənasilə demokrat olmalıdırlar. Bunun əksinə hərəkət etmək istəyənlərə ADF-də yer ola bilməz. Solçu şüarlar ilə xalqı qorxuducu sözlər işlətməklə özlərini pəhləvan göstərmək istəyən lovğalara

ADF-də yer verilməyəcəkdir (Pişəvəri, 1324 (1945), 27 şəhrivər (18 sentyabr), s.1).

S.C.Pişəvəri özü İran Kommunist Partiyasının keçmiş rəhbərlərindən biri olsa da, İrandakı ictimai-siyasi vəziyyət onu zahirən də olsa kommunizm şüarlarından imtina etməyə məcbur edirdi. S.C.Pişəvəri Cənubi Azərbaycanda milli azadlıq hərəkatı üçün bütün siniflərin millilik ətrafında birləşməsini, sinfi ixtilaf adı ilə milli hərəkatın parçalanmaması gərəkdiyini tələb edir və yazırdı ki, biz milli azadlığı təmin etmək üçün hər kəsdən fədakarlıq tələb edirik, rəiyyət, mülkədar, işçi, hamı Azərbaycanın tərəqqi və səadəti yolında bu fədakarlığı göstərməlidir. Mübarizə lazımdır, lakin o milli azadlıq və vətənin tərəqqisi yolunda aparılmalıdır. Kim azadlıq və tərəqqiyə müxalifət edərsə, o, millətimizin qəddar düşmənidir. Onunla amansız bir surətdə mübarizə etməliyik. Kim təhlükəsizliyi pozub xalq arasına nifaq salsa, hansı təbəqədən olur olsun, o, xalq arasından qovulub ictimai hüquqdan məhrum edilməlidir (Pişəvəri, 1324 (1945), 27 şəhrivər (18 sentyabr), s.1).

S.C.Pişəvəriyə görə demokratlıq ən mütərəqqi ali bir fikirdir. Biz onu tamam mənasıyla həyata keçirməyə çalışmalıyıq. Biz var qüvvəmiz ilə çalışacağıq ki, millətin bütün fərdləri dövlət işlərində iştirak etsin. Hər bir fərdin iradəsi məmləkətin gələcəyində rol oynasın. S.C.Pişəvəriyə görə sinfi mübarizənin milli azadlığa mane olmaması üçün kəndli ilə mülkədarlar arasındakı ixtilafları ədalətli bir şəkildə həll etməliyik (Ağayi Pişəvərinin nitqi-6, 1324 (1945), 1 mehr (23 sentyabr), s.2).

İranda qanunların işləmədiyini, insan hüquqlarının, demokratik azadlıqların, xalqların milli hüquqlarının İran hökuməti tərəfindən pozulduğunu göstərən S.C.Pişəvəri yazırdı ki, ədalətli qanunlardan heç bir iz görmürük. Biz azərbaycanlılar bu ədalətli qanunları keçmişdə böyük qurbanlar bahasına əldə etmişdik. Mərkəzi hökuməti özlərinin ata-babadan qalma irsi hesab edən xainlər isə bu qanunları gizlətmişlər. Bizim haqq və ixtiyarımızı təmin edən əyalət və vilayət əncümənləri (yerli idarəetmə

orqanları-Ə.F.) qanundan silinib, bir iz yoxdur. Biz millətlərin və xalqların ixtiyarını təmin etmiş konstitusiyanı diriltmək yolunda mübarizəyə başlamışıq. Əyalət və vilayət əncümənləri olmasa, konstitusiya quru və mənasız bir kağızdan ibarət ola bilər (Ağayi Pişəvərinin nitqinin.., s.2).

1905-1911-ci illər məşrutə inqilabında azərbaycanlıların böyük rol oynadığını, azərbaycanlılara əncümənlər vasitəsilə yerli özünüidarəetmə haqları verildiyini göstərən "Azərbaycan" qəzeti Pəhləvilərin bu haqqı qəsb etdiyini qeyd edir və göstərirdi ki, konstitusiya bütün İran xalqları və əyalətləri kimi Azərbaycan xalqına da bu ixtiyarı vermişdir. Azərbaycan əyalət əncüməni İranın məşrutə tarixində böyük rol oynamışdır. Azərbaycan xalqı qırx il bundan əvvəl təşkil etdigi əyalət əncüməni vasitəsilə özünün siyasi yetkinlik və istedadını sübut etmişdir. ADF indi onun qabağına çıxarılan maneələri ortadan qaldırmalıdır. Haqqı almaq lazımdır, onu verməzlər (Ağayi Pişəvərinin nitqi-6, 1324 (1945), 1 mehr (23 sentyabr), s.2). "Azərbaycan" qəzetinə görə Qacarlar dövründə əldə edilən konstitusiya və onun vilayətlərə verdiyi hüquqların pozulmasının günahkarı Pəhləvilər idi. Qəzet yazırdı ki, ingilislər Rza xanı hakimiyyətə gətirdikdən sonra konstitusiya tamamilə yox sayılıb əyalət, vilayət əncümənlərinin maddələri icra olunmadı. Konstitusiyanın birinci əsl maddəsinə görə məşrutə hüququ yox sayıla bilməz. Rza şah hökuməti və mürtəcelər əyalət, vilayət əncümənlərini ləğv etməklə məşrutə əleyhinə çıxdılar (Vilayi, 1948, 21 yanvar, s.1). "Azərbaycan" qəzeti yazırdı ki, Rza şahın dövründə əncümənlərin qaldırılması ilə şahın diktatorluğu möhkəmləndi ("Azərbaycan" qəzeti.., 2022, s.547). Beləliklə, biz Müzəffərəddin şah dövründə qəbul edilmiş, M.Xiyabaninin "Azadistan" hökuməti dövründə davam etdirilmiş "qanuni-əsasi"nin, yəni konstitusiyanın verdiyi demokratik haqların, o cümlədən, əncümənlərin Pəhləvilər dövründə ləğv edilməsinin (Mirzəzadə, 1969, s.110) ADF-nin şah hökumətinə qarşı qiyamının əsas səbəblərindən biri olduğunu görürük.

"Azərbaycan" qəzetinə görə ADF-nin əsl məqsədi Azərbaycanı İrandan ayırmaq yox, İranda demokratiya və İranın bütün xalqlarına milli-mədəni hüquqlarını verməkdir. Lakin eyni zamanda bildirilmişdi ki, İranın bu günki sərhədlər içərisində, torpaq bütünlüyünü istəyənlər bilməlidirlər ki, həmin bütünlik ancaq İranda həqiqi demokratik hökumət qurulduğu və digər millətlərin dilinə, adətinə, ənənə və milliyyətinə hörmət edildiyi təqdirdə təmin ola bilər (Azərbaycan Midiyadır.., 1948, 6 mart, s.3).

ADF milli bir partiya olsa da, bütün İranın istiqlalını və ərazi bütövlüyünü tam qəbul edir, eyni zamanda yerli özünüidarə etmə orqanlarına səlahiyyət verilməsini tələb edirdi. Partiyanın proqramının birinci maddəsində yazırdı ki, ADF İranın ərazi bütünlüyünü və istiqlalını müdafiə etməklə bərabər, Azərbaycanın milli və yerli xüsusiyyətlərini nəzərə alaraq, onun iqtisadi, milli-mədəni tərəqqisini sürətləndirmək məqsədilə əyalət və şəhər əncümənlərinə seçki keçirilməsini tələb edir (Vilayi, 1948, 17 yanvar, s.1). Partiyanın bu proqramı İran konstitusiyasına uyğun idi. "Azərbaycan" qəzeti yazırdı ki, konstitusiyanın 29-cı maddəsinin tamamlayıcısı olan 92-ci əsl maddədə yazılmışdır ki, əyalət, vilayət əncümənləri qanununa görə onun yerli özünü idarəetməyə tam ixtiyarı vardır (Vilayi, 1948, 21 yanvar, s.4).

"Azərbaycan" qəzeti öz səhifələrində demokratik ideyaların tam tətbiqini tələb edir və şahlıq rejimini tam rədd edirdi. Qəzetə görə xalqa zidd siyasət güdən Pəhləvi şahlarının diktaturası qəbul edilə bilməzdi. "Azərbaycan" qəzeti yazırdı ki, hətta öz doğma millətimizdən olan Şah Abbas və Şah İsmayıl da qəbirdən baş qaldırıb bu millətə şahlıq etmək istəsə xalqımız onları qəbul etməz. Qəzetdə şahlıq üsulunun artıq tarixin dərinliklərində qaldığı, Azərbaycan xalqının heç vaxt şahpərəst olmayacağı bildirilmişdi (Şah, Tehran.., 1948, 2 oktyabr, s.1).

Xalqın milli tarix şüurunun canlı tutulması üçün "Azərbaycan" qəzetində "21 Azər" hərəkatının ildönümünə həsr edilmiş məqalələr, şeirlər təqdim edilirdi. Qəzetdə vurğulanırdı ki, "21

Azər" Azərbaycan xalqının tarixi günüdür və "21 Azər" nailiyyətləri üçün başladığımız şanlı mübarizəni qalibiyyətlə başa çatdırmalıyıq (Azərbaycan, 1947, 13 dekabr, s.1, 3). B.Azəroğlunun "Vətən məhəbbəti", M.Gülgünün "Sabahın müjdəsi", Aşıq Hüseyn Cavanın "Firqəmiz" başlıqlı şeirləri "21 Azər"in 3-cü ildönümünə həsr olunmuşdur (Azərbaycan, 1948, 29 dekabr, s.3).

İctimai-siyasi hüquqların əldə edilməsi ilə yanaşı Azərbaycan xalqının elm və maarifə sahib olmasını, bu istiqamətdə inkişaf etməsini istəyən S.C.Pişəvəri yazırdı ki, elm və mədəniyyət, səhiyyə məsələsi bizə görə ən böyük məsələlərdəndir. Bunlar olmadan bir millət öz istiqlal, həyat və azadlığını qoruya bilməz (Ağayi Pişəvərinin nitqi-6, 1324 (1945), 1 mehr (23 sentyabr), s.2).

ADF-nin məqsədi həm bütün İranda demokratik azadlıqları təmin etmək, həm də İranda yaşayan bütün xalqların, o cümlədən, azərbaycanlıların yerli özünüidarə etmədə, milli-mədəni məsələlərdə ixtiyar sahibi olması uğrunda mübarizə aparmaq idi.

"21 Azər" hərəkatının qələbəsinin xalqa demokratik, milli azadlıq bəxş etdiyini göstərən "Azərbaycan" qəzeti yazırdı ki, indi Azərbaycan təhlükəsizlik və rahatlıq cəhətdən İranın digər yerlərinin hamısından irəlidədir. İran xalqlarının hüququnu ayaqlar altına alan mürtəce ünsürlər artıq titrəməyə başlamışdır (Ağayi Pişəvərinin nitqi-5, 1324 (1945), 29 şəhrivər (20 sentyabr), s.1).

"Azərbaycan" qəzeti Pəhləvilərin milli hüquqları tapdalamasını tənqid edərək yazırdı ki, Rza xan istibdadı Hitlerin faşizm ideyasını vətənimizə keçirərək zülm və əsarəti gücləndirdi. Şah hökuməti İran daxilində yaşayan azərbaycanlı, kürd, aysor və ermənilər doğma ana dilində yazıb oxumaq, kitab və qəzetlər nəşr etmək, sənət və teatr əsərləri yaratmaq, yerli idarə və məhkəmələrdə ana dilində istifadə etmək imkanını qadağan etdi. Nəticədə xalqlar arasında böyük nifaq meydana gətirdi. Rza şahın istibdad heykəlinin yıxılmasından dörd il keçməsinə baxmayaraq, yenə də o uğursuz siyasət davam etməkdə, bəlkə onu meydana çıxaran mürtəce ünsürlər get-gedə həyasızlaşaraq, xalqa hücuma

keçib onun demokratik hərəkatını boğmaqdadırlar. İrtica məmləkətimizin sənaye cəhətdən tərəqqi edib güclü və qüdrətli olmasını istəmir (Azərbaycan Demokrat Firqəsinin 1324-cü il.., 1948, 14 yanvar, s.3).

Xalqı mübarizəyə çağıran "Azərbaycan" qəzeti yazırdı ki, neçə illərdir Azərbaycan xalqının dilini və hüququnu qəsbkar qəyyumlar əllərindən alıb özlərinə həmişəlik qul hesab eləyib onunla zülmlə rəftar edirdilər. Hətta zülmün dərəcəsi o qədər şiddətli olmuşdu ki, Azərbaycan xalqına öz ana dilində dərs oxumağa icazə verilmədiyi kimi idarələrdə də öz dilində danışmağa icazə verilmirdi. Biz də dünya millətləri cərgəsinə daxil olub, öz qanuni haqlarımızı istəməliyik və bütün dünyada olan hürriyyətçilərə sübut etməliyik ki, bizim də öz ana dilimiz və ədəbiyyatımız vardır. Biz də qeyri xalqlar kimi azad yaşamalıyıq və azad, müstəqil ədəbiyyatımız olmalıdır (İldırım, 1324 (1945), 29 şəhrivər (20 sentyabr), s.1).

"Azərbaycan" qəzeti yazırdı ki, Azərbaycan milləti öz ana dilini varlığı qədər sevir. Azərbaycan milləti bütün millətlərin dilinə, mədəniyyətinə, hörmət qoymaqla öz ana dilini və mədəniyyətini də göz bəbəyi kimi sevir, qoruyur, çünki millətimizin çoxəsrlik mədəniyyəti və mübarizə tarixi bu dil ilə bağlı olmuşdur. Ona görə də millətimizin iradəsini təmsil edən ADF öz proqramında ana dilinə xüsusi yer vermişdir (Məhəmmədzadə, 1948, 14 avqust, s.4). "Azərbaycan" qəzetində Baş nazir S.C.Pişəvərinin imzası ilə "Dil haqqında Azərbaycan Milli Hökumətinin Qərarı" çap olunmuşdu. Qərarda göstərilmişdi ki, "Azərbaycan dili rəsmi dövlət dilidir" (Azərbaycan Milli Dövlətinin.., 1946, 9 yanvar, s.1).

"Azərbaycan" qəzetində xalqın öz milli varlığı uğrunda mübarizəsini təşviq üçün şeirlər, o cümlədən, Nizami Gəncəvinin bu şeiri təqdim edilmişdi:

"Nə üçün alçağa boyun əyirsən,
Oyuncaq olursan namərdlərə sən!

Nə üçün boynuna min yük alırsan,
Zalimin zülmindən razı qalırsan!
Qəlbi yumşaqlığı bir dəfə unut
Çiynini dağ kimi yuxarıya tut" (Məhəmmədzadə, 1948, 14 avqust, s.4).

"Azərbaycan" qəzetində Milli Hökumət dövründə Təbrizdə açılmış Azərbaycan Universitetinin daha sonra Pəhləvilər tərəfindən bağlanmasının acı nəticələri bir tələbənin dili ilə belə ifadə edilmişdi: iki il bundan əvvəl əziz vətənim olan Təbrizdə təhsillə məşğul idim. O günlərdə hər şey Azərbaycan millətinin xeyrinə idi. Bizim asayişimiz təmin olunurdu. Təbrizdə universitetimiz var idi, mən də başqa tələbələr kimi universitetdə təhsil alırdım. Yeməyimiz və yataqxanamız universitet büdcəsiylə təmin olunurdu. Mən rahatlıqla təhsilimlə məşğul idim. Lakin şah ordusu Azərbaycanı işğal etdikdən sonra universitetimiz bağlandı (Tehran Daneşgahından.., 1949, 22 yanvar, s.3). Tələbə Təbrizdəki Azərbaycan Universiteti bağlandıqdan sonra məcburən Tehrana oxumağa getdiyini, lakin maliyyə çətinliyi, aclıq, qıtlıq səbəbilə oxuya bilmədiyini kədərlə etiraf edir.

Azərbaycan Universiteti 1949-cu ildə Pəhləvi hökuməti tərəfindən yenidən, lakin bu dəfə "Azərabadegan" ("Odlar yurdu"-Ə.F.) adı ilə açıldı (...اسناد). O artıq xalqın maariflənməsi üçün yox, Pəhləvi hakimiyyətinin və fars mədəniyyətinin təbliğat yeri kimi fəaliyyətə başladı. Universitet müəllimləri adətən qeyri-azərbaycanlılardan seçilmişdi. Universitetə daxil olan azərbaycanlı abituriyentləri isə çox vaxt məcburi qaydada İranın digər şəhərlərindəki ali məktəblərə göndərirdilər (Bayramzadə, 1991, s.56). "Azərbaycan" qəzeti Pəhləvilərin maarif siyasəti haqqında yazırdı ki, onlar təhsildə Azərbaycan dilini qadağan etməklə xalqımızı yox etmək və ana dilimizi unutdurmaq istəyirlər. Qəzetdə hökumətin tələbələrə milli siyasətlə məşğul olmağı qadağan etdiyi və bu zaman onları öz doğma millətinə laqeyd etmək, azadlıq və mübarizə ruhlarını öldürmək və şah rejiminə qul etmək

istədiyi göstərilirdi (İshaqi, 1948, 27 oktyabr, s.3). 1949-cu ilin noyabrında Azərbaycan Universitetinin tələbələri kütləvi şəkildə etiraz aksiyası keçirmiş, təhsil şəraitlərinin yaxşılaşdırılmasını tələb etmişdilər. Hökumət qismən bu tələbləri yerinə yetirməyə məcbur qalmışdı (Байрамзаде, 2016, с.206-207).

Milli Hökumət 6 yanvar 1946-cı ildə Azərbaycan dilini dövlət dili elan edib təhsili milliləşdirsə də ("21 Azər – 70".., 2015, s.7) Pişəvəri hökumətinin süqutu ilə ölkədə məcburi farslaşdırma yenidən başlamışdı. "Azərbaycan" qəzeti Pəhləvi hakimiyyətinin təhsil siyasətini tənqid edərək yazırdı ki, dövlətin əsas məqsədi fars dilini fars olmayan millətlərə güclə öyrətməkdən ibarətdir. Lakin İranda fars dili bütün xalqların dili deyildir. Dövlət Azərbaycan millətinin, kürd, erməni və sair xalqların dilini və milli xüsusiyyətlərini nəzərə almır (Əlioğlu, 1948, 21 yanvar, s.1). Qəzetdə qeyd olunurdu ki, biz var qüvvəmizlə öz milli varlığımızı isbat edib vətənimizin tale və müqəddəratını öz güc və iradəmizlə özümüz təyin etməliyik (Azərbaycan Demokrat Firqəsinin 1324-ci il.., 1948, 14 yanvar, s.3).

**"Azərbaycan" qəzetində marksizm-leninizm ideologiyası.** "Azərbaycan" qəzetində marksizm-leninizm ideyası hər zaman aparıcı ideyalardan biri olmuşdur. Qəzetdə "elmi kommunizmin baniləri" K.Marks, F.Engels, Lenin və Stalinin fotoşəkilləri ("Azərbaycan" qəzeti.., 2022, s.424; Əhməd, 1946, 21 yanvar, s.1; Azərbaycan, 1948, 3 mart, s.3), onlar haqqında məlumatlar, "Kommunist Partiyasının Manifesti" əsəri və s. ideoloji mövzularda məqalələr təqdim edilmişdir (Kommunizmin.., 1948, 3 mart, s.3, 4). "Azərbaycan" qəzetində çap edilmiş bir məqalədə "Bütün ölkələrin proletarları, birləşin!" şüarı ilə zəhmətkeş xalq kütlələri inqilabi mübarizəyə səslənir və göstərilirdi ki, hakim siniflər kommunist inqilabı nəticəsində məhv olmalıdır. Proletarlar bu inqilabda öz zəncirlərindən başqa heç bir şey itirməyəcəklər. Qazancları isə bütün dünya olacaqdır (Kommunizmin.., 1948, 3 mart, s.4). Qəzetdə Lenin mədh edilir və deyilirdi ki, o,

dünya zəhmətkeşlərinin həqiqi atası, Şərq xalqlarının səmimi və xeyirxah dostudur. Lenin ölsə də, onun əməlləri daim yaşayacaqdır (Dünya zəhmətkeşlərinin.., 1948, 24 yanvar, s.1). Qəzetdə SSRİ-nin o dövrdə rəhbəri olan İ.V.Stalin "dahi müəllim və rəhbər", "dünya azadlıq cəbhəsinin baş komandanı" (Firqəmizin Mərkəzi.., 1948, 18 dekabr, s.3), "bu günki Lenin" adlandırılmışdı (Leninizm yaşayır.., 1949, 22 yanvar, s.1). Həmçinin "Azərbaycan" qəzetində sovet hökumətinin fəhlə və kəndlilərə, zəhmətkeşlərə göstərdiyi qayğı nümunə kimi göstərilir və deyilirdi ki, sovet konstitusiyası hər bir sovet vətəndaşına istirahət hüququ verir. Yəni zəhmətkeşlər üçün yeddi saatlıq iş günü müəyyən edilmişdir. Fəhlə və qulluqçular öz maaşlarını almaqla bərabər hər il məzuniyyətə, istirahətə gedə bilirlər (Vilayi, 1948, 4 dekabr, s.1).

ADF demokratik şüarlarla ortaya çıxsa da, bu, əslində sovet "demokratiya"sı nümunəsi idi. "Azərbaycan" qəzetində sovet vətəndaşları dünyanın qabaqcıl demokratları kimi nümunə göstərilir, Lenin və Stalin demokratların rəhbəri kimi təqdim edilir (Dünya zəhmətkeşlərinin.., 1948, 24 noyabr, s.1). "Azərbaycan" qəzetində - "Lenin ölsə də, leninizm yaşayır və qalib gəlir! Lenin bəşəriyyətə azadlıq və səadət yolunu göstərmişdir. Leninin nəzəriyyəsi Rusiya çərçivəsində deyil, bütün dünyaya aiddir", deyilərək bu ideyanın ümumbəşəri olduğu göstərilmişdir (Leninizm yaşayır.., 1949, 22 yanvar, s.1). Qəzetdə göstərilirdi ki, Azərbaycan milləti dahi Leninin ideyalarından istifadə edərək yorulmadan öz azadlığı və istiqlalı uğrunda imperializmə və onların əlaltıları olan İran mürtəcelərinə qarşı mübarizə aparır (Leninizm yaşayır.., 1949, 22 yanvar, s.1).

"Azərbaycan" qəzetində marksizm-leninizm ideyasının Şərq xalqlarının oyanışına, inqilabi mübarizəsinə təsiri yüksək qiymətləndirilir və göstərilirdi ki, Lenin Şərqin məzlum xalqlarına həmişə hörmət etmişdir. Lenin müstəmləkə xalqlarının əzildiyini görür və onlara öz talelərini həll etmək üçün yol göstərirdi. Lenin deyirdi ki, 1905-ci il inqilabı Asiya xalqlarını qəflət yuxusundan

oyatdı, onları azadlıq və demokratiya uğrunda mübarizəyə çağırdı (Leninizm yaşayır.., 1949, 22 yanvar, s.1). Qəzetdə "Lenin və Azərbaycan" adlı məqalədə göstərilirdi ki, Leninin adı bəşəriyyət tarixində yeni bir kitabın başlanğıcıdır. Bizim millətin azadlığı uğrunda ilk addımı atan və çarizmin Azərbaycanda iqtisadi, siyasi imtiyazlarını ləğv edən Lenin olmuşdur (Əhməd, 1946, 21 yanvar, s.1). "Azərbaycan" qəzeti və onu nəşr edən ADF sovet təbliğatının təsiri altında olduqlarına görə Lenin başda olmaqla Sovet Rusiyasının Azərbaycan xalqına əsarət yox, milli qurtuluş gətirdiyinə inanırdılar.

SSRİ-nin siyasi quruluşu "Azərbaycan" qəzeti tərəfindən yüksək dəyərləndirilmişdir. Bu mövzuda qəzet yazırdı ki, sovet ölkəsinin qüdrətinin mənbəyi Sovet İttifaqının mütərəqqi və demokratik olan quruluşunun mahiyyətindədir və bu quruluşun özü oktyabr inqilabından doğulmuşdur ("Azərbaycan" qəzeti.., 2022, s.482). "Azərbaycan" qəzetinə görə SSRİ-nin gücü onun öz daxilindəki müxtəlif xalqlara muxtariyyət hüququnu verməsi və bu muxtar respublikaların inkişafına yardım etməsindədir. Qəzet bu mövzuda yazırdı ki, çarizm dövründə olan qeyri-mədəni millətlər sovetlərin sayəsində böyük mədəniyyətə sahib oldular. Sovet hökümətinin yardımı ilə qeyri-rus xalqlar öz istedadlarından, yeraltı mənbələrindən istifadə edərək böyük məqama çatdılar ("Azərbaycan" qəzeti.., 2022, s.264, 314).

"Azərbaycan" qəzeti 1917-ci il oktyabr inqilabının Şərq xalqlarına təsirini izah edərək yazırdı ki, oktyabr inqilabı məzlum Şərq xalqlarının zəhmətkeş kütlələrini əsrlər boyu davam edən qəflətdən ayıltdı (Böyük oktyabr.., 1948, 6 noyabr, s.4). Qəzet göstərirdi ki, oktyabr inqilabı qalib gələndən sonra Rusiyada olan millətlər çarizmin müstəmləkə zülmündən xilas olduqları kimi İran da çar hakimiyyətinin təzyiq və zülmündən azad oldu. Lenin İranın istiqlalına hörmət etdi və İranın çar hakimiyyətinə olan milyonlarla borclarını bağışladı (Leninizm yaşayır.., 1949, 22 yanvar, s.1).

Sovet hökuməti 1921-ci ildə İranla dostluq müqaviləsi bağlayaraq, onun çar Rusiyasına olan milyonlarla qızıl manat məbləğindəki borcunu bağışlamış, İrandakı neft və yol imtiyazlarını, çoxsaylı müəssisələrini, əmlak və avadanlıqlarını ona geri vermiş, İranın dövlət gəlirləri üzərindəki nəzarət hüququndan könüllü surətdə imtina etmişdi.

"Azərbaycan" qəzeti - "Oktyabr inqilabı İranda çar hakimiyyətinin müstəmləkəçilik siyasətini aradan qaldırdı" deyərək, Sovet hökumətinin İranın azadlığına hörmət bəslədiyini, İran hökumətinin isə bunun qarşılığında Qərb imperialistləri ilə müttəfiq olub "ziddi-şurəvi təkyəgahı" (sovetlərə qarşı yuva-Ə.F.) olduğunu yazırdı. Qəzetə görə bu inqilab öz azadlıqları uğrunda mübarizə aparan xalqların "yeganə ilham mənbəyi"dir (Böyük Oktyabr.., 1948, 6 noyabr, s.1, 4). "Azərbaycan" qəzetində zəhmətkeşlərin 1 may bayramına da geniş yer verilmiş, bütün dünyada daim təntənə ilə qeyd edildiyi göstərilmişdir. Qəzetdə zəhmətkeş insanların əməyinə böyük dəyər verilir və deyilirdi ki, ölkənin bütün əməksevər insanlarının zəhmətinə və dözümünə minnətdar olmaq lazımdır ("Azərbaycan" qəzeti.., 2022, s.124). Bu mövzuda yazılmış "1 May dünya zəhmətkeşlərinin öz qüvvələrini nümayiş etdirdikləri gündür" adlı məqalədə göstərilirdi ki, 1889-cı ildə 1 may tarixi zəhmətkeşlərin beynəlxalq həmrəylik günü elan edilmişdir. Dünya zəhmətkeşləri bir may gününü bayram edib öz sarsılmaz və möhkəm iradələri ilə bütün dünyada daim sülh qurmaq uğrunda mübarizə edirlər (1 may.., 1948, 1 may, s.1). Qəzetdə dünya imperialistlərinin əlaltısı olan Pəhləvi hakimiyyətinin zəhmətkeş kütlələrin əleyhinə fəaliyyət göstərdiyi barədə məlumat verilir və bildirilirdi ki, bu təzyiqlərə baxmayaraq zəhmətkeş kütlələrin möhkəm iradəsi sarsılmayacaqdır. Çünki İran zəhmətkeşləri Məhəmmədrza şah kimi xainləri yaxşı tanıyırlar (1 may.., 1948, 1 may, s.4).

"Azərbaycan" qəzetində SSRİ-dən başqa digər xarici ölkələrin kommunist təşkilatları, onların rəhbərləri, ictimai-siyasi mü-

barizələri haqqında müxtəlif materiallar verilib ("Azərbaycan" qəzeti.., 2022, s.320, 325, 356-357, 512, 912). Qəzetdə ABŞ, İtaliya, Argentina, İspaniya, Çin və s. ölkələrin Kommunist Partiyalarının fəaliyyəti, kommunistlərin öz ölkələrinin müstəbid hökumətlərinə qarşı mübarizələri haqqında məqalələr təqdim edilib (Əbluc, 1948, 31 iyul, s.3; Əbluc, 4 avqust, s.3; İspaniya.., 1948, 17 noyabr, s.4). Çin Kommunist Partiyasının öz ölkəsində hakimiyyəti ələ keçirməsi münasibətilə təqdim olunan bir şeirdə Leninin siyasəti təqdir edilərək belə deyilirdi:

"Düşdü Leninin nuru edib sizləri bidar (oyaq-Ə.F.),
Yazdıqlarını xalq oxuyub oldu xəbərdar...
Fəth və zəfərinizlə dağılar qorxulu zindan,
Sizdən sonra nəhzət edəcək milləti-İran" (Zakir, 1949, 5 yanvar, s.4).

Başqa bir şeirdə isə Çinin burjua lideri Çan Kayşekin Mao Tszedun rəhbərliyindəki kommunistlər tərəfindən qovulması münasibətilə belə deyilirdi:

"Şərq millətləri!
Yatmaq daha bəsdir, oyanın!
Şahlara, bəylərə, sultanlara üsyan yaradın;
İnqilab həll edəcək hər işi hər vəqt, inanın,
Qurtuluş ordusuna diqqət edib qüvvət alın!" (Cəfərpur, 1949, 16 fevral, s.4).

Bu materialların oxuculara çatdırılmasında məqsəd iranlıların ictimai-siyasi şüurunu yüksəltmək, onları dünya kommunist hərəkatından nümunə götürərək yeni inqilabi mübarizələrə hazırlaşdırmaq idi.

"Azərbaycan" qəzeti bütün İran xalqlarının qardaşlığını, ölkədəki bütün xalqların azadlıq və hüquqları uğrunda mübarizə aparmış və bunu təbliğ etmişdi. Qəzet İranda xalqlar dostluğuna zərbə vuran Pəhləvi hakimiyyətinin himayədarı olan Qərb imperializmini ifşa edərək yazırdı ki, imperialist dövlətlərin, xırda və zəif ölkələri müstəmləkə vəziyyətinə salmaq üçün istifadə etdik-

ləri vasitələrdən biri də xalqlar arasına milli ziddiyyət salmaq və bu ziddiyyətdən istifadə edib öz hakimiyyətlərini möhkəmlətməkdən ibarətdir (Vilayi, 1948, 10 yanvar, s.1). Qəzet Britaniya imperializmini Şərq ölkələrini - Fələstini, Hindistanı, o cümlədən, İranı daha çox istismar etmək üçün xalqlararası düşmənçiliyi qızışdırmaqda ittiham edir və göstərirdi ki, İranda hər hansı bir əyalətdə azadlıq hərəkatı baş verən kimi oradakı tayfaları bir-birinə düşmən edib, qardaş qırğını salıb, azadlıq hərəkatını fitnə içində boğurlar. Bu ingilis siyasətçilərinin ən çox sevdiyi üsuldur (Vilayi, 1948, 10 yanvar, s.1, 4). Qəzet Rza şah Pəhləvinin İranda milli ədavəti qızışdırmasını, qeyri-farsları farslaşdırma siyasətini də tənqid edir və yazırdı ki, milli ədavəti qızışdırmaq, xalqlar arasında nifrət və kin hissləri oyatmaq, düşmənçilik yaratmaq Rza şah dövründə geniş yayılmışdı. Məsələn, fars olmayan bir xalqı zor ilə farslaşdırmaq həmin xalqlar arasında fars xalqına qarşı kin və ədavət hissləri oyadıı (Vilayi, 1948, 10 yanvar, s.4).

"Azərbaycan" qəzeti ADF-nin Qərb imperializminə və müstəbid şah rejiminə qarşı mübarizəsini təsvir edərək yazırdı ki, Azərbaycanda başlamış milli hərəkat şahın xəyanətkar siyasətinin əleyhinə olaraq, xalqlar arasında qardaşlıq, dostluq və məhəbbət hisslərini səmimiyyət əsasları üzərində möhkəmlətdi. Azərbaycanda yaşayan kürd, erməni, aysor, azərbaycanlı və farslar arasında vahid bir ailə yaratmaq, onları həqiqi mənada birləşdirmək ADF-nin əsas məqsədlərindəndir. Bu millətlərin milli dil, adət və ənənələrinə hörmət etmək, onların hamısını siyasi və ictimai hüquqlardan təmin etmək ADF-nin ana xəttidir (Vilayi, 1948, 10 yanvar, s.4).

"Azərbaycan" qəzeti yazırdı ki, indi də İranda həqiqi azadlıq, istiqlal və demokratik sistem yaratmaq Azərbaycan xalqının ali hədəfidir. ADF İranda azlıqda olan bütün xalqların - kürdlər, ermənilər və qeyrilərinin apardıqları azadlıq hərəkatının rəhbəridir. İranlıların hamısını birləşdirən və dost edən bu arzudur (Azərbaycan Demokrat Firqəsinin 1324-ci il.., 1948, 14 yanvar, s.3).

“Azərbaycan” qəzeti Rza şahın hakimiyyətdən getməsinə baxmayaraq, onun irtica siyasətinin oğlu Məhəmmədrza şah tərəfindən davam etdirildiyini göstərir və yazırdı ki, İranın hakim təbəqəsi istər Rza şah dövründə, istərsə Məhəmmədrza şah dövründə xarici imperialistlərin əl oyuncağı olaraq İran xalqlarını zülm və əsarət zəncirində saxlayıb və Azərbaycan millətini, kürd, erməni və sair xalqları bu hüquqlardan məhrum etmişdir. Buna görə də İran bu xalqlar üçün bir zindan olmuşdur. Ona görə də onlar öz azadlıqları uğrunda mübarizə edir və edəcəklər (Bicari, 1948, 9 iyun, s.4). “Azərbaycan” qəzeti kürd xalqının şah hökumətinə qarşı mücadiləsini dəstəklədiyi kimi İran türkmənlərinin də mübarizəsini dəstəkləyir və öz səhifələrində təbliğ edirdi (“Azərbaycan” qəzeti.., 2022, s.41).

“Azərbaycan” qəzetində beynəlmiləlçilik və xalqlar dostluğu siyasəti təqdir və təbliğ edilirdi. Qəzet sovetlərdəki xalqlar dostluğunu nümunə göstərərək İran xalqlarının da eyni şəkildə bir ailənin üzvləri kimi mehriban yaşaya biləcəklərini, ADF-nin məhz bu siyasətə xidmət etdiyini göstərmişdir.

ADF-nin bu dövrdəki sədri S.Badigan şah irticasına qarşı İran xalqlarının və onlara dəstək olan sovet xalqının həmrəyliyini təbliğ edir və deyirdi ki, “Yaşasın Azərbaycan, kürd və fars xalqlarının azadlıq mübarizəsi; yaşasın böyük sovet xalqı və ona rəhbərlik edən Sovet İttifaqı Kommunist Partiyası!” (Firqəmizin Mərkəzi.., 1948, 18 dekabr, s.3). Bu ifadələr S.C.Pişəvəridən sonra ADF-də marksist-leninist mövqeyin gücləndiyini göstərir. “Azərbaycan” qəzeti milli qurtuluş ümidini Stalinə bağlayaraq yazırdı ki, xalqımız dünya məzlumlarının xilaskarı olan böyük sovet ölkəsinə daim ümid gözləri ilə baxır və özünün nicat və səadətini onun rəhbərliyi altında gündən-günə inkişaf edən və azadlıq sevən xalqların ilhamçısı olan sovet ölkəsinin qüdrətində görür (Xalqlar rəhbəri.., 1948, 8 sentyabr, s.1).

Milli Hökumətin məğlubiyyətindən sonra ADF solçu Tudə Partiyasını dəstəkləməyə davam etdi. “Azərbaycan” qəzeti İra-

nın azadlığını Tudə Partiyasında görərək yazırdı ki, bu partiyanın rəhbərliyi altında xalqa arxalanaraq quldurluq və zorakılıq sistemini məhv edin (Çeşmazər. Azərbaycan.., s.33).

Tudə Partiyası İranın digər bölgələri ilə yanaşı Cənubi Azərbaycan məsələsinə, şah diktaturasının buradakı zülmünə xüsusi diqqət ayırmış, xalqı mübarizəyə çağırmışdı. Partiyanın 1948-ci ildəki II qurultayının hesabatında qeyd olunmuşdu ki, irtica Azərbaycana hər yerdən artıq təzyiq göstərir. Hökumət idarələri Azərbayçanda xalq kütlələri ilə düşmənçilik edir. Bütün İranda, xüsusən Azərbaycanda Rza şahın qəddar hökumətinin kabusu özünü göstərir (Çeşmazər. Azərbaycan.., s.33). Tudə Partiyasının II qurultayında "Azərbaycan məsələsi" barədə qətnamə qəbul edilmişdi. Bu qətnamədə göstərilmişdi ki, Azərbaycan kütlələrinin - fəhlələrin, kəndlilərin və sənətkarların qüvvəsinə əsaslanan və məzlumların azadlığını özünün başlıca məqsədi edən hərəkat xalqa arxalanmış, demokratik və mütərəqqi hərəkat olmuşdur (Çeşmazər. Azərbaycan.., s.94).

ADF-in milli mübarizəsinə haqq qazandıran Tudə Partiyasının Mərkəzi Komitəsinin "21 Azər hərəkatına dair tezislər"ində göstərilmişdi ki, bu ağır şərait Azərbaycan kəndliləri ilə feodallar arasında mübarizənin gərginliyindən, Azərbaycan xalqı üzərində milli zülmün mövcud olmasından, Azərbaycan zəhmətkeşlərinin inqilabi ənənələrə malik olmasından ibarət idi (Çeşmazər. Azərbaycan.., s.33). "21 Azər" hərəkatının müdafiəsində ADF-yə yardım edən Tudə Partiyasının hərbçi üzvlərinin də böyük rolu olmuşdu (Çeşmazər. Azərbaycan.., s.79). ADF öz hakimiyyəti dövründə və sonralar Tudə Partiyası ilə müttəfiq olaraq yaxından əməkdaşlıq etmiş, 1946-cı ilin əvvəlində Baş nazir Qəvamın zorla dağıdıb ələ keçirdiyi Tudə Partiyasının mülklərinin partiyaya geri qaytarılmasında rol oynamış, Qəvam hökumətinə təsir edərək müxaliflərə yığıncaq, nümayiş və təşkilat azadlığının verilməsinə nail olmuşdu (Çeşmazər. Azərbaycan.., s.100-101).

İran hökuməti isə Tudə Partiyasının varlığını öz mürtəce və müstəbid siyasətinə qarşı təhlükə sayır və deyirdi ki, Tudənin varlığı guya ölkənin istiqlalını müdafiə etmək mənafeyinə ziddir. Buna görə də hökumət 1949-cu ildə İranda Tudə Partiyasının fəaliyyətinin qadağan edilməsi haqqında sərəncam vermişdi. "Azərbaycan" qəzeti də bu məsələyə münasibət bildirmişdi. Qəzet yazırdı: "Qərara əsasən ölkədə fövqəladə vəziyyət elan edilmiş, Tudə Partiyası bağlanmış, R.Radmaneş başda olmaqla Tudə rəhbərləri həbs edilmişdi" (Hizbi-Tudeyi-İrana.., 1949, 12 fevral, s.4).

**Sovet Azərbaycanına münasibət**. Sovet hökumətinin milli mədəniyyətlərə qayğı və xalqlar dostluğu siyasəti "Azərbaycan" qəzetində təbliğ edilirdi. "Azərbaycan" qəzeti yazırdı ki, Sovet İttifaqı xalqların ittifaqından əmələ gəlmişdir. Bu ölkədə insanın insan tərəfindən istismarı həmişəlik ləğv edilmişdir ("Azərbaycan" qəzeti.., 2022, s.482). Sovet Azərbaycanı daxilində yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayəti, xalqlar dostluğu, beynəlmiləlçilik ideologiyası haqqında "Azərbaycan" qəzetində müxtəlif məqalələr var. Həmçinin Şimali Azərbaycanda sovet hökumətinin qurulduğu tarix olan 28 aprel gününə qəzetdə xüsusi məqalələr və şeirlər həsr edilmişdir. Qəzetdə 28 aprel günü "Azərbaycan xalqının azadlıq bayramı" sayılmış və qeyd olunmuşdu ki, Sovet Azərbaycanı sənaye, təsərrüfat və mədəni quruluş cəhətdən misli görünməmiş nailiyyətlər əldə etmişdir. Azərbaycan xalqına nəsib olmuş bu tərəqqi və nailiyyətlər Kommunist Partiyasının rəhbərliyi altında olmuşdur (Azərbaycan xalqının.., 1948, 28 aprel, s.1, 3). Qəzetdə 28 aprelə və Sovet Azərbaycanına həsr olunmuş şeirlər verilmiş və Sovet Rusiyası "böyük qardaş" kimi belə təqdim edilmişdi:

"Sənə kömək verdi böyük qardaşın
Moskvadan yetişdi yarın, yoldaşın
Qızıl Ordu oldı sənə pasiban (qoruyucu-Ə.F.)" (Zakir, 1948, 28 aprel, s.3).

Təqdim olunan bəzi şeirlərdə Sovet Azərbaycanı Şərq ölkələrinə belə nümunə göstərilmişdi:

“Buradan keçəcəkdir Şərqə sərasər
Azadlıq, səadət, istiqbal, həyat!” (Tudə, 1948, 28 aprel, s.3).

ADF sovet təsirində olduğu üçün təbii ki, 1918-1920-ci illərdəki cümhuriyyət hakimiyyətini milli iqtidar yox, xalqa zidd bir qurum saymış, Sovet Rusiyasının Şimali Azərbaycanı işğalını Aprel inqilabı kimi qəbul etmişdi. Hətta 1918-ci ildə S.Şaumyan başda olmaqla Bakı bolşeviklərinin daşnaklarla ittifaqa gedib müsəlmanlara qarşı soyqırım törətməsi faktı ADF tərəfindən qəbul edilməmişdi. S.Şaumyan başda olmaqla Bakıdakı bolşevik hakimiyyətinin süqutu “Azərbaycan” qəzeti tərəfindən faciə kimi qəbul edilmiş və M.C.Bağırova istinadən göstərilmişdi ki, xalq heç bir zaman 26 Bakı komissarlarının adlarını unutmayacaqdır. Bunlara vəhşicəsinə divan tutulmasını, imperialistlərin yırtıcılığını, ingilis imperializminə mənsub qan içənlərin alçaq xəyanətlərini zəhmətkeşlər həmişə xatırlayacaqdır. Bakı komissarlarının inqilabi fəaliyyəti sovet adamlarını tərbiyə etmək üçün canlı təmsil olmuş və olacaqdır (Tarixin.., 1948, 22 sentyabr, s.1). “Azərbaycan” qəzetində cümhuriyyətin hakim partiyası olan “Müsavat” və ermənilərin “Daşnaksutyun” partiyası tənqid edilmiş, hər iki partiya “burjuaziyanın sadiq zəncirli köpəyi, vətəni yadellilərə satan cəllad” adlandırılmış, erməni-müsəlman davasında hər iki partiyanın eyni şəkildə günahkar olduğu bildirilmiş, lənətlənmişdi (Tarixin.., 1948, 22 sentyabr, s.3).

S.C.Pişəvərinin yaradıcılığında daşnak terrorunu tənqid xüsusi yer tutur. O, 1918- ci ilin mart hadisələrində daşnakların vəhşiliyini, saysız-hesabsız günahsız müsəlmanların, xüsusilə bitərəf iranlıların öldürülüb karvansaralarda meyitlərinin yandırılmasını öz gözü ilə gördüyünü qeyd etmişdir. O, 1944-cü ildə Tehranda, “Ajir” qəzetində nəşr olunan “Ədalət Partiyasının tarixçəsi” adlı əsərinin “Bakıdakı ilk Sovet hökumətinin müqəddəratı” adlı paraqrafında daşnakların törətdiyi cinayətin, bu faciənin

hər bir insanın ruhunu sıxıb kədərləndirdiyini göstərmişdir (جعفر پیشه وری، ص.٤٨). O cümlədən, o, Müsavat Partiyasının pantürkizm siyasətini (Pişəvəri. Milyonerlər...), onun burjuaziya partiyası olmasını tənqid etmişdir (جعفر پیشه‌وری، ص. ۵۵).

Təəssüf ki, həm S.C.Pişəvərinin yaradıcılığında, həm də "Azərbaycan" qəzetində 1918-ci ildə Şimali Azərbaycanın işğal altında olan torpaqlarını azad edib müstəqil milli dövlətçiliyimizi quran cümhuriyyətin hakim Müsavat Partiyası işğalçı "Daşnaksutyun" ilə eyni dərəcədə müqəssir sayılıb və bu da ADF-nin sovetlərin ideoloji təsirində olmasından qaynaqlanmışdır. Halbuki Şimali Azərbaycanla yanaşı Cənubi Azərbaycan da erməni şovinistlərinin terroruna məruz qalmışdır. Bu dövrdə Güney Azərbaycanda təkcə Urmiya və Səlmasda şəhid olanların sayı təxminən 130-150 min nəfər idi. Pəhləvi hakimiyyəti müsəlman türklərin soyqırıma məruz qalması haqqında yazmağı qadağan etdiyindən qurbanların dəqiq sayı daha çox ola bilər (Talıblı, 2013, s.4). Daşnak Andranikin öz dəstəsi ilə Qafqazla yanaşı İran Azərbaycanında - Xoyda və s. bölgələrdə müsəlmanlara qarşı qırğınlar törətdiyini təbrizli tarixçi Ə.Kəsrəvi də qeyd edir və göstərir ki, ermənilər əsrlər boyu İranda sülh içində yaşadıqları halda xaricilərlə birləşib öz həmvətənlərinə qarşı düşmən mövqeyində dayandılar (Sərdariniya, 2006, s.24, 74). Təəssüf ki, "Azərbaycan" qəzetində bu faciələrdən bəhs edilmir.

1920-ci ildən sonra Ermənistanda daşnak hökuməti yıxılıb sovet hakimiyyəti qurulduqdan sonra erməni-müsəlman davasına, düşmənçilik siyasətinə müvəqqəti də olsa son qoyuldu. Beynəlxalq imperializmə xidmət edən daşnakların təkcə Azərbaycan xalqına deyil, erməni xalqına da xəyanət etdiyini yazan (Tarixin.., 1948, 22 sentyabr, s.3) "Azərbaycan" qəzeti göstərirdi ki, Kommunist Partiyasının müdrik milli siyasəti xalqlar arasında olan ədavət və kini kökündən qoparıb dostluğun möhkəm bünövrəsini qoydu (Vilayi, 1948, 31 iyul, s.1). Azərbaycan xalqı öz böyüklüyünü və tolerantlığını göstərərək Qarabağ ermənilərinə muxtariyyət hüququ verdi.

“Azərbaycan” qəzeti yazırdı ki, mərkəzi Stepanakert olan Dağlıq Qarabağ ölkənin ən gözəl təbii yerlərindən birinə çevrilmişdir. Vilayətin Şuşa şəhəri zəhmətkeşlərin istirahət ocağıdır (Vilayi, 1948, 14 avqust, s.4). Həmçinin qəzet yazırdı ki, sovet hakimiyyətindən sonra Qarabağda elmi, mədəni-maarif ocaqlarının, iş yerlərinin sayı artdı və bu vilayətin təsərrüfat, sənaye və mədəniyyət sahəsində əldə etdikləri nailiyyətlər Kommunist Partiyasının sayəsində mümkün oldu (Vilayi, 1948, 14 avqust, s.4). Qəzetdə Xankəndinin Stepanakert adlandırılması və əsl adının qeyd edilməməsi təbii ki, böyük səhv idi. “Azərbaycan” qəzeti sovet ideologiyasını dəstəklədiyi üçün Dağlıq Qarabağda azərbaycanlıların təzyiqlərə məruz qalması, azərbaycanlıların 28 aprel işğalından sonra Qərbi Azərbaycandan – Ermənistana bəxşiş verilmiş doğma yurdlarından qovulması haqqında məlumat vermir. Təəssüf ki, 1920-ci illərdə Sovet Azərbaycanının ermənilərə verdiyi muxtariyyət hüququ sui-istifadə edildi. Azərbaycanlılar 1940-cı illərdə Ermənistandakı ana yurdlarından, 1980-cı illərin sonu - 90-cı illərin əvvəllərində Dağlıq Qarabağdan qovuldular, milli abidələrimiz məhv edildi, azərbaycanlılar soyqırıma məruz qaldı. Şuşa da daxil olmaqla 30 il davam edən işğal prosesi başladı. Bu işğal siyasətinə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi ilə layiqli cavab verildi, Şuşa və Xankəndi azad edildi.

“Azərbaycan” qəzetində Sovet Azərbaycanının Ü.Hacıbəyov, S.Vurğun, M.S.Ordubadi kimi ziyalıları və əsərləri haqqında cənublu oxuculara məlumat verilir. Bu ziyalıların cənub mövzusundakı yaradıcılıqları oxuculara tanıtdırılır. Qəzetdə M.S.Ordubadinin “Dumanlı Təbriz” əsəri haqqında, dövrün məşrutə inqilabında təbrizlilərin rolu barədə geniş məlumat verilir. Qəzetdə göstərilirdi ki, XX əsrin əvvəllərində İran Azərbaycanında baş vermiş inqilabi hərəkat və bu hərəkatın qəhrəman sərkərdələri Səttarxan və Bağırxanlar ədib Məhəmməd Səid Ordubadinin “Dumanlı Təbriz” romanında bədii surətlərini tapmışlar. Böyük

yazıçı istibdad və zülmə qarşı üsyan etmiş Azərbaycan xalqının şanlı mübarizəsini şairanə ifadə və mahir qələmlə geniş tabloda təsvir etmişdir. M.S.Ordubadi "Dumanlı Təbriz" romanında bu qəhrəman şəhərin keçirdiyi ağır günləri, təbrizlilərin Tehran istibdadına qarşı igid və mərdanə döyüşlərini gənc nəslin təsəvvüründə canlandırır. "Dumanlı Təbriz" inqilab tariximizdən bəhs edən dəyərli və bədii əsərdir. Bu əsər geniş kütlə tərəfindən böyük həvəslə oxunur (Ə.Ş., 1948, 3 yanvar, s.1).

"Azərbaycan" qəzetində iranlı yazıçı M.Kaziminin şah hökumətinin zülmündən bəhs edən "Qorxulu Tehran" romanı haqqında da məlumat verilir və göstərilir ki, Təbrizin bütün problemlərinin səbəbi Tehrandakı zalım şah hökumətidir. Əsərdə Pəhləvi hakimiyyətinin xalqa etdiyi zülm "Dumanlı Təbriz"dəki hadisələrlə müqayisə edilir və göstərilir ki, xarici imperialistlərin icazəsi və iranlı müstəbidlərin əliylə icra edilən bu zülm bizi ümidsiz etmir. Azərbaycanın azadlıq günəşi doğacaq, qara buludları və dumanları dağıdacaqdır. Üzərini qara buludlar almış Təbrizin işıqlı səhərləri gələcəkdir ((Ə.Ş., 1948, 3 yanvar, s.3).

"Azərbaycan" qəzetində Şuşada böyüyüb başa çatmış Üzeyir Hacıbəylidən də hörmətlə bəhs edilir və o, "Azərbaycan xalqının böyük bəstəkarı" adlandırılır (Vilayi, 1948, 27 noyabr, s.4). Ona həsr olunmuş məqalədə göstərilirdi ki, Azərbaycanda ilk dəfə olaraq Üzeyir Hacıbəyli inqilabi demokratik ideyalar ilə zəngin olan operanın və musiqili komediyanın əsasını qoydu. Onun "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu", "Koroğlu" operaları, "Məşədi İbad", "Arşın mal alan" musiqili komediya əsərləri Şərq aləmində və səhnəsində oynanmış, indi də sevinclə oynanmaqdadır. O, Azərbaycan konservatoriyasını təsis etmiş və Azərbaycan bəstəkarlarını tərbiyə etməkdə böyük fəaliyyət göstərmişdir (Vilayi, 1948, 27 noyabr, s.4).

"Azərbaycan" qəzetində Ü.Hacıbəylinin təkcə bəstəkarlığı yox, publisistikasından da bəhs edilir və göstərilir ki, o, Azərbaycan xalqının qabaqcıl bir demokratı kimi öz əsərləri və kəskin

məqalələri ilə çar hakimiyyətini, mütləqiyyətin ən ağır şəraitində xalqın ayağına buxov kimi sarılmış çürük, köhnə ənənələri, məişət və şüurdakı mənfi cəhətləri tənqid və xalqı mübarizəyə dəvət etdi. O, elmi, mədəniyyəti, azadlığı tərənnüm edərək xalqı tərəqqi yoluna çağırdı (Vilayi, 1948, 27 noyabr, s.4).

Ü.Hacıbəylinin yaradıcılığı təkcə Şimali Azərbaycanda yox, Cənubi Azərbaycanda da məşhur idi. Onun əsərləri Təbrizin "Şir-i Xurşid" teatrında və digər bölgələrdə dəfələrlə tamaşaya qoyulmuşdu (Vəkilov, 1991, s.38). «Azərbaycan» qəzeti yazırdı ki, Milli Hökumət dövründə bəstəkarın əsərləri böyük sevinclə səhnədə dəfələrlə tamaşaya qoyulmuş və geniş kütlə tərəfindən alqışlanmışdır. Ü.Hacıbəylinin əsərləri Təbrizdə, Urmiyada, Ərdəbildə, Xoyda, Marağada, Əhərdə, Mərənddə və sair şəhərlərdə və habelə Tehranda oynanmışdır. Şərqin böyük bəstəkarı adlanan Ü.Hacıbəylinin anadan olmasının 60 illiyi və yaradıcılıq fəaliyyətinin 40 illiyi münasibətilə 1945-ci ildə Təbrizdə ziyalılar və incəsənət işçiləri böyük tədbir keçirtdilər. Onun fəaliyyət və yaradıcılığı haqqında təntənəli iclas keçirildi. Azərbaycan xalqı adından Üzeyir Hacıbəyliyə təbrik teleqrafı göndərildi. Böyük şairlərimiz ona şeir həsr edib, xalqımız tərəfindən ona hədiyyələr göndərildi (Vilayi, 1948, 27 noyabr, s.4).

"Azərbaycan" qəzetində Ü.Hacıbəylinin təkcə Şimali Azərbaycanın yox, həm də Cənubi Azərbaycanın iftixar etdiyi oğlu olduğu göstərilir və deyilir ki, o, öz həyatını doğma Azərbaycanın incəsənətinə həsr etmişdir. Onun vaxtsız ölümü bütün Sovet Azərbaycanının zəhmətkeşlərini və ziyalılarını kədərləndirdiyi kimi beş milyonluq (güney) Azərbaycan xalqı da öz doğma oğlu və iftixarı olan böyük bəstəkarın ölümünü matəm günü sayır. Azərbaycan milləti Ü.Hacıbəylinin simasında özünün sadiq oğlunu və dahi sənətkarını itirdi (Vilayi, 1948, 27 noyabr, s.4). Cənubi Azərbaycandan olan şair Əli Tudə Ü.Hacıbəyliyə həsr etdiyi "Sənin nəğmən" adlı şeirində belə yazırdı:

“Gözündə yaş donmuş Təbriz gözəli
Sənin təranənlə güldi, sevindi;
Döyüş təlimini mənim də xəlqim
Sənin “Koroğlu”ndan öyrənir, budur” (Tudə, 1948, 27 noyabr, s.4).

Bu ifadələr Ü.Hacıbəylinin şimallı-cənublu bütün Azərbaycan xalqı tərəfindən sevildiyini göstərir.

II Dünya müharibəsi dövründə S.Vurğun “Azərbaycan - İran Mədəni Əlaqələr Cəmiyyətinin” sədri seçilmişdi (Həsənli, 1998, s.125). O, İranla həm mədəni, həm də siyasi əlaqələrin inkişafına xidmət etmişdir. “Azərbaycan” qəzetində S.Vurğunun cənublu soydaşlarımızın hüquqlarının müdafiəsi sahəsindəki çıxışlarına yer verilmişdir. S.Vurğundan sitat gətirən qəzet yazırdı ki, Azərbaycan millətinin xaricdə yaşayan beş milyonluq hissəsinin ana dili zorla əllərindən alınmışdır. Bütün İranda Azərbaycan dilində dərs keçən bir məktəb belə yoxdur. Uşaqların hamısını zorla fars dilində oxutdururlar. İranın mürtəceləri Azərbaycan dilində yazılmış köhnə və təzə kitablara od vurub yandırdılar. Lakin bu boşbeyin mürtəcelər bir həqiqəti başa düşmürlər ki, heç bir millətin dilini məhv etmək olmaz. Milli azadlıq və istiqlal olmayan yerdə elm və mədəniyyət ola bilməz (Dünya mədəniyyət.., 1948, 25 sentyabr, s.1).

Cənubi Azərbaycan şairləri və mütəfəkkirəri S.Vurğun yaradıcılığına yüksək qiymət vermişdilər. Cənublu şair B.Azəroğlu S.Vurğuna olan xalq məhəbbətini “Bakı səfəri” poemasında tərənnüm etmişdir. S.C.Pişəvəri də 1943-cü ildə Bakıda olarkən S.Vurğunla görüşmüş, Tehrana qayıtdıqdan sonra baş redaktoru olduğu “Ajir” qəzetində şair haqqında məqalə yazaraq, onun şeirlərini “Heca vəznində yazılmış ən gözəl Azərbaycan şeiri” adlandırmışdır (Əliqızı, 2007, s.20).

S.Vurğunun 1941-ci ildə Təbrizdə nəşr edilmiş “Təbriz gözəlinə” adlı şeirlər kitabı və şairin “Azərbaycan”, “Yandırılan

kitablar" adlı şeirləri onu cənubda məşhur etmiş və soydaşlarımıza sevdirmişdi. B.Azəroğlu yazırdı ki, S.Vurğunun "Yandırılan kitablar" şeirini oxuyarkən gözümün qabağına 1946-cı ilin qış günlərində Təbrizin Bələdiyyə meydanında şah məmurları tərəfindən yandırılan kitablar, alovları göyə yüksələn kitab tonqalları canlanmışdı. Şair Ə.Tudə isə 1947-ci ildə S.Vurğunla görüşərkən onu "ağ saçlı Savalan dağı"na oxşatmışdı (Əliqızı, 2007, s.20-22).

"Azərbaycan" qəzetində göstərilir ki, milli mədəniyyətimizə "yalnız Sovet hökuməti dövründə layiqli qiymət verilmişdir" (Fazil, 1948, 31 iyul, s.3). Qəzetdə görkəmli filosof, akademik Heydər Hüseynovun və akademik Əbdülkərim Əlizadənin elmi yaradıcılıqlarına görə Stalin mükafatı alması sovet hökumətinin azərbaycanlı alimlərə qayğısı kimi təqdim edilir və göstərilir ki, hər il Stalin mükafatı alan alimlər və sənətkarlar arasında Sovet Azərbaycanından olan ziyalıların da adı olur. Bu mükafatlar Sovet Azərbaycanında elmin sürətlə inkişaf və tərəqqi etdigini sübut edir (Azərbaycan alimlərinə.., 1948, 2 iyun, s.4).

"Azərbaycan" qəzetində M.C.Bağırova xüsusi yer verilmişdir. Onun Sovet Azərbaycanının rəhbəri kimi cənublu demokratlar və kommunistlər arasında xüsusi hörməti var idi. Qəzetdə onun Moskva mətbuatında çıxan məqalələri tərcümə edilərək oxuculara təqdim edilib (Tarixin.., 1948, 22 sentyabr, s.3). M.Bağırov qəzetdə "Azərbaycan xalqının sevimli rəhbəri" (Qətnamə, 1948, 27 noyabr, s.3), "xalqımızın nəcib və fədakar oğlu, əziz atamız" (Azərbaycan xalqının rəhbəri.., 1948, 109, s.3) adlandırılmışdır. ADF tərəfindən qəbul olunmuş qətnamədə M.C.Bağırova müraciət edilərək Qərb imperializminin Azərbaycan xalqına təzyiqini və şah hökumətinin xalqa zidd siyasətini ifşa etməsi xahiş edilmişdi ("21 Azər"in 3-cü ildönümü münasibətilə təşkil olunmuş yığıncaq.., 1948, 18 dekabr, s.3).

**Kürd məsələsi.** "Azərbaycan" qəzetində İran kürdlərinin milli hüquqları, şah rejiminə qarşı mübarizəsi daim müdafiə edilirdi. Qəzetdə tanınmış kürd ictimai-siyasi xadimlərinə geniş yer

verilmişdir. Kürdüstan muxtariyyətinin rəhbəri Qazi Məhəmməd (v. 1947) qəzetdə “Kürd xalqının şəhid lideri” kimi təqdim edilmişdir. Qazi Məhəmmədlə bərabər Kürdüstan muxtariyyətinin müdafiə naziri general Məhəmmədhüseyn xan Seyf Qazi haqqında da qəzetdə məlumatlar verilmişdir (Azərbaycan, 1947, 13 dekabr, s.2).

Qazi Məhəmməd millətçi, dindar və qazı – şəriət hakimi olub dünya tarixi və mədəniyyətini, bir neçə Qərb və Şərq dillərini yaxından bilən şəxs idi. O, qeyri-müsəlmanların hüquqlarını daim müdafiə etmiş, həm kürdlər, həm də Kürdüstandakı qeyri-müsəlmanlar tərəfindən sevilən bir şəxsiyyət olmuşdur (Qazi Muhammed`in kızı...).

Qazi Məhəmməd 1945-ci ilin 16 avqustunda yaradılmış Kürdüstan Demokrat Firqəsinin (KDF), 1946-cı ilin 22 yanvarında Məhabad şəhərində elan edilmiş Kürdüstan muxtariyyətinin rəhbəri idi. KDF-nin yaradılmasında və dəstəklənməsində 1945-ci ilin sentyabrında Bakıda Qazi Məhəmmədlə görüşən M.Bağırovun xüsusi rolu olmuşdur (Mehabad.., 1999, s.29, 34). Bu görüşdə M.Bağırov öncə Kürdüstanın Cənubi Azərbaycan daxilində muxtariyyət olmasını təklif etmiş, lakin Qazi Məhəmmədin etirazı səbəbilə Kürdüstan Demokratik Firqəsinin (KDF) və onun rəhbərliyində İran daxilində ayrıca Kürdüstan muxtariyyətinin qurulmasına razılıq vermişdi (Aegleton, 1946, s.110-112). S.C. Pişəvərinin rəhbərlik etdiyi Milli Hökumət qurulacaq Kürdüstanın Azərbaycan daxilində muxtariyyətini arzu etmiş, kürdlər isə Azərbaycanın Urmiya, Xoy, Maku vilayətlərinə torpaq iddiasını irəli sürmüşdülər. Lakin hər iki hökumət bir müddət sonra Pəhləvilərə qarşı müttəfiq olmanın zərurətini anlamış, qarşılıqlı torpaq iddialarından imtina etmişdilər (Memmedli, 2020, s.1129-1130, 1143-1144). KDF-nin proqramında Kürdüstanın İran daxilində muxtariyyəti təsbit edilmişdi (Aegleton, 1946, s.143-144). Beləliklə, Kürdüstan muxtariyyətinin qurulması ilə Cənubi Azərbaycanda kürd separatizmi qələbə çaldı, kürdlər mərkəzi Sənəndəc

olan İran Kürdüstanı əyalətindən əlavə Cənubi Azərbaycan ərazisində yeni kürd dövlət qurumunun qurulmasına müvəffəq oldular. İran hökuməti Qazi Məhəmmədə Kürdüstan muxtariyyətini ləğv edib onu İran Kürdüstanı əyalətinə birləşdirməsini və bu əyalətə vali olmasını təklif etsə də, bu təklif qəbul edilməmişdi (Aegleton, 1946, s.244-245).

ADF və KDF, Azərbaycan Milli Hökuməti və Kürdüstan hökuməti ortaq düşmənə qarşı birlikdə hərəkət etməyə məcbur oldular. 1946-cı il aprelin 23-də Təbriz şəhərində hər iki milli hökumət arasında siyasi, iqtisadi, mədəni, hərbi əməkdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə bağlanmışdı (Çeşmazər. Azərbaycan.., s.68). S.C.Pişəvəri yazırdı ki, kürdlər Azərbaycanın bir ailə üzvüdür. Bizimlə onların arasında nifaq ola bilməz ("Azərbaycan" qəzeti.., 2020, s.588). 23 Aprel müqaviləsi ilə Kürdüstanda azərbaycanlıların, Cənubi Azərbaycanda isə kürdlərin hüquqlarının qorunacağı təsbit edilmişdi (Aegleton, 1946, s.194).

Qazi Məhəmməd İran ordusunun Cənubi Azərbaycana və Məhabada hücumu zamanı sovetlərin onları müdafiə etməməsindən narazı qalmışdı (The Ambassador in Iran...). O, 1946-cı ilin dekabrında Kürdüstan muxtariyyətinin süqutu zamanı xaricə qaçmağı rədd etmiş və belə demişdi: "Xalqıma bir söz verdim. Yaxşı və pis gündə xalqımın yanında olacağam" (Qazi Muhammed'in kızı...). Qazi Məhəmməd, qardaşı Sədr Qazi və əmisi oğlu M.Seyf Qazi şah rejimi tərəfindən həbs və daha sonra edam edildilər. Qazi Məhəmməd son nəfəsində – "Gedin şaha və ağalarınıza deyin ki, kürd xalqının azadlıq mübarizəsini məhv edə bilməyəcəksiniz. Qazi Məhəmmədi öldürsəniz də, minlərlə Qazi Məhəmmədlər bu torpaqdan baş qaldıracaq. Yaşasın azad Kürdüstan!" deyərək qəhrəmancasına şəhid oldu. Qərb imperializmi və onun dəstəklədiyi şah hökuməti Azərbaycandakı və Kürdüstandakı azadlıq hərəkatının bütün İrana yayılmasından qorxduqları üçün onu qan içində boğdular (Azadlıq yolunun.., 1969, s.9, 11-12).

Qazi Məhəmmədin qətl edilməsindən sonra iranlı kürd de-

mokratların rəhbərlərindən olan M.Seyf Qazinin oğlu Rəhim Qazi (سید سیف قاضی...) Sovet Azərbaycanına mühacirət edərək burada AMEA-da çalışmış, ADF-nin "Azərbaycan" qəzetində nitq və çıxışları dərc edilmişdir ("21 Azər"in 3-cü ildönümü.., 1948, 18 dekabr, s.1, 4.).

## 2.2. "Azərbaycan" qəzetində publisistik məsələlər və publisistlər

"Azərbaycan" qəzetinin (1947-1949) səhifələrində S.C. Pişəvəri, ADF və "21 Azər" hərəkatı dövrü haqqında qiymətli məlumatlar var. F.Xoşginabi "Azərbaycan ruznaməsinin tarixi rolu" adlı məqaləsində yazırdı ki, "Azərbaycan" qəzeti Təbrizdə çıxdığı bütün müddətdə ona firqəmizin qurucusu və sədri S. C.Pişəvərinin vasitəsilə rəhbərlik olunmuşdu. O, demək olar ki, qəzetin əsas məqalələrini özü yazırdı (Xoşginabi, 1948, 15 sentyabr, s.3). Qəzetdə S.C.Pişəvərinin xalq arasında zərb-məsələ və şüara çevrilən "Ölmək var, dönmək yoxdur!" adlı məqaləsindən bəhs edilir və göstərilirdi ki, Azərbaycan xalqını yaxşı tanımaq lazımdır. Mübarizəmizin doğrudan da geniş xalq mübarizəsi olduğu meydana çıxdı (Xoşginabi, 1948, 15 sentyabr, s.3). Qəzetdə S.C.Pişəvərinin məqalələrinin şanlı mübarizə tariximizin parlaq səhifələrini özündə əks etdirdiyi qeyd edilmişdi.

ADF rəhbərlərindən S.Badiganın məruzəsində firqənin yaradılmasının dövrün tarixi zərurəti olduğu, bu yolda S.C.Pişəvərinin öncü rolu qeyd edilir və göstərilir ki, Azərbaycan xalqını mütəşəkkil bir surətdə mübarizəyə qaldırmaq üçün qüdrətli bir siyasi partiyaya ehtiyac var idi. Bu ehtiyacı düşünən Azərbaycan xalqı 3 sentyabr 1945-ci ildə S.C.Pişəvərinin başçılığı ilə ADF-ni yaratdı. ADF Azərbaycan xalqının, xüsusən zəhmətkeşlərin arzularını yerinə yetirməyə çalışdığı üçün onun nüfuzu ən qısa müddətdə ölkənin hər yerinə yayıldı (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.4).

S.Badigan göstərirdi ki, “21 Azər” günü Azərbaycan xalqı illərdən bəri bağlı olduğu əsarət zəncirini öz gücü və qüdrətiylə qırmış, Milli Məclisini, Milli Hökumətini təşkil etmiş və öz müqəddəratını öz əlinə almışdır (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.1). Qəzetdə S.C.Pişəvərinin demokratik və milli ideyalarının əbədiyaşar və ümumbəşəri olması göstərilir və qeyd edilirdi ki, S.C.Pişəvərinin mübariz tələbələri olaraq onun arzusunu mütləq həyata keçirəcəyik (“21 Azər”in 3-cü ildönümü münasibətilə təşkil olunmuş yığıncaqda.., 1948, 18 dekabr, s.4).

“21 Azər” hərəkatı dövrü “Azərbaycan” qəzetinin səhifələrində geniş işıqlandırılırdı. Qəzet yazırdı ki, “21 Azər”də baş verən Azərbaycan inqilabı imperialistlərin Şərqdəki müstəmləkəçilik siyasətini sarsıtdı. “21 Azər” inqilabı Şərq dünyasında bir daha sübut etdi ki, zəhmətkeş kütlələrin azadlığı əlçatmaz bir xəyal deyil, mübarizə nəticəsində həyata keçə bilər (Müciri, 1948, 21 iyul, s.4).

“21 Azər” hərəkatı əslində təkcə Azərbaycan xalqının yox, bütün İran xalqlarının zalım şah diktaturasına qarşı azadlıq ümidinin təcəllisi idi. “Azərbaycan” qəzeti yazırdı ki, Azərbaycan inqilabı şah hökumətinin qeyri-demokratik siyasətinin nəticəsidir (Azərbaycan nəhzəti.., 1948, 7 aprel, s.4). Qəzetə görə “21 Azər” qiyamı ən böyük azadlıq hərəkatı hesab edilməlidir. Azərbaycan xalqı II Dünya müharibəsindən sonra təzədən baş qaldırmaq istəyən İran irticası əleyhinə üsyan etdi. Digər əyalətlərdən gələn minlərcə teleqraflar Azərbaycan hürriyyətçilərini təbrik etdi. İranın zəhmətkeş xalqı öz xilasını “21 Azər” hərəkatında altında görür (Həbibi, 1948, 31 iyul, s.4).

“21 Azər” hərəkatı təkcə siyasi inqilab olmayıb, həm də ədəbi inqilab idi. O Azərbaycan xalqının ana dilinin qarşısını sədd kimi kəsən farsçılıq şovinizmini ortadan qaldırdı, milli ədəbiyyata təkan verdi. “Azərbaycan” qəzeti yazırdı ki, “21 Azər” inqilabından sonra bir ilin içində bizim şairlərimiz minlərlə şeir yaratdılar. Günəşin qabağını kəsən buludlar ona heç bir zərər verə

bilməyəcək, saflaşıb parlayan Azərbaycan dilinin inkişafının qarşısını ala bilməyəcək (Məhəmmədzadə, 1948, 14 avqust, s.1).

"21 Azər" hərəkatı müvəqqəti olaraq məğlub olsa da, xalqın yaddaşından çıxmadı. "Azərbaycan" qəzeti redaksiyaya göndərilən məktublara əsasən göstərirdi ki, "21 Azər" qiyamı nəticəsində bir il azad yaşamış xalqımız indi əsarətdə qalsa da o, öz azad həyatını və ADF-nin ona verdigi xoşbəxtliyi unutmayacaqdır. Xalqımız öz həqiqi azadlığını əldə etmək üçün daim mübarizə edəcəkdir (Mübarizə.., 1948, 11 dekabr, s.1).

**Firudin İbrahimi (1919-1947).** Dövrün görkəmli ziyalılarından biri də Milli Hökumətin Baş prokuroru olmuş F.İbrahimidir. O, Astarada anadan olmuş, Tehran Universitetində ali hüquq təhsili almışdı. Tudə Partiyasında, daha sonra ADF üzvü kimi şah rejiminə qarşı mübarizə aparan F.İbrahiminin müxtəlif ictimai-siyasi məqalələri "Mərdom", "Rəhbər", "Ajir", "İran-e ma" ("Bizim İran"), "Xavər-e nou" ("Yeni Şərq") və s. qəzetlərdə nəşr olunmuşdur. O, "Azərbaycan" qəzetinin redaksiya heyətinə siyasi baxımdan istiqamət verir, öz məqalələri də qəzetdə nəşr edilirdi (Xoşginabi, 1948, 14 yanvar, s.1, 3).

Qəzetin 1945-1946-cı il nömrələrində nəşr olunan F.İbrahiminin yazıları xüsusi maraq yaradır. Onun "Azərbaycan" qəzetinin 9 noyabr – 10 dekabr 1946-cı il tarixləri arasında çıxmış 23 nömrəsində "Sülh uğrunda" başlığı altında, özünün də iştirak etdiyi Paris Sülh Konfransı barədə geniş hesabat xarakterli silsilə məqalələri çap edilmişdir (Bayramzadə, Firudin.., s.3-4). O, bu məqalələrində göstərirdi ki, hər bir millət həqiqi azadlıq əldə etmək və öz müqəddəratına sahib olmaqdan ötrü gərək güclü olsun. Bu güc millətin birliyidir (İbrahimi, 1945, 20 noyabr, s.4). F.İbrahimi "21 Azər" hərəkatının təkcə Azərbaycanı və İranı əhatə etmədiyini, Şərqin əsarət altında olan bütün millətlərinə bir azadlıq şöləsi olduğunu göstərir və deyirdi ki, xalqımızın azadlıq nidası bütün Yaxın Şərq ölkələrini bürümüş və onlara mübarizə dərsi keçmişdir (İbrahimi, 1945, 16 noyabr, s.4).

F.İbrahimi "Hamı vətən keşiyində" adlı məqaləsində göstərirdi ki, hamı öz ana yurdunun, öz namusunun, torpağının müdafiəsinə hazır olmalıdır. O, qeyd edirdi ki, xalqımızda olan həyəcan, xalqımızın azad həyata, milli inqilabımıza və ADF-nin rəhbərliyinə olan etimadını göstərir (Xoşginabi, 1948, 15 sentyabr, s.3).

F.İbrahimi təkcə bir inqilabçı və hüquqşünas, prokuror olmayıb, eyni zamanda Azərbaycan tarixinin də gözəl bilicisi və tədqiqatçısı idi. Onun "Azərbaycan danışır... İftixarlı tariximizdən bir neçə parlaq səhifə" (Azərbaycanın qədim tarixindən) başlıqlı yazıları 19 hissədən ibarət olmaqla 31 oktyabr - 21 noyabr 1945-ci il tarixləri arasında "Azərbaycan" qəzetinin 42-60-cı nömrələrində ayrı-ayrı başlıqlarla fars dilində çap olunmuşdur (İbrahimi, 2018, s.8). Bu silsilə məqalələrdə Azərbaycanın Midiya, Atropatena kimi qədim dövlətlərinin tarixi, mədəniyyəti, zərdüştilik dini, işğalçılara qarşı xalq mübarizəsi geniş işıqlandırılıb və cənublu oxuculara öz milli kimliklərinin tarixi kökləri göstərilib. Azərbaycan tarixinin qaranlıq səhifələrini işıqlandırmağı qarşısına məqsəd qoyan F.İbrahimi yazırdı ki, onun məqsədi xalqımızın parlaq mədəniyyətini, tarixini və hüququnu müdafiə etməklə bərabər onun qədim tarixi keçmişini və Azərbaycan millətinin həqiqi mahiyyətini dünyaya bildirməkdir. Onun bu mövzudakı məqalələri öz həqiqi tarixindən bixəbər qalmış Cənubi Azərbaycan əhalisi tərəfindən maraqla oxunur, "İrane-ma" kimi Tehran qəzetləri bu məqalələri fars dilinə tərcümə edib nəşr edirdi (Xoşginabi, 1948, 14 yanvar, s.3).

"21 Azər"in məğlubiyyətindən sonra F.İbrahimi ölkədən qaçmır və deyir ki, xalqı yalnız qoymağa haqqımız yoxdur. Onların yanında qalıb ölmək qaçmaqdan və vətəni tərk etməkdən daha yaxşıdır! (Bayramzadə, 2021, s.135) O, dar ağacında da demokratiyaya və azadlığa olan ümidini itirməmiş və belə demişdir: "Mən öz ömrümü Azərbaycan zəhmətkeşlərinin və bütün İranın azadlığı, səadəti yolunda sərf etmişəm" (Bayramzadə. Firudin..,

s.8). “Pəhləvilər dövründə illər boyu səbəbsiz və günahsız olaraq zindanlarda çürüməkdə olan insanları azad etdik” (Xoşginabi, 1948, 14 yanvar, s.3) - deyən F.İbrahimi inanırdı ki, elə bir gün gələcəkdir ki, İran xalqını öz hüququndan məhrum edənlər, onun milli mədəniyyətini və qürurunu tapdalayanlar, zəhmətkeş xalqı istismar edənlər törətdikləri cinayət əməllərinə görə millət qarşısında cavab verəcəklər (Bayramzadə. Firudin.., s.8).

“Vətəni müdafiə etmək üçün hamı hazır olmalıdır; ölmək var, dönmək yoxdur!” (İbrahimi, 1946, 1 aprel, s.1) deyən F.İbrahiminin şanlı mübarizəsi onun kiçik qardaşı Ənuşirəvan İbrahimi tərəfindən davam etdirildi. “21 Azər” hərəkatı dövründə Təbrizdə polis məktəbində oxuyan Ə.İbrahimi Milli Hökumətin süqutundan sonra Bakıya mühacirət etmiş (İsmayılov. Şəhid Ənuşirəvan...), burada Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almış, Moskvada “İran Xalq Partiyasının (Tudə) 1944-1946-cı illərdə irticaya qarşı mübarizəsi (İXP-nin parlamentdə və hökumətin tərkibində fəaliyyəti timsalında)” mövzusunda dissertasiya işini müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdı (Bayramzadə, 2021, s.138). Ə.İbrahimi Bakıda siyasi fəaliyyətlə məşğul olaraq, ADF-nin öncə “Cavanlar Təşkilatı”nın, firqənin Mərkəzi Komitəsinin, 1960-cı illərdən sonra isə Tudə Partiyasının İcraiyyə Heyətinin fəal və nüfuzlu üzvələrindən birinə çevrilmişdi. 1960-cı ildə sovet hökumətinin qərarı ilə Berlində keçirilən “Vəhdət” konfransında ADF Tudə Partiyasına birləşdirilmiş və Azərbaycan əyalət komitəsi adlanmışdı (Bayramzadə, 2021, s.142). Berlində Tudə Partiyasının Mərkəzi Komitəsinin üzvü kimi fəaliyyət göstərən Ə.İbrahimi İranda islam inqilabından sonra ölkəyə qayıtmış və burada Tudə Partiyasının tərkibində fəaliyyət göstərən ADF-nin yerli təşkilatlarının rəhbəri və Tudə Partiyasının İcraiyyə Heyətinin üzvü kimi gizli partiya fəaliyyətilə məşğul olmuşdu. Ə.İbrahimi burada “Azərbaycan” qəzetini yenidən nəşr etdirmiş və bütün təhlükələrə baxmayaraq ölkəni tərk etməmişdi. “Mən gərək qardaşım Firudin və ADF

şəhidləri ilə birlikdə öləydim" (Şəymən, 2023, s.5); "Öldü var, döndü yoxdur" deyən Ə.İbrahimi həbs edilmiş və 1987-ci ildə Tehranda öldürülmüşdür (Bayramzadə. Ənuşirəvan...).

F.İbrahimi və Ə.İbrahimi qardaşlarının həyat yolu və yaradıcılığı "21 Azər" hərəkatının öyrənilməsi, "Azərbaycan" qəzetinin tədqiqi, milli şüurun, vətənpərvərliyin təbliği üçün böyük əhəmiyyətə malikdir və öz yeni tədqiqatçılarını gözləyir.

**Məhəmmədhüseyn Bürhani.** XX əsrin I yarısında aktiv inqilabi fəaliyyətlə məşğul olan ADF fəallarından biri də Məhəmmədhüseyn Bürhanidir. O, Mərənd şəhərində yoxsul bir ailədə anadan olmuşdur. Mərənddə ibtidai təhsil, Təbrizdə orta dini təhsil almış, ərəb, fars dillərini mükəmməl öyrənmişdi. Dini ideologiya ilə qane olmayan M.Bürhani materializmə və darvinizmə meyl edir, "Molla Nəsrəddin" jurnalının və M.Ə.Sabirin yaradıcılığı onda böyük təəssürat oyadır. "Azərbaycan" qəzeti yazırdı ki, mərhum Sabirin xan, bəy, mülkədar, ruhani, tacir, hakimləri, xülasə istismarçıları ifşa edici, məntiqli, acı tənqidləri Bürhanda böyük təsir buraxır (Qurbani, 1948, 25 dekabr, s.3). Çünki M.Bürhani "Molla Nəsrəddin" jurnalının səhifələrində və M.Ə.Sabirin yaradıcılığında istismar və zülm altında əzilən Azərbaycan xalqının acı taleyinin əks olunduğunu görmüşdü. Bütün bunlar onda inqilabi mübarizəyə həvəs yaratmışdı. O, yoxsul kütlə içərisində, xüsusilə kəndlilər arasında hökumətin, mülkədarların pozğun əxlaqını, onların xalqa olan zülmünü ifşa etməyə başladı. Öz inqilabçı təbliğatına görə M.Bürhani Rza şahın hakimiyyəti dövründə uzun müddət həbsdə yatmışdı. 1941-ci ildə Rza şahın hakimiyyətdən qovulmasından sonra M.Bürhani həbsdən azad edilmiş, lakin o, yenə də inqilabi fəaliyyətinə davam etmişdi. M.Hüseyn Bürhani fəal inqilabi təbliğatına görə Tudə Partiyasının Azərbaycan Əyalət Komitəsinin, daha sonra ADF-nin Mərkəzi Komitəsinin üzvü və Mərənd şəhəri komitəsinin sədri, Azərbaycan Milli Məclisinin üzvü seçilmişdi. M.Bürhani beynəlmiləlçi bir ziyalı olmuş, təkcə Azərbaycanın yox, bütün İran xalqlarının azadlıq

və demokratiya şəraitində yaşaması üçün mübarizə aparmışdır. Onun S.C.Pişəvəriyə yazdığı müraciətlərdə göstərilirdi ki, İran daxilində Azərbaycanın azadlığının qorunmasını, bütün İranda demokratik hökumətin bərqərar olmasını istəyirik (Azərbaycanın müxtəlif.., 1945, 10 may, s.2). Milli Hökumətin süqutundan sonra o, yenə də öz fikrindən dönməmiş və edam səhpasında demişdi ki, bizi öldürməklə azadlıq yox olmaz, əksinə bu yolda mübarizəmiz daha da şiddətlənər (Qurbani, 1948, 25 dekabr, s.3).

M.Bürhaninin həyat yolunun tədqiqi "Molla Nəsrəddin" jurnalının Cənubi Azərbaycanda və İranda inqilabi hərəkatlara təsirini öyrənmək və fədailərin, demokratların şah rejiminə qarşı demokratik, milli azadlıq mübarizəsinin gənc nəsillərə təbliği baxımından önəmlidir.

**Mir Əyyub Şəkiba (1903-1946).** "Azərbaycan" qəzetində "21 Azər" hərəkatı dövrünün məşhur maarifçisi Mir Əyyub Şəkiba haqqında da qiymətli materialllar var. Qəzetdə M.Ə.Şəkibanın mədrəsə müəllimi olduğu, Gilanda Cəngəli hərəkatında iştirak etdiyi göstərilib. Hərəkatın məğlubiyyətindən sonra on bir il Qəsri-Qacar zindanında həbsdə qalan Şəkiba Rza şahın istefasından sonra azadlığa çıxmış, Tudə Partiyasına, sonra isə ADF-yə qoşulmuş, firqənin Mərkəzi Komitəsinin üzvü seçilmişdi ("21 Azər – 70"., 2015, s.179). M.Ə.Şəkiba Milli Hökumət dövründə Urmiyanın Maarif idarəsinin müdiri olmuş, yeni dərs kursları açaraq, əhalinin savadlanmasına, milli maarifçiliyə xidmət etmişdir. Milli Hökumətin süqutundan sonra o, şah rejimi tərəfindən həbs və edam edilmişdir. "Azərbaycan" qəzeti yazırdı ki, onun xatirəsi azadlıq sevən xalqımızın ürəyində yaşayacaqdır (Rəhmani, 1948, 25 sentyabr, s.4). Şəkibalar ölsə də, onların ideyaları yaşayır. Onların milli maarifçilik və demokratiya yolunda xidmətləri gənc nəsillərə ilham mənbəyidir və xalqın azadlıq ümidini yaşatmağa davam edir.

**Fəthi Xoşginabi (1922-1989).** Şərqşünas alim, yazıçı və şair olan Fəthi Xoşginabi öncə Tudə Partiyasının, sonra ADF-nin üzvü

olmuş, mühacirətdən əvvəl və sonrakı dövrdə ADF-nin orqanı olan "Azərbaycan" qəzetinin məsul katibi, redaktorlarından biri olmuşdur (İsmayılov. Fəthi...; Mir Cəfər Pişəvəri.., 2023, s.9). Onun "Azərbaycan" ruznaməsinin tarixi rolu" adlı məqaləsində "Azərbaycan" qəzetinin ADF-nin fəaliyyətindəki roluna xüsusi qiymət verilib. O, yazırdı ki, ADF öz mübarizəsini yaymaq və genişləndirmək, onun həqiqi mahiyyətini aydınlaşdırmaq və xalqımızın qarşısında duran vəzifələri təhlil etmək üçün ruznaməmizdən, yəni qəzetimizdən çox istifadə etdi (Xoşginabi, 1948, 15 sentyabr, s.3). F.Xoşginabi "Mübarizəmizin yeni mərhələsində Azərbaycan ruznaməsinin tarixi vəzifəsi" adlı məqaləsində qeyd edirdi ki, "Azərbaycan" qəzeti ADF-nin ən kəskin silahı, xalqımızın dili və şərəfli mübarizəmizin güzgüsüdür (Xoşginabi, 1947, 2 dekabr, s.1). Müəllif yazırdı ki, artıq "21 Azər" qiyamına qədər qəzetin xalq içərisində yayılıb və maraqla oxunmasına görə bütün əhalidə firqəmizə və onun şüarlarına böyük bir hüsnü-rəğbət oyanmışdı. "21 Azər"dən sonra Azərbaycan Milli Hökuməti quruldu. Bu zaman qəzetin öhdəsinə düşən vəzifələr daha ağır idi. İstər daxili və istərsə xarici siyasət sahəsində o, oldıqca diqqətli və müdrik olmalıydı. Tehranın mürtəce mətbuatı həyasız surətdə boşboğazlığa başlayıb qiyamət qoparır və firqəmizin üzvləri olan azərbaycanlılara məchul macəraçı adı verirdilər. Qəzetimiz çox aydın bir surətdə bütün dünyaya sübut etdi ki, illər boyu Tehran müstəmləkəçilərinin zənciri altında işləyən Azərbaycan xalqı azadlıq üçün, yaşayış üçün, xoşbəxt gələcəyi üçün qiyam etmişdir. O, firqəmizin və xalqımızın səsini öz səhifələrində əks etdirərək azadlıq uğrunda parlaq mübarizə tariximizi xalqlara xatırlatdı və firqəmizin əliylə parlamaqda olan demokratiya və azadlıq məşəlini yüksəklərə qaldırdı (Xoşginabi, 1948, 15 sentyabr, s.3).

Tehranın irticaçı və xarici imperialistlərə satılmış mətbuatının böhtanlarına qarşı "Azərbaycan" qəzeti öz layiqli cavabını vermişdi. F.Xoşginabi göstərirdi ki, azadlıq və xalq düşmənləri öz iyrənc

təşəbbüslərindən əl çəkmirlər. “Azərbaycan” qəzeti bir tərəfdən onlarla mübarizə etməli idi, digər tərəfdən dünyaya Azərbaycan həqiqətlərini izah etməli idi. Bir il davam edən milli hakimiyyət dövründə ADF-nin rəhbərliyi sayəsində xalqımızın keçdiyi inkişaf dövrləri qəzetin səhifələrində tarixi sənədlər kimi əks edilmişdi (Xoşginabi, 1947, 2 dekabr, s.3).

“Azərbaycan” qəzetinin gənclərdə milli, ictimai-siyasi şüuru formalaşdırdığını, milli ədəbiyyata və mətbuata təkan verdiyini yazan F.Xoşginabi göstərirdi ki, xalqımız öz tarixi mübarizə dövründə qəzetimizi çox diqqətlə oxuyur və onun verdigi şüarların əsasında hərəkət edirdi. Məsələn, bu zaman “ölmək vardır, dönmək yoxdur!”, “ya azad yaşamaq və ya iftixarla ölüm!” və sairə bu kimi şüarları öz gündəlik mübarizələrində əsas məqsəd qərar vermişdilər (Xoşginabi, 1947, 2 dekabr, s.3). Pəhləvi hakimiyyətinin xalqa zidd siyasətini ifşa edən müəllif göstərirdi ki, “Azərbaycan” qəzeti xalqımızın danışan dilidir; övladları məhv edilmiş minlərlə ağbirçək anaların, həyatdan məhrum edilmiş zəhmətkeş kütlələrin dili və mübarizə orqanıdır. Şah hökumətini tarixdən nümunə götürməyə çağıran F.Xoşginabi yazırdı ki, özlərini Bağdadda kor xəlifə hesab edən mürtəcelər tarixdən, kütlələrin əliylə böyük hökmdarların hakimiyyətlərinə son qoyulmasından ibrət almalıdırlar (Xoşginabi, 1947, 2 dekabr, s.3). Həqiqətən də, F.Xoşginabinin bu sözləri 32 ildən sonra həqiqətə çevrildi və Məhəmmədrza şah öz atasının aqibətini yaşadı.

F.Xoşginabi Pəhləvi hakimiyyətini təkcə Azərbaycan xalqının deyil, bütün İran xalqlarının düşməni, cəlladı sayır və “İşsizlik artmaqdadır” adlı məqaləsində yazırdı ki, Azərbaycanda və İranın bütün əyalətlərində işsizlik geniş yayılmış, şəhər və kənd əhalisinin əksəriyyəti acınacaqlı bir vəziyyətə məruz qalmışdı. Dövlətin və hakim təbəqənin təqib etdigi yol və apardığı siyasət onların zəhmətkeşlərə və onların azadlıq və səadətinə olan mənfur niyyətlərini ifşa edir. Hər tərəfdə işsizlik hökm sürür, aclıq kütlənin həyatını təhdid edir. Lakin dövlət və hakim təbəqə laqeydlik-

lə öz xain əməlləri ilə məşğuldurlar. Zəhmətkeşlər özlərini xilas etmək üçün bu satqın ünsürlərə qarşı mübarizəni kəskinləşdirməli, bu hakimiyyəti yıxmağın vacibliyini aydın surətdə dərk edirlər. F.Xoşginabi inanırdı ki, hakim təbəqə öz mənfur həyatını davam etdirməyə imkan tapmayacaq və zəhmətkeşlərin mübarizəsi nəticəsində məhv olacaq (Xoşginabi, 1948, 16 oktyabr, s.2). Müəllif "Mübarizə davam edir!" adlı məqaləsində "21 Azər" hərəkatını bütün Şərq ölkələrinə nümunə sayır və yazırdı ki, xalqımız Tehran hakimiyyətinin "mənəm-mənəm" dediyi və ancaq güc və süngüyə arxalanaraq dəhşət yaratdığı dövrdə belə özünün mübariz bir xalq olduğunu bütün dünyaya sübut etdi (Xoşginabi, 1947, 6 dekabr, s.1).

F.Xoşginabi "Azərbaycan" qəzetinin xalqımızın başına gətirilən faciələri öz səhifələrində işıqlandırmasını xüsusi qeyd edir və yazırdı ki, "Azərbaycan" qəzeti xalqımızın başına gələn faciələri qeyd edir. Şübhəsiz ki, son müvəffəqiyyət bizim olacaq. Tehran müstəmləkəçiləri bizim müqəddəs ana yurdumuzu ayaqlayıb, xalqımızın milli mədəniyyət və tarixini məhv etməyə çalışsa da, bu mübarizə davam edəcəkdir. F.Xoşginabi göstərirdi ki, bu mübarizənin nəticəsində xalqımız arzu etdiyi milli azadlıq və istiqlalını yenidən quracaqdır (Xoşginabi, 1948, 15 sentyabr, s.3). O, "21 Azər" hərəkatının ikinci ildönümü münasibətilə yazdığı "21 Azərin müqəddəs və unudulmaz xatirəsi" adlı məqaləsində Milli Hökumətin süqutunu və şah rejiminin Təbrizə hücumunu şah hökumətinin cinayəti və qardaş qırğını adlandırmışdı (Xoşginabi, 1947, 13 dekabr, s.3).

"Azərbaycan" qəzetinin milli dil və ədəbiyyatımızın inkişafına müsbət təsirini göstərən F.Xoşginabi yazırdı ki, fars dilinin təsiri altına düşmüş ana dilimizin inkişafında qəzetimizin mühüm rolu olmuşdur. Qəzetimizin fəaliyyəti nəticəsində az bir müddətdə yazıçıların sayı artdı. Yeni şairlərimiz meydana gəldi. Siyasi məqalələr yazan cavanlar yetişdi. Sübut etdik ki, Azərbaycan xalqının özünəməxsus dili, mədəniyyəti və tarixi vardır və onu

başqa bir millətə qarışdırmaq olmaz (Xoşginabi, 1948, 15 sentyabr, s.3). Azərbaycan ziyalılarına müraciət edən F.Xoşginabi göstərirdi ki, "Azərbaycan" qəzeti xalqımızın milli mübarizəsinin güzgüsüdür. Şah hakimiyyətinin mənfur siyasəti nəticəsində ana dilimizdə yazıb oxumaqdan məhrum olub və öz zəngin ədəbiyyatımızı inkişaf etdirmək imkanından kənarda qalmışıq. Buna görə də ADF indi bu məsələyə əhəmiyyət verir və dilimizin inkişafı üçün çalışır. Bu sahədə qəzetimizin öhdəsinə düşən vəzifə olduqca mühümdür. Şair və yazıçılarımız xalqımızın xoşbəxt bir həyat və azadlıq uğrunda mübarizəsini, milli ideologiyasını öz əsərlərində əks etdirməlidirlər. Yazıçı yoldaşlarımız bu mövzuya əhəmiyyət verməli və öz doğma firqələrinin göstərişi əsasında dilimizi daha da inkişaf etdirməlidirlər (Xoşginabi, 1948, 12 iyun, s.1).

F.Xoşginabinin yaradıcılığında F.İbrahimiyə xüsusi yer ayrılıb, onun elmi dünyagörüşündən və mübariz həyat hekayəsindən bəhs edilib, məqalələrindən, yazılarından müxtəlif sitatlar gətirilib. F.Xoşginabi F.İbrahimini "Azərbaycanın qəhrəman oğlu, mahir jurnalist və yazıçı" adlandırır, onun "Hamı vətən keşiyində" adlı məqaləsindən bəhs edir. O, göstərirdi ki, F.İbrahiminin bu idealı və müqəddəs əməli xalqımızın ürəyində yaşayır. Bu ideal xalqımızın arzusunun ifadəsidir (Xoşginabi, 1948, 15 sentyabr, s.3). F.Xoşginabi "Şəhid yoldaşımız Firidun İbrahimi" adlı məqaləsində görkəmli mütəfəkkirin Azərbaycan tarixinə və mədəniyyətinə olan elmi baxışını, onun tədqiqiatçı ruhunu ortaya qoymuşdur (Xoşginabi, 1948, 14 yanvar, s.1, 3).

"Azərbaycan" qəzetinin ideoloji istiqamətində və qəzetin nəşrində mühüm rol oynamış F.Xoşginabinin publisistikası "21 Azər" hərəkatının Cənubi Azərbaycanda və İranda ictimai-siyasi, sosial-iqtisadi problemlərin həllində oynadığı rolun, milli mübarizədə F.İbrahimi kimi demokrat fədailərin həyat yolunun tədqiqi baxımından əhəmiyyətlidir. O cümlədən, milli mədəniyyətimizin Cənubi Azərbaycanda keçdiyi ağır şərəfli yolu, xüsusilə "Azər-

baycan" qəzetinin bu proseslərdə oynadığı inqilabi, maarifləndirici rolunu öyrənmək baxımından da əvəzsizdir.

Əli Şəmidə. "Azərbaycan" qəzetinin fəal yazarlarından biri də Əli Şəmidə idi. Ə.Şəmidə ilk öncə Tudə Partiyasının üzvü və İcraiyyə Komitəsinin katibi olmuşdur. O, Milli Hökumətin dövründə Miyanə və Zəncandakı fədai dəstələrinin başçılarından biri kimi Q.Y.Danişyanla birlikdə şah rejiminə qarşı mübarizə aparmış ("21 Azər – 70".., 2015, s.11, 23, 52), polkovnik hərbi rütbəsini almış, ADF-nin Miyanə Vilayəti Komitəsinin I katibi və partiyanın Mərkəzi Komitəsinin şöbə müdirinin müavini vəzifələrində çalışmışdır. O, Sovet Azərbaycanına mühacirətdən sonra ADF-nin orqanı olan "Azərbaycan" qəzetinin redaktoru olmuşdur (İsmayılov. "21 Azər" hərəkatının sərhəng...).

Ə.Şəmidə "İranda mətbuat azadlığı yoxdur" adlı məqaləsində ölkədə həqiqi azad mətbuatın olmadığını, var olanların əksəriyyətinin isə hökumətə satıldığını göstərmişdir. O, yazırdı ki, bu gün İranda 150-yə qədər qəzet çap olunur. Hazırda İranda tamam hökumət sistemi Amerika dollarlarına satıldığı kimi bir çox qəzet redaktorları da pula satılıb. Onlar hər gün ağıllarına gələn cəfəngiyyatı yazıb bunu mətbuat azadlığı kimi qələmə verirlər. Halbuki həqiqət və ədalətin olmadığı, lakin pul və şiddətin hökm sürdüyü bir ölkədə həqiqi mənada azadlıq, xüsusilə mətbuat azadlığı ola bilməz" (Şəmidə, 1948, 28 aprel, s.4). Ə.Şəmidə vaxtı ilə alman faşistlərinə məddahlıq edən "Ettelaat" ("Xəbərlər"), "Guşəş" ("Cəhd"), "Mehri-İran" ("İran günəşi"), "Sitarə", "Səba" ("Meh") kimi qəzetlərin müstəbid Pəhləvi hökumətinə, amerikan, ingilis imperializminə xidmət etdiyini göstərmişdir (Şəmidə, 1948, 28 aprel, s.4).

Ə.Şəmidənin yazılarında o dövr İranında əsas ictimai problemlərindən biri olan tiryək aludəçiliyi geniş tənqid edilib. Müəllif tiryəkin xalqı məhvə apardığını, onun hökumət və imperialistlər tərəfindən xalqı istismar etmək üçün silah kimi istifadə edilib daha da geniş yayıldığını göstərmişdi. Ə.Şəmidə tiryək aludəçi-

liyinin dövlət məmurları arasında geniş yayıldığını qeyd etmişdi və o, yazırdı ki, Rza şah zamanında İranda tiryək çox yayılmışdı. Rza şah hökuməti tiryək əkməyi təşviq edib və Rza xan özü də tiryək çəkirdi (Şəmidə, 1948, 28 aprel, s.4). O dövrdə BMT-nin Səhiyyə Komissiyasının məlumatlarında İranda tiryək aludəçiliyinin sərbəst və geniş yayıldığını göstərilib. "Azərbaycan" qəzeti yazırdı ki, İran dövlətinin bu əməli tiryəkin başqa ölkələrə qaçaq surətdə getməsinə, qonşu və sair dövlətlərdə tiryəkin yayılmasına səbəb olmuşdur (Ciddi, 1949, 29 yanvar, s.1).

Ə.Şəmidə İranda din və məzhəbdən siyasi alət kimi istifadə edənləri və onlara bilib-bilmədən tabe olanları qınayırdı. O, "Məzhəbi təbliğatdır, ya siyasi fəaliyyət!" adlı məqaləsində xalqların azadlıq mübarizəsinə dindən silah kimi istifadə edib mane olanları tənqid etmişdir. Ə.Şəmidə göstərirdi ki, imperialistlər və onların xidmətçiləri xalqların milli və dini təəssüblərindən istifadə edib ədavət və düşmənçilik yaradır, xalqların müstəqil və dinc həyat qurmalarına maneəçilik törədirlər. Habelə məzhəbçilik təbliğatı aparıb mürtəce fikirləri ilə xalqların məfkurəsini zəhərləyir, kütlələri azadlıq mübarizəsindən çəkindirmək istəyirlər (Şəmidə, 1949, 22 yanvar, s.4). Ə.Şəmidə xarici imperialist dövlətlərin istismar etdikləri xalqları zəiflətmək üçün işğalçı ordudan və ya mütəxəssislərdən, o cümlədən, mürtəce din xadimlərindən istifadə etdiyini yazır, İranda fəaliyyət göstərən xarici missionerlərin imperialistlərin agenti olduğunu göstərirdi (Şəmidə, 1949, 22 yanvar, s.4).

Ə.Şəmidə Məhəmmədrza şahın Vatikanda Roma Papası ilə görüşdüyünü, medal aldığını, 1948-ci ildə Vatikan konfransında İranda xristianlığın təbliği üçün qərarlar alındığını, Papanın nümayəndələrinin Tehrana gələrək şahla görüşdüyünü, nəticədə Urmiyada, Təbrizdə, Həmədanda, Tehranda və İranın müxtəlif bölgələrində xristian missionerlərinin sayının artdığı yazır. Müəllif qeyd edirdi ki, onların qurduğu kilsə və məktəblərdə missionerlərin sayı müəllim və həkimlərin sayından artıqdır, xalqın şüurunu

zəhərləməklə məşğuldurlar. Bu məktəb və kilsələrdə yetişənlər Amerika və ingilis imperialistlərinin xidmətçisinə çevrilib, onların xeyrinə təbliğat və casusluq edirlər. Onlar İranın istiqlalı əleyhinə çalışıb öz dini kitab və çıxışlarında imperialistləri mədh edirlər (Şəmidə, 1949, 22 yanvar, s.4). Ə.Şəmidə xristian missionerlərinin əsasən Cənubi Azərbaycanda SSRİ əleyhinə fəaliyyət göstərdiyini, eyni zamanda İranı imperialistlərin müstəmləkəsinə çevirməyə çalışdıqlarını göstərmişdi.

Ə.Şəmidənin yazılarında Tudə Partiyasının fəaliyyəti əks olunur, bu partiyanın o dövrdə yeganə qanuni xalq partiyası olduğu bildirilir. Müəllif "Pəriş" təxəllüsü ilə "Hizbi-Tudeyi-İran nə kimi şəraitdə mübarizə aparır?" adlı məqaləsində yazırdı ki, Tudə Partiyasının daxili irtica və xarici imperialistlər əleyhinə apardığı mübarizə çox ağır şəraitdə keçir. Tudə yeganə hürriyyətçi partiyadır ki, irtica əleyhinə açıq mübarizə aparır. Bu mübarizədə o, böyük çətinliklərə rast gəlir, iki cəbhədə, yəni həm daxili və həm xarici imperialistlər əleyhinə mübarizə aparmağa məcbur olur (Pəriş, 1948, 25 dekabr, s.1).

Ə.Şəmidə ABŞ-ın istəyi ilə Pəhləvi hakimiyyətinin Tudə Partiyasını məhv etməyə çalışdığını göstərir və məqalədə partiyanın Baş katibi R.Radmaneşin fikirlərinə yer verilir. Məqalədə İran hökumət dairələrinin qeyri-qanuni hərəkətlərinə dair R.Radmaneşin verdiyi nümunələr təqdim edilib və göstərilir ki, işçilər qanunsuz surətdə işdən çıxarılır və ya sürgün edilirlər. Müəssisə və idarələrdə tərəqqipərvər şəxslər təqib olunur, tələbələr siyasi hüquqlardan məhrum edilir, mətbuat azadlığı boğulur (Pəriş, 1948, 25 dekabr, s.3).

Ə.Şəmidənin həyatı və yaradıcılığı Qərb imperializminin dəstəklədiyi şah rejimi ilə mübarizəyə və Azərbaycan xalqının azadlığına, milli və demokratik baxımdan maariflənməsinə həsr olunmuşdur. Onun əsərlərinin tədqiqi şah rejiminə, fars şovinizminə və mürtəce din xadimlərinə qarşı mübarizə aparan demokratların, fədailərin, işçi sinfinin mübarizəsinin və ADF-nin

tarixinin öyrənilməsi baxımından əhəmiyyətlidir və daim təbliğ edilməlidir.

**Cəfər Müciri (1919-2001).** "Azərbaycan" qəzetində Cəfər Mücirinin dəyərli məqalələri yer alır. Təbrizli rəssam və yazar C.Müciri öz məqalələrində Azərbaycan mədəniyyət tarixinin müəyyən məsələlərini, klassik şair və yazıçılarımızı, Azərbaycan xalqının şah rejiminə qarşı mübarizəsini, İran mətbuatında Azərbaycan haqqında gedən məlumatları işıqlandırmışdır.

C.Müciri "Təbriz" adlı məqaləsində Təbriz şəhərinin orta əsrlərdəki ehtişamından, Qətran Təbrizi, Xətib Təbrizi, Şəms Təbrizi, Saib Təbrizi kimi azərbaycanlı şair və sufilərdən bəhs etmiş, Xaqani Şirvaninin Təbrizi özünə ikinci vətən seçməsini göstərmişdi. Həmçinin məqalədə Təbrizin Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər kimi dövlətlərə paytaxt olduğunu bildirmişdi. C.Müciri məqalədə Təbrizin tənbəki qiyamındakı, məşrutə hərəkatındakı rolunu, Şeyx Məhəmməd Xiyabaninin azadlıq mübarizəsini, "21 Azər" hərəkatını işıqlandırıb.

Təbrizdə Milli Hökumət tərəfindən Azərbaycan radio stansiyasının açılışı münasibətilə "Azərbaycan" qəzeti yazırdı ki, qoy sönməz müqəddəs odlar yurdu Azərbaycan danışsın. İndiyə kimi azadlıq həsrətində olan əsir bir xalqın azadlığını sübuta yetirsin (Azərbaycan danışır, 1946, 28 aprel, s.1). C.Müciri yazırdı ki, "21 Azər" hərəkatı dövründə Təbriz radiosunun xəbərləri İranın kəndli və fəhlələrinin rəğbətini cəlb edərək, Tehran mürtəcelərinin, Pəhləvi sülalələsinin ürəyinə ox kimi sancılırdı. Çünki Təbriz radiosu Milli Hökumətimizin islahatından danışırdı. Təbriz Şərq dünyasına elan və isbat edirdi ki, xalqların azadlığı əlçatmaz bir xəyal olaraq qalmayıb, mübarizə nəticəsində həyata keçirilə bilər (Müciri, 1948, 10 iyul, s.1). C.Mücirinin qeyd edilən məqaləsində Təbrizin bu gözəl günlərinin "21 Azər" hərəkatının məğlub edilməsilə, Məhəmmədrza şahın ordusunun şəhəri işğal etməsilə sona çatdığı, Təbrizin xarabaxanaya çevrildiyi bildirilir. Lakin müəllif göstərirdi ki, qoca Təbriz öz düşmənlərindən intiqam ala-

caq və bir daha öz təntənəli tarixində yeni iftixar səhifəsi açacaqdır (Müciri, 1948, 10 iyul, s.3).

C.Mücirinin "Azərbaycan millətinin Şərq dünyasında təsiri" adlı məqaləsində Midiya dövrü Azərbaycanından, zərdüştiliyin Azərbaycandakı yüksək rolundan, azərbaycanlıların əcdadı olan midiyalıların İran mədəniyyətinə təsirindən, Nizami Gəncəvinin, M.Füzulinin, Şah İsmayılın həyat və yaradıcılığından bəhs edilib və göstərilir ki, Azərbaycan Şərq və dünya mədəniyyətinin xəzinəsinə qiymətli şəxsiyyətlər təqdim etmişdir (Müciri, 1948, 21 iyul, s.1, 3-4). Məqalədə "21 Azər" hərəkatının önəmi göstərilir və vurğulanır ki, "21 Azər"də baş verən Azərbaycan milli hərəkatı imperialistlərin Şərq aləmində yürütdükləri müstəmləkəçilik siyasətinin əsasını titrətdi. "21 Azər" hərəkatı Şərq dünyasında bir daha sübut etdi ki, zəhmətkeş kütlələrin azadlığı əl çatmaz bir xəyal kimi qalmayıb, bəlkə mübarizə nəticəsində həyata keçə bilər (Müciri, 1948, 21 iyul, s. 4). C.Müciri öz yazılarında şahpərəstliyi bütpərəstliyə bənzədirdi (Müciri, 1948, 10 iyul, s.3). O, demokratik dövlət quruculuğunu təbliğ edərək göstərirdi ki, bir milləti mədəniyyətə və səadətə aparmaq üçün demokratik hökumət quruluşu lazımdır (Müciri, 1947, 20 dekabr, s.1).

C.Müciri öz yazılarında azərbaycanlıların, o cümlədən, bütün İran xalqlarının yoxsulluq həddində yaşadığını göstərir, bunun günahını xalqa zidd şah hökumətində görürdü. Müəllifin "Mürtəcelər heç bir cinayətdən çəkinmirlər" adlı məqaləsində hökumət mətbuatının "səbr və təhəmmül (dözüm-Ə.F.) yaxşı sifətlərdəndir", "aclığa, yoxsulluğa dözməyin aqibəti yaxşıdır" və bu kimi boş, mənasız sözlərlə xalqı mübarizədən yayındırmağa can atması, xalqın şüurunu zəhərləməyə çalışmasını tənqid edirdi (Müciri, 1948, 24 iyul, s.1). Müəllif şahpərəstlərə - "Əgər qənaət yaxşıdırsa, bəs nə üçün qənaət etmirsiniz?" sualını verir və mərkəzi hökumətin sözçüsü olan Tehran radiosunun "Bizə nə dəxli vardır ki, dünyada nə xəbərdir, bizlər gərək dözümlü olaq, şahpərəst olaq və

məmləkətin indiki ağır vəziyyətinə təhəmmül edək" fikrini tənqid edirdi. O, "zəhmətkeş kütlədən şahpərəst çıxa bilməz. Çünki şah ilə fəhlə arasında barışmaz düşmənlik vardır" deyirdi (Müciri, 1948, 24 iyul, s.4). C.Müciri xalqı Səttarxanlardan, Xiyabanilərdən, Əranilərdən ibrət almağa çağırır və deyirdi ki, Azərbaycanın qəhrəman oğullarının qətlinə fərman verən xain şahın köhnəlmiş sistemini silib atmaq, zülmün, zorakılığın binasını alt-üst etmək, şəhidlərin əbədi xatirəsini saxlamaq xalqımızın müqəddəs vəzifəsi və Azərbaycan Demokrat Firqəsinin təntənəli andıdır (Müciri, 1948, 25 dekabr, s.4).

C.Müciri öz məqalələrində Rza şahın ölkədən qovulmasından sonra özlərini guya demokrat kimi göstərən məmurların, polis və jandarmların xalqı necə aldatdığını, necə zülm etdiklərini göstərirdi. O, yazırdı ki, İranda heç kəsin canına, malına təminat yoxdur. Hazırda Rza şahsız, Rza şah hökuməti hökm sürür. İran hakimiyyəti öz diktatorluq sistemini demokraya sözüylə pərdələyir, öz cinayətlərinə demokratiya donu geydirirlər (Müciri, 1949, 5 yanvar, s.4).

C.Müciri Azərbaycandakı və İrandakı problemlərin səbəbini xarici imperializmə satılmış şah hökumətinin və İran parlamentinin xalqa xəyanətkar siyasətində görmüşdür. O, "Fəlakət qütbləri" adlı məqaləsində keçmiş məşrutəçi təbrizli deputat S.H.Tağızadə başda olmaqla əksər deputatların, partiya fraksiyalarının Qərb dövlətlərinin marağına xidmət etdiyini göstərir və deyirdi ki, bir tərəfdə dollar, digər tərəfdə isə fund-sterlinq ağalığı hökm sürməkdədir. İran hökuməti ingilislərin və amerikalıların iqtisadi-siyasi əsarəti altındadır. Məclisdə və hökumətdə bir nəfər də olsun zəhmətkeş kütlənin nümayəndəsi yoxdur (Müciri, 1949, 12 yanvar, s.4). "Azərbaycan" qəzeti xalqın marağını müdafiə etməyən İran parlamentinin, xalqa bədbəxtlik gətirən deputatların ancaq şaha və öz şəxsi mənfəətlərinə xidmət etdiklərini göstərir (Məclis.., 1948, 30 oktyabr, s.1).

C.Müciri "Qoy İran mürtəceləri bir daha rüsvay olsunlar!" adlı məqaləsində ölkədə din pərdəsi altında aparılan yanlış dini siyasəti qınamışdır. Müəllif dindən siyasi məqsədlərlə istifadə edən Pəhləvi hökumətini və onun xarici havadarlarını tənqid edərək yazırdı ki, İran mürtəcelərinə istiqamət verən ingilis imperialistləri və onların panislamizm pərdəsi dalında gizlətdikləri fırıldaqların da üstü açılmışdır. Panislamizm pərdəsi altında İran xalqlarının düşüncəsini zəhərləyirlər (Müciri, 1949, 15 yanvar, s.3). Müəllif insanları bu dünyada zülmə məruz qoyub, axirət ümidi ilə yaşatmağa çalışanları, "aclığa, yoxsulluğa dözməyin aqibəti yaxşıdır" deyənləri tənqid etmişdir (Müciri, 1948, 24 iyul, s.1).

C.Müciri yazırdı ki, hac ziyarətləri zamanı İrandan Məkkə və Mədinəyə gedənlər arasında yoluxucu xəstəliklər yayılır, bir çoxları dərmansızlıqdan ölür və ya kasıbçılıqdan orada dilənçiliklə məşğul olur, İran və Səudiyyə hökumətləri isə iranlı hacıları ağır vergilərlə soyur, onları təhqir edirlər. Məqalədə öz ölkəsindəki acları, yoxsulları görməyən varlı iranlı hacıların öz pullarını Ərəbistanda və digər ölkələrdə su kimi xərcləməsi tənqid edilir (Müciri, 1949, 15 yanvar, s.1, 3).

C.Müciririnin "Tehran hökuməti milli abidələrimizin düşmənidir" adlı məqaləsində Pəhləvi hökumətinin milli abidələrimizi dağıtması, ana dilimizdə yazılan kitabları yandırması tənqid edilirdi (Müciri, 1949, 22 yanvar, s.4). "Azərbaycan" qəzeti yazırdı ki, şah hökuməti yurdumuzda ana dilində təhsil olunan məktəbləri bağlayıb onun əvəzində "tiryəkxanalar açır. Budur xain hökumətin xalqa etdiyi xidmət" (Əhmədzadə, 1948, 24 iyul, s.3). Pəhləvi hakimiyyətinin xalqın narazılığının qarşısını almaq üçün tiryək və içkidən istifadə etdiyini "Kommunist" qəzeti də yazır və göstərirdi ki, İranda "hökumət məmurlarının özləri əhali arasında tiryək və içkini geniş yaymaqdadırlar" (İran Azərbaycanında.., 1947, 13 dekabr, s.4).

C.Müciri göstərirdi ki, onların bu düşmənçiliyi nə xalqımızın mübarizəsini dayandıra bilər, nə də milli varlığımıza nöqsan

gətirə bilər (Müciri, 1949, 22 yanvar, s.4). Müəllifə görə bütün bu problemlərin səbəbi öz xalqına hörmət etməyən, onların qayğısına qalmayan Pəhləvi hakimiyyətidir və "İran xalqlarının etiraz səsləri yaxın gələcəkdə bu üsuli-idarənin yıxılacağını nişan verir" (Müciri, 1949, 15 yanvar, s.3).

C.Mücirinin yaradıcılığı təkcə şah rejiminə və imperializmə qarşı ictimai-siyasi mübarizəsi baxımdan deyil, orta əsrlər milli mədəniyyətimizi, onun Şərq aləminə təsirini, milli ədəbiyyatımızı tədqiq etmək baxımından da əhəmiyyətlidir. Şah rejiminin yıxılacağını deyən və bu yolda mücadilə edən C.Mücirinin publisistikası dövrün fədailərinin, demokratlarının həyat yolunu araşdıranlar üçün böyük bir məktəbdir. Onun tərtibçiliyi və məsul redaktorluğu ilə nəşr olunmuş çoxcildli "Azadlıq yolunun mübarizləri" əsəri də ADF-li demokrat və fədailərin irsini öyrənmək baxımından dəyərlidir. Eyni zamanda böyük bir rəssam olan C. Mücirinin rəsm əsərləri milli incəsənətimiz baxımından da mühüm əhəmiyyət daşıyır.

**Mirrəhim Vilayi.** "Azərbaycan" qəzetində Mirrəhim Vilayinin məqalələri maraq yaradır. Təbrizli M.Vilayi öncə Tudə Partiyasının, daha sonra ADF-nin üzvü olmuş, "21 Azər" hərəkatı dövründə Milli Məclisin katibi və ADF-nin Təbriz komitəsinin sədr müavini seçilmişdir ("21 Azər – 70"., 2015, s.63). "21 Azər" medalı və "Səttarxan" ordeni ilə təltif edilən mütəfəkkir Pişəvəri hökumətinin süqutundan sonra Bakıya mühacirət etmişdi. O, Bakı Ali Partiya Məktəbində təhsil almış, 1949-1953-cü illərdə ADF-nin "Azərbaycan" qəzetinin redaktoru olmuşdur. "Azərbaycan Milli Hökumətinin dövründə mətbuat" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (İsmayılov. Azadlıq..).

Şah rejiminə qarşı demokratik ideyaları müdafiə edən müəllif "Şahpərəstlik heç bir fəlsəfə və riyazi formul üzərində qurulmamışdır" adlı məqaləsində iqtidar yönümlü İran mətbuatının "Azərbaycan xalqının şahpərəstliyi" haqqındakı fikirlərini tənqid etmişdir. M.Vilayi şahı bütləşdirən məddah İran mətbuatına heç

kimin inanmadığını bildirir və yazırdı ki, şah orta əsrlərdən qalma bir skeletdir. Artıq bu gün dünya xalqları şahlıq və diktatorluq üsuluna qarşı nifrət edirlər. O, köhnəlmişdir və çürüyüb aradan getməlidir (Vilayəti, 1948, 17 mart, s.4). M.Vilayi iqtidar yönümlü "Sitarə" qəzetinin şahpərəstliyi təbliğ edən fikirlərini tənqid edərək Azərbaycanı xalqını şah rejiminə qarşı, demokratiya və xalq hakimiyyəti uğrunda mübarizəyə səsləmişdi (Vilayəti, 1948, 17 mart, s.1, 4).

M.Vilayinin "Azərbaycan Demokrat Firqəsi Məramnaməsinin təhlili" başlıqlı silsilə yazılarında ADF-nin proqramı geniş şərh edilib. 1906-cı ildə Müzəffərəddin şah tərəfindən təsdiq edilmiş məşrutə haqlarından, xüsusilə özünü idarəetmə haqqından bəhs edən M.Vilayi yazırdı ki, konstitusiya bütün İran xalqları kimi Azərbaycan xalqına əyalət əncüməni qurmaq ixtiyarını vermişdir. Bu haqqın ləğv edilə bilməyəcəyini, lakin Rza şahın bu qanunsuzluğu etdiyini göstərən M.Vilayi "21 Azər" hərəkatının bu hüquqsuzluğa qarşı mübarizə olduğunu bildirmişdi (Vilayi, 1948, 21 yanvar, s.1).

İran daxilindəki qeyri-farsların muxtariyyət hüququnu müdafiə edən və bunun yolunu əncümənlərin yaradılmasında görən M.Vilayi yazırdı ki, bir millətin muxtariyyəti o millətin öz-özünün sahibi olması deməkdir, yəni o millət öz milli siyasətilə öz tarixini, siyasi həyatını, mədəniyyətini və iqtisadiyyatını mühafizə edib tərəqqi edə bilər. Əncümən vasitəsilə İran xalqları öz muxtariyyətini yarada bilərlər. İranda yaşayan millətlərin öz vilayətlərində əncümənlər qurmaqla, özünü idarə etməsi, öz milli dilində məktəb, maarif, mədəniyyət yaratması, dövlət təşkilatlarını özlərinin idarə etməsi muxtariyyətin zəruri şərtlərindəndir (Vilayi, 1948, 21 yanvar, s.4).

M.Vilayi göstərirdi ki, ADF-nin rəhbərliyi ilə yaradılmış muxtariyyət beş milyonluq xalqa, mürtəce şah hökuməti tərəfindən qadağan olunmuş ana dilini, mədəniyyətini qurmaq üçün imkan yaratdı. ADF hökuməti xalqımız üçün ana dilində məktəblər

açıb kitablar nəşr etdi (Vilayi, 1948, 21 yanvar, s.4). M.Vilayi Milli Hökumətin etnik, şovinist siyasət güdmədiyini, ölkədə yaşayan bütün xalqlara öz milli-mədəni hüquqlarını, mətbuat azadlığını verdiyini qeyd edir və yazırdı ki, Azərbaycan Muxtariyyəti Azərbaycanda yaşayan kiçik millətlərin hüquqlarına, dil və adət-ənənələrinə hörmət etməklə, onlara dil və mətbuat azadlığı verməklə onları Azərbaycan xalqı ilə bərabər hüquqda və qardaşcasına rəftar etdi (Vilayəti, 1948, 21 yanvar, s.4). Ölkədəki bütün xalqların milli-mədəni hüquqlarına hörmətlə yanaşan Milli Hökumət dövründə kürd, erməni, aysor xalqlarına öz ana dillərində ibtidai və pulsuz təhsil hüququ verilmiş, hətta erməni dilində "Arevud" ("Günəş") adlı siyasi-ictimai qəzet nəşr edilmişdi ("21 Azər – 70", 2015, s. 6-7, 149). Dil haqqında Azərbaycan Milli Hökumətinin Qərarında göstərilmişdi ki, ölkədəki azsaylı xalqlar rəsmi dövlət dili olan Azərbaycan dili ilə yanaşı öz dillərində də mətbuat nəşr etmək və təhsil almaq hüquqları var və bu hüquq dövlət tərəfindən qorunur (Azərbaycan Milli Dövlətinin.., 1946, 9 yanvar, s.1).

"Azərbaycan" qəzetinin demək olar ki, hər nömrəsinində bölgənin ikinci ən çox saylı xalqı olan kürdlər üçün xüsusi səhifə ayrılmışdı. Qəzetdə Kürdüstan Demokrat Firqəsinin orqanı olan "Kürdüstan" qəzetinin bir səhifəlik materialları əsasında kürdlərə öz dilində maarifləndirici, ictimai-siyasi məlumatlar təqdim edilmişdi. "Azərbaycan" qəzetində kürdlərin İran, İraq və Türkiyə tərəfindən işğala məruz qalması göstərilmiş (Kürd millətinin.., 1949, 26 yanvar, s.1), milli-mədəni azadlıqlarının, hüquqlarının pozulduğu və milli istiqlalın qorunmasının vacibliyi vurğulanmış (Əyyubi, 1947, 13 dekabr, s.1; "21 Azər"in 3-cü ildönümü münasibətilə təşkil olunmuş yığıncaqda.., 1948, 18 dekabr, s.1, 4), kürd xalqının demokratik dövlətçiliyinin inkişaf etməsi arzu edilmişdi (Kürd millətinin.., 1949, 26 yanvar, s.1, 4). "Kürdüstan" qəzetində sovet ideologiyası, sovet dövlət quruluşu, sovetlərin xalqlar dostluğu və insan haqları siyasəti siyasəti təbliğ edilirdi

(Azərbaycan, 1948, 4 dekabr, s.2).

Kürdüstan Demokrat Firqəsi tərəfindən ADF-yə göndərilən teleqraflarda kürd və Azərbaycan xalqlarının qardaşlığı və ortaq düşmənə qarşı mübarizə əzmi vurğulanmışdı. S.C.Pişəvəri kürd – Azərbaycan xalqları arasında XIX əsrin sonu – XX əsrin əvvəllərində baş vermiş qarşıdurmaların, kürd separatçılarının xalqımıza qarşı törətdiyi faciələrin artıq bitdiyini, bu ziddiyyətlərin şah hökumətinin və imperializmin mənfur siyasətinin nəticəsi olduğunu göstərirdi. O, yazırdı ki, şah hökumətinin bu iki tayfaya bir gözlə baxıb, onları soyub, əzib, qarət etməkdə vahid bir siyasət təqib etməsi bu xalqları bir-birinə bağlayan səbəblərdən hesab edilməlidir. Təəssüflə demək olar ki, ADF təşkil olmadan əvvəl kürdlərlə azərbaycanlılar arasında elə də yaxınlıq hiss edilmirdi. Hətta şah hökuməti və xarici imperialist dövlətlər bu iki milləti bir-birinin əleyhinə qaldırmışdı (Pişəvəri, 2005, s.61-62). ADF-nin yaradılması və milli azadlıq mübarizəsi Pəhləvi hakimiyyətinə qarşı mübarizədə bu iki qardaş xalqın arasındakı süni ziddiyyətləri yox edib onları bir-birinə yaxınlaşdırdı.

M.Vilayi "İran xalqları arasında ziddiyyət salan fitnəkarlar" adlı məqaləsində ölkədəki müxtəlif xalqları bir-birinə düşmən edən beynəlxalq imperializmi tənqid edir, onların bu vasitə ilə müxtəlif xalqları özlərindən asılı saldıqlarını göstərirdi (Vilayi, 1948, 10 yanvar, s.1). M.Vilayi Qərb imperializminin xalqların azadlıq mübarizəsini məhz onlar arasında təfriqə yaratmaqla, qardaş qırğını törətməklə məğlub etməyə çalışdığını göstərir və bildirirdi ki, Pəhləvilərin İrandakı müxtəlif xalqları zorla farslaşdırmağa çalışması imperializm siyasətinin tərkib hissəsidir və bu yolla qeyri-farsları İrana düşmən edib ölkəni zəiflətməyi qarşısına məqsəd qoymuşdur (Vilayi, 1948, 10 yanvar, s.4).

1926 və 1937-ci illərdə nəşr etdirdiyi "Azəri və ya Azərbaycanın qədim dili" əsərində azərbaycanlıları türkləşmiş arilər – irandilli azərilərin və ya midiyalıların nəslindən sayan təbrizli Ə.Kəsrəvinin ideyaları Pəhləvilərin şovinist farsçılıq ideologiya-

sına xidmət edirdi. Lakin Ə.Kəsrəvi midiyaşünas alim deyildi və Midiya dilindən nümunələr verə bilmirdi. Rusiyalı iranşünas alim B.V.Millerin də dediyi kimi – Ə.Kəsrəvinin materialları əsasında "azəri" dili haqqında az da olsa konkret təsəvvür əldə etməyimiz mümkün deyil (Tahirzadə, 1984, s.44, 49, 51). Ə.Kəsrəvi farsçılığı müdafiə etməsinə baxmayaraq, onun islama, xüsusilə şiə məzhəbinə, ruhanilər əleyhinə və Pəhləvi hakimiyyətinə qarşı çoxsaylı tənqidi çıxışları və əsərləri 1946-cı ildə sui-qəsd nəticəsində öldürülməsinə səbəb oldu. Kəsrəviçilik adlanan farsçılıq ideyalarını davam etdirən iranlı Cavad Şeyx əl-İslam yazırdı ki, azərbaycanlı uşaqları valideynlərindən alıb İranın ucqar fars vilayətlərindəki xüsusi təlim mərkəzlərində yetişdirmək, farslaşdırmaq lazımdır (Soytürk, 2013, s.29-30). M.Vilayi bu yanlış siyasətə qarşı çıxaraq İranda yaşayan müxtəlif xalqların milli haqlarının qorunması və onların dostluğu ideyasını vurğulamış, ADF-nin məhz bu yolla İranda demokratiya və azadlığa nail olmaq istədiyini, vahid bir xalqlar ailəsi qurmaq arzusunu göstərmişdir (Vilayi, 1948, 10 yanvar, s.4).

"21 Azər" hərəkatının əhəmiyyətini qeyd edən M.Vilayi "Azadlıq uğrunda şəhid olmuş qəhrəmanımızın xatirəsi əbədi yaşayacaqdır!" adlı məqaləsində göstərirdi ki, "21 Azər" hərəkatı şah hökumətinin zülm və əsarətinə, törətdiyi cinayətlərə son qoydu. Azərbaycan xalqı bu demokratik hərəkatın vasitəsi ilə ictimai, mədəni və mütərəqqi yollar ilə irəliləyərək öz müqəddəratını həll etməyə nail oldu (Vilayi, 1947, 13 dekabr, s.1). Lakin İran hökumətinin xaincəsinə "21 Azər" hərəkatını məğlub etdiyi, hətta Cənubi Azərbaycanı işğal edən şah ordusunun ayaqları altında ADF fəallarının qurban kəsildiyi müəllif tərəfindən acı ilə nəql edilmişdir. M.Vilayi göstərirdi ki, şəhid olmuş qəhrəman oğullarımızın xatirəsi bütün Azərbaycan xalqının və İran hürriyyətçilərinin qəlbində əbədi olaraq yaşayacaqdır (Vilayi, 1947, 13 dekabr, s.1).

M.Vilayinin yazılarında "21 Azər" hərəkatının görkəmli xadimləri – Baş prokuror F.İbrahimi, hakim N.Baqiri kimi görkəmli şəhid fədailərin həyatı və mübarizə tarixi işıqlandırılmış və oxuculara çatdırılmışdır. M.Vilayi yazırdı ki, bu fədailər şəhadətləri ilə öz qəhrəmanlığını sübut etmişdir (Vilayi, 1947, 13 dekabr, s.1) və əbədi olaraq millətimizin qəlbində yaşayacaqdır (Vilayi, 1949, 1 yanvar, s.3). M.Vilayi öz məqaləsində göstərirdi ki, F.İbrahimi öz xalqının milli demokratik hərəkatını qəhrəmancasına müdafiə etmiş və son nəfəsində də düşmənə təslim olmayıb, Azərbaycan oğullarını öz hərarətli sözləriylə intiqama və mübarizəyə çağırmışdır. F.İbrahimi həbs müddətində də düşmənə mənən təslim olmamış, onu həbs edənlərin xalqın təmsilçisi yox, "quldur" olduqlarını, zəhmətkeşləri təmsil etmədiyini göstərmişdir. O, dar ağacında da "mübarizəmiz davam edəcəkdir", demişdir (Vilayi, 1947, 13 dekabr, s.1).

M.Vilayinin məqalələrində Azərbaycanın mədəniyyət tarixinin müxtəlif məsələləri, Şah İsmayılın Səfəvi bayrağı altında vahid dövlət qurma təşəbbüsü, Səfəvi dövlətini, Təbriz şəhərini elm, mədəniyyət, iqtisadi, ticari inkişaf yuvasına çevirməsi, Osmanlı dövlətinin Azərbaycana işğalçılıq yürüşləri əks olunub (Vilayi, 1948, 9 iyun, s.3). Həmçinin Sovet Azərbaycanında xalqlar dostluğu mövzusu (Vilayi, 1948, 31 iyul, s.1, 4), Sovet Azərbaycanı mədəniyyətinin müxtəlif məsələləri, xüsusilə Ü.Hacıbəyovun həyat və yaradıcılığının təqdimi M.Vilayinin publisistikasında əsas yerlərdən birini tutur (Vilayi, 1948, 27 noyabr, s.4).

Bu dövrdə Qərb imperializmi tərəfindən dəstəklənən Türkiyə Cənubi Azərbaycanı İrandan ayırmaq və özünə birləşdirmək arzusunda idi. "Azərbaycan" qəzeti Türkiyənin bəlkə də bu səbəbdən Cənubi Azərbaycanın muxtariyyatına meyil etdiyini göstərir ("Azərbaycan" qəzeti.., 2022, s.653). M.Vilayi "Osmanlı əfəndiləri yerlərində otursunlar" adlı məqaləsində Qərb imperializminin Türkiyə hakimiyyətindən istifadə edərək İrana və Cənubi Azərbaycana işğalçılıq məramından bəhs edilib. Məqalədə qeyd

olunurdu ki, Türkiyə mürtəceləri ac və dilənçi əhalinin diqqətini ölkədəki həqiqi vəziyyətdən uzaqlaşdırmaq üçün milli şovinizmi qızışdırırlar. Amerikalılar guya İran qoşunu Azərbaycan sərhədlərini müdafiə edə bilməyəcəyindən bu sərhədləri qorumağı Türkiyəyə tapşırmaq istəyirlər. Türkiyə mürtəceləri amerikalıların onlara Azərbaycandan bir pay verməsini sevinclə qarşılayır və "ağızlarının suyunı axıdırlar". Məqalədə göstərilirdi ki, Azərbaycanda Türkiyə təbliğatı başlamışdır və türklər şayiə yayırlar ki, İranın şimal-qərb hissəsi Türkiyəyə veriləcəkdir (Vilayi, 1948, 20 oktyabr, s.1). Müəllif Türkiyənin Təbrizdəki konsulluğunun pantürkizm təbliğatı ilə məşğul olduğunu, bu məqsədlə xüsusi idarə yaradıldığını bildirir (Vilayi, 1948, 20 oktyabr, s.3).

"Azərbaycan" qəzetində təqdim edilən bir karikaturada amerikalı zabit tərəfindən təşviq edilən bir türk sərhədçisinin Cənubi Azərbaycandan torpaq qopartmaq üçün sərhəd dirəklərini dəyişdirməyə çalışdığı göstərilib (Azərbaycan, 1948, 20 noyabr, s.4). Amerikalı R.V.Kottam yazırdı ki, türkiyəli pantürkistlər İran Azərbaycanını qurulacaq olan böyük türk imperiyasının bir parçası olaraq görürlər (Cottam, 1979, p.118).

M.Vilayi "21 Azər" hərəkatı dövründə Türkiyənin Cənubi Azərbaycanı işğal planının olduğunu, Milli Hökumətə töhmət və iftiralar yağdırdığını yazır. M.Vilayi Türkiyənin bu arzusunun yeni olmadığını, I Dünya müharibəsi dövründə, Ənvər paşanın Cənubi Azərbaycanı İrandan ayırıb Osmanlıya birləşdirmək planından bəhs edir (Vilayi, 1948, 20 oktyabr, s.1). Müəllif yazırdı ki, Azərbaycan xalqı tarix boyu osmanlıların işğalçı ordularına qarşı mübarizə aparmış, xalqımızın azadlığını göz bəbəyi kimi qoruyaraq ölkəmizin istiqlalını düşmənlərin hücumundan mühafizə etmişdir. Ona görə "Azərbaycan milləti heç vaxt millətinə, dilinə, mədəniyyətinə zidd olan Türkiyə fırıldaqçılarının və mürtəce ünsürlərin pantürkist məfkurəsinə aldanmayıb və aldanmayacaqdır" (Vilayi, 1948, 20 oktyabr, s.3).

“Azərbaycan” qəzetində Təbrizdəki “İttihadi-islam” cəmiyyətinin sədri olan Yusif Ziya Talıbzadə, türk dilində nəşr olunan “Azərbaycan” qəzetinin redaktoru Mirzə Tağı xan Rüfət (“Azərbaycan” qəzeti.., 2022, s.402), Əli bəy Hüseynzadə kimi osmanlıpərəst türkçülər (“Azərbaycan” qəzeti.., 2022, s.306-307), keçmiş osmanlıpərəst, sonralar ingilis tərəfdarı Şeyx Əsədulla Mamaqani kimi ruhanilər tənqid edilmişdir (Saidin əvamfiribliyi.., 1949, 26 yanvar, s.3).

M.Vilayinin Osmanlı türkləri haqqındakı fikirlərinə biz daha öncə S.C.Pişəvərinin yazılarında da rast gəlirik. O, “Ajir” qəzetindəki “Ədalət partiyasının tarixi” başlıqlı silsilə məqalələrində pantürkizmdə ittiham etdiyi Nuri Paşanın rəhbərliyindəki Osmanlı ordusunun 1918-ci ildə Bakını işğal etdiyini, qətl və qarətdə daşnaklardan geri qalmadıqlarını yazır və tənqid edirdi (جعفر پیشه وری، ص.٤٨). Təəssüf ki, bu fikirlər sovet ideologiyasının Azərbaycanı bolşevik-daşnak işğalından azad edən Osmanlı türklərini azərbaycanlılara işğalçı kimi təqdim etmək, pisləmək siyasətinin təsirilə ortaya çıxmış fikirlər idi və Osmanlı dövlətinin göndərdiyi Qafqaz İslam Ordusunun hərbi yardımı olmasaydı, Qafqaz müsəlmanlarının daşnakların törətdiyi soyqırımlar nəticəsində məhv ediləcəyi şübhəsiz idi.

M.Vilayinin yazılarında Pəhləvi hakimiyyətinin, ordu quruculuğunun tənqidi əsas yerlərdən birini tutur. Müəllif göstərirdi ki, Qərb imperializminin təsiri altında olan şah qoşunu İran istiqlalını, məmləkətini mühafizə etmək üçün təşkil olunmamışdır. Bu qoşun Rza xan diktatorluğunu və hakim təbəqənin mənafeyini qorumaqdan ötrü yaradılmışdır (Vilayi, 1948, 29 dekabr, s.1). Müəllifə görə xalq ilə hakim təbəqə, xalq ilə ordu arasında barışmaz ziddiyyət vardır və bu ordu xalq əleyhinə, azadlıq əleyhinə hakimiyyətin əlində bir silahdır. Müəllif yazırdı ki, şah ordusundakı zabitlərin sinələrindəki medallar İranın məzlum xalqlarının inqilabi hərəkatını yatırmaq və silahsız kütlələri öldürüb qarət etmək nəticəsində qazanılmışdır (Vilayi, 1948, 29 dekabr, s.1).

M.Vilayi göstərirdi ki, İran ordusunun Cənubi Azərbaycanı işğal etdiyi 1946-cı ilin 12 dekabr (21 Azər) gününü "Zəfər bayramı" elan edən Məhəmmədrza şahın işğalçılıq arzusuna son qoyulacaq və Azərbaycan xalqı öz azadlıq və istiqlalı uğrunda işğalçılara qarşı mübarizəsini davam etdirəcəkdir (Vilayi, 1948, 29 dekabr, s.1).

M.Vilayi "Fədailərimiz mübarizə cəbhəsində" adlı məqaləsində yazırdı ki, iki ildən artıqdır ki, mürtəcelər və imperialistlər ölkəmizdə ağalıq edir, hər cür cinayət törətməkdən əl götürmürlər. İrticanın tökdüyü qanlar və xalqımıza etdikləri zülm, işgəncə cəzasız qalmayacaqdır. Xalqımızın mübarizəsi davam edəcəkdir (Vilayi, 1949, 2 fevral, s.3).

M.Vilayinin "Azərbaycan" qəzetində yer alan hekayələri də maraqlıdır. Onun "Tehranda" adlı hekayəsində oğlu demokrat olduğu üçün öldürülən və kimsəsiz qalan azərbaycanlı qoca kişinin qış aylarında iş axtarması nəql edilir və qocanın diliylə belə deyilir: "Mən necə bədbəxtəm. Dünyada öz sərvət və nemətilə məşhur olan əziz vətənim Azərbaycanı yadların təzyiqi ilə tərk edib, indi qürbətdə bir tikə çörək üçün iş deyə-deyə qapı-qapı gəzirəm, onu da tapa bilmirəm" (Vilayi, 1949, 15 yanvar, s.3).

M.Vilayinin məqalələri və hekayələri dövrün ictimai-siyasi, sosial-iqtisadi mənzərəsini təsvir etmək baxımından çox təsirlidir. Onun əsərlərinin təhlili şah rejiminə, fars şovinizminə qarşı mübarizədə ADF-nin və milli, demokratik mətbuatın rolunu öyrənmək, orta əsrlər mədəniyyətimizin və Şimali Azərbaycan ziyalılarının cənubda təbliği baxımından əvəzsizdir və öz yeni tədqiqatçılarını gözləyir.

**Həmid Məhəmmədzadə (1924-2000).** "Azərbaycan" qəzetində maarifçilk məsələləri geniş işıqlandırılıb. Bu baxımdan Həmid Məhəmmədzadənin "Maarif günəşindən hamı istifadə etməlidir" adlı məqaləsi böyük maraq yaradır. Məqalədə göstərilirdi ki, Milli Hökumətin süqutundan sonra Təbriz radiosu Pəhləvi hakimiyyətinin təbliğat alətinə çevrilmişdir. Radionun xalqın maariflənməsi əleyhinə olan siyasətini, xüsusilə radio aparıcısının –

5-10 nəfər siyasi və alim adam İran məmləkətini çox ləyaqətlə idarə edə bilər, sözünü tənqid edən H.Məhəmmədzadə bu fikri "cəfəngiyyat" adlandırmışdır. Müəllif göstərirdi ki, xalqın maarifdən uzaq qalmasının nəticəsi ölkənin bütün siyasi və iqtisadi işlərinin ixtiyarının xalqda yox, hakimiyyəti mənimsəmiş bir qrupun əlində cəmləşməsidir ki, bunun da ən açıq nümunəsi zalım Pəhləvi hakimiyyətidir (Məhəmmədzadə, 1948, 11 sentyabr, s.1).

H.Məhəmmədzadə yazırdı ki, xalqdan alınan vergilərlə harınlayan Pəhləvi hakimiyyəti illərdən bəri öz xain əməllərini, yəni hökumətdəki 5-10 nəfərə xidmət etməyi davam etdirir. Maarif və səhiyyə işləri üçün maliyyə adına alınan hesabsız pullar xalq üçün deyil, elə həmin 5-10 nəfər "ləyaqətlilər" üçündür. Həmin maarif və səhiyyə adına alınan pullarladır ki, muzdur şah və başqaları istədikləri kimi xərcləyir və əyyaşlıq edirlər (Məhəmmədzadə, 1948, 11 sentyabr, s.4). Müəllif vergiləri toplayan Pəhləvi hakimiyyətinin bölgələrdə adi bir məktəb açmaq üçün yenə dilənçi kimi xalqa müraciət etdiyini, onların xeyriyyəçiliyindən imdad dilədiyini göstərir. H.Məhəmmədzadə bu problemləri həll etmənin, İran xalqlarını əsarət və cəhalət zəncirlərindən qurtarmanın "5 və ya 10 nəfərlər hökumətini məhv etməklə", yəni Pəhləvi hakimiyyətini xalq hakimiyyətilə əvəz etməklə mümkün olduğunu göstərmişdir (Məhəmmədzadə, 1948, 11 sentyabr, s.4).

H.Məhəmmədzadə hakimiyyətin təbliğat aləti olan Tehran radiosunun verilişlərini öz məqalələrində tənqid etmişdir. Müəllif yazırdı ki, Tehran radiosu işçilər üçün təqdim etdiyi proqramda onları "dözümlü və sakit" olmağa dəvət edir. Bundan məqsəd isə fəhlələrin ağır iş müqabilində aldığı cüzi maaş qarşılığında şikayət etməsinə və inqilabi hərəkata qoşulmasına mane olmaqdır (Məhəmmədzadə, 1948, 2 oktyabr, s.1).

H.Məhəmmədzadə fəhlələrin qurtuluşunu şah hökuməti əleyhinə mübarizədə görür və yazırdı ki, İran fəhlələri çətin günlərdə sakit olmaq və dözümlü olmaq əvəzinə mütərəqqi və hürriyyətçi təşkilatın rəhbərliyi altında coşğun inqilabi fəaliyyətlərini davam

etdirməyi birinci qurtuluş yolu hesab edirlər (Məhəmmədzadə, 1948, 11 sentyabr, s.4). Zəhmətkeşlərin qış aylarında soyuqdan donduğunu, aclıqdan qırıldığını, quru çörəyə möhtac qaldığını yazan müəllif zəhmətkeş kütlələri ADF və Tudə Partiyası ətrafında birləşməyə dəvət edir və yazırdı ki, ADF və Tudə kimi istiqlalçı partiyaların yorulmadan mübarizəsi və xalqın, xüsusən qabaqcıl zəhmətkeşlərin mübarizəsi bu alçaq siyasəti tezliklə sarsıdacaqdır (Məhəmmədzadə, 1949, 15 yanvar, s.1, 4). O, qeyd edirdi ki, bu ədalətsizliklərin sonuna az qalır. Bu gün kədərlə öz əzizlərinin qəbrini qazan əllər, sabah qan içən mürtəcelərin qəbrini qazacaqdır (Məhəmmədzadə, 1949, 19 yanvar, s.1).

**Qafar Kəndli (1923-1997).** "Azərbaycan" qəzetində "21 Azər" hərəkatının aktiv iştirakçısı, fədai, təbrizli ədəbiyyatşünas Qafar Kəndlinin maraqlı məqalələri təqdim edilmişdir. Onun əsl soyadı Herisçi olsa da gizli inqilabi fəaliyyəti ilə əlaqədar "Kəndli" təxəllüsü ilə fəaliyyət göstərmişdir. Q.Kəndli özünün "Qubalı Fətəli xan" adlı məqaləsində Azərbaycanın xanlıqlar dövrünü təsvir etmiş, pərakəndə vəziyyətdə olan xanlıqların mərkəzi hakimiyyətdə birləşə bilmədikləri üçün işğala məruz qaldıqlarını göstərmişdir (Kəndli, 1948, 18 avqust, s.4). Müəllif pərakəndəliyin, mərkəzi hakimiyyətin olmamasını və imperialist dövlətlərin bu vəziyyətdən bacarıqla istifadə etdiklərini təsvir edir və yazırdı ki, ticarət tamamilə zəifləmişdi. Şəhər və kənd həyatı ölgün bir hala düşmüşdü. İqtisadi və siyasi cəhətdən biri-birindən ayrılmış olan xanlıqlar daim bir-biri ilə müharibə edirdilər. Bu da ölkənin təsərrüfat və iqtisadi cəhətdən daha çox dağılmasına səbəb oldu. Qonşu dövlətlər bu xanlıqları asanlıqla ələ keçirmək üçün onların arasındakı daxili mübarizəni şiddətləndirirdilər. Müəllif Fətəli xanın digər xanlıqları Quba ətrafında birləşdirmə cəhdindən danışır və qeyd edir ki, bu dövr qısa sürsə də, onun səmərəli fəaliyyəti Azərbaycan şəhərlərinin inkişafında ölkədə təsərrüfat və mədəniyyətin yüksəlişinə səbəb oldu. Q.Kəndli Fətəli xanın xanlıqları birləşdirmə cəhdini təqdir edir və yazırdı ki, bu əməl

vahid Azərbaycan uğrunda gedən mübarizənin sübutudur (Kəndli, 1948, 18 avqust, s.4).

Q.Kəndlinin "Azərbaycan Milli Hökuməti xalqların azadlığını təmin etmişdi" adlı məqaləsində Pişəvəri hökumətinin İran xalqlarına azadlıq gətirməsi siyasətindən bəhs edilir. Məqalədə göstərilirdi ki, Pəhləvi hakimiyyəti İran xalqlarının birləşərək şaha qarşı mübarizəsindən qorxur və bu səbəbdən fars şovinizmi siyasətindən istifadə edir. Müəllif yazırdı ki, mədəniyyət, elm, maarif cəhətdən geridə qalan, fəlakət və yoxsulluq içində olan İranda milli təzyiq olduqca şiddətlidir. Fars şovinistləri öz ağalıqlarını başqa xalqlar üzərində təmin etmək və həmçinin fars zəhmətkeşlərini istismar altında saxlamaq üçün onları millətçilik zəhəri ilə zəhərləmək istəyirlər. Onlar İranda yaşayan müxtəlif xalqların bir-biri ilə birləşməsindən qorxurlar (Kəndli, 1948, 9 oktyabr, s.1).

Q.Kəndli Pəhləvi hakimiyyətinin öz ağaları olan ingilislərin "nifaq sal, hökumət et!" şüarından istifadə edərək İran xalqlarının dil, din, məzhəb fərqliliklərini qabardaraq onlar arasında düşmənçilik salmağa çalışdığını göstərmişdir. O, İranda şah rejiminə qarşı mübarizədə Azərbaycan xalqının rəhbərlik etdiyini bildirmişdi (Kəndli, 1948, 9 oktyabr, s.1). Q.Kəndlinin felyetonlarında Milli Hökumətin qələbəsindən narahat olanlar, "Bu gündü, sabahdı, gedənlər qayıdacaqlar" deyə özlərinə təsəlli verən xainlər, fədailəri "naməzhəb" (məzhəbsiz-Ə.F.) adlandıranlar ifşa edilmişdir (Kəndli, 1946, 28 aprel, s.3).

Q.Kəndlinin oğlu Həmid Herisçinin dediyinə görə atası "21 Azər" hərəkatı dövründə Əhər şəhərində ADF hakimiyyətinin qələbə çalmasında, hərəkatın süqutu dövründə pərakəndə olmuş fədailərin əksəriyyətinin Sovet Azərbaycanına sağ-salamat keçirilməsində mühüm rol oynamışdır (Nuri. Atalar...). Q.Kəndli Milli Hökumətin süqutundan sonra Bakı Ali Partiya Məktəbini və Azərbaycan Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunun aspiranturasını bitirmiş, Ədəbiyyat İnstitutunda şöbə müdiri,

professor olmuşdur. Cənubi Azərbaycan ədəbiyyatını, Azərbaycan klassiklərini, o cümlədən, Xaqani Şirvaninin irsini dərindən araşdırmışdır (Qafar Kəndli...). Onun ADF sıralarındakı fədailik yolu, publisistik yazıları, felyetonları gənclər üçün ilham qaynağıdır və daim tədqiq, təbliğ edilərək nümunə alınmalıdır.

**Nüsrətullah Cahanşahlı (1913-2012)**. ADF-nin görkəmli siyasi xadimlərindən olan N.Cahanşahlı əslən zəncanlı olub Tehranda ali tibb təhsili almışdır. O, məşhur kommunist filosof, pedaqoq T.Əraninin təsiri ilə marksizm ideyalarının təsirinə düşmüş, bu səbəbdən "53-lər" adlanan kommunistlər qrupunun üzvü kimi həbs həyatı yaşamışdı. Rza şahın hakimiyyətdən qovulmasından sonra həbsdən azad olub cərrah kimi çalışmış, Tudə Partiyasının Zəncan komitəsinə rəhbərlik etmişdir. ADF-nin qurulmasından sonra firqənin rəhbər şəxslərindən olmuş, Milli Hökumətin qələbə çalması üçün Zəncan fədailərinə, firqənin bölgə komitəsinə rəhbərlik etmişdir (Çingizoğlu, 2008, s.279). O, Milli Hökumət dövründə millətvəkili və Baş Nazir S. C.Pişəvərinin müavini seçilmiş (Çeşmazər. Azərbaycan.., s.71), Təbrizdə açılan Azərbaycan Universitetinin rektoru olmuşdur. N.Cahanşahlı "21 Azər" hərəkatının süqutundan sonra Sovet Azərbaycanında mühacirət həyatı yaşamış, ADF-nin Mərkəzi Komitəsində təbliğatçı olmuş, Moskvada Ali Partiya Məktəbində təhsil almışdır (Yəhyai. Azərbaycanın..).

N.Cahanşahlı öz çıxış və yazılarında iranlı zəhmətkeşlərin, ziyalıların, xüsusilə hürriyyətçi azərbaycanlıların cənubda Pəhləvi zülmünə məruz qaldığını, ölkəni aclıq və yoxsulluğun bürüdüyünü göstərir, güneyliləri Tudə Partiyası ilə birlikdə diktatura əleyhinə mübarizəyə, Cənubi Azərbaycanın demokratik azadlığı uğrunda mücadiləyə çağırırdı (Azərbaycan Demokrat Cavanlar.., 1948, 24 noyabr, s.4). "Azərbaycan" qəzetində onun ADF-nin rəhbər xadimlərindən biri kimi məruzələri, çıxışları, T.Ərani mövzusunda yazıları yer alır (Cahanşahlı, 1948, 7 fevral, s.3; Azərbaycan Demokrat Cavanlar.., 1948, 24 noyabr, s.1, s.3-4).

1970-ci illərdə Berlinə köçən N.Cahanşahlı "Biz və yadlar" adlı xatirə kitabını yazmış (... دکتر نصرت‌الله), gəncliyində sovet ideologiyasına aldandığını, keçmişdəki siyasi fəaliyyətindən peşman olduğunu demişdir (حامد حسینی؛ مجید یوسفی). O, Cənubi Azərbaycanın İrandan ayrılmasına qarşı olduğunu, İranın demokratikləşməsi halında ölkədəki milli problemlərin, ana dildə təhsil məsələsinin həll ediləcəyinə inandığını bildirmişdir (Cavadi. Seyid...).

## 2.3. "Azərbaycan" qəzetində İran mətbuatına münasibət

"Azərbaycan" qəzetində "Mətbuat xülasəsi", "Mətbuat nə yazır?" rublikaları altında dövrün İran və s. xarici mətbuatın xülasələri və ya ayrı-ayrı qəzetlərdən seçilmiş məqalələr nəşr edilir, təqdim edilən yazılar barədə qəzetin mövqeyi təqdim edilirdi. İran qəzetləri içində dövrün əsas müxalifət partiyası olan Tudə Partiyasının Tehranda nəşr olunan qəzetləri – "Rəhbər", "Mərdom ("Xalq"), "Razm" ("Savaş"), Tudə tərəfdarı İran Fəhlə və Zəhmətkeşləri Həmkarlar İttifaqının Birləşmiş Mərkəzi Şurasının "Zəfər" qəzeti əsas yer tuturdu. "Azərbaycan" qəzetində Tudə Partiyasının qəzetlərindən, o cümlədən, hakimiyyət yönümlü "Sitarə" ("Ulduz"), "Ettelaat" ("Xəbərlər"), "Əxtər-e şimal" ("Şimal ulduzu"), "Təbriz", "Fəryad" və digər qəzetlərdəki məqalələrdən nümunələr verilir, onların ortaya qoyduğu fikirlər müzakirə və ya tənqid edilirdi.

Hakimiyyət yönümlü qəzetlər əsasən şahpərəstliyi, şahın guya demokrat bir hökmdar olması fikrini təbliğ edir, ictimai-siyasi, sosial problemləri görməzdən gəlirdilər. Məsələn, Tehranda nəşr olunan "Ettelaat" qəzeti yazırdı ki, İran milləti öz şahını ürəkdən sevir (F. Mətbuat.., 1948, 31 iyul, s.1) və öz səadətini sevimli şahın itaətində görür. "Ettelaat" qəzeti "21 Azər" hərəkatının məğlubiyyətini şahın Azərbaycanı və İran xalqlarını fəlakətdən xilası kimi təqdim etmişdi. "Azərbaycan" qəzeti isə buna cavab olaraq yazırdı ki, şahın ordusu milli hakimiyyəti məhv edib Azərbay-

cana qan, aclıq, yoxsulluq və işsizlik gətirdi (Əhmədzadə, 1948, 6 noyabr, s.4). "Sitarə" qəzeti də Azərbaycan xalqının guya şahı sevdiyini yazır və bu sevgini "Azərbaycan xalqının şahpərəstliyi, İran xalqının şahpərəstlik dastanının bir nümunəsi" kimi təqdim edirdi. Qəzet göstərirdi ki, "Şahpərəstlik fəlsəfə üzərində qurulmuş riyazi bir formul kimi sabitdir" (Vilayəti, 1948, 17 mart, s.1). "Azərbaycan" qəzeti isə bu kimi fikirləri "cəfəngiyyat" (Əhmədzadə, 1948, 6 noyabr, s.4) və şahpərəstliyin quldarlıq dövrünün yadigarı olan bütpərəstlik olduğunu bildirir (Vilayi, 1948, 10 iyul, s.3). Qəzet göstərirdi ki, "Sitarə" kimi şahpərəst qəzetlərin puç və mənasız sözlərinə heç kim inanmır (Vilayəti, 1948, 17 mart, s.4) və şahla millət arasında heç vaxt səmimiyyət ola bilməz. "Azərbaycan" qəzeti yazırdı ki, şah öz xalqına inanmır və ondan qorxduğu üçün xaricilərin vasitəsilə ordunu silahlandırıb, xalqın haqlı etirazlarına həbslə, sürgünlə, güllə ilə cavab verir (F. Mətbuat.., 1948, 31 iyul, s.1). "Sitarə" qəzetinin guya şah hakimiyyətinin islahatçı olması barədə yazdıqları fikirlər, hökumətin guya islahatçı olması kimi sözlərinə xalq inanmırdı. "Azərbaycan" qəzeti isə islahat ümidi ilə yaşayanlara deyirdi ki, hökumətin təməli yanlışlıq üzrədir, xalqı aldadırlar, vəziyyət get-gedə pisləşir (Pəriş, 1948, 26 iyun, s.4). "Sitarə" qəzeti özü də İran taxılının xaricə satıldığını, hökumətin ac xalqı aldatdığını, etiraz edənlərin həbs edildiyini bəzən etiraf etməyə məcbur olurdu (İranda aclıq.., 1948, 12 may, s.1).

Hakimiyyət yönümlü "Təbriz" qəzeti "Ərzaq böhranı kəskinləşməkdədir" adlı baş məqaləsində ölkədəki ümumi təşvişi və iztirabı ifşa etməyə məcbur qalmışdı (İranda aclıq.., 1948, 12 may, s.1). Məqalədə göstərilirdi ki, Təbriz bazarı işsizlərlə və dilənçilərlə doludur. İş tapmaq mümkün olmaması səbəbilə azərbaycanlılar öz ailələrini tərk edərək, Tehrana, Əhvaza, Kirmana və başqa cənub şəhərlərinə gedirlər (İran mətbuatına.., 1948, 9 iyun, s.1). "Təbriz" qəzeti yerli və daxili sənayeni inkişaf etdirmək, daxili bazarı pozan ABŞ ilə ticarətdən imtina etmək haqqında

xalqın tələblərinə qulaq asmağı hökumətə tövsiyə etmiş, ABŞ-ı özünün vaxtı keçmiş və ya qüsurlu mallarını İrana satmaqda ittiham etmişdi (İran ruznaməsi.., 1948, 7 fevral, s.4). Təbrizdə nəşr edilən "Fəryad" qəzetinin yazdığına görə Cənubi Azərbaycanda vəziyyət İranın digər bölgələrindən daha ağır idi, burada taxıl və sair ərzaq şah məmurları tərəfindən toplanıb bir tərəfdən Tehrana, digər tərəfdən də qaçaq yollarla Türkiyəyə göndərilirdi (Said dövləti.., 1948, 8 dekabr, s.1). Təbrizdə çıxan "Əxtər-e şimal" qəzeti yazırdı ki, Azərbaycanın bir çox şəhərlərində çörəyin keyfiyyəti yaxşı deyil, qiyməti bahadır. Əhali ət və başqa yeyinti maddələriylə təmin olunmurlar (Iranda aclıq.., 1948, 12 may, s.1). Ölkədəki bu problemlərin səbəbini dövlət idarələrində, günahkarları cəzalandırmayan məmurlarda görən "Əxtər-e şimal" yazırdı ki, cinayətkarlıq edən varlı adamlara qanunların şamil edilməməsi İranda bir adət olmuşdur (Əxtər-e şimal.., 1948, 28 fevral, s.3). Bu kimi problemlərin məhz Milli Hökumətin məğlubiyyətindən sonra Cənubi Azərbaycanda daha geniş yayıldığını göstərən "Əxtər-e şimal" qəzeti misli görünməmiş dərəcəyə çatan rüşvətxorluq və ağır vergilərdən şikayət edir (Azərbaycanda polisin.., 1948, 13 mart, s.1) və göstərirdi ki, ölkədə işsizlik, kütləvi yoxsulluq və aclıq həddi aşıbdır (Əhmədzadə, 1948, 13 mart, s.3). Hətta Məhəmmədrza şah da etiraf etmişdi ki, Azərbaycanda ticarət durğundur. Bütün bu problemlərin həlli üçün "Əxtər-e şimal" yazırdı ki, Azərbaycan dərin islahata möhtacdır. Bütün xalq bu islahatı tələb edir (Azərbaycanda iqtisadi.., 1948, 7 aprel, s.1). İslahatın faydalı və sürətli olması üçün "Əxtər-e şimal" qəzeti vəzifələrə namuslu və layiq məmurların təyin edilməsini tələb edirdi. "Azərbaycan" qəzeti saxta islahat vədlərinin xalqı aldatmaq, baş qatmaq olduğunu bildirir və göstərirdi ki, şah hökuməti öz mürtəce mahiyyəti səbəbilə Azərbaycanda heç vaxt həqiqi islahat etməyəcək və edə də bilməz (Azərbaycanın vəziyyəti.., 1948, 27 oktyabr, s.1). "Azərbaycan" qəzeti "Fəryad" qəzetindən sitat gətirərək ölkədəki bu ağır vəziyyətə səssiz qalan İran parlamentini

"teatr" adlandırır və göstərirdi ki, məclis vəkilləri xalqa bədbəxtlik və fəlakət gətirməkdən başqa məmləkət və xalq üçün heç bir iş görmürlər (Məclis.., 1948, 30 oktyabr, s.1).

Hakimiyyət yönümlü qəzetlərdən fərqli olaraq Tudə Partiyasının orqanı olan "Rəhbər", "Mərdom", "Razm" və "Zəfər" qəzetləri xalqın problemlərini daha çox və daha ciddi işıqlandırırdı. Bu qəzetlər Rza şahın 1941-ci ildə İrandan sürgün edilməsindən sonra fəaliyyətə başlaya bilmişdi. Ölkədəki yaltaq və satqın mətbuatla müqayisədə onlar "ziddi-faşist", yəni faşizm və diktatura əleyhinə mübarizə aparan azsaylı qəzetlərə daxil idilər. Bu qəzetlərdə Pəhləvi hakimiyyətinin daxili və xarici siyasəti tənqid edilmiş, partiyanın mövqeyi təqdim edilmişdi. "Azərbaycan" qəzeti yazırdı ki, Tudə Partiyasının mərkəzi orqanı olan "Rəhbər", "Mərdom", "Razm" və "Zəfər" qəzetləri İran xalqlarının, xüsusən zəhmətkeş və kəndlilərin mübarizəyə hazırlanmasında böyük rol oynayır (Hizbi-Tudeyi-İran.., 1948, 13 oktyabr, s.4). Bundan qorxuya düşən irtica və imperialist tərəfdarları hər vasitə ilə bu qəzetlərin əleyhinə mübarizə aparırdı (Şəmidə, 1948, 24 aprel, s.4). S.C.Pişəvəri göstərirdi ki, "Rəhbər", "Zəfər" və s. demokratik istiqamətli qəzetlər Azərbaycandakı milli hərəkatın sütunlarıdır və onlara təşəkkür etməliyik (Firqəmizin bir illik bayramı.., 1325 (1946), 14 şəhrivər (5 sentyabr), s.2).

"Mərdom" qəzetinin redaktoru R.Radmaneş yazırdı ki, hökumət azad mətbuatı qadağan etmək, demokratik ünsürləri həbs və ya təqib etmək istəyir (Pəriş, 1948, 25 dekabr, s.3). İranda işçi hüquqlarının, ümumiyyətlə insan haqlarının pozulduğunu hər fürsətdə dilə gətirən R.Radmaneşin fikirləri "Kommunist" qəzetində də təbliğ edilirdi. O, İranın tərəqqipərvər ictimaiyyətini hökumət orqanlarının özbaşınalığına və İranın qanuni, konstitusiya azadlıqlarına qəsd edilməsinə qarşı qəti etiraz etməyə və mübarizə aparmağa çağırırdı (İran Xalq Partiyası.., 1948, 14 dekabr, s.3).

"Mərdom" qəzeti ölkədəki diktatura şəraitində rəsmi idarələrdə azad fikirli insanların siyahısının hazırlanması barədə yaz-

mış və göstərmişdi ki, hökumət orqanları demokratik düşüncəli şəxsləri müxtəlif fitnəkarlıq və yalan ittihamlar vasitəsilə kütləvi surətdə həbs etməyi qərara almışdır (Mərdom.., 1948, 7 aprel, s.3). "Mərdom" qəzeti yazırdı ki, Amerika da bu işdə İran hökumətinə kömək edir (Mərdom.., 1948, 10 aprel, s.4). "Mərdom" qəzeti ölkədəki işsizlik şəraitində amerikalıların dövlət idarələrində müşavir kimi yüksək vəzifələrə təyin edilməsini tənqid edir (İran ruznamələri.., 1948, 19 fevral, s.1) və ABŞ-ın bu müşavirlər vasitəsilə, həmçinin ordudakı amerikalı zabitlərin əli ilə İranı idarə etdiyini və Pəhləvilərin onlardan ölkədəki demokratik qüvvələri boğmaq üçün istifadə etdiyini göstərirdi.

"Mərdom" qəzeti hökumətin SSRİ ilə münasibətləri yaxşılaşdırmağa cəhd etmədiyini, əksinə ABŞ ilə həddindən çox yaxınlaşdığını qeyd edirdi. ABŞ isə pantürkizm siyasəti güdən Türkiyə vasitəsilə Azərbaycan torpaqlarını İrandan qoparmağa çalışırdı. "Mərdom" qəzeti yazırdı ki, ABŞ Azərbaycanın qərb hissəsini Türkiyəyə bağışlamaq istəyir (Mətbuat.., 1948, 24 iyul, s.1). "Razm" qəzeti yazırdı ki, Türkiyənin Təbrizdəki konsulluğu Azərbaycanda pantürkizm təbliğatı mərkəzinə çevrilmişdir. Konsulluq Azərbaycanın Türkiyə ilə birləşməsinə tərəfdar toplamaq üçün xüsusi idarə yaratmışdır (Vilayi, 1948, 20 oktyabr, s.3). Lakin Türkiyənin Cənubi Azərbaycana göstərdiyi diqqətin obyektiv səbəbləri də var idi. İran türklərinin milli-mədəni hüquqlarının pozulmasından narahat olan Türkiyənin "Cumhuriyet" qəzeti yazırdı ki, İran hökuməti orada yaşayan türklərə heç bir diqtət yetirmir və onların taleyinə biganədir. İranda hətta türkləri əzməkdən çəkinmirlər. Biz biganə qala bilmərik ki, türklər maarif sahəsində farslarla bərabər hüquqa malik deyil, onların dilləri və mədəniyyəti sıxışdırılır (Həsənli, 1998, s.63). Buna cavab olaraq "Azərbaycan" qəzeti türkiyəlilərin bu fikrini Osmanlı imperiyasının işğalçı pantürkizm siyasətinin nəticəsi sayır (Mətbuat.., 1948, 24 iyul, s.3) və kürd xalqına milli-mədəni hüquqlarını vermək istəməyən Türkiyə hökumətini tənqid edərək (21 Azərin 3-cü il-

dönümü münasibətilə təşkil olunmuş yığıncaqda.., 1948, 18 dekabr, s.4) yazırdı ki, öz evini idarə etməyə qadir olmayan Türkiyə mürtəcelərinin bu xam xəyalı külüncdür (Vilayi, 1948, 20 oktyabr, s.3). Hakimiyyətə məxsus İran mətbuatı isə ümumiyyətlə ölkədə milli problemlərin olduğunu inkar edir və göstərirdi ki, türk dili İran əhalisinin bir hissəsinin danışdığı dildir. Bu o demək deyil ki, onlar türkdür (Həsənli, 1998, s.63). Təbii ki, onların bu mövqeyi fars şovinizminin nümunəsi idi.

Cənubi Azərbaycandakı vəziyyətin dözülməz olduğunu göstərən "Mərdom" qəzeti yazırdı ki, işğalçılar, mürtəcelər Azərbaycanda qan tökməkdən doymamışlar. Azərbaycanın jandarmeriya və polis idarəsinin rəisi isə azərbaycanlıların dövlətə qarşı etirazını yatırmaq üçün 8 min nəfərin həbs edilməsini hökumətə təklif etmişdi (Azərbaycanda vəziyyət.., 1949, 12 yanvar, s.1). "Razm" qəzeti "21 Azər" hərəkatı məhbuslarının rəsmən əfv edilməsinə baxmayaraq, əslində onlara qarşı zülm və işgəncənin davam etdiyini göstərir və bildirirdi ki, Azərbaycanda hərbi idarələrin özbaşınalığı şiddətlənib. Sürgündən qayıdan azərbaycanlılar hərbi polis tərəfindən cüzi bəhanə ilə təzədən həbs edilirlər (Ümumi.., 1948, 16 oktyabr, s.1).

"Mərdom" qəzeti ölkədəki yaltaq və satqın mətbuatı ifşa edirdi. Hökumət yönümlü qəzetlərdə Məhəmmədrza şaha həsr edilmiş şeirlər "Mərdom" tərəfindən tənqid edilmişdi. "Mərdom" qəzeti yazırdı ki, bu şeirlərdə şah "Allahın kölgəsi", "ay parçası", "İran xəzinəsini qoruyan əjdəha" adlandırılır, dünya hökmdarlarının onun qarşısında təzim etdiyi göstərilir. "Mərdom" qəzetinə görə sarayın sifarişi ilə yazılan bu şeirlər nəinki xalqda şaha qarşı məhəbbət yaratmır, hətta onların abırsızlığını göstərir (Əlioğlu, 1949, 19 yanvar, s.1).

"Mərdom" qəzeti ölkədə ədliyyə sisteminin, məhkəmələrin öz funksiyalarını yerinə yetirmədiyini, bütün hakimiyyətin hərbi idarələrdə və polis rəislərində olduğunu göstərir və yazırdı ki, hazırda ədliyyə orqanlarını hərbi orqanlar əvəz edib. "Mər-

dom" qəzeti bildirirdi ki, hazırda hökumət qurumlarının görməsi gərəkən iş hərbi orqanların və polis rəislərinin ixtiyarındadır (İran mətbuatına.., 1948, 9 iyun, s.3). Hətta ölkəni xaricdə, BMT kimi qurumlarda təmsil edən diplomatların İran xalqının mənafeyini qorumadığı, xarici imperialistlərin maraqlarına xidmət etmələri "Mərdom" tərəfindən tənqid edilmişdi. "Azərbaycan" qəzeti "Mərdom"u dəstəkləyərək şahpərəst məmurları imperializmə qul, kölə olan "iradəsiz alət" adlandırmışdı (İranın xaricdəki.., 1949, 19 yanvar, s.1).

Azad mətbuatın fəaliyyəti, hökumətin xalqa zidd siyasətini ifşa etməsi Pəhləvi hakimiyyətinin narazılığına səbəb olmuşdu və "Azərbaycan" qəzeti İran mətbuatına istinadla yazırdı ki, hökumət terrorçu dəstələr hazırlayaraq "Mərdom" və digər azad mətbu orqanlarına qarşı terror həyata keçirməyi planlaşdırır (İranda terrorçu.., 1948, 18 sentyabr, s.4).

Son olaraq deyə bilərik ki, bu fəsildə "21 Azər" hərəkatı dövründə Təbrizdə və Milli Hökumətin süqutundan sonra Bakıda nəşr olunmuş ADF-nin orqanı "Azərbaycan" qəzeti və s. güney qəzetləri haqqında, S.C.Pişəvəri başda olmaqla qəzetin yazarları, təqdim etdikləri məqalələr barədə məlumat verildi. "Azərbaycan" qəzetində davamlı olaraq məqalələrlə çıxış edən C.Müciri, M.Vilayi, Ə.Şəmidə, Q.Kəndli və s. yazarların yazılarından nümunələr verilərək, "21 Azər" hərəkatı, azərbaycançılıq, milli-mənəvi dəyərlər, milli maarifçilik uğrunda şah rejiminə qarşı mübarizə, marksizm-leninizm, xalqlar dostluğu ideyalarının işıqlandırılması məsələləri göstərilmişdir. "Azərbaycan" qəzetində milli məsələlərin qabardılması müsbət hadisə olsa da, marksizm-leninizm, sovet ideyalarına mütləq bağlılıq, naqisliklərin göstərilməməsi, stalinizm repressiyalarının görməzlikdən gəlinməsi, Dağlıq Qarabağ ermənilərinə muxtariyyət verilməsinin hansı problemlərə yol açacağının "Azərbaycan" qəzetində göstərilməməsi tənqid edilmişdir. Həmçinin bu fəsildə "Azərbaycan" qəzetində təqdim edilmiş İran mətbuatından nümunələrə nəzər salınmış, solçu Tudə Partiya-

sının “Mərdom”, “Rəhbər” və s. qəzetləri ilə “Ettelaat”, “Sitarə” kimi şahpərəst mətbuatın fərqi ortaya qoyulmuşdur. Tədqiqatda şahpərəst mətbuatın ölkədəki ictimai-siyasi, iqtisadi problemləri görməzlikdən gələrək beynəlxalq imperializmin dəstəklədiyi şah rejiminə xidmət etdiyi, xalqı aldadaraq şaha mədhnamələr qoşduğu bildirilmişdir. O cümlədən, Tudə Partiyasının, partiyanın qəzetlərinin, ADF və “Azərbaycan” qəzetinin şah hökumətini və şahpərəst mətbuatı tənqid edərək xalqın problemlərini işıqlandırdığı, çıxış yolu axtardığı, xalqı şaha qarşı mübarizəyə səslədiyi göstərilmişdir.

# III FƏSİL
# "AZƏRBAYCAN" QƏZETİNDƏ AZƏRBAYCAN TARİXİNİN VƏ MƏDƏNİYYƏTİNİN ƏKSİ

## 3.1. Qədim və orta əsrlər dövründə Azərbaycan

**Qədim dövr.** "Azərbaycan" qəzetində Azərbaycanın qədim tarixinə və mədəniyyətinə geniş yer ayrılmışdır. Azərbaycanlıların türk olmadığını, türkdilli tayfaların orta əsrlərdə buraya gəldiklərini iddia edən ("Azərbaycan" qəzeti.., 2022, s.305) Ə.Kəsrəvi kimi bəzi farspərəst mütəfəkkirlərə cavab olaraq "Azərbaycan" qəzeti yazırdı ki, biz bu torpağın üç min il bundan əvvəlki əsl sahibləri olan qəhrəman midiyalı əcdadımızın həqiqi və əsil övladlarıyıq, sonradan gəlmə deyilik (Azəri, 1946, 29 mart, s.2). F.İbrahimi 1945-ci ildə Təbrizdə "Azərbaycan" qəzetində nəşr olunmuş "Azərbaycan danışır... İftixarlı tariximizdən bir neçə parlaq səhifə (Azərbaycanın qədim tarixindən)" başlıqlı silsilə məqalələrində "Madlar (midiyalılar-Ə.F.) bizim böyük əcdadlarımızdır"; "Mad ədəbiyyatı Azərbaycanın qədim dilində olmuşdur" deyir, azərbaycanlıların Midiya dilini unudub, tarix içində dil dəyişdirdiyini, dünyada öz qədim dilini tamamilə qoruyan bir millətin olmadığını göstərirdi (İbrahimi, 2018, s.28, 67).

Azərbaycanlıların Midiya mənşəli olub, sonradan orta əsrlərdə Orta Asiyadan gələn türklərin hücumları və bölgədə məskunlaşması nəticəsində türk dilinin azərbaycanlılar tərəfindən mənimsənilməsi fikri sovet dövrü tarixşünaslığında qəbul edilmiş bir düşüncə idi. "Azərbaycan" qəzeti bu sovet elmi ənənəsini davam etdirmişdi. Müstəqillik dövründə isə Azərbaycan türklərinin gəlmə deyil, yerli xalq olması elmi əsaslarla ortaya qoyulmuşdur.

VI əsrdə Sasani hökmdarı I Xosrov Ənuşirəvan dövründə İranın şimal ərazisində, Azərbaycanda çoxsaylı türklərin yaşadığı, I Xosrovun onlarla görüşməsi haqqında məlumatlar "Azərbaycan" qəzetində təqdim edilmişdir. X əsr ərəb müəllifi İbn Mis-

kəveyhin yazdığı "Təcaribül-üməm" ("Millətlərin təcrübələri") əsərinə əsaslanaraq "Azərbaycan" qəzeti I Xosrovun bu sözlərini nümunə göstərmişdi: "İranın şimal tərəfində yaşayan xalqlar bizə yazırdı ki, ev və məişət qismətindən çox sıxıntıda qalmışıq. Əgər bizə iqtisadi kömək olunmasa, məcbur olarıq sizinlə müharibə eləyib və zor ilə almağa. Bu cəhətdən mən məcbur oldum şəxsən Azərbaycana hərəkət edib və onları maaş və məskən cəhətdən razı salam". Azərbaycandakı bu türklərin Bizansla müttəfiq olub İrana zərər verməməsi üçün I Xosrovun onların iqtisadi problemlərini həll etməsi qəzetdə göstərilmişdi (Azərbaycan dili.., 1945, 21 noyabr, s.1-2.). Bizə belə gəlir ki, İbn Miskəveyhin haqqında danışdığı bu türklər Şimali Qafqazdan Azərbaycana və İranın digər bölgələrinə hücumlar təşkil edən, bu bölgələrdə məskunlaşan xəzər türkləri, savirlər və digərləri olmuşdur. S.Aşurbəyli köçəri türk tayfalarının III əsrdən etibarən Azərbaycana hücumları, burada yerləşmələri, Sasani hökmdarı I Xosrov Ənuşirəvanın İranı təhdid edən xəzər türklərini, savirləri məğlub etməsi, on minlərlə türkü Azərbaycanda məskunlaşdırdığını yazmışdır (Aşurbəyli, 2006, s.29, 77-80). "Azərbaycan" qəzetində türklərin erkən orta əsrlərdən burada məskunlaşdığı, lakin türk mənşəli Azərbaycan dilinin sonrakı əsrlərdə burada üstünlük qazanması göstərilir və qeyd olunur ki, XIII-XIV əsrlərdən etibarən Azərbaycan dili inkişaf etməyə başlayır. Bu dil İran və İraq və Anadolunun Şərq hissəsində yaşayıb türk dilində danışan tayfaların ədəbi dili olur (İbrahimzadə, 1948, 16 iyun, s.3).

"Azərbaycan" qəzeti XI əsr şairi Qətran Təbrizinin ana dilinin Azərbaycan dili olma ehtimalına üstünlük vermiş və onunla görüşmüş şair Nasir Xosrovun "Qətran fars dilini yaxşı bilmirdi" dediyini göstərərək yazırdı ki, Qətranın dili indiki dilimizdən başqa hansı dil ola bilərdi? Demək min il bundan qabaq Azərbaycan dilinin mövcud olmasını Nasir Xosrov yazır (Azəri, 1946, 6 may, s.1, 4). Qətran Təbrizinin danışdığı dilin İran və ya türk mənşəli olması haqqında müxtəlif fikirlər ortaya qoyulmuşdur.

“Azərbaycan” qəzetində islam öncəsi qədim Azərbaycan mədəniyyətinin, xüsusilə zərdüştiliyin, Midiya tarixinin tədqiqi və təbliği xüsusi yer tutub. Qəzetdə qeyd olunurdu ki, Midiya dövründən başlamış bu günə qədər Şərq aləminin siyasi, iqtisadi, ictimai və mədəni hadisələrində Azərbaycan millətinin böyük rolu olmuşdur. Zərdüşt mütərəqqi bir üsul ilə xalqı mədəniyyətə, tərəqqiyə doğru sövq etmişdir. Zərdüştün “yaxşı düşünmək, yaxşı danışmaq, yaxşı çalışmaq” şüarları midiyalıların Şərq mədəniyyətinə etdikləri böyük xidmətlərin nümunəsidir. Zərdüştin odu maddi həyata tətbiq etməsi, yazdığı qanunlar Şərq mədəniyyətində az rol oynamamışdır. Şərqi bütpərəstlik və barbarlıqdan nicat verən Zərdüştün qabaqcıl fəlsəfəsi olmuşdur (Müciri, 1948, 21 iyul, s.1). Qəzetdə Zərdüşt haqqında şeirlər təqdim edilib və Zərdüştün vətəninin Azərbaycan olduğu belə göstərilir:

“Yanır od içində odlar məskəni.

Zərdüştlər yetirən gözəl ölkəni” (Azəroğlu, 1947, 2 dekabr, s.3).

S.C.Pişəvəri Azərbaycanda qədim dinlərdən biri olan zərdüştiliyə xüsusi əhəmiyyət vermişdir. O, Zərdüştün Azərbaycanla əlaqəsinə xüsusi diqqət ayırmış və belə demişdir: “Zərdüştün böyük adını Azərbaycan namından ayrı salmağa heç bir müvərrix (tarixçi-Ə.F.) müvəffəq ola bilməmişdir” (Qızıl səhifələr.., s.9). F.İbrahimi də öz yazılarında zərdüştiliyin tarixi əhəmiyyətinə və xalqımızın mədəniyyətində oynadığı rola xüsusi yer ayıraraq yazırdı ki, Azərbaycan odlar ölkəsidir. Bu əziz torpağın hər bir qarışında babalarımızın unudulmaz yadigarı yatır. Onun keçmişdəki əzəmətli qalalarının qalıqları, müqəddəs atəşlərin əsərləri bizim böyük atalarımızın pak ruhunu və sarsılmaz imanını göstərir (Xoşginabi, 1948, 14 yanvar, s.3).

ADF hakimiyyəti dövründə verilən rəsmi bəyanatlarda midiyalılar azərbaycanlıların əcdadı kimi təqdim edilirdi (Qızıl səhifələr.., s.140). “Azərbaycan” qəzeti zərdüştiliyi və Azərbaycan xalqının tarixini Midiya ilə bağlayaraq qədim midiyalıların bəşər tarixinə verdiyi töhfələrlə fəxr etmiş, mənbələr əsasında bu

mövzuda yazılar təqdim etmişdi. Qəzet yunan tarixçisi Herodota əsasən yazırdı ki, bir çox millətlər assuriyalıların hakimiyyəti altında qalmışdır. Lakin birinci dəfə midiyalılar onlar əleyhinə mübarizəyə başlayaraq digər Şərq xalqlarına mübarizə yolunu göstərdilər. Qəzetdə Azərbaycan xalqı midiyalıların varisi kimi təqdim edilmişdir (Müciri, 1948, 21 iyul, s.1). "Azərbaycan" qəzeti yazırdı ki, "Azərbaycan Midiyadır, Midiya Azərbaycan!". Qəzetdə bəzi farsdilli qəzetlərin Azərbaycan adını ləğv edib guya fars dövləti olan Midiya adı ilə əvəz etmək arzusuna cavab olaraq göstərilirdi ki, Midiya Azərbaycanın qədim tarixi adıdır və bu ad bu gün Azərbaycanda yaşayan əhalinin ata-babaları yaşamış yurda məxsusdur (Azərbaycan Midiyadır.., 1948, 6 mart, s.1). Qəzetdə midiyalıların mədəniyyət olaraq farslardan üstün olduğu göstərilir və qeyd edilirdi ki, midiyalıların mədəniyyəti Babil mədəniyyətinə bərabər və fars mədəniyyətindən üstün idi. Uzun müddət farslar midiyalıların siyasi, iqtisadi və mənəvi hakimiyyətlərinin altında qalmışdılar (Azərbaycan xalqının.., 1948, 29 may, s.1). Qəzetdə farsların məhz xəyanət nəticəsində Midiyada hakimiyyəti ələ keçirdiyi, lakin midiyalıların uzun müddət işğala qarşı mübarizə apardığı qeyd edilmişdir. Qəzetdə təqdim edilən şeir nümunələrində azərbaycanlıların Midiya əsilli olması belə tərənnüm edilirdi: "Biz Midiya nəsliyik əzəl binadan" (Rastak, 1948, 29 dekabr, s.3).

Azərbaycanın eramızın ilk dövrlərində Sasani işğalına məruz qalması "Azərbaycan" qəzetində göstərilir. Sasanilərin zərdüştiliyin təsirində olduğu barədə qəzet yazırdı ki, Sasani işğalçıları Midiya mədəniyyətinin yaratdığı mütərəqqi zərdüştilikdən öz hakimiyyətlərini möhkəmlətmək üçün mürtəce bir alət kimi istifadə edərək xalqı boğmaqda və əsarətdə saxlamaqda bu dinə arxalanırdılar (Vilayi, 1948, 30 iyun, s.3). "Azərbaycan" qəzeti yazırdı ki, Sasanilər Azərbaycanı işğal etdiklərində hər yerdə Azərbaycan xalqının inadlı müqavimətinə rast gəldilər. Sasanilər Azərbaycanın bir çox hərbi və ticarət əhəmiyyəti olan yerlərinə farsları kö-

çürtdülər. Vergi yığan məmurlar öz mənfəətləri üçün şəhər əhalisini və kəndliləri istədikləri kimi soyurdular. Sasani hakimlərinin Azərbaycan zəhmətkeş kəndlilərinin üzərindəki təzyiqi xalqı onlara qarşı mübarizəyə qaldırdı (Vilayi, 1948, 30 iyun, s.3).

Sasanilərə qarşı ən böyük üsyanlardan biri bəzi qaynaqlara görə təbrizli olan (Has, 2004, s.523-524) Məzdək ibn Bamdadın başlatdığı üsyandır. "Azərbaycan" qəzeti V-VI əsrlərdə Sasani zülmünə qarşı olan Məzdək hərəkatına böyük önəm verir və yazırdı ki, Azərbaycan xalqı öz istiqlalı uğrunda mübarizə apardığı kimi Sasani işğalçılarına qarşı Məzdəkin başçılığı ilə böyük bir üsyan baş verdi. Bu siyasətin əleyhinə olaraq Məzdək hərəkatı başlandı. Məzdəkin ideyasına görə feodalların mülkiyyəti elin malı olmalıdır (Vilayi, 1948, 30 iyun, s.3). Həmçinin ona görə məhsul bütün əhali arasında bərabər bölünməli idi (Müciri, 1948, 21 iyul, s.1).

Məzdəkilər Muğan düzündə, cənub bölgəsində və Azərbaycanın başqa mahallarında xüsusilə çox idilər. Məzdək hərəkatı təkcə hərbi mübarizə olmayıb həm də müəyyən fəlsəfi nəzəriyyəyə malik idi. Məzdək bərabərlik tələb edərək bu vasitə ilə cəmiyyətdə istismarı aradan qaldırmağa çalışmışdı (Vilayi, 1948, 30 iyun, s.3). O, tək evliliyə tərəfdar olub, ancaq siniflər arasındakı məcburi evliliyi rədd etmişdi (Has, 2004, s.523-524).

Sasani şahı I Qubad bu hərəkatı öz düşmənlərinə qarşı çevirmək üçün özünü yalandan Məzdək tərəfdarı elan etmişdi. Öz hakimiyyətlərini təhlükədə görən İran feodalları silahlı dəstələr toplayaraq 497-ci ildə Qubadın əleyhinə qalxıb onı hakimiyyətdən qovmağa müvəffəq oldular, məzdəkiləri təqib edib qırmağa başladılar. Məzdəkilər hərəkatını amansızcasına yatırdan I Qubadın oğlu Ənuşirəvan oldu. O, məzdəkilərə qarşı hər yerdə misli görünməz surətdə divan tutdurdu və nəhayət Məzdəkin özünü 528-ci ildə tutub edam etdilər (Has, 2004, s.523-524). "Azərbaycan" qəzeti yazırdı ki, Sasani hökmdarı Ənuşirəvanın zalım siyasətinə baxmayaraq, onun "Adil" adlandırılması həqiqət yox,

bəlkə burjua və mürtəce tarixçilərin sinfi məfkurələri ilə əlaqədar olaraq yalan uydurmalarından ibarətdir. Məzdəkin mütərəqqi nəzəriyyəsi Sasani feodallarının sinfi mənafeyinə toxunduğuna görə onun böyük mənalı üsyanını "Məzdək namus əleyhinədir" deyə təhrif etdilər. Digər tərəfdən bu üsyanı yatırdan işğalçı fars feodallarının nəzəriyyəsini təmin edən Ənuşirəvan isə "Adil" bir şah kimi tərif olundu. Bu üsyanın rəhmsizcəsinə yatırılmasında tarix Ənuşirəvanın ən qəddar bir şah olduğunu göstərdi (Vilayi, 1948, 30 iyun, s.3).

Lakin məzdəkilər hərəkatı uzun zaman davam etdi. Məzdəkilik ideyası o zaman geniş xalq kütlələrinin arzularını ifadə etdiyi üçün o, öldürüldükdən sonra da bu ideyalar xalq içərisində gizli yaşadı. Məzdəkilik ideyası öz dövrünə görə qismən mütərəqqi bir təlim idi. Məzdəkilik təlimi öz mənası etibarilə Avropada olan xəyali sosialistlərin nəzəriyyəsinə uyğundur. Məzdəkin üsyanı zahirdə yatırılsa da, lakin batində yenə də davam etdi. Bu hərəkatın izləri sonralar Babək hərəkatında (Vilayi, 1948, 30 iyun, s.3), Şərq aləmində baş verən başqa üsyanlarda davam etdi (Müciri, 1948, 21 iyul, s.1).

Deyə bilərik ki, "Azərbaycan" qəzetində islam öncəsi tarix və mədəniyyətimizin tədqiqi və təbliği güneyli soydaşlarımızın savadlanması, öz soykökünü və tarixi mədəniyyətini öyrənə bilmələri üçün böyük imkanlar yaratdı. Bu baxımdan "Azərbaycan" qəzeti milli mədəniyyətimizin cənublu soydaşlarımız tərəfindən də öyrənilməsi cəhətdən mühüm rol oynayır və daim tədqiq, təbliğ edilməlidir.

**Orta əsrlər dövrü.** "Azərbaycan" qəzetində ərəb – Azərbaycan əlaqələrinə, orta əsrlər mədəniyyətimizə geniş yer ayrılmışdır. Azərbaycan orta əsrlərdə dünya mədəniyyətinin xəzinəsinə dəyərli şəxslər və əsərlər təqdim etmişdir. Şəms Təbrizi, Seyid Yəhya Şirvani kimi sufilər, Nemətullah Naxçıvani kimi təfsirçilər, Bəhmənyar kimi filosoflar islam mədəniyyətinə öz töhfələrini verdilər. Orta əsrlərdə Azərbaycanın məşhur müsəlman

mütəfəkkirlərinə Xətib Təbrizini, Bəhmənyarı, Xaqani Şirvanini, Nizami Gəncəvini, Məhəmməd Füzulini, Şah İsmayıl Xətaini və digərlərini nümunə vermək olar.

Azərbaycanda islam dininin yayılmağa başlaması VII-VIII əsrlərdə ərəb fəthləri ilə bağlıdır. Öncə 651-ci ildə Sasanilərin süqutundan sonra Adurbadagan, daha sonra 681-ci ildə Cavanşirin qətlindən sonra 705-ci ildə Albaniya zəbt edildi. VIII əsrin əvvəlində Azərbaycan tamamililə ərəb xilafətinə tabe edildi. Burada islamlaşma prosesi başladı. Xristianlar, yəhudilər, atəşpərəstlər əhli-kitab sayılıb cizyə vergisi verməli idilər. İslamı seçən yerli əhaliyə vergi güzəştləri edildi, dövlət vəzifələrinə təyin haqqı qazandılar. VIII əsrdə ərəb xilafətinə qarşı Babəkin rəhbərliyində güclü Xürrəmilər üsyanı olsa da, ərəblər Azərbaycanda möhkəmlənə bildilər. Tədricən Azərbaycan islam dünyasında öz yerini aldı.

VII əsrdən başlayan ərəb fəthləri islam mədəniyyəti ilə yanaşı ərəb dilinin də Azərbaycanda yayılmasına səbəb oldu. Ərəb dili islamın müqəddəs kitabı olan Quranın dili olduğu üçün bütün islam xilafətində elm və təhsil dili olmuşdu. Azərbaycan dili də ərəb dili ilə qaynayıb-qarışmış, dilimizə bir çox ərəb mənşəli sözlər daxil olmuşdur. “Azərbaycan” qəzeti bu mövzunu işıqlandıraraq yazırdı ki, ərəblər Azərbaycanı və İranı zəbt etdikdən sonra bəzi ərəb sözləri Azərbaycan və fars dilinə qarışdı (İran hakim təbəqəsi.., 1948, 22 sentyabr, s.4).

“Azərbaycan” qəzetində ərəblərin və daha sonralar osmanlıların hücumlarını, xalqımızın onlara qarşı mübarizəsini əks etdirən şeirlər təqdim edilmişdir:

“Ərəb orduları, türk paşaları
Çox hücum eyləyib bu yurda sarı
Sınıb qol-qanadı qayıdıb dalı
Məhv edib sultanlar ana yurdumuz” (Natəvani, 1948, 30 oktyabr, s.3).

“Azərbaycan” qəzetində ərəb işğalları dövründə istilaçıların

islamı zorla yaydıqları və yerli xalqların dilini dəyişdirməyə çalışdıqları göstərilir və qeyd olunurdu ki, ərəblər iki mühüm qüvvə ilə - ordu və islam dini ilə gəldilər. Yerli xalqları islam dini altında birləşdirib, öz ərəb dillərini islam dini ilə birlikdə qəbul etdirirdilər. Ərəb dili din dilidir deyə, yerli əhalini bu dildə danışmağa məcbur edirdilər. Bununla belə yerli xalqlar məhv olmadı, əsarət altına düşmədi və öz dillərini itirmədilər. Məqalənin müəllifi "varlığı müəyyən edilmiş bir milləti zor gücüylə aradan aparmaq olmaz" (Azərbaycan Midiyadır.., 1948, 6 mart, s.1) deyərək, Pəhləvi hakimiyyətini ərəb işğalçılarının aqibətindən dərs çıxarmağa çağırırdı. S.C.Pişəvəri isə iranlılıqla farslığı eyniləşdirənləri, bütün İran vətəndaşlarını fars sayanları cahil adlandırır, fars şovinizminə qarşı mübarizəni ölüm-dirim məsələsi sayırdı (Azərbaycan Demokrat Firqəsinin sədri.., 1946, 18 iyun, s.1).

"Azərbaycan" qəzetində ərəb işğalçılarına qarşı xürrəmilər üsyanının rəhbəri Babək və onun mübarizəsi təbliğ edilirdi. Qəzet yazırdı ki, IX əsrdə Babəkin rəhbərlik etdiyi xürrəmilərin mücadiləsi ərəb istilaçılarının bünövrəsini laxladaraq Şərqdə yaşayan digər millətlərə öz istiqlalı uğrunda mübarizə etməyə zəmin yaratdı (Müciri, 1948, 21 iyul, s.1). Pəhləvi zülmünə qarşı xalqı mübarizəyə səsləyən qəzetdə təqdim edilən şeirlərdə Azərbaycan "Babəklər yaradan böyük bir diyar" kimi vəsf edilir, "And olsun Babəkin məzar daşına" deyilərək düşmənlə mücadilənin davam edəcəyi vurğulanırdı (Azəroğlu, 1947, 2 dekabr, s.3). Qəzetdə təqdim olunan şeirlərdə Pəhləvilərin Azərbaycana hücumu ərəb işğalları ilə müqayisə olunur və belə deyilirdi:

"Düşmən tülkü kimi qaçacaq yenə.

Necə ki, bir zaman qaçdı ərəblər" (Azəroğlu, 1948, 28 fevral, s.3).

"Azərbaycan" qəzetində Qətran Təbrizi, Bəhmənyar, Xətib Təbrizi haqqında qiymətli məlumatlar vardır. Qəzet yazırdı ki, Qətran Təbrizi bu şəhərdə Təbrizdə yetişmiş və öz məşhur lüğət kitabını burada yazmışdır. "Azərbaycan" qəzeti İbn Sinanın

tələbəsi olmuş XI əsr Azərbaycan filosofu Bəhmənyar haqqında məlumat verərək yazırdı ki, Təbriz böyük filosofumuz Bəhmənyarı öz ana qucağında böyüdərək ona təhsil verdi. Ərəbdilli Azərbaycan ədəbiyyatşünasları və şairləri içində XI-XII əsrlərdə yaşamış Xətib Təbrizinin mühüm rolu var. "Azərbaycan" qəzeti öz səhifələrində ona xüsusi yer ayırmışdır. Qəzet yazırdı ki, Təbriz Xətib Təbrizinin vətəni olmuş, onun adıyla iftixar etmişdir. Çünki Nizamiyyə mədrəsəsindən məzun olmuş bir çox alim Xətib Təbrizinin şagirdi olmuşdur (Müciri, 1948, 10 iyul, s.1).

"Azərbaycan" qəzetində Xaqani Şirvaniyə xüsusi diqqət ayrılıb. Qəzet yazırdı ki, Təbriz şəhəri Xaqani kimi böyük şairimizi qiymətli cövhər kimi öz sinəsində yadigar saxlamışdır (Müciri, 1948, 10 iyul, s.1). Çox təəssüf ki, Pəhləvi hakimiyyəti Tehrandakı Xaqani Şirvani adına olan xiyabanın adını dəyişdirmiş, ingilis şərqşünası Eduard Braunun adını vermişdi. "Kommunist" qəzeti Pəhləvilərin Azərbaycan adlarını dəyişdirməsini tənqid edir və bu münasibətlə yazırdı ki, yəqin Xaqani Şirvanidənsə ingilis E.Braun tehranlılara daha yaxındır (Xaqani.., 1945, 5 yanvar, s.3).

"Azərbaycan" qəzetində Nizami yaradıcılığı təbliğ edilirdi. Qəzetdə Azərbaycan yazıçısı, akademik M.İbrahimovun Nizami haqqındakı bu sözlərinə yer verilir: "Leyli və Məcnun" şerimizdə elə bir günəşdir ki, ondan sonra gələn bütün dərin mənalı, dolğun olan ruhun əbədi çırpınışları və mühitin sonsız təlaşlarının yüksək fəlsəfi ifadəsini verən müxtəlif qəzəllər, qəsidələr, ancaq günəşdən qopmuş ulduzlar kimi onın ətrafına hərlənmiş, həmişə onun mərkəzi cazibə qüvvəsiylə hərəkət etmişlər" (Məmmədzadə, 1948, 14 avqust, s.4).

"Azərbaycan" qəzetində Nizaminin "Leyli və Məcnun" əsərinin Səməd Vurğun tərəfindən ana dilimizə tərcümə edilməsi böyük milli-mədəni hadisə kimi təqdim edilir və göstərilir ki, Azərbaycan millətinin böyük iftixarı olan Nizami Gəncəvinin əsərləri bu gün də öz məna genişliyi və incəliyi ilə xalqımızın dilində yaşayır və dilimizin ədəbi zinətlərini daha da zənginləşdirir. 800

illik fasiləyə baxmayaraq bu gün Nizaminin "Leyli və Məcnun" əsəri ana dilimizdə elə tərcümə olunub ki, sanki Nizami özü öz ana dilində bu əsəri yazmışdır (Məmmədzadə, 1948, 14 avqust, s.4). Nizaminin "Leyli və Məcnun" əsərini türkcə yazmaq istəməsi, lakin şirvanşahın tələbilə onu fars dilində yazması "Azərbaycan" qəzetində xüsusi vurğulanmışdır. Nizaminin türkcə yazmaq istəməsini şərh edən "Azərbaycan" qəzeti göstərirdi ki, bu dəlil azərbaycanlıların səlcuqlardan və ya monqol işğalından sonra türkləşdiyini iddia edən fars şovinistlərinə ən böyük cavabdır ("Azərbaycan" qəzeti.., 2022, s.187, 305, 562).

"Azərbaycan" qəzetində Nizamiyə həsr olunmuş bir sıra məqalələr var. S.Fazilin "Nizami və onun yaradıcılığının təsiri" adlı məqaləsində göstərilirdi ki, dünya ədəbiyyatının məşhur şairləri sırasına daxil olmuş böyük Azərbaycan mütəfəkkiri və dahi şairi Nizami Gəncəvi özünin ən qiymətli və ölməz dastanları ilə Şərq ədəbiyyatına böyük təsir bağışlamış və onu zənginləşdirmişdir. Lirik dastanların banisi Nizamidir. Nizaminin ədəbi irsini mənimsəyən şairlər onun dastanlarının təsiri altında ayrı-ayrı lirik dastanlar və xəmsələr yazmışlar. Bu şairlərdən hər biri yaratdığı əsərində Nizaminin yüksək dühası və mahir ustadlığı qarşısında heyran qaldıqlarını xüsusilə qeyd edirlər (Fazil, 1948, 31 iyul, s.3). "Azərbaycan" qəzeti yazırdı ki, XII əsrdə Azərbaycanın mədəniyyət və ədəbiyyat aləmindən Nizami Gəncəvi kimi cahanşümul şairin, parlaq günəş tək zühura çıxması və onun insanpərvərlik fəlsəfəsi, Şərq mədəniyyət və ədəbiyyatında böyük təsir yaratdı (Müciri, 1948, 21 iyul, s.1). Qəzetdə Nizami heyranlarına nümunə olaraq Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Həkim Sənai, Əlişir Nəvai, Örfi Şirazi və digərləri nümunə göstərilmişdir. Nizami haqqında Hafiz, Sədi və başqalarının sözləri vardır. Şeyx Nizamiyə pərəstiş edən və onu "Nəqqaşi güli-İrəm" ("Cənnət bağlarının nəqqaşı"-Ə.F.) adlandıran Əbdi Şirazi belə yazmışdı:

“Ruhi-Nizami mənə eylər kömək,
Feyz bağışlar, boşa getməz əmək”.

O, Sultan Təhmasibə yazdığı şerində “Nizami kimi” şair olmasını arzu edirdi (Fazil, 1948, 31 iyul, s.3).

“Azərbaycan” qəzetində göstərilir ki, XIX əsrdə qarabağlı şair Məmai bəy Gəncəyə səyahəti zamanı böyük Nizaminin dağılmış qəbrini ziyarət etmiş və öz təəssüratını şeirlə belə bildirmişdir:

“Dəydi gözümə xarab kənd
Görəcək onu könlüm oldu paybənd (əsir-Ə.F.)
Sordum ki, kimindir ol məqamı
Faytonçu dedi ki: Şeyx Nizami.
Qan oldu könül bunı eşitcək
Düşdüm yerə ol yerə yetişcək.
Toprağa düşüb öpüb o xakı (torpaq-Ə.F.)
Təvaf eylədim ol məqami-pakı” (Fazil, 1948, 31 iyul, s.3).

Azərbaycan şairi Seyid Əzim Şirvani də Nizaminin dağılmış məzarını yad edərək öz acı təəssüratını şeirlə belə ifadə etmişdir:

“Ey Şeyx Nizami, ey nızamı dağılan
Ey Gəncədə izzü ehtişamı dağılan
Olmayıbdı sən ilə mən kimi aləmdə
Beyti, evi, məktəbi, kəlamı dağılan” (Fazil, 1948, 31 iyul, s.3).

“Azərbaycan” qəzeti yazırdı ki, çar hökuməti zamanı Şimali Azərbaycanda Nizami və onun kimi digər böyük Azərbaycan şairləri unudulmuş idi. Çar dövründə böyük şairin qəbri nəzərdən salınmış və unudulmuş idi (Fazil, 1948, 31 iyul, s.3).

XIII əsrdə monqol işğalları Azərbaycana böyük zərbələr vurdu. Buna baxmayaraq bu dövrdə görkəmli sufi şair Mövlana Ruminin mürşidi Şəms Təbrizi kimi böyük bir sufi ortaya çıxdı. “Azərbaycan” qəzeti yazırdı ki, Cəlaləddin Ruminin ustadı olan Şəms Təbrizi Təbriz şəhərinin başını ucaltmışdır (Müciri, 1948, 10 iyul, s.1). Qəzetdə həmçinin XIV əsr Azərbaycan

şairi və hökmdarı Qazi Bürhanəddin haqqında məlumat verilmişdir (İbrahimzadə, 1948, 16 iyun, s.3).

Azərbaycanda monqol işğalından sonra bəzi feodal dövlətlər, Qaraqoyunlular, Ağqoyunlular və s. dövlətlər yaradılmışdı. "Azərbaycan" qəzetində Qaraqoyunlular dövrünün Azərbaycan mədəniyyəti xüsusi araşdırılıb, bu mövzuda C.İbrahimzadənin "Qaraqoyunlu sülaləsi hakimiyyəti dövründə Azərbaycan mədəniyyəti" adlı məqaləsi yer alıb. Müəllif yazırdı ki, xalqımızın dövlət həyatının diqqətəlayiq və parlaq səhifələrindən birini təşkil edən Qaraqoyunlu dövlətinin hakimiyyəti dövründə Azərbaycanda mədəniyyət xeyli inkişaf etdi. Tarixçilərin verdigi məlumata görə XIII-XIV əsrlərdən etibarən Azərbaycan dili ədəbi dil kimi inkişaf etməyə başlayır (İbrahimzadə, 1948, 16 iyun, s.3).

"Azərbaycan" qəzetində Qaraqoyunlular dövrünün Azərbaycan şairləri haqqında məlumat verilir və göstərilirdi ki, onlar öz ana dillərində əsərlər yaradırdılar, bu əsərlər sarayda böyük həvəslə dinlənilirdi. Qəzetdə şair Həbibi, musiqişünas Əbdülqədir Marağayi, Mahmud Şəbüstəri və digərləri haqqında məlumat verilib. Qəzetdə XIII-XIV əsrlərin görkəmli Azərbaycan sufisi M.Şəbüstərinin fars dilində yazdığı "Gülşəni-Raz" əsərinin XV əsrdə Azərbaycan dilinə tərcümə və şərh edildiyi göstərilir (İbrahimzadə, 1948, 16 iyun, s.3). Həmçinin qeyd edilir ki, məşhur alimlər, filosoflar, şairlər Mahmud Şəbüstərini görmək üçün Təbrizə gəlib ondan öyrənirdilər (Müciri, 1948, 10 iyul, s.1).

"Azərbaycan" qəzeti yazırdı ki, Qaraqoyunluların hakimiyyəti dövründə Azərbaycanda musiqişünaslıq elmi böyük addımlarla inkişaf etdi. Tarixçi Xandəmir XV əsr Azərbaycanın böyük musiqişünası Əbdülqadir Marağayi haqqında yazırdı ki, o, musiqi elmində Davud kimi idi, zəmanənin musiqişünaslarından heç kəs ona bərabər deyildi (İbrahimzadə, 1948, 16 iyun, s.3). Ə.Marağayi özünün "Cameül-əlhan" ("Nəğmələr toplusu"), "Kənzül-əlhan" ("Nəğmələr xəzinəsi"), "Məqasidül-əlhan" ("Nəğmələrin məqsədi"), "Zübdətül-ədvar" ("Seçilmiş məqamlar")

kimi musiqi nəzəriyyəsi mövzusunda qiymətli əsərləri ilə nəinki Azərbaycanda, eyni zamanda bütün Şərq ölkələrində böyük şöhrət qazanmışdır. Cəlayirli Sultan Əhməd onun haqqında demişdi ki, zəmanənin filosofu Əbdülqadirin vəziyyətin şərh etməkdən acizəm. Mən ki, Əbdülqadiri zəmanənin filosofu və əsrin alimi hesab edirəm, bu onın tərifinin mində biridir. Təbrizli mütəfəkkir M.Tərbiyət Ə.Marağayi haqqında "o, dövrün ən tanınmış musiqişünas və şairlərindəndir" (İbrahimzadə, 1948, 16 iyun, s.3) demişdir. Ə.Marağayi eyni zamanda böyük bir şair kimi tanınmışdır. Onun Azərbaycan və fars dillərində gözəl şeirləri vardır.

Qaraqoyunluların hakimiyyəti dövründə Azərbaycanda xəttatlıq sənətinin inkişafı diqqəti cəlb edir. XV əsrin məşhur Azərbaycan xəttatlarından Cəfər Təbrizi, Səadəddin Təbrizi və daha bir çoxları mahir incə əl sənətləri ilə şöhrət qazanmışdılar. M.Tərbiyət Xəttat Cəfər Təbrizini nəzərdə tutaraq yazırdı ki, Herat abidə və imarətlərinin üzərindəki kitabələrin çoxu onun qələminin əsəridir (İbrahimzadə, 1948, 16 iyun, s.3). Qəzetdə Cahanşah dövrünün memarlıq incisi olan Göy Məscid nümunəsində Sivasda tikilmiş Yaşıl Məscid haqqında məlumat verilir və göstərilir ki, onun baş qapısında yazılmış olan "Əməli-ustadani-Təbriz" ("Təbriz ustalarının əməli"-Ə.F.) cümləsi Təbriz şəhər mədəniyyətinin Anadoludakı təsirini göstərir. Bu gözəl şəhər bir zamanlar nəqqaşlıq və miniatürçülüyün mərkəzi olaraq Seyid Əhməd Təbrizi, Mir Müsəvvər kimi nəqqaşlar, rəssamlar yetirib Şərq dünyasının incəsənət xəzinəsinə təqdim etməklə iftixar etmişdir. Qəzetdə həmçinin Təbriz xalçalarının Hindistanda məşhur olduğu və satıldığı göstərilir (Müciri, 1948, 10 iyul, s.1, 3).

"Azərbaycan" qəzetində XV əsrin görkəmli ədib və xəttatları – "Şirin qələm" ləqəbli Şəmsəddin Mahmud Təbrizi, Məhəmmədhüseyn Təbrizi, ictimai və dəqiq elmlər üzrə alim Mirzə Nəsrullah Xoylu, təbrizli ədib və səyyah Şahhüseyn Vəli, Şərəfəddin Rami Təbrizi haqqında da məlumat verilib. Şərəfəddin Rami Təbrizi şeir sənətində mahir idi və "Ənisül-üşşaq" ("Aşiqlərin

dostu") adlı əsər yazmışdır (İbrahimzadə, 1948, 16 iyun, s.3).

"Azərbaycan" qəzetində orta əsrlər tariximizdə böyük rol oynamış Səfəvilər dövlətinə geniş yer verilmişdir. M.Vilayinin "Şah İsmayıl Xətai. Dövlət quruluşu və dil" adlı məqaləsi bu baxımdan maraqlıdır. O, göstərirdi ki, Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətai xalqımızın yetişdirdiyi böyük dövlət xadimi və ədəbi simalardan biridir. Məşhur Səfiəddin İshaqinin nəslindən olduğu üçün tarixdə ona Səfəvi deyilir. Azərbaycanda şöhrət tapmış Səfəvi nəslinə əhali hörmət bəslədiyindən bütün xalq, Səfəvi müridləri Şah İsmayılı özlərinə rəhbər sayırdılar (Vilayi, 1948, 9 iyun, s.3). Qəzetdə Şah İsmayılın ölkədə feodal dağınıqlığına son qoyduğu və vahid bir dövlət yaratmaq siyasəti təqdir edilir və göstərilirdi ki, Səfəvi dövləti dağınıq feodal dövlətləri böyük bir dövlətdə birləşdirdi. O, bununla da Azərbaycan dövlətinin yaradılmasının əsasını qoydu (Vilayi, 1948, 9 iyun, s.3).

"Azərbaycan" qəzetində Xətainin Azərbaycan dilini dövlət dili elan etməsi və milli mədəniyyətimizi himayə etməsi vurğulanır və göstərilirdi ki, Şah İsmayıl Xətainin qurduğu dövlətinin əsas ərazisi Azərbaycan torpaqları olub hakimiyyət başında Azərbaycan zadəganları, rəsmi saray və dövlət dili isə Azərbaycan dili idi. Səfəvi dövlətində ticarət, elm, sənət və mədəniyyətin inkişafında Şah ismayıl Xətainin rolu böyük olub və zamanımıza qədər öz təsirini qoruyub. Şah İsmayıl Azərbaycanın ən görkəmli ziyalılarını, yazıçılarını, alimlərini və qələm sahiblərini öz sarayında toplayaraq Azərbaycanın mərkəzi olan Təbriz şəhərini elm, ədəb və mədəniyyət mərkəzinə çevirdi. Ona görə xalqımız Şah İsmayılı sevir, onu bir sərkərdə, şair və böyük dövlət xadimi kimi tanıyır (Vilayi, 1948, 9 iyun, s.3). Qəzetdə Xətai irsi təbliğ edilsə də, onun bir hökmdar kimi dini və məzhəbçilik siyasəti xüsusi araşdırılmamış, tənqid və ya tərif edilməmişdir.

"Azərbaycan" qəzetində Osmanlı – Səfəvi müharibələri mövzusu da təqdim edilib. Qəzetdə Osmanlı dövlətinin Səfəvilərə qarşı hücumu pislənmiş və göstərilmişdi ki, Səfəvi

dövlətinin Yaxın Şərqdə ən böyük rəqibi Osmanlı sultanı idi. Osmanlılar möhkəmlənməkdə olan Səfəvi dövlətinin gələcək nüfuzundan qorxaraq, Azərbaycan torpaqlarına hücuma keçdilər. Məşhur Çaldıran müharibəsində Şah İsmayıl şəxsən böyük qəhrəmanlıq və rəşadət göstərdi. Məqalədə Osmanlı ordusunun müvəqqəti olaraq Təbrizi işğal etsə də, qızılbaş ordusunun Azərbaycanın və İranın istiqlalını qoruya bildiyi göstərilib (Vilayi, 1948, 9 iyun, s.3). Milli Hökumət məhz Səfəvi qızılbaşlarının şərəfinə öz hərbi qüvvələrini "Qızılbaş xalq qoşunu" adlandırmışdı ("21 Azər – 70".., 2015, s.75).

"Azərbaycan" qəzeti Pəhləvi hakimiyyətinin milli abidələrimizə düşmənçiliyini, Səfəvi irsinə olan biganəliyini tənqid etmişdi. Qəzet Çaldıran müharibəsinin qızılbaş şəhidlərinin məzarı olan "şəhidgah"ı – ziyarətgahı dağıdan Pəhləvi hökumətini qınayaraq yazırdı ki, abidə ilk dəfə Rza xanın düşmənçiliyinə məruz qaldı. Azərbaycan millətinin barışmaz düşməni olan Rza xan bütün ziyarətgahı sökdürüb onun sərvətini, qiymətli əşyalarını qarət etdi. Buna baxmayaraq bütün azərbaycanlılar bu ziyarətgaha tarixi iftixara malik olan milli abidə kimi baxırdılar. Hətta Rza xan dövründə ziyarətgahın dağıdılması azərbaycanlıların böyük narazılığına və etirazına səbəb oldu. Lakin Rza xan etiraz edənlərə sürgün və zindanla cavab verdi. Atasının yolunu davam etdirən Məhəmmədrza şah bu milli abidəmizi tam məhv etməklə millətimizin dərin nifrət və qəzəb hissini qazanmışdır (Müciri, 1949, 22 yanvar, s.4).

Qəzetdə Xətai irsinin Şərqə böyük təsir göstərdiyi qeyd edilir və göstərilirdi ki, XVI əsrdə Şah İsmayıl Səfəvi kimi böyük dövlət başçımız Şərq, hətta bəşəriyyət aləminin ictimai, siyasi inkişafına unudulmaz xidmətlər etdi. Şah İsmayıl dövlət başçısı olmaqla bərabər eyni zamanda böyük adlı-sanlı şair və təriqət başçısı idi. Onun qızılbaş hərəkatı Azərbaycan çərçivəsindən kənara çıxaraq bütün Yaxın Şərqdə, İranda, İraqda, Anadoluda minlərcə tərəfdar qazanmışdır (Müciri, 1948, 21 iyul, s.4).

Qəzetdə Xətai dövrünün ehtişamının yenidən qayıdacağı ümidi belə göstərilmişdir:

"Böyük Xətainin ana torpağı,
Yenə dönəcəkdir bir gülüstana" (Sürürі, 1948, 6 mart, s.3).

"Azərbaycan" qəzetində Səfəvilər dövrünün görkəmli saray rəssamı Kəmaləddin Behzada xüsusi yer verilib. Qəzetdə qeyd olunurdu ki, XVI əsrdə yaşayan rəssamımız Behzad bütün Yaxın Şərq rəssamlığına böyük töhfələr vermişdir (Müciri, 1948, 21 iyul, s.4). Behzad yaradıcılığına böyük dəyər verən Milli Hökumət Təbrizdə Behzad adına İncəsənət Muzeyi yaratmışdı. Qəzet yazırdı ki, rəsm sənəti, ancaq Milli Hökumət dövründə Azərbaycanda inkişaf etdi. Təbrizdə K.Behzad adına açılmış muzeydə işləyən rəssamlar qiymətli əsərlər yaradırdılar. Gülüstan bağı yanında Behzad muzeyi üçün yeni böyük bina tikilməsi nəzərə alınmışdı. Lakin İran irticası Azərbaycanda Milli Hökumətin digər gözəl təşəbbüsləri kimi, rəsm sənətinin də inkişafına mane oldu (Fərpur, 1948, 31 mart, s.4).

Dahi Azərbaycan şairi M.Füzulinin yaradıcılığı və onun Şərq dünyasına təsiri "Azərbaycan" qəzetində mədh edilmişdir. Qəzet yazırdı ki, XIV əsrdə Füzulinin ərəb dilində yazdığı şeirlər ərəb ədəbiyyatına böyük xidmətlər etmişdir (Müciri, 1948, 21 iyul, s.4). O cümlədən, göstərilirdi ki, XIX əsrin əsrin məşhur şairlərindən İsmayıl bəy Nakamın "Hədisi-Lətif" adlı bir əsəri vardır ki, Füzulinin "Leyli və Məcnun" dastanı şəklində yazılmışdır (Nadir xətti.., 1948, 14 fevral, s.3). "Azərbaycan" qəzeti Füzuli kimi şairlər yetişdirən bir xalqın ölməz olduğunu bildirir və milli dilimizi yox etmək istəyən Pəhləvi hakimiyyətini tənqid edərək göstərirdi ki, bu mürtəcelər bir həqiqəti başa düşmürlər ki, bütün Yaxın Şərqdə məşhur olan ölməz şair Füzulinin əsərinə ilham verən xalqın dilini məhv etmək olmaz (Dünya mədəniyyət, 1948, 25 sentyabr, s.1).

"Azərbaycan" qəzetində XVII əsrin böyük Azərbaycan şa-

iri Saib Təbrizinin yaradıcılığı mədh edilmiş, əsərlərindən nümunələr verilmişdir. Qəzet yazırdı ki, Saib Təbrizi öz doğma vətəninin adıyla iftixar etmişdir. O, "Təbrizin pak torpağındandır" (Müciri, 1948, 10 iyul, s.3).

"Azərbaycan" qəzeti Səfəvilər dövlətinin XVIII əsrin sonunda öz milli xüsusiyyətini itirməsini təəssüflə qeyd edir və göstərir ki, XVIII əsrin axırıncı rübündə Azərbaycan Səfəvi dövləti pozularaq yeni İran dövlətinə çevrildi. Azərbaycan İranın təsiri altına düşdü və beləliklə Azərbaycan xalqı iki tərəfli istismar edilməyə başlandı (Kəndli, 1948, 18 avqust, s.4).

Səfəvilər dövlətinin süqutu Nadir şah Əfşarın qurduğu yeni bir dövlətin qurulması ilə nəticələndi. "Azərbaycan" qəzeti Nadir şah Əfşarın əslən azərbaycanlı olduğunu və Azərbaycan türkcəsinə böyük əhəmiyyət verdiyini vurğulayaraq onun əmri ilə Nəcəf şəhərindəki Hz. Əlinin qəbri üzərində yazılmış Azərbaycan dilindəki şeiri nümunə göstərir ("Azərbaycan" qəzeti.., 2022, s.187-188). Qəzet Nadir şahın öldürülməsindən sonra onun yaratdığı dövlətin süqutundan, ölkənin parçalanmasından və xanlıqların yaranmasından bəhs edir. Qəzetdə göstərilirdi ki, XVIII əsrin ortalarında istər Azərbaycanda, istərsə İranın başqa əyalətlərində feodallıq münasibətlərinin inkişafıyla əlaqədar olaraq ölkənin parçalanması tamamlanmış oldu. Azərbaycanda xırda feodal dövlətlər, xanlıqlar əmələ gələrək müəyyən müstəqillik əldə etdilər. Zəncan, Qəzvin, Dərbənd, Təbriz, Bakı, Salyan, Qarabağ xanlıqları bu növdən idilər. Bundan başqa bir sıra sultanlıqlar və Qarabağda isə beş məliklik var idi (Kəndli, 1948, 18 avqust, s.4).

Sovet tarixşünaslığında bu məlikliklərin əhalisi etnik erməni kimi təqdim edilsə də, Z.Bünyadov, N.Vəlixanlı kimi orta əsrlər dövrünün tədqiqatçıları məlikliklərin əhalisinin orta əsrlərdə erməni-qriqorian kilsəsinin təsiri ilə assimilyasiya olmuş xristian albanlar olduğunu ortaya qoymuşdur. Həmçinin, xristian qıpçaqlara məxsus, orta əsrlərdə erməni əlifbası ilə yazılmış türkdilli əlyazmaların tapılması Azərbaycanda xristian türklərin assimil-

yasiyaya məruz qaldığını, qarabağlı ermənilərin formalaşmasında albanlarla birlikdə qriqorian türklərin də rol oynadıqlarını göstərir. Ə.Yerevanlı, M.Seyidov kimi tədqiqatçılar erməni hərfləri ilə yazılmış oğuz türkcəsindəki ədəbiyyatdan bəhs ediblər. Bu əsərlərdə tanrıya "tenqri", cənnətə "uçmağ" deyilməsi və s. ifadələr xristian türk varlığının bölgədəki tarixinə sübutdur (Fərhadov, 2017, s.76-83).

"Azərbaycan" qəzetində qubalı Fətəli xanın parçalanmış Azərbaycan xanlıqlarını vahid bir dövlətdə birləşdirmək cəhdindən bəhs edilir və bu siyasətdə Qarabağın əhəmiyyətli rol oynadığı göstərilir. Qəzetdə qeyd edilir ki, göstərilən dövrdə Quba xanı böyük müvəffəqiyyətlər qazanmış, Azərbaycanda güclü bir xan olmuşdur. O zamanlar bütün Azərbaycanda birləşmək meyilləri inkişaf etməyə başlamışdı və bir çox şəhərlərin əhalisinin nəzəri güclü və nüfuzlu Quba hakimiyyətində idi (Kəndli, 1948, 18 avqust, s.4). Təəssüf ki, Fətəli xanın bu arzusu yarımçıq qaldı.

"Azərbaycan" qəzetində xanlıqlar dövrü Qarabağ tarixinin mənbələrindən bəhs edilib. Bu baxımdan qəzet yazırdı ki, XIX əsrdə Mir Mehdi Xəzaninin Azərbaycan dilində yazılmış "Kitabi-tarixi-Qarabağ" əsəri Qarabağın keçmiş tarixindən, Pənahəli xan, İbrahimxəlil xan və Mehdiqulu xanın istiqlaliyyət uğrunda çalışmalarından, Ağa Məhəmməd xan Qacarın Qarabağa yürüşündən, onun Azərbaycan xalqı tərəfindən məğlub və qətl edilməsindən və digər məsələlərdən bəhs edir (Nadir xətti.., 1948, 14 fevral, s.3). Qəzetdə İbrahimxəlil xanın vəziri, şair M.P.Vaqifin şeirlərindən nümunələr verilir və göstərilirdi ki, elə bir azərbaycanlı tapılmaz ki, onun şeirlərini oxuyub valeh olmasın. Vaqifin əsərlərində dilin gücü, musiqisi və Azərbaycan dilnin ahəngi əks olunur ("Azərbaycan" qəzeti.., 2022, s.468).

XVIII əsrin sonunda Cənubi Azərbaycanı zəbt edən Ağa Məhəmməd xan Qacar Şimali Azərbaycan uğrunda mübarizəyə başlasa da, Şuşada öldürüldü. "Azərbaycan" qəzeti bəzi Azərbaycan xanlarının Qacarlara qarşı Rusiya ilə ittifaqa getdiyini qeyd

edir (Kəndli, 1948, 18 avqust, s.4). XIX əsrin əvvəllərində Şimali Azərbaycan xanlıqlarının feodal pərakəndəliyi, mərkəzdənqaçma meyilləri xarici istilaya yol açdı və təəssüf ki, Rusiya işğalı ilə nəticələndi.

### 3.2. XIX-XX əsrin əvvəllərində Azərbaycan

**XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycan.** "Azərbaycan" qəzetində XIX-XX əsrin əvvəlləri dövrünün Şimali Azərbaycan tarixi və mədəniyyəti geniş işıqlandırılıb. Qəzetdə Rusiya işğalının səbəb və nəticələri, dövrün M.F.Axundzadə, S.Ə.Şirvani və s. görkəmli ziyalıları, onların əsərləri haqqında maraqlı məlumatlar verilib, Cənubi Azərbaycandan olan oxucuların milli-mədəni, ictimai-siyasi baxımdan maariflənməsi üçün işlər görülübdür.

XIX əsr Şimali Azərbaycan ziyalıları içində M.F.Axundzadə xüsusi yer tutur. Onun milli maarifçilik uğrunda, dini mövhumat və xurafata qarşı mübarizəsi "Azərbaycan" qəzetində işıqlandırılmışdı. Qəzet yazırdı ki, Azərbaycan xalqının böyük oğlu, müsəlman Şərqində birinci materialist filosof Mirzə Fətəli Axundzadə özünün məşhur fəlsəfi "Kəmalüddövlə məktubları" əsərində riyakar və satqın ruhanilərin, molla və şeyxlərin maskalarını yırtmışdır. O, yazırdı ki, ey vaizlər və alimlər, ey şarlatanlar, nə üçün siz yazıq camaatı cəhənnəm əzabı ilə qorxudaraq ona başqa xalqlarla əlaqə yaratmaq, elm və sənətin müvəffəqiyyətlərindən istifadə etmək imkanı vermirsiniz? Qəzet yazırdı ki, İran, M.F.Axundzadənin zamanında olduğu kimi indi də mömin şeyx əbası altında gizlənənlərin əsas vətənidir (Dünya mədəniyyət.., 1948, 25 sentyabr, s.4).

"Azərbaycan" qəzetində S.Ə.Şirvaninin cənub mövzusunda yazdığı araşdırmalara yer verilib və göstərilmişdi ki, o, Ərdəbilə səfər etdiyi zaman orada bir çox şair ilə görüşmüş və onların tərcümeyi-hallarından bəhs edən kiçik bir təzkirə yazmışdır (Həbibi,

1948, 30 oktyabr, s.3).

“Azərbaycan” qəzeti S.Ə.Şirvanidən başqa dövrün digər milli ziyalılarını yad edərək göstərirdi ki, Şərq aləmində M.F.Axundzadəni, A.A.Bakıxanovu, M.Ş.Vazehi tanımayan yoxdur (Müciri, 1948, 21 iyul, s.4).

“Azərbaycan” qəzetindəki məqalələrdə çar Rusiyasının Şimali Azərbaycanı işğalından sonra ölkədə millətlərarası ədavətin süni şəkildə qızışdırıldığı, erməni- müsəlman davası ilə xalqların işğalçılara qarşı birləşməsinin qarşısının alınmaq istəndiyi göstərilmişdi. Qəzetdə qeyd edilmişdi ki, çar hökuməti Azərbaycanda azadlıq hərəkatını boğmaq üçün bu iki xalqı bir-birinə qırdırırdı. Azərbaycan və erməni xalqının birliyi qüvvəsindən qorxu hiss edən mürtəce qüvvələr bu iki xalqı bir-birindən ayırmağa və onların hər birisini əsarət altında saxlamağa cəhd etmiş və bu iki xalq arasında ədavət, ziddiyyət və düşmənçilik toxumu səpmişdi. Bu düşmənçilik siyasətində daşnaklar xüsusi rol oynamışdır. “Azərbaycan” qəzeti yazırdı ki, daşnaklar bu iki xalqı bir-birinin üzərinə saldırmağa və qırğınlar törətməyə çalışmışdılar (Vilayi, 1948, 31 iyul, s.1).

Bolşevik inqilabının rəhbəri V.İ.Lenin göstərirdi ki, Çar Rusiyası “xalqlar həbsxanası”dır (Ленин). Buna görə də Rusiya hökuməti bu əzilən müxtəlif millətlərin çarizmə qarşı birləşməsinin qarşısını almaq üçün, fəhlə-kəndli hərəkatının, milli etirazların qarşısını almaqdan ötrü xalqlar arasında milli ayrı-seçkilik salmış, ədavəti qızışdırmışdı. 1905-ci ildən başlayan erməni-müsəlman savaşları bu yanlış siyasətin nəticəsi oldu.

“Azərbaycan” qəzetində XX əsrin əvvəlində mühüm milli maarifçilik rolu oynamış “Molla Nəsrəddin” jurnalı təbliğ edilir, onun Azərbaycan ədəbiyyatında oynadığı rol, qadın azadlığına, maarifçiliyə verdiyi töhfələr və təsiri yüksək qiymətləndirilirdi (Təbatəbai, 1946, 22 yanvar, s.4). Qəzetdə jurnalın nəşrinə böyük töhfə vermiş C.Məmmədquluzadə, M.Ə.Sabir haqqında məlumatlar verilir, onları “Şərq aləmində tanımayan yoxdur” deyilirdi

(Müciri, 1948, 21 iyul, s.4). "Azərbaycan" qəzeti yazırdı ki, Cəlil Məmmədquluzadə, M.Ə.Sabir kimi ziyalılar ana dilinin təmizliyi uğrunda çalışmışdılar ("Azərbaycan" qəzeti.., 2022, s.484).

"Azərbaycan" qəzeti C.Məmmədquluzadənin "Anamın kitabı" əsəri haqqında məlumat verərək yazırdı ki, bu əsərdə övladlarının biri Peterburqda, o biri İstanbulda, digəri isə Nəcəfdə təhsil almış bir azərbaycanlı ailənin sərgüzəşti şərh edilir.

Pyesdə iştirak edən üç qardaş arasında daima fərqli ideologiyalar üstündə mübahisə gedir və hər biri öz əqidəsini və yaşadığı mühitin ona buraxdığı təsiri digərlərinə yaymaq istəyir.

Pyesdən açıq-aydın görünür ki, təcavüzkar dövlətlər bir xalqı daim əsarət altında saxlamaq üçün əsas tədbir olaraq o millətin ana dilini və milli mədəniyyətini yox etməyə çalışırlar. C.Məmmədquluzadənin bu əsəri Təbriz teatrında səhnəyə qoyulmuşdu (Nikpur. Anamın...; "Azərbaycan" qəzetinin.., 2020, 8 oktyabr, s.14).

M.Ə.Sabirin əsərlərinin maarifləndirici xüsusiyyətini qeyd edən "Azərbaycan" qəzeti yazırdı ki, mərhum Sabirin xan, bəy, mülkədar, ruhani, tacir, hakim, xülasə istismarçıları ifşa edici, məntiqli, acı tənqidləri böyük təsir oyadır (Qurbani, 1948, 25 dekabr, s.3). Qəzet yazırdı ki, Sabirin şeirləri Səttarxan fədailərinin səngərlərində həvəslə oxunurdu. Çünki həmin şeirlər məşrutə hərəkatını əks etdirir və fədailərə qüvvət verirdi (Həbibi, 1948, 9 iyun, s.4). "Azərbaycan" qəzetində M.Ə.Sabirin "Hophopnamə" əsəri təbliğ edilir və güneyli oxuculara göstərilirdi ki, "Hophopnamə" Təbriz kitabxanalarında mövcuddur (Müsəvvər.., 1946, 10 yanvar, s.2).

"Azərbaycan" qəzetində M.Ə.Möcüzün, "Hammal" təxəllüsü ilə yazan məşrutəçi şair Bayraməli Abbaszadənin (Bayraməli.., 1948, 3 aprel, s.3) və "21 Azər" hərəkatının görkəmli nümayəndəsi şair M.H.Bürhaninin Sabirin təsiri ilə satira tərzində şeirlər yazdıqları qeyd edilib (Qurbani, 1948, 25 dekabr, s.3).

"Azərbaycan" qəzetində "Molla Nəsrəddin" jurnalının inqi-

labi əhəmiyyəti, cənublu soydaşlarımız üzərindəki təsiri vurğulanır və göstərilirdi ki, "Molla Nəsrəddin" jurnalının nəşri Azərbaycan ədəbiyyatında yeni bir cərəyan yaratdı. Vaxtını qəzəl, qəsidə və nohə (mərsiyə) deməklə keçirən bir çox müasir şair və ediblər bu cərəyana qoşuldular. Maneələrə baxmayaraq sərhədləri keçib Təbriz, Xoy, Ərdəbil və digər şəhərlərə gətirilən "Molla Nəsrəddin" Cənubi Azərbaycanda külli miqdarda oxucunu və yazıçını özünə cəlb etmişdi. "Molla Nəsrəddin" təsirində yazan inqilabçı şairlərə M.H.Bürhani və B.Abbaszadə ilə yanaşı məşrutəçi şair Mirzə Qafar Natiq Siyəhpuşu nümunə göstərə bilərik (Həbibi, 1948, 16 iyun, s.3).

**XIX-XX əsrin əvvəllərində Cənubi Azərbaycan**. XIX əsr başlayanda Cənubi Azərbaycan Qacarların hakimiyyəti altında idi. Qacarların xalqa zidd siyasəti dövrün bir çox mütəfəkkirləri tərəfindən tənqid edilmişdir. Qacarlara qarşı ən böyük mübarizə XIX əsrin ortalarında babilər üsyanı oldu. Quranın son vəhy kitabı olmadığını, "Bab" təxəllüslü S.Əliməhəmmədin Allahın yeni zühuru olduğunu iddia edən babilərin üsyanında, xüsusilə Zəncan üsyanında azərbaycanlılar xüsusi rol oynamışdır. Bir çox üsyançı, o cümlədən, məşhur qəzvinli babi şairə Tahirə xanım Nəsirəddin şahın əmri ilə qətl edilmişdi. Nəsirəddin şaha qarşı bir digər xalq hərəkatı XIX əsrin sonunda tənbəki qiyamı oldu. Şahın ölkədəki tənbəki istehsalını və alqı-satqısını ingilis şirkətinə verməsi xalqı ayağa qaldırdı. "Azərbaycan" qəzeti yazırdı ki, Nəsirəddin şah zamanında ilk dəfə olaraq Təbriz əhalisi ingilislərə verilən tənbəki imtiyazı əleyhinə qiyam etdi (Müciri, 1948, 10 iyul, s.3). Əslən azərbaycanlı olan Cəmaləddin Əfqaninin ruhanilərə müraciəti nəticəsində müctəhid M.Şirazi tənbəkidən istifadəni qadağan etdi və hökumətə qarşı cihad elan etdi. Son nəticədə şah ingilislərə verdiyi tənbəki imtiyazını ləğv etsə də, 1896-cı ildə onun siyasətindən narazı olan xalq kütləsinin qurbanı oldu. "Azərbaycan" qəzeti yazırdı ki, Nəsirəddin şahın Mirzə Rza Kirmani tərəfindən öldürülməsi İran xalqlarının yadından çıxmamışdır. Qəzet yaltaq

saray məmurlarının Nəsirəddin şahı "şahi-şəhid" (şəhid şah) adlandırmasını tənqid etmişdir (Biz.., 1949, 12 fevral, s.1).

"Azərbaycan" qəzetində XIX əsrin Cənubi Azərbaycan şairləri M.N.Nüsrət, S.Ə.Nəbati və digərlərinə böyük yer ayrılmış, onların ana dilində yazmaları vəsf edilmişdir. Qəzetdə göstərilirdi ki, XIX əsr Ərdəbil şairləri arasında görkəmli yer tutan və öz dövründə "ustad" adı qazanan, lakin layiqincə məşhur olmayan ədiblərimizdən biri də Mirzə Nəsrullah Nüsrətdir. M.N.Nüsrət (1810-1855) İsfahanda təhsil almış, Təbrizdə vəliəhd Mirzə Məhəmməd Qacarın müəllimi olmuş, Fətəli şahın vəfatından sonra taxta çıxan həmin vəliəhdin - Məhəmməd şahın Baş vəziri olmuşdu. M.N.Nüsrət məsnəvi tərzində əsərlər yazmışdır. S.Ə. Şirvaninin təzkirəsində Mirzə Nəsrullah Nüsrətdən bəhs edilir (Həbibi, 1948, 30 oktyabr, s.3).

"Azərbaycan" qəzetində S.Ə.Nəbatiyə xüsusi məqalə həsr olunmuş və o, "XIX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli söz ustadlarından olan Seyyid" kimi təqdim edilmişdi. Qəzetdə S.Ə.Nəbatinin xəlqiliyi haqqında göstərilirdi ki, o, bütün ömrünü vətənində və xalq içərisində keçirmiş, doğma yurdu və xalqından ilham almış və əsərlərini xalqının ruhuna, zövq və eşqinə bağlı olan tərz və dildə yazmışdır. Şairin qoşmaları Azərbaycan şerinin ən dəyərli nümunələri olub milli xüsusiyyətlərə malikdir. S.Ə.Nəbati öz şeirlərini Nəbati, Məcnun, Xançobani və Məcnunşah təxəllüslərilə yazsa da, Nəbati deyə məşhur olmuşdur. Qəzetdə Mirzə Nəsrullah Nüsrətin S.Ə.Nəbatinin ustadı olduğu qeyd olunmuş və Nəbati "ədəbiyyat sahəsində tərbiyə və təcrübəsini bu alimdən almışdır" deyilmişdir (Həbibi, 1948, 29 may, s.3). Qəzetdə S.Ə.Nəbatinin Azərbaycan dilində yazdığı şeirlərindən bəzi nümunələr verilmişdir:

"Eşqin ədəbini Fərhad ilə Məcnun nə bilir,
Birisi dağ dəlisi, biri səhra dəlisi.
Əqlə gəl, vaizü zahid sözünə tutma qulaq,
Biri dünya dəlisi, biri üqba (axirət-Ə.F.) dəlisi" (Həbibi,

1948, 29 may, s.3).

"Azərbaycan" qəzetində güneyli yazarlar - Ə.Talıbov, Z.Marağayi, M.H.Rüşdiyyə kimi milli maarifçi ziyalılara böyük əhəmiyyət verilmişdir. Qəzet yazırdı ki, XIX əsrin sonunda İranın ictimai həyatını təlatümə gətirən əsər H.Z.Marağayinin "Səyahətnameyi- İbrahim bəy" kitabı olmuşdur. Bu kitab ölkədə elə bir dərin təsir yaratdı ki, Qacar hökuməti onu oxumağı qadağan edib ələ keçən nüsxələrini yandırıb, məhv etdi. İftixarla qeyd etmək lazımdır ki, bu kitabın müəllifi azərbaycanlı idi. "Səyahətnamə" ilə bərabər İranda digər bir əsər də meydana gəlmişdi. Bu da təbrizli Ə.Talıbovun "Səfineyi-Talibi və yaxud Kitabi-Əhməd" əsəri idi. Bu kitab əhaliyə mədəniyyət üsullarını öyrədən bir əsər idi. Qəzet qeyd edirdi ki, İranda "üsuli-cədidə", yəni yeni üsulla tədris edən məktəblərin tarixi yazılarsa, mütləq təbrizli M.H.Rüşdiyyənin adı birinci qeyd edilməlidir. Çünki Avropa üsulunda birinci məktəbi Təbrizdə M.H.Rüşdiyyə açmışdır (Həbibi, 1948, 26 may, s.4).

Təəssüf ki, Qacarlar dövründə zəif də olsa baş verən bu milli mədəni inkişaf Pəhləvilər dövründə zorla dayandırıldı. "Azərbaycan" qəzeti öz səhifələrində "Xalqımızın ana dilini qadağan edib, kitablarımızı yandıran cəlladlar"ı ifşa etmişdi (Xalqlar.., 1948, 8 sentyabr, s.1). Azərbaycan xalqının dünyanın ən qədim və mədəni xalqlarından biri olduğunu vurğulayan və bu mövzuda 1941-ci ildə qəbul edilmiş Atlantik xartiyasına əsaslanan ("Azərbaycan" qəzeti.., 2022, s.29, 94) qəzet yazırdı ki, hər bir xalqın müqəddəratı özü tərəfindən təyin edilməlidir. Dil azadlığı, milli mədəniyyət azadlığı və sair iqtisadi, siyasi və ictimai azadlıqlar bu məsələnin əsas prinsipləridir. Lakin məsum Azərbaycan uşaqları öz əziz ana dillərində təhsil etməkdən məhrumdurlar (Səməndər, 1945, 12 sentyabr, s.1).

"Azərbaycan" qəzetində İran məşrutə inqilabına xüsusi yer ayrılıb. "Azərbaycan" qəzeti 1905-ci il Rusiya inqilabının İran inqilabı üzərindəki təsirini qeyd edərək yazırdı ki, inqilabın əks-sədası Şərq xalqlarını ruhlandırdı. Onları zül-

mə  və əsarətə qarşı üsyana qaldırdı. Bu zaman ilk dəfə Şərqdə Azərbaycan xalqının mübariz oğlu Səttarxan və Bağırxanın başçılığı ilə milli hərəkat başladı. Bu hərəkat tək Azərbaycan xalqını deyil, bütün İran xalqlarını mübarizəyə çağırdı (Leninizm yaşayır.., 1949, 22 yanvar, s.1). Qəzetə görə 1905-ci il inqilabı Şərq xalqlarını azadlıq və demokratiya uğrunda mübarizəyə qaldırdı (Böyük oktyabr.., 1948, 6 noyabr, s.1). Xalq hərəkatı nəticəsində Müzəffərəddin şah Qacar 1906-cı ildə məcburi olaraq parlament və konstitusiya haqqında fərman verdi, lakin bu fərman onun ölümündən sonra Məhəmmədəli şah tərəfindən ləğv edildi. 1908-cu ildə şahın əmri ilə Tehranda hürriyyətçi parlament bombalandı, şah əleyhinə Səttarxanın rəhbərlik etdiyi Təbriz üsyanı qan içində basdırıldı. “Azərbaycan” qəzeti bu mövzuya xüsusi yer ayıraraq yazırdı ki, Məhəmmədəli şah istibdadına qarşı mübarizə edən Azərbaycan məşrutəçiləri arasında Təbrizin müxtəlif təbəqə və sinifləri var idi. Bunlar kəndli, fəhlə, tacir və mütərəqqi ziyalılardan ibarət idi. Əldə silah gecə-gündüz səngərdən çıxmayan bu şəxslər Azərbaycanda hakim olan istibdad üsuluna son qoymağa və xalqı mürtəcelərdən, müstəbidlərdən xilas etməyə çalışırdılar (Həbibi, 1948, 3 aprel, s.3).

“Azərbaycan” qəzetində Səttarxan, Bağırxan, M.Xiyabani kimi mücahid fədailər haqqında məqalələr, şeirlər yer alır. Qəzet yazırdı ki, İranda məşrutə qanununun ən fədakar müdafiəçiləri azərbaycanlılar idi (Həbibi, 1948, 19 iyun, s.3). Qəzetdə Təbriz camaatının Məhəmmədəli şahın ordusuna qarşı qəhrəmancasına mübarizəsi mədh edilərək göstərilirdi ki, Təbriz şəhəri məşrutə inqilabı dövründə dörd tərəfdən hücum edən şah ordusu qarşısında bir ildən artıq müqavimət etdi. Ərk qalası qartal kimi sinəsini gərib düşmənə təslim olmadı. Şah ordusunun top güllələrinin yarası Ərkin sinəsində indi də durur və bunlarla şərəfli Təbriz iftixar edir. Qəzetdə şahın top zərbələri ilə parlamenti dağıtmasından sonra Təbrizin “İran xalqlarının siyasi mərkəzi”nə çevrildiyi  göstərilmişdi (Müciri, 1948, 10 iyul, s.3). Lakin xalqın bu

mərd oğullarının mübarizəsi qüvvələrin qeyri-bərabərliyi və çar Rusiyasının şah hökumətinə dəstəyi sayəsində məğlub oldu. Məşrutə qəhrəmanlarının hökumət tərəfindən aldadılıb məhv edilməsi qəzetdə təsvir edilmiş və göstərilmişdi ki, şah hökuməti açıq mübarizə meydanında azərbaycanlıların qabağında aciz qaldığından xəyanət və hiylə ilə azadlıq hərəkatını boğdu. İran məşrutə inqilabının əsas rəhbərlərindən biri olan "sərdari-milli" (milli komandan-Ə.F.) Səttarxanı qonaq adıyla Tehrana çağırtdırıb xəyanətlə öldürdülər, daha sonra da məşrutə qəhrəmanı Bağırxanı qətl etdilər (Həbibi, 1948, 19 iyun, s.3). "Azərbaycan" qəzeti V.İ.Leninin İrandakı xalq azadlıq hərəkatına dəstəyini yüksək qiymətləndirir və yazırdı ki, Lenin Azərbaycanda başlayan milli hərəkata böyük qiymət verərək Səttarxanı Rusiyanın Puqaçovu adlandırmışdır (Leninizm.., 1949, 22 yanvar, s.1).

"Azərbaycan" qəzetində Səttarxan hərəkatı "21 Azər" hərəkatının ideya mənbəyi kimi yad edilmiş və ona həsr olunan şeirlərdə belə deyilmişdi:

"Heç yadımdan çıxmaz rəşid Səttarxan,
Yığdı öz başına Azər ellərin,
Qan içən şahlara eylədi üsyan
Kəsdi yurdumuzdan düşmən əllərin" (Zakir, 1949, 19 fevral, s.3).

Səttarxanların ölümü xalqın mübarizə əzmini sındırmadı. Təbrizdə Şeyx Məhəmməd Xiyabani şah rejimi əleyhinə üsyan bayrağını qaldırdı. "Azərbaycan" qəzeti yazırdı ki, Qacar hakimiyyətinin ingilis imperializmi ilə alçaldıcı müttəfiqliyinin əleyhinə olaraq Azərbaycanın qəhrəman oğlu Şeyx Məhəmməd Xiyabani üsyan etdi. Üsyanın əsas hədəfi və şüarı Azərbaycan xalqının demokratik azadlığı və muxtariyyəti idi. M.Xiyabani öz nitq, bəyanlarında və "Təcəddüd" qəzetinin səhifələrində göstərirdi ki, biz özümüz Azərbaycanda, azad, milli və demokratik hökumət quracağıq. Nə vaxt şah hökuməti özünü islah edib demokratik bir hökumət şəklini alarsa, o zaman biz onlarla federativ surətdə həmkarlıq edərik (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.3).

Bu, M.Xiyabaninin əsl hədəfi və məqsədi idi. "Azərbaycan" qəzeti Şeyx Məhəmməd Xiyabaninin üsyanını "Təbrizin şərəfli tarixinə təzə iftixarlar əlavə etmişdir" deyə vəsf etmişdi (Müciri, 1948, 10 iyul, s.3). Lakin Qacar hökuməti ölkədə heç bir azadlığa yol açmaq istəmirdi və qəzetin yazdığına görə xain və mürtəce şah hökuməti hiylə və xəyanət yoluyla bu inqilab çırağını söndürdü. Azərbaycan xalqı yenə qarət edildi, yüzlərlə azərbaycanlı həbs və sürgün edildi. Lakin bu həbs və sürgünlər, qətl və qarətlər Azərbaycan xalqının azadlıq mübarizəsinə mane ola bilmədi və ola bilməyəcək (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.3).

Məşrutə dövrünün fədai şairləri içində M.Ə.Xazin, M.Ə.Möcüz, B.Abbaszadə kimi şairlər xüsusi yer tutur. Məşrutə dövründə Azərbaycanın gələcəyi naminə silaha sarılan və tam inamla inqilab tərəfinə keçən minlərlə cavanlardan biri də Mir Əbdülhüseyn Xazin idi. O, xain düşmənə qarşı həm tüfəngi, həm də qələmi ilə atəş açırdı. M.Ə.Xazin Təbrizdə anadan olmuş və təhsilini doğma şəhərində almış inqilabçı bir şair idi. O, Cənubi Azərbaycanın şah istibdadı zülmündən azad olmasının quru söz ilə yox, ancaq səngərlərdə canı və qanı bahasına başa gələcəyinə inanmış və belə yazmışdı: "Aqibət viranəmiz abad olur bu qan ilə" (Həbibi, 1948, 14 aprel, s.3). O, xoş gələcəyə inanan bir fədai şair idi. Səttarxanın rəşadəti və mücahidlərin fədakarlığı nəticəsində Məhəmmədəli şahın qoşunları məğlub olub, İranda məşrutə inqilabı qələbə çalanda M.Ə.Xazin xalqı təbrik edərək belə yazmışdır: "Cahanda şükrullah, zülm, istibdad qurtuldu" (19 və 20-ci əsrlərdə.., 1946, 25 aprel, s.2). O, tam mənasıyla inqilab şairi idi. Əsərləri toplanmamış və nəşr edilməmiş bu atəşli şairimiz 1911-ci ildə təxminən 45 yaşında Təbrizdə vəfat etmişdir (Həbibi, 1948, 14 aprel, s.3).

Məşrutəçi şairlərdən biri də şəbüstərli Mirzə Əli Möcüzdür (v. 1934). Qəzetdə göstərilirdi ki, Şərqdə, o cümlədən, İranda imperialist siyasəti aparan dövlətlər və onların İrandakı əlaltıları M.Ə.Möcüzin şeirlərində ifşa edilmişdir. Ona görə

müsəlman əhali arasında dini təfriqə salmaq, xurafat və mövhumatı yaymaq, bir tayfanın əliylə digər tayfanın müqəddəs məbəd və yerlərini təhqir etmək ingilis kəşfiyyatçılarının peşəsidir. Qəzet tərəfindən "Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri" adlandırılan M.Ə.Möcüz müsəlmanlar arasında təfriqə salan vəhhabiliyin ingilis məhsulu olduğunu şeirlərində ortaya qoymuşdur (Həbibi, 1947, 9 dekabr, s.3). M.Ə.Möcüz öz şeirlərində xalqı ingilis imperializminə qarşı fəal mübarizəyə dəvət etmişdir. Qəzetdə M.Ə.Sabir tərzində yazan M.Ə.Möcüzün şeirlərinin çap edilməsinə Pəhləvi hökumətinin icazə vermədiyi, lakin xalqın bu şeirləri tapıb oxuduğu və öz həyatlarını onda gördüyü göstərilmişdir (Həbibi, 1948, 9 iyun, s.4). "Kommunist" qəzetində M.Ə.Möcüzün həyat və fəaliyyəti təbliğ edilir və göstərilirdi ki, M.Ə.Möcüz hər şeydən əvvəl vətənpərvər bir şairdir. O, vətəni Azərbaycanı və doğma ana dilini sonsuz məhəbbətlə sevirdi. Məqalədə onun şeirlərindən nümunələr verilmişdir:

"Nə yatıbsan, ayıl, ey milləti-biçarə, ayıl,
Satır axır vətəni düşmənə əyani-vətən" (Əliyev, 2020, s.111).

"Kommunist" qəzetində Cəfər Xəndanın M.Ə.Möcüz Şəbüstərinin vəfatının 20 illiyi ilə əlaqədar yazdığı "Cənubi Azərbaycanın xalq şairi" adlı məqaləsində şairin yaradıcılığından və üzləşdiyi təzyiq və təqiblərdən danışılır. Yoxsul bir ailədə anadan olmuş şair dövrünün eybəcərliklərini, xalqın düçar olduğu məhrumiyyətləri, yalnız inqilab yolu ilə azadlıq və istiqlala qovuşmağın mümkünlüyünü var səsi ilə bəyan edirdi. Onun satiraları ilan oynadan, fala baxan, cadugərlik edən "xırda" adamlardan tutmuş Amerika, İngiltərə, Almaniya imperialistlərinin siyasi diplomatları və İran şahına qədər bütün mürtəce qüvvələri amansız surətdə ifşa edir və belə deyirdi:

"Əbəs yerə əl açıb göydən istədik imdad,
Bizi bu qədər bəlayə düçar edən odur!
Əlac yoxdur bizə şeyxdən, nə də şahdan,
Vəkildən üz əlini, çünki mülkədar odur!" (Əliyev, 2020,

s.112).

Məşrutə dövrünün bir digər böyük şairi sərablı Bayraməli Abbaszadədir. "Azərbaycan" qəzeti yazırdı ki, B.Abbaszadə yoxsulluq səbəbindən məktəbi yarımçıq qoymuş, fəhləliklə məşğul olmuşdu. Təbrizdə Məhəmmədəli şah əleyhinə məşrutə hərəkatı başlandığı zaman o, silah götürüb Səttarxanın fədailər dəstəsinə qoşulmuşdu. B.Abbaszadənin ədəbiyyatla ilk tanışlığı fədailər dəstəsində oldu. "Azərbaycan" qəzeti yazırdı ki, öz inqilabi yazılarıyla məşrutə hərəkatına böyük yardım göstərən "Molla Nəsrəddin" jurnalı B.Abbaszadənin diqqətini cəlb etmiş və Sabirin inqilabi şeirləri onda böyük təsir yaratmışdı. Xanların və mülkədarların zülmündən bezmiş şair ilk şeirlərini inqilab düşmənlərinin ifşasına həsr etmişdi. Məşrutənin məğlubiyyətindən sonra o, ailəsi ilə birlikdə Cənubi Qafqaza köçmüş, Bakıda hamballıq etməklə ailəsini dolandırmışdı.

B.Abbaszadə öz şeirlərini "Molla Nəsrəddin"də çap etdirmiş və M.Ə.Sabirlə görüşmüşdü. B.Abbaszadə "Gülzar", "Hammal" təxəllüsləri ilə irticaya, mövhumata və cəhalətə qarşı kəskin məzmunlu məzhəkəli şeirlər yazmışdır (Bayraməli.., 1948, 3 aprel, s.3). Şair 1926-cı ildə Bakıda vəfat etmişdir.

"Kommunist" qəzetində B.Abbaszadənin inqilabi fəaliyyəti, yaradıcılığı təbliğ edilmiş, əsərlərindən nümunələr verilmişdir. Onun Pəhləvilərə nifrəti və xalqı mübarizəyə çağırması şeirlərində belə əks olunmuşdu:

"Qoyma mehtər başında tac olsun,
Füqəralar həmişə ac olsun,
Parçala təxti, qoy tarac olsun".

Öz taleyindən şikayətlənən, ailəsinə, Cənubi Azərbaycan həsrəti ilə yanan B.Abbaszadə yazırdı:

"Həsrətəm bir neçə müddətdir bacı-qardaşıma,
Töküb İranın o xanzadələri kül başıma" (Sadıq, 1946, 26 iyun, s.2; Əliyev, 2020, s.108- 109).

### 3.3. Pəhləvilər dövründə Azərbaycan

**Milli ədəbiyyat**. Milli ədəbiyyatı təşviq edən "Azərbaycan" qəzetində ayrıca "Ədəbiyyat səhifəsi" rublikası var idi və verilən elanlarda bildirilirdi ki, "ruznaməmizin səhifələri hekayə, məqalə və şeirlər üçün açıqdır" (Diqqət, 1949, 8 yanvar, s.4). Müəlliflərə edilən müraciətdə göstərilirdi ki, şah hakimiyyətinin mənfur siyasəti nəticəsində xalqımız öz ana dilində yazıb oxumaqdan məhrum olub və öz zəngin ədəbiyyatımızı inkişaf etdirmək imkanından kənarda qalmışıq. Buna görə də ADF indi bu məsələyə xüsusi əhəmiyyət verir və dilimizin inkişafı üçün çalışır. Bu sahədə qəzetin öhdəsinə düşən vəzifə olduqca mühümdür. Şair və yazarlar xalqımızın xoşbəxt bir həyat və azadlıq uğrunda mübarizəsi, mütərəqqi məfkurə və ideologiyasını öz əsərlərində əks etdirməlidir. Müəlliflər bu mövzuya əhəmiyyət verməli və dilimizi daha da inkişaf etdirməyə çalışmalıdırlar" (Xoşginabi, 1948, 12 iyun, s.1).

"Azərbaycan" qəzetində Balaş Azəroğlu, Əli Tudə, İbrahim Zakir, Aşıq Hüseyn Cavan və s. şair və yazarların ictimai-siyasi, milli mədəni-maarifçilik, beynəlmiləlçilik, sosial istiqamətdə şeirləri, hekayələri dərc olunurdu. Sovet mətbuatında, o cümlədən, "Kommunist" qəzetində də Cənubi Azərbaycan mədəniyyəti, güneyli şairlərin həyat və yaradıcılığı təbliğ edilirdi (Cənubi Azərbaycan şairləri.., 1945, s.3).

**Balaş Azəroğlu (1921-2011).** Şair Balaş Azəroğlu əslən Ərdəbildəndir. O, Bakıda anadan olmuş, 1938-ci ildə İrana sürgün edilmişdir. B.Azəroğlu 1942-ci ildə Tudə Partiyasına üzv olmuş, 1943-cü ildə "Azərbaycan Ziddi-faşist Cəmiyyəti"nin Ərdəbil şöbəsinin müdiri və cəmiyyətin "Yumruq" qəzetinin redaktoru olmuşdur. O, 1945-ci ildə ADF-yə qoşulmuş və firqənin Ərdəbil Komitəsinin "Cövdət" qəzetinin redaktoru olmuşdur. B.Azəroğlu Milli Hökumət dövründə Dövlət Radio Komitəsinin sədr müavini, "Yazıçılar və Şairlər Cəmiyyəti"nin İdarə heyətinin üzvü olmuş,

bir sıra şeir kitabları, o cümlədən, "Ana dili" dərsliyi Təbrizdə nəşr edilmişdir. Firqənin məğlubiyyətindən sonra o, Bakıya köçmüş, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almış, Cənubi Azərbaycan Yazıçılar Cəmiyyətinin sədri (Cənubi Azərbaycan ədəbiyyatı.., 1988, s.177-178), ADF-nin Təbrizdən sonra Bakıda nəşr edilən "Azərbaycan" qəzetinin şöbə müdiri, redaktoru və firqənin Mərkəzi Komitəsinin sədr müavini olmuşdur. B.Azəroğlu Azərbaycanın "Xalq şairi" adıyla təltif edilmişdir (Kafkasiyalı, 2002, s.265-266).

"Azərbaycan" qəzetində B.Azəroğlunun "And" (Azəroğlu, 1947, 2 dekabr, s.3), "Cavanlara. Sən fədai oğlusan" (Azəroğlu, 1948, 24 noyabr, s.4), "Zindan" (Azəroğlu, 1948, 24 iyul, s.3), "Savalan" (Azəroğlu, 1948, 28 fevral, s.3) və s. şeirləri çap olunmuşdur. Bu şeirlərdə Babək, Səttarxan kimi milli qəhrəmanlar gənclərə nümunə göstərilir, şah rejiminə, imperializmə qarşı daha ciddi mübarizə aparmaları təbliğ edilirdi. Şairin "Doktor Ərani" adlı şeirində (Azəroğlu, 1948, 7 fevral, s.1) şahın əmri ilə həbsdə qətl edilmiş marksist filosof Tağı Ərani və onun Tehranda nəşr etdiyi "Dünya" jurnalı haqda məlumat verilir, filosofun ölümünün böyük bir itki olduğu göstərilirdi.

Gəncləri "21 Azər" qələbəsini və keçmiş əzəmətli günləri yenidən bərpa etməyə çağıran şair belə deyirdi:

"Sıçra at belinə bir də təzədən,
Analar çıxarsın qara libası.
Görsün qüdrətini qoy yenə düşmən,
Titrəsin önündə şahlar dünyası!" (Azəroğlu, 1948, 24 noyabr, s.4).

B.Azəroğlu iranlı şair Məliküşşüəra Bahar kimi fars millətçilərinə, farsca yazmadığı üçün onu tənqid edənlərə cavab olaraq yazırdı:

"Çox da öyünməsin deyin Bahara:
Bu yerin şairi tək mənəm" deyə
Ərəb, fars dilinə arxalandı o,

Mənə: "Dil bilməyən bir əcəm" – deyə.
Bilmədi dilim də, vətənim də var" (Rahim, 1947, 12 dekabr, s.3).

"Kommunist" qəzetində B.Azəroğlunun yaradıcılığı təbliğ edilirdi. Şair M.Rahim B.Azəroğlunun yaradıcılığını təhlil edərək onun əsərlərindəki hüzn və ələmin xalqın kədəri olduğunu göstərirdi (Rahim, 1947, 12 dekabr, s.3; Əliyev, 2020, s.110). "Kommunist" qəzetində B.Azəroğlunun "Azərbaycan" şeiri təqdim edilərək Azərbaycanın tarixən qəhrəmanlar yurdu olmasından bəhs edilmiş, Sovet Azərbaycanı "Qaranlıq gecənin çırağı" adlandırılaraq Şimali Azərbaycanda gedən quruculuq işləri vəsf edilmişdi (Azəroğlu, 1945, 13 may, s.3; Əliyev, 2020, s.102).

**Əli Tudə (1924-1996).** Şeirləri "Azərbaycan" qəzetində çap olunan digər bir şair Əli Tudə (Cavadzadə) Bakıda anadan olmuş, kiçik yaşlarından Cənubi Azərbaycana köçmüşdür. O, üzvü olduğu Tudə Partiyasının şərəfinə "Tudə" təxəllüsünü götürmüşdür. O, milli hərəkat zamanı ADF-yə daxil olmuş, Pişəvəri hökuməti dövründə Maarif Nazirliyində şöbə müdiri, Dövlət Filarmoniyasının müdiri olmuş, "21 Azər" medalı ilə təltif edilmişdir. Milli Hökumətin süqutundan sonra yaradıcılığını Bakıda davam etdirmişdir (Cənubi Azərbaycan ədəbiyyatı.., 1988, s.215-216). O, Bakı Ali Partiya Məktəbində və Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almış, ADF-nin "Azərbaycan" qəzetinin redaksiyasında şöbə müdiri olmuşdur (Kafkasiyalı, 2002, s.341- 342).

Ə.Tudənin "Azərbaycan" qəzetində Təbriz həsrətinə həsr olunmuş "Durnalar" (Tudə, 1948, 10 yanvar, s.3), "Səadət uğrunda" (Tudə, 1949, 22 yanvar, s.3), Ü.Hacıbəyliyə həsr olunmuş "Sənin nəğmən" (Tudə, 1948, 27 noyabr, s.4) və s. şeirləri "Azərbaycan" qəzetində dərc olunmuşdur. Şair "Durnalar" şeirində Təbriz həsrətini və ona olan sonsuz ümidini belə tərənnüm edirdi:

"Mənim Təbrizimin ulduzı batdı
Bu iki torpağın çiçəyi birdir
Eyləyən arzusu, diləyi birdir

Sinəsi ayrısa, ürəyi birdir
Ona xal salmasın yara, durnalar" (Tudə, 1948, 10 yanvar, s.3).

Ə.Tudə ömrünün sonuna qədər sovet vətəndaşlığını qəbul etmədi və Şimali Azərbaycanda mühacirət həyatını yaşadı. O, inanırdı ki, həsrətini, nisgilini çəkdiyi Cənubi Azərbaycana bir gün qayıda biləcək (Əliqızı, 2007, s.38-39). Cənubi Azərbaycan şairlərinə öz səhifələrində yer verən "Kommunist" qəzeti Əli Tudə yaradıcılığına da diqqəti çəkmişdir. Şairin azad həyat eşqi, istiqlal arzusu qəzetdə belə ifadə olunmuşdur:

"Deyir əsir kimi qul yaşamaqdan –
Ölüm şərəflidir, ölüm yaxşıdır" (Əfəndiyev, 1948, 17 yanvar, s.3).

Yazıçı İlyas Əfəndiyev "Kommunist" qəzetində dərc olunan məqaləsində yazırdı ki, Rza şah istibdadının heybətli gecələri onun körpə qəlbini dəhşət və iztirablarla doldurmuşdu. İran sərdabələrində can verən anaların qara bəxti, qadınların vahiməli mahnıları onu şair etdi. O, yaralı vətən torpağının böyük dərdi ilə alışıb yanan bir fədai oldu. Şair özü bu haqda belə yazırdı:

"Nədir hüsnündəki bu sis, bu duman,
Neçin danışmırsan, neçin gülmürsən?!
Məni düşündürən, məni güldürən,
Məni şair edən sən deyilmisən?" (Əfəndiyev, 1948, 17 yanvar, s.3; Əliyev, 2020, s.110).

**İbrahim Zakir (1891-1971).** Əslən Ərdəbil mahalından olan İbrahim Zakir "Molla Nəsrəddin" jurnalının, M.Ə.Sabirin və M.Ə.Möcüzün təsirilə satirik şeirlər yazmışdı. Onun şeirlərində feodalizmə, istismarçılara üsyan, milli azadlığa, xalqın xoşbəxtliyinə çağırış motivləri əsas yer tutur. "21 Azər" hərəkatı zamanı o, ictimai-siyasi həyata aktiv qoşulmuş, fədai dəstələrinə rəhbərlik etmişdir (Kafkasiyalı, 2002, s.217-218). İ.Zakir Milli Hökumət dövründə məsul partiya vəzifələrində işləmiş, hökumətin süqutundan sonra o, Bakıya köçmüş, yaradıcılıq fəaliyyətini burada davam etdirmişdir (Cənubi Azərbaycan ədəbiyyatı.., 1988, s.31-32).

İ.Zakirin "Azərbaycan" qəzetində "Mənim andım" (Zakir, 1947, 13 dekabr, s.4), "Ey ana vətənim!" (Zakir, 1948, 28 yanvar, s.3), "Təbriz" (Zakir, Təbriz, 1948, 25 sentyabr, s.3), "Şanlı xalqımız" (Zakir, 1948, 7 avqust, s.4) və s. şeirləri nəşr edilmişdir. Bu şeirlərdə şah rejimini, şahpərəst məmurları tənqid, vətənin azadlığı, gələcəyə ümid, xalqın mübarizə əzmi əks olunub. Onun qəzetdə çap edilmiş "Mən kiməm?" (Zakir, 1948, 29 may, s.3), "Şahlara ölüm!" (Zakir, 1948, 3 sentyabr, s.3) və s. şeirlərində mürtəce və müstəbid şah hökuməti, xarici imperialistlər tənqid olunurdu. Şair - "Ey igid fədai, şanlı qızılbaş!" adlı şeirində Səttarxanları, Babəkləri gənclərə nümunə göstərir və belə deyirdi:

"Hər yerdə azadlıq sözün et şüar,
Zəfər bizimlədir, bizimlə, inan!" (Zakir, 1949, 19 fevral, s.3).

"Kommunist" qəzetində İ.Zakirə həsr olunmuş məqalədə onun yaradıcılığı, "21 Azər" hərəkatı uğrunda mübarizəsi təbliğ edilmişdi (Nəzərov, 1948, 28 yanvar, s.3; Əliyev, 2020, s.110).

**Aşıq Hüseyn Cavan (1916-1985).** "Azərbaycan" qəzetində yer alan Aşıq Hüseyn Cavanın şeirləri böyük maraq oyadır. Əslən Cənubi Azərbaycandan olan aşıq kiçik yaşlarından Şimali Azərbaycana köçmüş, Ağkilsədə Aşıq Ələsgərin qardaşı oğlu Musadan səkkiz il aşıqlıq sənətini öyrənmişdir. 1938-ci ildə Cənubi Azərbaycana dönən aşığın Təbriz qəzetlərində şeirləri nəşr edilmişdir. Aşıq Hüseyn Milli Hökumət dövründə Aşıqlar Ansamblının sədri olmuşdur. Milli Hökumət tərəfindən aşığa "Sənətkar Xalq artisti" adı və "21 Azər" medalı verilmişdir. Milli Hökumətin süqutundan sonra aşıq Bakıya köçmüş, burada yaradıcılıq fəaliyyəti ilə məşğul olmuşdur. Azərbaycan Yazıçılar İttifaqının üzvü olan aşığın Bakıda kitabları nəşr olunmuş, ona Azərbaycanın "Əməkdar Mədəniyyət işçisi" adı verilmişdir (Kafkasiyalı, 2002, s.213-214; Cənubi Azərbaycan ədəbiyyatı.., s.157-158).

"Azərbaycan" qəzetində Aşıq Hüseyn Cavanın "Təbrizim" (Cavan, 1948, 29 may, s.3), "Firqəmiz" (Cavan, 1948, 29 dekabr, s.3), "Günəşə doğru" (Cavan, 1949, 5 fevral, s.3) və s. şeirləri yer

alıb. Bu şeirlərdə xalqın ADF-yə olan inamı, qələbə əzmi tərənnüm olunub. "Bayquş" şeirində o, ölkəni xarici imperialistlərə satanları bayquş adlandırır və belə yazırdı:

"Kimin siyasəti dolub başına,
Satırsan İranı yadlara, bayquş!
***
Sən olsan peyğəmbər, heç kim inanmaz,
Götürsən əlinə Quranı, bayquş!" (Cavan, 1948, 27 mart, s.3).

"Kommunist" qəzetində Aşıq Hüseyn Cavanın sovet ordusuna ithaf edilən "Getmə" qoşması yer alır. Məlumdur ki, 1945-ci ildə Cənubi Azərbaycanda milli azadlıq hərəkatını dəstəkləyən İran ərazisindəki Sovet ordu birləşmələri bir müddət sonra əsgərlərinə geri çəkilmək haqqında göstəriş verir. Aşıq bu hadisədən təsirlənərək duyğularını belə dilə gətirmişdir:

"Hüseynəm, mən sənsiz necə dözərəm, Gecə-gündüz fərağında gəzərəm.
Mənə əl qaldırsa düşmən, əzərəm,
Sən mənə öyrətdin bu halı, getmə" (Cavan, 1946, 12 may, s.2; Əliyev, 2020, s.108).

**Mədinə Gülgün (1926-1991).** "Azərbaycan" qəzetində Mədinə Gülgünün şeirləri təqdim olunub. M.Gülgün Bakıda anadan olmuş, daha sonra ailəsi ilə birlikdə Ərdəbildə və Təbrizdə yaşamışdır. ADF-yə üzv olan şair milli hökumət dövründə "Yazıçılar və Şairlər Cəmiyyəti"nin üzvü olmuş, şeirləri dərs kitablarında nəşr edilmişdir.

M.Gülgün "Azərbaycan" qəzetinin müxbiri olmuş, milli azadlıq hərəkatına verdiyi töhfələrə görə "21 Azər" medalı ilə təltif edilmişdir. O, Milli Hökumətin süqutu ərəfəsində yazdığı "Cəbhədəki qardaşlarıma!" şeiri ilə fədailəri xalqın azadlığı uğrunda mübarizliyə səsləmişdi (Gülgün, 1325 (1946), 16 azər (7 dekabr), s.7). Onun yaradıcılığında sovet ideologiyası, "müqəddəs zəfər bayramı" adlandırdığı 9 may – faşizm üzərində qələbənin təbliği əsas yerlərdən birini tutur (Gülgün, 1946, 16 may, s.2).

Təbrizin şah ordusu tərəfindən işğalı ərəfəsində o, Bakıya gəlmiş, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda dil-ədəbiyyat fakültəsində təhsil almışdır. O, Azərbaycan Yazıçılar İttifaqının və SSRİ Yazıçılar İttifaqının üzvü olmuş, bir çox şeir kitabı Bakıda çap edilmişdir. M.Gülgün B.Azəroğlunun həyat yoldaşı olmuşdur (Kafkasiyalı, 2002, s.424-425; Cənubi Azərbaycan ədəbiyyatı.., 1988, s.258-259).

M.Gülgünün "Anama" (Gülgün, 1947, 16 dekabr, s.3), "O gün yaxınlaşır" (Gülgün, 1948, 23 iyun, s.3), "Mənimdir!" (Gülgün, 1948, 25 avqust, s.3) və s. şeirləri "Azərbaycan" qəzetində yer alır. Bu şeirlərdə Təbriz həsrəti, milli mübarizə, azadlığa ümid, ictimai-siyasi, milli maarifçilik təbliğ edilmişdir. Şair "Yenə güləcəkdir üzünə həyat" adlı şeirində milli azadlıq ümidini, qələbə əzmini təbliğ edir və belə yazırdı:

"Adın dilimizdə bir şüar kimi,
Qırarıq qolundan zəncirləri biz.
Yaşarıq qoynunda bəxtiyar kimi,
Səninlə sevinir, gülür xəlqimiz,
Qırarıq qolundan zəncirləri biz" (Gülgün, 1949, 12 yanvar, s.3).

**Hökumə Billuri (1926-2000).** Şair Hökumə Billuri Zəncanda anadan olmuş, ADF Zəncan Komitəsinin üzvü kimi milli azadlıq hərəkatında iştirak etmiş, bir sıra şeirləri dövrün qəzetlərində çap edilmişdir. O, milli dövlətçiliyə xidmətlərinə görə "21 Azər" medalı ilə təltif edilmişdir. "21 Azər" hərəkatının süqutundan sonra o, Bakıya gəlmiş, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində və Bakı Ali Partiya Məktəbində təhsil almışdır. H.Billuri Moskvada, İctimai Elmlər Akademiyasında "İran Azərbaycanının realist demokratik ədəbiyyatı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, ADF Mərkəzi Komitəsinin üzvü və ADF-nin "Azərbaycan" qəzetinin baş redaktoru olmuşdur. Şairin "Məhəmməd Hüseyn Şəhriyar" adlı monoqrafiyası və bir sıra şeirlər kitabı Bakıda çap olunmuşdur

(Kafkasiyalı, 2002, s.414-415; Cənubi Azərbaycan ədəbiyyatı.., s.247-248). "Kommunist" qəzetində şair Nigar Rəfibəylinin H. Billuriyə həsr olunmuş məqaləsi yer alır. Məqalədə göstərilirdi ki, H.Billuri kiçik yaşlarından xalqının nə qədər ağır zülmlərə mübtəla olduğunu aydın görür və dərk edirdi. O, şeirlərinin birində belə yazırdı:

"Neynirik İranı biz,
Gər Azəristan olmasa,
Can nə lazımdır bizə
Azər gülüstan olmasa" (Rəfibəyli, 1948, 28 fevral, s.4; Əliyev, 2020, s.111).

H.Billuri qadın azadlığının aktiv müdafiəçisi idi. Onun bu mövzuda yazdığı şeirlər "Kommunist" qəzetində dərc edilmişdir:

"Bir qızam, ağlar gözüm, cahil görəndə qızları,
Cəhl evin viran qılmaq xoş şüar olmuş mənə" (Rəfibəyli, 1948, 28 fevral, s.4).

H.Billurinin cənub mövzusunda yazdığı "Mənim arzum" (Billuri, 1948, 23 oktyabr, s.3), "Xatırlayıram o günləri" (Billuri, 1949, 19 fevral, s.3), "Olacaq ölkəmiz yenə gülşən" (Billuri, 1947, 23 dekabr, s.3) və s. şeirləri "Azərbaycan" qəzetində çap edilmişdir. Təbriz eşqi və ümidi ilə yaşayan şair "21 Azər" hərəkatının qələbəsinə həsr etdiyi "3 il bundan əvvəl" adlı şerində belə yazırdı:

"İnanıb o günə yaşayıram mən
Çün ölməz arzu, dəyişməz məram,
Bilirəm qəhrəman xalqımız yenə
Şən həyat qurmağa edəcək qiyam" (Billuri, 1948, 18 dekabr, s.3).

"Azərbaycan" qəzetində felyetonlar, nəsr nümunələri, o cümlədən, hekayələr də yer alır. Felyetonlarda öz xalqının əleyhinə, Qərb imperializminə xidmət edən Pəhləvi hökumət məmurları tənqid və ifşa edilmişdir. Felyetonlardan birində İran hökumətinin azərbaycanlıları millət olaraq görmədiyi, onları ümumtürk adı

altında əritmək istəməsi belə tənqid edilmişdir:

"Azər yerində türk sözün işlədir müdam,
Azər demir ki, yandırar ağzın aləddəvam,
Qeyrətli Azər oğlunu zənn eyləyir əvam.
Əlbir olublar tülküsü, tulası Tehranın
Çün ingilis-Amerikadı mövlası Tehranın" (F.S., 1948, 24 aprel, s.3).

**Dünya ədəbiyyatı.** "Azərbaycan" qəzetində dünya ədəbiyyatından nümunələr təqdim edilmiş, müxtəlif ölkələrin şair və yazıçıları haqqında məlumatlar verilmişdir. "Azərbaycan" qəzetində məşhur İran şairləri - Firdovsi, Ö.Xəyyam haqqında məlumat verilmiş, onlar "dahi şair" (Dünya mədəniyyət.., 1948, 25 sentyabr, s.4), "Şahnamə" isə "ölməz dastan" adlandırılmışdır (Fazil, 1948, 31 iyul, s.3). Böyük özbək şairi Ə.Nəvaiyə qəzetdə xüsusi diqqət ayrılmışdı. Şairin 500 illiyinə həsr olunmuş məqalədə onun əsərlərinin "Şərq kitabxanalarının zinyəti" sayıldığı, şairin yubileyinin isə özbək xalqının milli bayramı olduğu qeyd edilmişdir (Əmir.., 1948, 19 may, s.4). Məqalədə şairin əsərlərinin adları qeyd edilib, onun Sultan Hüseyn Bayqara ilə dost və onun vəziri olduğu, bu sayədə sultan sarayının görkəmli ədiblərin məskəninə çevrildiyi göstərilmişdir (Əmir.., 1948, 19 may, s.4).

"Azərbaycan" qəzetində biz Rusiya ədibləri – A.S.Puşkin, V.Q.Belinski, N.Q.Çernışevski, A.N.Ostrovski, M.Qorki haqqında məqalələrə və onların əsərlərindən nümunələrə rast gəlirik. A.S.Puşkini "rusların böyük şairi" adlandıran qəzet yazırdı ki, o, ilk dəfə olaraq həqiqi rus həyatını öz əsərlərində əks etdirmişdi. Qəzetdə XIX əsrin böyük rus tənqidçisi V.Q.Belinskinin – "Rus ədəbiyyatı Puşkin ilə başlayır. Çünki onun şeirlərində rus həyatının nəbzi vurur" (Həbibi, 1948, 9 iyun, s.4) sözləri ilə Puşkin yaradıcılığının xəlqiliyi barədə oxuculara məlumat verilmişdi. V.Q.Belinskinin 100 illiyinə həsr olunmuş məqalədə göstərilirdi ki, Belinski, ədəbiyyatın, həqiqi xalq ədəbiyyatı olub hər bir hadisəni xalqın mənafeyi nöqteyi-nəzərindən əks etdirməsini tələb

edirdi. O, deyirdi ki, həqiqi və əsl ədəbiyyat kütlənin, xalqın həyatından alınmış ədəbiyyatdır (Həbibi, 1948, 9 iyun, s.4). Qəzetdə göstərilirdi ki, Belinski böyük bir ədəbi irsin, geniş bir ədəbiyyat aləminin savadlı tənqidçisi olmuşdur (Həbibi, 1948, 9 iyun, s.1). Yazıçı və şairlərin milliliyinə önəm verən V.Q.Belinski qeyd edirdi ki, rus şairi doğuluşuna görə yox, tərzi-təfəkkürinə görə, hissiyyatına görə rus şairi olmalıdır (Həbibi, 1948, 9 iyun, s.4). "Azərbaycan" qəzeti yazırdı ki, Azərbaycan ədiblərindən M.F.Axundzadə, H.Zərdabi, Ə.Talıbov, Z.Marağayi, M.Ə.Sabir və digərləri ədəbiyyatımızda köhnə yol ilə getməyib, Belinskinin dediyi təzə və həyati yol ilə getdiklərinə görə, həqiqi xalq xadimləri olmuşdular. Əgər Sabir və onın təsiri altında yazan Mirzə Əli Möcüz öz əsərlərini həyatdan kənar qəsidə, qəzəl, mərsiyə və münacat tərzində yazsaydılar, əlbəttə minlərcə yaddan çıxmış qəzəl şairlərindən biri olub unudulacaqdılar (Həbibi, 1948, 9 iyun, s.4).

"Azərbaycan" qəzetində XIX əsrin görkəmli rus yazıçısı və filosofu N.Q.Çernışevskiyə böyük diqqət ayrılmışdır. N.Q.Çernışevskinin vəfatının 120 illiyi münasibətilə yazılan məqalədə göstərilirdi ki, Çernışevskinin təməl daşı materialist fəlsəfə olub və bu fəlsəfə sahəsində idealizmə qarşı mübarizə aparmışdır. Rusiyada yetişmiş inqilabçı ziyalıların irəliyə gedənlərindən biri də Çernışevski olmuşdur (Vilayi, 1948, 28 iyul, s.1). Qəzetdəki məqalədə vurğulanırdı ki, o, öz məqalə və hekayələrində rus kəndlilərini müdafiə etmişdir. N.Q.Çernışevski kəndlilərin azad edilməsi üçün inanırdı ki, rus kəndlisi kapitalizmdən imtina edib sosializmə gedəcəkdir. O, öz dövrünün demokratik və inqilabçı adamlarından biri idi. N.Q.Çernışevski daim rus kəndlilərini düşünmüş, onların torpaq sahibi olub, yaxşı yaşamalarını istəmiş və bu yolda çalışmışdı. K.Marks N.Q.Çernışevskini "böyük rus alimi və tənqidçisi", V.İ.Lenin isə "utopik sosialist və inqilabçı demokrat" adlandırmışdır. N.Q.Çernışevskiyə görə "fəlsəfə köhnə qurtuluşu əvəz etmək işində ən kəskin bir silahdır" (Vilayi, 1948, 28 iyul, s.3). "Azərbaycan" qəzetində N.Q.Çernışevskinin

müxtəlif əsərləri haqqında məlumat verilib və onun demokratik ideyalarına görə çar hökuməti tərəfindən cəzalandırıldığı, illərlə həbs və sürgün həyatı yaşadığı, əsərlərinin çapına qadağa qoyulduğu göstərilmişdir.

"Azərbaycan" qəzetində XIX əsrin böyük rus ədibi A.N.Ostrovskinin yaradıcılığına da böyük diqqət göstərilib, o, "rus milli teatrının banisi" adlandırılıb. Qəzetdə qeyd olunurdu ki, A.N.Ostrovski bütün həyatını rus xalqının səadəti yolunda mübarizəyə həsr etmiş, rus milli teatrının yaranması və inkişafı tarixində iftixarlı bir yer tutmuşdur. Onun yaradıcılığı xalqa bağlı olmuşdur. Xalqın arzularını, ümidlərini öz əsərlərində ifadə edən ədib bir dəqiqə də olsun, özünü xalq mənafeyindən, xalq müqəddəratından kənara çəkməmişdir. Onun əsərlərində rus xalqının ən nəcib sifətləri – alicənablıq və fədakarlıq, bacarıq və iffət, zəhmətkeşlərin böyük mənəvi qüvvəsi və parlaq gələcəyə olan dönməz inamı əks edilmişdir (İsaoğlu, 1948, 10 aprel, s.1).

"Azərbaycan" qəzetində A.N.Ostrovskinin pyesləri haqqında məlumat verilmiş, bu əsərlərdə kapitalizm cəmiyyətinin ziddiyyətləri, insanı eybəcərləşdirməsi, pul hərisliyi, kobud əxlaq və adətlər şiddətlə tənqid edilmiş, insan azadlığının önəmi vurğulanmışdır. Qəzetdə göstərilirdi ki, A.N.Ostrovski "realist bir sənətkar" kimi bütün Rusiyada məşhur idi və rus teatr mədəniyyətini inkişaf etdirmişdir. Həmçinin göstərilirdi ki, A.N.Ostrovskinin əsərlərinin əhəmiyyəti ondadır ki, müəllif öz dövrünün ağır həyatına qarşı zəhmətkeş xalqın nifrət və üsyanına bəraət qazandırır. O, yaxşı başa düşürdü ki, "zülmət səltənəti"nə olan etiraz nəhayət onu kökündən qoparıb sarsıdacaqdır (İsaoğlu, 1948, 10 aprel, s.3). "Azərbaycan" qəzetində XX əsr rus ədəbiyyatı da haqqında məlumatlar verilir, M.Qorkinin "Fırtına quşu", "Şahin mahnısı" kimi şeirləri oxuculara təqdim edilir (Qorki, 1949, 1 yanvar, s.3; Rus ədibi.., 1948, 31 mart, s.3).

İncəsənət. "Azərbaycan" qəzetində incəsənət məsələlərinə xüsusi yer ayrılıb və müqayisəli şəkildə təqdim edilib. Qəzet

yazırdı ki, Cənubi Azərbaycanda ADF hakimiyyəti dövrünə qədər keçən müddət ərzində milli incəsənət işləri pis bir vəziyyətdə idi. Milli hərəkatdan qabaq Təbriz səhnəsində oynanılan əsərlər cəfəngiyyatdan ibarət idi. İran Maarif Nazirliyi Azərbaycanda ancaq belə əsərlərə imkan verirdi. Azərbaycan dilinin səhnədə səslənməsinə icazə yox idi. "Azərbaycan" qəzeti yazırdı ki, şah hökuməti xalqı zorla fars dilində qulaq asmağa məcbur edirdilər. Belə bir vəziyyətdə əlbəttə incəsənətin inkişafından bəhs etmək tamamilə yersizdir. Rza şah dövründə Cənubi Azərbaycanda tamaşalarda Azərbaycan dilində bir kəlmə belə işlətməyə qadağa qoyulmuşdu (Əsgərzadə, 1948, 22 may, s.1). Rza şah hökumətindən qabaq isə Cənubi Azərbaycanın mədəni inkişafı İranın digər bölgələrindən daha irəlidə idi. "Azərbaycan" qəzeti yazırdı ki, Təbrizdə teatr olduğu bir dövrdə Tehranda belə bir mədəniyyət müəssisəsi belə yox idi. Rza şahdan əvvəl Cənubi Azərbaycan şəhərləri abadlıq və mədəniyyət cəhətdən Tehrandan daha çox inkişaf etmişdi ("Azərbaycan" qəzeti.., 2022, s.124).

"Kommunist" qəzeti ADF hökumətinin qurulmasından qabaq yazırdı ki, Təbrizdəki "Sovet mədəniyyət evi"nin teatr heyəti bu yaxın günlərdə İran Azərbaycanı və Kürdüstanın şəhər və kəndlərinə etdiyi bir aylıq səfərdən qayıtmışdır. Bu səfərdən məqsəd əhaliyə bədii xidmət göstərmək idi. Qastrol Azərbaycan və kürd xalqının öz azadlıq və milli hüququ uğrunda apardıqları mübarizə ilə bir vaxta düşdüyündən xalqın mübarizə ruhunun qüvvətlənməsinə böyük təsir etmişdir. Tamaşaçıların hamısı öz ana dillərində bu qədər böyük və qiymətli tamaşalar ("Sevil" və s.) gördükləri üçün sevinirdilər. Aktyorların gəlişi İran əhalisi və sovet xalqları arasındakı qardaşlığı möhkəmləndirdi. Tamaşaçılar deyirdi ki, keçmişdə teatr dəstələri təşkil olunmuşdu. Rza şah hökuməti isə bunu qadağan etdi. Hazırda hökumətin verdiyi təlimatla bizə ancaq fars dilində və şah rejimini tərifləyən tamaşalar göstərilməsinə icazə verilir. Ana dilimizdə bu cür tamaşalar verən aktyorları görəndə ürəyimiz açılır. Biz Sovet xalqını və Qızıl Or-

dunu çox sevirik. Qızıl Ordu burada olduğu müddətdə biz mədəniyyətcə çox tərəqqi etmişik”. Qəzet yazırdı ki, Təbriz teatrının qastrolu həqiqətən Sovet Azərbaycanı ədəbiyyat və incəsənətinin bir nümayişi olmuşdur. Tamaşaçılar Azərbaycanın böyük simaları N.Gəncəvi, M.Füzuli, M.P.Vaqif, M.Ə.Sabir, A.Səhhət kimi klassiklər, S.S.Axundov, C.Cabbarlı, S.Vurğun, S.Rüstəm, R.Rza və s. müasir sovet yazıçılarının yaradıcılığı ilə tanış olmuşdular (Sadıq, 1945, 15 dekabr, s.3).

Cənubi Azərbaycanda milli mədəniyyətin və incəsənətin həqiqi inkişaf və çiçəklənən dövrü Milli Hökumətin sayəsində olmuşdu. Təbrizdə dövlət teatrı, dövlət filarmoniyası, Behzad adına İncəsənət Muzeyi və s. mədəniyyət ocaqları yaradılmışdı. Ərdəbildə, Marağada, Urmiyada teatrlar təşkil edilib yerli aktyorlar xalqın maarif və mədəniyyətinə xidmət edən məzmunlu tamaşalarda oynadılar. Təbriz aktyorları Cənubi Azərbaycanın şəhər və kəndlərinə səfər edib ömründə teatr görməyən kəndlilər üçün tamaşalar göstərdilər. C.Məmmədquluzadənin “Danabaş kəndinin əhvalatları”, “Anamın kitabı”, “Usta Zeynal” pyesləri və s. müəlliflərin əsərləri “21 Azər” hərəkatı dövründə Təbrizdə tamaşaya qoyulmuş, cəhalətə, xurafata qarşı mübarizə, milli maarifçilik ideyaları təbliğ edilmişdi (“Azərbaycan” qəzeti.., 2022, s.464, 867).

Təbriz radiosu Azərbaycan musiqisini bütün dünyaya yayırdı. “Azərbaycan” qəzeti yazırdı ki, ADF-nin hakimiyyəti dövründə musiqi ustadlarının məharəti beş-on əyyaş və əxlaqsız adamların keyfinə yox, xalqın istirahət saatlarının xoş keçməsinə sərf edilirdi. Azərbaycan milləti Milli Hökumət dövründə incəsənətimizin tərəqqi və inkişafını heç vaxt unutmayacaqdır (Əsgərzadə, 1948, 22 may, s.4). Milli Hökumət xalqın tarixi-mədəni yaddaşını canlı tutmaq üçün Səttarxan, Bağırxan, M.Xiyabani kimi millət qəhrəmanlarına heykəllər, abidələr qoydurmuş, Təbriz şəhərində Ali İncəsənət və Rəssamlıq Məktəbi, Azərbaycan Rəssamlar və Heykəltəraşlar Cəmiyyəti təşkil olunmuşdu (“21 Azər – 70”.., 2015,

s.8). Təsadüfi deyil ki, ADF-nin proqramında xüsusi olaraq qeyd edilmişdi ki, teatrın böyük ictimai tərbiyə ocağı olduğunu nəzərə alaraq Təbriz və başqa Azərbaycan şəhərlərində olan teatrların xərcləri dövlət tərəfindən təmin edilməlidir. Azərbaycanın tarixi yadıgarlarini mühafizə etmək üçün milli bir muzey yaratmaq lazımdır (Qızıl səhifələr.., s.69). Təbrizdə Səttarxan adına xiyaban salınmış, lakin "21 Azər" hərəkatının süqutundan sonra onun adı dəyişdirilib "Pəhləvi xiyabanı" olmuşdu. "Azərbaycan" qəzeti bu haqda yazırdı ki, Təbrizdə azərbaycanlıları qurbanlıq qoyun kimi kəsən Rza xan Pəhləvi adına xiyaban olmamalıdır. Bunlar ruhumuzu incidir ("Azərbaycan" qəzeti.., 2022, s.111).

"Azərbaycan" qəzeti yazırdı ki, illər boyu bütün milli varlığımız Pəhləvi hakimiyyətinin təhqirinə məruz qaldığı kimi milli musiqimiz də onların fitnəkarlıq siyasəti nəticəsində əzilib təhqir olunmaqda idi. Milli Hökumət bütün milli varlığımızı və onunla bərabər milli musiqimizi də mürtəce şah hökumətinin qəsbkar pəncəsindən geri alıb millətin öz yaradıcı əlinə tapşırdı (Müciri, 1948, 13 oktyabr, s.1). Qəzetdə Milli Hökumət tərəfindən dövlət teatrının və filarmoniyanın açılmasının böyük milli uğur olduğu və Pəhləvi istibdadının milli mədəniyyətimiz üzərindəki təzyiqinin müvəqqəti də olsa yox edildiyi vurğulanmışdır. Teatrın açılması münasibətilə S.C.Pişəvəri xalqı və mədəniyyət işçilərini təbrik etmiş, bu günün "milli mədəniyyətimizin inkişafında atılmış mühüm bir addım" olduğunu qeyd etmişdi (Səbahi, 1946, 31 mart, s.2). "Azərbaycan" qəzeti yazırdı ki, ADF-nin məğlubiyyətindən sonra şah hökuməti sanki başını itirərək, milli mədəniyyətimizə gizli heyran qalmış və Milli Hökumətimiz dövründə yetişdirilmiş çalğıçıları, aktyorları Tehrana aparmışdır. Həmçinin ana dilimizdə yaradılmış gözəl el mahnılarını fars dilinə tərcümə edib, böyük sənətkarlarımızın adını çəkmədən "məhəlli nəğmə" adlandırıb musiqimizin qiymətini azaltmaq və onun milli xüsusiyyətlərini danmağa çalışdı (Müciri, 1948, 13 oktyabr, s.4). "Azərbaycan" qəzeti şah hökumətinin Təbriz filarmoniyasını dağıdıb qarət etdi-

yini, Azərbaycan musiqisinə ədavət bəslədiyini göstərmişdir.

"Azərbaycan" qəzetində xalqımızın dəyərli mütəfəkkir, şair və s. ziyalılarının əsrlər boyu yaratdığı, lakin itkin düşmüş və ya xaricə daşınmış əsərlərinin tapılması problemi təqdim edilmişdir. "Nadir xətti kitabları hifz etmək lazımdır" adlı məqalədə yüz illərdən bəri Avropa müstəmləkəçilərinin Şərq ölkələrini soyub öz ölkələrinə daşımalarının Şərq mədəniyyətinə ağır zərbə vurduğu qeyd edilir və göstərilirdi ki, bu talançılığa Azərbaycan mədəniyyəti də məruz qalmışdır. Ədəbiyyat, incəsənət, tarix və mədəniyyətimizin ən gözəl və nadir sənədləri London, Paris və Nyu-York muzeylərinə daşınmışdır (Nadir xətti.., 1948, 14 fevral, s.3). Qəzet bu qiymətli əsərləri yenidən Cənubi Azərbaycana qaytarmanın vacibliyini vurğulayırdı.

"Azərbaycan" qəzetində Pəhləvi hakimiyyətinin incəsənətdən şahpərəstliyi təbliğ etmək üçün istidafə etməsi tənqid edilirdi. "21 Azər" hərəkatının məğlubiyyətinin üçüncü ildönümü münasibətilə şahpərəstlər tərəfindən Rza şahın tablosu hazırlanmış və bu tablonun guya azərbaycanlıların şaha olan məhəbbətinin təzahürü olduğu bildirilmişdir. "Azərbaycan" qəzeti bu münasibətlə yazırdı ki, mürtəcelər bir həqiqəti başa düşmək istəmirlər ki, Azərbaycan millətiylə şah arasında barışmaz düşmənlik münasibəti mövcuddur. Bu həmin Rza şahdır ki, Azərbaycanı viran qoyub. Azərbaycan millətinin adından tablo düzəldib Tehrana göndərmək, Azərbaycan millətini şahpərəst adlandırmaq şah hökumətinin həyasızlığına nümunədir (Rizvan, 1949, 16 fevral, s.1). Şah hökumətini cəlladlıqda ittiham edən qəzet yazırdı ki, Azərbaycan millətinin iradəsini təmsil edən rəssam, bir gün şahın şəklini dar ağacı başında və yaxud milli məhkəmə qarşısında çəkəcəkdir (Rizvan, 1949, 16 fevral, s.4). İranda incəsənətin ancaq varlılara xidmət etdiyini, rəssamların ancaq çörək pulu üçün bu sənətlə məşğul olduğunu yazan qəzet yazırdı ki, yalnız Milli Hökumət dövründə Təbrizdə Behzad Muzeyində rəssamlara əsl iş şəraiti yaradılmış, zəhmətkeş xalqa layiq əsl incəsənət əsərləri

yaranmışdı (Fərpur, 1948, 31 mart, s.3).

"Azərbaycan" qəzetində təqdim olunan məqalələrdə Səttarxan, Bağırxan, M.Xiyabani, T.Ərani, S.C.Pişəvəri, F.İbrahimi və s. ictimai-siyasi xadimləri əks etdirən fotoşəkillər verilmişdir. Həmçinin şah və məmurları, xarici imperialistləri tənqid və ifşa edən karikaturalar qəzetdə yer almışdır. Karikaturalardan birində dollara təzim edən İran şahı Məhəmmədrza şah əks olunub və altında da bu şeir yazılıb:

"Şah atam ölkəni vəqtində satıbdır funda

Satmasam dollara mən naxələf ollam onda" (Azərbaycan, 1948, 7 aprel, s.4).

Bir digər karikaturada dollar və amerikalı əks olunub və belə yazılıb: "Satqın mətbuatın ilham mənbəyi" (Azərbaycan, 1948, 11 dekabr, s.4). "İran məclisində səs vermək üsulu" (Azərbaycan, 1948, 13 mart, s.4) başlıqlı bir karikaturada parlamentdə mürgüləyən və başları üstə "müvafiq, müvafiq" yazılan millətvəkilləri əks olunmuşdur. "Məclis fraksiyalarının rəhbərləri" (Azərbaycan, 1949, 12 yanvar, s.4) başlıqlı bir karikaturada isə amerikalılar və ingilislər parlamentdəki fraksiya rəhbərlərini, deputatları zəncirlə oynadırlar. Bir digər karikaturada amerikalının ayağı altında başında börk (papaq) olan Əfğanıstan və Türkiyə məmurları əks olunub və İranın Baş naziri İ.Həkiminin bu sözləri qeyd olunub: "Görəsən bu börklərdən bizim də başımıza qoyacaqlar?" (Azərbaycan, 1948, 24 mart, s.4). "Maarif, iş, azadlıq və çörək" tələbi ilə mitinq edən xalqın təqdim edildiyi şəkildə isə bu beyt yazılıbdır:

"Oldu amerikalıların "mərhəməti" xəlqə kələk

Yağdırır başlarına qumbara, bomb, nizə, tüfəng" (Azərbaycan, 1948, 21 avqust, s.4).

Pəhləvi hakimiyyətinin mətbuat azadlığını məhv etdiyini göstərən "Azərbaycan" qəzetində bu mövzuda karikaturalar yer alıb. Altında "İranda mətbuat azadlığı" (Azərbaycan, 1948, 15 sentyabr, s.4) yazılmış bir karikaturada əlləri arxadan qandallan-

mış və ağzı kilidlənmiş bir jurnalist, onun arxasında isə əlində açar və silah olan hərbçi şəkli əks olunub. Qəzetdə təqdim edilən karikaturalardan məqsəd ölkədəki ağır durumu bir o qədər də savadlı olmayan əhaliyə çatdırmaq və onları maarifləndirmək idi.

**Milli maarifçilik.** "Azərbaycan" qəzeti cənublu soydaşlarımızın maariflənməsi üçün elm, mədəniyyət və təhsil problemlərinə, bu problemlərin həlli mövzusunda məqalələrə geniş yer ayırırdı. Rza şah hakimiyyətinin Cənubi Azərbaycanda elm və təhsilin, mədəniyyətin inkişafına vurduğu ziyanı göstərən "Azərbaycan" qəzeti yazırdı ki, Pəhləvi hakimiyyətindən öncə Astarada xalqın öz köməyi və təşəbbüsü ilə açılan mədrəsənin tayını heç İsfahanda görmək olmazdı ("Azərbaycan" qəzeti.., 2022, s.124). F.Xoşginabi "Biz milli bir maarif yaratmalıyıq" adlı məqaləsində yazırdı ki, bizim məmləkətimizdə ana dilində kitabların yayılmasına indiyə kimi mane olublar. Biz həqiqi tariximizi göstərməliyik. İndiyə kimi tədris olunan kitablar hamısı şah rejiminin yadigarıdır. Biz milli mədəniyyətimizi qorumaq üçün maarif işçilərimizdən kömək gözləyirik (Xoşginabi, 1945, 30 dekabr, s.2).

ADF-nin proqramı və Milli Hökumətin siyasəti orta məktəblərdə ana dilində pulsuz tədrisin, ana dilində universitetin, radio və qəzetlərin nəşrinin yolunu açdı. ADF-nin proqramında göstərilmişdi ki, ana dili milli mədəniyyətin tərəqqisi üçün qüdrətli bir vasitədir. Ona görə balalarımıza həm dövlət, həm də xüsusi məktəblərdə öz ana dilimizdə tədris olmalıdır. Bunun üçün gecikmədən dərs kitablarını hazırlamaq lazımdır (Qızıl səhifələr.., s.67). Bu sevindirici xəbəri şair Osman Sarıvəlli "Kommunist" qəzetindəki şeirində işıqlandırmışdı. O, Cənubi Azərbaycanda Milli Hökumətin qurulmasının ana dilində tədrisə müsbət şərait yaratdığını belə göstərmişdi:

"Şahın şəkli yoxdur, divarə bax bir,
İndi Səttarxandır seyr edən bizi.
Əziz körpələri görüb sevinir,
Nizami, Füzuli, Saib Təbrizi" (Sarıvəlli, 1946, 3 mart, s.3;

Əliyev, 2020, s.107).

Qeyri-azərbaycanlıların da milli hüquqları nəzərə alınaraq ADF proqramında qeyd edilmişdi ki, Azərbaycanda yaşayan başqa millətlərin - kürdlər, ermənilər, aysorların öz ana dillərində məktəb açmaq hüququna ADF tərəfindən icazə verilib (Qızıl səhifələr.., s.67). ADF-nin proqramı qeyri-azərbaycanlılar tərəfindən də müsbət qarşılanmışdı. İran türkmənləri, aysorlar, kürdlər və başqa xalqlar ADF-nin yaranmasını və proqramını "Azərbaycan" qəzetinə göndərdikləri teleqram və məktublarla alqışlamışdılar. Təbrizdəki "Erməni Milli Şurası" ADF-yə göndərdiyi müraciətdə yazırdı ki, sizin İranın konstitusiyasına uyğun bəyan etdiyiniz demokratik şüarlar Azərbaycan ermənilərinin çoxdan bəri həsrətində olduğu arzulardır ("Azərbaycan" qəzeti.., 2022, s.6, 55, 113). Təbrizdə dərc olunan "Antifaşist" adlı erməni qəzeti öz səhifələrində Azərbaycan Demokrat Firqəsini təbliğ edirdi (Məmmədov. Pişəvəri..).

İran ermənilərinin bir qismi XX əsrin əvvəlində məşrutəyə dəstək olub yerli özünü idarəetmədə təmsil olunmalarına nail olduqları kimi (Nersesoğlu, 2021, s.322) yeni demokrat hökumətə tərəfdar olmaqla da öz milli-mədəni hüquqlarının qorunmasını arzu edirdilər. 1892-ci ildən mərkəzi Təbriz şəhərində olan İran daşnaklarının yerli təşkilatı (Папава, 2019, с.2) isə ADF-yə qoşulmağı yanlış saymış və belə demişdi: "Biz ermənilər üçün belə partiyalarda iştirak etmək çox təhlükəlidir. Biz ADF-yə daxil olsaq, İran hökuməti onun bütün fəaliyyətini bizim ayağımıza yazacaq və bizə divan tutmağa başlayacaq. Biz öz mövcudluğumuzu qoruyub saxlamaq üçün bütün partiyalardan kənarda durmalıyıq" (Məmmədov. Pişəvəri..). Lakin ADF ölkədəki bütün xalqların hüquqlarına hörmət edirdi və Təbriz ermənilərinin nümayəndəsi Simon Mkrtıçyan Milli Məclisin təşkilinə qədərki müvəqqəti ali idarə etmə orqanı olan 39 nəfərlik Milli Heyətin üzvü olmuş ("Azərbaycan" qəzeti.., 2022, s.607), urmiyalı aysor Danil Yuşia ADF Mərkəzi Komitəsinin üzvü və Milli Məclisə millət vəkili

seçilmişdi ("21 Azər – 70", 2015, s.173). D.Yuşia "21 Azər" medalı ilə təltif edilmiş, hərəkatın süqutundan sonra şah rejimi tərəfindən qətl edilmişdi (İsmayılov. "21 Azər" hərəkatının şəhidi..). Milli Məclisdə kürd nümayəndələr üçün beş millət vəkili yeri ayrılmışdı. Milli Hökumətin proqramında göstərilmişdi ki, Azərbaycanda yaşayan hər kəs, o cümlədən, kürdlər, ermənilər, aysorlar və digər xalqların nümayəndələri hüquq və qanun qarşısında bərabərdirlər ("Azərbaycan" qəzeti.., 2022, s.782, 870).

ADF-nin proqramını şərh edən M.Vilayi ölkədə milli maarifçiliyin inkişafı üçün vilayətlərin özünü idarəetmə qurumu olan əncümənlərin yaradılmasını və muxtariyyətin əsas şərti olduğunu irəli sürmüşdü. O, "Azərbaycan Demokrat Firqəsi Məramnaməsinin təhlili" başlıqlı silsilə məqalələrində göstərirdi ki, İranda yaşayan millətlərin əyalət və vilayət əncüməni qurmaqla özünü idarə etməsi, öz ana dilində məktəb, maarif, mədəniyyət yaratması, dövlət təşkilatlarının idarə olunmasında iştirak etmələri muxtariyyətin zəruri şərtlərindəndir. İctimai azadlığı, qələm, dil azadlığı hər bir millətin qanuni haqqıdır (Vilayəti, 1948, 24 yanvar, s.4).

Milli Hökumət dövründə milli maarifçilik siyasəti dövlətin ən prioritet məsələlərindən biri idi. Bu dövrdə Maarif naziri olan M.Biriya görkəmli şair, demokrat ziyalı idi. O, 1941-1945-ci illərdə Cənubi Azərbaycanda nəşr olunan "Azərbaycan", "Vətən yolunda", "Ədəbiyyat səhifəsi", "Yumruq", "Xavəre-no" ("Yeni Günəş") və diygər qəzetlərdə şeirləri və kiçik pyesləri ilə çıxış etmiş və böyük şöhrət qazanmışdır. O, "Vətənim" şeirində vətənpərvərliyi təbliğ edib belə yazırdı:

"Sənin uğrunda döyüşlərdə boyansam qanıma,
Ölərəm şan və şərafətlə, inan, "uf" demərəm" (Əliyev, 2020, s.102).

M.Biriya "Mən ağlaram, gülər o" adlı şeirində Cənubi Azərbaycan ilə Şimali Azərbaycanı müqayisə edir və "Mən ağlaram,

gülər o" deyərək ikiyə bölünmüş xalqın bir yanda sevinc, digər yanda kədər içində yaşadığını belə bildirirdi:

"İkimiz də bir hörmətli ananın,

Qucağında mən ağlaram, gülər o" (Biriya, 1945, 23 oktyabr, s.2).

M.Biriya 1941-ci ildən Cənubi Azərbaycanda yaranan "Azadlıq" klubları, "Azərbaycan Cəmiyyəti" və "Azərbaycan Həmkarlar İttifaqı"nda rəhbər vəzifələrdə olmuş və milli azadlıq uğrunda mübarizə etmişdir. O, Cənubi Azərbaycanda milli-mədəni inqilabda yaxından iştirak etmiş, məktəblərdə təlim-tərbiyə işlərini Azərbaycan dilində qurmaq üçün hazırlıq aparılmasına göstəriş vermişdi. Qısa müddətdə məktəblər üçün Azərbaycan dilində dərsliklər hazırlanıb çap edilmişdi. Vətən qarşısında xidmətlərinə görə o, "Səttarxan" ordeni ilə təltif edilmişdi (Çeşmazər. Məşəqqətli.., s.1). Azərbaycan xalqının Pəhləvi zülmünə qarşı mübarizəsinin səbəblərini izah edən M.Biriya deyirdi ki, əgər bir ölkədə zülm və təzyiq həddən aşıb və bir millətin hüququ bir qrup quldur və mürtəcenin təpikləri altında tapdalanırsa, o zaman millət bu qanunsuzluğa və haqsızlığa dözməz və öz hüquqi haqqını almaq və istibdad zəncirini əbədlik qırmaq üçün qiyam və inqilab edər. O, istibdada və faşizmə qarşı mübarizə aparmış sovet xalqını nümunə kimi təqdim edirdi ("Azərbaycan" qəzeti.., 2022, s.527, 528).

"21 Azər" hərəkatının süqutu ərəfəsində "Geymişəm əynimə sərbaz kimi çoxdan kəfəni" (Biriya, 1325 (1946), 16 azər (7 dekabr), s.8) deyən M.Biriya xalqı bir nəfər kimi mübarizliyə çağırmışdı. Təbrizin süqutu ərəfəsində o, bir müddət S.C.Pişəvərinin əvəzinə Təbrizdə ADF-yə müvəqqəti rəhbərlik etmiş (Balayev. Cənubi Azərbaycanda.., s.316), lakin həbs və ya qətl ediləcəyini hiss edib Sovet Azərbaycanına köçməyə və mühacirət həyatı yaşamağa məcbur olmuşdur. "Kommunist" qəzetində şair C.Xəndan tərəfindən M.Biriyanın yaradıcılığı təbliğ edilir, şairin bütün varlığı ilə xalqına bağlı olduğu, onu azadlıq uğrunda mübarizədə

alovlu şeirləri ilə birliyə səslədiyi qeyd edilirdi (Xəndan, 1947, 24 dekabr, s.3; Əliyev, 2020, s.110).

M.Biriya –

“Ruhumuz ruzi-əzəldə mütləqa azad ikən,

Bağlanıb zənciri-zülmə, daima fəryad edər”,

deyərək, Pəhləvi zülmündən xilas yolu axtarırdı. O, “Qızıl Moskva” şeirində Cənubi Azərbaycanın qurtuluşunu sovet hökumətində gördüyünü dilə gətirmiş (Xəndan, 1947, 24 dekabr, s.3), “Ədalətin eşqinə!” şeirində sovet ordusunu mədh etmişdi:

“Ellər ona hörmət qılır dünyada,

Göstərdiyi şücaətin eşqinə!” (Biriya, 1945, 22 iyun, s.2).

Lakin M.Biriya ümidlə gəldiyi Sovet Azərbaycanında repressiyaya məcbur qaldı. S.C.Pişəvərinin şübhəli ölümündən sonra M.Biriya sovet hökumətinə etimadını itirir və sovet ideologiyasına qarşı çıxışlar edir. O, hələ “21 Azər” hərəkatı dövründə Maarif naziri ikən dini ibadətlə məşğul olduğu üçün təzyiqlərə məruz qalmış, işdən çıxarılmaqla təhdid edilmişdi (Balayev. Cənubi Azərbaycanda.., s.318). M.Biriyanın mühacirətdən sonrakı həyatında dini-millətçi mövqeyi, Təbrizə geri qayıtmaq istəməsi, Sovet hökumətinə ünvanladığı məktublarda kiril əlifbasından imtina edib əski əlifbaya dönməyi tələb etməsi, erməniləri türklərin düşməni adlandırıb onları Azərbaycandan çıxartmağı, sərhədləri açmağı, sürgünə məhkum olunmuş bütün müsəlmanları vətənlərinə qaytarmağı və s. tələb etməsi M.Biriyanın uzun illər həbs həyatı yaşamasına səbəb oldu (Azərbaycan Respublikası.., s.1; Balayev. Cənublu şair.., s.59-60). Sovet Azərbaycanında təqiblərə məruz qalan şair mollalıq etməyə məcbur qalır, ancaq Pəhləvilərin süqutundan sonra, ahıl yaşlarında Təbrizə qayıda bilir. Lakin orada da İran əleyhinə fəaliyyətdə, kommunistlik ittihamı ilə günahlandırılır və 1985-ci ildə işgəncə ilə öldürülür (Çeşmazər. Məşəqqətli.., s.10). Şairin məzar daşında onun Nəsimi tərzində yazdığı aşağıdakı beytləri həkk olunub:

“Vurma əl türbətimə, türbəti-Adəm də mənəm,
Nə o dünya, nə bu dünya, iki aləm də mənəm.
Arama qəbrimi, axtarma mənim başdaşımı
Rəsmdə Həzrəti Nuh, isimdə Xatəm də mənəm” (Turan. Təbrizin..).

M.Biriya “Azərbaycan himni” mahnısının müəllifi olmuşdur (“Azərbaycan” qəzeti.., 2022, s.559). Azərbaycan Milli Hökumətinin Dövlət Himninin (“Sürud”) mətninin müəllifi isə təbrizli şair Mirmehdi Etimad Natiqi, bəstəkarı C.Cahangirov olmuşdur (Etimad, 1946, 2 aprel, s.2; Azərbaycan Milli Hökumətinin...). “Azərbaycan” qəzetində M.Etimad “Azərbaycanın böyük milli şairi” adlandırılır. “Vətən məhəbbəti aləmdə xəlqin izzətidir!” deyən şairin “Şanlı Azərbaycan”, “Gəlinlər bəzəyi” və s. əsərləri qəzetdə çap edilmişdi (Şanlı Azərbaycan, 1946, 16 aprel, s.1, 3). M.Etimadın “Şəfəq” jurnalında təqdim edilmiş şeirlərində Sovet Azərbaycanı təbliğ edilmişdi:

“Oxuyur o ölkədə bülbül nicat nəğməsini,
Verir cahana azadlıq şüarının səsini” (Etimad, 1945, № 5, s.25).

Milli təhsil sistemінə böyük əhəmiyyət verən Milli Hökumət büdcənin 15 faizindən çoxunu milli maarifin inkişafına ayırmışdı (Bayramzadə, 1991, s.48). “Azərbaycan” qəzeti Milli Hökumətin müəllimlərə verdiyi dəyəri göstərərək yazırdı ki, müəllimlərin hüquqları və maaşı Rza şah dövrünün müəllimlərinin maaşlarından çox idi. Qocalmış müəllimlərə təqaüd verilirdi. Müəllimlərə bayramlarda mükafat verilirdi və hətta onların ayrıca birlikləri də təşkil olunmuşdu. Milli hökumət dövründə müəllimlər həm xalq, həm də hökumət tərəfindən müəllimə layiq olan ehtiramla qarşılaşmışdılar. Milli hökumətin müəllimlər içün yaratdığı şərait nəticəsində ziyalıların çox hissəsi müəllimlik etməyə başlamışdı (Bəxşi, 1948, 23 oktyabr, s.4). Ölkədə ümumi savadsızlığı ləğv etmək üçün bütün millətlərin hüququnun qorunmasının və yoxsulluğa qarşı mübarizənin vacibliyinə diqqət çəkən “Azərbaycan” qəzeti yazırdı ki, İran xalqlarının təhsil hüququna hörmət etmək

lazımdır. Milli hökumət dövründə bu məsələ icra olundu, işsizlik aradan qaldırıldı. Ana-atasız uşaqlar üçün sığınacaqlar açıldı. Şəhərlərdə və kəndlərdə ana dilində məktəblər təsis edildi. Tələbələrə pulsız dərsliklər verildi. Təbrizdəki Darülfünunda (Universitet-Ə.F.) 600 tələbə təhsil alırdı. Onlara yataqxana, yemək, paltar və bunlardan əlavə aylıq təqaüd verilirdi və beləliklə az bir müddət içərisində ana dilimiz yüksək dərəcədə inkişaf etdi" (Əlioğlu, 1948, 21 yanvar, s.1).

Pəhləvi hakimiyyətinin təhsilə biganəliyini "Azərbaycan" qəzeti tənqid edir və yazırdı ki, dövlət millətin təhsili üçün pul xərcləmək istəmir. Çünki savadlanıb öz hüququnu düşünən bir millət əsarət altında qalmaq istəməz (Əlioğlu, 1948, 17 yanvar, s.4). Təhsilin həddindən artıq bahalı olması yerli mütəxəssislərin artmasına, kasıb uşaqların oxumasına maneə idi. "Azərbaycan" qəzeti yazırdı ki, İranda maarif və məktəblərin qapısı zəhmətkeşlərin balalarının üzünə bağlıdır. Çünki mövcud olan ibtidai, orta və ali məktəblərin hamısı pulludur və təhsil almaq üçün bu məktəblərdə oxuyan şəxslər hər ay müəyyən qədər pul ödəməlidir. Lakin yoxsul ailələrin uşaqları üçün bu, imkansızdır (Davudzadə, 1948, 31 iyul, s.1).

Pəhləvi hakimiyyəti zamanı azərbaycanlıların məktəblərdə ancaq fars dilində təhsil almasının zərərlərini göstərən "Azərbaycan" qəzeti yazırdı ki, bu şagirdlər nə öz dilini yaxşı öyrənə bilir, nə də fars dilini (Məhəmmədzadə, 1948, 24 iyul, s.4). Şagirdlər özlərinə yad olan fars dilini çətinliklə öyrəndiklərindən digər fənləri öyrənməyə vaxt tapa bilmirlər. Pəhləvi hakimiyyəti milli maarifçiliyə zərbə vurmaq üçün azərbaycanlı müəllimləri hədəf seçib. "Azərbaycan" qəzeti yazırdı ki, İran Maarif Nazirliyinin əmri ilə məktəblərdə azərbaycanlı müəllimlərin əvəzinə mürtəce fars müəllimlərini təyin edirlər. Nəticədə azərbaycanlı müəllimlər işsiz qalaraq məcburi surətdə küçələrdə ərizə, məktub yazmağa və yaxud alver etməyə məcbur olurlar (Bəxşi, 1948, 23 oktyabr, s.1, 4). Demokrat ruhlu bu müəllimlərin dərs demək

hüququ hökumət tərəfindən ləğv edilmişdir (Bayramzadə, 1991, s.50). Qəzetdə həmçinin göstərilirdi ki, müəllimlər dərs deyərkən İran xalqlarının məhrum olduqları ən sadə hüquqdan bəhs etdikdə kommunistlik ittihamı ilə cəzalandırılırlar (Şəkibxan, 1948, 13 noyabr, s.1, 4). "Universitet siyasətdən kənar qalmalıdır" (Şəkibxan, 1948, 13 noyabr, s.4) deyən Pəhləvi hakimiyyəti müəllimləri, tələbələri kommunistlik ittihamı ilə, sürgünlə, həbslə qorxudaraq, diktaturanı gücləndirir, insan haqlarını yox etməyə, azadlıq ideyalarını boğmağa çalışır. Hakimiyyətin istifadə etdiyi digər bir metod ana dilimizdə olan kitabları nümayişkaranə şəkildə yandırmaq, yox etmək idi. "Azərbaycan" qəzeti yazırdı ki, şah hökuməti əgər geniş kütlələrin savadlanmasına tərəfdar olsaydı, o, Milli Hökumətimizin maarif ocaqlarını yıxıb qarət etməzdi. Xalqımızın savadlanmasına imkan yaradan Milli Hökumətin ana dilimizdə çap etdirdiyi kitabları yandırmazdı (Müciri, 1948, 13 oktyabr, s.4). "Azərbaycan" qəzeti yazırdı ki, bizim kitablarımızı yandırsalar da, hər bir azərbaycanlının ruhunun və ürəyinin ən dərinliklərində şölə çəkən intiqam alovlarını, azadlıq sevgisi alovlarını söndürə bilməyəcəklər (Xoşginabi, 1947, 2 dekabr, s.3).

Pəhləvi hakimiyyəti qeyri-farsların milli hüquqlarını pozmaqla yanaşı, onların varlıqlarını yox saymaq və təhqir etmək yolunu seçmişdi. "Azərbaycan" qəzeti yazırdı ki, Tehran radiosundakı verilişlərdə portaqal satan azərbaycanlılara nisbətlə bütün azərbaycanlıları "portuqalfüruş" adlandırırlar. Bu söz Pəhləvi təbliğatçılarının və şovinist məmurların dilində fars dilində yaxşı danışa bilməyən azərbaycanlıları təhqir etmək üçün istifadə edilir. "Azərbaycan" qəzeti yazırdı ki, bəs Tehranda "portuqalfüruş" adlandırılan azərbaycanlılar kimlərdir? Bunlar Azərbaycanın zəhmətkeş fəhlə-kəndliləridir. Bunlar ağır iqtisadi problemlər səbəbilə jandarm, mülkədar və məmurların zülmündən bezərək, baş götürüb qaçan Azərbaycan kəndliləridirlər. Bunlar cibi dolmaq bilməyən zavod-fabrik sahibləri tərəfindən işdən qovulmuş, işsiz qalmış Azərbaycan işçiləridir. Şah hökumətinin həyasız təhqir-

lərinə baxmayaraq, bunlar ən şərəfli, ən namuslu və zəhmətkeş azərbaycanlılardır (Açıq təhqir.., 1949, 5 yanvar, s.1, 3). "Azərbaycan" qəzeti yazırdı ki, millətimizin bəzi fərdlərinin Tehran küçələrində portaqal satması eyib deyil. Lakin şah hökumətinin bir ovuc dollardan ötrü İran xalqlarının iqtisadi və siyasi azadlığını ingilislərə, amerikalılara satması eyibdir. Şahın xalqa xəyanəti, saraydakı əxlaqsızlıqlar eyib deyil, ancaq gündəlik məişətini təmin etmək üçün azərbaycanlıların portaqal satması eyibdir? (Açıq təhqir.., 1949, 5 yanvar, s.3) "Azərbaycan" qəzeti yazırdı ki, xalqımızın milli varlığını, ana dilimizi inkar edən fars şovinistləri Təbriz radiosunda Azərbaycan dilində danışarkən çox utanmazcasına "məhəlli ləhcədə danışırıq" deyə bir neçə milyonluq millətin dilini "məhəlli ləhcə" adlandırır və xalqımızı təhqir edirlər (Məhəmmədzadə, 1948, 24 iyul, s.4).

"Azərbaycan" qəzeti Milli Hökumətin süqutundan sonra Təbriz radiosunun mürtəce Pəhləvi hakimiyyətinin əlində bir alətə çevrildiyini, onun bütün vətəndaşların ibtidai təhsil almasına qarşı çıxış etdiyini tənqid edir. Qəzet yazırdı ki, Təbriz radiosu hər sözü ilə xalqların nifrətini özünə cəlb edir. Bu radio utanmazcasına İran xalqlarına xitabən deyir ki, xalq savadlı olsa, məmləkətin idarəsində heç bir tərəqqi görünməz, hətta siyasi cəhətdən geri qalar, lakin əvəzində beş və ya on nəfər siyasi və alim adam İranı çox ləyaqətlə idarə edə bilər (Məhəmmədzadə, 1948, 11 sentyabr, s.1). Qəzet Pəhləvilər dövründə orta və ali məktəblərdə ancaq kapitalist və mülkədarlar üçün lazım olan itaətkar və səbirli xidmətçilərin, məmurların yetişdirildiyini, onların ictimai-siyasi maarifçilikdən məhrum edilmələrini tənqid edir. Müəllif Milli Hökumət dövründə bu kimi mənfi hallarla mübarizə aparıldığını, nəinki azərbaycanlıların, bütün İran xalqlarının milli-mədəni hüquqlarının qorunmağa çalışdığını bildirir (Məhəmmədzadə, 1948, 11 sentyabr, s.4). Lakin təəssüf ki, Milli Hökumətin ömrü qısa oldu və nəticədə Pəhləvi hakimiyyəti yenidən Azəırbaycan milli mədəniyyətinin, insan hüquqlarının qabağını kəsdi. "Azər-

baycan" qəzetində Pəhləvilər dövründə pulsuz təhsilin və ana dilində tədrisatın olmamasının, əksər uşaqların yoxsulluq səbəbilə işləmək məcburiyyətində qalmasının ümumi təhsilə ən böyük maneə olduğu göstərilir (Əlioğlu, 1948, 17 yanvar, s.4).

Son olaraq deyə bilərik ki, bu fəsildə "Azərbaycan" qəzetinin materialları əsasında Azərbaycanın qədim və orta əsrlər dövrü, Qacarlar və Pəhləvilər dövründə ədəbiyyat və incəsənət, təhsil, mədəniyyət məsələləri tədqiq və təqdim edildi. Bu fəsildə "Azərbaycan" qəzetinin yazarlarının məqalələri əsasında etnik və dini məsələlər, Sasanilər dövründə şah hakimiyyətinə qarşı və daha sonra ərəb işğalına qarşı azərbaycanlıların mübarizəsi, islam öncəsi və islam dövrü Azərbaycan şairləri və mütəfəkkirlərinin yaradıcılığı, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər dövrü mədəniyyətimizə yer ayrılmış, bu mövzuda qəzetdə təqdim edilmiş materiallardan bəhs edilmişdir. Həmçinin "Azərbaycan" qəzetinin xanlıqlar dövrünə və Rusiya işğalına münasibəti, XIX-XX əsrin əvvəlləri dövrünün Şimali və Cənubi Azərbaycan ziyalılarının, şair və mütəfəkkirlərinin əsərlərindən nümunələr, Qacar və Pəhləvi hakimiyyətlərinə, farslaşdırma siyasətinə qarşı mücadilə, sovet hakimiyyəti dövründə xalqlar dostluğu məsələləri qəzet materialları əsasında tədqiq edilmişdir. Həmçinin qəzetdə güneyli yazarların milli mədəniyyətə, elm və təhsilə xidmətləri, milli və xarici ədəbiyyata baxış, azərbaycançılıq, "Azərbaycan" qəzetinin azərbaycançılığa və sovet ideologiyasına uyğun elmi-mədəni, ictimai-siyasi məsələlərə baxışı təhlil olunmuşdur.

# IV FƏSİL
# "AZƏRBAYCAN" QƏZETİNDƏ SİYASİ, İCTİMAİ VƏ İQTİSADİ PROBLEMLƏRƏ MÜNASİBƏT

## 4.1. Pəhləvi hakimiyyəti nümayəndələrinə münasibət

"Azərbaycan" qəzetində Pəhləvi sülaləsi – Rza şah və Məhəmmədrza şah, Əşrəf Pəhləvi və digər şahzadələr, Pəhləvi hakimiyyəti zamanı müxtəlif vaxtlarda Baş nazir və ya nazir vəzifələrində işləmiş S.Z.Təbatəbai, Ə.Qəvam, İ.Həkimi, M.S.Marağayi və digər hökumət üzvləri haqqında müxtəlif məqalələr yer alıb. Onlar qəzetdə ifşa edilmiş, ölkəni ingilis-amerikan müstəmləkəsinə çevirmək istəyən "xəyanətkar və mürtəce" şəxslər sayılmışdılar (Hizbi-Tudeyi-İran.., 1948, 13 oktyabr, s.4; F.S. 1948, 19 fevral, s.3). "Azərbaycan" qəzeti yazırdı ki, hökumət rəsmiləri, o cümlədən, İ.Həkimi, S.H.Tağızadə və digərləri xalqın şəraitini düşünməyib ancaq Pəhləvi hakimiyyətini möhkəmləndirməyə çalışırlar (Azərbaycan, 1948, 28 fevral, s.4). Təbrizli İ.Həkimi, S.H.Tağızadə, M.S.Marağayi və digər bir çox hökumət rəsmilərinin əslən azərbaycanlı olmalarına baxmayaraq, Azərbaycan xalqına yox, mürtəce Pəhləvi hökumətinə və Qərb imperializminə xidmət etdikləri qəzetdə göstərilir və tənqid edilirdi (Saidi.., 1948, 11 dekabr, s.1; Saidin.., 1949, 26 yanvar, s.3). Bu kimi şəxslərin vətən xaini olub İran və Azərbaycan adından danışmağa ixtiyarlarının olmadığını bildirən "Azərbaycan" qəzeti yazırdı ki, nəinki S.H.Tağızadə, hətta onun kimi digər hökumət başçılarının, S.Z.Təbatəbainin, İ.Həkiminin, Ə.Qəvamın və başqalarının da dəfələrlə rüsvay olmasını xalq görübdür. Onların nümunəsində İranın burjuaziya sinfi, hakim təbəqəsi və onların arxasında duran ingilis imperialistləri də rüsvay olurlar (Müciri, 1949, 5 fevral, s.4). "Azərbaycan" qəzeti əlləri millətin qanına batmış Pəhləvi hakimiyyətinin anti-xalq siyasətini tənqid edərək yazırdı ki, məmləkəti xaricilərə satan Ə.Qəvamlar, S.Z.Təbatəbailər iş

başındadır (Həbibi, 1948, 31 iyul, s.4).

Pəhləvilər dövründə müxtəlif zamanlarda, çox vaxt qısa müddət dövründə tez-tez hökumət başçısı olan S.Z.Təbatəbai, İ.Həkimi, M.S.Marağayi, Ə.Qəvam kimi Baş nazirlər əslində eyni sistemin məhsulları idi və eyni ağaya – Pəhləvilərə və Qərb imperializminə xidmət edirdilər. "Azərbaycan" qəzeti yazırdı ki, İran parlamentində iki xəyanət qütbi gözə çarpmaqdadır. S.H.Tağızadə, M.Sədrül-əşraf və başqaları bir tərəfdə, digər tərəfdə isə Ə.Qəvam və başqaları bu iki qütbü təşkil edirlər. Bu iki dəstənin liderləri "zəncirli it" kimi amerikan-ingilis imperialistlərinin yedəyində getdikləri kimi başqa xainlər və satqınlar da "noxtalı tula" kimi bunların quyruğunda sürünürlər. Parlamentdə fraksiyaların sayının çox olduğuna baxmayaraq onların hamısı iki mehvər ətrafında fırlanır. Bu iki mehvər amerikan-ingilis imperialistlərinin İranda tətbiq etdikləri müstəmləkəçilik siyasətinin mehvərindən ibarətdir. Bir tərəfdə dollar, digər tərəfdə isə fund-sterlinq ağalığı hökm sürməkdədir. Bu iki rəqibin siyasəti icab etdikdə bir kabinet yıxılır, başqa kabinet iş başına gəlir. İran hökuməti bir tərəfdən ingilislərin siyasi nüfuzu altında, digər tərəfdən isə amerikalıların iqtisadi əsarəti altındadır (Müciri, 1949, 12 yanvar, s.3).

Pəhləvilər sülaləsinin banisi olan Rza şah 1878-ci ildə Mazandaranda anadan olmuşdur. Rza Pəhləvinin əcdadı əslən Qafqazdandır (Abrahamian, 2011, s.86) və ana tərəfdən gürcü, çərkəz və ya irəvanlı (Kurtuluş, 2008, s.67) olduğu bildirilir. Kiçik yaşlarından yetim qalan Rza atası Abbasəli Dadaş bəy kimi hərbi peşəni seçmiş və əmisinin işlədiyi İran kazaklarının hərbi dəstəsində xidmətə başlamışdı. İstedadı və zəhməti sayəsində vəzifə pillələrində sürətlə qalxan Rza xan I Dünya müharibəsi zamanı batalyon komandiri olmuş, "mir-pənç" (briqada generalı) rütbəsinə yüksəlmişdi (Kurtuluş, 2008, s.67). 1917-ci il bolşevik çevrilişindən sonra o, ingilislərlə əməkdaşlığa və bolşeviklərlə mübarizəyə başladı. 1918-ci ildə Gilanda Mirzə Kiçik xanın rəhbərlik etdiyi

Cəngəli üsyanının məğlub edilməsində əsas rol oynadı (Yazıcı, 1993, s.366-367). Mirzə Kiçik xanın kəsilmiş başı Rza xana töhfə kimi göndərilmişdi (“Azərbaycan” qəzeti.., 2022, s.60).

1921-ci ilin əvvəlində Rza xan tabeliyində olan 2500 nəfərlik Kazak dəstəsi ilə Tehranda hərbi çevriliş etdi və onun dəstəklədiyi S.Z.Təbatəbai tərəfindən yeni hökumət kabineti quruldu. Əhməd şah Qacar məcbur qalaraq Rza xanı “sərdari-sipəh”, yəni ordunun baş komandanı və Hərbiyyə naziri təyin etdi. Rza xanın təzyiqləri səbəbilə daha sonra S.Z.Təbatəbai Baş nazirlikdən istefa verməyə məcbur oldu (Sayyid Zia...). “Azərbaycan” qəzeti yazırdı ki, parlamentdə Rza xanın əleyhinə etirazlar olsa da, o, ingilislərin yardımı ilə öz diktatorluq və istibdad sistemini qura bildi, məşrutə dövründə əldə edilmiş nisbi azadlıqları da yox etdi (Azərbaycan milləti.., 1948, 4 avqust, s.1).

1923-cü ildə Əhməd şah Qacar Rza xanı Baş nazir təyin etməyə məcbur qalaraq Avropaya getdi. 1924-cü ilin əvvəlində İran parlamenti Avropada olan Əhməd şahı hakimiyyətdən salaraq Qacarlar sülaləsinə son verdi. Əhməd şahın vəzifədən qovulmasında ingilis hakimiyyətini günahlandıran “Azərbaycan” qəzeti yazırdı ki, ingilislər konstitusiya tərəfdarlarını öz qanunsuz hakimiyyətinə təhlükə saydığı üçün müstəbid bir hökumətin təşkilini və bu hökumətin əliylə bütün İranda, xüsusilə İran Azərbaycanında azadlıq hərəkatını boğmağa çalışır. Əhməd şah Qacar bu iş üçün zəif idi. Buna görə də “quldur” Rza xanın vasitəsilə Qacarlara qarşı dövlət çevrilişini təşkil etdilər (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.3).

Rza xan öncə Qərb ideologiyasının təsiri ilə respublika rejimini qurmaq istəsə də, ruhanilərin narazılığı səbəbilə şahlıq rejiminin davamına razılıq verdi. 12 dekabr 1925-ci ildə parlament tərəfindən Rza xan “şahənşah” elan edildi və Pəhləvilər sülaləsi hakimiyyətə gəldi (Kurtuluş, 2008, s.67). Rza xanın Qacar konstitusiyasına zidd olaraq (متمم قانون...) qanunsuz şəkildə şah olması S.C.Pişəvəri tərəfindən tənqid edilmişdi. O, göstərirdi ki, Rza

şah konstitusiyanın söz və insan azadlığı, yerli özünü idarəetmə, demokratik təşkilatlar, azad seçki, şah hakimiyyətinin Qacarlara aid olması və s. bir çox maddələrini yox sayıb icra etmədi və öz müstəbid hakimiyyətini möhkəmləndirdi (Pişəvəri, 2005, s.102; Pişəvəri, 2016, s.195).

Pəhləvilərin hakimiyyətə gəlməsi ilə Azərbaycan türklərinin tarixində daha faciəli bir dövrə qədəm qoyulmuş oldu. F.Ələkbərlinin yazır ki, Qacarların devrilməsindən sonra ölkədə tək mədəniyyət, tək dil, tək millət olaraq "farslıq" və "İran" anlayışları zorla şüurlara yeridilməyə başladı. Fars düşüncə sistemi türk düşüncə sistemi üzərində qələbə qazandı (Ələkbərli, 2021, s.101-102).

Rza şah tədricən dövlət mexanizmini, parlament və məhkəməni də bilavasitə özünə tabe etdi və o dövrlərdə Atatürk Türkiyəsində həyata keçirilən sərt islahatların təsirinə düşərək zahirən modernləşmə və qərbləşmə yolunda köklü dəyişikliklərə başladı. Lakin şah tərəfindən şəriət məhkəmələrinin vəzifələrinin məhdudlaşdırılması, xüsusən də hüquqi islahatla başlayan dünyəviləşmə prosesində ruhanilər ilə qarşıdurma yarandı. 1927-ci ildə şaha qarşı üsyanlar başladı, lakin hökumət qüvvələri onları zorakılıqla yatırtdı. Elə həmin il siyasi təşkilatlar bağlandı, siyasi həbslər başladı, şah diktaturasına qarşı çıxan bir çox müxalif ziyalı, xüsusilə kommunistlər, sosial-demokratlar həbs edildi. "Azərbaycan" qəzeti yazırdı ki, Rza şah hökuməti İranda söz azadlığını tamamilə ləğv etdi, hürriyyətçi iranlıların səsi zindanlardan gəlməyə başladı (Ə.Ş., 1948, 3 yanvar, s.3).

Rza şahın hakimiyyətə gəlməsindən sonra nəinki azərbaycanlıların, hətta bütün iranlıların hüquqları məhdudlaşdırıldı. "Azərbaycan" qəzeti yazırdı ki, Rza şah hökuməti öz qəddar siyasəti ilə diktaturanı qüvvətləndirib, İranda yaşayan millətlərin azadlığını məhv etdi (Vilayəti, 1948, 24 yanvar, s.4). Qəzetdə göstərilirdi ki, Rza şahdan əvvəl ölkədə Azərbaycan dilində qəzetlər nəşr olunurdu, məktəblərdə Azərbaycan dilində dərs keçirilirdi.

Azərbaycanlılar dünyanın böyük ölkələri ilə ticarət və iqtisadiyyat münasibəti yaratmışdılar və İran Azərbaycanının XX əsrin əvvəllərində özünə layiq sərvət və ticarəti, maarif və mədəniyyəti var idi. Lakin Rza şah hakimiyyətə gəldikdən sonra milli hüquqlarımız məhv edildi ("Azərbaycan" qəzeti.., 2022, s.65). Beləliklə, 1925-ci ildən sonra İranda Azərbaycan dilində təhsil qadağan edildi, həmçinin orduda və məktəblərdə Azərbaycan dilində danışmağa görə ciddi cəzalar, cərimələr tətbiq edildi. 1928-ci ildə Azərbaycan dilində qəzet-jurnalların və kitabların nəşri qadağan edildi, Azərbaycan dilində olan tarixi və coğrafi adların farslaşdırılması başlandı (Ələkbərli, 2021, s.102-103). Hətta "İranlıyam, ancaq türkəm" deyənlər də həbs və ya sürgün edilirdi (Tahirzadə, 1984, s.47). M.Tərbiyətin 1935-ci ildə Tehranda çap olunan "Danişməndani-Azərbaycan" əsərində Azərbaycan mədəniyyətini təbliğ etməsi, şimallı-cənublu Azərbaycandilli ədəbi əsərlərdən nümunələr verməsi paniranistlərin tənqidinə tuş gəlmiş, ondan Rza şaha şikayət edilmişdi (Mustafayev. Cənubi Azərbaycan.., s.79).

"Azərbaycan" qəzeti ana dilimizi təhqir edənləri, onu süni bir dil kimi göstərmək istəyənləri "bizim həqiqi düşmənlərimiz" adlandırır və bu düşmənlərin başında "ən qəddar azadlıq düşməni" olan Rza şahın adını qeyd edirdi. Qəzet yazırdı ki, Rza şahın dövründə İranda yaşayan azərbaycanlı, kürd, aysor və ermənilərə doğma ana dilində yazıb oxumaq, kitab və qəzetlər nəşr etmək, sənət və teatr əsərləri yaratmaq, yerli idarə və məhkəmələrdə, məktəblərdə ana dilindən istifadə etmək qadağan edildi, qadağanı pozanlar cərimə, həbs və ya sürgünlə cəzalandırıldı. Nəticədə, farslarla qeyri-farslar arasında böyük nifaq yarandı ("Azərbaycan" qəzeti.., 2022, s.14, 200, 489).

Rza şah M.Xiyabaninin qətl edilməsini əmr etmiş İran Azərbaycanının valisi M.H.Müxbirüssəltənəni Baş nazir təyin etməklə azadlıq hərəkatına olan nifrətini ortaya qoymuşdu. "Azərbaycan" qəzeti yazırdı ki, Rza şahın istibdadı Hitlerin faşist ideyalarını və

amalını vətənimizə gətirərək zülm və əsarəti gücləndirdi. Özünün legitimliyini dini əsaslarla möhkəmlətmək istəyən Rza şah hökuməti öz "alçaq" siyasətini və diktatorluğunu zor ilə qəbul etdirmək üçün məktəblərdə tələbələrə və millətə "şah sayeye-xodast" ("şah Allahın kölgəsidir") kimi sözləri təbliğ edərək xalqın düşüncəsini zəhərləyirdi (("Azərbaycan" qəzeti.., 2022, s.60, 200, 488).

Rza şahın 1928-ci ildəki geyim islahatı, qadınları çadradan çıxartmaq, geyimdə avropalılaşmaq təşəbbüsü ruhanilərin etirazlarını artırdı, nəticədə bir çox müxalif ruhani həbs edildi və ya sürgün edildi. Rza şah gördüyü sərt tədbirlərlə ruhanilərin dövlət içindəki təsirini azaltmağa müvəffəq oldu. Beləliklə, o, İranı müasir ordu, iqtisadi və təhsil müəssisələri ilə təmin etmək məqsədi daşıyan islahatlarını davam etdirdi, dövlət mexanizmi tamamilə yenidən quruldu. Bütün bunları edərkən o, zahirən Atatürkü nümunə götürdü və 1934-cü ildə Türkiyəyə etdiyi iyirmi beş günlük səfəri bu təsiri daha da artırdı. Mustafa Kamal Atatürk və Rza şah dövründə Türkiyə - İran münasibətləri ən parlaq dövrünü yaşadı (Kurtuluş, 2008, s.67).

Böyük Britaniyaya etimadsızlıq göstərib Almaniyaya yaxınlaşan Rza şah 1932-ci ildə ingilislərə verilən neft güzəştlərini birtərəfli qaydada dayandırmaq istəsə də, buna nail ola bilmədi. Ölkədə Hitler faşizminin təbliğatı sürətlə artmış, İran alman agentlərinin yuvasına çevrilmişdi. "Azərbaycan" qəzeti yazırdı ki, hökumət nümayəndələri hər yerdə xalqa Hitlerin şücaətindən bəhs edirdilər (Əhmədzadə, 1948, 24 iyul, s.3). Təbrizdə faşizmə meyilli, mürtəce "Azərbaycan Xalq Partiyası" və "İran-e bidar" ("Oyanmış İran") partiyaları fəaliyyət göstərirdi. İran hökuməti bu siyasi partiyalar vasitəsilə xalqı aldadaraq Cənubi Azərbaycanda demokratik hərəkatın inkişafına mane olmağa çalışırdı (Mustafayev. Cənubi Azərbaycan.., s.82). "İran-e bidar" Partiyasının orqanı olan "Fəryad" qəzeti öz səhifələrində Hitler faşizmini və "arilik" nəzəriyyəsini, almanlar kimi farsların da ali irq olması ideyasını təbliğ edirdi (Pişəvəri, 2005, s.31).

Ə.Rəhimliyə görə, Rza Pəhləvi şah olduqdan sonra Almaniya ilə yaxınlığa güclü meyil göstərirdi. Bunun əsas səbəblərindən biri də Almaniyada "ali irq" nəzəriyyəsinin tədricən geniş yayılması ilə bağlı idi. Çünki Rza şah hakimiyyətə keçən gündən farsların "ariya" adlı ali irqə mənsub olduğunu dövlət siyasətinin tərkib hissəsinə daxil etmişdi (Rəhimli, 2015, s.14). Pəhləvi hakimiyyəti farsların ali irqə - "ariya" irqinə mənsubluğunu və bu irqin almanlar ilə qohumluğunu sübut etməyə çalışırdı (Ələkbərli, 2021, s.109). A.Qasımlı yazır ki, Rza şah Azərbaycan xalqına qarşı yönəlmiş fars şovinizmi siyasətində alman faşizminin irqçilik və ariçilik nəzəriyyələrindən bəhrələnmişdir (Qasımlı, 2012, s.43).

Hitler Almaniyası SSRİ-yə hücum etdikdən sonra ingilis və sovet orduları 1941-ci ilin yayında almanpərəst Rza şahı hakimiyyətdən uzaqlaşdırmaq, Xuzistandakı Abadan neftayırma zavoduna və şimaldakı İran - Sovet əsas yoluna nəzarəti ələ keçirmək üçün İrana hücum etdilər. Rza şah ingilis və sovet hökumətlərinin tələbi ilə hakimiyyətdən uzaqlaşdırıldı və oğlu Məhəmmədrza yeni şah təyin olundu. İrandan sürgün edilən Rza şah 1944-cü ildə Cənubi Afrikada vəfat etdi (Kurtuluş, 2008, s.67).

"Azərbaycan" qəzetində verilən bir şeirdə Rza şah kimi diktatorların acı aqibəti digərlərinə belə nümunə göstərilirdi:

"Çoxları zülm eyləyib qalmayıb onlardan əsər,
Bunu dərk etmək üçün etginən tarixə nəzər.
Görəcəksən Rza xan Mursiyə (Mauritius adası-Ə.F.) etmişdi səfər,
Nə zəlalətlə ölüb, xəlqimizə gəldi xəbər.
Dollara arxalanan, bil ki, peşiman olacaq,
Qəsri viranə qalıb, məskəni zindan olacaq" (Cəfərpur, 1948, 8 dekabr, s.3).

Rza şahın cənazəsi oğlu Məhəmmədrza şah tərəfindən İrana gətirilərək Rey şəhərindəki türbədə dəfn edildi. "Azərbaycan" qəzeti yazırdı ki, Azərbaycan xalqı Rza xanın məqbərəsini heç görmək belə istəmir, hətta onun adını dilinə gətirməyə də nifrət

edir (Rza xanın.., 1948, 13 noyabr, s.4). Şahın ölümünü xalqın qurtuluşu sayan "Azərbaycan" qəzeti yazırdı ki, Rza şah diktatorluğunun dağılması ilə əlaqədar olaraq İran xalqları azad nəfəs çəkməyə imkan tapdılar (Rəhmani, 1948, 25 sentyabr, s.4).

Moskvada nəşr olunan Sovet ordusu qəzeti "Krasnaya zvezda" yazırdı ki, Rza xan hakimiyyətə gəlmək üçün xalqı aldadaraq, monarxiya əvəzinə respublika quruluşunu quracağına, demokratik islahatlar aparacığına söz vermişdi. Onun hakimiyyətdən uzaqlaşdırılması İran xalqına zülm edən despotun ölkədə on illərlə davam edən hərbi polis rejiminə, diktaturasına son qoydu və bu, xalq tərəfindən məmnuniyyətlə qarşılandı. Rza şahın xalqı istismar edərək, demokratik təsisatları məhv etməsi, qanunsuz olaraq, xalqı qarət etməsi hesabına ölkə daxili və xarici banklarda milyardlarla funt-sterlinqinin olması qəzet tərəfindən göstərilmiş və tənqid edilmişdi (К отставке.., 1941, 18 сентября, с.4).

Pəhləvilər sülaləsinin ikinci hökmdarı olan Məhəmmədrza şah Pəhləvi 1919-cu ildə Tehranda anadan olmuşdur. Məhəmmədrza Pəhləvi 1926-cı ildə vəliəhd elan edildi. İsveçrədə dörd il hərbi kollecdə, sonra Tehranda hərbi akademiyada təhsil aldı. 1941-ci ildə ingilis və sovet qoşunları İranı işğal etdikdən sonra o, istefa verən atasının əvəzinə şah elan olundu. Siyasi məhbuslar üçün amnistiya elan edən Məhəmmədrza şah siyasi partiyaların yaradılmasına icazə verdi (Kurtuluş, 2020, s.562-563). Lakin qısa müddət sonra xalqa məcburən verilən nisbi azadlıqlar geri alındı. "Azərbaycan" qəzeti yazırdı ki, İranda günbəgün diktatorluq təhlükəsi artmaqda və  faşist ünsürləri Rza şahın uğursuz hakimiyyətindən sonra əldə edilən natamam azadlığı belə boğmaq üçün hər cür fitnələrə əl atmaqdadır. Həm əyalətlərdə, həm paytaxtda hürriyyətçilər təqib olunur, demokratik hərəkatı təmsil edən qəzetlər bağlanır və demokratik təşkilatlar silah gücü ilə dağıdılır. İrtica qüvvələri Rza şahın istibdad rejimini bərpa etmək üçün hürriyyətçilərin qanını tökməkdən çəkinmirlər ("Azərbaycan" qəzeti.., 2022, s.94). Qəzetdə göstərilirdi ki, bir tərəfdən İran

xalqlarını aclıq və böhran, işsizlik bürüyüb, digər tərəfdən isə Rza şahın oğlunun süngüləri xalqların azadlığını boğur (Məclisin.., 1949, 2 fevral, s.3).

"Azərbaycan" qəzeti mərkəzi hökumətin azərbaycanlılarla müstəmləkəçi kimi rəftar etdiyini göstərir və yazırdı ki, şah hökuməti İran Azərbaycanını ingilislərin Hindistanı, İtaliyanın Həbəşistanı, Fransanın Mərakeşi kimi idarə edir və qəhrəman millətimizə müstəmləkə gözüylə baxırlar (29 Aban.., 1948, 20 noyabr, s.4). Qəzetə görə Rza şah kimi oğlu da xarici imperialistlərin razılığı ilə azərbaycanlıların dilini, milli ənənələrini və mədəniyyətini tapdalayaraq onun məhvinə çalışır (Rizvan, 1949, 16 fevral, s.1). "Azərbaycan" qəzeti ölkədə şahların dəyişdiyini, lakin istibdad sisteminin dəyişmədiyini göstərir. Öz xalqına qarşı mənfur siyasət icra edən Məhəmmədrza şah və hökuməti ingilis ağalarının qarşısında təzim edir, borc aldıqları dolların təsiri ilə amerikalılara xidmət etməyi özünə fəxr sayırdı (Müciri, 1948, 18 sentyabr, s.4). Şah 1948-ci ilin iyul ayında Britaniya kralı VI Corcun dəvətilə Britaniyaya səfər etmiş və orada görüşlər keçirmişdi. Məhəmmədrza şah bu görüşün məqsədinin İranı İngiltərədə daha yaxşı tanıtmaq olduğunu desə də, "Azərbaycan" qəzeti yazırdı ki, o, Londona gedərkən xalqın sonsuz nifrət və kinini özüylə apardı. İran hökuməti xaricilərin oyuncağı çevrilib (F., 1948, 14 iyul, s.1, 3).

Öz xalqı ac-susuz, evsiz-eşiksiz yaşadığı halda Məhəmmədrza şahın ad gününün 1948-ci ilin oktyabr ayında Vaşinqtonda təntənəli şəkildə qeyd edilməsini tənqid edən "Azərbaycan" qəzeti yazırdı ki, İran səfirliyinin İranın yoxsul xalqının hesabına təşkil etdiyi bu ziyafət amerikan milyonerlərinin məclislərindən daha təntənəli idi. Şah hökumətinin Vaşinqtonda təşkil etdiyi bu qonaqlıqların təntənəsi Vaşinqton qəzetlərində əks olunduğu zaman ana-bacılarımız ac, çılpaq şəkildə xarabalıqlarda can verirlər (İshaqi, 1948, 10 noyabr, s.4). Təbii ki, xalqa zidd olan bu siyasət ölkə daxilində şah rejiminə qarşı müxalifətin nifrətini və qəzəbini daha da artırırdı.

Məhəmmədrza şaha qarşı müxalif hərəkatın formalaşmasında Tudə Partiyası ilə yanaşı ADF və onun “Azərbaycan” qəzeti xüsusi rol oynadı. “Azərbaycan” qəzeti bütün xalqı sinfi fərqləri nəzərə almadan, Rza şahın iyirmi illik istibdad hakimiyyəti dövründə zülm və əsarətə məruz qalmış kütlələri ADF ətrafında sıx birləşməyə, mübarizə aparmağa və fəaliyyət göstərməyə çağırırdı (“Azərbaycan” qəzeti.., 2022, s.4).

1945-ci ildə SSRİ-nin hərbi dəstəyi ilə ADF tərəfindən Cənubi Azərbaycanda milli hökumət yaradılsa da, 1946-cı ildə sovet ordusunun geri çəkilməsindən sonra İran silahlı qüvvələri muxtariyyətə son qoydu, firqə üzvləri ölüm hökmü, sürgün və s. cəzalarla məhkum edildilər. “Azərbaycan” qəzeti yazırdı ki, 1946-cı ilin dekabrında ADF hakimiyyətini silah gücüylə məhv edən Məhəmmədrza şahın ordusu Təbrizə girərkən xalqımız misli görünməmiş qanlı cinayətlərə şahid oldu. Təbrizin qaşları düyünlənib, üzü gülmür. Çünki o, xarici imperialist nökərlərinin işğalı altındadır. Təbriz təhqir olunub (Müciri, 1948, 10 iyul, s.3). Tehran radiosu isə utanmazcasına bir gün şahın Londona gedib Avropada İran xalqlarının hesabına əyyaşlıq etməsini, o biri gün Təbrizə gəlib “ümumi əfv” pərdəsi altında hürriyyətçiləri qətl etdirməsini “millətə və məmləkətə xidmət” hesab edir, narazı xalqda şaha qarşı guya məhəbbət oyatmağa çalışırdı (Ciddi, 1949, 8 yanvar, s.1).

Müharibədən sonra artan ictimai-siyasi, sosial-iqtisadi problemlər ölkədə müxalifətin güclənməsinə və xalqın şaha daha çox nifrət etməsinə səbəb oldu. Lakin Şahpərəst “Sitarə” qəzeti özünün 1326 (1948)-ci il, 17 esfənd (8 mart) tarixli nömrəsində “Məhəmmədrza şahın Azərbaycana müsafirliyi” adlı məqaləsində şahın təzə ildə (yəni 1948-ci ilin 21 mart tarixindən sonra-Ə.F.) idman yarışları münasibətilə Azərbaycana gələcəyini və xalqın guya bu xəbərdən sevindiyi yazırdı. “Azərbaycan” qəzeti şahın bu ziyarətini tənqid edərək yazırdı ki, “Sitarə” kimi şahpərəst qəzetlər yalan sözlərlə xalqı aldatmağa çalışır, xalq zalım şaha ancaq nifrət edir, onu öz şahı saymır (Vilayəti, 1948, 17 mart, s.1, 4; Pişna-

mazi, 1948, 1 may, s.3). “Azərbaycan” qəzeti bu cür yalan xəbərlər yazan şahpərəst mətbuatı və mərkəzi hökuməti riyakarlıqda, xalqın soyğunçu və müftəxor məmurlara qarşı artmaqda olan narazılıq və bədbinliyinin qarşısını almaq üçün aldadıcı vədlər verməkdə ittiham edirdi. Şahpərəst mətbuat və təbliğat idarələri isə Məhəmmədrza Pəhləvini “demokrat şah” adlandıraraq (Əhmədzadə, 1948, 6 noyabr, s.4), onun süni islahatçılığını təbliğ edir, Azərbaycan xalqının öz “xoş” yaşayışı üçün həm mərhum Rza şaha, həm də Məhəmmədrza şaha minnətdar olması gərəkdiyini bildirirdi (İshaqi, 1948, 14 aprel, s.3). “Kommunist” qəzeti isə bu siyasəti tənqid edərək yazırdı ki, İran Azərbaycanında müxtəlif “islahat” vədlərindən başqa heç bir iş görülmür (İran Azərbaycanında.., 1947, 13 dekabr, s.4).

“Azərbaycan” qəzeti yazırdı ki, doğrudur, Məhəmmədrza şah bir şəhərə gedəndə əhali onu qarşılayır. Lakin bu, ancaq şallaq və süngü sayəsindədir. Polis və jandarm məmurları əhalini zor ilə şahın ziyarətinə çıxarıb ona təzim etdirirlər. Şahın şərəfinə tərtib edilən hər bir qonaqlıq süfrəsi yüzlərlə iranlı ailəsinin səfalət və göz yaşına başa gəlir (Əbluc, 1948, 5 may, s.3). “Azərbaycan” qəzetində göstərilir ki, Məhəmmədrza şahın Təbrizə getməsiylə Təbrizin şərəfi ləkələndi, Təbrizin müqəddəs torpağına “xain” şahın ayağı dəydi. Təbrizin gülşəninə bayquş qondu (Müciri, 1948, 10 iyul, s.3). Qəzetdə Məhəmmədrza şah şeir diliylə belə ifşa edilirdi:

“Mən Rza xan oğluyam, iranlıların cəlladıyam...
Almışam təlim atamdan, mən onun övladıyam,
Azəristan əhlinin indi özüm cəlladıyam.
İngilislərlə amerikanlar ucaldıb başımı,
Naxələf ollam, unutsam qayğıkeş sirdaşımı...” (Zakir, 1948, 29 may, s.3).

1943-1953-cü illərdə şahın hakimiyyəti və nüfuzu xeyli zəiflədi. Tudə Partiyası bu dövrdə xeyli güclənmişdi. ADF-nin süqutundan sonra isə S.C.Pişəvərinin yaxın silahdaşı S.Cavid

tərəfindən 1948-ci ildə Tehranda Azərbaycan Demokrat Partiyası (ADP) yaradılmışdı. Milli hərəkatın süqutundan sonra bir müddət həbs olunan S.Cavid azad olduqdan sonra yaratdığı bu partiya vasitəsilə ADF ideyalarını davam etdirmiş, Tudə Partiyası ilə yaxın əlaqələr qurmuşdu (Bayramzadə, 2015, s.165). S.Cavid öz xatirələrində yazır ki, ADP-nin Mərkəzi Bürosu (MB) 1948-1953-cü illərdə Cənubi Azərbaycanın bütün bölgələrində gizli fəaliyyət göstərmiş, hətta 1952-ci ildə özünün gizli konfransını keçirmişdi (Байрамзаде, 2016, с.209-210). ADP MB-nun rəhbəri S.Cavid özü idi. O, siyasi fəaliyyəti ilə yanaşı həkimlik və ədibliklə də məşğul olmuş, bir sıra əsərlər, o cümlədən, "Azəri folklor səhifələri", "Azəri dilinə məxsus sərf və nəhv", "Azərbaycan milli nehzətindən xatirələrim" və s. əsərlər yazmışdır (Cavid. O günün.., s.82).

Tudə Partiyası ilə müttəfiq olan Milli Cəbhə Partiyasının lideri, millətvəkili Məhəmməd Müsəddiqin təsiri altında olan parlament ilə şah arasında ziddiyyət və hakimiyyət uğrunda mübarizə var idi. Məhəmmədrza şah 1949-cu ildə Tehran Universitetinin hüquq fakültəsini ziyarəti zamanı sui-qəsdə məruz qalıb güllələndi (Şahın.., 1949, 5 fevral, s.1), lakin sağ qaldı. "Azərbaycan" qəzeti 1949-cu ilin fevralında Məhəmmədrza şaha edilən sui-qəsd haqqında məlumat verir (Rəzmara.., 1949, 19 fevral, s.3). Qəzet yazırdı ki, əgər Məhəmmədrza ölsə onun yerinə başqa bir şah gələcək. Buna görə də "Azərbaycan" qəzeti sui-qəsdlərə, fərdi terrora qarşı olduğunu bildirmiş, xalqı şahlıq sisteminin bütünlüklə məhvinə, demokratik inqilaba çağırmışdı (Biz.., 1949, 12 fevral, s.1, 4).

Məhəmmədrza şaha qarşı uğursuz sui-qəsd cəhdindən sonra hərbi vəziyyət elan edildi. Şah hökuməti sui-qəsdi bəhanə edərək Tudə Partiyasını, o cümlədən, demokratik gənclər və qadın təşkilatlarını ləğv etdi, hərbi polis rejimi elan edildi, yüzlərlə demokratik düşüncəli şəxs həbs olundu (Kurtuluş, 2020, s.562-563; Байрамзаде, 2016, с.200). Tehranın və Təbrizin hərbi

polis idarələri bu dövrdə məlumat yaymışdı ki, ADP- nin və Tudə Partiyasının ləğv edilməsinə baxmayaraq, onların üzvləri nəinki böyük şəhərlərdə, o cümlədən, əyalətlərdə gizli fəaliyyət göstərir, xalqı iğtişaşlara sövq edirlər. Hökumət və rəsmi mətbuat müxalif partiyaların üzvlərini terrorçu, quldur, soyğunçu kimi qələmə verir, təzyiq və təqiblər davam etdirilirdi (Байрамзаде, 2016, с.200-201). Gərginlik terror aktlarını daha da gücləndirdi və ADF hakimiyyəti dövründə bir müddət İran ordusunun Baş qərargah rəisi olan general, Baş nazir Əli Rəzmara (Ali Razmara) müxalif ayətullah Kaşaninin rəhbərlik etdiyi "Fədayani-İslam" (İslam fədailəri) təşkilatının üzvləri tərəfindən 1951-ci ildə qətl edildi (Bolat, 2013, s.69). Sonrakı proseslərdə Məhəmmədrza şah parlamentin, müxalif ruhanilərin, Tudə Partiyasının və xalqın tələbi ilə M.Müsəddiqi Baş nazir təyin etməyə məcbur qaldı. Şahla M. Müsəddiq arasındakı ziddiyyət daha da dərinləşdi və şaha qarşı dövlət çevrilişinə səbəb oldu. Baş nazir M.Müsəddiqin tərəfdarları tərəfindən 1953-cü ildə hakimiyyətdən uzaqlaşdırılan və ölkədən qaçan şah qısa müddətdən sonra Qərb imperializminin hərbi dəstəyi ilə "Ayaks" əməliyyatı nəticəsində hakimiyyəti yenidən ələ aldı (Kurtuluş, 2020, s.562-563). Məhəmmədrza şahın hakimiyyətə qayıda bilməsində Böyük Britaniya və ABŞ-ın xarici kəşfiyyat qurumları ilə yaxın əlaqələri olan şahın bacısı Əşrəf Pəhləvi xüsusi rol oynadı (Sadıqlı. Əşrəf..; Dabashi. Lady...).

"Azərbaycan" qəzeti yazırdı ki, Məhəmmədrza şah atasının faşizm metodlarını yenidən tətbiq etdi. Qəzet hələ "21 Azər" hərəkatı dövründə yazırdı ki, İran dövləti özünü bütün dünyada demokrat adlandırır, lakin şah hökuməti öz yaramaz hərəkətlərindən əl çəkmir və demokrat maskasının altında öz faşist fikirlərini yayırlar. Məhəmmədrza şah təkcə fars şovinizmi ilə məşğul olmayıb, onun dövründə eynilə Rza şah zamanında olduğu kimi azadlıq, demokratiya, konstitusiya kimi sözlər istehza obyekti olmuşdur ("Azərbaycan" qəzeti.., 2022, s.107, 143, 786). "Azərbaycan" qəzeti xalqı ümidsiz olmamağa, mübarizəyə çağıraraq

yazırdı ki, vaxt gələcək və zalım şahın heykəllərini xalq bir gün yerə yıxacaq (Rza xanın.., 1948, 13 noyabr, s.4).

Qacar və Pəhləvilər dövrünün dövlət xadimlərindən olan Seyid Ziyaəddin Təbatəbai Şirazda ruhani ailəsində anadan olmuş, dini və dünyəvi təhsil almış, I Dünya müharibəsi dövründə ingilispərəst "Rə`d" ("İldrım") qəzetini nəşr etmişdir (Sayyid Zia...). İran nümayəndə heyətinin başçısı kimi o, 1919-cu ildə Bakıda AXC rəsmiləri ilə danışıqlar aparmışdı. "Azərbaycan" qəzeti yazırdı ki, o, bu zaman ingilislərin casusu kimi Qafqazın Britaniya müstəmləkəsinə çevrilməsinə çalışmışdı (Saidin.., 1949, 26 yanvar, s.3).

İngilis imperialistləri 1921-ci ildə İrandakı Kazak dəstəsinin komandiri polkovnik Rza xanın vasitəsilə dövlət çevrilişi edərək öncə S.Z.Təbatəbaini Baş nazir təyin etmiş, sonra onun vasitəsilə Əhməd şah Qacarın əvəzinə "xain" Rza xan Pəhləvini hakimiyyətə gətirmişdilər. "Azərbaycan" qəzeti yazırdı ki, onların sayəsində ölkədə diktatorluq və hərbi polis rejimi quruldu (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.3; Azərbaycan milləti.., 1948, 4 avqust, s.1).

Rza xanla münasibətləri korlandıqdan sonra İranı tərk edən S.Z.Təbatəbai 1941-ci ildə Məhəmmədrza şahın dövründə ölkəyə qayıtmış, millətvəkili seçilmişdi. Onun rəhbərlik etdiyi "İradeyi-milli" (Milli iradə) Partiyası anti-kommunist, ingilispərəst bir təşkilat idi (Sayyid Zia...).

S.Z.Təbatəbainin İranda müxtəlif partiyalar, saxta "xeyriyyə" cəmiyyətləri qurub kütlələri aldatdığı, mübarizədən yayındırmağa və onları uçuruma aparmağa çalışdığı "Azərbaycan" qəzetində göstərilmişdir. Lakin İran xalqlarının mənafeyi və azadlığı yolunda irtica və imperializmə qarşı mübarizə aparan demokrat ziyalıların və Tudə Partiyasının sayəsində S.Z.Təbatəbai ifşa edilmişdi. "Azərbaycan" qəzeti yazırdı ki, Təbatəbai kimilər və onların havadarları zəhmətkeş kütlələrin mübarizələri nəticəsində məhv olmağa məhkumdurlar (Haşimi, 1948, 23 oktyabr, s.4).

Demokratlar tərəfindən tənqid edilən bir digər rəhbər şəxs dövrün Baş nazirlərindən biri olan Məhəmməd Said Marağayi idi. "Azərbaycan" qəzeti onun İrana "aclıq və böhran" gətirdiyini yazır (Said dövləti.., 1948, 8 dekabr, s.1) və ingilispərəstliyini şeir diliylə belə ifşa edirdi:

"Uymayın siz ona, bu Said həman Saiddir,
Saxlayıb nefti, bizi fəqrə salan Saiddir,
İngilislərdən ötrü zurna çalan Saiddir,
Bu həman xərdi (eşşək-Ə.F.), həman köhnə palan Saiddir" (Zakiri, 1948, 17 noyabr, s.3).

"Azərbaycan" qəzetində onun daha əvvəllər Bakıda İranın konsulu olduğu, ingilislərin Bakını işğalı zamanı sovetlər və demokratlar əleyhinə ingilislərə casusluq etdiyi, Bakı neft mədənlərində qəza zamanı həlak olan iranlı fəhlələrin əmlakını qəsb etdiyi, Bakıda sovet hakimiyyəti dövründə rüşvətlə iş görüb sovet düşmənlərinə saxta pasportlar verib onları İrana qaçırtdığı qeyd olunur. Bu kimi nalayiq xidmətlərinin, imperialistlərə satqınlığın müqabilində o, sonralar millətvəkili, nazir və hökumət başçısı olmuşdu. "Azərbaycan" qəzeti yazırdı ki, M.S.Marağayi S.Z.Təbatəbainin sayəsində yüksəlmiş və onun xain məqsədinin aləti olmuş, hər ikisi daşnaklarla əlbir olaraq ingilis imperializminə xidmət etmişdilər (Saidi.., 1948, 11 dekabr, s.3; Saidin.., 1949, 26 yanvar, s.1, 3).

"Azərbaycan" qəzetinə görə Baş nazir M.S.Marağayi İranın şimal bölgəsindəki neft imtiyazını amerikalılara vəd edib İranın siyasi və iqtisadi istiqlalını məhv etdi (Saidi.., 1948, 11 dekabr, s.4). İngilislər də şimal neftini ələ keçirmək üçün şahla danışıq aparmışdılar və nəticədə neftin 35%-ni İran dövlətinə vəd verməklə imtiyazı ələ keçirtdilər (Agahi, 1948, 4 dekabr, s.4). Lakin ingilislər İrana verdikləri bu vədi yerinə yetirmədilər.

"Azərbaycan" qəzetinə görə Pəhləvilər hakimiyyəti, xüsusilə Baş nazir M.S.Marağayinin iqtidar dövrü qaranlıq və bədbəxtlik dövrü, irticanın qüvvətlənməsi, hürriyyətçilərə zülm, iqtisadi

vəziyyətin və idari işlərin pis dövrü olmuşdur. O, ölkənin sərvətlərini ingilislərə və amerikalılara satan "muzdur, iki üzlü və hoqqabaz" bir ünsürdür. O, xain, faşist, müstəbid, xalq və azadlıq düşmənidir. Qəzetə görə İran Milli Bankının iflas etməsi onun yarıtmaz siyasətinin nəticəsi idi (Saidi.., 1948, 11 dekabr, s.4).

Lakin M.S.Marağayi özünün Baş nazir seçilməsinə "əziz həmşəhərlilərim" adlandırdığı azərbaycanlıların sevindiyini və bu seçkinin onlar üçün xoşbəxtlik və sevinc gətirdiyini, xalqın problemlərinin guya həll olduğunu iddia edirdi. "Azərbaycan" qəzeti yazırdı ki, Baş nazirin əqidəsincə azərbaycanlı olmaq guya müqəddəslikdir. O, azərbaycanlı olduğunu deməklə özünü guya pak göstərməyə çalışır. Lakin Azərbaycan milləti onun necə bir "insan" olduğunu çox yaxşı bilir (Saidin.., 1949, 26 yanvar, s.1).

Təsadüfi deyil ki, M.S.Marağayi məhz demokratiya və xalq düşməni olduğuna görə Məhəmmədəli şah Qacar dövrünün qatı məşrutə düşməni, əli minlərlə Azərbaycan gəncinin qanına batmış şah sarayının müstəntiqi Möhsün Sədrül-əşrafı ədliyyə naziri təyin etmiş (Rəhmani, 1949, 8 yanvar, s.1, 3), Məhəmmədrza şah isə Sədrül-əşrafı Baş nazir etmişdi (Мохсен...).

"Azərbaycan" qəzetində ən çox tənqid edilən şəxslərdən biri də Mirzə İbrahim xan Həkimidir. "21 Azər" hərəkatının qələbəsi dövründə İ.Həkimi hökumət başçısı idi. İ.Həkiminin yarıtmaz siyasəti "Azərbaycan" qəzetində ifşa edilmişdi. Qəzet yazırdı ki, İ.Həkimi hakimiyyətə gəldikdən sonra şahpərəst mətbuat və radio onu tərifləməyə başladılar. Bu vəziyyət həmişə təkrar olunmaqdadır. Ancaq İran xalqları bu kimi hay-küylərin həqiqi mənasını dərk edir. Onların sözlərinə aldanmır. Ə.Qəvam, İ.Həkimi və başqaları mürtəce şah hakimiyyətinin mənafeyini müdafiə edirlər. İ.Həkimi, ondan əvvəl və sonra gələn hökumət başçıları heç vaxt İran xalqlarının mənafeyini müdafiə edəcək bir iş görməyiblər və görməyəcəklər (Müxtəlif.., 1948, 14 aprel, s.1).

İ.Həkiminin hökuməti dövründə İranda mətbuata qarşı təzyiqlər daha da güclənmişdi. "Azərbaycan" qəzeti yazırdı ki,

İ.Həkimi hökuməti mətbuatın səlahiyyətini məhdudlaşdırmaq məqsədilə parlamentə layihə təqdim etmişdir. Bu layihənin məzmununa görə - əgər hər hansı bir qəzet hökuməti, ordunu və ya sarayı tənqid edərsə, məhkəməyə cəlb ediləcək və bağlanacaqdır. Belə qanunları qəbul etdirməkdən məqsəd mətbuat və əqidə azadlığını boğmaqdır (Şəmidə, 1948, 28 aprel, s.4). Bu kimi mürtəce qanunlara mütərəqqi jurnalistlərin, digər ziyalıların etirazı nəticəsiz qalmışdı. “Azərbaycan” qəzeti İ.Həkimi kimi hökumət başçılarının xalqa xəyanət etdiyini, şahın isə ingilis-amerikan məmurlarının əlində xalqa qarşı alət olduğunu yazırdı (1 may.., 1948, 1 may, s.4).

“Azərbaycan” qəzeti İ.Həkimi hökumətinin azərbaycanlılara qarşı daha zalım olduğunu, Cənubi Azərbaycanın milli sərvətinin, məhdud sayda olan ərzaq mallarının qarət edilərək Tehrana daşıdıqlarını yazırdı. Qəzetə görə bir tərəfdən Ə.Qəvam və İ.Həkimi hökumətlərinin kəndliləri kütləvi surətdə öldürtmələri, dəstə-dəstə sürgün etmələri, mülkədar və jandarm zülmü, digər tərəfdən isə ərzağın Tehrana daşınması, bol taxıl mənbəyi olan İran Azərbaycanında aclığa səbəb olmuşdur. “Azərbaycan” qəzeti xarici imperialistlərin İrana ancaq laımsız paltar, silah, qırğın gətirib, əvəzində taxıl, xammal apardıqlarını, xalqın milli azadlığını, siyasi və iqtisadi istiqlaliyyətini məhv etdiklərini, bunun nəticəsində də aclığın get-gedə artdığını yazırdı (İranda aclıq.., 1948, 12 may, s.1).

“Azərbaycan” qəzeti İ.Həkimi hökumətinin xalqı aldatmaq üçün saxta islahatlar keçirdiyini, bunun üçün də xaricdən daha çox borc alaraq vergiləri artırdığını yazırdı. Nəticədə isə yoxsul əhali daha da yoxsullaşırdı. Qəzet yazırdı ki, xain hökumət tərəfindən xalqdan o qədər vergi toplayırlar ki, daha vergi verməyə halları da qalmamışdır. Həmin İ.Həkimi hökuməti varlılara güzəşt edib ancaq yoxsulları daha da istismar edir. Hökumət xarici borclarla imperialistlərin strateji maraqlarına xidmət edərək demokratlar üçün yeni həbsxanalar, zindanlar tikir, digər tərəfdən

də hərbi məqsədlər üçün hazırlıq görür. Bunun da adını müasir mədəniyyət, abadlıq qoyurlar. "Azərbaycan" qəzeti yazırdı ki, İ.Həkimi kimilərinin elədikləri ancaq xəyanətdir, İranda islahat yalnız xalqın öz əliylə olmalıdır (Həkimi.., 1948, 22 may, s.1). "21 Azər" hərəkatının qələbəsindən sonra İ.Həkimi S.H.Tağızadənin yardımı ilə BMT-nin Təhlükəsizlik Şurasınına sovetlərdən şikayət məktubu hazırlamış və SSRİ-ni İranı parçalamaq istəməkdə ittiham etmişdi (...خوانش).

"Azərbaycan" qəzetində felyetonlardan, satiradan istifadə edərək İ.Həkimi kimilər onun öz dili ilə belə ifşa edilirdi:

"Əzərəm kütləni, bir zərrəcə ar eyləmərəm,
Hərcü-mərc etməsəm İranı, qərar eyləmərəm.
***
Mən Ziyadan da, Qəvamdan da betər məlunam,
Əcnəbi zurnasına rəqs eyləyən meymunam,
Vəhşiyəm, mərtəbeyi-növi-bəşərdən dönərəm
Əzərəm kütləni, bir zərrəcə ar eyləmərəm.
Hərcü-mərc etməsəm İranı, qərar eyləmərəm".

Felyetonun sonunda şair İ.Həkimiyə xitabən deyirdi ki:

"Lovğalanma səni də kütlə tolazlar eşiyə

Millət axtarmadadır fürsəti, durmuş keşiyə Bir siçantək qaçaraq sən girəcəksən deşiyə Bilirəm, Mirzə Həkimi, sənə də son gələcək.

Qorxma, bu hadisə çox çəkməz özün göstərəcək" (F.S., 1948, 19 fevral, s.3).

"Kommunist" qəzeti İranda ADF və Tudə tərəfindən dəstəklənən tərəqqipərvər "Azadlıq cəbhəsi" qəzetlərinin ittifaqının BMT-yə müraciətini nəşr edərək İ.Həkiminin fəaliyyətini tənqid etmişdi. Müraciətdə göstərilirdi ki, İ.Həkimi hökuməti düzgün olmayan yoldadır. İran xalqı üzərində hakim idarənin zülm etməsi, fikir azadlığına qarşı terrorçuluq, demokratik qəzetlərin kütləvi surətdə bağlanması, ziyalıların həbsə alınması, təzyiq göstərilməsi davam etməkdədir (İran qəzetləri.., 1946, 6 yanvar, s.4).

Dövrün əsas siyasi xadimlərindən biri əvvəllər də Baş nazir olmuş, İ.Həkimidən sonra 1946-cı ildə yenidən hökumət başçısı təyin edilmiş Əhməd Qəvamdır. O, Milli Hökumətin yıxılmasında, Zəncanda və digər bölgələrdə demokratlara qarşı qırğında Baş nazir kimi bilavasitə rol oynamışdır. S.C.Pişəvəri Ə.Qəvamın dəfələrlə Baş nazir seçilməsini tənqid edərək onu və onun kimiləri "çürümüş kəllə" adlandırmış və yazmışdı ki, "Xalqın qayğısına qalmaq bu vəzirlər üçün böyük eyib hesab olunur" (Əhməd, 2020, s.182). Ə.Qəvam "Azərbaycan" qəzetində "insan qanından keflənən" şəxs kimi xarakterizə edilir (Xoşginabi, 1947, 6 dekabr, s.4). Ə.Qəvam 1946-cı ilin əvvəlində Baş nazir seçilən zaman sovet təhlükəsindən qurtulmaq üçün SSRİ ilə neft müqaviləsi, Milli Hökumətlə sülh sazişi imzalayıb, Tudə Partiyasının üzvlərini hökumətə daxil etsə də, ingilislərlə anlaşaraq hər iki addımdan geri çəkildi. Ə.Qəvam 1946-cı ilin noyabrında İran parlamentinə XV çağırış seçkilərinin azad şəkildə keçirilməsi adı ilə Cənubi Azərbaycana hücum haqqında qərar vermişdi. 1946-cı ilin dekabrında o, 150 hərbi təyyarə, 147 top, 3 min pulemyotla silahlanmış 50 minlik ordu ilə Cənubi Azərbaycana hücumu təşkil etdi. Halbuki ADF hakimiyyəti 1946-cı ilin mayında verdiyi bəyanatda İrandan ayrılıb müstəqil dövlət olmağı yox, məhz demokratik İran daxilində öz muxtariyyət hüququnu tələb edirdi (Байрамзаде, 2016, с.193-194). Qərb imperializminin dəstəklədiyi İran ordusu qarşısında Sovet dəstəyindən məhrum qalan Cənubi Azərbaycanın qoşunu və fədailər dəstəsi xeyli zəif dərəcədə silahlanmış idi və məğlubiyyətə düçar oldu. Ə.Qəvam Cənubi Azərbaycana hücumu zamanı Kürdüstan muxtariyyətinin rəhbəri Qazi Məhəmmədə teleqraf göndərərək, Urmiya, Xoy və sair vilayətləri "kürd məntəqəsi" saydığını bildirmiş və şaha dəstək qarşılığında kürdlərə verəcəyini vəd etmişdi. Lakin Ə.Qəvamın kürd və Azərbaycan xalqları arasında nifaq salma cəhdi uğursuz oldu. Qazi Məhəmməd Ə.Qəvama rədd cavabı verərək bildirdi ki, "bu iki xalqı bir-birindən ayırmaq olmaz" (Əlioğlu, 1948, 8

dekabr, s.1). Cənubi Azərbaycan əhalisi İran ordusu ilə mübarizədə 25 mindən çox şəhid və on minlərlə əsir verdi. Ə.Qəvam isə verdiyi sözü tutmayaraq ADF-ni, müxalifətçi həmkarlar təşkilatlarını və digər demokratik təşkilatları, təsisatları zorla ləğv etdirdi (Байрамзаде, 2016, с.194-195).

Tudə Partiyasına və onun tərəfdarı olan İran Fəhlə və Zəhmətkeşləri Həmkarlar İttifaqının "Şurayi-müttəhidə mərkəzi"nə (Şəmidə, 1961, s.8-9) qarşı şiddətli təzyiqlər Ə.Qəvamın hökuməti zamanında şiddətləndi, "Şurayi-müttəhidə mərkəzi"nin (Birləşmiş Mərkəzi Şura-Ə.F.) rəhbəri Rza Rusta bir müddət həbs edildi (1 may.., 1948, 1 may, s.4). Ə.Qəvam parlamentdə təmsil olunan İran Demokrat Partiyasının da rəhbəri idi. Lakin bu "demokrat"-lıq İrana xidmət yox, "Amerika dollarına aldanıb vətənfüruşluqla (vətən satmaq-Ə.F.) məşğul olanların" imperializmə nökərçiliyi idi (Müciri, 1949, 12 yanvar, s.1, 3). Halbuki o, hələ Baş nazir olmamışdan qabaq dediyi - "Azərbaycandakı inqilabi hərəkatın, kütləvi narazılıqların səbəbi Rza şahın istefasından sonra da ölkədə demokratik islahatların keçirilməməsi, vətəndaşlara konstitusiya haqlarının verilməməsidir" sözləri ilə xalqda ümid yaratmışdı və "Pravda" qəzeti də bu haqda yazmışdı (Владимиров, 1946, 1 июля, с.3). Ə.Qəvam hakimiyyətə gəldikdən sonra öz demokratik vədlərinə əməl etmədi. O, ADF üzvlərinə qarşı repressiya keçirərək, bu partiyanın üzvlərini kütləvi şəkildə işdən qovdurur, həbs etdirir, öz partiyasının üzvlərini işlə təmin edirdi (İranda irticaçıların.., 1946, 13 dekabr, s.1; Репрессии.., 1946, 12 декабря, с.3). O, hətta hakimiyyətdə qalmaq üçün dini şüarlardan istifadə edir, lakin Şeyx Məhəmmədəli Ali-İshaq Xoyi kimi vətənpərvər, mütərəqqi ruhaniləri qətl etdirirdi. "Azərbaycan" qəzeti bu görkəmli ruhaninin qətli ilə bağlı qəzetdə başsağlığı vermiş və Ə.Qəvamın əsl simasının üzə çıxdığını və onun din və məzhəbdən siyasi məqsədlərlə istifadə etdiyini bildirmişdi (Tərhim.., 1946, 25 noyabr, s.1; Məzhəb.., 1325 (1946), 10 azər (1 dekabr), s.1).

“Pravda” qəzeti yazırdı ki, İranın Baş naziri Ə.Qəvam tərəfindən 1946-cı ilin yayında İran Demokrat Partiyası yaradılmış, İranda demokratiyanın inkişafı naminə bütün mütərəqqi, demokratik qüvvələr ilə, o cümlədən, SSRİ ilə normal münasibətlər qurulacağı, əməkdaşlıq ediləcəyi elan edilmişdi (Кавам-эс-салтане.., 1946, 6 июля, с.4). Lakin sovet ordusunun Cənubi Azərbaycanı tərk etməsindən sonra Ə.Qəvam taxdığı demokratlıq maskasını çıxarır, ADF-yə, Tudə Partiyasına, İran zəhmətkeşlərinə qarşı repressiyalara başlayır, hətta Stalinlə olan neft anlaşmasından da imtina edərək, bu müqavilənin İranın xeyrinə olmadığını elan edir. Bu istiqamətdə ABŞ-ın siyasiləri ilə sıx əməkdaşlıq edən, İran neftindən onlara pay vəd verən (İranın cənub-şərqindəki.., 1325 (1946), 16 azər (7 dekabr), s.7), bu xidmətin müqabilində milyonlarla dollar qazanan Ə.Qəvamı sovet mətbuatı “dolların nökəri” adlandırmışdı (Новбари, 1947, 3 декабря, с.2.).

“Azərbaycan” qəzeti yazırdı ki, ABŞ səfirliyi Ə.Qəvama bildirmişdi ki, Amerikanın İrana kömək etmək şərtlərindən biri də Tudə Partiyasının tamamilə ləğv edilməsindən ibarətdir. Ona görə də İranın “satqın” hökuməti öz ağalarının fərmanını icra etmək üçün Tudə üzvlərini təqib edirlər (Pəriş, 1948, 25 dekabr, s.3).

Ə.Qəvamın 1947-ci ilin iyununda verdiyi qərarla ABŞ-dan 25 milyon dollarlıq kredit alındı. İran büdcəsinin 50 %-dən çoxu İranın hərbi-polis sisteminin güclənməsinə sərf edildi. Ə.Qəvam hökumətinin ABŞ-la bağladığı müqavilə ilə 1948-ci ilin əvvəlində İranda, o cümlədən, Cənubi Azərbaycandakı bütün dövlət qurumları amerikalı mütəxəssislərin nəzarətinə keçdi. Bu mütəxəssislərin, xüsusilə İran jandarmeriyasının amerikalı müşaviri general H.N.Şvartskopfun verdiyi qərarlarla Cənubi Azərbaycanda kütləvi həbslər həyata keçirildi, 20 minə yaxın demokratik düşüncəli şəxs həbs və ya İranın ucqar vilayətlərinə sürgün edildi (Байрамзаде, 2016, с.66, 195-197). “Pravda” qəzeti ADF-nin məğlubiyyətindən sonra firqənin inzibati binalarının dağıdıldığını, firqə işçilərinin kütləvi şəkildə həbs edildiyini bildirmişdi.

Həmçinin qəzetdə qeyd olunurdu ki, İran xalqı öz azadlığının və gələcək islahatların taleyindən, diktaturanın və soyğunçuluğun daha da möhkəmlənməsindən narahatdır (Расправа..,1946, 15 декабря, с.4). Amerikalılar Cənubi Azərbaycanı nəzarətdə saxlamağa xüsusi diqqət ayırırdılar. Artıq 1950-ci il ərəfəsində bütün İran ABŞ-ın nəzarətində idi və SSRİ-yə qarşı mübarizə meydanına çevrilmişdi (Байрамзаде, 2016, с.211).

Parlament seçkilərində saxtakarlıq Pəhləvi hakimiyyətinin iqtidarda qalma üsulu idi. Xüsusilə Milli Hökumətin süqutundan sonra Cənubi Azərbaycanda seçki saxtakarlığı edən Ə.Qəvamın əməlləri "Azərbaycan" qəzetində ifşa edilirdi. Qəzet yazırdı ki, Ə.Qəvamın hiyləkar siyasəti ilə əlaqədar olaraq Cənubi Azərbaycanda seçki keçirmək bəhanəsilə buranı işğal və qarət edərək milli azadlığı və demokratiyanı məhv etdilər. Belə bir şəraitdə seçkilərdə iştirak etmək hər cəhətdən İran xalqlarının zərərinə idi. Çünki hər yerdə şahın ordusu və polisi mütərəqqi şəxsləri həbs, sürgün və ya qətl edirdi. Bu səbəbdən gizli fəaliyyətə keçmiş ADF, Tudə və sair mütərəqqi təşkilatlar və şəxslər seçkilərdə iştirak etməkdən imtina etmişdilər (Məclisin.., 1949, 2 fevral, s.1). Qəzetə görə deputatların seçilməsi Ə.Qəvam tərəfindən pul və zor gücünə, saxta səslərin səbəbinə mümkün olmuşdur. Mürtəcelər ancaq öz kəndlərini və mülklərini mühafizə etmək üçün xain hökumət ilə həmkarlıq etməkdədirlər (Məclis.., 1948, 30 oktyabr, s.1). 1947-ci ilin yanvarında İran parlamentinə keçirilən seçkilər tamamilə saxtalaşdırıldı, mürtəce, şahpərəst ünsürlər parlamentə "seçildi" (Байрамзаде, 2016, с.194-195). Seçkilər zamanı şahpərəst namizədlər Qərb imperialistləri tərəfindən xüsusi dəstəklənmişdi. "Azərbaycan" qəzeti yazırdı ki, seçki zamanı mürtəce dəstələr "İngilis - İran neft kompaniyası" və hakimiyyət başında olan şəxslərin pulu hesabına göbələk kimi yerdən çıxırlar (Şəmidə, 1948, 28 aprel, s.4). 1949-cu ilin martında İran parlamentinə seçki elanı zamanı təbrizlilər öz bazar-dükanlarını, fabriklərini bağlayaraq, kütləvi etiraz aksiyaları təşkil etmiş, hökuməti ədalətli seç-

ki keçirməyə çağırmışdılar. Cənubi Azərbaycanın bütün böyük şəhərlərində seçki saxtakarlığına qarşı dinc etiraz aksiyaları təşkil olunsa da, hökumət etirazçıları kütləvi şəkildə həbs və sürgünlə cəzalandırmışdı (Байрамзаде, 2016, c.202-203). Milli Hökumətin süqutundan sonra azad mətbuata da hücumlar başlamışdı. Xüsusilə Tudə Partiyasının "Rəhbər", "Zəfər" və s. demokratik ruhlu qəzetlərin bağlanması "Kommunist" qəzetində ciddi tənqid edilmişdi (İranda.., 1946, 13 dekabr, s.1).

"Azərbaycan" qəzeti hələ "21 Azər" hərəkatı dövründə yazmışdı ki, şahın göstərişi ilə təşkil olunmuş parlamentdə hakimiyyətə müxalif olan azsaylı deputatları "eşşək" adlandırırlar və parlament tam mənası ilə bir dəstə oğrunun və antidemokratik ünsürlərin alətinə çevrilmişdir. Hürriyyətçi deputatları açıq şəkildə kötəkləyirlər. Müxalif deputatlara adi bir insan qədər hörmət etmirlər ("Azərbaycan" qəzeti.., 2022, s.221, 398).

Xalqa müstəbid hökumətlərdən xilas yolunu göstərən "Azərbaycan" qəzeti yazırdı ki, bir millətin siyasi işlərini idarə etmək, onu mədəniyyətə və səadətə doğru aparmaq üçün demokratik hökumət quruluşu lazımdır (Müciri, 1947, 20 dekabr, s.1). Bunun üçün də Ə.Qəvam kimilərin iç üzü ifşa edilməli idi. Xalq düşməni olan siyasətçilərin əməlini "Azərbaycan" qəzeti belə ifşa edirdi:

"Sədri gör, həm gör Qəvamı, satdılar bu ölkəni

Döndü qan dəryasına bu ölkə, viranə bax" (Mirzəzadə, 1948, 19 may, s.3).

"Azərbaycan" qəzetində əslən Ordubaddan olan təbrizli deputat S.H.Tağızadənin fəaliyyətinə, çıxışlarına xüsusi yer ayrılıb. S.H.Tağızadə 1906-cı ildə məşrutənin elanından sonra Təbrizdən İran parlamentinə seçilmiş deputat kimi o dövrdə Cənubi Azərbaycanın haqq səsini, ictimai-siyasi problemlərini işıqlandırmış, İranın konstitusiyasının hazırlanmasında rol oynamışdı. O, Məhəmmədəli şah tərəfindən məşrutənin ləğvi və parlamentin dağıldılmasından sonra qətl edilməmək üçün Böyük Britaniyanın Tehrandakı səfirliyində gizlənmişdi. S.H.Tağızadəni qoruyan

səfirlik onun ölkədən çıxması üçün “icazə verilməsə cənub bəndərlərindən (liman-Ə.F.) biri işğal olunacaqdır” deyə İran hökumətinə xəbərdarlıq göndərmiş, S.H.Tağızadənin ölkəni tərk etməsinə nail olmuşdu (Müciri, 1949, 5 fevral, s.4). S.H.Tağızadə bir müddət Parisdə və Londonda yaşadı. Daha sonra Məhəmmədəli şah tərəfindən məşrutənin qismən bərpasından sonra geri dönərək 1908-ci ildə İran parlamentinə Təbrizdən deputat seçilsə də, bu təsdiq olunmadı. O, 1910-cu ildə İran Demokrat Firqəsini qurdu. Firqənin təşkilində yaxından iştirak edən M.Ə.Rəsulzadə firqənin “İran-e nou” (“Yeni İran”) qəzetinin redaktoru olmuşdur. O, S.H.Tağızadə ilə yaxın dost olmuş, onu “İranın yeganə siyasətçisi” adlandırmışdır (Rüstəmova-Tohidi. Rəsulzadə...). S.H.Tağızadə də M.Ə.Rəsulzadəni yüksək dəyərləndirmiş, onu “Bakı hökumətinin (AXC-Ə.F.) tacsız sultanı” saymışdır (Tacsız...).

S.H.Tağızadə şəriətə əsaslanan dini-siyasi dünyagörüşə qarşı çıxıb dünyəvi dövlətçilik ideyasını müdafiə edirdi. Şəriətçi müctəhid Seyid Abdullah Bihbehaninin parlamentin sosial-demokrat üzvlərinin təşkilatçılığı ilə sui-qəsdə məruz qalmasından (Atuk, 2020, s.450-451, 454) sonra Nəcəf ruhaniləri tərəfindən ittiham və təkfir edilən S.H.Tağızadə 1911-ci ildə ölkəni tərk etməyə məcbur oldu. O, Pəhləvilər dövründə İrana geri dönərək səfir, nazir, universitet müəllimi, deputat, Senat sədri kimi çalışmışdır (Kurtuluş, 2010, s.459). S.H.Tağızadə parlamentdə hakimiyyət yönümlü Milli ittihad fraksiyasının rəhbəri olmuş (Müciri, 1949, 12 yanvar, s.4), hətta “Azərbaycan” qəzetinin İran mətbuatına istinadən verdiyi məlumata görə Baş nazir seçilmək üçün Böyük Britaniyanın İrandakı səfirliyi ilə danışıqlar aparmışdır (Şəmidə, 1949, 12 yanvar, s.4).

Məhz imperialistlərin və şah hökumətinin maliyyələşdirdiyi saxta seçkilərin nəticəsində S.H.Tağızadə kimi şəxslər Təbrizdən millətvəkili seçilmişdi. “Azərbaycan” qəzeti yazırdı ki, deputatlar süngi və pul gücüylə seçilirlər. Əgər azad seçkilər keçirilsəydi, heç bir mürtəce deputat ola bilməzdi. Bunların hamısı burju-

a-feodal oğrularıdır və imperialistlərin siyasətinin müdafiəçisi, İran xalqlarının azadlığının düşmənidirlər (Məclisin.., 1949, 2 fevral, s.3).

"Azərbaycan" qəzetində S.H.Tağızadə "keçmişdə özünü məşrutə tərəfdarı adlandıran yaltaq" kimi tənqid edilir və göstərilir ki, Rza şah onun kimi şaha "bəli, qurban" deyənlərin sayəsində ölkədə azadlığı yox etdi (Azərbaycan milləti.., 1948, 4 avqust, s.1). "Azərbaycan" qəzeti S.H.Tağızadənin Azərbaycanın problemləri ilə maraqlanmadığını qeyd edir və yazırdı ki, bir neçə qoca mürtəcedən başqa Azərbaycanın müasir nəsli S.H.Tağızadəni görməyib və onu azərbaycanlı kimi tanımır. S.H.Tağızadə Cənubi Azərbaycanın indiki nəsli, indiki ehtiyacı və tələbatı, indiki amal və arzusından bixəbərdir (Rəhmani, 1948, 11 sentyabr, s.1). Qəzetdə S.H.Tağızadə məşrutə ideallarına xəyanət edən mürtəce deputat və Britaniyanın Baş naziri "Çörçilin oğlu", yəni ingilispərəst "xain" kimi təqdim edilmişdir (Saidin.., 1949, 26 yanvar, s.3).

S.H.Tağızadənin müxtəlif çıxışlarında Cənubi Azərbaycandakı, o cümlədən, İrandakı problemlər qismən işıqlandırılmış, bu problemlərin həlli üçün o, hökumətə müraciətlər etmişdir. Hökumətin xalqın problemləri həll etmədiyini tənqid edən S.H.Tağızadə öz çıxışlarında bildirirdi ki, İran Azərbaycanının əhalisi ən ağır və dəhşətli bir vəziyyət keçirməkdədir. Bu ağır vəziyyət zəhmətkeşlərin dövlətə qarşı etirazını daha da artırır (Azərbaycanda vəziyyət.., 1949, 12 yanvar, s.1); büdcənin təqribən 80%-i lazımsız xərclərə sərf olunur. Gərək dövlət büdcəsi xalqın yaşayışı üçün lazım olan işlərə xərclənsin (Fəhmi, 1948, 15 sentyabr, s.1). S.H.Tağızadə varlı azərbaycanlıların öz yurdlarını tərk edərək, İranın Tehran və s. iri şəhərlərinə köçməsini, qazandıqları var-dövlətlərini eyş-işrətə xərcləyərək, xalqı unutmalarını, Azərbaycan xalqını kölə kimi görmələrini tənqid edirdi (Əliqızı, 2007, s.95).

Cənubi Azərbaycandakı ictimai-siyasi, sosial-iqtisadi problemləri, o cümlədən, azərbaycanlıların Pəhləvi hakimiyyətinə olan mənfi münasibətini bilən və hökumətə tövsiyə verən S.H. Tağızadə deyirdi ki, küllər altında olan inqilab atəşini söndürmək istəyirsizsə, Azərbaycana mütləq diqqət etməlisiniz. Əks təqdirdə bu atəşin alovlanmasının qarşısını almaq üçün minlərlə süngüyə ehtiyac olacaq. "Azərbaycan" qəzeti yazırdı ki, S.H.Tağızadə özünü azərbaycanlıların parlamentdəki təmsilçisi kimi yox, bəlkə də parlamentin Azərbaycandakı məmuru kimi hiss edir və xalqın şah hakimiyyətinə olan nifrətindən qorxduğu üçün hökuməti problemləri həll etməyə çağırır, əks təqdirdə dövlətə qarşı yeni inqilabların olacağını bildirir (Rəhmani, 1948, 11 sentyabr, s.4).

S.H.Tağızadə "21 Azər" hərəkatı dövründə İranın Böyük Britaniyada və BMT-dəki səfiri vəzifəsində işləmiş, BMT-nin müxtəlif tədbirlərində SSRİ rəhbərliyini İranın daxili işlərinə qarışmaqda, Azərbaycanda separatçılığı dəstəkləməkdə ittiham etmişdi (Гасанлы, 2006, с.238; Abdullayev, 2006, s.196). Azərbaycanlı olsa da, iranpərəst mövqeyi ilə seçilən S.H.Tağızadənin bir sıra əsərləri vardır. Onun "Müxtəsər tarixi-Məclisi-Milliyi-İran" ("İran Milli Məclisinin müxtəsər tarixi"), "Tarixi-əvaili-inqilab və məşrutiyyəti-İran" ("İnqilabın əvvəllərinin tarixi və İran məşrutiyyəti") , "Tarixi-ülum dər islam" ("İslamda elm tarixi"), "Cövhəri-tarix və məbahisi-ictimai və mədəni" (Tarix cövhəri və ictimai və mədəni mövzular"), "Lüzumi-hifzi-zəbani-fasihi-farisi" ("Təmiz fars dilinin qorunmasının lüzumu") və s. əsərləri, məqalələri İranda və xaricdə nəşr edilmişdir (Kurtuluş, 2010, s.459).

ADF və Tudə Partiyası ilə yanaşı şaha qarşı ən əsas müxaliflərdən biri də Məhəmməd Müsəddiq olmuşdur. Ana tərəfdən Nəsirəddin şah Qacarın nəslindən olan Məhəmməd Müsəddiq Parisdə iqtisadiyyat təhsili almış, İsveçrədə islam hüququ üzrə doktorluq elmi dərəcəsi almış, vəkil, Tehran Universitetində müəllim və Maliyyə nazirinin müavini olaraq çalışmışdı. O, 1919-cu ildə

Baş nazir H.Vüsuqəddövlənin ingilislərlə bağladığı müstəmləkəçi müqaviləyə qarşı çıxmış, Əhməd şah Qacarın dövründə Azərbaycan və Fars əyalətlərinin valisi, millət vəkili, maliyyə və xarici işlər naziri olmuşdu (Pira, 2020, s.228-229).

M.Müsəddiq Rza şahın diktatorluq siyasətinə qarşı çıxdığı üçün onun hakimiyyəti dövründə həbs olunmuş, Məhəmmədrza şahın hakimiyyətə gəlməsindən sonra parlamentə seçilərək şahın əleyhinə mübarizə aparmışdı. O, S.C.Pişəvərinin qanuni haqqı olan millət vəkilliyinin hökumət tərəfindən rədd edilməsini qınamış, bunun ADF-nin separatçılığa meyil etməsinə səbəblərdən biri olduğunu göstərmişdir. M.Müsəddiq həmçinin ADF-nin muxtariyyət qurmaq, İranı fedaral dövlətə çevirmək istəyini ümumxalq referendumu və İran konstitusiyasına ediləcək dəyişiklik ilə mümkün ola biləcəyini demişdir (...خوانش). M.Müsəddiq Milli Cəbhə adlı bir partiya quraraq Məhəmmədrza şahı azad və demokratik seçki keçirməyə, Qərb müstəmləkəçiliyinə və xalqa zülm etməyə son qoymağa çağırırdı (Байрамзаде, 2016, с.204-205). O, seçildikdən sonra parlamentdəki çıxışlarında ingilislərin İrandakı ağalığına qarşı belə demişdir: "Neftin ingilislərə verilməsi kimi böyük bir xəyanət İran tarixində hələ indiyə qədər görünməmişdir" (Şəmidə, 1949, 12 yanvar, s.4). Məhz onun tələbləri nəticəsində İran nefti ingilis hakimiyyətindən xilas edilərək milliləşdirildi, parlamentin razılığı olmadan şahın neft üzərindəki səlahiyyəti və xaricilərin imtiyazları ləğv edildi. Bu da parlamentin tələbi ilə şahın məcbur qalaraq M.Müsəddiqi Baş nazir təyin etməsinə səbəb oldu. Lakin M.Müsəddiqin şahın səlahiyyətini məhdudlaşdırması və ingilis-amerikan əleyhdarlığı, nefti milliləşdirməsi, ingilis mütəxəssisləri ölkədən qovması, BMT Təhlükəsizlik Şurasında ingilis-amerikan siyasəti əleyhinə çıxışları, şahın ölkədən qaçmağa məcbur edilməsi 1953-cü ildə xarici imperializmin yardımı ilə İran ordusunun çevriliş etməsinə səbəb oldu. Nəticədə M.Müsəddiq hakimiyyətdən uzaqlaşdırıldı və ömürlük həbs cəzası aldı (Pira, 2020, s.228-229).

### 4.2. Pəhləvilər dövründə dini-siyasi məsələlər

Rza xan Pəhləvinin 1924-cü ildə şah seçilməsində mürtəce ruhanilər xüsusi rol oynamışdı. Əslində Atatürk Türkiyəsindən nümunə alaraq ölkədə cümhuriyyət quruluşunu bərqərar etmək istəyən Rza xanın bu arzusu mürtəce din xadimləri tərəfindən qəbul edilməmişdi. Cümhuriyyət quruluşunu islama zidd sayan bu ruhanilər ölkədə şah rejimini davam etdirməsi üçün Rza xanı razı salmışdılar (Kurtuluş, 2008, s.67).

Rza şah Türkiyə Prezidenti M.K.Atatürk kimi dünyəvi Qərb millətçi dəyərlərinin aktiv dəstəkçisi və şəriət əleyhdarı idi. “Azərbaycan” qəzetinin yazdığına görə Rza xan hakimiyyəti ələ keçirmədən əvvəl və şahlığının ilk dövrlərində özünü islam dininin dəstəkçisi kimi göstərmək üçün aşura günləri qara paltar geyinib, əzadarlara qoşulub, başına palçıq yaxıb zəncir vurardı (Məzhəb.., 1325 (1946), 10 azər (1 dekabr), s.4), özünü din və məzhəb təəssübkeşi kimi göstərərdi. Lakin şah olub öz mövqeyini möhkəmlədəndən sonra Rza xan imam Rza məbədinin həyətində aşura mərasiminin keçirilməsini qadağan etdi, etiraz edən günahsız adamları həbs və qətl etdirdi (Yusifi, 1948, 19 iyun, s.4). Rza şahın bu siyasəti İranda bir çox üsyanlara səbəb olsa da, şah tərəfindən zorla yatırılmışdı. Rza şah müstəbid siyasət icra edərək bütün dövlət qurumlarını özünə tabe etmiş, Atatürk Türkiyəsində həyata keçirilən inqilabların təsiri ilə modernləşmə və qərbliləşmə yolunda köklü dəyişikliklər və dünyəvi islahatlar aparmışdı. Lakin şəriət məhkəmələrinin səlahiyyətinin məhdudlaşdırılması, xüsusən də qanun islahatı ilə başlayan dünyəviləşmə prosesində şahın ruhanilər ilə qarşıdurması şiddətli etirazlara səbəb oldu. 1927-ci ildə başda Məşhəd olmaqla bir çox şəhərlərdə şaha qarşı kütləvi etirazlar və üsyanlar başladı, lakin hökumət qüvvələri onları zorakılıqla, ordunun gücü ilə yatırtdı (Иванов, 1977, с.343).

“Azərbaycan” qəzeti yazırdı ki, müasir dünyanın heç bir yerində görülməmişdir ki, ordu dini işlərə müdaxilə etsin və insan-

ların öz dini hisslərini nümayiş etdirmələrinə mane olsun, silahsız və müdafiəsiz insanları güllələsinlər (“Azərbaycan” qəzeti.., 2022, s.694). 1928-ci ildə din xadimi olmayanların dini libas geyinmələrini və 1935-ci ildə qadınların çadra geyinməsini qadağan edildi, şapka və şlyapa taxmaq məcbur edildi, təhsil dünyəviləşdirildi, məktəblərdə qız və oğlanların birlikdə təhsil aldığı məktəblər açıldı (Иванов, 1977, c.343). Şahın bu dünyəvilik siyasətinə etiraz edənlər isə şiddətlə cəzalandırıldı. Rza şahın 1934-cü ildə Türkiyəyə səyahəti onun dünyəvilik istiqamətindəki siyasətini daha da gücləndirdi (Kurtuluş, 2008, s.67).

Xalqın etirazlarını yatırtmaq üçün şah özünə tabe ruhaniləri dəstəkləməyə  başladı. Rza şah Qum, Nəcəf, Məşhəd kimi müstəqilliyə meyil edən bölgə mədrəsələrinin müəllim və ruhanilərinə qarşı öz nəzarətindəki Tehranın ali dini mərkəzlərinin üstünlük qazanmasına çalışdı. O, bu haqda deyirdi ki, “Tehran dini  təlimin ən mühüm mərkəzlərindən biri olmalıdır”. Özünün guya islampərəst olduğunu göstərmək istəyən şah Tehranda İslam Universitetini açdırmış və onu dəstəkləmişdi. “Azərbaycan” qəzeti yazırdı ki, xalqın mal və namusuna göz dikən şah və hakim təbəqə özlərini guya dinə tərəfdar göstərməyə çalışırlar (Şəkibxan, 1948, 23 oktyabr, s.1). “Azərbaycan” qəzeti yazırdı ki, amerikalılar və ingilislər şah hökumətinin köməyi ilə universitetlərdə və sair məktəblərdə öz müttəfiqləri olan Pəhləvilərin dövlət siyasətini və şahpərəstliyi təbliğ etmək üçün zəmin yaratmağa səy göstərirlər (Şəkibxan, 1948, 13 noyabr, s.4).

Rza şahın dünyəvilik siyasəti İranda əvvəllər mövqeyi qismən zəif olan zərdüşti icmasını daha da gücləndirdi, onlara parlamentdə yer ayrıldı. Yəhudilərdən və ermənilərdən fərqli olaraq zərdüştilər müsəlman xalq tərəfindən iranlı kimi qəbul edilirdi (Cottam, 1979, p.86-87).

Qacarlar dövründə olduğu kimi Pəhləvilər dövründə də bəhailərin vəziyyəti ağır idi. R.V.Kottam yazır ki, ümumbəşəriliyə, sülh və qardaşlığa çağıran bəhailər İranda ən pis rəftar edilən dini

azlıq idi. Çünki müsəlmanlara görə Hz. Məhəmməddən öncə formalaşmış əhli-kitabdan (islam öncəsi səmavi dinlər-Ə.F.) fərqli olaraq bəhailər "bidətçi" (batilə inanan-Ə.F.) sayılırdılar və onların hüquqları tanınmırdı (Cottam, 1979, p.87-88).

Pza şah Pəhləvi dövründə "Dövlət qulluğu haqqında qanun" qəbul edilərək, bəhailəri təqaüddən məhrum etdilər. 1924-cü ildə ölkənin bir sıra şəhərlərində ruhanilərin fətvası ilə bəhai talanları törədildi. "Bəhai Mərkəzləri" talan edilib dağıdıldı. Şahın göstərişi ilə 1925-ci ildə dövlət idarələrinə bəhailərin işə götürülməsinə qadağa qoyuldu. 1932-1933-cü illərdə bəhai zabitlər ordudan qovuldular. İran Təhsil Nazirliyi bəhai ədəbiyyatının çapına qadağa qoyub bəhai məktəblərini bağladı. Məhəmmədrza şahın dövründə bəhailərin vəziyyəti daha da ağırlaşdı. Bəhai icmasının başçıları həbs olundu. Bəhailərin öldürülməsi halları artdı. Hökümət tərəfindən "bəhailər kommustlərlə əlbirdir" qarayaxma kompaniyasına başlandı. İran höküməti xalqa müraciət edərək "bəhai təriqətinin kökünü kəsmək" haqqında göstəriş vermiş və bəhailərə qarşı kütləvi həbslərə və qətllərə start verilmişdi (Cəfərov. 178 il...). M.Müsəddiqin 1953-cü ildə qısa müddətli hakimiyyəti dövründə bəhailərə dini azadlıq verildi. Lakin onun hakimiyyətdən qovulmasından sonra Məhəmmədrza şah M.Müsəddiqin hakimiyyətdən uzaqlaşdırılmasında istifadə etdiyi mürtəce ruhanilərə bəhailəri yenidən təqib və təzyiqdə saxlamağa imkan yaratdı (Cottam, 1979, p.88-89).

Məhəmmədrza şah atasından fərqli olaraq alman faşizmindən uzaq olsa da, ölkədə diktatura rejimini davam etdirdi, alman faşizmi ingilis və amerikan imperializmi ilə əvəz edildi. Məhəmmədrza şahın diktatura siyasəti mürtəce ruhanilər tərəfindən dəstəklənir, şahı "Zillullah", yəni Allahın kölgəsi (Zakir, 1948, 22 dekabr, s.3) adlandıran nadan din xadimləri xalqı istismar etməyə davam edərək bu mənfur siyasətə islam dinini alət edirdilər. Hətta məktəblərdə də şah "Zillullah"dır, "şaha itaət etmək müqəddəs vəzifədir" təbliğatı aparılırdı (Bəhrami, 1949, 26 yanvar, s.1).

S.C.Pişəvəri şah hökumətini və məmurları dindən öz müstəbid məqsədləri üçün istifadə etdiyinə görə tənqid edir və yazırdı ki, onlar müsəlman xalqın malını talayırlar, lakin öz mallarına bir zərər gələndə fəryad edirlər ki, din əldən gedir (Mir Cəfər Pişəvəri.., 2023, s.229).

II Dünya müharibəsində Sovet hökuməti faşistlərə qarşı mübarizədə, həm öz ölkəsində, həm də İranda həyata keçirmək istədiyi siyasətə tərəfdar toplamaq üçün din amilindən istifadəyə üstünlük verdi, müsəlman dini qurumları yaradıldı. Bu məqsədlə AXC dövründə şeyxülislam olmuş Axund Ağa Əlizadə Qafqaz şeyxülislamı seçildi (Fərhadov, 2021, s.142-148). Sovet hökuməti Hitlerin SSRİ-yə və kommunizmə qarşı mücadiləsini keçmişdə dəstəkləmiş İranın şah hakimiyyətinə və İran xalqına təsir etmək, müsəlmanlar arasında öz nüfuzunu artırma məqsədilə 1945-ci ilin may-iyun aylarında şeyxülislam Ağa Əlizadənin İran səfərini təşkil etdi. Şeyxülislam Ağa Əlizadə Təbriz, Zəncan, Tehran və İranın başqa şəhərlərində jurnalistlərlə, yerli din xadimləri ilə, hökumət nümayəndələri ilə görüşmüş, sovet hökumətinin beynəlmiləlçi sülhsevər siyasətini təbliğ etmişdi. Şeyxülislam Ağa Əlizadənin çıxış və moizələri iranlı din xadimləri və xalq tərəfindən böyük diqqət və rəğbətlə qarşılanmışdı. Təbrizdə nəşr olunan "Vətən yolunda" qəzetində bu münasibətlə "Təbriz ruhanilərinin sevinci" adlı məqalə dərc olunmuşdu (Siqətülislam, 1945, s.2). Məhəmmədrza şah da şeyxülislamı qəbul etmiş, onunla SSRİ-də islam dininin vəziyyəti, Qafqaz müsəlmanları haqqında söhbət etmiş, şeyxin şahla görüşü iranlı din xadimlərində və dindarlarda xoş təəssürat yaratmışdı (Fərhadov, 2021, s.145-146).

Tehran radiosunda çıxış edən Axund Ağa Əlizadə SSRi-də dini etiqad azadlığının olması, din xadimlərinin azad fəaliyyəti, savadsızlığın ləğvi, yüksək ixtisaslı müsəlman elmi kadrların mövcudluğu, millət və dinindən asılı olmayaraq ölkədə hər kəsə normal həyat şəraiti yaradılması haqqında danışmış, bunun üçün yoldaş Stalinə borclu olduqlarını demişdi. İyunun sonun-

da Bakıya geri dönən şeyxülislamın bu səfəri haqqında İrandakı sovet səfirliyinin M.Bağırova göndərdiyi məlumatda sovetlərin Ağa Əlizadə kimi şiə ruhanilərindən istifadə etməsinin əhəmiyyəti vurğulanmış və göstərilmişdi ki, şeyxülislam Ağa Əlizadə öz dərin biliyi ilə İran ictimaiyyətində, din xadimlərində böyük təəssürat yaratdı. Onun Tehranda olması, Qumu və Məşhədi ziyarət etməsi xarici ölkələrin casuslarına ağır zərbədir. Onun səfəri iranlı din xadimləri ilə əlaqə qurmaq işində sovetlərə çox faydalı oldu və iranlı din xadimlərinə təsirimizi gücləndirmək üçün vacibdir (Həsənli, 1998, s.33).

Şeyxülislamın səfəri İran cəmiyyətində və mətbuatında geniş əks-səda yaratdı. İrandakı sovet səfirliyinin təklifi ilə Qafqaz şeyxülislamlığının Təbrizdə və İranın digər böyük şəhərlərində nümayəndəliyinin açılması gündəmə gəldi və hakimiyyətə müxalif "Dad" qəzetinin redaktoru Amidi Nuri tərəfindən şeyxülislamın İran səfəri mövzusunda fars dilində kitabça nəşr edildi. Kitabçaya şeyxülislam A.Əlizadənin "Sovet İttifaqında islam dininin vəziyyəti" adlı məqaləsi daxil edilmişdi. Bütün bunlar, xüsusilə şeyxülislamın bu səfəri SSRİ-nin İran siyasəti baxımından uğurlu olmuş, Cənubi Azərbaycanda əksəriyyəti şiə olan əhalinin "Allahsız cəmiyyət" sayılan sovetlərə baxışının dəyişməsi və ADF-nin qələbəsinə gedən yolda mühüm addım olmuşdu (Həsənli, 1998, s.187-188).

Şah hökuməti isə millətvəkili olan təbrizli müctəhid Əbülhəsən Siqətülislamidən istifadə edərək ADF-ni müstəqillik uğrunda mübarizədən, sovet tərəfdarlığından yayındırmağa, şahla dil tapmağa çağırırdı (Rəhimli, 2009, s.74). ADF şah rejiminə qarşı mübarizə apardığı kimi şahpərəst mürtəce ruhanilərə, xurafatçı, mövhumatçı din xadimlərinə qarşı mübarizə aparırdı. S.C. Pişəvəri öz çıxışlarında deyirdi ki, biz razı olmarıq ki, Siqətülislami kimi nümayəndələr Azərbaycan naminə Məclisdə danışsınlar (Qızıl səhifələr.., s.57). Ə.Siqətülislami zahirən ADF-yə dəstək sözü versə də (Həsənli, 1998, s.99), əslində ADF-ni sovet tərəfda-

rı saydığı üçün əhalini onlara qarşı silahlı mübarizəyə çağırmışdı. Ə.Siqətülislaminin təşviqi ilə Mirzə Hüseyn Vaiz kimi azərbaycanlı ruhanilər İran parlamentində çıxış edərək xalqı sovet işğalına və ADF-yə qarşı mübarizəyə dəvət etmişdilər. Şahpərəst ruhanilər azərbaycanlı demokratları islam ideyalarına xəyanətdə və Milli Hökumətin qanunlarını dinə zidd olmaqda ittiham etmişdilər (Гасанлы, 2006, с.142, 148, 215, 354). Əslində isə iri mülkədar olan bu ruhanilər xalq hakimiyyətindən qorxuya düşüb vaxtı ilə yığdıqları haqsız var-dövlətin əllərindən çıxmasından narahat idilər. Cənubi Azərbaycandan qaçıb Tehrana sığınan mürtəce, şahpərəst ruhanilər burada şah hökumətinin təşviqi ilə "Azərbaycanın nicatı" adlı cəmiyyət qurub ADF-yə, demokratik Milli Hökumətə qarşı propaqanda aparırdılar. Pəhləvi hökuməti əslində dinə qarşı olmasına baxmayaraq, guya islamı qorumaq adı altında ADF əleyhdarı olan Mir Xas Ərdəbili, Mirzə Hüseyn Vaiz kimi mürtəce ruhaniləri dəstəkləyir, onlardan istifadə edirdi. Bu mürtəce ruhanilər ADF üzvlərini din və məzhəb düşməni, kafir və dinsiz adlandıraraq müsəlman xalqı Milli Hökumətə qarşı üsyana çağırırdılar (Əlizadə, 2017, s.18, 20, 31). Mürtəce ruhanilərdən biri də Seyid Əbülqasim Kaşani idi. "Azərbaycan" qəzeti yazırdı ki, o, "axund və molla maskası altında gizlənən tiryaki" ("21 Azər"in 3-cü ildönümü münasibətilə təşkil olunmuş yığıncaqda.., 1948, 18 dekabr, s.4), "mürtəce ünsür"dür (Həbs.., 1949, 12 fevral, s.4), onun və M.H.Vaizin Rza şahın zamanında Hitlerin və faşizmin təbliğatı ilə məşğul olduqları qəzetdə göstərilmişdi (Haşimi, 1948, 26 iyun, s.4). "Azərbaycan" qəzetində hitlerpərəstlər tənqid edilir, Sovet İttifaqının alman faşizmi üzərindəki qələbəsini mədh edən yazılar təqdim edilirdi (Alman.., 1948, 23 iyun, s.1, 4).

S.C.Pişəvəri yazırdı ki, mürtəcelər XIX əsrdə və XX əsrin əvvəlində, məşrutə dövründə babi ittihamı ilə istədikləri şəxsə zülm edib, bir parça çörəyini də əlindən aldıqları kimi eyni

siyasəti ADF-yə qarşı icra edib, demokratları babi adı ilə şərləyirdilər (Qızıl səhifələr.., s.106). Milli Hökumətin süqutu dövründə bu mürtəce ruhanilərin verdiyi fətvalarla ADF tərəfdarı olan on minlərlə kişi və qadın şahpərəst quldurlar tərəfindən qətl edildi, təcavüzə məruz qaldı (Əlizadə, 2017, s.64-65). Şahpərəst "Demokrat-e İran" qəzeti bu dövrdə yazırdı ki, Pişəvəri tərəfdarları demokrat pərdəsi altında gizlənən allahsız və vətənsiz faşistlərdir (سياف الديني سالار). "Azərbaycan" qəzeti bu cür şahpərəst, mürtəce ünsürlərin dindən danışmasını "dinə və müsəlman aləminə tövhin" (təhqir-Ə.F.) saymış (Haşimi, 1948, 26 iyun, s.4), şah və şahpərəstləri – "nə dinləri, nə məzhəbləri, nə də Allahdan qorxuları vardır", deyə ittiham etmişdi ("Azərbaycan" qəzeti.., 2022, s.700). Təzyiq və təqiblərdən, qətliamlardan qaça bilən beş mindən çox azərbaycanlı bu dövrdə Sovet Azərbaycanına mühacirət etməyə məcbur oldu (Abışov, 2023, s.98).

S.C.Pişəvərinin rəhbərlik etdiyi Milli Hökumət mütərəqqi ruhanilər ilə əlaqələri normallaşdırmağa çalışırdı. Bu məqsədlə Baş nazir S.C.Pişəvəri Cənubi Azərbaycan şiələrinin ruhani lideri Mirzə Xəlil ağa Müctəhidi ilə, qazı Hacı Mirzə Bağır ağa ilə və müctəhid Seyid Məhəmmədhüseyn Təbatəbai ilə görüşmüş, onlardan dəstək istəmişdi (Гасанлы, 2006, с.215). Lakin müctəhid Təbatəbai sovet işğalının nəticəsi kimi gördüyü Milli Hökumətə dəstək olmaqdan imtina etmiş, Təbrizi tərk edərək Quma köçmüşdü. Sonralar o, Qurana ərəb dilində yazdığı çoxcildli "əl-Mizan" təfsirinin müəllifi kimi məşhur oldu (Mertoğlu, 2010, s.306-308).

Pəhləvilər dövrünün görkəmli azərbaycanlı alimlərindən biri olan təbrizli S.M.Təbatəbai 20 cildlik "əl-Mizan fi təfsiril-Qur`an", "Qur`an dər İslam" ("İslamda Qur`an"), "Üsuli-fəlsəfə və revişirealizm" ("Fəlsəfə üsulu və realizm metodu"), "Bidayətül-hikmə" (Hikmətin başlanğıcı"), "Nihayətül-hikmə" ("Hikmətin sonu") və s. dini-fəlsəfi əsərlərin müəllifi kimi məşhurdur. Onun əsərlərində klassik islam fəlsəfəsinin bir çox məsələsi tədqiq edilmiş, Şərq və Qərb fəlsəfələrinin müqayisəli tədqiqi, psixolologiya,

sosiologiya və tarix kimi mövzular müzakirə edilmişdir. S.M.Təbatəbai Quranın təfsiri və ənənəvi hikmətin dirçəldilməsi ilə bağlı fəlsəfi araşdırmaları və bu iki sahəni ustalıqla birləşdirməsi ilə tanınan bir alimdir. S.M.Təbatəbainin öz əsərlərində klassik islam fəlsəfi düşüncəsinə, sufiliyə yer verməsi, fəlsəfə ilə dini elmləri sintezə çalışması mühafizəkarlar tərəfindən xor görülən sufizmin və fəlsəfi düşüncənin islam dünyasında zəifləmiş mövqeyinin möhkəmlənməsinə səbəb olmuşdur. S.M.Təbatəbainin öz Quran təfsirində şiəliklə yanaşı sünni qaynaqlara da istinad etməsi islam dünyasında məzhəblər arası yaxınlaşmanın güclənməsinə töhfə vermişdir. H.Korbin kimi Qərb mütəfəkkirləri də Təbatəbai irsinə böyük əhəmiyyət vermiş və onu təbliğ etmişdirlər (Fərhadov. Pəhləvilər dövründə.., 2023, s.141-143).

S.C.Pişəvəriyə etiraz olaraq Cənubi Azərbaycanı tərk edən təkcə M.H.Təbatəbai deyildi. "Kommunist" qəzeti yazırdı ki, Milli Hökumətlə əməkdaşlıq etmək istəməyən şahpərəst məmurlar Tehrana getdilər (İran Azərbaycanındakı.., 1945, 21 dekabr, s.1). R.V.Kottam yazır ki, Pişəvəri hökuməti dövründə təxminən 100 min adam yeni qayda-qanunlara etiraz olaraq Cənubi Azərbaycanı tərk edib İranın digər vilayətlərində məskunlaşdı (Cottam, 1979, p.127). Qeyd etmək lazımdır ki, o dövrün bəzi şahidlərinin xatirələrində sovet ordusunun Cənubi Azərbaycana gəlməsi çar Rusiyası ordusunun İran məşrutə inqilabı dövründə və I Dünya müharibəsi zamanı Şimali İranı işğal etməsi ilə eyniləşdirilirdi və müsəlman xalqda ruslara qarşı bir etibarsızlıq və şübhə hiss olunurdu. SSRİ ilə müttəfiq olan ADF təşkilatına və Milli Hökumətə qarşı xalqın bəzi təbəqələrinin etimadsızlığı buradan qaynaqlanırdı (Cənubi Azərbaycanda...).

Dövrün əsas azərbaycanlı ruhanilərinə, mütəfəkkirlərinə nümunə olaraq ayətullah M.Şəriətmədarini, Mirzə Cavad Məliki ət-Təbrizini, Əllamə Əbdülhüseyn əl-Əminini də nümunə göstərmək olar. Təbrizli M.Şəriətmədari Qumda və Nəcəfdə ali dini təhsil almış, 1927-ci ildə, 19 yaşında Ayətullah olaraq Təbrizə

qayıtmışdır. O, müəllimi olan ayətullahi-uzma (böyük ayətullah) Hüseyn Burucerdi kimi, dinin siyasətə qarışmasına qarşı idi. 1961-ci ildə Hüseyn Burucerdinin ölməsindən sonra M.Şəriətmədari şiə aləminin ən nüfuzlu dini xadimi kimi qəbul olunmuşdur. İslam inqilabı zamanı o, Müsəlman Xalq Partiyasını qurmuşdur. M.Şəriətmədari dini dövlət qurulmasının əleyhinə çıxaraq demokratik dövlət quruculuğunu, İran Azərbaycanının muxtariyyətini təbliğ etmiş, bu səbəbdən həbs edilmiş, müəmmalı şəkildə ölmüşdür (Ələkbərli, 2021, s.630-633). Dövrün bir digər ruhani mütəfəkkiri Mirzə Cavad Təbrizdə, daha sonra Qumda və Nəcəfdə ali dini təhsil almışdır. O, "İrşadüt-talib" ("Tələbələrin irşadı"), "Üsəsül-qəza vəş-şəhadət" ("Qəza və şəhadətin əsasları") və s. dini, fəlsəfi əsərlərin müəllifidir. Təbrizli Əbdülhüseyn əl-Əmini də Təbrizdə və Nəcəfdə ali dini təhsil almış, müctəhid adını qazanmış, daha sonra Təbrizdə dinin və islam fəlsəfəsinin tədrisi lə məşğul olmuşdur. Onun "Qurani-Kərim" haqqında yazdığı "Fatihətül-kitab" əsəri məşhurdur (Ələkbərli, 2021, s.586-587).

ADF şahpərəst ruhanilərə qarşı çıxsa da, demokratik düşüncəli ruhaniləri dəstəkləyir, onların xalqa qələbə ümidi və inam təlqin etdiklərini göstərirdi (Qızıl səhifələr.., s.19). S.C.Pişəvəri məşrutə inqilabı dövründə şah rejiminə qarşı xalqa dəstək olmuş müctəhidlər - A.Bihbehani, S.M.Təbatəbai, M.K.Xorasani kimi böyük ruhani alimləri daim hörmətlə yad etmiş, onların xatirəsinə hörmətlə yanaşmışdı (Pişəvəri, 1984, s.404). S.C.Pişəvəri öz dövrünün mütərəqqi ruhanilərinə də böyük ümid bəsləyir və yazırdı ki, bizim hökumətimiz demokratik hökumətdir. Qoy ruhanilər və bütün təbəqələr əl-ələ versinlər və muxtariyyətimizi qorusunlar (Şəhrivərin on ikisi.., s.71) S.C.Pişəvəri həmçinin mədrəsələrdə türkcə danışmaq guya şəriətə ziddir, deyən ruhanilərin dini elmləri ərəb-fars dillərində tədris etmələrini tənqid edir, onları məscidlərdə ana dilində moizə deməyə, mədrəsələrdə ana dilində dini dərs keçməyə dəvət edirdi (Qızıl səhifələr.., s.34, 97).

ADF proqramında milli və dini dəyərlərə hörmətlə yanaşılmış, din azadlığı qəbul edilmiş (Balayev. Cənubi Azərbaycanda.., s.318), milli, dini bayramların qeyd olunmasının əhəmiyyəti vurğulanmışdı (Qızıl səhifələr.., s.65). "Azərbaycan" qəzeti Quranın Hücurat surəsi 10-cu ayəsindən hərəkətlə "möminlər qardaşdır" deyib, Azərbaycan müsəlmanlarını ADF ətrafında birləşməyə dəvət edir, Milli Hökumətə düşmən münasibətdə olan şah hökumətini isə "namaz qılmayan adam"a bənzədirdi ("Azərbaycan" qəzeti.., 2022, s.188, 632).

Mütərəqqi ruhanilər ADF-nin fəaliyyətini dəstəkləyib, milli dövlət quruculuğunda yaxından iştirak etmişdilər. "Azərbaycan" qəzeti yazırdı ki, mütərəqqi ruhanilər minbərlərdə xalqı bu müqəddəs təşkilata yazılmağa təşviq edirlər. Məsələn, Ərdəbil, Maku, Xoy və s. bölgələrin ruhaniləri ADF-yə, Müəssislər Məclisinə təbrik teleqramları göndərmişdilər. Xoydan nümayəndə olan Şeyx Musa Keyvani Müəssislər Məclisinin Rəyasət Heyətinə və Milli Heyətə seçilmiş, Milli Hökumətə xidmət etmişdi. Müctəhid Mirzə Məhəmməd ağa Siqətülislam ADF-ni İranın torpaq bütünlüyünə zərər verməməyə çağırsa da ("Azərbaycan" qəzeti.., 2022, s.21, 26, 93, 562, 608, 632), Milli Hökumətlə əməkdaşlıq etmişdi (Ruhanilərimizin.., 1946, 4 yanvar, s.1, 4).

Milli Məclisin sədri M.Ə.Şəbüstəri parlamentdə bəzi din xadimləri ilə - Mirzə Məhəmməd ağa Siqətülislam, Mirzə Rəfi ağa Siqətülislami və Mirzə Mahmud ağa Sədrlə görüşmüş, onların Milli Hökumətə dəstəyini yüksək qiymətləndirmiş, dövlətin onların hüquqlarını qoruyacağını bildirmişdi. O, şahpərəst ruhaniləri tənqid edərək mütərəqqi din alimlərinin roluna yüksək qiymət vermiş və demişdi ki, müstəbid şah hökuməti İran Azərbaycanı xalqını, o cümlədən, mütərəqqi ruhaniləri əzib ölkəni xarabalığa çevirmişdir. Bu gün mütərəqqi ruhanilər Azərbaycanın milli vəhdəti üçün çalışıb xalqı şahın törətdiyi fəlakətdən xilas etməlidirlər (Ruhanilərimizin.., 1946, 4 yanvar, s.1, 4).

Pəhləvi hakimiyyəti ADF-nin siyasətini müsəlman xalqa düşmənçilik kimi təqdim edib, dindarları ADF-yə qarşı mübarizəyə çağırırdı. "Azərbaycan" qəzeti Pəhləvilərin yanlış din siyasəti nəticəsində cahil mərsiyəxanların minbərləri işğal etdiyini (Ağayi Pişəvərinin.., 1324 (1945), 27 şəhrivər (18 sentyabr), s.1), lakin azərbaycanlıların "mürtəce, xain mətbuatın cəfəngiyyatları"na inanmadığını, onların arxasınca getməyəcəyini yazır, Pişəvəri hökumətinin qələbəsini "Allahın köməyi və fəthi"ni müjdələyən Quranın "ən-Nəsr" surəsindəki ayələrinə bənzədirdi (Pişəvəri, 1324 (1945), 29 şəhrivər (20 sentyabr), s.1; Pişəvəri, 2016, s.118-120).

Şahın və onun mürtəce məmurlarının, şahpərəst ruhanilərin dindən xalqı istismar etmək üçün sui-istifadə etməsi "Azərbaycan" qəzetində tənqid edilir, onların iç üzü, saxta dindarlığı, xalqa zidd əməlləri ifşa edilirdi. Qəzetdə şahın özünü "islam-pənah" adlandırdığı, şahpərəst millət vəkillərinin şaha "şahənşahi-islam-pənah" deyə xitab etdikləri qeyd olunurdu (Yusifi, 1948, 19 iyun, s.1). Qəzetdə yaltaq məmurların "zillullah" adlandırdığı şahın, Allahın yox, "ingilislərin İrandakı kölgəsi" (Azəroğlu, 1948, 24 iyul, s.3) olduğu göstərilirdi. "Azərbaycan" qəzeti yazırdı ki, şahın Azərbaycanda törətdiyi cinayətlər və tökdüyü qanlar tarixdən və ürəklərdən silinməyəcəkdir. Məhəmmədrzanı "şahənşahi-islampənah" adlandıranlar islam dininin ən qəddar düşmənləridirlər. Xalqı aldatmaq mümkün olmayacaq (Yusifi, 1948, 19 iyun, s.4).

Pəhləvilər öz hakimiyyətlərini möhkəmləndirmək üçün məscidlərdə şah üçün "dua mərasimləri" təşkil edib (Rəzmara.., 1949, 19 fevral, s.3), özləri isə müsəlmanların zalım şaha üsyan etməsindən qorxaraq ölkədə xalqlar və məzhəblər arasında ziddiyyət, toqquşmalar törədirdilər. "Azərbaycan" qəzeti bu haqda yazırdı ki, İran mürtəceləri ingilis müstəmləkəçilərinin şüarı olan - "nifaq sal, hökumət et!" şüarına əsaslanaraq İranda yaşayan xalqların arasında milli qırğın salmaq istəyirlər və bu məqsədə

çatmaq üçün onların əlində olan birinci silah məzhəbdir. Onlar bir gün sünni-şiə, o biri gün müsəlman-erməni adı ilə xalqlar arasında toqquşmalar düzəltmək istəyirlər (Kəndli, 1948, 9 oktyabr, s.1). Qəzetdə Azərbaycan şairi Mirzə Əli Möcüzün ingilis hökumətini və onun dəstəklədiyi şah rejiminin mənfur siyasətini tənqid edən şeirlərindən nümunələr verilib:

"Söylər hər kəs küçədə və bazarda:

"İngilis barmağı var bu karda (işdə-Ə.F.)" (Həbibi, 1947, 9 dekabr, s.3).

"Azərbaycan" qəzeti şah hökumətinin siyasətinin "məzhəbə zidd" olduğunu qeyd edir, onların din və məzhəbdən avam xalqı aldatmaq və öz hakimiyyətlərini qorumaq üçün dindən istifadə etdiklərini, şahpərəst ruhanilər yetişdirən dini məktəblər açdıqlarını yazır. Buna baxmayaraq qəzet xalqın şaha inanmadığını, şahın elm və savad yaymaq əvəzinə, xurafat və mövhumatı qüvvətləndirmək, əhalini cəhalətdə saxlamaqla öz hakimiyyət əsaslarını möhkəmlədib onu davam etdirmək istədiyini yazırdı (Şəkibxan, 1948, 23 oktyabr, s.3).

"Azərbaycan" qəzeti yazırdı ki, imperialist dövlətlər məzhəb təbliğatı pərdəsi altında mürtəce fikirləri yayıb, xalqların düşüncəsini zəhərləməklə kütlələri azadlıq mübarizəsindən çəkindirmək istəyirlər. İmperialistlər məzhəbçiliyi, xurafatı və mövhumatı yayan və xalqları imperializmin zülmünə, soyğunçuluğa səbir etməyə çağıran təşkilatlar yaradırlar. Lakin qəzet inanırdı ki, Iran xalqları yerli müstəbidlərlə, xarici imperialistlərlə və onların dəstəklədiyi mürtəce ruhanilərlə apardıqları mübarizədə qalib gələcəkdir (Şəmidə, 1949, 22 yanvar, s.4). "Azərbaycan" qəzeti yazırdı ki, İran, M.F.Axundzadənin dövründə olduğu kimi indi də mömin şeyx əbası altında gizlənən cahil yalançıların əsas vətənidir (Dünya mədəniyyət.., 1948, 25 sentyabr, s.4).

"Azərbaycan" qəzetində milli bayramlara, xüsusilə Novruz bayramına xüsusi əhəmiyyət verilirdi. Qəzetdə "21 Azər" hərəkatı dövründə Təbrizdəki "Sovet mədəniyyət evi"ndə bayram

tədbirlərinin, sovet məktəbliləri tərəfindən hazırlanmış Novruz şənliklərinin, tamaşaların keçirildiyi bildirilir (Mədəniyyət evində, 1946, 27 mart, s.1-2.), azərbaycanlıların bayramı sevinclə qarşıladığı S.C.Pişəvərinin dili ilə qeyd edilirdi (Mədəniyyət evində bayram.., 1946, 25 mart, s.1-2.). Qəzetdə Novruzla əlaqəli Azərbaycan və kürd dillərində məqalələr nəşr edilirdi (Azərbaycan, 1948, 20 mart, s.1-3). "Azərbaycan" qəzetində Novruz bayramında təbiətin özünün ən yaxşı və ən gözəl hədiyyələrini xalqa təqdim etdiyi və yeni bahar çiçəkləriylə həyatımızı bəzədiyi bildirilirdi. Qəzetdə göstərilirdi ki, Novruz bayramı bizim xalq bayramımız və tarixi şadlıq günümüzdür. Bu bayram bizə babalarımızdan qalmışdır və xalqımızın sevdiyi və illər boyu yaşadıb saxladığı bayramdır. Bayram münasibətilə qəzetdə Azərbaycan xalqına xoşbəxtlik və qələbələr arzu edilirdi (Yeni il.., 1948, 20 mart, s.1).

Son olaraq deyə bilərik ki, şah rejiminin mürtəce dini ideyalardan, məzhəbçilikdən istifadə edərək öz hakimiyyətini möhkəmlətməsi, xalqı istismar etməsi ADF və "Azərbaycan" qəzeti tərəfindən daim tənqid edilmiş, qəzetdə islam vəhdəti və mütərəqqi dini ideyalar, mütərəqqi adət-ənənələr, bayram mərasimləri təbliğ edilmiş, mütərəqqi ruhanilərin xalqa xidmət etməsinin vacibliyi vurğulanmışdır.

### 4.3. Milli hökumətin gənclər və hərbi vətənpərvərlik siyasəti

S.C.Pişəvəri yazırdı ki, İranın azadlığı Azərbaycanın azadlığından asılıdır. Bu azadlığın yolu isə ancaq hərbi mübarizədən keçir. O, bunu – "fəqət topların ağzından çıxan söz həqiqətdir" (Ağayi Pişəvərinin Milli.., 1946, 11 fevral, s.1) deyə ifadə etmişdi. Onun rəhbərlik etdiyi Milli Hökumətin proqramında göstərilirdi ki, Azərbaycan muxtariyyətini qorumaq üçün milli xalq qoşunu yaratmaq, jandarm və polis idarələrini xain, zalım şəxslərin

əlindən alıb, vətənsevər şəxslərə tapşırmaq lazımdır (Pişəvəri, 2005, s.348-349). Bu istiqamətdə yaradılan milli orduya əsas hərbi dəstək və silah-sursat yardımı sovet ordusunun zabitləri tərəfindən edildi. Hərbi kadrlar hazırlamaq məqsədilə yüzlərlə gənc Sovet Azərbaycanındakı hərbi məktəblərə göndərildi (Tağıyeva, 21 Azər hərəkatı...).

Pəhləvilər dövründə gənclər və ordu siyasəti yarıtmaz idi, rüşvət və s. qanunsuz əməllər əsgərlər arasında xəstəliklər geniş yayılmışdı. "Azərbaycan" qəzeti yazırdı ki, şah hökuməti dövründəki hərbi sistem yalnız öz taxt-taclarını, sərvətlərini mühafizə etməkdən ötrü yaradılmışdı. Onların nəzərində millət və məmləkət quru sözdən ibarətdir (Mirfazil, 1946, 25 aprel, s.3). Şah dövründə ordu, jandarm və polis idarələri xalqı qorumaqla məşğul olmayıb müstəbid Pəhləvi hakimiyyətinin xalqı əzməsi üçün bir vasitəyə çevrilmişdi. "Azərbaycan" qəzeti İran xalqlarının azadlığını boğan Pəhləvi silahlı qüvvələrini "forma etibarilə "milli", məzmun etibarilə muzdur və xaricilərin mənafeyini müdafiə edən bir qoşun" adlandırırdı (Qazi, 1948, 22 sentyabr, s.4). Orduya çağrılan gənclər zabitlərin təhqiri ilə qarşılaşır, işgəncələrə məruz qalırdılar. "Azərbaycan" qəzeti yazırdı ki, orduya xidmət etməyə gedən gənclər alçaq komandirlərin işgəncələri altında inləyirlər. Azərbaycan gəncləri anlayır ki, "vətən müdafiəsi" adıyla təşkil olunmuş bu ordu, ancaq xalqın azadlığını boğmaq və imperialistlərin mənafeyini müdafiə etməkdən ötrü təşkil edilmişdir (Əhmədzadə, 1948, 29 sentyabr, s.4). Bu dövrdə şah ordusu və jandarm amerikalıların, "nəzmiyyə" (polis təşkilatı-Ə.F.) isə ingilislərin nəzarəti altında idi və bu qurumlar arasında daim ziddiyyətlər və hətta silahlı qarşıdurmalar var idi (Müciri, 1948, 14 aprel, s.4). İxtisas olaraq hərbçiliyi və ya polisliyi seçən gənclər xüsusi məktəblərdə xalqa zidd, faşist ruhunda böyüdülür, onların əli ilə İran xalqlarının azadlıq hərəkatı boğulurdu (Əfsərlik.., 1948, 29 sentyabr, s.1). "Azərbaycan" qəzeti hərbçiləri şah hökumətinin qanunsuz əmrlərini icra etməkdən imtina etməyə çağırır və yazırdı

ki, əsgər cəllad degildir. O, ancaq məmləkətin sərhədlərini müdafiə etməyə borcludur. Onu qardaş qanı tökməyə vadar etmək olmaz. Belə bir qanunsuz əmr verilərsə, əsgər öz milli vəzifəsinə əməl edib xalqa qoşulmalıdır (P., 1945, 21 noyabr, s.2).

ADF-nin müraciətnaməsində göstərilirdi ki, Səfəvi sultanlarının azərbaycanlılardan təşkil etdiyi qızılbaş ordusu müasir İran dövlətçiliyini quraraq böyük qəhrmanlıqlar göstərmişdir (Qızıl səhifələr.., s.13). Lakin İran ordusu müstəbid şah hökumətini qorumaq üçün "bütün İran xalqlarının azadlıq və nicat ordusu olan" (Qızıl səhifələr.., s.51) Milli Hökuməti və Azərbaycan muxtariyyətini yıxaraq məzlum və yoxsul əhaliyə zülm etdi. Halbuki ADF-nin "12 şəhrivər müraciətnaməsi"ndə göstərildiyi kimi ADF Azərbaycanın və İranın azadlıq bayraqdarı idi (Azərbaycan xalqının.., 2005, s.32).

General Əli Rəzmara isə öz çıxışlarında deyirdi ki, şah ürəklərdə səltənət edir, əsgərlər və zabitlər şahın taxt-tacını mühafizə etmək üçün heç bir fədakarlıqdan çəkinməyəcəkdir. "Azərbaycan" qəzeti Ə.Rəzmaranı tənqid edərək yazırdı ki, həqiqətən də İran ordusu şaha öz taxt-tacını qorumaq və zəhmətkeş kütləəri qarət etmək üçün lazımdır (Rəzmara.., 1949, 19 fevral, s.1, 4).

"Azərbaycan" qəzeti bu kimi səbəblərdən zəhmətkeş sinfə məxsus olan gənclərin ordudan qaçdığını, fərariliyə meyl etdiklərini bildirir və göstərirdi ki, təkcə Milli Hökumət dövründə gənclər həvəslə Azərbaycan Xalq Qoşunlarına qatılırdılar (Əhmədzadə, 1948, 29 sentyabr, s.4). Milli Hökumətin proqramında hərbi vətənpərvərliyə, milli dövlət qurmaq üçün fədai dəstələrini bir mərkəz ətrafında birləşdirmək, milli xalq qoşunu yaratmaq (Qızıl səhifələr.., s.148) ideyasına xüsusi yer verilmişdi. Beləliklə, Qızılbaş xalq qoşunları və Təbrizdə hərbi məktəb yaradılmış, polis və zabitlərin hazırlanması üçün xüsusi kurslar təşkil edilmişdi ("21 Azər – 70", 2015, s.66, 74-75, 78). "Azərbaycan" qəzetində bu haqda verilən elanda göstərilirdi ki, Azərbaycan Hərbi Məktəbi rəsmi olaraq açılmışdır. Beləliklə, Azərbaycan xalq qoşun-

larına lazım olan kadrlar bu məktəbədə yetişdiriləcəkdir (Hərbi.., 1946, 17 mart, s.4). Hərbi təlimlər zamanı gənc əsgər və zabitləri ruhlandırmaq üçün Mədinə Gülgün və s. azərbaycanlı şair və yazarlar bu təlimlərdə ideoloji iş aparırdılar ("21 Azər – 70", 2015, s.66, 74, 78). İran ordusunun hökumətdən narazı olan peşəkar zabitləri də Azərbaycan Xalq Qoşunlarına qatılırdılar ("21 Azər – 70", 2015, s.25, 85). "21 Azər" hərəkatı İran ordusunun bəzi vətənpərvər, şah əleyhdarı zabit və əsgərlərini də özünə cəlb etmiş, şah ordusunu tərk edərək Milli Hökumətin silahlı qüvvələrində xidmət etmişdilər. Bunlara nümunə olaraq əvvəllər şah ordusunun zabitləri olmuş Əbülqasım Əzimini (Muradi, 1948, 14 iyul, s.1, 4), Cəfər Sultani Azadı (Mübariz.., 1947, 23 dekabr, s.3), Qulamhüseyn Nasirini (Müciri, 1948, 23 iyun, s.3), Əhməd Cövdəti (Müciri, 1948, 2 iyun, s.3), Məhəmmədtəqi Musəvini, Bəhram Daneşi, Əlimurad Rəzmavəri və digərlərini göstərə bilərik ("21 Azər – 70", 2015, s.85-87).

"Azərbaycan" qəzeti yazırdı ki, Xalq Qoşunlarında işgəncə və soyğunçuluq yoxdur və ola da bilməz. Çünki bu qoşun millət üçündür. Bu, xalq qoşunudur. Bu qoşun öz vətənini, ana-bacısını mühafizə etmək üçün yaradılmış bir qoşundur (Mirfazil, 1946, 25 aprel, s.3).

Milli Hökumətdə Xalq Qoşunları naziri general Cəfər Kaviyan təyin edilmişdi. Onun nazir kimi ilk fərmanında göstərilmişdi ki, Azərbaycan Xalq Qoşunu milli bir qoşundur. Hər bir azərbaycanlı sinif və məzhəbindən asılı olmayaraq bu qoşunda xidmət etməyə borcludur. Bu qoşunda xidmət edən hər bir namuslu şəxsin müqəddəs vəzifəsi vətəni yadlardan qorumaqdan ibarət olmalıdır (Nəzirli, 1991, s.110). "Azərbaycan" qəzeti bu ordunun milli və istiqlalçı mahiyyətini vurğulayaraq yazırdı ki, Azərbaycan Milli Qoşunu öz millətinin azadlığını təmin etmək və əsarətdən qurtarmaq üçün silahlı olaraq qiyam etmiş bir xalq hərəkatının içindən çıxmışdır (Daniş, 1948, 27 oktyabr, s.4).

Xalq Qoşunlarına böyük fədakarlıq və bacarıqla başçılıq edən igid zabitlərin bir neçəsi - Əbülqasım Əzimi, Möhsün Milani, Azər Əbdülrza, Nəvai Abdini, Mahmud Pənahi, Qulam Yəhya Danişyan, Mirzə Rəbi Kəbiri və Cəfər Məmmədzadə general kimi yüksək rütbəyə layiq görülmüşdülər (Nəzirli, 1991, s.107). Qulam Yəhya Danişyan tərəfindən 18 dekabr 1945-ci ildə verilən elanda Xalq Qoşunlarına sağlam həyat tərzi keçirən könüllülərin qəbulu üçün elan verilmiş, bu şəxslərin yemək, geyim, mənzillə və hər ay maaşla təmin ediləcəyi bildirilmişdi (“Azərbaycan” qəzeti.., 2022, s.810). Vətən qarşısında xidmətləri yüksək qiymətləndirilən, Təbrizin şah ordusundan - jandarmdan təmizlənməsində xüsusi rol oynamış general Q.Y.Danişyan “Azərbaycan” qəzeti tərəfindən “Firqəmizin şərəfi” adlandırılmışdı. Milli Məclisə millət vəkili seçilmiş Q.Y.Danişyan “Azərbaycan” qəzetinə göndərdiyi teleqramda yazırdı ki, azadlıq yolunda qəhrəman fədailərimizin tökülmüş müqəddəs qanlarına and içirəm ki, Azərbaycan millətinin mənafeyi və muxtariyyatı uğrunda heç bir fədakarlıqdan üz döndərməyəcəyəm (“Azərbaycan” qəzeti.., 2022, s.779, 815).

Milli Hökumətin süqutundan sonra Azərbaycan xalqına qanlı divanlar tutuldu. General Mirzə Rəbi Kəbiri, general Əbülqasım Əzimi kimi şərəfli zabitlər ölümü vüqarla qəbul etdilər. “Azərbaycan” qəzeti yazırdı ki, Milli Hökumətin Yol, Poçt və Teleqraf naziri olan general Kəbiri edam anında belə demişdi: “İran mürtəceləri İranın azadlığı yolunda mübarizə edən minlərlə namuslu oğulları dar ağacından asıb güllələmişdir. Lakin hər zaman bu mübarizəni davam etdirən yeni-yeni igidlər meydana gəlmişdir. Bilin ki, mən öz xalqımın səadəti uğrunda çalışmışam və mənim mübarizəmi başqaları davam etdirəcəkdir. Bilin ki, əvvəl-axır azadlıq qalib gələcək və Azərbaycan xalqı sizin bu qanlı əməllərinizin intiqamını alacaqdır” (Vilayi, 1947, 13 dekabr, s.1).

General Əbülqasım Əzimi Milli Hökumətin Xalq Qoşunlarındakı xidmətlərinə görə “21 Azər” medalı ilə təltif edilmişdi. Ali Hərbi Şuranın üzvü olan general Ə.Əzimi son ana qədər şah

ordusu ilə mübarizə etmiş, qardaş qanı tökülməsin deyə ADF hökumətinin müqaviməti dayandırmaq əmrinə tabe olsa da şah hökumətinin əmri ilə güllələnmişdi. O, son nəfəsində Tehran cəlladlarına belə demişdi: "Mənim ölümümlə sizin əsası sarsılmış ağalığınız möhkəmlənməyəcəkdir" (Muradi, 1948, 14 iyul, s.1, 4). Vəziyyətin ağırlığından bir çox fədailər kimi general Cəfər Kaviyan Sovet Azərbaycanına pənah gətirməyə məcbur olmuşdu (Nəzirli, 1991, s.110). Onun müavini general Q.Y.Danişyan da Bakıya mühacirət edib burada Ali Partiya Məktəbində təhsil almışdı. O, sonralar ADF-nin rəhbərlərindən biri və Tudə Partiyasının Mərkəzi Komitəsinin İcraiyyə Heyətinin üzvü olmuşdur (İnqilabçı...).

"Azərbaycan" qəzetində ADF fədailəri, milli ordunun əsgər və zabitləri, şah rejimi tərəfindən şəhid edilmiş milli qəhrəmanlar haqqında müxtəlif məqalələr təqdim edilib. Məsələn, şəhid zabit Cəfər Sultani Azad haqqında məqaləni nümunə göstərə bilərik. Cəfər Sultani Azad Milli Hökumətə bütün İrana demokratiya və azadlıq gətirə bilən qüvvə kimi baxırdı və o, öldürülərkən belə demişdi: "Mən iftixar edirəm ki, İranın azadlığı uğrunda ölürəm" (Mübariz.., 1947, 23 dekabr, s.3).

Təbrizli topçu mayor Əhməd Cövdət Tudə Partiyasına üzv olduğu üçün şah ordusundan qovulduqdan sonra Milli Hökumətin silahlı qüvvələrinə qoşulmuş və "firqəmin sadə bir əsgəriyəm" deyərək sıravi bir əsgər kimi xidmət etməyə hazır olduğunu bildirmişdi. O, "21 Azər" hərəkatının müdafiəsi uğrunda qəhrəmancasına döyüşüb şəhid olmuşdu (Müciri, 1948, 2 iyun, s.3).

"Azərbaycan" qəzetinin səhifələrində general M.R.Kəbiri (Astiyak, 1948, 14 fevral, s.3), general Ə.Əzimi (Muradi, 1948, 14 iyul, s.1, 4), şəhid edilərkən – "Çinar ağacı sınar, lakin əyilməz" (P.Ə., 1948, 24 aprel, s.3) deyən Urmiya fədailərinin komandiri Məhəmmədəmin Azadvətən (Vilayi, 1947, 13 dekabr, s.4) və digər zabitlərə, fədailərə xüsusi məqalələr həsr edilib, onların şərəfli həyat və döyüş yolu haqqında məlumatlar,

fotoşəkilləri təqdim edilib.

"Azərbaycan" qəzetində Ərdəbil qoşun komandiri Xəlil Azərbadigan (Azərbadiganı.., 1948, 10 mart, s.3), Sərab fədailərinin komandiri polkovnik Qulamrza Cavidan (Xalqımızın.., 1948, 31 mart, s.4), süvari birliklərinin komandiri Əjdər Baldar (Əbluc, 1948, 31 yanvar, s.3), polkovnik Mahmud Qazi (Xatəmi, 1948, 1 may, s.1, 3), Zəncan fədaisi polkovnik Yusif Murtuzəvi (Qaziyani, 1948, 15 may, s.3), piyada qüvvələri mayoru Qulamhüseyn Nasiri (Müciri, 1948, 23 iyun, s.3), mayor Məhəmmədəli Ramtin (Qaziyani, 1948, 14 avqust, s.4), kapitan Sultanhəsən Zəhiri (Azadlıq.., 1948, 10 yanvar, s.3), süvari qüvvələrinin baş leytenantı Sultan Qulamrza Dəbirniya (Bəhrami, 1948, 7 avqust, s.3), Xalxal fədailərinin komandiri leytenant Yəhya Şeyxi (Giranmayə, 1948, 18 avqust, s.3), leytenant İsrafil Qadiri (Hacızadə, 1948, 11 sentyabr, s.3) və digərləri haqqında maraqlı məqalələr yer alıb.

ADF-li partiya və dövlət xadimləri "21 Azər" hərəkatının müdafiəsi uğrunda son damla qanlarına qədər savaşdılar. Şəhid olmuş Milli Məclisin üzvü Dadaş Təqizadə (Vilayi, 1948, 26 may, s.4), Mərənd qubernatoru Mirkazım Ələm (İsmixani, 1948, 28 iyul, s.4), ADF-nin Miyanduab Komitəsinin məsul katibi, polkovnik Qulu Sübhi Nuri (Badigan, 1948, 11 dekabr, s.3), ADF-nin Xoy Komitəsinin rəhbəri Əbdülhüseyn Əhmədi (Pənahi, 1948, 84, s.4) və s. ictimai-siyasi xadimlərin, ziyalıların həyatı, fəaliyyəti haqqında "Azərbaycan" qəzetində məqalələr təqdim edilib.

"Azərbaycan" qəzeti Pəhləvi zülmünün əbədi olmayacağını vurğulayaraq yazırdı ki, zülm nə qədər artsa da, xalqın şah rejiminə olan nifrəti və inqilab arzusu daha da artacaqdır (Əhmədzadə, 1948, 29 sentyabr, s.4). ADF rəhbərləri gənc əsgər və zabitlərə xitab edərək onları Pəhləvilərin qanunsuz əmrlərinə tabe olmamağa çağırır və göstərirdilər ki, siz Azərbaycan xalqının doğma övladlarısız. Azərbaycan xalqının düşmənləri siz aldada bilməz. Xalqa qarşı kim əmr verirsə versin, bilin ki, o, sizin və

atalarınızın düşmənidir (Qızıl səhifələr.., s.112).

Pəhləvilərin hakimiyyəti dövründə gənclərin hərbi xidmətdən qayıtdıqdan sonra iş tapa bilmələri müşkül idi, bunun nəticəsində işsizlərin sayı daha da artırdı. “Azərbaycan” qəzeti yazırdı ki, iki il mənfur şah ordusunda işgəncə ilə xidmət edən Azərbaycan gəncləri daha sonra iş tapa bilməyib kor-peşman evə qayıdırlar. Təbrizin küçələrində hər gün yüzlərlə belə işsiz-gücsüz, ac-yalavac gənclərə rast gəlmək olar (Əhmədzadə, 1948, 23 iyun, s.1).

Gənclərin işsizliyə, ədalətsizliyə etiraz etməməsi üçün hökumət onların siyasi şüurunun artmasına, siyasətə qarışmasına mane olur, ölkədə ancaq şah sülaləsinə qul-kölə yetişdirməyə çalışırdı. “Azərbaycan” qəzeti hökumətin bu siyasətini tənqid edərək yazırdı ki, hökumət var gücü ilə mütərəqqi gənclərin ictimai-siyasi işlərə müdaxiləsinin qarşısını almağa çalışır. Lakin gənclər ölkədəki acınacaqlı vəziyyətə göz yummaq istəmirlər (Şəkibxan, 1948, 13 noyabr, s.4).

Gənclərin mənfur şah hakimiyyətinə qarşı mübarizəsi üçün təşkilatlanmalarına ehtiyac var idi. Bu səbəbdən 1942-ci ildə Tudə Partiyası özünün “Cavanlar Təşkilatı”nı yaratmış və onun Cənubi Azərbaycandakı üzvlərinin əsasında 1945-ci ildə ADF tərkibində “Demokrat Cavanlar Təşkilatı” fəaliyyətə başlamışdı. “Azərbaycan” qəzeti yazırdı ki, bu təşkilat Azərbaycanın gənc zəhmətkeşlərinin istismarçılar və işğalçılar əleyhinə şərəfli mübarizəsində ADF-nin rəhbərliyi altında, döyüş cəbhələrində və mübarizə meydanında sınanmış və bərkimişdir (Azərbaycan Demokrat Cavanlar.., 1948, 27 noyabr, s.1). Təşkilatın Milli Hökumət zamanı Təbrizdə nəşr olunan “Cavanlar” adlı qəzeti var idi (Xoşginabi, 1948, 15 sentyabr, s.3). “Demokrat Cavanlar Təşkilatı” ADF-nin rəhbərliyi altında “21 Azər” hərəkatı uğrunda, milli dövlətçiliyin qurulması və möhkəmlənməsi üçün qəhrəmancasına mübarizə aparmışdı.

Pəhləvilər tərəfindən milli şüurdan məhrum buraxılan Cənubi Azərbaycan gəncləri məhz Milli Hökumət dövründə, “Azərbay-

can" qəzetinin maarifləndirici yazıları ilə ictimai-siyasi baxımdan şüurlana, savadlana bilmişdilər. Qəzet yazırdı ki, xalqımızı gündən günə yeni nailiyyətlərə doğru apararkən millətimizdə, xüsusilə gənclərdə milli düşüncəni formalaşdırmağa imkan tapdıq (Xoşginabi, 1947, 2 dekabr, s.3).

ADF-nin rəhbərliyi ilə gənclərin ictimai-siyasi həyata aktiv qoşulduğunu göstərən "Azərbaycan" qəzeti yazırdı ki, "21 Azər" hərəkatı nəticəsində bu dözülməz vəziyyətə son qoyularaq Azərbaycanın cavan nəslinin öz müqəddəratına malik olmasına böyük imkan yaradıldı. Milli hökumətimizin fəaliyyətilə əlaqədar olaraq birinci növbədə Azərbaycan gəncləri öz ana dillərində oxuyub, yazıb və danışmaq hüququna malik oldular. Azərbaycanın siyasi və mədəniyyət ocağı olan Təbrizdə və həmçinin başqa şəhərlərdə "Cavanlar Təşkilatı" qurulmaqla gənc nəsil bir il içərisində böyük müvəffəqiyyətlərə nail oldı. İdman, elm, incəsənət və başqa sahələrdə iri addımlarla irəliləməyə başladılar. Lakin şah ordusu Cənubi Azərbaycanı zəbt etdikdən sonra yenə də vəziyyət əvvəlki hala qayıtdı. "Demokrat Cavanlar Təşkilatı"nın üzvləri terror, qətl, işgəncə, həbs və sürgünlərə məruz qaldılar. Qəzetdə vurğulanırdı ki, mürtəcelərin törətdiyi milli zülmlə əlaqədar olaraq Azərbaycan gəncləri hal-hazırda öz ana yurdlarında işləməkdən, habelə ana dilində oxumaqdan məhrumdurlar (Dadaşzadə, 1948, 23 iyun, s.4).

"Azərbaycan" qəzeti yazırdı ki, Pəhləvi yönümlü qəzetlər cəmiyyətdə əxlasızlığı yayırlar (Şəmidə, 1948, 24 aprel, s.4). Bu səbəbdən də işsiz-gücsüz, təhsilsiz qalan Cənubi Azərbaycan gənclərinin bir qismi Pəhləvi hakimiyyətinin satqın, yalançı, əxlaqsız mətbuatının təsirilə pozğunluğa düçar olmuşdu.

"Azərbaycan Demokrat Cavanlar Təşkilatı"nın yaradılmasının üçüncü ildönümü münasibətilə onun Sovet Azərbaycanına mühacirət etmiş üzvləri tərəfindən tədbir keçirilmiş, ADF rəhbərlərindən N.Cahanşahlı məruzə ilə çıxış edərək gənclərə təşəkkür etmiş və demişdi ki, Azərbaycan qəzeti və dövlət radiosu cavan-

lar vasitəsilə idarə olunurdu. O, şəxsən bu istedad və fədakarlıqların şahidi idi. Güneyli gəncləri demokratiya uğrunda mübarizəyə çağıran N.Cahanşahlı tədbirin sonunda gənclərə deyirdi ki, beş milyondan artıq Azərbaycan milləti və on milyonluq İran xalqları sizə ümid göziylə baxır. Biz birinci növbədə öz millətimizi xilas etməklə bərabər iranlı qardaşlarımızı da mürtəcelərin əsarətindən qurtarmalıyıq. Biz gənclər xalqımıza bulaşmış əsarət ləkəsini öz qanımızla yumağa çalışmalıyıq! (Azərbaycan Demokrat Cavanlar.., 1948, 24 noyabr, s.3, 4).

Tədbirdə Azərbaycan Demokrat Cavanlar Təşkilatı tərəfindən qətnamə hazırlanmış və ADF Mərkəzi Komitəsinə, həmçinin İ.V.Stalinə və M.C.Bağırova müraciət ünvanlanmışdı. Müraciətdə göstərilirdi ki, Azərbaycanın demokrat gəncləri işğalçıların bu cinayətlərini, xalqımıza qarşı yürütdükləri bu mənfur siyasəti heç vaxt unutmayıb öz müqəddəs mübarizələrini daha da genişləndirməyi qarşılarına məqsəd qoyublar. Azərbaycanın demokrat gəncləri vətənimizin belə bir gərgin vəziyyətini nəzərə alaraq doğma yurdumuzu müstəmləkəçi şah hökumətindən və imperialistlərin əsarətindən qurtarmaq və həqiqi azadlığını əldə etmək üçün son damla qanına qədər mübarizəni davam etdirəcək; ADF Mərkəzi Komitəsindən xalqımızın və məmləkətimizin nicatı yolunda apardığımız mübarizəni mümkün qədər kəskinləşdirməyə şərait yaratmağı xahiş edirik (Qətnamə, 1948, 27 noyabr, s.3).

ADF rəhbərliyinin çıxışları və “Azərbaycan” qəzetinin yazıları Azərbaycan gənclərinin hərbi vətənpərvərlik mövzusunda savadlanmalarına və vətənə daha çox bağlanıb xidmət etmələrinə səbəb olurdu.

### 4.4. İctimai, iqtisadi problemlər və səhiyyə məsələsi

**Qadın hüquqları məsələsi.** Dövrün əsas ictimai problemlərindən biri qadınların hüquqsuzluğu məsələsi idi. S.C.Pişəvəri özünün “Zəhmətkeş qadın yoldaşlar”, “İranda qadın hərəkatı”

və s. əsərlərində qadınları ictimai-siyasi həyatda fəal və mübariz olmağa çağırır və belə deyirdi: "Qadınlar hər bir hüquqda öz ərlərilə bərabər olmağa çalışmalıdırlar. Yoldaşlar, inqilabçı ərlərinizlə yoldaşlıq edin!" (Azəri. M.C.Pişəvəri...). S.C.Pişəvəri özünün "Nadirə" romanında da İran qadınlarının hüquqsuzluğunu tənqid etmişdir (Şərifova, 2023, s.56). F.İbrahiminin məqalələrində Əhəməni çarı Kirin başını kəsən skif çariçası Tomrisin qəhrəmanlığı Azərbaycan qadınlarına nümunə göstərilir (İbrahimi, 2018, s.44, 46). "Azərbaycan" qəzetində də Pəhləvilər dövründə azərbaycanlı qadınların həm milli zülmə, həm də ayrı-seçkiliyə məruz qalması tənqid edilir. "Azərbaycan" qəzetində Milli Hökumət dövrünün qadınlara verdiyi hüquq və azadlıqlar təbliğ edilir və örnək göstərilir. Həmçinin qəzetdə qadınların beynəlxalq vəziyyəti, 8 mart Beynəlxalq Qadınlar Günü və s. məsələlər barədə oxuculara məlumat verilir.

"Azərbaycan" qəzeti yazırdı ki, Rza şahın "17 dey 1314" (1936-cı il 8 yanvar) tarixini "Qadınlar bayramı" günü elan etməsinin, şahzadə Şəms Pəhləvinin İran qadınlarının bayramı münasibətilə təntənəli tədbirlər keçirməsinin və şahpərəst mətbuatın bunu təbliğ etməsinin qadınlara heç bir faydası yoxdur. Şahın qadınların çadrasını zorla açdırmasının da qadın azadlığına heç bir aidiyyəti yoxdur. Qəzet yazırdı ki, Rza şah 8 yanvar 1936-cı il tarixində qadınların hicabını açdırmaq üçün müxtəlif şəhərlərdə müəyyən yığıncaqlar tərtib edib və sonra bütün şəhərlərdə qadınların məcburi şəkildə hicablarının çıxarılmasına başlandı. Rza şahın etdiyi bu əməli xalqın kütləvi narazılığına səbəb oldu. Bundan əlavə bu əməldən camaatı hədələyib rüşvət almaq və bir çox qanunsuz hərəkətləri icra etmək üçün polislərə bəhanə verdi. Qəzetə görə çadranı zorla açdırsalar da, İran qadınlarına ictimai hüquq verilmədi. İran qadınları indi də ictimai hüquqdan məhrum edilib dözülməz şəraitdə yaşayırlar (İran qadınları.., 1949, 8 yanvar, s.1), Pəhləvilərin verdiyi "azadlıq", qadınlara heç bir iqtisadi, ictimai və siyasi hüquq vermədi. Bu azadlıq polislərə küçələrdə

qadınların çadrasını zorla aça bilmək azadlığını verdi (17 Dey.., 1948, 14 yanvar, s.4).

"Azərbaycan" qəzeti yazırdı ki, vətənini və millətini düşünən şəxsə hansı libasda olmasının fərqi yoxdur. Libasın dəyişməsi ilə vətən və millət məfkurəsi dəyişilməz. Amma məfkurə dəyişildikdə əsr və mühitə uyğun libas da təbii olaraq dəyişilər. Rza şah dövrü buna canlı şahiddir. Məcburi surətdə xanımların libası dəyişdirilsə də, hökumətə qarşı narazılıqlar artdı ("Azərbaycan" qəzeti.., 2022, s.630). Qəzetdə qadın azadlığından danışan saray məmurlarına, şahzadələrə, o cümlədən, Məhəmmədrza şahın "əyyaş" bacısı Əşrəf Pəhləviyə tövsiyə olunurdu ki, Tehranın zənginlər məhəlləsindən kənara çıxıb bölgələrdə bədbəxt İran qadınlarının faciəvi, yoxsul həyatı ilə tanış olsun (17 Dey.., 1948, 14 yanvar, s.4). Bir sıra mənfi xüsusiyyətlərinə, istibdada və haqsız qazanca meyilli olmasına baxmayaraq Əşrəf Pəhləvi İran qadınlarının dünyəviləşməsində, ictimailəşməsində, sosial-iqtisadi hüquqlarının artırılmasında müəyyən rol oynamış, qadın haqlarını, Qərb tipli modernləşməyi müdafiə etmiş, beynəlxalq təşkilatlarda, o cümlədən, BMT-nin insan hüquqları və qadın hüquqları komissiyalarında təmsil olunmuşdu (Sadıqlı. Əşrəf...).

Rza şahın dövründə qadınların universitetdə təhsil ala bilməsini müvəffəqiyyət və qadın azadlığı kimi təqdim edənlərə cavab olaraq "Azərbaycan" qəzeti yazırdı ki, şahpərəst mətbuat iddia edir ki, guya Rza şah elm və fəzilətin qapılarını İran qadınlarının üzünə açdı və qadınlara ictimai hüquqlarını verdi, universitetlərin qapısı qadınların üzünə açıldı. Lakin hamı bilir ki, hakim təbəqəyə mənsub bir neçə qadın və kişidən başqa milyonlarla iranlı ac-susuz, savadsız və kölə vəziyyətindədir (İran qadınları.., 1949, 8 yanvar, s.1).

Qadınlara kişilərlə bərabər ictimai-siyasi hüquqların, o cümlədən, seçki haqqının verilməməsini "Azərbaycan" qəzeti tənqid edir (İran qadınları.., 1949, 8 yanvar, s.1) və yazırdı ki, qadınların iqtisadi cəhətdən ərdən və ya atadan asılı olması onları müti

qul kimi qalmağa məcbur etmişdir. Hətta zavod və fabriklərdə kişilərlə eyni iş və eyni vəzifədə çalışan qadınların zəhmətinə kişilərdən az dəyər verilməsi kapitalizm dünyasında qadın azadlığını iddia edənlərin riyakarlığını sübut edir (8 Mart.., 1948, 10 mart, s.1). Qəzet iqtisadi cəhətdən azad və təmin edilməyən qadınların son nəticədə ya əxlaqsız yola düşdüyünü, ya da qul, kölə kimi yaşamaq məcburiyyətində qaldığını göstərirdi. Qəzet yazırdı ki, qadınların məişət şəraiti normal olmadığına görə bəzi namuslu qadınlar əxlaqsız yollara düşürlər (Darəndaşi, 1948, 28 aprel, s.1), soyuq, şaxta havalarda evsiz-eşiksiz bir çox insan, qadınlar, körpələr ölümə düçar olurlar (Dövlətin.., 1949, 19 fevral, s.1). Sosial-iqtisadi problemlərlə yanaşı Pəhləvi dövlət məmurları yoxsul insanlara, xüsusilə qadınlara qarşı qanunsuz olaraq çox kobud rəftar edirdilər. Qəzet baş verən bir hadisəni nümunə verərək yazırdı ki, bir jandarm yoldan keçərkən öz tarlasında işləyən bir qoca qadını tutub, vergisini vaxtında vermədiyinə görə o qədər vurmuşdu ki, qadın ölmüşdü. Bu cür cinayətlərin sayı-hesabı yoxdur (Kürdüstan.., s.1949, 19 yanvar, s.4). Mülkədarla kəndlilərin münaqişəsində jandarmlar mülkədarları müdafiə edir, kəndliləri döyüb incidirdilər (Çeşmazər, 1991, s.23). "Azərbaycan" qəzeti yazırdı ki, qanuna əsasən jandarmların və polislərin prokurorluğun icazəsi olmadan hüquqi məsələlərə müdaxilə etməyə ixtiyarları yoxdur. Lakin jandarmlardan qanuna riayəti gözləmək əbəsdir və onlar özbaşına hərəkət edirlər. Hətta mülkədarları vadar edirlər ki, öz kəndlilərindən şikayət etsinlər. Sonra jandarm və polisləri çəyirtkə kimi kəndlərə göndərib, onların var-yoxunu zəbt edirlər, hətta camaatın namusuna da əl uzadırlar ("Azərbaycan" qəzeti.., 2022, s.524). Jandarm və polislərin özbaşınalığına ədliyyə məmurları da göz yumurdu. S.C.Pişəvəri yazırdı ki, ədliyyə məmurları öz vəzifələrini icra etmək əvəzinə oğru polislər ilə şərik, yoldaş olublar (Pişəvəri, 1984, s.345).

"Azərbaycan" qəzeti yazırdı ki, məmurların özbaşınalığına və ya ölkədəki ağır ictimai-siyasi, iqtisadi duruma etiraz edən

qadınlı-kişili hər kəs cəzalandırılır, həbs və ya sürgün edilir. Azərbaycanlılar isə iki qat zülmə, həm şah əsarətinə, həm də fars şovinizminə məruz qalmışdılar. Qəzet yazırdı ki, şah hökuməti xalqımızı öz ana yurdunu tərk etməyə məcbur edir və farsları kütləvi şəkildə İran Azərbaycanında məskunlaşdırır. Bununla da ölkədə farslaşma siyasəti icra edilir (Vilayi, 1949, 8 yanvar, s.4). Qəzetdə bu mənfur siyasətin şahzadələrin, məmurların daha da zənginləşməsinə, harınlanmasına xidmət etdiyi şeir vasitəsilə belə göstərilirdi:

“Azərbaycan talanır... Tapıldı gəlir yolu,
Buradan çıxdı hələ Əşrəfin, Şəmsin işrət pulu.
Belə icra olundu şahənşahın fərmanı:
Kişilər dar ağacına!
Qadınlar sürgünə!
Şeylər Tehrana getdi,
Yandırdılar daxmanı” (Azəroğlu, 1948, 24 iyul, s.3).

“Azərbaycan” qəzetində qadınların öz haqları uğrunda mübarizə aparmaları üçün təşkilatlanmaları gərəkdiyi bildirilir və göstərilirdi ki, qadınların bu qədər ədalətsizlik və haqsızlığa məruz qalmalarının səbəbi onların hüququnu müdafiə edən bir təşkilatın olmamasından qaynaqlanır. Pəhləvi hakimiyyəti xalqın gözünü boyamaq üçün bəzi qadın təşkilatları yaratsa da, “Azərbaycan” qəzeti yazırdı ki, onlar hay-küy salıb xalqı aldatmağa çalışırlar. Kişilərə azadlıq verməyən şah hökuməti qadınlara da həqiqi azadlıq, demokratiya verməz (Darəndaşi, 1948, 28 aprel, s.4). Qəzetdə Tudə Partiyasının nəzdində olan “İran Qadınlarının Demokratik Təşkilatı”nın rəhbəri, əslən təbrizli olan Qacar şahzadəsi Məryəm Firuzun (... تشکیلات) Budapeştdə yeni təşkil olunan Beynəlxalq Qadınlar Konqresindəki nitqi oxuculara təqdim edilir və göstərilirdi ki, Məryəm xanımın bu tədbirə gedə bilməməsi üçün hökumət süni əngəllər yaratmışdı (Şəmidə, 1948, 4 dekabr, s.1). Lakin Məryəm xanım bu tədbirə gedərək İran qadınlarının acınacaqlı vəziyyətini konqres iştirakçılarına çatdırmış və

demişdi ki, İran hakimiyyəti öz xalqını yadlara satmışdır. O, konqres iştirakçılarına müraciət edərək, onları öz dövlətlərinin İranda yürütdükləri siyasət əleyhinə etiraz etməyə dəvət etmişdir (Beynəlxalq.., 1948, 22 dekabr, s.1). Qadınlara qarşı məhdudiyyətlər təkcə şah hökumətinin sərt tədbirlərilə məhdudlaşmır, mürtəce şəxslər qadınların dünyəvi təhsil almasını günah sayaraq onlara təzyiq edir, mətbuatda qadınların azadlığı əleyhinə məqalə, nitq və çıxışlar təşkil edirdilər. Mürtəce qüvvələr İran qadınlarını cəhalət içərisində saxlamağa çalışırdılar (8 Mart.., 1948, 10 mart, s.1).

"Azərbaycan" qəzeti qadınlara həqiqi azadlığın Pəhləvilər tərəfindən yox, məhz 1945-1946-cı illərdə Milli Hökumət tərəfindən verildiyini göstərərək yazırdı ki, ancaq Milli Hökumət dövründə Azərbaycan qadınları həqiqi azadlığa nail ola bildilər. Milli Hökumət İranda birinci dəfə olaraq, azərbaycanlı qadınlara seçki hüququnu verib, onları əsarətdən xilas etdi (8 Mart.., 1948, 10 mart, s.1). Qəzetdə ilk dəfə olaraq İranda qadınlara kişilərlə bərabər hüququn məhz Milli Hökumət tərəfindən verildiyi bildirilirdi (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.4).

Həqiqətən də, İranda əsl qadın hüquqları ADF tərəfindən bəxş edildi. Pəhləvilər dövründə qadınlar ancaq 1962-ci ildə seçmək və seçilmək hüququ qazandığı halda, ilk seçkilərdə az sayda qadın deputat seçilmişdi. Onların bir neçəsi nazir kimi yüksək vəzifələrə təyin edilsə də, cəmiyyətdəki mühüm vəzifələrin əksəriyyəti yüksək vəzifəli ailələrə məxsus idi. Beləliklə, orta təbəqədən olan insanların həyatında ciddi dəyişiklik baş vermədi. 1968-ci ildən sonra parlamentə ilk qadın deputatlar seçilsə də, onlar cəmiyyətdə qadınlarla lazımi ünsiyyət qura bilmədiklərindən və onların hüquqlarını qoruya bilmədiklərindən qadın icması arasında özlərinə layiqli mövqe qazana bilmədilər. Bu məsələnin əsas səbəbi onların xalq tərəfindən deyil, ancaq hökumətin icazəsi ilə parlamentə daxil olması idi (Abdollahifard, 2021, s.370). Bəzi qadınlar deputat, nazir və ya hakim olsa da, əslində onlar real

siyasətdə iştirak etmirdilər. Pəhləvilər ancaq 1962-ci ildən sonra qanunla qızların nikah yaşını 13-dən 18-ə qaldırdılar. Qadınlara boşanma ərizəsi yazmaq üçün yol açıldı. Kişilərin evlənə biləcəyi qadınların sayı 1-ə qədər azaldıldı (Rodriguez. İranda...). ADF hakimiyyəti isə qadınlara kişilərə bərabər hüququ 1945-1946-cı illərdə təmin etmişdi. "Azərbaycan" qəzetində Təbrizdə dəfələrlə "Azərbaycan xanımlarının konfransı"nın keçirilməsi, bu tədbirlərdə "Qadınların vətəndaşlıq hüquqları" mövzusunda məruzələrin oxunduğu, qadınların maarifləndirildiyi bildirilir (Faiq, 1946, 13 may, s.4).

"Azərbaycan" qəzeti Milli Hökumətin məğlubiyyətinə baxmayaraq, ümidini itirmir, həqiqi insan azadlığının yenə də bərqərar olacağına inanır və yazırdı ki, həqiqi qadın azadlığını imperializmin "nökər"i olan "quldur" şah hökuməti yox, ancaq xalq hökuməti verə bilər ki, onun da vaxtı uzaq deyildir (17 Dey.., 1948, 14 yanvar, s.4).

"Azərbaycan" qəzetində dünya qadınlarının öz hüquqları uğrunda mübarizə tarixi haqqında oxuculara məlumat verilib. Qəzetdə 1910-cu ildə Danimarkanın Kopenhagen şəhərində keçirilmiş Qadın Sosialist İnternasionalının qurultayı haqqında və 8 Mart Beynəlxalq Qadınlar Gününün təsis edilməsi barədə məlumat verilir və göstərilirdi ki, sosialistlərin qurultayında qadınların kişilərlə bərabər hüquqa malik olmaq məsələsi müzakirə edilib qərar çıxarıldı (8 Mart.., 1948, 10 mart, s.1). Qəzetdə SSRİ-dəki qadın haqları iranlı qadınlara nümunə göstərilir və göstərilirdi ki, sovet konstitusiyası qadınlara kişilərlə bərabər haqq və hüquq verdi (Vilayi, 1948, 4 dekabr, s.3); Sovet hökuməti qadınları cəmiyyətin tam hüquqlu üzvü etdi, ictimai-siyasi, iqtisadi, mədəniyyət və incəsənət sahələrində yüz minlərlə qadın mütəxəssis yetişdi (8 Mart.., 1948, 10 mart, s.1).

"Azərbaycan" qəzeti şah hakimiyyətinin xalqa, xüsusilə qadınlara qul kimi baxdığını və daima onu istismar etmək, əsarətdə saxlamaq istədiyini göstərir və onu yenidən müba-

rizələrə səsləyirdi (Dövlətin.., 1949, 19 fevral, s.1). Qəzetdə Azərbaycan qadınının acı taleyinə həsr edilmiş şeirlər təqdim edilir, ona belə ümid verilirdi:

“Düşünürəm taleyini əziz qadın, əziz qadın!
Bilməm nədən, sən ömründə bir az belə şad olmadın!
Böyük qadın! Taleyindən küsməginən sən bu qədər
Bil ki, yenə alnınızda gün doğacaq bir xoş səhər” (Gülgün, 1947, 16 dekabr, s.3).

**İqtisadi problemlər**. “Azərbaycan” qəzeti Pəhləvilər dövrünün milli-mədəni, ictimai-siyasi problemlərini işıqlandırdığı kimi dövrün iqtisadi məsələlərini araşdırmaq baxımından da mühüm əhəmiyyət daşıyır. Qəzetdəki məqalələrdə şah rejiminin zəhmətkeş xalqın, o cümlədən, sadə insanların, fəhlə və kəndlilərin həyatına böyük zərbə vurduğu göstərilirdi. Qəzet yazırdı ki, 15 milyonluq İranda əhalinin 14 milyondan çoxu yoxsul və savadsızdır. Xalqın əksəriyyəti özlərinin və ailələrinin gündəlik məişətini zorla təmin etməyə məcburdur (Əlioğlu, 1948, 17 yanvar, s.4).

İrandakı ağır sosial-iqtisadi problemlərlə yanaşı Azərbaycandakı vəziyyətin daha ağır olduğunu göstərən “Azərbaycan” qəzeti yazırdı ki, Rza şah Pəhləvinin hakimiyyətindən əvvəl İran Azərbaycanı özünün xüsusi coğrafi mövqeyi sayəsində Asiyanın sərvətli ölkələrindən biri idi (“Azərbaycan” qəzeti.., 2022, s.65). Həmçinin göstərilirdi ki, Rza şahın şovinist siyasəti İran Azərbaycanını SSRİ ilə zəngin ticarətdən məhrum etdi. Nəticədə gözəl Təbriz şəhəri xaraba bir kəndə çevrildi. Təbrizli və digər azərbaycanlı tacirlər məcbur oldular ki, Tehrana və başqa ticarət şəhərlərinə köçüb özlərinə təzə bazarlar axtarsınlar. Pəhləvilərin siyasəti Azərbaycan xalqını müflisləşdirdi (“Azərbaycan” qəzeti.., 2022, s.266). 1948-ci ildə İran deputatlarının parlamentdəki çıxışlarında da nəinki Cənubi Azərbaycanın, o cümlədən, bütün İran ticarətinin 90 %-dən çoxunun Qərb imperialistlərinin inhisarında olduğu, ölkənin işsizlik, iqtisadi, ticari, maliyyə böhranı içində batdığı göstərilirdi. 1949-cu ilin aprelində təbrizli toxu-

cular işsizlik təhlükəsi ilə əlaqədar Tehrana öz nümayəndələrini göndərmiş, iqtisadiyyat və ticarət üzərindəki Qərb inhisarçılığına son qoymağı tələb etmişdilər. Təbrizlilər həmçinin çörəyin qiymətinin artmasından şikayət etmişdilər. Maku tacirləri də 1949-cu ilin iyununda bazar və dükanlarını bağlayaraq ölkədəki qiymət artımına və bahalılığa etiraz etmişdilər. Etirazçılar isə hökumət qüvvələri tərəfindən həbs edilmişdi. Zəncanlı tacirlərin və sənətkarların Qərb inhisarçılığından və işsizlikdən, bahalılıqdan şikayətləri də cavabsız qalmışdı (Байрамзаде, 2016, с.197-198, 202-203, 210-211). Cənubi Azərbaycandakı ağır sosial-iqtisadi şərait "Kommunist" qəzetində də geniş işıqlandırılırdı. İran mətbuatına istinad edən qəzet yazırdı ki, İran Azərbaycanında yoxsulluq hökm sürür. Ticarət və sənayedə durğunluq hökm sürür. Paltar, yemək almaq üçün vəsaiti olmayan minlərlə işsizin, həmçinin müflis olmuş kəndlilərin ağır vəziyyəti hökumət idarələrinin özbaşınalığı nəticəsində daha da ağırlaşır. Vergilərin ağırlığı dözülməzdir (İran Azərbaycanında.., 1947, 13 dekabr, s.4).

Pəhləvilər dövrü İranı əsasən kənd təsərrüfatı ölkəsi idi. Lakin kəndlilər özləri mülkədarların zülmü altında əzilirdilər. "Azərbaycan" qəzeti yazırdı ki, kəndlilərin hədsiz yoxsullığu aradan aparılmasa onların savadlanması mümkün olmayacaqdır (Əlioğlu, 1948, 17 yanvar, s.4). İranda aclıq böhranının yaranmasının başlıca səbəbləri - topraq məsələsinin həll olmaması, mülkədar, jandarm və s. məmurların kəndlilərə etdiyi zülm idi. Bunlardan əlavə, hökumətin icazəsi ilə ərzaq və yeyinti məhsullarının hədsiz şəkildə xaricə satılması və ya qaçaqmalçılıq yolu ilə ölkədən çıxarılması bu böhranları daha da genişləndirirdi. Cənubi Azərbaycan bu dövrdə daha ağır iqtisadi böhran içində idi. "Azərbaycan" qəzeti yazırdı ki, ərzaqın Tehrana daşınması, bol taxıl mənbəyi olan İran Azərbaycanında aclığa səbəb olur (İranda aclıq.., 1948, 12 may, s.1). Bu dövrdə çörək və aclıq məsələsi bütün əhalini əhatə etmişdir. Xalqın taxıla olan ehtiyacından sui-istifadə edən möhtəkirlər öz taxıllarını baha qiymətə satır

və beləliklə xalqı soyurdular. Digər tərəfdən ağır vergilərin və məhsul gəlirlərinin kəndlidən zorla toplanması, ərzaqın kütləvi şəkildə oğurlanması və qaçaqmalçılıq, kəndlilərə qarşı zorakılıq onları daha da çətin vəziyyətə məruz qoymuşdu. Qəzet bu dövrdə çörəyin tapılmadığını (Azərbaycanda vəziyyət.., 1949, 12 yanvar, s.1), Ərdəbildə və digər bölgələrdə "çörək, iş, azadlıq" şüarları altında mitinqlərin keçirildiyini bildirirdi (Çörək.., 1948, 11 avqust, s.1). Bu problemlərin səbəbi isə obyektiv iqtisadi problemlər yox, hökumətin yarıtmaz sosial-iqtisadi siyasəti idi. Hətta hökumətin Təbriz radiosu da etiraf edirdi ki, İran Azərbaycanında olan maddi nemətlər təkcə beş milyonluq İran Azərbaycanı xalqı üçün deyil, İranın təqribən 15 milyon olan bütün əhalisi üçün də kifayət edər (Azərbaycanda iqtisadi.., 1948, 7 aprel, s.1).

Haqlı olmalarına baxmayaraq sosial-iqtisadi problemlərdən şikayətçi olanlar, haqlarını tələb edənlər ən ağır cəzalara, illərlə həbs və sürgünə göndərilirdi. "Azərbaycan" qəzeti o dövrdə becərilən torpaqların 80 %-nin azsaylı iri mülkədarların əlində olduğunu bildirirdi, yerdə qalan yarıtmaz torpaqlar isə əksəriyyət təşkil edən kəndlilərin ixtiyarında idi. Gündən-günə yoxsullaşan kəndlilər kifayət qədər torpağı, suyu, kənd təsərrüfatı aləti olmadığına görə mülkədarların torpağına təhkim olub günəmuzd işləməyə məcbur qalırdılar (Mutəmədi, 1948, 14 avqust, s.1, 3). Bu isə orta əsr təhkimçiliyinin bir növ davamı idi.

Dövrün əsas problemlərindən biri də sələmçilik idi. 1928-ci ildə yaradılmış İran Milli Bankının adında milli sözü olsa da, o, əslində amerikan-ingilis kapitalistlərinə, iranlı zənginlərə xidmət edirdi. Bank torpağı, mülkü, fabriki olmayanlara kreditlə borc vermirdi. İri torpaq sahibləri isə Milli Bankdan az faizlə pul götürüb yüksək faizlə yoxsul kəndlilərə verirdilər. Yoxsul kəndlilər borcunu vaxtında qaytara bilmədiyi üçün mülkədarın ikiqat boyunduruğu altına düşür, kənd təsərrüfatı işinə sərf edilmək üçün ayrılmış məbləğ mülkədarların əlində xalqı soymaq üçün bir vasitəyə çevrilirdi (Q.X., 1948, 13 mart, s.3).

Sələmçilik İranda yoxsul təbəqənin başına bir bəla olmuşdu. Dövlətin və hakim sinfin yardımına arxalanan sələmçilər xalqı soymaqda sələmçiliyi əllərində ən kəskin silah etmişdilər. Xüsusilə bazarda kasadlıq baş verdikdə və kənd təsərrüfatında məhsul olmayanda sələmçilərin zülmü daha da artırdı. Sərmayəsini əmtəəyə verən sənətkarlar  və kiçik sahibkarlar borclarını vermək və ya ehtiyaclarını dəf etmək məqsədilə sələmçilərə müraciət etməyə məcbur olurdu. Sələmçilər isə bu müraciəti həvəslə qarşılayırdılar. Çünki sələm vasitəsilə alınan mənfəət həm zəhmətsiz, həm də boldur. Verilən borc müqabilində ayda 10 və bəzən 15 faiz sələm alırdılar. Borcunu verə bilməyənlərin evi, malı, mülkü dövlətin qoruduğu sələmçilərin əlinə keçirdi. İri sahibkarların bu sələmçilik siyasətinə ancaq Milli Hökumət dövründə son qoyuldu (Q.X., 1948, 13 mart, s.3).

İri torpaq sahibləri, varlılar öz pullarını İran Milli Bankında yox, 1889-cu ildən bəri ingilis bankirlərin idarə etdiyi "Banke-Şahənşahiye-İran"da (İran Şahənşahlıq Bankı- Ə.F.) və ya onun vasitəsilə London, Vaşinqton banklarında saxlamağa üstünlük verirdilər (Həkimi.., 1948, 22 may, s.1). Hətta Rza şah Pəhləvinin var-dövləti mərkəzi Londonda olan İran Şahənşahlıq Bankında qorunurdu. Məhəmmədrza şah atasının bankda olan var-dövlətini geri almaq üçün Londona getməyə məcbur olmuş, ingilis hökuməti bundan istifadə edərək İran Şahənşahlıq Bankının 1949-cu ildə bitən 60 illik imtiyaz müddətini uzatmağa nail olmuşdu. Bu imtiyaz Pəhləvilərin süqutuna qədər davam etdi. "Azərbaycan" qəzeti yazırdı ki, ingilislər İrandakı bank imtiyazlarının artırılması şərtilə  keçmiş şahın varidatının geri qaytarılmasına razılıq vermişdilər. Çünki "İngilis - İran neft kompaniyası" bu bankın himayəsi olmadan İranda böyük çətinliklərə rast gələ bilərdi. Bu iş ingilis bankirlərinin "quldurluq" siyasətinin bir nümunəsi idi (Agahi, 1949, 16 fevral, s.4).

"Azərbaycan" qəzeti yazırdı ki, kəndlilərin bu fəlakətdən qurtarılması üçün onın torpaq və əmək alətlərinə malik olması lazım-

dır (Fəhmi, 1948, 15 sentyabr, s.4). Bu isə ancaq Milli Hökumətin dövründə mümkün oldu və kəndlilər torpaq sahibi ola bildilər. ADF torpaq məsələsinə xüsusi diqqət göstərmişdi. Azərbaycanlı kəndlilərin öz ana yurdlarındakı torpaqlarda əsir kimi yaşadığını göstərən ADF-nin "12 şəhrivər müraciətnaməsi"ndə bildirilmişdi ki, kəndlilər ən qısa müddətdə torpaq və əkin alətləri cəhətdən təmin edilməlidir (Qızıl səhifələr.., s.12, 15). İşsizlik problemini həll etməyin yolunu yoxsul kəndlilərə torpaq verməkdə görən ADF hökumətinin proqramında qeyd olunmuşdu ki, kəndlərdə və şəhərlərdə gündən-günə artmaqda olan işsizliyin qarşısını almaq üçün dövlət torpaqları tezliklə əkinçilər arasında bölüşdürülməlidir, həmçinin vətəni tərk edib Milli Hökumət əleyhinə təbliğat aparanların torpaqları yoxsul kəndlilərə verilməlidir (Qızıl səhifələr.., s.148).

"Azərbaycan" qəzeti bu haqda yazırdı ki, Azərbaycan Milli Hökuməti xalq düşmənlərinin torpaqlarını kəndlilər arasında bölərək əmək alətlərinin inkişafı üçün böyük bir xidmət göstərmişdir (Fəhmi, 1948, 15 sentyabr, s.4). Həmçinin göstərilirdi ki, Azərbaycan kəndlilərinin xeyli hissəsi Milli Hökumət dövründə topraq sahibi oldular. Kəndlilər keçmişdə mülkədarlara ödədikləri ağır vergilərdən tamamilə azad olmuşdular (Taxıl.., 1948, 28 iyul, s.1). ADF rəhbərlərindən S.Badigan yazırdı ki, Milli Hökumət yüz minlərlə kəndlilərə əvəzsiz olaraq torpaq verdi, indiyə kimi torpağı olmadığı üçün ziraət aləti olmayan minlərlə yoxsul kəndlini öküz, toxum və sair lazım olan vasitə ilə təmin etdi (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.4). Lakin Milli Hökumətin süqutundan sonra hökumət məmurları, iri mülkədar və kəndxudalar yenidən zəhmətkeş kəndliləri soyub istismar etməyə başladılar. "Azərbaycan" qəzeti yazırdı ki, mülkədarlar kəndlilərin malına və canına sahibdir. Müxtəlif qanunsuz vergilərlə kəndliləri qarət edirlər. Mülkədarlar ağır vergiləri ödəməyə qadir olmayan kəndlilərin var-yoxunu əlindən alıb onları öz evlərindən qovur və hətta ailəsini, arvad-uşaqlarını əsir kimi girov götürürdülər (İranı..,

1949, 8 yanvar, s.3).

Bu dövrdə İranda zəhmətkeşlərin ev və iş şəraitlərinin bərbad olduğu "Azərbaycan" qəzetində göstərilirdi. Həmçinin qəzetdə məmurların rüşvətxorluğu tənqid edilir, rüşvət verməyən fəhlə və kəndlilərin evlərinin müxtəlif bəhanələrlə dağıdıldığı qeyd edilirdi. "Azərbaycan" qəzeti yazırdı ki, ADF-nin qiyam səbəbi məhz hakim təbəqənin rüşvətxorluq, talan və s. mənfi əməlləri olmuşdur (Mir Cəfər Pişəvəri.., 2023, s.229).

Ölkəyə xaricdən gətirilən mallar da yerli bazarı öldürürdü. "Azərbaycan" qəzeti yazırdı ki, imperialistlərin İrandan və Cənubi Azərbaycandan xammal aparıb fabrika malı gətirmə siyasəti milli sənayenin məhv olmasına səbəb olur. Bu siyasətin nəticəsində İranın, xüsusilə Cənubi Azərbaycanın milli sənayesinin inkişafı "xain" hökumətlər tərəfindən süni şəkildə dayandırılmışdır. İşsizlərin sayı gündən-günə artmaqdadır. Bu gün Təbrizin, Ərdəbilin küçələrində minlərlə işsizə rast gəlmək olar (Əhmədzadə, 1948, 13 mart, s.3). Qəzet bu problemlərin Milli Hökumət dövründə həll edildiyini, köhnə zavod-fabriklərin təmir edilib yenilərinin, o cümlədən, tütün fabrikinin, Təbrizdə "Zəfər" toxuculuq fabrikinin açıldığını, sənayenin tərəqqi etdiyini bildirirdi (Əhmədzadə, 1948, 6 oktyabr, s.4). Lakin "21 Azər" hərəkatının məğlubiyyətindən sonra yerli sənaye yenidən məhv olmağa başladı, işsizlik, yoxsulluq şiddətləndi.

"Azərbaycan" qəzetində uşaq əməyinin istismarı haqqında məqalələr yer alır və azyaşlı uşaqların yoxsulluqdan məktəbə gedə bilmədiyi, natəmiz şəraitdə az maaşla işləməyə məcbur qaldığı göstərilirdi. Qəzet yazırdı ki, İranda azyaşlı uşaqlar yaşlı işçilərdən daha artıq istismar olunurlar, onları 16 saat işlətməklə ən az maaş verirlər (Azyaşlı.., 1948, 22 may, s.1). Yoxsulluq səbəbilə işçilərin uşaqları məktəbə gedə bilmir, təhsillərini davam etdirməkdən məhrum olur, tibbi imkanlardan istifadə edə bilmirdilər (Fəhmi, 1948, 15 sentyabr, s.1, 4).

Qərb imperialistlərinin İranda qurduğu şirkətlərdə öz vətəndaşlarına yüksək maaş, iranlı işçilərə az maaş verməsi, etiraz edənlərin işdən qovulduğu "Azərbaycan" qəzetində göstərilirdi. Xarici şirkətlərdə işləyən iranlı fəhlələr istismar edilir, xaricilərdən daha az maaş və pis iş şəraiti ilə təmin edilirdi. "Azərbaycan" qəzeti yazırdı ki, xarici şirkətlərdə işçilərin əmək haqqı milliyyətlərinə görə təyin edilir. İranlı işçilərin maaşı isə azdır. İngilislər iranlı fəhlələri qul-kölə adlandırırdılar. Əgər bir ingilis gündə ən çoxu altı saat işləyirdisə, iranlı fəhlələr gündə on iki saat və bəzən dincəlmədən 24 saat işləyirdilər (İngilis.., 1949, 12 yanvar, s.4). Həmçinin qəzetdə göstərilirdi ki, Qərb şirkətləri, neft kompaniyaları iranlı işçilərə özlərinin avropalı işçilərindən on dəfə, hind və ərəb işçilərindən üç dəfə az maaş verirlər (İshaqi, 1948, 11 dekabr, s.4). Məhz bu kimi faktlara görə "Azərbaycan" qəzeti İranın cənubunu "ingilis müstəmləkəsi" adlandırmışdı (Fəhmi, 1948, 22 may, s.1). 1946-cı ilin iyul ayında kompaniyanın iranlı fəhlələri kütləvi tətil edən zaman kompaniya tərəfindən işçilərə qanlı divan tutulmuş, 47 fəhlə öldürülmüş, 170 nəfər yaralanmışdı. Bu hadisədən sonra 5 min nəfərdən çox fəhlə işdən qovulmuş, yüzlərlə fəhlə sürgün edilmiş, işçi klubları bağlanmış, müxalifətçi həmkarlar ittifaqının rəhbərləri həbs olunmuşdu (Çeşmazər. Azərbaycan.., s.104).

Pəhləvi hakimiyyəti zamanı qış ayları yoxsul əhali üçün daha ağır keçirdi. "Azərbaycan" qəzeti yazırdı ki, qışın başlamasıyla fabrik və zavodlarda işlərin dayandırılması, habelə yoxsul kəndlilərin işsiz qalması səbəbilə çoxsaylı işsizlərin sayı daha da artmaqdadır. Hökumət bu vəziyyətə laqeyd qalır, büdcəni öz əyləncələri üçün xərcləyir, yeni iş yerləri açmaq əvəzinə ağır vergilər və s. məhdudlaşdırıcı səbəblərlə köhnə iş yerlərini bağlayırdı. Ən böyük zərbə kiçik müəssisələrə dəyirdi, bu müəssisələrdə işləyən fəhlələr işsizliyə məruz qalıb aclığa, ölümə düçar olurdular (F.X., 1948, 16 oktyabr, s.2). İranın yeraltı-yerüstü mənbələri zəngin olsa da, burada milli ağır sənaye müəssisələri yox idi. "Azərbay-

can" qəzeti yazırdı ki, İran hökumətinin iqtisadi siyasəti ölkəni xaricilərdən asılı etməkdən ibarətdir (İranı.., 1949, 8 yanvar, s.3).

Bütün bu problemlərin səbəbi Qərb imperializminə xidmət edən şah hakimiyyətinin xalqa zidd siyasəti idi. Etiraz edən işçilərin sürgünlə, həbslə təhdid edilmələri, cəzalandırılmaları adi hal idi. Sürgündən, həbsdən qayıtdıqdan sonra onlar yenə iş tapa bilmir, küçələrdə ac-yalavac gəzirdilər. "Azərbaycan" qəzeti yazırdı ki, onların həbsdən öncə yaşadıqları evləri zəbt və qarət olunmuşdur. Sürgündən qayıtmış azərbaycanlılar təhlükəsizlik qüvvələri tərəfindən daim təqib olunur, iş tapa bilmir, yoxsulluqdan, evsizlikdən küçələrdə qalır, aclıqdan, xəstəlikdən tədricən ölürdülər (Əbluc, 1948, 13 noyabr, s.4).

"Azərbaycan" qəzetində xalqın kütləvi etirazlarından qorxan hökumətin mətbuatın vasitəsilə işçiləri, fəhlə və kəndliləri səbir və şükürə dəvət etdiyi, "Allahın kölgəsi" sayılan şaha və məmurlara etiraz etməməyi tövsiyə etdiyi göstərilirdi. Qəzet yazırdı ki, iqtidar yönümlü qəzetlər, dövlət radiosu, iqtidarın təbliğatçıları yoxsul işçiləri dini şüarlarla aldadıb, "alın yazısı, müqəddərat və qismət"lə onları sakitləşdirməyə çalışırdı (Məhəmmədzadə, 1949, 19 yanvar, s.1). Onlar – "hökumət xalqa qayğı göstərir, səbir və dözüm yaxşı sifətlərdəndir, gərək dözümlü olaq, şahpərəst olaq" kimi boş, mənasız sözlərlə xalqı mübarizədən çəkindirməyə çalışır, sinfi mübarizəni yox etmək istəyirdilər. Lakin qəzetə görə hal-hazırda İranda hansı bir kəndliyə və ya fəhləyə - yaşayışın necədir? - sualı versən, o, sənə - acam, yoxsulam, sabah üçün təminatım yoxdur, deyəcək. Şah ilə yoxsul xalq arasında barışmaz düşmənlik vardır (İran zəhmətkeşlərinin.., 1948, 7 avqust, s.1).

Şah rejiminə qarşı mübarizənin təşkili üçün fəhlə təşkilatlarına, zəhmətkeşlərin ictimai-siyasi birliyinə ehtiyac var idi. Bu dövrdə İranda hökumətə qarşı mübarizənin əsas təşkilatçısı Tudə Partiyası idi. Partiya 1948-ci ilin avqustunda hökumətə etdiyi müraciətdə İrandakı hərbi-polis rejiminə son qoymağı, demokratik, ictimai-siyasi azadlıqlara yol açmağı tələb edirdi (Байрамзаде,

2016, c.199). “Azərbaycan” qəzeti Tudə Partiyasının Mərkəzi Komitəsinin hökumətə ünvanladığı məktubu öz səhifələrində dərc etmişdir. Məktubda göstərilirdi ki, indiyə qədər hökumət İran xalqlarının mənafeyinə uyğun olaraq heç bir iş görməmişdir. İran xalqlarını cəhalət, dilənçilik və imperializm pəncəsindən xilas edə bilən bir hökumət istəyirik (İran zəhmətkeşlərinin.., 1948, 7 avqust, s.1). Lakin bunun üçün Tudə Partiyasının müəyyən şərtləri var idi. Bu şərtlər əsasən bunlardan ibarət idi: 1-İran zəhmətkeşlərinin mənafeyinə uyğun qanunlar verilməlidir; 2-İran xalqlarını əsarət altına alan imperialistlərdən borc almaq məsələsi ləğv edilməlidir; 3-Əhaliyə iş vermək üçün tədbirlər görülməli və siyasi baxışlarına görə işdən qovulmuş işçilərə iş verilməlidir; 4-Mülkədarların kəndlilərə olan zülmlərinə son qoyulmalı və habelə mülkədarların payından 15 % kəndlilərin xeyrinə verilməsi haqqında qanun qəbul edilməlidir; 5-İranın daxili sənaye məhsullarını xarici malların məhvedici rəqabətindən qurtarmalıdır; 6-Amerikalı müşavirlərin hamısı işdən çıxarılmalıdır; 7-Qiymətləri aşağı salmaq, işçilərin və yoxsul məmurların maaşını artırmaq üçün mühüm tədbirlər görülməlidir; 8-Hökumət xarici siyasətdə İran  xalqlarının mənafeyinə uyğun hərəkət etməlidir. Tudə Partiyasının müraciətində qeyd olunmuşdu ki, hökumətə olan bu etiraz İran zəhmətkeşlərinin etirazıdır. İranda işsizlik, aclıq və təhlükəsizlik hökm sürür. Etirazçılar işdən qovulur, həbs və ya sürgün edilir. Hökumət tərəfindən mətbuat və azadlıq əleyhinə ciddi surətdə mübarizə gedir. Xain hökumətin xarici imperialistlərin əlində alət olması, xaricdən çoxlu borc alması ölkənin vəziyyətini daha da pisləşdirir, əhalinin etiraz və nifrətini daha da şiddətləndirir. Buna görə də zəhmətkeş əhali öz mübarizəsini inadlı surətdə davam etdirəcəkdir (İran zəhmətkeşlərinin.., 1948, 7 avqust, s.1).

Tudə Partiyasının tərəfdarı olan işçilərin həmkarlar təşkilatı olan “Şurayi-müttəhidə mərkəzi” onların hüquqlarının qorunması sahəsində böyük rol oynamışdır. “Azərbaycan” qəzeti yazırdı

ki, işçilər öz həmkarlar ittifaqlarını quraraq bir neçə dəfə kütləvi tətillər etmiş və İranın fəhlə hərəkatına böyük təsir göstərmişdilər (İngilis.., 1949, 12 yanvar, s.4). İran zəhmətkeşlərinin müdafiəçisi olan "Şurayi-müttəhidə mərkəzi"nin "Zəfər" qəzeti İran xalqlarının, xüsusilə zəhmətkeş fəhlə və kəndlilərin mübarizəyə hazırlanmasında böyük rol oynamışdı (Hizbi-Tudeyi-İran.., 1948, 13 oktyabr, s.4). "Azərbaycan" qəzeti yazırdı ki, zəhmətkeşlərin təşkilatları Tudə Partiyası ilə birlikdə azadlıq və demokratiya uğrunda mübarizə edirlər (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.3). ADF-nin yaranması ərəfəsində Azərbaycan Fəhlə və Zəhmətkeşləri Həmkarlar İttifaqının 19 mindən çox üzvü var idi (Çeşmazər, 1991, s.26).

Pəhləvi hakimiyyəti fəhlələrin təşkilatlanmasının qabağını kəsmək üçün Qərb imperialistlərinin tövsiyəsi ilə mürtəcelərə xidmət edən şahpərəst İran Sosialist Partiyası, Həmkarlar İttifaqı və sair saxta təşkilatlar yaratmış (Məclisin.., 1949, 2 fevral, s.3), etirazçı fəhlə təşkilatlarını dağıdıb fəhlələri həbs və sürgünlərlə cəzalandırırdı. Şah hökuməti etirazçıları susdurmaq üçün ən sərt tədbirlərə əl atmışdı. "Azərbaycan" qəzeti yazırdı ki, Təbrizdəki işçi təşkilatının binası və etirazçıların mitinqləri dəfələrlə polis tərəfindən güllə-baran edilmiş, onlarla adam öldürülmüş, həbs və ya sürgün edilmişdi. Xalqın haqlı tələblərini işıqlandıran qəzetlər isə bağlanırdı. Bu kimi hadisələr ölkədə adi hala çevrilmişdi (29 Aban.., 1948, 20 noyabr, s.1; Saidi, 1948, 11 dekabr, s.4). Seçkilər ərəfəsində hökumət xalqın qəzəbini soyutmaq və aldatmaq üçün saxta "kəndli və işçi birlikləri" quraraq problemlərin guya həll edildiyi görüntüsünü yaradırdılar (Haşimi, 1948, 23 oktyabr, s.1, 4). Zəhmətkeşlərin mürtəce hökumətə qarşı olan ittifaqını pozmaq üçün müxtəlif həbslər həyata keçirən Ə.Qəvam "İttihadiyyə-kargəran" ("İşçilər Birliyi") adlı saxta bir işçi təşkilatı yaratmış, lakin İran fəhlələrinin arasına təfriqə sala bilməmişdi (1 May.., 1948, 1 may, s.4). ADF, onun tərkibində olan Demokrat Cavanlar Təşkilatı və "Azərbaycan" qəzeti bu cür saxta işçi

təşkilatlarına qarşı Tudə Partiyasının tabeliyində olan kəndli və işçi təşkilatlarını dəstəkləməyə çağırırdı (Azərbaycan Demokrat Cavanlar.., 1948, 24 noyabr, s.4).

İranda işçi problemləri ilə yanaşı azərbaycanlı zəhmətkeşlər həm də milli zülm altında idilər. Onlar həm yerli burjuaziyanın və mülkədarların, həm də Pəhləvi fars şovinistlərinin əsarəti altında əzilirdilər. Bu zülmə "21 Azər" hərəkatı və Milli Hökumət dövründə son qoyulmuşdu. "Azərbaycan" qəzetində 1945-1946-cı illərdə Milli Hökumətin dövründə Cənubi Azərbaycanda işçi, fəhlə-kəndli problemlərinin həll edildiyi, işçi haqlarının bərpa edildiyi göstərilir. "Haqq verilməz, alınar" prinsipini önə çəkən qəzet yazırdı ki, "21 Azər" hərəkatı dövründə İran Azərbaycanının kəndliləri və fəhlələri ayağa qalxaraq düşmənin əlindən silahı alıb öz hökumətlərini qurdular (Vilayi, 1949, 2 fevral, s.3).

İşsizliyi ləğv etməyi qarşısına məqsəd qoyan ADF-nin proqramında göstərilirdi ki, dövlət tərəfindən müəssisiələr və emalatxanalar qurmalı və istedadlı gənclərə sənət öyrədilməlidir (Qızıl səhifələr.., s.68). "Azərbaycan" qəzeti yazırdı ki, Milli Hökumət təşkil olunduğu gündən birinci növbədə zəhmətkeşlərin yaşayış vəziyyətlərinin yaxşılaşmasına ciddi fikir verildi. Milli Hökumət bütün demokratik ölkələrdə olduğu kimi fəhlələrə 8 saatlıq iş günü və həftədə bir gün istirahət hüququ verdi. Zavod-fabriklərdə azyaşlı uşaqların işləməsini qadağan edərək kiçik yaşlı uşaqlar üçün təlim-tərbiyə evləri açıldı. Həmçinin fəhlələr içərisində ümumi savadsızlığı ləğv etmək üçün zavod-fabriklərdə dərs otaqları təşkil edilərək hər gün fəhlələr müəyyən qədər dərslə məşğul olmaqla bisavadlığa qarşı mübarizə edilirdi. Milli Hökumət iş yerlərində səhiyyə məsələsinə ciddi fikir verir, həkimlər vasitəsilə fəhlələrə davamlı nəzarət edilirdi. İş qəzası nəticəsində əlil olan fəhlələrə ömürlük təqaüd, qoca fəhlələrə maaşlarının 80%-i həcmində təqaüd verilirdi (Əhmədzadə, 1948, 6 oktyabr, s.4). Milli Hökumət işsizliyi tamamilə ləğv etmiş, hətta bütün Azərbaycanda işləmək istəyən bir nəfər işsiz qalmamış-

dı (Firqəmizin Mərkəzi.., 1948, 15 dekabr, s.4). “Azərbaycan” qəzeti yazırdı ki, fəhlələr demokratiya və azadlığın həqiqi mənasını ancaq öz yaratdıqları Milli Hökumət dövründə dərk etmişdilər (Əhmədzadə, 1948, 6 oktyabr, s.4).

Pəhləvilər dövründə qiymət bahalılığı əsas problemlərdən biri idi. “Azərbaycan” qəzeti yazırdı ki, Pəhləvi hakimiyyəti zamanında xalq aylarla parça və şəkər üzünə həsrət qalmışdı. Məhz Milli Hökumət dövründə dövlət xalqın qayğısına qaldı. S.C.Pişəvəri yazırdı ki, “qəhətlik və bahalılıq ilə xalqı fəlakətə salmaq olmaz” (Qızıl səhifələr.., s.131). Milli Hökumət tərəfindən açılmış mağazalarda ucuz qiymətlə satılan mallar xalqın istifadəsinə verilmişdi. Bu mağazaların açılması yalnız Təbrizlə məhdudlaşmırdı. Milli Hökumət bütün şəhərlərdə, qəsəbələrdə bu cür mağazaları təsis etmək barədə göstəriş vermişdi. Bundan başqa, bayramlarda yoxsul xalqa kömək etmək və xərcləri azaltmaq məqsədilə dövlət mağazalarında satılan malların qiymətinin endirilməsi barədə göstəriş verilmişdi. Dövlət məmurlarına aldıqları maaşın üçdə biri nisbətində dövlət büdcəsi çekləri təqdim edilmişdi. Bu çeklərlə on faiz güzəştlə dövlət mağazalarından mal almaq mümkün idi, bu da məmurların həyat şəraitinin daha da yaxşılaşmasına xidmət edirdi. Bu kimi tədbirlərlə ADF-nin xalqın qeydinə qaldığını göstərən qəzet yazırdı ki, yoxsul xalqın illər boyu çəkdikləri işgəncələrə və gördükləri müsibətlərə dərindən agah olan ADF və onun yaratdığı Milli Hökumət atdığı hər addımda, gördüyü hər tədbirdə və aldığı hər qərarda azərbaycanlıların səadətindən başqa heç bir şey düşünmür (Yenə də.., 1946, 14 mart, s.1).

Lakin ADF-nin məğlubiyyətindən sonra Azərbaycan xalqının xoş günlərinə son qoyuldu. Pəhləvi hakimiyyəti diktatura və xalqa zidd siyasətini, zülm və əsarəti, işsizlik və bahalılıq problemini davam etdirdi, işçi haqları pozuldu, Azərbaycan zəhmətkeşlərinin haqqı qəsb edildi, eyni zamanda onların milli-mədəni hüquqları da pozularaq yenidən Pəhləvilərin şovinist zülmünə məruz qaldılar.

**Neft məsələsi.** İngilis milyoner V.N.Darsi 1901-ci ildə Müzəffərəddin şah hökuməti ilə müqaviə bağlayaraq 60 il müddətinə və 84 % gəlirlə İranda neft axtarışlarına başlamışdı. Xuzistan vilayətindəki Məscidi-Süleyman bölgəsində neftin tapılmasından qısa bir müddət sonra 1909-cu ildə yaradılan və Böyük Britaniya hökumətinin əsas sahibi olduğu "İngilis - İran neft kompaniyası" ingilis milyoner V.N.Darsinin İrandakı neft imtiyazlarını zorla mənimsədi və kompaniya ilk dövrlərdə İranın cənubundakı neft gəlirlərinin 84 %-nə, İran isə 16 %-ə sahib idi. Şimali İran nefti 1917-ci ilin oktyabr çevrilişinə qədər çar Rusiyasının ixtiyarında qaldı və ancaq Leninin hakimiyyəti dövründə bu imtiyazdan imtina edildi. Rza şahın etirazı ilə 1933-cü il müqaviləsindən sonra ingilislər İranın neft gəlirlərindən olan payını artıraraq özlərinə 80 %, iranlılar isə 20 %-lik pay verdilər (Bolat, 2013, s.58, 65). Bu müqavilə zamanı "Rza xanın xəyanət yoldaşı" olan S.H.Tağızadə maliyyə naziri kimi ingilisləri dəstəkləmişdi (Müciri, 1949, 5 fevral, s.1). İngilislər neft məhsullarının daşınması zamanı gömrük vergisindən azad idilər, bu isə İran iqtisadiyyatına böyük zərbə idi (İshaqi, 1948, 11 dekabr, s.4). İngilislərlə bağlanan müqavilələr iranlı tədqiqatçılar tərəfindən "təhqiramiz, biabırçı" bir müqavilə sayılmışdır (Bolat, 2013, s.58). Rza şahın neftdən İranın payını artırma arzusu ingilislər tərəfindən qəbul edilmədi, bu da şahın Hitler Almaniyasına yaxınlaşmasına və daha sonra ölkədən qovulmasına səbəb oldu (Kaya, 2017, s.165). 1948-ci ildə Baş nazir İ.Həkimi bu müqavilənin İranın zərərinə olduğunu etiraf etsə də, dəyişdirmək üçün bir tələblərinin olmadığını Böyük Britaniya səfirliyinə bildirmişdi (Bolat, 2013, s.68).

II Dünya müharibəsi dövründə Tudə Partiyası ilə SSRİ arasındakı sövdələşmə İranın muxtariyyətlərə bölünməsinə səbəb oldu. 1944-cü ildə ABŞ şirkətləri İranda neft güzəştləri ilə bağlı danışıqlar apararkən SSRİ də İranın şimal əyalətlərindən neft konsessiyasını tələb etdilər. Lakin İran parlamenti hökumətə müharibənin sonuna qədər neft konsessiyalarını müzakirə etmə-

yi qadağan edən qanun qəbul etdi. Bu, sovet dövlət təbliğatının İran hökumətinə qarşı qəddar hücumlarına və sovetlərin neft iddialarını dəstəkləyən Tudə Partiyası tərəfindən iğtişaşlara səbəb oldu. 1945-ci ilin dekabrında Cənubi Azərbaycanda muxtariyyət quran ADF hakimiyyəti də Tudə Partiyasının dəstəyini aldı (Iran: a country.., p.31).

II Dünya müharibəsində qələbədən sonra Sovet hökuməti İranın şimalındakı zəngin neft yataqlarını ələ keçirmək üçün aktiv fəaliyyətə başladı. Stalinin imzası ilə "İranın şimalında Sovet sənaye müəssisələri təşkil edilməsi haqda" və "İranın şimalında neftlə bağlı geoloji kəşfiyyat işləri haqda" Ümumittifaq Kommunist (Bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin gizli qərarları (Həsənli, 1998, s.13) bu məqsədə xidmət edirdi. Dövrün şahpərəst İran mətbuatı yazırdı ki, İran Azərbaycanında və Kürdüstanda separatçılıq fəaliyyətləri məhz yeni neft yataqları arzusunda olan SSRİ-nin təşkilatçılığı ilə əlaqədardır (Həsənli, 1998, s.130-131). Dövrün ABŞ diplomatları isə qeyd edirdi ki, İranın şimalındakı neft əslində Rusiyanın ehtiyac duyduğu bir şey deyil, bu, onun İranı istismar edə bilməsi üçün vacibdir (Abrahamian, 1983, p.231). Sovet hökumətinin Şimali İran nefti ilə bağlı "konsessiya" (icarə-Ə.F.) təklifi ingilislərin dəstəyilə şah hökuməti tərəfindən rədd edildi. Bu da Sovet hökumətinin Cənubi Azərbaycanda və Kürdüstanda milli hərəkatları dəstəkləməsinə xüsusi şərait yaratdı. Neft məsələsi sovetlərin İrandakı siyasətini təyin edən əsas amil idi və bu səbəbdən İrana təzyiq üçün Cənubi Azərbaycan məsələsindən məharətlə istifadə etdilər (Həsənli, 1998, s.12, 136-137). ABŞ Müdafiə Nazirliyinin Dövlət Departamentinə verdiyi məlumatda göstərilirdi ki, İran Azərbaycanında və Kürdüstanda sovet nəzarətində yeni hökumətlərin qurulması ingilislərin nəzarət etdiyi İran və İraq nefti üçün bir təhlükə qaynağıdır və sovetlərin qarşısı alınmazsa, İran və İraq parçalanacaq və sovetlərin təsirinə düşəcəkdir. Bu ABŞ-ın milli maraqlarına zidd olduğu üçün ABŞ Müdafiə Nazirliyi İranın ərazi bütövlüyü

üçün onun hərbi baxımdan gücləndirilməsini və dəstəklənməsini tövsiyə edirdi (Memorandum...).

"İngilis - İran neft kompaniyası"nın əsas dayağı İran Şahənşahlıq Bankı idi. Bank təkcə İran iqtisadiyyatını yox, ictimai-siyasi məsələləri, hətta hökumət və parlamenti öz nəzarətində saxlayır, İran içində dərin ingilis dövləti rolunu oynayırdı. "Azərbaycan" qəzeti yazırdı ki, Şahənşahlıq Bankı "İngilis - İran neft kompaniyası"nın əsas dayağıdır. Bu bank neft kompaniyası ilə birlikdə İran dövləti daxilində gizli dövlət idi. Onlar təkcə mühüm iqtisadi mövqeləri əlində saxlamayıb, hətta İranın daxili və xarici siyasətində də mühüm rollar oynayırdılar. Hökumət və parlament üzvlərinin seçilməsi onların nəzarətində idi. Buna görə də İranın bütün ictimai, demokratik dairələri bu imtiyazın qətiyyən ləğv edilməsini tələb edirdilər. Çünki bu imtiyaz İran xalqlarını əsarət altına almaq üçün imperializmin əlində bir silah idi (Agahi, 1949, 16 fevral, s.4). İranda əsl milli bankçılıq sistemi ancaq Milli Hökumət dövründə Təbrizdə yaradılmışdı. ADF-nin və Milli Hökumətin proqramlarında qeyd olunmuşdu ki, "Azərbaycan Milli Bankı təşkil olunmalıdır" və Aqrar Bankı elə gücləndirmək lazımdır ki, kəndliyə kredit verməklə torpaq məsələsini həll edə bilsin (Qızıl səhifələr.., s.66, 149).

"Azərbaycan" qəzeti yazırdı ki, zahirdə "İngilis - İran neft kompaniyası" adı daşıyan bu müəssisədə iranlıların heç bir rolu yoxdur (İngilis.., 1949, 12 yanvar, s.1). Şirkət az maaşla, təhlükəli şəraitdə işlətdiyi iranlı fəhlələrə təzyiq üçün şahın jandarm və polis dəstələrindən və əlaltında saxladıqları çoxsaylı işsizlərdən istifadə edirdi. İngilis kəşfiyyatı ilə əlbir olan şirkətin öz hərbi qüvvələri də var idi. Şirkət qaçaqmalçılıqla məşğul olur, əldə etdiyi neft məhsullarından İrana ödənişsiz pay vermir, İranda xalqlar arası münaqişələr törədərək şahı qorxu içində saxlayırdı (İshaqi, 1948, 11 dekabr, s.4).

Amerikalılar ingilislərlə rəqabətdə olub öz yaratdıqları "İran neft kompaniyası" vasitəsilə İranın neft imtiyazını ingilislərdən

almaq, bu mümkün olmasa ingilslərlə ortaq olmaq istəyirdilər və sonunda ingilislərdən cənub neft məhsulunun illik 40 %-ni satın almağa müvəffəq oldular. "Azərbaycan" qəzeti yazırdı ki, Amerika və ingilis imperialistləri arasındakı münaqişə şiddətlənib və onların rəqabəti nəticəsində İran xalqları daha artıq fəlakət və bədbəxtliyə düçar olublar (İshaqi, 1949, 2 fevral, s.3). Qəzet yazırdı ki, şaha müxalif olanlar ingilislərin İrana neft gəlirlərindən verdiyi payı tənqid edirlər və deyirlər ki, yer üzündə heç bir neft imtiyazında nisbi gəlir cənub neft imtiyazında olduğu qədər az deyildir (İshaqi, 1949, 2 fevral, s.3).

Məhəmmədrza şah xalqın etirazı səbəbilə İran nefti üzərindəki ingilis hakimiyyətini çox saxlaya bilmədi. Qadın haqları müdafiəçisi, tudəçi Məryəm Firuz öz çıxışlarında deyirdi ki, Pəhləvi hökuməti İran xalqlarını ingilis neft şirkətlərinə satmışdır (Beynəlxalq.., 1948, 22 dekabr, s.1). Pəhləvilərə müxalif olan millətçilər, ayətullah Kaşani və M.Müsəddiq ingilislərin neft imtiyazının ləğvini və neftin milliləşdirilməsini tələb edirdilər. İngilislərin neft imtiyazını müdafiə edən və neftin milliləşdirilməsinə qarşı çıxan əsas siyasi xadimlərdən biri şahın dəstəklədiyi Baş nazir Əli Rəzmara idi. Onun qətl edilməsindən qısa müddət sonra M.Müsəddiqin təklifi əsasında İran parlamenti neft imtiyazını ləğv etdi və şah da bunu təsdiq etməyə məcbur oldu (Bolat, 2013, s.69).

Şaha qarşı olan əksər müxaliflərin dəstəklədiyi M.Müsəddiq hökumətinin hərbi çevriliş yolu ilə süqutundan sonra "İngilis - İran neft kompaniyası" 1954-cü ildə "British Petroleum Company" (BP) adını qəbul edərək İran nefti üzərindəki 50 %-lik hakimiyyətini 1979-cu il İran İslam İnqilabına qədər davam etdirdi. Lakin "BP" adı hələ bundan daha əvvəl iranlı mütəxəssislər tərəfindən tövsiyə edilmiş "Benzine-Persia" ("İran benzini") mənasında "İngilis - İran neft kompaniyası" tərəfindən işlədilirdi və o, daha sonra öz əvvəlki mənasını itirərək "British Petroleum" kimi qəbul edildi (İngilis.., 1949, 12 yanvar, s.4).

**Səhiyyə məsələsi**. Sosial-iqtisadi problemlərlə yanaşı səhiyyə məsələsi də Pəhləvilər dövrünün əsas problemlərindən biri idi. Xəstəxanaların yetərsizliyi, dərmanların qıtlığı və bahalılığı, bölgələrdə həkim azlığı və ya yoxluğu səbəbilə erkən ölümlər, doğuş vaxtı ana və körpələrin tələf və ya əlil olması İranda o dövrdə adi bir hal idi. "Azərbaycan" qəzeti yazırdı ki, İranda xəstəxanalar, profilaktik tədbir və təcili yardım müəssisələri olmadığına görə müalicə geniş xalq kütləsini əhatə edə bilmir. Nəticə etibarilə əhali əli-qolu bağlı, ölüm əjdəhasının ağzına atılıb. Kəndlərdə, qəsəbələrdə əsla əczaxana və yaxud həkimdən heç bir iz yoxdur. Əgər kiməsə təcili əməliyyat və ya müalicə lazım olsa, o, əl-ayağını uzadıb ölümü gözləməlidir (Əsgərzadə, 1948, 13 mart, s.1, 4). İldə yüz məzun verən Tehran Universitetinin Tibb fakültəsi əhalinin ehtiyaclarını qarşılamaqda aciz idi (İranı.., 1949, 8 yanvar, s.3). Hətta Tehranda əhalinin səhiyyəyə olan ehtiyacının yalnız üçdə bir hissəsi təmin olunmuşdu və yoxsul təbəqə xəstəxanalarda yer azlığı səbəbilə müalicə oluna bilmirdi (Şəkibxan, 1948, 20 oktyabr, s.1, 3). Ölkədə su probleminin olması, su quyularının azlığı, natəmizlik, dərmansızlıq, həkimsizlik yoluxucu xəstəliklərin artmasına səbəb olmuşdu. İrandakı səhiyyə problemləri, dərman və həkim qıtlığı, yoluxucu xəstəliklərin yayılması "Kommunist" qəzeti tərəfindən də tənqid edilmişdi (İran Azərbaycanında.., 1947, 13 dekabr, s.4).

"Azərbaycan" qəzeti hələ "21 Azər" hərəkatı dövründə azərbaycanlıların yaşadığı bölgələrin qəsdən yoxsulluğa və böhrana məruz buraxıldığını qeyd edərək yazırdı ki, Rza şahın hakimiyyətindən əvvəl Təbrizin, Ərdəbilin ticarət müəssisələri bütün İranda şöhrət və etibar cəhətdən birinci idi. Urmiyanın gözəlliyi, abadlığı İrana səyahət edən avropalıların əsərlərində mühüm yer tutardı. Lakin Pəhləvilər hakimiyyətə gəldikdən sonra yayda toz-torpaq, qışda palçıq və bataqlıqda sürünən camaat əlacsız vəziyyətə düşdü. Qışda yanacaq yoxluğu, yayda su qıtlığı, hamamlarındakı natəmizlik Təbrizdə adi həyat tərzinə çevrilib. Bağçalarda,

həyətlərdə ağac və bitkilər susuzluqdan quruyub məhv olur. Susuzluqdan xalqın fəryadı göylərə qalxır. Sadə bir təhqiqat aparılsa, əhalinin yüzdə yetmişinin traxoma və sair yoluxucu xəstəliklərə düçar olduğu məlum olar ("Azərbaycan" qəzeti.., 2022, s.124).

"Azərbaycan" qəzeti xəstəxanaların və həkimlərin ancaq varlı təbəqəyə xidmət etdiyini göstərərək yazırdı ki, şəhərlərdə kasıblar xəstələndikdə xəstəxanalardan pulsuz olaraq istifadə etməyə haqqı olmadığından ölümə məhkumdurlar (Fəhmi, 1948, 15 sentyabr, s.4). Hökumət isə bu problemlərə laqeyd olub dövlət büdcəsini ancaq öz şəxsi əyləncəsi üçün xərcləyirdi. "Azərbaycan" qəzeti yazırdı ki, bu büdcədən xalqın istifadəsi və səhiyyə problemləri üçün heç bir şey xərclənmir və həmin pullar ancaq əyləncələrə sərf edilir (A.B., 1948, 15 sentyabr, s.1).

"Azərbaycan" qəzeti Pəhləvilərin əlində məhv olan səhiyyə işlərinin məhz Milli Hökumət dövründə düzgün tənzim edildiyini göstərir və yazırdı ki, Azərbaycan Milli Hökuməti bir il içərisində şəhərlərdə, kəndlərdə Azərbaycan millətini səhiyyə cəhətdən təmin etmişdi. ADF səhiyyə problemlərini həll edə bilmişdi. İndi də xalq səhiyyə məsələsinin düzgün həll olunmasını öz milli hökumətinin təşkil olunmasında görür (Əsgərzadə, 1948, 13 mart, s.4). Məhz Milli Hökumət dövründə Təbrizdə pulsuz xəstəxana tikilmiş, əhali pulsuz müalicə ilə təmin edilmişdi ("21 Azər – 70".., 2015, s.132). ADF-nin proqramında göstərilmişdi ki, mövcüd xəstəlikləri sağaltmaq kifayət deyil, onun qarşısını vaxtından qabaq almaq üçün ciddi tədbirlər görmək lazımdır. Hökumət xalqa maddi və mənəvi kömək etməli, əhaliyə gündəlik həyatında lazım olan tibbi məlumatları vermək üçün konfranslar təşkil etməli, radio vasitəsilə xalqı maarifləndirməli və bu məqsədlə xüsusi kitabçalar nəşr etməli, dövlət hesabına bağça və uşaq evləri açılmalıdır (Qızıl səhifələr.., s.68).

"Azərbaycan" qəzeti yazırdı ki, xalqın qanı bahasına toplanan dövlət büdcəsi Pəhləvi hökuməti tərəfindən zəhmətkeşlərin əleyhinə xərclənir. Qəzet yazırdı ki, hədsiz istismar nəticəsində

süngü güciylə toplanılan vergilər İran dövlətinin büdcəsinin əsasını təşkil etdiyi halda, bu büdcənin əksəriyyəti ancaq zindanlar tikilməsinə, sürgün düşərgələrinin bərpa edilməsinə və xalqın azadlıq səsini boğmaq üçün saxlanılan silahlı qüvvələrə, xaricdən alınan silahlara xərclənir (Fəhmi, 1948, 15 sentyabr, s.1).

Büdcəni dağıdan hökumət Rza şahın mədəni Avropa ölkələrindəki "Hilali-əhmər" ("Qırmızı aypara") müəssisəsini guya təqlid edərək yaratdığı və Məhəmmədrza şahın bacısı Şəms Pəhləvinin rəhbəri olduğu "Şirü-xurşid" cəmiyyətinin və onun bölgələrdəki şöbələrinin vasitəsilə xalqdan ianə yığırdı. Xalqa heç bir xeyir verməyən bu qurumu tənqid edən "Azərbaycan" qəzeti yazırdı ki, şah hökuməti səhiyyə və maarif büdcəsini artırmaq əvəzinə şahzadə Əşrəf Pəhləvini "Şirü-xurşid" müəssisəsinə rəhbər qoyaraq xalqın gözündən pərdə asmaq istəyir. Zəlzələ, sel, xəstəlik və aclıqdan camaat qırıldıqdan sonra "Şirü-xurşid" müəssisəsi ianə yığır (Əhmədzadə, 1948, 25 dekabr, s.1). Yığılan yardımlar da çox vaxt hökumət tərəfindən mənimsənilir, möhtaclara çatdırılmırdı. "Azərbaycan" qəzetində verilən bir karikaturada Xorasanda baş vermiş zəlzələdən sonra "Şirü-xurşid" cəmiyyətinin xalqa qayğı ilə yox, soyğunçuluqla məşğul olduğu göstərilmişdir. 1948-ci ilin oktyabr ayında baş vermiş bu zəlzələdən bəhs edən "Azərbaycan" qəzeti "zəlzələ xain dövləti bir daha ifşa etdi" deyir (Fəhmi, 1948, 23 oktyabr, s.1, 3) və "xeyriyyəçiləri" belə ifşa edirdi:

"Yerli "Şirü-xurşid" girişir işə,
Sədəqə yığılır millət adından" (Xorasandakı.., 1948, 3 noyabr, s.4).

"Azərbaycan" qəzeti yazırdı ki, Pəhləvi hökumətinə görə İranı imperialistlərin xammal mənbəyinə çevirmək və xalqı əsarət altında saxlamaq üçün maarif, səhiyyə, mədəniyyət yox, hərbi polis rejimi lazımdır (Fəhmi, 1948, 15 sentyabr, s.4). Lakin zindanlar, Qəsri-Qacarlar şahı xilas etmədi. "Azərbaycan" qəzeti yazırdı ki, mənfur şah hökuməti zəhmətkeş kütlələrin mübarizəsi

nəticəsində yenidən məhv olacaqdır (Haşimi, 1948, 23 oktyabr, s.4). Həqiqətən də xalqın şaha olan sonsuz nifrəti öz nəticəsini verdi. Məhəmmədrza şah 1979-cu ildə ailəsi ilə birlikdə ölkədən qovuldu və İranda şah rejiminə son qoyuldu.

Son olaraq deyə bilərik ki, bu fəsildə Qacarlardan sonra İranda dövlət çevrilişi yolu ilə hakimiyyəti zəbt etmiş Pəhləvi sülaləsinin hakim nümayəndələrinə, başda Rza şah və oğlu Məhəmmədrza şah olmaqla siyasi xadimlərin fəaliyyətinə nəzər salındı. Şah rejiminə xidmət edən siyasi xadimlərin xarici imperializmə qulluq edərək İrana, həmçinin Azərbaycan mədəniyyətinə, iqtisadiyyatına, demokratik təsisatlara vurduğu zərbələr, ADF-in və "Azərbaycan" qəzetinin buna qarşı mübarizəsi göstərildi. Həmçinin dövrün dini-siyasi məsələləri, Pəhləvilərin dini alət edərək öz siyasi məqsədləri üçün istifadə etməsi, ölkədə qadın hüquqlarının pozulması, Məryəm Firuz kimi azərbaycanlı hüquq müdafiəçilərinin bu sahədə mücadiləsi təqdim edildi.

Bu fəsildə Pəhləvilərin gənclər və ordu siyasəti haqqında məlumat verildi, göstərildi ki, Pəhləvilər ordu və polis ilə xalqı qarşı-qarşıya qoymaqla ölkədə hərbi diktatura yaratmış, gənclərin xalqa zidd ruhda yetişməsinə şərait yaratmışdılar. ADF-nin rəhbərlik etdiyi Milli Hökumət dövründə xalqla Milli Ordu arasında yaxınlaşma meydana gəlmiş, hətta İran ordusunun bir sıra zabit və əsgərləri Milli Hökumətin silahlı qüvvələrinə könüllü şəkildə qoşulub şah rejiminə qarşı savaşmışdılar. General C.Kaviyan, Q.Y.Danişyan, M.R.Kəbiri, Ə.Əzimi kimi Milli Hökumətin xidmətində olan hərbçilər Cənubi Azərbaycanın demokratik azadlığı uğrunda və şah rejiminə qarşı hərbi mücadilədə, milli mücadilədə misilsiz xidmətlər göstərmişdirlər. "Azərbaycan" qəzetində "21 Azər" fədailəri, milli zabitlər haqqında verilən məqalələr gənc azərbaycanlıların hərbi vətənpərliklərinin inkişafında mühüm rol oynadı. Bu fəsildə həmçinin şah rejiminin xalqı istismar etməsi, sosial-iqtisadi problemlərə göz yumması, Cənubi Azərbaycanın təbii ehtiyatlarını, ölkəni qarət edib xalqı ac-susuz saxlamaları,

neftdən milyonlar qazanan və xarici imperialistləri varlandıran Pəhləvi hakimiyyətinin yoxsul xalqın işsizlik, səhiyyə, məişət problemlərini həll etməməsi, Pəhləvi sülaləsinin və məmurların xalqı qul, kölə kimi görüb onların qayğısına qalmaması nümunələrlə təqdim edildi. Bunun əksinə olaraq Milli Hökumət dövründə xalq və hökumət birliyinin nəticəsində Cənubi Azərbaycan əhalisinin azad insan və vətəndaş kimi bir gün gördüyü, dövlət və vətəndaş həmrəyliyinin qısa müddətə də olsa bərqərar edildiyi, lakin Pəhləvi işğalı nəticəsində Milli Hökumətin süqutundan sonra ölkədə demokratik nailiyyətlərin məhv edildiyi, yeni faciələrin baş verməsi "Azərbaycan" qəzetinin materialları əsasında göstərildi.

# NƏTİCƏ

XX əsrin I yarısında Cənubi Azərbaycanda baş verən inqilabi dəyişikliklər və yeniliklər xalqımızın həyatında böyük rol oynadı. Bu dövrdə Cənubi Azərbaycanın tərəqqisi, milli-mədəni inkişafı, milli istiqlalı üçün çalışan ADF xadimlərinin böyük rolu olmuşdur. Dövrün ziyalıları Cənubi Azərbaycanın şanlı tarixində özlərinəməxsus bir iz qoymuş, vətənpərvərliyin, millətsevərliyin, xalqa bağlılığın bariz nümunəsini vermişlər. Monoqrafiyada ilk dəfə olaraq ADF-nin orqanı olan "Azərbaycan" qəzetinin 1947-1949- cu il sayları, qəzetin yazarları, o cümlədən, 1945-1946-cı il nömrələri əsasında, dövrün sovet və İran mətbuatlarından, "21 Azər" hərəkatının iştirakçılarının əsərlərindən nümunələr verməklə mövzu araşdırılımışdır.

Tədqiqatda göstərilir ki, Qacarların xalqa zidd siyasəti demokratik hərəkata səbəb olub nəticədə Qacar sülaləsi zəifləyərək hakimiyyətə Pəhləvi sülaləlsi keçdi. Pəhləvi rejiminin Cənubi Azərbaycana vurduğu zərbələr, milli ziyalılara edilən təzyiqlər, milli-mədəni inkişafa olan əngəllər, farspərəst şovinistlərin azərbaycanlıların milli hisslərinə olan təhqiramiz münasibəti cavabsız qalmadı. Sovet hökumətinin də dəstəyi ilə Cənubi Azərbaycanda demokratiya uğrunda mübarizənin şanlı tarixi yazıldı, ADF və onun rəhbərliyində Milli Hökumət quruldu.

"Azərbaycan" qəzetinın 1947-1949-cu il saylarının təhlili göstərdi ki, Milli Hökumət təhsil, mədəniyyət, səhiyyə və iqtisadiyyat sahələrində bir sıra islahatlar həyata keçirilmiş, ana dilində təhsil və mətbuatı, milli mədəniyyəti inkişaf etdirilmişdir. Lakin Milli Hökumətin beynəlxalq irtica dəstəkli Pəhləvi hakimiyyəti tərəfindən süqutundan sonra bütün bu milli nailiyyətlərə son qoyuldu.

Tədqiqatda S.C.Pişəvəri, F.İbrahimi, M.Biriya, S.Cavid, M.Çeşmazər, S.Badigan, C.Müciri, M.Vilayi, İ.Şəms, Ə.Şəmidə, Q.Kəndli, F.Xoşginabi kimi mütəfəkkir və yazarların,

M.Gülgün, H.Billuri, B.Azəroğlu, Ə.Tudə və s. şairlərin əsərlərindən mövzu üzrə nümunələr təqdim edilmişdir. Onların əsərlərindən nümunələrin təqdimi və təhlili Cənubi Azərbaycan həqiqətlərinin oxuculara çatdırılmasında mühüm rol oynamışdır. Deyə bilərik ki, bu kimi ziyalıların fəaliyyəti nəticəsində Cənubi Azərbaycanda milli şüur güclənmişdir.

Aparılan tədqiqat göstərdi ki, "21 Azər" hərəkatı milli oyanışa xidmət etməklə, eyni zamanda Pəhləvilərin müstəmləkəçilik və assimilyasiya siyasətinə qarşı çevrilmiş bir silah idi. Milli ziyalılar avam kütlələri oyatmağa, onları şah rejiminin və Qərb imperializminin əsarətindən qurtarmağa çalışırdılar. ADF xadimləri Cənubi Azərbaycanın Pəhləvi rejimi tərəfindən daxili və xarici əsarətinə son qoymaq qayəsini güdürdülər. Onlar milli şüarlar altında azərbaycanlıların şərəfli keçmişini yenidən zehinlərdə canlandırmaqla gələcək azadlıq hərəkatının təməlinin qoyulmasında önəmli rollardan birini oynamışdırlar. Bu işdə onların əsas silahı isə "Azərbaycan" qəzetində ortaya qoyduqları demokratik şüarlar, milli azadlıq, milli maarifçilik ideyası, yazdıqları əsərlər, etdikləri çıxışlar olub, bu vasitələrlə Azərbaycan və İran xalqlarının buxovlardan qurtuluşuna nail olmaq istəyirdilər. Son nəticədə onlar hərbi mübarizəni uduzsalar da xalqda milli, demokratik azadlığa inamı bərpa etməyə nail oldular.

Cənubi Azərbaycan əhalisinin gələcək inkişafında, dini radikalizm, mövhumat və xurafat, assimilyasiya kimi təhlükələrə düşmədən irəliləməsində "Azərbaycan" qəzetinin tədqiqi böyük faydalar yarada bilər. Cənubi Azərbaycanda gələcək nəsillərin milli düşüncədə, sağlam yetişməsində, İranda ictimai-siyasi, sosial-iqtisadi mühitin normallaşmasında, xalqlar arasında sülhün, qardaşlığın, tolerantlığın qorunmasında "Azərbaycan" qəzetinin əhəmiyyətli rol oynayacağı şübhəsizdir.

"Azərbaycan" qəzetinin tədqiqi və öyrənilməsi milli-mənəvi irsimizə dərindən yiyələnmək baxımdan olduqca vacibdir. Bu qəzetin və yazarlarının əsərlərinin kitabxanalarda gözdən uzaq,

könüldən iraq tərk edilməsinə imkan verilməməlidir. Keçmişini bilməyən, əcdadlarından bixəbər bir millət özünə də inamsız olub, gələcəyə gedən yolu qaranlıq olar, zaman içində yox olmağa məhkum qalar. Bu səbəbdən Azərbaycan tarixşünaslığının ən önəmli məsələlərindən biri də "Azərbaycan" qəzetinin materialları əsasında "21 Azər" hərəkatının tədqiqidr.

"Azərbaycan" qəzetinin araşdırılması nəinki "21 Azər" hərəkatının, o cümlədən, Qacarlar və Pəhləvilər dövrünün tarix və mədəniyyətini, monarxiyaya qarşı xalq azadlıq hərəkatını, məşrutə inqilabını, Xiyabani hərəkatını öyrənmək baxımından da əhəmiyyətlidir. Həmçinin Cənubi Azərbaycanda milli mədəniyyətə və inqilaba, milli hərəkata öz töhfəsini vermiş milli ədib, şair və yazarlarımızın, mütəfəkkirlərimizin öyrənilməsi, dövrün ictimai-siyasi, mədəni proseslərinin tədqiqi baxımından önəmlidir və öz tədqiqatçılarını gözləyir. Şah rejiminə qarşı mübarizə aparan S.C.Pişəvəri və onun rəhbərlik etdiyi "21 Azər" hərəkatı daxili və xarici amillər səbəbilə məğlub olsa da, onun mütərəqqi, inqilabi ideyaları unudulmadı və yaşadı.

"Azərbaycan" qəzeti "21 Azər" hərəkatının Cənubi Azərbaycanda milli özünüdərkin artmasına və daha sonra ortaya çıxan milli hərəkətlərə təsir etdiyini ortaya qoydu və göstərdi ki, bu hərəkat, İran və Azərbaycan tarixində mühüm bir mərhələ olaraq yadda qaldı və sonrakı dövrlərdə də milli hüquqlar uğrunda mübarizənin simvolu oldu. Beləliklə, qəzetin materialları belə deməyə əsas verir ki, "21 Azər" hərəkatı qısa müddətli olsa da, Azərbaycan xalqının milli və sosial hüquqlar uğrunda mübarizəsində mühüm bir əhəmiyyət kəsb edib.

"Azərbaycan" qəzetinin tədqiqi və araşdırılması təkcə Qacar və Pəhləvilər dövründəki Cənubi Azərbaycanı deyil, həm də onun Şimali Azərbaycanla əlaqəsini, qarşılıqlı tarixi-mədəni əlaqələrini və münasibətlərini öyrənmək, Cənubi Azərbaycan əhalisinin və Milli Hökumətin demokratik xalq hərəkatındakı rolunu, milli azadlıq və mübarizə yolunu tədqiq, təhlil və təbliğ etmək baxı-

mından əhəmiyyətlidir. Bu sahədə tədqiqatların, araşdırmaların aparılması, Azərbaycan Respublikasının sərhədlərindən kənarda, öz doğma yurdlarında yaşayan azərbaycanlıların, o cümlədən, Cənubi Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni tarixinin öyrənilməsi vacibdir. Səttarxan, M.Xiyabani, S.C.Pişəvəri, F.İbrahimi, S.Cavid, M.Biriya, S.Badigan kimi görkəmli şəxsiyyətlərin keçdiyi şərəfli mübarizə yolunun, ADF-nin "Azərbaycan" qəzetinin və yazarlarının tədqiqi və təbliği Azərbaycan alimlərinin qarşısında duran əsas məsələlərdən biri olmalıdır.

# MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT SİYAHISI

1 May dünya zəhmətkeşlərinin öz qüvvələrini nümayiş etdirdikləri gündür // Azərbaycan, 1948, 1 may, s.1, 4.

17 Dey İran qadınlarının "Azadlıq bayramının" həqiqi mənası // Azərbaycan, 1948, 14 yanvar, s.4.

19 və 20-ci əsrlərdə Təbrizdə ədəbiyyat (7) // Azərbaycan, 1946, 25 aprel, s.2.

"21 Azər – 70". Fotoalbom. Tərtibçi: S.Bayramzadə. Bakı: Araz nəşriyyatı, 2015, 188 s.

"21 Azər"in 3-cü ildönümü münasibətilə təşkil olmuş yığıncaq tərəfindən qəbul olunmuş qətnamə // Azərbaycan, 1948, 18 dekabr, s.3.

"21 Azər"in 3-cü ildönümü münasibətilə təşkil olunmuş yığıncaqda yoldaş Rəhim Qazinin məruzəsi // Azərbaycan, 1948, 18 dekabr, s.1, 4.

29 Aban Müəssisan Məclisinin təşkili günü // Azərbaycan, 1948, 20 noyabr, s.1, 4.

8 Mart dünya qadınlarının beynəlxalq bayramı // Azərbaycan, 1948, 10 mart, s.1.

A.B. Oğruların vədələri // Azərbaycan, 1948, 15 sentyabr, s.1.
Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi (XX əsr). Dərslik. Bakı: ABU nəşr., 2006, 464 s.

Abışov V. Güney Azərbaycanlıların milli-azadlıq hərəkatı (1941-1946-cı illər) tarixinin tarixşünaslığı. Bakı: Elm və təhsil, 2023, 192 s.

Abışov V. İranda Azərbaycan türklərinin milli-azadlıq hərəkatı tarixinin (1941- 1946-cı illər) tarixşünaslığı // Ədalət, 2019, 16 may, s.7.

Abışov V. İranda Azərbaycan türklərinin milli-azadlıq hərəkatı tarixinin (1941- 1946-cı illər) tarixşünaslığı // Ədalət, 2019, 17 may, s.7.

Abışov V. İranda Azərbaycan türklərinin milli-azadlıq hərəkatı tarixinin (1941- 1946-cı illər) tarixşünaslığı // Ədalət, 2019, 18 may, s.4.

Açıq təhqir, aleni düşmənlik // Azərbaycan, 1949, 5 yanvar, s.1, 3.

ADF-nin ikinci sədri Sadıq Badiqan // https://azerbaycan- ruz- namesi. org/2021/01/13/adf-nin-ikinci-s%C9%99dri-sadiq-badiqan

Agahi Ə. Qeyri-qanuni müaməlә // Azərbaycan, 1949, 16 fevral, s.4.

Agahi. Tehranın irticai mətbuatı pul müqabilində hər cürə alçaqlığa hazırdır // Azərbaycan, 1948, 4 dekabr, s.4.

Ağayi Pişəvərinin Milli Vəzifə İdarəsində milli nizam xidməti haqqında söylədiyi nitqin məzmunu // Azərbaycan, 1946, 11 fevral, s.1.

Ağayi Pişəvərinin nitqi-5 // Azərbaycan, 1324 (1945), 29 şəhrivər (20 sentyabr), s.1.

Ağayi Pişəvərinin nitqi-6 // Azərbaycan, 1324 (1945), 1 mehr (23 sentyabr), s.2.

Ağayi Pişəvərinin nitqinin müxtəsəri // Azərbaycan, 1324 (1945), 27 şəhrivər (18 sentyabr), s.1-2.

Ağayi Pişəvərinin etdiyi nitqin xülasəsi // Azərbaycan, 1325 (1946), 16 azər (7 dekabr), s.2.

Axundova E. Hakimiyyət yükü altında (1923-1982). Bakı: Şərq-Qərb, 2019, 592 s.

Alman faşistlərinin Sovet İttifaqına hücumunun 7 illiyi münasibətilə // Azərbaycan, 1948, 23 iyun, s.1, 4.

Astiyak. Qocaman hürriyyətçi general Kəbiri // Azərbaycan, 1948, 14 fevral, s.3.

Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı: Avrasiya press, 2006, 416 s.

Azadlıq uğrunda şəhid olmuş Sultanhəsən Zəhiri // Azərbaycan, 1948, 10 yanvar, s.3.

Azadlıq yolunun mübarizləri. 3 clddə, I cild. Red. C.

Müciri.“Azərbaycan” ruznaməsi nəşriyyatı, 1962, 208 s.

Azadlıq yolunun mübarizləri. 3 cilddə, II cild . Tərt. ed. C. Müciri. “Azərbaycan” ruznaməsi nəşriyyatı, 1969, 200 s.

Azadlıq yolunun mübarizləri. 3 cilddə, III cild . Baş redaktor və tərt. ed. C.Müciri. “Azərbaycan” ruznaməsi nəşriyyatı, 1988, 96 s.

Azərbadiganı tanıyın // Azərbaycan, 1948, 10 mart, s.3.

Azərbaycan alimlərinə Stalin caizəsi verilmişdir // Azərbaycan, 1948, 2 iyun, s.4.

Azərbaycan danışır // Azərbaycan, 1946, 28 aprel, s.1.

Azərbaycan Demokrat Cavanlar Təşkilatının 3-cü ildönümü münasibətilə yoldaş doktor Cahanşahlının məruzəsi // Azərbaycan, 1948, 24 noyabr, s.1, 3-4.

Azərbaycan Demokrat Cavanlar Təşkilatının 3-cü ildönümü // Azərbaycan, 1948, 27 noyabr, s.1.

Azərbaycan Demokrat Firqəsinin 1324-ci il mehr ayının 10-nunda birinci konqre tərəfindən qəbul olunmuş Məramnaməsi // Azərbaycan, 1948, 14 yanvar, s.3.

Azərbaycan Demokrat Firqəsinin 3-cü ildönümü münasibətilə firqə üzvlərinin iştirakı ilə təşkil edilmiş təntənəli yığıncaq tərəfindən müxabərə olunmuş teleqraflar // Azərbaycan, 1948, 8 sentyabr, s.1.

Azərbaycan Demokrat Firqəsinin sədri və Azərbaycan xalqının sevimli rəhbəri ağayi Pişəvərinin dünən gecə radio müqabilində söylədigi tarixi nitqi // Azərbaycan, 1946, 18 iyun, s.1, 4.

Azərbaycan dili haqqında 1400 il bundan qabaq Kisra Ənuşirəvan Adilin yaddaştları // Azərbaycan, 1945, 21 noyabr, s.1-2.

Azərbaycan xalqının azadlığı yolunda mübarizlər. Red: B.İmrani. Bakı: Nurlan, 2005, 224 s.

Azərbaycan xalqının azadlıq bayramı // Azərbaycan, 1948, 28 aprel, s.1, 3.

Azərbaycan xalqının fars işğalçılarına qarşı mübarizəsi //Azərbaycan, 1948, 29 may, s.1.

Azərbaycan xalqının rəhbəri yoldaş Bağırova // Azərbaycan, 1948, 15 dekabr, s.1, 3.

“Azərbaycan” qəzeti. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin orqanı(1945-1946-cı illər, Təbriz). I hissə, Azərbaycan

dilinə transliterasiya və tərcüməsi. Məsul redaktor: S.Bayramzadə. Bakı: Elm, 2022, 928 s.

“Azərbaycan” qəzetinin səhifələrində - 65-ci yazı // https:// www. xalqcebhesi.az /news/southazerbaijan/65205.html “Azərbaycan” qəzetinin səhifələrində. 49-cu yazı // Xalq Cəbhəsi, 2020, 8 oktyabr, s.14.

Azərbaycan Milli Dövlətinin Baş vəziri Pişəvəri. Dil haqqında Azərbaycan Milli Hökumətinin Qərarı // Azərbaycan, 1946, 9 yanvar, s.1.

Azərbaycan Milli Hökumətinin Dövlət Himni // https://azerbaycan-ruznamesi.org/az%C9%99rbaycan-milli-hokum%C9%99tinin-dovl%C9%99t-himni/

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti Azərbaycan Sovet Təhlükəsizlik Orqanları, 2 s. // https:// www.dtx.gov.az/uploads/history-pdf/231-1- history-data.pdf.

Azərbaycan, 1947, 13 dekabr, s.1-3.

Azərbaycan, 1945, 31 oktyabr, s.1-2.

Azərbaycan, 1948, 28 fevral, s.4.

Azərbaycan, 1948, 3 mart, s.3.

Azərbaycan, 1948, 13 mart, s.4.

Azərbaycan, 1948, 20 mart, s.1-3.

Azərbaycan, 1948, 24 mart, s.4.

Azərbaycan, 1948, 7 aprel, s.4.

Azərbaycan, 1948, 21 avqust, s.4.

Azərbaycan, 1948, 15 sentyabr, s.4.

Azərbaycan, 1948, 20 noyabr, s.4.

Azərbaycan, 1948, 4 dekabr, s.2.

Azərbaycan, 1948, 11 dekabr, s.4.

Azərbaycan, 1948, 15 dekabr, s.1.

Azərbaycan, 1948, 29 dekabr, s.3.

Azərbaycan, 1949, 12 yanvar, s.4.

Azərbaycan Midiyadır, Midiya Azərbaycan // Azərbaycan, 1948, 6 mart, s.1, 3.

Azərbaycan milləti və məşrutiyyət tarixi // Azərbaycan, 1948, 4 avqust, s.1.

Azərbaycan nəhzəti Tehranın ziddi-demokrasi siyasətinin nəticəsidir // Azərbaycan, 1948, 7 aprel, s.4.

Azərbaycanda iqtisadi vəziyyət, işsizlik və ticarət durğunluğu // Azərbaycan, 1948, 7 aprel, s.1.

Azərbaycanda polisin azğınlığı // Azərbaycan, 1948, 13 mart, s.1.

Azərbaycanda vəziyyət get-gedə pisləşməkdədir // Azərbaycan, 1949, 12 yanvar, s.1.

Azərbaycanın böyük xalq və maarif xadimi Rüşdiyyə // Azərbaycan, 1324 (1945), 2 mehr (24 sentyabr), s.1.

Azərbaycanın müxtəlif təbəqələri tərəfindən Tehrana göndərilmiş nümayəndələrə teleqraflar // Azərbaycan, 1945, 10 may, s.2.

Azərbaycanın vəziyyəti pisləşməkdədir // Azərbaycan, 1948, 27 oktyabr, s.1.

Azəri R. Ana dilimizin hələ min illik tarixini inkar edənlərin rəsmi təsdiqi // Azərbaycan, 1946, 6 may, s.1, 4.

Azəri R. Mühüm bir mədrək // Azərbaycan, 1946, 29 mart, s.2.

Azəri S. M.C.Pişəvəri qadınlar haqqında // https://achiq.info/m.hukumet/s%20azeri%20p_q%20L.htm

Azəroğlu. And // Azərbaycan, 1947, 2 dekabr, s.3.

Azəroğlu. Azərbaycan (Sovet Azərbaycanının 25 illiyi münasibətilə) // Kommunist, 1945, 13 may, s.3.

Azəroğlu. Cavanlara. Sən fədai oğlusan // Azərbaycan, 1948, 24 noyabr, s.4.

Azəroğlu. Doktor Ərani // Azərbaycan, 1948, 7 fevral, s.1, 3.

Azəroğlu. Savalan // Azərbaycan, 1948, 28 fevral, s.3.

Azəroğlu. Zindan // Azərbaycan, 1948, 24 iyul, s.3.

Azyaşlı uşaqların istismar olunması // Azərbaycan, 1948, 22 may, s.1.

Badigan S. Azərbaycan Demokrat Firqəsinin vəfadar üzvü Qulu Sübhi Nuri // Azərbaycan, 1948, 11 dekabr, s.3.

Bağırov F. II Dünya müharibəsi dövründə Güney Azərbaycan//https://www.facebook.com/azhistorymuseum/ posts/4059587324082628/

Balayev X. Cənubi Azərbaycanda demokratik hərəkatın (1941-1946-cı illər) məğlubiyyəti: siyasi və geosiyasi səbəblər, s.312-331 // https://jhss-khazar.org/wpcontent/uploads/2010/06/24-1.pdf

Balayev X. Cənublu şair və yazıçıların Azərbaycan ədəbi mühitinə inteqrasiyası // Xəzər Xəbər. Bakı, 2011, № 297, s.56-60.

Baş vəzirimiz ağayi Pişəvərinin Daneşsəra salonunda söylədiyi nitqin məzmunu // Azərbaycan, 1946, 12 fevral, s.1, 4.

Bayraməli Abbaszadə "Hamal" // Azərbaycan, 1948, 3 aprel, s.3.
Bayramzadə S. 1920-ci il Təbriz üsyanı // https://azerbaycan- ruznamesi.org/2021/04/07/1920-ciil-t%C9%99briz-usyani/

Bayramzadə S."21 Azər" hərəkatının izləri və təsir dairəsi haqqında//https://azerbaycan-ruznamesi.org/2021/09/03/21-az%c9%99rh%c9%99r%c9%99katinin izl%c9%99ri-v%c9%99-t%c9%99sirdair%c9%99sihaqqinda/

Bayramzadə S. ADF-nin yaranması və fəaliyyəti barədə bəzi mülahizələr // "21 Azər-70" mövzusunda Elmi Konfransın materialları. Bakı: Araz, 2015, s.151-171.

Bayramzadə S. Cənubi Azərbaycan milli-demokratik hərəkatında Ənuşirəvan İbrahimi siması // Bakı: Metafizika, 2021, № 4 (1), s.132-153.

Bayramzadə S.Ənuşirəvan Qəni oğlu İbrahimi // https://azerbaycan-ruznamesi.org/2020/12/25/%C9%99nusir%C9%- 99van-q%C9%99ni-oglu-ibrahimi-12-05-1926-13-09-1987/

Bayramzadə S.Firudin İbrahimi və azərbaycançılıq, 9 s. // http://adfmr.megavisionsites.com/files/documents/Firudin-%-C4%B0brahimi-

v%C9%99-az%C9%99rbaycan%C3%A7%C4%B1l%C4%-B1q.pdf

Bayramzadə S. Heydər Əliyevin azərbaycançılıq ideyasında Cənubi Azərbaycan. https://azerbaycan-ruznamesi. org/2021/10/17/heyd%C9%99r-%C9%99liyevin-az%-C9%99rbaycanciliq-ideyasinda/

Bayramzadə S.Z. İran hakim dairələrinin Cənubi Azərbaycan maarifi və mədəniyyəti sahəsindəki siyasəti (1947-1978) // Cənubi Azərbaycan tarixi məsələləri. Məsul red. Ş.Ə.Tağıyeva. Bakı: Elm, 1991, s.46-67.

Beynəlxalq Qadınlar Təşkilatının ikinci konqresində İran qadınlar nümayəndəsi xanım Məryəm Firuzun nitqi // Azərbaycan, 1948, 22 dekabr, s.1.

Bəhrami Ə. Azadlıq uğrunda şəhid olmuş Sultan Qulamrza Dəbirniya // Azərbaycan, 1948, 7 avqust, s.3.

Bəhrami M. İranda istiqlal vardırmı? // Azərbaycan, 1949, 26 yanvar, s.1.

Bəxşi R. Azərbaycanda müəllimlərin vəziyyəti // Azərbaycan, 1948, 23 oktyabr, s.1, 4.

Bicari H. Vətən və vətənpərvərlik // Azərbaycan, 1948, 9 iyun, s.4.

Billuri H. 3 il bundan əvvəl // Azərbaycan, 1948, 18 dekabr, s.3.

Billuri H. Xatırlayaram o günləri // Azərbaycan, 1949, 19 fevral, s.3.

Billuri H. Mənim arzum // Azərbaycan, 1948, 23 oktyabr, s.3.

Billuri H. Olacaq ölkəmiz yenə gülşən // Azərbaycan, 1947, 23 dekabr, s.3.

Biriya. Ədalətin eşqinə! // Vətən yolunda, 1945, 22 iyun, s.2.

Biriya M. Mən ağlaram, gülər o // Kommunist, 1945, 23 oktyabr, s.2.

Biriya M. Sevirəm mən də // Azərbaycan, 1325 (1946), 16 azər (7 dekabr), s.8.

Biz fərdi terroru, şəxsi sui-qəsdin əleyhinə olub ictimai inqilabın tərəfdarıyıq //Azərbaycan, 1949, 12 fevral, s.1, 4.

Böyük oktyabr sosialist inqilabının otuz birinci ildönümü bayramı // Azərbaycan, 1948, 6 noyabr, s.1, 4.

Cahanşahlı. Qəhrəman və fədakar doktor Ərani // Azərbaycan, 1948, 7 fevral, s.3.

Cavadi A. Seyid Cəfər Pişəvərinin müavini ilə müsahibə // https://www.azadliq.org/a/138482.html

Cavan A.H. Getmə // Kommunist, 1946, 12 may, s.2.

Cavan A.H. Günəşə doğru // Azərbaycan, 1949, 5 fevral, s.3.

Cavan A.H. Bayquş // Azərbaycan, 1948, 27 mart, s.3.

Cavan A.H. Firqəmiz // Azərbaycan, 1948, 29 dekabr, s.3.

Cavan A.H. Təbrizim // Azərbaycan, 1948, 29 may, s.3.

Cavid S. O günün həsrətiylə (Xatirələr), 89 s. // https://www. achiq.info/m.hukumet/cavid%20bL.pdf

Cəfərpur İ. Qoyma qaçır // Azərbaycan, 1949, 16 fevral, s.4.

Cəfərpur İ. Olacaq // Azərbaycan, 1948, 8 dekabr, s.3.

Cəfərov A. 178 il zülm altında // https://multikultural.az/az/tolerantliq/1194/178-il-zulm-altinda-azer-ceferov-yazir/

Cənubi Azərbaycan // Azərbaycan Sovet Ensiklopediyası. X cild. Bakı: ASE Baş Redaksiyası, 1987, s.418.

Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. 4 cilddə. III cild. Red. M.İbrahimov. Bakı: Elm, 1988, 552 s.

Cənubi Azərbaycan şairləri Azərbaycan haqqında // Kommunist, 1945, 13 may, s.3.

Cənubi Azərbaycanda 21 Azər hərəkatı haqqında xatirələr // https://www.azadliq.info/208657.html

Ciddi. Dövləti-şahənşahi, yaxud fəsad mənbəyi // Azərbaycan, 1949, 29 yanvar, s.1.

Ciddi. Xalqın öz pulunu özünə ianə adıyla vermək nə deməkdir? // Azərbaycan,1949, 8 yanvar, s.1.

Çernışev V. Arazın o tayında // Kommunist, 1945, 21 dekabr, s.1.

Çeşmazər M. Azərbaycan Demokrat Firqəsinin (ADF) yaranması və

fəaliyyəti (Cənubi Azərbaycan 1945-1946), 121 s.
// http://www.achiq.info/m.hukumet/adfchL.pdf

Çeşmazər M. Məşəqqətli ömür, 9 s. // https://www.achiq.info/m.hukumet/biriya%20dL.pdf

Çeşmazər M.M. S.C.Pişəvərinin Azərbaycan Demokrat Partiyasının və Azərbaycan Milli Hökumətinin yaranması uğrunda mübarizədə rolu haqqında // Cənubi Azərbaycan tarixi məsələləri. Məsul red. Ş.Ə.Tağıyeva. Bakı: Elm, 1991, s.18- 45.

Çingizoğlu Ə., Avşar A. Avşarlar. Bakı: Şuşa nəşr., 2008, 368 s.
Çingizoğlu Ə. Rza şah Pəhləvi əslən irəvanlıdır // https://fedai.az/?p=9763

Çörək məsələsi // Azərbaycan, 1948, 11 avqust, s.1.

Dadaşzadə. Azərbaycan cavanları mübarizə yolında // Azərbaycan, 1948, 23 iyun, s.4.

Daniş B. Azərbaycan Milli Qoşununun əmələ gəlməsi və onun mahiyyəti // Azərbaycan, 1948, 27 oktyabr, s.4.

Darəndaşi. İran qadınlarının vəziyyəti haqqında // Azərbaycan, 1948, 28 aprel, s.1, 4.

Davudzadə. Quru boş nəsihətlər // Azərbaycan, 1948, 31 iyul, s.1.
Diqqət // Azərbaycan, 1949, 8 yanvar, s.4.

Dövlətin xalqa olan etibarsızlığı // Azərbaycan, 1949, 19 fevral, s.1.

Dünya mədəniyyət xadimlərinin yığıncağında Azərbaycan millətinin böyük şairi Səməd Vurğunun çıxışı // Azərbaycan, 1948, 25 sentyabr, s.1, 4.

Dünya zəhmətkeşlərinin dahi rəhbəri Stalin yoldaşa // Azərbaycan, 1948, 24 noyabr, s.1.

Dünya zəhmətkeşlərinin həqiqi atası və Şərq xalqlarının səmimi və xeyirxah dostu // Azərbaycan, 1948, 24 yanvar, s.1.

Etimad M.M. Sürud // Azərbaycan, 1946, 2 aprel, s.2.

Etimad M.M. Şura Azərbaycanı // Şəfəq. Təbriz, 1945, № 5, s.25.

Ə.Ş. Dumanlı Təbriz – Qorxulu Tehran // Azərbaycan, 1948, 3 yanvar, s.1, 3.

Əbluc Ə. Qisas qiyamətə qalmaz // Azərbaycan, 1948, 13 noyabr, s.4.

Əbluc Ə. Kommunistlərə sui-qəsd edirlər // Azərbaycan, 1948, 31 iyul, s.3.

Əbluc Ə. Kommunistlərə sui-qəsd edirlər // Azərbaycan, 1948, 4 avqust, s.3.

Əbluc Ə. Süngü gücüylə olan pişvazlar // Azərbaycan, 1948, 5 may, s.3.

Əbluc Ə. Şəhid yoldaşımız Əjdər Baldar // Azərbaycan, 1948, 31 yanvar, s.3.

Əfəndiyev İ. İran Azərbaycanının müasir şairlərindən Əli Tudə // Kommunist,1948, 17 yanvar, s.3.

Əfsərlik məktəbi, ya faşist təlimxanası // Azərbaycan, 1948, 29 sentyabr, s.1.

Əhməd Ə. Lenin və Azərbaycan // Azərbaycan, 1946, 21 yanvar, s.1.

Əhməd D. Cümhuriyyət xadimləri Pişəvəri hökuməti haqqında // Türküstan, 2021, 21-27 dekabr, s.5.

Əhməd V. Mir Cəfər Pişəvərinin publisistikası // Azərbaycan ədəbiyyatşünaslığı, Bakı, 2020, № 1, s.177-185.

Əhmədzadə H. Nizam vəzifə xidmətini qurtarmış kargərlərin vəziyyəti // Azərbaycan, 1948, 23 iyun, s.1.

Əhmədzadə. Azərbaycan cavanları İran ordusunda xidmət etməkdən boyun qaçırırlar // Azərbaycan, 1948, 29 sentyabr, s.4.

Əhmədzadə. İranda "Şirü-xurşid" cəmiyyətinin həqiqi mahiyyəti // Azərbaycan, 1948, 25 dekabr, s.1.

Əhmədzadə. İranın təbliğat dəstgahının həyasızlığı // Azərbaycan, 1948, 6 noyabr, s.4.

Əhmədzadə. Kargərlərin vəziyyəti // Azərbaycan, 1948, 13 mart, s.3.

Əhmədzadə. Milli hökumətimizin kargərlərin vəziyyəti haqqında gördüyü tədbirlər // Azərbaycan, 1948, 6 oktyabr, s.1, 4.

Əhmədzadə. Tiryək və tiryəkxanalar // Azərbaycan, 1948, 24 iyul, s.3.

Əxtər-e şimal ruznaməsi İranın ədliyyə təşkilatları haqqında // Azərbaycan, 1948, 28 fevral, s.3.

Ələkbərli F. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). III hissə. Bakı: Elm və təhsil, 2021, 684 s.

Əliqızı A. Cənubi Azərbaycan ədəbiyyatı məsələləri. Bakı: Azərnəşr, 2007, 268 s.

Əlioğlu. Azərbaycan və kürd xalqları öz azadlıqları uğrunda mübarizəni davam etdirirlər // Azərbaycan, 1948, 8 dekabr, s.1.

Əlioğlu. İran mətbuatının ümumi təlim haqqındakı təklifləri // Azərbaycan, 1948, 17 yanvar, s.4.

Əlioğlu. Quldur Rza xan oğluna yazılmış bir şeir haqqında // Azərbaycan, 1949, 19 yanvar, s.1.

Əlioğlu. Ümumi təlimin icrasında maneəçilik törədən əsas səbəblər. Ana dili – Azərbaycan Milli Hakimiyyət dövründə ümumi savadlanma // Azərbaycan, 1948, 21 yanvar, s.1.

Əliyev Q. Cənubi Azərbaycan mövzusu "Kommunist" qəzetində (1945-1959) // Risalə. Elmi araşdırmalar jurnalı. Bakı, 2020, № 2 (19), s.101-117.

Əlizadə H. (Mərəndli B.). "21 Azər" soyqırımı (1946-1947- ci illərdə Cənubi Azərbaycanda kütləvi qırğınlar). Bakı: Elm və təhsil, 2017, 376 s.

Əlizadə N. Mən qan dəryasına dönmüş Zəncandan gəlirəm // Azərbaycan, 1325 (1946), 8 azər (29 noyabr), s.1, 4.

Əmir Əlişir Nəvai // Azərbaycan, 1948, 19 may, s.4.

Ərdəbil şairlərinin Sovet İttifaqı zəhmətkeşlərinə məktubu // Kommunist, 1945, 7 dekabr, s.3.

Əsgərzadə. Azərbaycan incəsənətinin inkişaf dövrü // Azərbaycan, 1948, 22 may, s.1, 4.

Əsgərzadə. Səhiyyə və əhalinin artımı // Azərbaycan, 1948, 13 mart, s.1, 4.

Əyyubi K. Kürd xalqı nə istəyir və nə deyir? // Azərbaycan, 1947, 13 dekabr, s.1.

F. Mətbuat xülasəsi // Azərbaycan, 1948, 4 avqust, s.1.

F. Şah Londona getdi // Azərbaycan, 1948, 14 iyul, s.1, 3.

F.X. İşsizlik artmaqdadır // Azərbaycan, 1948, 16 oktyabr, s.2.

F.S. Balaca felyeton // Azərbaycan, 1948, 19 fevral, s.3.

F.S. Balaca felyeton // Azərbaycan, 1948, 24 aprel, s.3.

Faiq. Yeni bir müvəffəqiyyət // Azərbaycan, 1946, 13 may, s.4.

Fazil S. Nizami və onun yaradıcılığının təsiri // Azərbaycan, 1948, 31 iyul, s.3.

Fəhmi C. Cənubi İran və ya İngilistan müstəmləkəsi // Azərbaycan, 1948, 22 may,

Fəhmi C. Xorasan zəlzələsi xain dövləti bir daha ifşa etdi // Azərbaycan, 1948, 23 oktyabr, s.1, 3.

Fəhmi C. Kimi aldadırlar? // Azərbaycan, 1948, 15 sentyabr, s.1, 4.

Fərhadov Ə. Axund Ağa Əlizadə: iki dövrün şeyxülislamı // Bakı Universitetinin Xəbərləri (Humanitar elmlər seriyası). Bakı, 2021, №1, s.142-148.

Fərhadov Ə. "Azərbaycan" qəzetində milli kimlik və mədəniyyət əlaqəsinə dair // "Azərbaycan xalqının etnogenezi və milli kimlik məsələsi" mövzusunda beynəlxalq konfransın materiallar toplusu. Bakı: Azərbaycan Universiteti, 2022, s.48-51.

Fərhadov Ə. Heydər Əliyevin fəaliyyətində Cənubi Azərbaycan tarixi və mədəniyyətinə baxış // Mədəniyyət / Culture. Bakı, 2023, № 2, s.40-43.

Fərhadov Ə. XX əsrin I yarısında Cənubi Azərbaycanda ictimai fikir tarixindən: Tağı Ərani nümunəsi // Bakı Universitetinin Xəbərləri. Bakı, 2023, № 1, s.73-84.

Fərhadov Ə. Qacarlar və Pəhləvilər dövrünə baxış ("Azərbaycan" qəzetinin materialları əsasında) // "XVI Uluslararası Türk sanatı, tarihi

ve folkloru kongresi"nin bildiriler kitabı. Aydın: ADÜ yay., 2022, s.217-220.

Fərhadov Ə. Qriqorian türklərin tarixindən // Dövlət və Din. Bakı, 2017, № 5, s.76-83.

Fərhadov Ə. Pəhləvilər dövründə Cənubi Azərbaycanda dini-siyasi məsələlərə baxış ("Azərbaycan" qəzetinin (1947-1949) materialları əsasında) // Turizm və qonaqpərvərlik tədqiqatları. Bakı, 2022, № 4, s.80-87.

Fərhadov Ə. Pəhləvilər dövründə dini-fəlsəfi məsələlərə dair (S.M.Təbatəbai nümunəsi) // 17. Uluslararası Türk Kültürü, Sanatı ve Kültürel Mirası Koruma Çevrimiçi Sempozyumu/ Sanat Etkinlikləri. Aydın: ADÜ yay., 2023, s.141-143.

Fərhadov Ə. Pəhləvilərə qarşı insan hüquqları mübarizəsi: Tağı Ərani nümunəsi // "Terör ve siyasi şiddet" I Uluslararası Kongrenin bildiriler kitabı. Roma: İKSAD, 2023, s.1-6.

Fərhadov Ə. S.C.Pişəvərinin yaradıcılığında XX əsrin əvvəlləri Azərbaycan tarixinə baxış // "Dünya azərbaycanlıları: tarix və müasirlik" mövzusunda IV Beynəlxalq konfransın materialları toplusu. Bakı: BDU nəşr., 2022, s.78-82.

Fərhadov Ə. Pəhləvilər dövründə işçi hüquqları məsələsinə dair ("Azərbaycan" qəzetinin materialları əsasında) // Ulus- lararası Maliye ve Vergi Kongresi bildirileri kitabı. Konya: İKSAD, 2023, s.206-211.

Fərhadov. Ə. "Azərbaycan" qəzetində ictimai-siyasi, mədəni proseslərə baxış // Milli Azərbaycan Tarixi Muzeyi-2022. Bakı: Təhsil, 2022, s.121-128.

Fərpur. Rəsm sənətinin inkişafına mane olurlar // Azərbaycan, 1948, 31 mart, s.3-4.

Filu B. İki Sahil: Azərbaycan Respublikasındakı kimlik quruculuğunda İran Azərbaycanının rolu // https://bakuresearchinstitute.org/two-shores-the-role-of-iranian-azerbaijan-in-the-construction-of-identity-in-the-republic-of-azerbaijan-2/?fbclid=IwAR-

3Zacvr597FPHw09cUjI1Bqt8ZDIkbTvNBePS49uO0nbSPy-pGg4icQs3 5g#_ftnref19

Firqəmizin bir illik bayramı münasibətilə dövlət teatrı salonunda ağayi Pişəvərinin nitqi // Azərbaycan, 1325 (1946), 14 şəhrivər (5 sentyabr), s.1-2.

Firqəmizin Mərkəzi Komitəsi sədri yoldaş Badiganın məruzəsi // Azərbaycan, 1948, 15 dekabr, s.1, 3-4.

Firqəmizin Mərkəzi Komitəsi sədri yoldaş Badiganın məruzəsinin ardı // Azərbaycan, 1948, 18 dekabr, s.3.

Giranmayə M. Şəhid yoldaşımız Şeyxi // Azərbaycan, 1948, 18 avqust, s.3.

Gülgün M. Anama // Azərbaycan, 1947, 16 dekabr, s.3.

Gülgün M. Cəbhədəki qardaşlarıma // Azərbaycan, 1325 (1946), 16 azər (7 dekabr), s.7.

Gülgün M. Mənimdir! // Azərbaycan, 1948, 25 avqust, s.3.

Gülgün M. O gün yaxınlaşır // Azərbaycan, 1948, 23 iyun, s.3.

Gülgün M. Sabahın müjdəsi // Azərbaycan, 1948, 29 dekabr, s.3.

Gülgün M. Yenə güləcəkdir üzünə həyat // Azərbaycan, 1949, 12 yanvar, s.3.

Gülgün M. Zəfər bayramı // Azərbaycan, 1946, 16 may, s.2.

Hacızadə S. Şəhid yoldaşımız İsrafil Qadiri // Azərbaycan, 1948, 11 sentyabr, s.3.

Haşimi İ. İran heyəti-hakiməsi xaricilərin dəsturuyla islamçılıq şüarı altında // Azərbaycan, 1948, 26 iyun, s.4.

Haşimi İ. Qüllabi ittihadiyyələr yaradırlar // Azərbaycan, 1948, 23 oktyabr, s.1, 4.

Haşimoğlu C. Sayat-Nova // Şəfəq. Təbriz, 1945, № 3, s.26-31.

Həbibi Q.M. Azərbaycan İranda azadlıq hərəkatının məşəldarıdır // Azərbaycan, 1948, 26 may, s.4.

Həbibi Q.M. Azərbaycan İranda azadlıq hərəkatının məşəldarıdır //

Azərbaycan, 1948, 19 iyun, s.3.

Həbibi Q.M. Azərbaycan İranda azadlıq hərəkatının məşəldarıdır // Azərbaycan, 1948, 31 iyul, s.1, 4.

Həbibi Q.M. Böyük tənqidçi Belinskinin 100 illik xatirəsi // Azərbaycan, 1948, 9 iyun, s.1, 4.

Həbibi Q.M. Məşrutə dövrünün fədai şairləri 1252-1297 // Azərbaycan, 1948, 14 aprel, s.3.

Həbibi Q.M. Mirzə Əli Möcüz imperialistlər əleyhinə // Azərbaycan, 1947, 9 dekabr, s.3.

Həbibi Q.M. Mirzə Qafar Siyəhpuş // Azərbaycan, 1948, 16 iyun, s.3.

Həbibi Q.M. Nüsrət Mirzə Nəsrullah // Azərbaycan, 1948, 30 oktyabr, s.3.

Həbibi Q.M. Seyyid Əbülqasim Nəbati // Azərbaycan, 1948, 29 may, s.3.

Həbs olunanlardan // Azərbaycan, 1949, 12 fevral, s.4.

Həkimi dövlətinin "islahat" bərnaməsi // Azərbaycan, 1948, 22 may, s.1.

Hərbi məktəbin açılması // Azərbaycan, 1946, 17 mart, s.4.

Həsənli C.P. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945). Bakı: "Diplomat" nəşriyyatı, 1998, 324 s.

Həsənov H.M. Cənubi Azərbaycanda Milli Demokratik Hərəkat: (1941-1946- cı illər). Bakı: Elm, 2004, 203 s.

Hizbi-Tudeyi-İran İran xalqlarının mübarizəsinə rəhbərlik edir // Azərbaycan, 1948, 13 oktyabr, s.1, 4.

Hizbi-Tudeyi-İrana qarşı təzyiq tədbirləri // Azərbaycan, 1949, 12 fevral, s.4.

Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: "Təhsil", 2004, 472 s.

Xaqani Şirvani və Eduard Braun davası // Kommunist, 1945, 5 yanvar, s.3.

Xalqımızın alim və şəhamətli oğlu Doktor Tağı Əraninin xatirəsi //

Azərbaycan, 1949, 9 fevral, s.1, 4.

Xalqımızın mübariz oğlu Cavidan // Azərbaycan, 1948, 31 mart, s.4.

Xalqlar rəhbəri dahi Stalin yoldaşa! // Azərbaycan, 1948, 8 sentyabr, s.1.

Xatəmi. Şəhid sərhəng Mahmud Qazinin xatirəsi // Azərbaycan, 1948, 1 may, s.1, 3.

Xəndan C. İran Azərbaycanı yazıçıları Stalin Konstitusiyası haqqında // Kommunist, 1946, 5 dekabr, s.4.

Xəndan C. İran Azərbaycanının müasir şairlərindən Məhəmməd Biriya // Kommunist, 1947, 24 dekabr, s.3.

Xorasandakı zəlzələ və dövlətin "qayğısı" // Azərbaycan, 1948, 3 noyabr, s.4.

Xoşginabi F. "21 Azər"in müqəddəs və unudulmaz xatirəsi // Azərbaycan, 1947,13 dekabr, s.3.

Xoşginabi F. Azərbaycan ruznaməsinin tarixi rolu // Azərbaycan, 1948, 15 sentyabr, s.3, 4.

Xoşginabi F. Biz milli bir mədəniyyət yaratmalıyıq // Azərbaycan, 1945, 30 dekabr, s.2.

Xoşginabi F. İşsizlik artmaqdadır // Azərbaycan, 1948, 16 oktyabr, s.2.

Xoşginabi F. Mübarizə davam edir // Azərbaycan, 1947, 6 dekabr, s.1, 4.

Xoşginabi F. Mübarizəmizin yeni mərhələsində Azərbaycan ruznaməsinin tarixi vəzifəsi // Azərbaycan, 1947, 2 dekabr, s.1, 3.

Xoşginabi F. Şəhid yoldaşımız Firidun İbrahimi // Azərbaycan, 1948, 14 yanvar, s.1, 3.

Xoşginabi F. Yazıçılarımıza! // Azərbaycan, 1948, 12 iyun, s.1. İbrahimov M. Azəroğlu ("Nakam məhəbbət" romanından bir parça) // Kommunist, 1946, 27 fevral, s.3.

İbrahimov M. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 432 s.

İbrahimov M. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı: Şərq-Qərb, 2020, 520 s.

İbrahimi F. Azərbaycan danışır... İftixarlı tariximizdən bir neçə parlaq səhifə (Azərbaycanın qədim tarixindən). Tərtibçi: S.Bayramzadə. Bakı: Elm və təhsil, 2018, 116 s.

İbrahimi F. Sülh uğrunda // Azərbaycan, 1945, 16 noyabr, s.4.

İbrahimi F. Sülh uğrunda // Azərbaycan, 1945, 20 noyabr, s.4.

İbrahimi F. Vətənimizi müdafiə etmək üçün hamı amadə olmalıdır // Azərbaycan, 1946, 1 aprel, s.1.

İbrahimzadə C. Qaraqoyunlu sülaləsi hakimiyyəti dövründə Azərbaycan mədəniyyəti // Azərbaycan, 1948, 16 iyun, s.3.

İldırım. Ana dili // Azərbaycan, 1324 (1945), 29 şəhrivər (20 sentyabr), s.1.

İngilis və İran neft şirkətində kargərlərin vəziyyəti // Azərbaycan, 1949, 12 yanvar, s.1, 4.

İnqilabçı, general və firqə rəhbərinin tərcümeyi-halı // https://azerbaycan- ruznamesi.org/2021/12/09/inqilabci-generalv%c9%99-firq%c9%99- r%c9%99hb%c9%99rinint%c9%99r- cumeyi-hali/

İntixabat millətin məşru haqqıdır // Azərbaycan, 1325 (1946), 17 azər (8 dekabr), s.1.

İran Azərbaycanı Demokrat Partiyası Mərkəzi Komitəsinin əhaliyə bəyannaməsi // Kommunist, 1946, 13 dekabr, s.1.

İran Azərbaycanına qarşı İran hökumətinin yeni tədbirləri // Kommunist, 1946, 13 dekabr, s.1.

İran Azərbaycanında vəziyyət // Kommunist, 1947, 13 dekabr, s.4.

İran Azərbaycanındakı vəziyyətə dair // Kommunist, 1945, 21 dekabr, s.1.

İran Azərbaycanındakı vəziyyətə dair // Kommunist, 1945, 29 dekabr, s.4.

İran hakim təbəqəsi və təbliğat dəstgahının tazə boşboğazlıqları // Azərbaycan, 1948, 22 sentyabr, s.4.

İran Xalq Partiyası Baş katibinin çıxışı // Kommunist, 1948, 14 dekabr, s.3.

İran qadınları öz azadlıqları uğrunda mübarizəni davam etdirirlər // Azərbaycan, 1949, 8 yanvar, s.1.

İran qəzetləri Həkimi hökumətini tənqid edirlər // Kommunist, 1946, 6 yanvar, s.4.

İran mətbuatına bir nəzər // Azərbaycan, 1948, 9 iyun, s.1, 3.

İran ordusuna amerikan bombardman təyyarələri verilməsi// Kommunist, 1946, 13 dekabr, s.1.

İran ruznamələri hökumətin siyasətini tənqid edirlər // Azərbaycan, 1948, 19 fevral, s.1.

İran ruznaməsi Amerika ilə ticarət haqqında // Azərbaycan, 1948, 7 fevral, s.4.

İran zəhmətkeşlərinin tələbatı // Azərbaycan, 1948, 7 avqust, s.1.

İranda aclıq böhranı // Azərbaycan, 1948, 12 may, s.1.

İranda irticaçıların azğınlığı // Kommunist, 1946, 13 dekabr, s.1.

İranda terrorçu dəstələrin təşkili // Azərbaycan, 1948, 18 sentyabr, s.4.

İranda tərəqqipərvər qəzetlərin bağlanması və mürtəce qəzetlərin açılması // Kommunist, 1946, 13 dekabr, s.1.

İranı müstəmləkəyə çevirən "yeddi illik bərnamə" // Azərbaycan, 1949, 8 yanvar, s.3.

İranın cənub-şərqindəki neft imtiyazının amerikalılara verilməsi // Azərbaycan, 1325 (1946), 16 azər (7 dekabr), s.7.

İranın xaricdəki siyasi məmurları imperialistlərin iradəsiz alətləridirlər // Azərbaycan, 1949, 19 yanvar, s.1.

İranın və Cənubi Azərbaycanın görkəmli adamları Qızıl Ordunu təbrik edirlər // Vətən yolunda, 1945, 22 iyun, s.2.

İsaoğlu Q. Böyük rus ədibi A.N.Ostrovski // Azərbaycan, 1948, 10 aprel, s.1, 3.

İshaqi N. Tehran təbliğat idarəsinin Azərbaycan haqqında boşboğazlıqları // Azərbaycan, 1948, 14 aprel, s.3.

İshaqi. Azərbaycandakı daneşgahı nə vəziyyətə salmışlar? //

Azərbaycan, 1948, 27 oktyabr, s.3.

İshaqi. İranda ingilis neft kompaniyasının əməliyyatı, ya istismarın ən vəhşi formu // Azərbaycan, 1948, 11 dekabr, s.4.

İshaqi. İstismari rəqabət // Azərbaycan, 1949, 2 fevral, s.3.

İshaqi. Rza xan oğlunun yalan fərmaları // Azərbaycan, 1948, 10 noyabr, s.4.

İsmayılov G. Azadlıq yolunun mübarizləri. Mir Rəhim Vilayi// http://aze.adfmk.com/entries/daxili-x%C9%99b%C9%99r-l%C9%99r/azadliq-yolunun-m%C3%BCbari-zl%C9%99ri-mi-r-r%C9%99hi-m-vi-layi-

İsmayılov G. "21 Azər" hərəkatının sərhəng (polkovnik) fədaisi Əli Şəmidə// http://aze.adfmk.com/entries/ daxili-x%C9%99b%C9%99rl%C9%99r/21-az%C9%99r-h%C9%99r%C9%99kat%C4%B1n%C4%B1n-s%C9%99r-h%C9%99ng-polkovnik--f%C9%99daisi--%C9%99li--%-C5%9F%C9%99mi-d%C9%99

İsmayılov G. "21 Azər" hərəkatının şəhidi Danil Yuşia // http://aze.adfmk.com/entries/m%C9%99qal%C9%99l%C9%99r/21-az%C9%99r-h%C9%99r%C9%99katinin%C5%9F%C9%99hi-di-dani-l-yu%C5%9Fi-a

İsmayılov G. Şəhid Ənuşirəvan İbrahimi // http://aze.adfmk. com/entries/daxili- x%C9%99b%C9%99rl%C9%99r/%C5%9F%C9%99hi-d-%C9%99nu%C5%9Fi-

r%C9%99van-i-brahi-mi-

İsmayılov G. Fəthi Xoşginabi // http://aze.adfmk.com/ent- ries/daxili-x%C9%99b%C9%99rl%C9%99r/f%C9%99t- hixo%C5%9Fgi-nabi

İsmixani Q. Mübariz şəhid yoldaşımız Mirkazım Ələm // Azərbaycan, 1948, 28 iyul, s.4.

İspaniya Kommunist Firqəsinin lideri xanım Dolores İbarruri (Pasionariya) // Azərbaycan, 1948, 17 noyabr, s.4.

Kəndli Q. Bema i`lani-cəng (Bizə müharibə elan etmişlər) // Azərbaycan, 1945, 28 noyabr, s.2.

Kəndli. Bu gündü, sabahdı, gedənlər qayıdacaqlar // Azərbaycan, 1946, 28 aprel, s.3.

Kəndli Q. Qubalı Fətəli xan // Azərbaycan, 1948, 18 avqust, s.4.

Kəndli Q. Azərbaycan Milli Hökuməti xalqların azadlığını təmin etmişdi //Azərbaycan, 1948, 9 oktyabr, s.1.

Kommunist, 1946, 12 may, s.2.

Kommunizmin mübariz inqilabi məramnaməsi // Azərbaycan, 1948, 3 mart, s.3, 4.

Kürd millətinin azadlıq günü // Azərbaycan, 1949, 26 yanvar, s.1, 4.

Kürdüstan tütünü // Azərbaycan, 1949, 19 yanvar, s.4.

Q. İranda azadlıq yolunda çalışan Azərbaycan yazıçılarından Zeynalabdin Marağayi "Səyahətnameyi-İbrahimbəy"in müəllifi // Azərbaycan, 1946, 3 yanvar, s.1.

Q.X. İranda sələmçilik // Azərbaycan, 1948, 13 mart, s.1, 3.

Qafar Kəndli Herisçi // https://shamakhi-encyclopedia.az/qafar-k%C9%99ndli-herisci/

Əliyev Q. Cənubi Azərbaycan mövzusu "Kommunist" qəzetində (1945-1959) // Bakı: Risalə. Elmi araşdırmalar jurnalı. Bakı, 2020, № 2, s.101-117.

Qasımlı A. Güney Azərbaycan türkləri son 100 ildə. Bakı, Adiloğlu, 2012, 202 s.

Qasımlı M. Heydər Əliyev - istiqlala gedən yol (1969-1987- ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 608 s.

Qazi R. Məclisi-şuranın nümayəndələri tutuquşı rolunu ifa edirlər // Azərbaycan, 1948, 22 sentyabr, s.4.

Qaziyani. Naibi-sərhəng Yusif Murtuzəvi // Azərbaycan, 1948, 15 may, s.3.

Qaziyani. Sərkərdə Məhəmmədəli Ramtin // Azərbaycan, 1948, 14 avqust, s.4.

Qətnamə // Azərbaycan, 1948, 27 noyabr, s.3.

Qızıl səhifələr (kitabdan seçilmiş yazılar), 163 s. // http://www. achiq. info/m.hukumet/q%20dL%20butun.pdf

Qorki M. Şahin mahnısı // Azərbaycan, 1949, 1 yanvar, s.3.

Quliyev Ə. Cənubi Azərbaycanda milli azadlıq və demokratik hərəkat tarixindən 1941-1946-cı illər // Azərbaycan SSR EA Tarix və Fəlsəfə İnstitutunun Əsərləri-IV. Bakı: Azərbaycan SSR EA nəşr., 1954, s.40-97.

Qurbani. Şəhid yoldaş Məhəmmədhüseyn Bürhani // Azərbaycan, 1948, 25 dekabr, s.3.

Leninizm yaşayır və qalib gəlir! // Azərbaycan, 1949, 22 yanvar, s.1.

London əncüməninə göndərilən teleqraf // Azərbaycan, 1324 (1945), 1 mehr (23 sentyabr), s.1.

Məclis qolçaq teatrına bənzəyir // Azərbaycan, 1948, 30 oktyabr, s.1.

Məclisin 16-cı dövrə seçkiləri yaxınlaşır // Azərbaycan, 1949, 2 fevral, s.1, 3.

Mədəniyyət evində // Azərbaycan, 1946, 27 mart, s.1-2.

Mədəniyyət evində bayram münasibətilə qonaqlıq // Azərbaycan, 1946, 25 mart, s.1-2.

Mədətli E. Azərbaycan həqiqətləri İran tarixşünaslığında. Bakı: Təhsil, 2011, 272 s.

Məhəmmədzadə H. Ana dili əbədi musiqi, ömrin qönçəli günlərinin solmaz bir dastanıdır. (2-ci məqalə) // Azərbaycan, 1948, 24 iyul, s.4.

Məhəmmədzadə H. Ana dili əbədi musiqi, ömrin qönçəli güllərinin solmaz bir dastanıdır. (3-cü məqalə) // Azərbaycan, 1948, 14 avqust, s.1, 4.

Məhəmmədzadə H. Hakim təbəqənin mənfur siyasəti // Azərbaycan, 1949, 15 yanvar, s.1, 4.

Məhəmmədzadə H. Kargərlərin bərnaməsi yox, sahibkarların bərnaməsi demək lazımdır // Azərbaycan, 1948, 2 oktyabr, s.1, 4.

Məhəmmədzadə H. Maarif günəşindən hamı istifadə etməlidir // Azərbaycan, 1948, 11 sentyabr, s.1, 4.

Məhəmmədzadə H. Tehran hökumətinin xəyanəti bir daha ifşa oldu // Azərbaycan, 1949, 19 yanvar, s.1.

Məmmədli Q. Xiyabani. Bakı: Azərnəşr, 1949, 160 s.

Məmmədli Q. Təbrizdən məktub. Faydalı nəşriyyat işləri // Kommunist, 1946, 6 yanvar, s.3.

Məliküşşüəra Bahar. Bakıda bahar // Kommunist, 1945, 22 avqust, s.3.

Məmmədli C. Qocaman müəllim – Mirzə Həsən Rüşdiyyə // http://www.milliarxiv.gov.az/az/qocaman-muellim-mirze-hesen-rusdiyye

Məmmədli P. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər. Bakı: Sabah, 2015, 200 s.

Məmmədli P. Cənubi Azərbaycan mətbuatı tarixi. Bakı: Elm, 2009, 230 s.

Məmmədli P. Əsrlərə bərabər fəaliyyət // https://azerbay- can-ruznamesi.org/2023/04/18/%C9%99srl%C9%99r%C9%99-b%C9%99rab%C9%99rf%C9%99aliyy%C9%99t/

Məmmədov A. Pişəvəri hərəkatında ermənilər – Gizli tarix" // https://davam.az/13505-pivri-hrkatnda-ermnilr-gzltarx.html?fbclid=IwAR2Fy_3ba3GVGb2cjd1tdFf7R2QyZ7oPMAsS- VSFrtr_xEIeh65Fz Bvsb8rs

Mərdom ruznaməsi Amerikanın İrandakı nümayəndələrinin fəaliyyəti haqqında // Azərbaycan, 1948, 10 aprel, s.4.

Mərdom ruznaməsi demokratların təqib olunması haqqında // Azərbaycan, 1948, 7 aprel, s.3.

Mətbuat xülasəsi // Azərbaycan, 1948, 24 iyul, s.1, 3.

Məzhəb iddiasında olub məzhəbdən siyasi istifadə edənlər// Azərbaycan, 1325 (1946), 10 azər (1 dekabr), s.1, 4.

Millət məhkəməsində // Azərbaycan, 1946, 17 aprel, s. 1, 4.

Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondu (SMF. 3347).

Mir Cəfər Pişəvəri. "Azərbaycan" qəzetində gizli imzalı məqalələri

(1945-1946). Tərtib edən: R.Əliyev. Bakı: Qanun, 2023, 272 s.

Mirfazil. Həmişəlik yaşa, Azərbaycan // Azərbaycan, 1946, 25 aprel, s.3.

Mirzəzadə. Qatillərə ölüm! // Azərbaycan, 1948, 19 may, s.3.

Mirzəzadə S.H. İran Azərbaycanında əncümənlərin təşkili və fəaliyyəti (1945- 1946-cı illər) // Azərb. SSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. Bakı, 1969, № 1, s.110-116.

Muradi M. Şəhid yoldaşımız general Əzimi // Azərbaycan, 1948, 14 iyul, s.1, 4.

Mustafayev V. Cənubi Azərbaycan. Milli şüur (20-ci əsrin birinci yarısında), 113 s. // https://www.achiq.info/yazi%204/ vidadi%20 butov%20dL.pdf

Mutəmədi M. Milli hökumətimizin torpaq bölgüsü // Azərbaycan, 1948, 14 avqust, s.1, 3.

Mübariz şəhid yoldaşımız Sultani Azad // Azərbaycan, 1947, 23 dekabr, s.3.

Mübarizə davam edəcəkdir! // Azərbaycan, 1948, 11 dekabr, s.1.

Müciri. Azərbaycan millətinin Şərq dünyasında təsiri // Azərbaycan, 1948, 21 iyul, s.1, 3, 4.

Müciri. Təbriz // Azərbaycan, 1948, 10 iyul, s.1, 3.

Müciri. Fəlakət qütbləri // Azərbaycan, 1949, 12 yanvar, s.1, 3, 4.

Müciri. İngilis imperialistləri bir daha rüsvay oldular // Azərbaycan, 1949, 5 fevral, s.1, 4.

Müciri. İntiqam günü yaxınlaşır // Azərbaycan, 1948, 18 sentyabr, s.4.

Müciri. İranda nigarançılıq hökm sürməkdədir // Azərbaycan, 1948, 14 aprel, s.4.

Müciri. Qara sovsar // Azərbaycan, 1949, 5 yanvar, s.4.

Müciri. Qəvam dövlətinin yıxılmasıyla kifayətlənməməliyik // Azərbaycan, 1947, 20 dekabr, s.1.

Müciri. Qoy İran mürtəceləri bir daha rüsvay olsunlar! // Azərbaycan, 1949, 15 yanvar, s.1, 3.

Müciri. Mürtəcelər heç bir cinayətdən çəkinmirlər // Azərbaycan, 1948, 24 iyul, s.1, 4.

Müciri. Şəhid yoldaşımız Cövdət // Azərbaycan, 1948, 2 iyun, s. 3.

Müciri. Şəhid yoldaşımız mayor Nasiri // Azərbaycan, 1948, 23 iyun, s.3.

Müciri. Şəhidlərin xatirəsi // Azərbaycan, 1948, 25 dekabr, s.4.

Müciri. Tehran hökuməti milli abidələrimizin düşmənidir // Azərbaycan, 1949, 22 yanvar, s.4.

Müciri. Tehran hökuməti milli hökumətimizin dərin mənalı işlərini təsdiq etməyə məcbur olur // Azərbaycan, 1948, 13 oktyabr, s.1, 4.

Müxtəlif yalan və uydurmalar // Azərbaycan, 1948, 14 aprel, s.1.

Müsəvvər "Hophopnamə" // Azərbaycan, 1946, 10 yanvar, s.2.

Nadir xətti kitabları hifz etmək lazımdır // Azərbaycan, 1948, 14 fevral, s.3.

Natəvani. Ana yurdumuz // Azərbaycan, 1948, 30 oktyabr, s.3.

Nəzərov İ. İran Azərbaycanının müasir şairlərindən İbrahim Zakir // Kommunist, 1948, 28 yanvar, s.3.

Nəzirli Ş. Azərbaycan generalları. Bakı: Gənclik, 1991, 208 s.

Nikpur H. "Anamın kitabı" Təbriz səhnəsində // https://azerbaycanruznamesi.org/wp-content/uploads/2023/12/Anamin-kitabi.pdf

Novruz. Şeyx Məhəmməd Xiyabani // Azərbaycan, 1945, 1 noyabr, s.2.

Novruz. Şeyx Məhəmməd Xiyabani-3 // Azərbaycan, 1945, 5 noyabr, s.2.

Novruz. Şeyx Məhəmməd Xiyabani-7 // Azərbaycan, 1945, 9 noyabr, s.3.

Novruz. Şeyx Məhəmməd Xiyabani-8 // Azərbaycan, 1945, 11 noyabr, s.3.

Novruz. Şeyx Məhəmməd Xiyabani. "Təcəddüd" ruznaməsinin tarixçəsi // Azərbaycan,1945, 11 dekabr, s.2.

Nuri E. Atalar və övladlar // https://modern.az/news/138382/

P. Vəhşət və iztirabı kim tövlid edir? // Azərbaycan, 1945, 21 noyabr, s.2.

P.Ə. Çinar ağacı sınar, lakin əyilməz // Azərbaycan, 1948, 24 aprel, s.3.

Pənahi Ə. Şəhid yoldaşımız Əbdülhüseyn Əhmədi // Azərbaycan, 1948, 18 sentyabr, s.4.

Pəriş Ə.Ş. Mətbuat xülasəsi // Azərbaycan, 1948, 26 iyun, s.4.

Pəriş. Hizbi-Tudeyi-İran nə kimi şəraitdə mübarizə aparır // Azərbaycan, 1948, 25 dekabr, s.1, 3.

Pişəvəri M.C. Neçə yazı "Ajir"dən, 26 s. // https://achiq. info/m. hukumet/Ajir%20d%20L.pdf

Pişəvəri S.C. Xatirələr (1941-1945). Tərtib edən: Y.Kənani (Nəminli). Bakı: ADF nəşri, 2005,395 s.

Pişəvəri S.C. Məqalə və çıxışlarından seçmələr (Təbriz 1945- 1946-cı illər). Bakı: Nurlan, 2016, 432 s.

Pişəvəri M.C. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1984, 430 s.

Pişəvəri S.C. Məra be xeyre to omid nist şər məresan (Səndən yaxşılıq ummuram, zərər də yetirmə) // Azərbaycan, 1324 (1945), 29 şəhrivər (20 sentyabr), s.1.

Pişəvəri S.C. Milyonerlər şəhəri (Müsavat Partiyası haqqında)//https://praksis01.wordpress.com/2018/10/17/mir-c%-c9%99f%c9%99rpis%c9%99v%c9%99ri-milyonerl%c9%99r-s%c9%99h%c9%99ri-musavat-partiyasi- haqqinda/

Pişəvəri; Biriya. Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsi ilə Azərbaycan Həmkarlar İttifaqının Mərkəzi Şu- rasının müştərək elamiyyəsi // Azərbaycan, 1325 (1946), 20 azər (11 dekabr), s.1, 4.

Pişəvəri. Firqəmizin tarixi işi // Azərbaycan, 1324 (1945), 27 şəhrivər (18 sentyabr), s.1.

Pişnamazi. Azərbaycan valisi Mənsurulmülkün fitnəkarlığı // Azərbaycan, 1948, 1 may, s.3.

Prezident İlham Əliyev: Dövlətimizdən ayrı düşmüş azərbaycanlıların Azərbaycan dilini qoruyub saxlamaları üçün əlimizdən gələni edəcəyik

// https://az.trend.az/azerbaijan/politics/3660182.html#bounce

Rahim M. İran Azərbaycanının müasir şairlərindən Balaş Azəroğlu // Kommunist, 1947, 12 dekabr, s.3.

Rastak Ə. 21 Azər // Azərbaycan, 1948, 29 dekabr, s.3.

Rəhimli (Bije) Ə. 21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər). Bakı: Araz, 2015, 240 s.

Rəhimli (Bije) Ə. 662 saylı məhbus – S.C.Pişəvəri Seyid Cəfər Pişəvəriyə aid istintaq materialları (1930-1940) Bakı: Nurlar, 2019, 184 s.

Rəhimli (Bije) Ə. Mübarizə burulğanlarında keçən ömür. Seyid Cəfər Pişəvəri.Bakı: Nurlar, 2009, 400 s.

Rəhimli (Bije) Ə. S.C.Pişəvəri İran Xalq Partiyası (Hizbi-Tudeyi-İran) üzvlüyündən özü çıxıb, yoxsa çıxarılıb? // https://azerbaycan-ruznamesi.org/2021/01/06/s-c-pis%c9%99v%c9%99ri-iran-xalq-partiyasi-hizbi-tudeyi-iran-uzvluyund%c9%99n-ozu-cixib-yoxsa-cixarilib/?fbclid=IwAR0NFSC3owohZfGbUbxHsfV0NIb4QPfs4qN05Bx_HKOzhEcwS cNoDiPIE

Rəhimli (Bije) Ə. Güney və Quzey Azərbaycan: ensiklopedik təqvim (başlıca tarixi olaylar, siyasi və ədəbi şəxsiyyətlər, şəkilli) / Ə.Rəhimli (Bije), S.Bayramzadə. Bakı: Apostroff, 2014, 340 s.

Rəhimli Ə. İsmayıl Şəmsin S.C.Pişəvəri haqda xatirəsi // Xalq Cəbhəsi, 2017, 2 mart, s.14.

Rəhimli Ə. Pişəvərinin "Həqiqət" qəzetində fəaliyyəti // https://www.xalqcebhesi.az/news/literature/15634.html

Rəhimli Ə. S.C.Pişəvəri Baş nazirlikdən niyə istefa verdi? // https://xudaferin.eu/seyid-cfr-pisvri-bas-nazirlikdn-niy-istefa-verdi.html

Rəhimli Ə. S.C.Pişəvərinin İran Xalq Partiyasına üzvlüyünə dair // https://www.anl.az/down/meqale/az_shergshunasligi/2020/01/14(meqale).pdf

Rəhmani Q. Said kabinəsinin ədliyyə vəziri // Azərbaycan, 1949, 8 yanvar, s.1, 3.

Rəhmani Q. Şəhid yoldaşımız Mir Əyyub Şəkiba // Azərbaycan, 1948, 25 sentyabr, s.4.

Rəhmani. Azərbaycan milləti heç bir riyakarlığa inanmayacaqdır // Azərbaycan, 1948, 11 sentyabr, s.1, 4.

Rəfibəyli N. Hökumə Billuri // Kommunist, 1948, 28 fevral, s.4.

Rəzmara yaltaqlıq edir // Azərbaycan, 1949, 19 fevral, s.1, 3-4.

Rizaiyyədə İran hərbçilərinin azğınlığı // Kommunist, 1945, 21 dekabr, s.1.

Rizvan H. Rza xan tablosu // Azərbaycan, 1949, 16 fevral, s.1, 4.

Rus ədibi Maksim Qorkinin 80 illiyi münasibətilə "Fırtına quşu" mahnısı // Azərbaycan, 1948, 31 mart, s.3.

Ruhanilərimizin ehsasatı // Azərbaycan, 1946, 4 yanvar, s.1, 4.

Rüstəmova-Tohidi S. Rəsulzadə və Tağızadə: iki azərbaycanlı, dövlətçiliyə iki baxış // https://aqreqator.az/az/siyaset/261505

Rüstəmova-Tohidi S. Kominternin Şərq siyasəti və İran. 1919-1943. Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2001, 507 s.

Rza xanın heykəlinə və məqbərəsinə xalq nifrət edir // Azərbaycan, 1948, 13 noyabr, s.4.

Sadıqlı Y. Əşrəf Pəhləvi // https://yadigar-sadiqli.livejournal.com/59251.html

Sadıq Ə. Füqəra şairi (Şair Hammalın vəfatının 20 illiyi) // Kommunist, 1946, 26 iyun, s.2.

Sadıq Ə. Təbriz teatrının qastrolu // Kommunist, 1945, 15 dekabr, s.3.

Said dövləti İran xalqlarına aclıq və böhran gətirmişdir // Azərbaycan, 1948, 8 dekabr, s.1.

Saidi tanıyın // Azərbaycan, 1948, 11 dekabr, s.1, 4.

Saidin əvamfiribliyi xalqımızı aldada bilməz! // Azərbaycan, 1949, 26 yanvar, s.1, 3.

Sarıvəlli O. Birinci dərs (Təbriz məktəbində) // Kommunist, 1946, 3 mart, s.3.

Səbahi S. Teatr tariximizi rövnəqləndirən unudulmaz gün // Azərbaycan, 1946, 31 mart, s.2.

Səfvət M. Bakı səfəri // Kommunist, 1945, 28 iyun, s.1.

Sənədlər məcmuəsi. Azərbaycan Milli Məclisi və Azərbaycan Milli Hökumətinin qərar və qanunları məcmuəsi. 1324-1325. Bakı: Açıq söz, 1980, 83 s. // http://www.achiq.info/m.huku- met/sendler.pdf

Səməndər. Dözülməz cinayət // Azərbaycan, 1945, 12 sentyabr, s.1.

Sərdariniya S. Arazın hər iki tayında müsəlmanların soyqırımı. Tərc: A.Maralanlı. Bakı: Elm, 2006, 120 s.

Sərdariniya S. İrəvan müsəlman sakinli vilayət olmuşdur. Tərc. İ.Quliyev. Bakı: Zərdabi, 2014, 202 s.

Sərkari. Nurullah Yekani // Azərbaycan, 1948, 22 may, s.3.

Siqətülislam. Təbriz ruhanilərinin sevinci // Vətən yolunda,1945, 22 iyun, s.2.

Sovet – İran danışıqları haqqında rəsmi məlumat // Azərbaycan, 1325 (1946), 18 fərvərdin (7 aprel), s.1.

Sovet – İran danışıqlarının müvəffəqiyyətlə başa çatdırılması

// Azərbaycan, 1946, 17 aprel, s. 1, 3.

Soytürk H.Ş.D. Güney Azərbaycan türkologiyası. Bakı: Elm və təhsil, 2013, 244 s.

Süruri M. Arzu eylədiyin gün gələcəkdir // Azərbaycan, 1948, 6 mart, s.3.

Şah, Tehran hökuməti və Azərbaycan // Azərbaycan, 1948, 2 oktyabr, s.1.

Şahın güllələnməsi // Azərbaycan, 1949, 5 fevral, s.1.

Şanlı Azərbaycan // Azərbaycan, 1946, 16 aprel, s.1, 3.

Şeyx Məhəmməd Xiyabaninin nitqindən parçalar // Şəfəq. Təbriz, 1945, № 4, s.18-19.

Şəhrivərin on ikisi. 1324-1325, 158 s. // https://achiq.info/m.hukumet/12shL.pdf

Şəfəq. Təbriz, 1945, № 3, s.1.

Şəkibxan F. Cavanları boğmaq istəyirlər // Azərbaycan, 1948, 13 noyabr, s.1, 4.

Şəkibxan F. Xalq yalançı təşəbbüslərə aldanmayacaq // Azərbaycan,

1948, 23 oktyabr, s.1, 3.

Şəkibxan F. İrtica əl-ayağa düşübdür // Azərbaycan, 1948, 20 oktyabr, s.1, 3.

Şəmidə Ə. Azadlıq qəhrəmanı Heydər Əmioğlu. Bakı: Yaşar nəşr., 1972, 112 s.

Şəmidə Ə. İmperialistlərin siyasi fəaliyyətləri şiddətlənir // Azərbaycan, 1949, 12 yanvar, s.4.

Şəmidə Ə. İranda həqiqi mətbuat azadlığı yoxdur // Azərbaycan, 1948, 24 aprel, s. 1, 4.

Şəmidə Ə. İranda həqiqi mətbuat azadlığı yoxdur // Azərbaycan, 1948, 28 aprel, s.4.

Şəmidə Ə. Məzhəbi təbliğatdır, ya siyasi fəaliyyət! //Azərbaycan, 1949, 22 yanvar, s.4.

Şəmidə Ə.İ. İranda fəhlə və həmkarlar hərəkatı: 1941-1946. Bakı: AzSSR EA nəşr., 1961, 180 s.

Şəmidə. Taziyanə // Azərbaycan, 1948, 4 dekabr, s.1.

Şəms İ. Ömrə yazılan günlərin ən önəmlisi 21 Azər günü, 10 s.

// https://achiq.info/m.hukumet/21%20azer%20L.pdf

Şəms İ. Tərcümeyi-halım. Azərbaycan Cəmiyyəti və "Azərbaycan" qəzeti, 15 s. // https://achiq.info/m.hukumet/ shems%20dL.pdf

Şəmsi M. İranın ictimai və siyasi xadimləri Böyük Oktyabr sosialist inqilabının əhəmiyyəti haqqında // Böyük Oktyabr və xarici Şərq. Bakı: Elm, 1987, 208 s., s.71-78.

Şərifova S. S.C.Pişəvərinin "Nadirə" romanının janr xüsusiyyəti, problematikası, obrazları və bədii dili // TÜRKDED-7, Rize, 2023, s.53-67.

Şəymən. Azadlıq aşiqi // Şərq, 2023, 6 aprel, s.5.

Tacsız sultan-M.Ə.Rəsulzadə (IV hissə) // https://www.google.com/amp/s/www.azadliq.org/amp/25407298.html

Tağı Ərani. Sülh və demokrasi uğrunda mübarizə bütün dünya

cavanlarının müştərək hədəfidir // Azərbaycan, 1948, 24 noyabr, s.1.

Tağıyeva Ş. 21 Azər hərəkatı ilə bağlı bəzi mülahizələr // https:// www.achiq.info/m.hukumet/SH%20Taghiyeva%2021%20 Azer.htm

Tağıyeva Ş. Güney Azərbaycan (məlumat kitabı) / Ş.Tağıyeva, Ə.Rəhimli (Bije), S.Bayramzadə. Bakı: Orxan, 2000, 519 s.

Tahirzadə Ə. Kəsrəviçilik: kökü, özəyi, ardıcılları, dirildilməsi-1 // Azərbaycan filologiyası məsələləri. II buraxılış. Bakı: Elm, 1984, 264 s.

Taxıl vəziyyəti getdikcə pisləşir // Azərbaycan, 1948, 28 iyul, s.1.

Talıblı S. Arazın hər iki tayında müsəlmanların soyqırımı //

Xalq Cəbhəsi, 2013, 27 dekabr, s.14.

Talıblı S. Xiyabani – azadlıq aşiqi, milli mübariz // Xalq qəzeti, 2023, 12 fevral, s.6.

Tarixçi alim ədəbi tənqidlərə cavab verdi // https://arqument.az/az/tarixci-alim-edebi-tenqidciye-cavab-yazdi/

Tarixin unudulmaz səhifələri. Azərbaycan Kommunist Bolşeviklər Firqəsinin katibi M.C.Bağırov yoldaşın 19 sentyabr 1948-də “Pravda”da çıxan məqaləsi // Azərbaycan, 1948, 22 sentyabr, s.1, 3.

Tehran Daneşgahından məktub // Azərbaycan, 1949, 22 yanvar, s.3.

Tehran radiosu milliyyət məsələsini “həll etdi!” // Azərbaycan, 1946, 6 fevral, s.1, 4.

Təbatəbai H. “Molla Nəsrəddin” cərəyanı // Azərbaycan, 1946, 22 yanvar, s.4.

Tərbiyət M. Danişməndani-Azərbaycan. Bakı: Azərnəşr, 1967, 464 s.

Tərhim və təziyə məclisi // Azərbaycan, 1946, 25 noyabr, s.1.

Tudə Ə. Sənin nəğmən // Azərbaycan, 1948, 27 noyabr, s.4.

Tudə Ə. Aprel nəğməsi // Azərbaycan, 1948, 28 aprel, s.3.

Tudə Ə. Durnalar // Azərbaycan, 1948, 10 yanvar, s.3.

Tudə Ə. Səadət uğrunda // Azərbaycan, 1949, 22 yanvar, s.3.

Turan A. Təbrizin qarğınmış şairi // https://edebiyyatqazeti.az/news/

diger/3236-tebrizin-qarginmis-sairi-biriya?f- bclid=IwAR3xYTCBZo2pia6pCQ58aQsyj2-phjd06SmCPSEjXxwar_CFYb_6I2BpAt4

Ümumi əfvin mənası nə demək idi? // Azərbaycan, 1948, 16 oktyabr, s.1.

Vəkilov C. Azərbaycan Respublikası və İran: 40-cı illər (mədəni əlaqələr). Bakı: Elm, 1991, 135 s.

Vilayəti M. Azərbaycan Demokrat Firqəsi Məramnaməsinin təhlili // Azərbaycan, 1948, 24 yanvar, s.4.

Vilayəti M. Şahpərəstlik heç bir fəlsəfə və riyazi formul üzərində qurulmamışdır

// Azərbaycan, 1948, 17 mart, s.1, 4.

Vilayi M. Azadlıq uğrunda şəhid olmuş qəhrəmanımızın xatirəsi əbədi yaşayacaqdır! // Azərbaycan, 1947, 13 dekabr, s.1.

Vilayi M. Azərbaycan Demokrat Firqəsi məramnaməsinin təhlili // Azərbaycan, 1948, 17 yanvar, s.1.

Vilayi M. Azərbaycan Demokrat Firqəsi Məramnaməsinin təhlili // Azərbaycan, 1948, 21 yanvar, s.1, 4.

Vilayi M. Azərbaycanda mürtəcelərin azğınlığı // Azərbaycan, 1949, 8 yanvar, s.4.

Vilayi M. Böyük bəstəkar və dramnəvis // Azərbaycan, 1948, 27 noyabr, s.4.

Vilayi M. Cənubi Azərbaycanda milli azadlıq uğrunda demokratik mətbuatın mübarizəsi(1945-1946-cı illər), 57 s. // https://achiq.info/m.hukumet/vilai%20butun%20dL.pdf

Vilayi M. Dadaş Təqizadə // Azərbaycan, 1948, 26 may, s.4.

Vilayi M. Dekabrın 5-i Sovet Sosialist Cümhuriyyətləri İttifaqı qanuni-əsasisi günü, ümumxalq bayramıdır! // Azərbaycan, 1948, 4 dekabr, s.1, 3.

Vilayi M. Fədailərimiz mübarizə cəbhəsində // Azərbaycan, 1949, 2 fevral, s.3.

Vilayi M. İran xalqları arasında ziddiyyət salan fitnəkarlar // Azərbaycan,

1948, 10 yanvar, s.1, 4.

Vilayi M. Məzdək üsyanı // Azərbaycan, 1948, 30 iyun, s.3.

Vilayi M. Milli Hökumətin siyasi, iqtisadi və mədəni reformlarının yerinə yetirilməsində demokratik mətbuatın mübarizəsi // https://achiq.info/m. hukumet/vilayi%20dL.pdf

Vilayi M. Muxtar Dağlıq Qarabağ Vilayəti // Azərbaycan, 1948, 4 avqust, s.1, 4.

Vilayi M. N.Q.Çernışevski vəfatının 120 illiyi münasibətilə // Azərbaycan, 1948, 28 iyul, s.1, 3.

Vilayi M. Osmanlı əfəndiləri yerlərində otursunlar // Azərbaycan, 1948, 20 oktyabr, s.1, 3.

Vilayi M. Süni ehsasat // Azərbaycan, 1948, 29 dekabr, s.1.

Vilayi M. Şah İsmayıl Xətai. Dövlət quruluşu və dil // Azərbaycan, 1948, 9 iyun, s.3.

Vilayi M. Şəhid yoldaşımız doktor Nüsrət Baqiri // Azərbaycan, 1949, 1 yanvar, s.3.

Vilayi M. Tehranda // Azərbaycan, 1949, 15 yanvar, s.3.

Yenə də ucuzluq məsələsi haqqında // Azərbaycan, 1946, 14 mart, s.1.

Yeni il qarşısında // Azərbaycan, 1948, 20 mart, s.1, 3.

Yusifi. Şahın əvamfiribliyi // Azərbaycan, 1948, 19 iyun, s.1, 4.

Zakir İ. 28 aprel münasibətilə // Azərbaycan, 1948, 28 aprel, s.3.

Zakir İ. Azərbaycanlıların dili bağlanmaz // Azərbaycan, 1948, 22 dekabr, s.3.

Zakir İ. Çin fədailərinə Azərbaycan fədailərinin salamı // Azərbaycan, 1949, 5 yanvar, s.4.

Zakir İ. Ey ana vətənim! // Azərbaycan, 1948, 28 yanvar, s.3.

Zakir İ. Ey igid fədai şanlı qızılbaş! // Azərbaycan, 1949, 19 fevral, s.3.

Zakir İ. Mən kiməm? // Azərbaycan, 1948, 29 may, s.3.

Zakir İ. Mənim andım // Azərbaycan, 1947, 13 dekabr, s.4.

Zakir İ. Şahlara ölüm! // Azərbaycan, 1948, 3 sentyabr, s.3.

Zakir İ. Şanlı xalqımız // Azərbaycan, 1948, 7 avqust, s.4.

Zakir İ. Təbriz // Azərbaycan, 1948, 25 sentyabr, s.3.

Zakiri İ. Yenə Said soxulub meydanə // Azərbaycan, 1948, 17 noyabr, s.3.

Zehtabi M. İyirmi bir Azər nehzətinin yaranması, 11 s. // https://achiq.info/m.hukumet/21azerzehtabiL.pdf

Yəhyai M. Azərbaycanın Demokrat Firqəsi (Bitməmiş Azadlıq Layihəsi), onuncu hissə // http://aze.adfmk.com/entries/m%C9%99qal%C9%99l%C9%99r/blog-post-34

Yəhyai M. Azərbaycanın Demokrat Firqəsi (Bitməmiş Azadlıq Layihəsi), on üçüncü hissə // http://aze.adfmk.com/entries/m%C9%99qal%C9%99l%C9%99r/blogpost-53

Abdollahifard P. Feminizmin Gelişimi // İran Çalışmaları Dergisi. Sakarya, 2021,№ 4 (2), ss.351-384, s.370.

Abrahamian E. Modern İran tarihi. Tərc. D.Şendil. İstanbul: Türkiye İş Bankası Kültür yay., 2011, 285 s.

Aegleton W. Mehabad Kürt Cumhuriyeti - 1946. Tərc. M.E.Bozarslan. Köln: Komkar yay., 1989, 321 s.

Aghdam A.A. Göç ve yol: modern çağın Oğuz göçebeleri Kaşkaylar, s.39-47 // CİERO VI sempozyumu, 14 - 17 aprel 2011, Uşak, s.44.

Atuk V. Osmanlı Devleti ve İranda Ulemanın Meşrutiyet Algısı // Ankara Üniversitesi Siyasal Bilgiler Fakultesi (SBF) Dergisi. Ankara, 2020, № 2 (75), s.437- 461.

Azer S. İran Türkleri. İstanbul: Cumhuriyet matbaası, 1942, 45 s.

Attar A., Şimşir S. Türkiye`de yaşayan Azerbaycan Türkleri. Ankara: Berikan yay., 2013, 265 s.

Ballıkaya A. Muhammed Musaddık döneminde İran`da petrolün millileştirilmesi ve 1953 darbesi. İstanbul: İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2019, 156 s.

Barijough S.M. İran`da siyasi ve ekonomik çıkar çatışmaları

(1921-1950). Bitlis: Bitlis Universiteti, 2015, 119 s.

Bolat G. Anglo-Persian Oil Company'den British Petroleum'a (BP): İngiltere'nin İran'daki Petrol Macerası // History Studies. Çankırı, 2013, № 5/2, s.57-77.

Has K. Mezdekiyye // TDV İslam Ansiklopedisi, 29-cu cild. Ankara: TDV yayınları, 2004, s.523-524.

Kafkasiyalı A. İran türk edebiyatı antolojisi. 5 cilddə. Erzurum: Atatürk Üniversitesi yayınları, 2002, 573 s.

Kaya M. Muhammed Musaddık`ın İran petrollerini millileştirme çabaları ve sonu // Türk Dünyası Araştırmaları. Bingöl, 2017, № 117/231, s.157-166.

Kurtuluş R. Muhammed Rıza şah // TDV İslam Ansiklopedisi, 30-cu cild. İstanbul: TDV yay., 2020, s.562-563.

Kurtuluş R. Rıza şah Pehlevi // TDV İslam Ansiklopedisi, 35-ci cild. İstanbul, 2008, s.67.

Kurtuluş R. Seyyid Hasan Takizade // TDV İslam Ansiklopedisi, 39-cu cild. İstanbul: TDV yay., 2010, s.459.

Qazi Muhammed'in kızı: Dr. Abdurrahman Kasımlo

6 ay evimizde saklandı // https://www.indyturk.com/ node/93156/ ya%C5%9Fam/qazi-muhammed%E2%80%99-k%C4%B1z%C4%B1-dr-abdurrahman-kas%C4%B1mlo-6- ay-evimizde- sakland%C4%B1

Mehabad Kürt Cumhuriyeti Archi Roosevelt Jr. ve William Aegleton Jr. tarafindan nasıl anlatılıyor? // Sterka (Astare) Bolşevik, 1999, №.8, s.26-44//http://ontwikkel2.mvanlaar.net/Portals/0/adam/Blog%20 App/8AIRSHyeDUe029Em5fy9EA/File/St%C3%AArka%20 Bolsewik_08.pdf

Memmedli M. İran kürtleri (23.12.1946 tarihli Sovyet raporuna göre) // İnsan ve Toplum Bilimleri Araştırmaları Dergisi. İstanbul, 2020, № 9 (2), s.1127-1148.

Mertoğlu M.S. Muhammed Hüseyin Tabatabai // TDV İslam Ansiklopedisi, 39-cu cild. İstanbul: TDV yay., 2010, s.306- 308.

Nersesoğlu H. İran'daki Devrimin İran Ermenileri Üzerindeki Sarsıcı Etkisi // Yakın Dönem Türkiye Araştırmaları. İstanbul, 2021, № 40, s.319-323.

Peker S.S. Türk basınında Azerbaycan (1930-1950). Niğde: Niğde Ömer Halisdemir Üniversitesi, 2020, 96 s.

Pira S., Özgüdenli O.G. Muhammed Musaddık // TDV İslam Ansiklopedisi, 31-ci cild. Ankara: TDV yay., 2020, s.228-229.
Rodriguez M. İran`da İslam Devriminden önce kadınlar için hayat nasıldı? // https://www.bbc.com/turkce/articles/c72z-g82q021o#:~:text=%C4%B0ran'da%201979% 20%C4%B0slam%20 Devrimi,Kad%C4%B1nlar%20istedikleri%20 gibi%20giyiniyordu

%E2%80%9D%20diyor. (28 eylül 2022)

Yazıcı T. Cengeli // TDV İslam Ansiklopedisi, 33-cü cild. İstanbul: TDV yay., 1993, s.366-367.

Şimşir S. Azerbaycan`ın istiklal mücadelesi. İstanbul: IQ Kültür sanat yay., 2013,281 s.

Abrahamian E. Iran between two revolutions. New Jersey: Princeton University Press, 1983, 561 p.

Ali Razmara // https://www.britannica.com/biography/ Ali-Razmara

Azarabadegan Medal //https://www.medalbook.com/ middle-east/iran/ medalsdecorations/azarabadegan-medal/ azarabadegan-medal-1

Beregian S. Azeri and Persian literary works in twentieth century Iranian Azerbaijan. Berlin: Schwarz, 1988, 238 p.

Cottam R.W. Nationalism in Iran. Pittsburgh: University of Pittsburgh Press, 1979, 358 p.

Dabashi H. Lady Macbeth or just Princess Ashraf Pahlavi? // https://www.aljazeera.com/opinions/2016/1/10/lady-macbet-h-or-just-princess-ashraf-pahlavi Democratic Organization of Iranian Women // https://www.tdzi.org/fa/%D8%AF%D8%-B1%D8%A8%D8%A7%D8%B1%D9%87-%D9%85%D8%A7/

Farhadov A. Review of the Iranian Azerbaijan in the Soviet press // Reconstructing the Past: Journal of Historical Studies. Baku, 2024, № 1, pp. 66-80.

Hasan Arfa // https://iranicaonline.org/articles/arfa-hasan-iranian-general-born-in- tiflis-in-1895

Iran: a country study/edited by Glenn E. Curtis and Eric Hooglund. Washington: United States - Government Printing Office: 2008, 354 p.

Kazemi F. Anglo – Persian oil company // https: //www.iranicaonline.org/articles/anglo-persian-oil-company

Memorandum by the State–War–Navy Coordinating Committee to Major General John H. Hilldring // https://history. state.gov/historicaldocuments/frus1946v07/d400

Message from Bagirov on April 7 meeting with Pishevari. April 12, 1946 // https://digitalarchive.wilsoncenter.org/document/message-bagirov-april-7-meeting- pishevari

Rahbar. Hezb-e Tude-ye Iran // https://eregime.org/index.php?s=241892331b754ed3a2818a407ee0988a&showtopic=20 128&st=0&&fbclid=IwAR3VFaPF0tad-iGGu4RrY-dpyHwa7nM7FrhvD- 8kXOcMdQ7ZHdRlgv3nFY2Q

Sayyid Zia od-Din Tabataba`i // https://www.britannica.com/ biography/Sayyid-Zia-od-Din-Tabatabai

Shaw A.N. ‘Strong, United and Independent’: the British Foreign Office, Anglo– Iranian Oil Company and the internationalization of Iranian politics at the dawn of the Cold War, 1945–46 // https://www.tandfonline.com/doi/full/10.1080/00263206.2015.1124417

The Ambassador in Iran (Allen) to the Secretary of State // https://history.state.gov/historicaldocuments/frus1946v07/d410

The Ambassador in the Soviet Union (Smith) to the Secretary of State // https://history.state.gov/historicaldocuments/ frus1946v07/d430

The Head of the Delegation of the Soviet Union at the United Nations (Vyshinsky) to the President of the Security Council (Makin) // https://

history.state.gov/historicaldocuments/ frus1946v07/d224

Байрамзаде С.З. Южный Азербайджан: от «21 Азер»а до «белой революции» в Иране (Экономическое и социально- политическое положение). Баку: Тарагги, 2016, 334 с.

Выступления тов. А.Я.Вышинского в Совете безопосности// Известия, 1946, 30 января, с.5.

Владимиров С. «Крупный шаг по пути прогрессивного развития Ирана» // Правда, 1946, 1 июля, с.3.

Гасанлы Дж. Иранский Азербайджан – эпицентр

«холодной войны» // https://ca-c.org.ru/c-g-online/2008/ journal_rus/ c-g-1/01.shtml

Гасанлы Дж.П. Советская политика по расширению южных границ: Сталин и азербайджанская карта в борьбе за нефть (1939-1945). [пер. с азерб. И. Н. Рзаева]. Москва: Политическая энциклопедия, 2017, 447 с.

Гасанлы Дж.П. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны (1941 – 1946 гг.). Москва: Герои Отечества, 2006, 560 с.

Заявление Кавама-эс-Салтане // Правда, 1946, 7 апреля, с.3. Иванов М.С. История Ирана. Москва: Издательство Московского Университета, 1977, 488 с.

Иранская принцесса в СССР в 1946 году // https://gorbuto- vich. livejournal.com/119180.html

К отставке шаха // «Красная звезда», 1941, 18 сентября, с.4.

К советско – иранскому соглашению // Правда, 1946, 7 апреля, с.3.

Кавам-эс-салтане о создании Демократической Партии Ирана // Правда, 1946, 6 июля, с.4.

Ленин В.И. О национальной гордости великоруссов // https:// leninism.su/works/65-tom-26/2098-o-naczionalnoj-gordosti-velikorossov.html

Милов П. Иран. Москва: Государственное издательство географической литературы, 1953, 88 с.

Мохсен Садр // https://ru.ruwiki.ru/wiki/%D0%A1%D0%-B0%D0%B4%D1%80,_%D0%9C%D0%BE

%D1%85%D1%81%D0%B5%D0%BD

Новбари Р. Лакеи доллара: Ахмед Кавам // Литературная газета, 1947, 3 декабря, с.2.

Папава В. Иранские армяне в период династии Пехлеви. Часть II. Правление Мохаммеда Реза Пехлеви (1941–1979)

// «Караван». Москва, 2019, № 73, с.1-17.

Приём И.В.Сталиным иранской принцессы Ашраф Пехлеви // Правда, 1946, 21 июля, с.1.

Расправа над демократами в Иране // Правда, 1946, 15 декабря, с.4.

Репрессии против азербайджанцев в Иране // Правда, 1946, 12 декабря, с.3.

Шамида А.И. Ленин и Иран. Баку: Элм, 1970, 80 с.

Шамси М. Развитие просвещения в Иране (1851-1917). Автореферат диссертация на соискание ученой степени доктора исторических наук. Баку, 1981, 45 с.

اتابک فتح الله زاده. ۷۵ سال پس از فرقه دموکرات آذربایجان؛ از فراز تا فرار

http://tarikhirani.ir/fa/news/8578/%DB%B7%DB%B5-%D8%B3%D8%A7%D9%84-%D9%BE%D8%B3-%D8%A7%D8%B2-%D9%81%D8%B1%D9%82%D9%87%D8%AF%D9%85%D9%88%DA%A9%D8%B1%D8%A7%D8%AA%D8%A2%D8%B0%D8%B1%D8%A8%D8%A7%DB%8C%D8%AC%D8%A7%D9%86-%D8%A7%D8%B2-%D9%81%D8%B1%D8%A7%D8%B2-%D8%AA%D8%A7-%D9%81%D8%B1%D8%A7%D8%B1

اسناد و تصاویر.

https://web.archive.org/web/20100327163312/http://museum.tbzmed.ac.ir/asnad.aspx

تشکیلات دموکراتیک زنان ایران .

https://www.tdzi.org/fa/%D8%AF%D8%B1%D8%A8%D8%A7%D8%B1%D9%87-%D9%85%D8%A7/

ثمینا رستگاری. گفت و گوی تاریخ ایرانی با اتابک فتح الله زاده: شوروی استالینی بهشت زحمتکشان نبود

http://tarikhirani.ir/fa/news/7620/%DA%AF%D9%81%D8%AA-%D9%88%DA%AF%D9%88%DB%8C-%D8%AA%D8%A7%D8%B1%DB%8C%D8%AE-%D8%A7%DB%8C%D8%B1%D8%A7%D9%86%DB%8C-%D8%A8%D8%A7-%D8%A7%D8%AA%D8%A7%D8%A8%DA%A9-%D9%81%D8%AA%D8%AD-%D8%A7%D9%84%D9%84%D9%87-%D8%B2%D8%A7%D8%AF%D9%87-%D8%B4%D9%88%D8%B1%D9%88%DB%8C-%D8%A7%D8%B3%D8%AA%D8%A7%D9%84%DB%8C%D9%86%DB%8C-%D8%A8%D9%87%D8%B4%D8%AA-%D8%B2%D8%AD%D9%85%D8%AA%DA%A9%D8%B4%D8%A7%D9%86-%D9%86%D8%A8%D9%88%D8%AF-

جعفر پیشه وری. تاریخچه حزب عدالت: به نقل از روزنامه ی آژیر. تهران: علم،۱۳۵۹، ۵۸ ص

حامد حسینی. بررسی کتاب «ما و بیگانگان» دکتر نصرت الله جهانشاه لو

https://psri.ir/?id=ir81vpks

خوانش و تحلیلی از ماجرای جعفر پیشه وری .

https://dakke.co/news_details/070ENS_387399

رهبر، ۱۳۲٤، ۲۷ آذر، ص. ۱

سالار سیف الدینی. بازخوانی روایت روزنامه های وقت ایران از ورود ارتش به تبریز و فرار فرقه دموکرات

https://a.g/11351/%D8%A8%D8%A7%D8%B2%D8%AE%D9%88%D8%A7%D9%86%DB%8C-%D8%B1%D9%88%D8%A7%DB%8C%D8%AA-%D8%B1%D9%88%D8%B2%D9%86%D8%A7%D9%85%D9%87-%D9%87%D8%A7%DB%8C-%D9%88%D9%82%D8%AA-%D8%A7%DB%8C%D8%B1%D8%A7%D9%86-%D8%A7/
1- دکتر نصرت‌الله - جهانشاه لوی افشار. سرگذشت ما و بیگانگان
https://iran-archive.com/sites/default/files/2021-08/nosratollah-jahanshahlu-ma-va- biganegan-sargozasht-01.pdf
2- دکتر نصرت‌الله - جهانشاه لوی افشار . سرگذشت ما و بیگانگان
https://iran-archive.com/sites/default/files/2021-08/nosratollah-jahanshahlu-ma-va-biganegan-sargozasht-02.pdf
سید سیف قاضی و پدر وی.
https://historydocuments.org/sanad/?page=show_document&id=fda57oalri80
کاوه بیات. استالین و فرمان تشکیل فرقه دموکرات آذربایجان
https://k.r/%D8%A7%D8%B3%D8%AA%D8%A7%D9%84%DB%8C%D9%86-%D9%88-%D9%81%D8%B1%D9%85%D8%A7%D9%86-%D8%AA%D8%B4%DA%A9%DB%8C%D9%84-%D9%81%D8%B1%D9%82%D9%87-%D8%AF%D9%85%D9%88%DA%A9%D8%B1%D8%A7%D8%AA-%D8%A2%D8%B0%D8%B1/
متمم قانون اساسي مشروطه
https://irandataportal.syr.edu/wp-content/uploads/7-october-1907-persian.pdf
مجید یوسفی. مرگ تنها بازماندهٔ سران فرقه دموکرات/ جهانشاه لو افشار و جهنمی که دید.
http://tarikhirani.ir/fa/news/2654/%D9%85%D8%B1%DA%AF-%D8%AA%D9%86%D9%87%D8%A7%D8%A8%D8%A7%D8%B2%D9%85%D8%A7%D9%86%D8%AF%

DB%80-%D8%B3%D8%B1%D8%A7%D9%86-%D9%81
%D8%B1%D9%82%D9%87%D8%AF%D9%85%D9%88
%DA%A9%D8%B1%D8%A7%D8%AA-%D8%AC%DA
7%D9%86%D8%B4%D8%A7%D9%87%D9%84%D9%8
8-%D8%A7%D9%81%D8%B4%D8%A7%D8%B1-%D9%88-
%D8%AC%D9%87%D9%86%D9%85%DB%8C-
%DA%A9%D9%87%D8%AF%DB%8C%D8%AF

ملک الشعرا بهار. مثنویات .

ttps:// ganjoor.net/bahar/masnavibk/sh19

ملک الشعرا بهار. هدیه باکو .

https://ganjoor.net/bahar/ghasidebk/sh122

## PRESS, CULTURE AND SOCIO-POLITICAL, ECONOMIC ISSUES IN "AZERBAIJAN" NEWSPAPER (1947-1949)

**ALİ FARHADOV**


### SUMMARY

The monograph consists of "Introduction", 4 chapters and 13 paragraphs, "Conclusion" and "Resources and bibliography". In the "Introduction" information was given about the historiography of the subject, it was stated that the "21 Azer" movement was not objectively studied until the Republic of Azerbaijan regained its independence in 1991. In particular, it was shown that the "Azerbaijan" newspaper of the Azerbaijan Democratic Party (ADP) led by S. J. Pishevari was published in Tabriz in 1945-1946, and in Baku after the defeat of the ADP. In the "Azerbaijan" newspaper, the study of the theme of the democratic, national movement in South Azerbaijan during the period of the Qajar and Pahlavi kings occupies one of the main places. The newspaper criticizes the oppression, discrimination and chauvinism policy of the Pahlavi government against the people of Iran, especially the population of South Azerbaijan. The newspaper also presented examples of the works of southern poets and writers on the subject of Azerbaijani literature and culture from the ancient and middle ages to the 1940s. Along with "Azerbaijan" newspaper, works of ADP leaders, Soviet press of the time, other sources, various literature were used in the newspaper.

Chapter I entitled "Democratic movement and the road to Azerbaijan" newspaper consists of 3 paragraphs. In this chapter, the topics of "From the history of the struggle for democracy in Southern Azerbaijan", attitude to national and ideological issues in "Azerbaijan" newspaper (1945-1946), "Democratic power in

Southern Azerbaijan (1945-1946)" are examined. The popular movement in South Azerbaijan during the last period of the Qajars and the first period of the Pahlavis, the constitution revolution, the struggle of Sattarkhan and M. Khiyabani against the shah regime were analyzed, the 1945-1946 issues of the "Azerbaijan" newspaper, the role of S.J. Pishevari in the national movement, and articles were discussed.

Chapter II entitled "Issues of press and publicism in "Azerbaijan" newspaper" consists of 3 paragraphs. In this chapter, the topic was investigated under the paragraphs "Ideological issues in the national press and publicism", journalistic issues and publicists in "Azerbaijan" newspaper, attitude towards the Iranian press in "Azerbaijan" newspaper. There is information about South Azerbaijan of the time, including the Iranian press, newspapers, authors and writings, and the attitude towards South Azerbaijan and the Pahlavis in these writings.

Chapter III entitled "Reflection of Azerbaijani history and culture" in "Azerbaijan" newspaper consists of 3 paragraphs. In this chapter, the subject was investigated in the paragraphs "Azerbaijan in the Ancient and Middle Ages", "Azerbaijan in the XIX-early XX centuries", "Azerbaijan in the Pahlavi Period". Using the materials of "Azerbaijan" newspaper and various sources and literature, the topics of literature, art, education and culture of the ancient and middle ages, the beginning of the 19th-20th centuries and the period of the Pahlavis were investigated in South Azerbaijan.

Chapter IV entitled "Relation to political, social and economic problems" in "Azerbaijan" newspaper consists of 4 paragraphs. In this chapter, the topic was investigated in the paragraphs "Relation to the representatives of the Pahlavi authorities", "Religious-political issues during the Pahlavi period", "National government's youth and military patriotism policy" and "Social,

economic problems and the issue of health care". Based on the materials of "Azerbaijan" newspaper, criticism of Pahlavi rule, religious and political issues, women's rights issue, youth and military patriotism, army building, social, economic and health problems were studied and presented.

In the "Conclusion" part, the topic was concluded, the importance of the place of the "Azerbaijan" newspaper and its writers in the national and democratic movement in the south, the importance of its role in the weakening of the Pahlavi dictatorship, and the benefits of studying our national history and culture were emphasized. The role of the research and promotion of "Azerbaijan" newspaper in increasing the national consciousness of the people, democratic determination and patriotism was noted.

# ПРЕССА, КУЛЬТУРА И СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ И ЭКОНОМИЧЕСКИЕ ВОПРОСЫ В ГАЗЕТЕ «АЗЕРБАЙДЖАН» (1947-1949 гг.)

АЛИ ФАРХАДОВ

## РЕЗЮМЕ

Монография состоит из «Введения», 4 глав и 13 параграфов, «Заключения» и «Ресурсы и библиография». Во «Введении» были даны сведения об историографии темы, указано, что движение «21 Азер» объективно не изучалось до восстановления независимости Азербайджанской Республики в 1991 году. В частности, было показано, что газета «Азербайджан» Демократической партии Азербайджана (АДП) под руководством С.Дж. Пишевари издавалась в Тебризе в 1945-1946 годах, а после разгрома АДП - в Баку. В газете «Азербайджан» изучение темы демократического, национального движения в Южном Азербайджане в период правления царей Каджара и Пехлеви занимает одно из главных мест. Газета критикует политику угнетения, дискриминации и шовинизма правительства Пехлеви в отношении народа Ирана, особенно населения Южного Азербайджана. Газета также представила примеры произведений южных поэтов и писателей на тему азербайджанской литературы и культуры с древних и средних веков до 1940-х годов. Наряду с газетой «Азербайджан» в газете использовались произведения руководителей АДП, советская пресса того времени, другие источники, различная литература.

Первая глава газеты «Демократическое движение и путь в Азербайджан» состоит из трех параграфов. В этой главе рассмотрены темы «Из истории борьбы за демократию в Южном Азербайджане», отношение к национально-идеологическим вопросам в газете «Азербайджан»

(1945-1946 гг.), «Демократическая власть в Южном Азербайджане (1945-1946 гг.)». Проанализировано народное движение в Южном Азербайджане в последний период Каджаров и первый период Пехлеви, конституционная революция, борьба Саттархана и М. Хиябани против шахского режима, выпуски газеты «Азербайджан» 1945-1946 годов. В газете обсуждалась роль С.Дж. Пишевари в национальном движении и его статьи.

Глава II, озаглавленная «Вопросы печати и публицистики в газете «Азербайджан», состоит из трех параграфов. В этой главе тема исследована по разделам «Идеологические проблемы национальной прессы и публицистики», журналистские вопросы и публицисты в газете «Азербайджан», отношение к иранской прессе в газете «Азербайджан». В этих произведениях есть информация о Южном Азербайджане того времени, включая иранскую прессу, газеты, авторов и сочинения, а также об отношении к Южному Азербайджану и Пехлеви.

Глава III газеты «Азербайджан» под названием «Отражение азербайджанской истории и культуры» состоит из трех параграфов. В этой главе тема исследована в разделах «Азербайджан в древнем и средневековье», «Азербайджан в XIX-начале XX веков», «Азербайджан в период Пехлеви». На основе материалов газеты «Азербайджан», а также различных источников и литературы в Южном Азербайджане исследованы темы литературы, искусства, образования и культуры древнего и средневековья, начала XIX-XX веков и периода Пехлеви.

Глава IV газеты «Азербайджан» под названием «Отношение к политическим, социальным и экономическим проблемам» состоит из 4 параграфов. В этой главе тема исследована в параграфах «Отношение к представителям

власти Пехлеви», «Религиозно-политические вопросы в период Пехлеви», «Молодежная и военно-патриотическая политика национального правительства» и «Социальные, экономические проблемы и вопрос здравоохранения». На основе материалов газеты «Азербайджан» изучены и представлены критика правления Пехлеви, религиозные и политические вопросы, проблема прав женщин, молодежный и военный патриотизм, армейское строительство, социальные, экономические проблемы и проблемы здравоохранения.

В части «Заключение» была завершена тема: значение места газеты «Азербайджан» и ее авторов в национально-демократическом движении на юге, значение ее роли в ослаблении диктатуры Пехлеви, а также подчеркивалась польза изучения нашей национальной истории и культуры. Была отмечена роль исследования и пропаганды газеты «Азербайджан» в повышении национального самосознания народа, демократической решимости и патриотизма.

**Dizayner***:*

*Aynurə İsmayılova*